ÇİNGİZ AYTMATOV

Ш6(2)
A98

2352227

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab "Çingiz Aytmatov. Gün var əsrə bərabər" (Bakı, Yazıçı, 1987) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Ön sözün müəllifi: **Bəxtiyar Vahabzadə**

**894.347 - dc 21**
**AZE**

**Aytmatov Çingiz. Seçilmiş əsərləri**. İki cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2004, 504 səh.

Zəmanəmizin görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun yaradıcılığı dərin milli xüsusiyyətlərə malik olduğu kimi həm də ümumbəşəri mahiyyət və məzmun ifadə edir. Onun dünya ədəbiyyatında böyük hadisə sayılan əsərləri realizmin tükənməz bədii və idraki gücünü nümayiş etdirir. Ç.Aytmatov üçün ədəbiyyatda bir "böyük mövzu" – insan mövzusu var.

*Seçilmiş əsərlərinin bu cildinə* böyük yazıçının "Gün *var əsrə bərabər*" romanı ilə yanaşı "Dəniz kənarıyla qaçan Alabaş" və "Ağ gəmi" povestləri daxil edilmişdir.

"Gün var əsrə bərabər" romanının baş qəhrəmanı Boranlı Yedigey öz yüksək mənəvi borcuna sadiq vicdanlı bir insandır. Müəllif qəhrəmanın taleyini dövrün bir çox problemləri və bütün bəşəriyyətin sabahkı günü ilə müqayisə edib, dünyada əmin-amanlığın, xeyirxahlığın və humanizmin təntənəsini ən böyük qələbə kimi səciyyələndirir.

Əsərdə zəngin həyat birce gün ərzində baş vermiş hadisənin işığında göstərilir. Ədəbiyyatın geniş, planetar miqyasda düşünməli olduğunu nəsrinin əsas yaradıcılıq prinsipinə çevirən Ç.Aytmatovun bu romanda təsvir etdiyi *manqurt mövzusu tarixi* yaddaşa *münasibətlə əlaqəlidir. Manqurt* yaddaşsızlığın obrazı və rəmzidir.

"Dəniz kənarıyla qaçan Alabaş" və "Ağ gəmi" povestlərində isə oxucu həyatın çətinliklərinə sinə gərən, ürəklərində işıq daşıyan, xeyirxahlığa çalışan insanların maraqlı taleyi ilə tanış olur.

**ISBN 9952-416-43-0**

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

Qırğızıstanın xalq yazıçısı Çingiz Aytmatov müasir dünyanın ən qüdrətli söz ustalarındandır. Onun hər yeni əsəri dünya ədəbiyyatında bir hadisə kimi səslənir. O, ən adi həyat hadisələrini belə qlobal səviyyəyə qaldırmağı, ona ən yüksək fikir zirvəsindən baxmağı bacaran sənətkardır. O, təsvir etdiyi böyük hadisələrin özünü deyil, fəlsəfəsini, mahiyyətini görür və göstərir. Onun əsərlərində bəzən ən adi məsələ Günəş damlada əks olunan kimi ümumdünya məsələsi kimi götürülür. Buna görə də o, yalnız öz ölkəsində deyil, bütün dünyada maraqla qarşılanır.

Bununla bərabər o, ilk növbədə öz ölkəsinin, öz xalqının və öz zəmanəsinin oğludur. Əksər əsərlərini rus dilində yazmasına baxmayaraq, onun bütün obrazları psixologiyası və təbiəti etibarilə təpədən dırnağa qədər qırğızdır. Çünki onun əsərlərində ümumdünya problemləri qırğız həyatından və qırğız təbiətindən keçib ümumiləşir. Buna görə də Aytmatov dünyada ən çox oxunan və sevilən yazıçılardan biridir və bəlkə də birincisidir.

***

Yazıçının Azərbaycan oxucularına təqdim olunan bu kitabına "Gün var əsrə bərabər", "Dəniz kənarıyla qaçan Alabaş" və "Ağ gəmi" adlı üç əsəri daxil edilmişdir.

Dünya ədəbiyyatında elə əsərlər var ki, onlara hansı tərəfdən yanaşsan, orada böyük bir məna, fikir və dərin hikmət görür, təhlili hardan başlayacağını bilmirsən. Belə əsərləri açmaq, izah və təhlil etmək çox çətin olur. Çünki gördüyün böyüklüyə, gözəlliyə və dərinliyə heyrət, onları soyuq mühakimə ilə təhlil və izah etməyə imkan vermir. Gözəlliyə və böyüklüyə heyrətin özü dilsiz, izahsız təhlil deyilmi? Böyük Füzulimiz demişkən:

> Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
> Surəti-halım görən surət xəyal eylər məni.

Aytmatovun əsərləri həmişə məni heyrətləndirmiş, onlarda bir insan kimi məni də narahat edib düşündürən fikirləri, duyğuları tapmışam.



"Gün var əsrə bərabər" romanı bu böyük yazıçının ən kamil, müdrik əsərlərindəndir. Bu əsərdə ən kiçik detaldan tutmuş eyhama, ən balaca bir işarədən tutmuş adi nöqtələrə qədər hər şey əvvəlcədən düşünülmüşdür. Belə ki, ilk səhifələrdə o qədər də diqqəti cəlb etməyən və bəlkə də sənə əhəmiyyətsiz görünən bir eyham, ya detal o biri səhifələrdəki zəruri bir detalla, yaxud fikir akkordu ilə tamamlanır. Yalnız onda başa düşürsən ki, ilk səhifələrdə sənə əhəmiyyətsiz görünən detalın, yaxud eyhamın nə qədər böyük əhəmiyyəti varmış.

Bu əsərdə müəllif, "bir gündə əsri" yaşayan müdrik adamların taleyini məhək daşına vurur, onları zamanın dolaylarından keçirib hamını düşündürən suallara cavab axtarır. Müəllifin özünün dediyi kimi, əsərin əsas qəhrəmanı Edigey "adi, təbii insandır, ancaq dünya belələrinin hesabına yaşayır. Qəlbən zəhmətkeş olan bu adam özü özünə suallar verir. Ancaq dünyada elələri də mövcuddur ki, onların bütün suallara hazır cavabları var".

Belələrindən qorxmaq lazımdır. Hər suala hazır cavabı olanlar düşünmək qabiliyyətindən məhrum, standart qəliblər çərçivəsində yaşayan robotlar, mahiyyətini dərk etmədiyi məlum fikirlərin carçıları, quru əmrlərin qul təbiətli icraçılarıdır. Bu əsərdə Sabitcan belə müqəvvaların ümumiləşmiş obrazıdır.

Edigey və Sabitcan qarşı-qarşıya qoyulmuş obrazlardır. Edigeyin orta savadı da yoxdur. Özü kimi danışığı da adidir, sadədir. Lakin bu adi danışıqda qırğız xalqının eposu olan "Manas"dan gəlmə bir hikmət və dərin həyat təcrübəsi var. O, hər sözündə özünü ifadə edir, öz düşündüyünü deyir. Buna görə də o, adiliyində qeyri-adi titanik bir obrazdır.

Sabitcan isə ali kurslarda oxumuş, hər şeydən xəbəri olan müasir informasiya ilə beynini doldurmuş, məlumatlı bir vəzifə adamıdır. Lakin o, məlumat yükü altında öz mənliyini itirmiş, məlum, şablon fikirlərin qulu-na çevrilmiş, hər şeydən xəbəri olsa da, özündən xəbəri olmayan fərdiyyətsiz, şəxsiyyətsiz bir bürokratdır. Edigey adiliyində qeyri-adidirsə Sabitcan özünü qeyri-adi, "mühüm adam" kimi göstərməyə çalışan adi dəftərxana siçanıdır.

Xalqın tarixini yaşadan Nayman ananın yatdığı Ana Beyit qəbiristanlığının dağıdılacağını eşidən Edigey buna dözmür, vilayət mərkəzində mühüm vəzifədə çalışan Sabitcandan xahiş edir ki, bu məsələni yuxarılara çatdırsın, tarixin məhv olmasına imkan verməsin. Sabitcan deyir:

– Belə işlərin mənə nə dəxli... Mənim ailəm, uşaqlarım və vəzifəm var. Mən küləyin əksinə gedə bilmərəm. Bircə zənglə ardımdan vurub məni atarlar çölə.

Edigey ona çox gözəl cavab verir:

– Görünür, sən ancaq ardını güdür, ardınla yaşayırsan.

Yalnız öz şəxsi mənafeyi və ailəsinin rahatlığı naminə yaşayan Sabitcan kimi savadlı tüfeylilər üçün vətənin və xalqın tarixi də, taleyi də bir kibrit çöpü qədər əhəmiyyətli deyil, onlar vətəni də, xalqı da bu vətənin tarixini də, taleyini də öz rahatlıq və səadətlərinə qurban verməyə hazırdırlar.

Yuxarıdakı *söhbətdə savadsız dəmiryol gözətçisi* Edigey öz şəxsi düşüncələri və özünəməxsus fərdiyyəti ilə göylərə qaldırılır, savadlı və mövqe sahibi Sabitcan isə öz əqidəsizliyi və şərəfsizliyi ilə yerin tərkinə endirilir. Əsər boyu Edigeyi insaniyyətin, Sabitcanı isə qeyri-insaniyyətin və qeyrətsizliyin zirvəsində görürük.

***

Qazanqapın ölümü, Edigeyin mərhum barədəki düşüncələri, Sabitcan başda olmaqla övladların mətəmə gəlişi, dəfnə hazırlıq, Abutalıbın faciəsi, Zərifənin mərdliyi, insan yaddaşının öldürülməsinə dair manqurt əfsanəsi, Ana Beyit qəbiristanlığına meyitin buraxılmaması, Edigeyin buna etirazı və duası ilə paralel BMT-nin təşəbbüsü ilə dünyada ilk dəfə yaranmış qeyri-hərbi təyyarədaşıyan gəmidən sovet və Amerika dövlətlərinin yeni enerji ehtiyatları tapmaq üçün kosmosa birgə ekspedisiyası, iki zidd ölkə kosmonavtlarının başqa planetdən Yer planetinə müraciətləri və s. İlk baxışda adama elə gəlir ki, bütün bunlar bir-biri ilə əlaqəsi olmayan mücərrəd əhvalatlardır. Lakin müəllifin təsvir etdiyi hadisələrə fəlsəfi baxışının mahiyyətinə varanda ilk baxışda bir-birinə zidd görünən yerlə kosmosun mahiyyətindəki vəhdət kimi bir-birinə zidd hadisələrin də mahiyyətindəki vəhdəti görürük.

"Lesnoy qrud" planetindən Yerə müraciət edən sovet və Amerika kosmonavtlarının gözləriylə Yerə, Yerdə baş verən hadisələrə baxa bilsək... müəllifin məqsədi və demək istədiyi mətləb bizə aydın olar. Bir-birinə zidd dünyagörüşlərinə malik olan kosmonavtlar kosmosa eyni məqsəd üçün – İks planetinin enerji ehtiyatlarından istifadə yollarını öyrənmək üçün qalxmışdır. Bu məqsəd eyniliyi onları birləşdirmiş, kosmosda isə yerin mənafeyindən daha böyük, fövqəlbəşər məqsəd – kənar Günəş sistemində mövcud olan sivilizasiyanı öyrənmək arzusu onları bir-birinə daha da yaxınlaşdırmışdır. Yerdəki xırdalıqlardan çox yüksəyə qalxmış bu fövqəlbəşər insanlar "Lesnoy qrud" planetindən yerə baxanda yerdəki çəkişmələr, müharibələr, millətlərin və tək-tək adamların bir-birilə ədavəti, kini, nifrəti onlara nə qədər gülünc və eybəcər görünür. "Lesnoy qrud" planetinə gedərkən kosmonavtların yerə yazdıqları məktubdakı bu sözlərə diqqət yetirək: "Burdan yerə baxanda bizə elə gəlir ki, yerdə yaşayan bütün insanlar bizim bacı və qardaşlarımızdır, biz onlarsız heç nəyik. Lakin biz onu da bilirik ki, əslində yerdə belə düşünmürlər".

Oxucuya bu həqiqəti əyani olaraq çatdırandan sonra müəllif bizi "Niyə belə olmalıdır?" sualı ətrafında düşünməyə çağırır. Yerin sakinləri, fantastik "Lesnoy qrud" planetində olduğu kimi, əqidə və fikir ayrılıqlarının fövqünə qala bilməzmi? Bu qlobal düşüncələr səviyyəsində yazılmış əsəri varaqladıqca oxucunun qəlbində fikir dalınca fikir, sual dalınca sual doğur. Bu suallar isə Yerlə göyün, torpaqla fəzanın qarşılaşmasından doğan fövqəlbəşər, fövqəldünya duyğuların, arzuların ifadəsidir. Maraqlı burasıdır ki, Yerdə baş verən bir hadisəni təsvir edəndən sonra yazıçı yeni fəsildə kosmosa qalxır, sanki yuxarıda təsivr etdiyi hadisəyə müharibə və ədalət nə olduğunu bilməyən "Lesnoy qrud" sakinlərinin gözü ilə baxıb bu hadisəyə onların düşüncə tərzi ilə qiymət verir və bütün bunlara təəssüflənir. Axı "Lesnoy qrud" planetində kosmonavtlar gördüklərinə inana bilmir və Yerə belə bir məlumatla müraciət edirlər: "Onların həyat tərzi bizim Yer stereotipi düşüncə tərzimizə o qədər ziddir ki, bizim ağlımız onları dərk etməyə qabil deyil." Ona görə ki: "Onlar dövlətin, silahın və müharibənin nə olduğunu bilmirlər. Dövlət zorakılığı, müharibə kimi mübarizə vasitəsi haqqında onların təsəvvürü belə yoxdur".

Bununla bərabər orda da müxtəlif millətlər və etnik qruplar yaşayır.

"Lesnoy qrud"lular Yerlə əlaqə saxlamaq arzusundadırlar. Lakin onlar "çağırılmamış qonaq" olmaq istəmirlər. Çünki onlar zorakılığın nə olduğunu bilmir. Buna görə də kosmonavtlar Yerdən icazə istəyir: "Yerdəki çək-çeviri, xalqların və dövlətlərin biri-biri ilə düşmənçiliyini bildiyimiz halda onları bütün bəşəriyyət adından planetimizə dəvət etməyə bizim haqqımız varmı? Sizə yalvarırıq, ədavəti və rəqabəti bir kənara atın, bu məsələni BMT-də həll edin..." Ona görə ki: "Biz onların təcrübəsindən öyrənib öz həyat tərzimizdə dönüş yarada bilərik".

Oxucu da istər-istəməz bu müraciət ətrafında düşünməli olur: Biz planetimizdə bu dönüşü yarada bilərikmi? Daha doğrusu, planetimizdə bunun üçün əsas varmı?

Müəllifin cavabı müsbətdir. Çünki Yerdə başqasının torpağına sahib olmaq eşqilə yaşayan juan-juanlarla, manqurta çevrilmiş Taksımbayev və Sabitcan kimi möhtəkirlərlə, başqasının xoş güzəranına dözməyən müfəttiş və Əbilovlarla yanaşı, başqasının dərdini öz dərdi kimi yaşayan, özgəsinin qəm yükünü öz çiynində daşıyan, həyatın dərin qatlarını görə bilən Qazankap, Edigey, Ukubala kimi böyük təbiətli Abutalıb və Zərifə kimi zərif insanlar da mövcuddur. Dünya yalnız belə adamların hesabına milyon illərdir yaşayır və gözəlləşir. Belə böyük ürəkli insanlar bizi insanlığa və gözəlliyə çağırır. Həm də ona görə ki, gərgin insan zəkası hər şeyə qadirdir.

***

İnsan zəkasının qüdrəti... Bu haqda nə qədər əsərlər yaranmış, gözəl sözlər deyilmişdir. Bu yaranan əsərlər, deyilən sözlər və aforizmlər də insan zəkasının qüdrətini nümayiş etdirmirmi? Yerdəki çəkişmələr, mübarizələr, müharibələr, ədavətlər birinin digəri üzərindəki üstünlüyünü sübut etmək üçün deyilmi? Güclünün gücsüz üzərindəki hakimlik arzusu torpaq uğrunda mübarizə və müharibələrə səbəb olur. Bu nöqtədə gücsüzün güclüyə etirazı, üsyanı başlanır. Güclü cismani gücünə, gücsüz isə mənəvi gücünə – yəni haqqına, ədalətinə güvənir. Güclü cismən nə qədər güclü olsa da, haqlı olmadığından cismani gücü mənəvi güc qarşısında kəsərdən düşür, gec-tez məğlubiyyətə uğrayır. Bu, zamanın və tarixin pozulmaz qanunudur. Bu qanunun hökmü ilə çox-çox imperiyaların dağılıb məhv olduğunu bildiyindən güclü ilk növbədə gücsüzün mənəvi silahını – onun düşünmə qabiliyyətini, zəkasını, beynini əlindən almağa çalışır. Yalan və uydurmalarla onun beynini yeyib, həqiqəti ondan gizlətməyə can atır.

Hələ min il bundan əvvəl böyük İran şairi Firdovsinin "Şahnamə" epopeyasındakı əfsanəyə görə qaniçən, zülmkar Zöhhakın çiynində bitən ilanlar ancaq gənclərin beynini yeyib yaşayırmış. Böyük şair hələ o zaman demək istəyirmiş ki, zülmün yaşaması üçün mütləq beyinlər yeyilməli, insanın düşünmək qabiliyyəti onun əlindən alınmalı imiş:

> Tarixdən məlumdur bu ki, hər kəsə:
> Həmişə izləmiş yalan doğrunu.
> Zülüm beyinləri yeyə bilməsə,
> Beyinlər, ağıllar yeyəcək onu.

İnsan cismən məhkum edilsə də, əgər düşünə bilirsə, o bu gün olmasa da, sabah öz haqqı uğrunda mübarizəyə qalxmalıdır. Çünki haqqını dərk edən qul artıq qul deyil, üsyançı olduğuna dair böyük həqiqəti başa düşdüyündən həmişə hakim, mənən güclü məhkumun düşüncəsinə, fikrinə hücum çəkir, onu yox etməyə çalışır.

Ağıl üzərinə hücum! İnsanı düşünməyə qoymamaq, şəxsiyyəti və fərdiyyəti öldürmək! Bax, budur dünya ağalığı uğrunda mübarizə aparan hər cür imperializmin ən kəskin silahı! Bu fikir "Gün var əsrə bərabər" romanında da, Firdovsidə olduğu kimi əfsanə şəklində öz əksini tapmışdır.

Əfsanəyə görə juan-juanlar Sarı özəyi işğal edəndən sonra ilk növbədə yerli əhalinin mənəviyyatını – tarixini, yaddaşını məhv etməyə başlayırlar. Bununla da onları yalnız bu günə bağlayır, həyatlarının bu



gündən başladığını aşılayır, köklərini qazıyıb onları kökdən, soydan məhrum edirlər. Bundan sonra Sarıözəklilər müti qula – manqurta çevrilir. Bu barədə romanın ön sözündə müəllif yazır: "İnsanlar biri-birinə qarşı dözümlü ola bilər. Amma onlar eyni cür düşünə bilməz. Bununla da onlar öz insanlıq ləyaqətini saxlayıb insan olaraq qalarlar. İnsanı öz fərdiyyətindən məhrum etmək ən qədim dövrlərdən bu günə qədər dünya ağalığı arzusu ilə yaşayan imperialist siyasətinin nəticəsidir. Yaddaşdan məhrum edilmiş, öz xalqının tarixi təcrübəsini yadırğamış insan tarixi inkişafdan kənarda qalar, yalnız bu günlə yaşaya bilər".

Gəlmə juan-juanlar onlara müqavimət göstərən gənclərin başına dəvə dərisi geydirir, dəri quruduqca başı sıxıb kiçildir, beyindəki yaddaşı öldürür, insanı düşüncəsiz bir qula – işçi qüvvəsinə çevirir. Bu müdhiş əzabdan sonra manqurt adlanan bu qul öz adını, ata-anasının adını, hansı qəbilədən, hansı soydan olduğunu unudur, bir sözlə, insanlıq ləyaqətini itirir, ağası üçün təhlükəsiz bir nökər olur. Manqurt əl tulası kimi ancaq sahibinin əmrlərini yerinə yetirir.

Övladının manqurta çevrildiyini eşidən Nayman Ana onu tapır, nə qədər çalışırsa özünü doğmaca balasına tanıda bilmir:

– Sən məni tanıyırsan?

Manqurt "yox" deyə başını bulayır.

– Sənin adın nədir?

– Manqurt.

– Səni indi belə çağırırlar. Bəs əvvəlki adını xatırlamırsan? Öz adını yadına sal... Bəs atanın adı nədir? Sən özün kimsən? Hansı qəbilədənsən? Çalış, yadına sal.

Manqurt heç bir şeyi xatırlaya bilmir. Bu zaman ana əllərini göyə qaldırıb fəryad çəkir:

– İnsanı doğma torpağından ayırmaq, var-dövlətini əlindən almaq olar. Canını da əlindən almaq olar. İnsanın yaddaşını əlindən almaq cəzasını kim düşünmüş? Ey ulu Tanrı, əgər sən varsansa, insana bu zülmü necə rəva bildin?

Nəhayət, juan-juanların göstərişi ilə manqurt – Jolaman öz anasını oxla vurub öldürür.

Bəli, tarix boyu həmişə işğalçı gəlmələr yerlinin anasını yerlinin öz əli ilə öldürməyi özlərinə hökmranlıq vasitəsi seçmişlər. Yerlinin anasını onun öz əlilə öldürməmişdən əvvəl onun düşüncəsini, yaddaşını öldürür, onu özündən ayırırlar. Çünki tarixi, yaddaşı öldürmək xalqın özünü öldürməyə, məhv etməyə bir hazırlıqdır.

Nayman Ananın dəfn olunduğu yer Sarıözək səhrasında Ana Beyit adlandırılır.

İndi el ağsaqqalı Qazankapı Nayman Ananın yatdığı müqəddəs Ana Beyit qəbiristanlığında dəfn etməyə gətirirlər. Xalqın tarixini yaşadan bu qəbiristanlıq isə artıq məftil hasara alınmış, dağıdılmağa məhkum edilmişdir.

Burda da yaddaşın, tarixin, keçmişin məhv edilməsi məsələsi! Buna görə də Qazankapı tarixə çevrilmiş Ana Beyitdə dəfn etməyə icazə verməyən, öz dilində danışmaq istəməyən, keçmişinə biganə olan, tarixini unudan Taqsınbayevə Edigeyin nifrətlə "manqurt" deməsi, yuxarıda danışılan əfsanənin fəlsəfi və həyati mənasını tamamlayır.

Maraqlı burasıdır ki, əsərin əsas obrazlarından biri olan Abutalıb da xatirə – tarix yazdığına görə müfəttiş və Əbilov kimi manqurt təbiətli adamlar tərəfindən məhv edilir.

Abutalıbın yazdığı dəftərlərdə xalq mahnıları və əfsanələrinin toplanması da eyni mətləbə – tarixin, yaddaşın qorunmasına xidmət edir. Xalqın yaşaması üçün onun tarixinin – mənəvi yaddaşının nə qədər böyük əhəmiyyətə malik olmasını müəllifin hər epizodda müxtəlif vasitələrlə təkrar etməsi də təsadüfi deyil. Bu epizodlardan birini yada salaq: Nayman Ana oğlunun yaddaşını oyatmaq üçün nə qədər çalışırsa bir şey çıxmır. Nəhayət, oğlunun başını dizi üstə qoyub ona xalq mahnısı – layla deyir. Layla manqurtun xoşuna gəlir, "onun kütləşmiş sifətində ılıq bir işartı və canlanma" yaranır.

Müəllif bununla demək istəyir ki, nəğmə kökdən, keçmişdən gələn səs olduğuna görə məhv edilmiş yaddaşı belə qımıldatmaq gücünə malikdir.Təsadüfi deyil ki, Abutalıb da xatirə dəftərində "nəğmələri keçmişdən xəbərlər" adlandırır.

Beləliklə, tarix və yaddaş eyni zamanda bunları yaşadan el nəğmələri və əfsanələr, bir sözlə, xalqın mənəvi dünyası əsərin qəhrəmanına çevrilir.

Abutalıbla Zərifənin faciəsi isə əsərdə ayrıca bir roman təsiri bağışlayır. Abutalıbın faciəsi bir məhək daşı kimi Zərifəni və Edigeyi sınaqdan çıxarır, onların bütün insani keyfiyyətlərini ayarlayır. Biz bu sınaqda Zərifəni həm övladlarının qarşısında öz borcunu dərk edən ana, həm də günahsız məhv edilmiş ərinin xatirəsini şəxsi hisslərindən üstün tutan sədaqətli qadın kimi görürük. Zərifənin Edigeyə bağışladığı şal Edigeyin hissini başa düşdüyünü və bu hisslərə bir qadın kimi biganə olmadığını sübut edirsə, ona bildirmədən ocağını tərk edib Boranlıdan baş götürüb getməsi xalqın ənənəsindən gələn açıq sədaqət hissini göstərir.

Beləliklə, qadınlıq ismətini qoruyub saxlaması, xalqının qədim ənənəsinə sədaqəti Zərifəni qəhrəmanlıq pyedestalına qaldırır. Burada da tarix və yaddaşın qorunması məsələsi özünü göstərir.

Yerdə baş verən bütün bu hadisələrə yuxarıdan baxan yazıçı elə bil dərdlərinə ağı deyir və bizi daha böyük düyğulara, yüksək və xeyirxah



amallara, biri-birimizin dərdinə ortaq olmağa çağırır. Bu nöqtədə yazıçı planet səviyyəsində düşünür, kiçik bir razyezd olan Boranlının dərdini dünyanın dərdi kimi ümumiləşdirir. "Teatr" jurnalının əməkdaşı ilə müsahibəsində (1985, № 6) Aytmatov göstərir ki, yazıçı öz yağında qovrulmamaq üçün milli istək və arzuları bəşəri səviyyəyə qaldırmalı, bütün insanlığı düşündürən böyük ideallarla yaşamağı bacarmalıdır.

"Gün var əsrə bərabər" əsərində yazıçı bir tərəfdən kosmosu fəth edən insan zəkasının qüdrətini alqışlayır, ikinci tərəfdən bu fütuhatın hansı qurbanlar hesabına başa gəldiyini düşünür və bizi də bu problem ətrafında düşünməyə çağırır. Düşünməli olursan: kosmosu fəth etməyə qadir olan insan zəkası Boranlı razyezdindəki adi su problemini həll etməkdə niyə aciz olmalıdır?

***

Çingiz Aytmatov obrazlarının əksəriyyəti tragik vəziyyətlərə düşür və bu vəziyyətlərdə sınaqdan keçirilir. Maraqlı burasıdır ki, bu obrazlar düşdükləri çıxılmaz vəziyyətlərdə belə yenə insan olaraq qalır, əxlaqi keyfiyyətlərini saxlamağı bacarırlar. Bu mənada onun "Dəniz kənarıyla qaçan Alabaş" və "Ağ gəmi" povestləri xüsusi əhəmiyyətə malikdir.

Müəllifin yazdığına görə, bu əsərin süjetini ona Nivx xalqının yazıçısı Vladimir Sangi danışmışdır. Aytmatov süjetdəki macəra elementini kənara atmış, adamların mənəvi dünyasını, əxlaqi keyfiyyətlərini, ölüm qarşısındakı daxili həyəcanlarını ön plana çəkmişdir.

Bu, belə də olmalıdır. Çünki əsl ədəbiyyat hadisənin təsvirini deyil, insanın iç dünyasının, daxili həyəcanlarının təsvirini verməlidir.

Yeddi yaşlı uşaq, atası, atasının əmisi və babası ilə dənizə – balıq ovuna çıxır, dumana düşür, istiqaməti itirirlər. Bu, adi bir əhvalatdır. Lakin yazıçı belə faciəli vəziyyətdən xilas olmaq ümidini itirən bu adamların qəlbinə, iç dünyalarına səyahətə çıxanda böyük ədəbiyyat yaranır. Bu vəziyyətdə – yəni həyatın ən böyük sınağı olan ölüm astanasında hər kəsin yalnız özünü deyil, o birisini düşünməsi onları insan olaraq saxlayır. Yazıçı bizi insanların bu fədakarlıq hissinə inandıranda biz bu böyüklük qarşısında səcdəyə gəlir, özümüz də daxilən böyüyür və yüksəlirik.

İçməli suyun qurtarmaq üzrə olduğunu bilən baba növbəsi çatanda öz su payını içmir, o birilər onu nə qədər dilə tutursa da, rədd edir, onları yuxuya verib yeddi yaşlı nəvənin naminə gecə özünü dənizə atır.

Başqasının yaşaması üçün özünü qürban vermək! Budur insanın ən ali keyfiyyəti! Bu barədə fransız yazıçısı K.Prevo "Humanite" qəzetində yazır: "Həm Kiriskin, həm də Sultanmuradın atalarına münasibəti əsa-

sında konflikt deyil, əksinə, mənəvi birlik durur. Bu keyfiyyət isə fransız ədəbiyyatına tamamilə yaddır".

Prevonun dediyi həmin keyfiyyət qırğız milli ənənəsindən, "Manas" dastanından gəlir.

Eyni zamanda Ç.Aytmatov bir yazıçı kimi, həyatın işıqlı tərəflərini böyütməyi, eybəcərliyi gözəlliyin, alçaqlığı yüksəkliyin kölgəsi altında göstərməyi daha üstün tutur. Ruhən bir-birinə çox yaxın olan bu əsərləri oxuyandan sonra düşünməli olursan: həyatın davamı naminə öz həyatından keçən belə adamları yetirmiş bu dünya Sabitcan kimi alçaqların varlığına necə dözür?

Bir sözlə, "Dəniz kənarıyla qaçan Alabaş" və "Ağ gəmi" povestlərinin hər biri insan fədakarlığı və insan böyüklüyü haqqında bir poemadır.

***Bəxtiyar Vahabzadə***



# Roman və povestlər



## MÜƏLLİFDƏN

Bu məlum bir həqiqətdir ki, insan şəxsiyyətinin qiyməti – onun əməyə münasibəti, zəhmətsevərliyi ilə ölçülür.

Bu baxımdan Yedigey Cangəldin (el-obada Boranlı Yedigey kimi tanınır) sözün əsl mənasında zəhmət adamıdır. Yedigey, necə deyərlər, dünyanın yükünü çiynində saxlayan adamlardandır. Mənim anlayışıma görə, o öz dövrünün adamıdır. Öz dövrünə qırılmaz tellərlə bağlıdır. Onun qiyməti də məhz elə bundadır ki, öz dövrünün oğludur.

Romanda qarşıya qoyulan problemlərə bu keçmiş cəbhəçi, hazırda dəmiryol fəhləsi olan şəxsin taleyinin prizmasından baxmağa, bu problemləri onun anlayışı, onun gözü ilə həll etməyə çalışmışam. O, məhz bu keyfiyyətlərinə görə də mənə vacib olmuşdur. Mən bu işi öz anlayışım səviyyəsində həll etməyə çalışmışam. Boranlı Yedigey obrazına olan münasibət – mənim sosializm realizminə olan münasibətim, onun əsas prinsiplərindən biri olan zəhmət adamının öyrənilməsinə olan münasibətim, yəni mənim əsas münasibətimdir. Zəhmət adamının öyrənilməsi, onun mənəvi aləmi ədəbiyyatın qarşısında duran bir nömrəli problem olub, hazırda da problem olaraq qalır.

Onu da qeyd etməliyəm ki, "zəhmət adamı" deyəndə mən bu anlayışı "təbiətən sadə adam", yalnız can-başla yer şumladığı və ya mal-qara otardığı üçün mütləqləşdirmək fikrindən uzağam. Məncə, əbədi və dəyişkən həyatla üz-üzə gələn zəhmət adamının nə dərəcədə şəxsiyyət olması, mənəvi aləminin nə dərəcədə zənginliyi dövrünün əsas xüsusiyyətlərinin onda nə dərəcədə cəmləşdiyi ilə ölçülməlidir. Elə buna görə də Boranlı Yedigeyi müasir dünyadakı mövcud qayda-qanun və məni həyəcanlandıran problemlərin mərkəzinə çəkməyə cəhd göstərmişəm.

Boranlı Yedigey təkcə öz təbiəti və məşğuliyyəti tərzinə görə zəhmət adamı olaraq qalmır. O, ruhən zəhmətkeşdir. Ruhən zəhmətkeş adam isə həmişə düşünür, özünə suallar verir. Elələri də var ki, belə suallara həmişə hazır cavabları olur. Buna görə də onlar bir iş görəndə, hətta bu işi keyfiyyətlə görəndə belə, candərdi işləyir, ancaq istehlakçılıq məqsədi ilə yaşayırlar.

Qəlbən zəhmətsevər adamları isə elə qardaşlığa bənzər bir hiss birləşdirir – onlar həmişə bir-birini tapıb seçə bilir, bir-birini başa düşür, başa düşməyəndə də bunun səbəbini düşünürlər. Dövrümüz onlara düşünmək üçün o qədər qida verir ki, indiyə qədər belə bir

şeyin misli görünməmişdir. İnsan yaddaşının zənciri artıq Yer kürəsindən kosmosa qədər uzanır. Zənnimcə, XX əsrin sonunun ən faciəvi ziddiyyəti insan dühasının intəhasızlığı ilə imperializmin törətdiyi siyasi, ideoloji, irqi manеələr üzündən bu dühanın yaratdığı imkanların həyata keçirilə bilməməsidir.

Bu gün kosmosa müntəzəm çıxmağa texniki imkanlar olduğu bir şəraitdə, bəşəriyyətin iqtisadi və ekoloji ehtiyacı bu imkanları qəti surətdə həyata tətbiq etməyi tələb etdiyi halda, xalqlar arasında düşmənçilik toxumu səpmək, insan zəkasının enerjisini sürətlə silahlanmaya doğru yönəltmək insana qarşı ən dəhşətli cinayətdir.

Bu gün ən proqressiv fikir, ancaq beynəlxalq gərginliyin azaldılması fikri ola bilər. Bu gün bundan daha məsul bir vəzifə yoxdur.

Bəşəriyyət sülh şəraitində yaşamağı öyrənə bilməsə, məhv olub gedəcək.

İnamsızlıq, şəkk-şübhə, zidd mövqe tutmaq əhval-ruhiyyəsi bəşəriyyətin sakit və xoşbəxt həyatı üçün ən qorxulu təhlükələrdən biridir.

Adamlar bir-birilə yola gedə bilərlər, amma öz insanlıqlarını, ləyaqətlərini saxlamaq istəyirlərsə, heç vaxt eyni cür düşünə bilməzlər. Ta qədimlərdən bu günə kimi insanı fərdi keyfiyyətlərdən məhrum etmək imperiya, imperialistlər və hegemonçuluq iddiasında olanların məqsədi olmuşdur.

Keçmişini unudan adam dünyada öz yerini, mövqeyini təzədən müəyyən etmək zəruriyyəti qarşısında qalır. Öz xalqının və başqa xalqların əldə etdiyi tarixi təcrübədən məhrum edilmiş adam tarixi perspektivdən kənar qalır, yalnız bu günün qayğısıyla yaşamağa qabil olur.

Bu hadisələrin bir-biri ilə sıx əlaqədar olduğuna inanmaq üçün həyatın çox mürəkkəb dialektikasını Maonun "qırmızı kitabçası"ndakı sitatlar səviyyəsinə endirilmiş "mədəni inqilabı", çox qədim ənənələri olan bir xalqın indiki Çin rəhbərliyinin hegemonçuluq siyasəti fonunda cərəyan edən acınacaqlı taleyini xatırlamaq büsbütün kifayətdir. Nə qədər ziddiyyətli görünsə də başqa hadisələr də bir-biri ilə sıx bağlıdır, o cümlədən, keçmişin inkar edilməsi və ya saxtalaşdırılması meyli də lovğa və müştəbeh şovinizmin öz ətrafında daimi "Çin səddi" çəkmək cəhdi də; belə ki, bir xalqın başqa xalqlar üzərindəki üstünlüyü mifini yalnız belə bir səddin arxasında "becərib göyərtmək" mümkündür.

Mən bu əsərimdə də, əvvəllər olduğu kimi, yenə də həyatın, yaşayış tərzinin təcrübəsi kimi qiymətləndirilən keçmiş nəsillərdən bizə miras qalmış miflərə, əfsanələrə isnad etmişəm. Lakin nə bu, nə də o



biri mənim üçün əsas məqsəd daşımır, bu, ancaq təfəkkür metodu, real gerçəkliyi öyrənmə və yozum vasitəsidir.

Təbii haldır ki, Yer kürəsindən kənar sivilizasiyanın təsvirində tərəf-müqabillərin qarşılaşdığı epizodların heç bir real kökü, əsası yoxdur. Dünyanın heç yerində Sarı-Özək və Nevada kosmodromları yoxdur. Burada təsəvvür vasitəsilə təsvir olunmuş iki müxtəlif sistemli həyat tərzi oyun forması kimi, şərti qəbul edilməlidir. Bütün "kosmik" əhvalatların təsvirindəki kəskinlik, vəziyyətlərin müqayisəsindəki paradoksal formadan istifadə etmək üsulu təkcə bir məqsəd güdür – Yer kürəsində yaşayan adamların gələcəkdə baş verə biləcək fəlakətinin potensial gücünü tam aydınlığı ilə təsvir etmək.

Bizim bu dünyada dəhşətli bir paradoks var: qədim Yunanıstanda Olimpiya oyunları zamanı müharibələr dayandırılardı, bizim zəmanəmizdə bundan "soyuq müharibə" vasitəsi kimi istifadə edilir.

Fantastik uydurmanın əhəmiyyətinə gəlincə bu barədə Dostoyevski öz vaxtında yazmışdır: "İncəsənətdə fantastikanın öz həddi və qaydası var. Fantastika real həqiqətlə elə təmasda olmalıdır ki, onu həqiqət kimi qəbul etmək olsun". Dostoyevski həqiqətən də fantastikadan istifadə etmək yolunu tam dəqiqliyi ilə ifadə etmişdir. Əslində qədim yunanların mifləri də, Qoqolun, Bulqakovun və ya Markesin fantastik realizmi də, elə elmi fantastikanın özü də bir-birindən nə qədər fərqli olsa da, məhz gerçək həyatla təmas etdiyi üçün inandırıcıdır. Fantastika gerçəkliyin müəyyən bir cəhətini sanki zərrəbin altında böyüdür, sonra da öz "oyun qaydası" əsasında onun seçilmiş cəhətlərinin inkişaf imkanlarını son həddinədək açmağa çalışaraq filosofcasına ümumiləşdirilmiş şəkildə göstərir.

Fantastika – həyatı yeni, gözlənilməz bir baxımla görə bilmək imkanı verən həyat metaforasıdır. Bizim əsrimizdə metaforalar bir də ona görə xüsusilə vacib olmuşdur ki, bunlar təkcə elmi-texniki nailiyyətlərimizin dünənki fantastika aləminə müdaxilə etdiyi üçün deyil, bəlkə də iqtisadi, siyasi, ideoloji, irqi ziddiyyətlərin didib parçaladığı dünyamızın özünün fantastik olduğu üçün vacibdir.

Buna görə də istərdim ki, romandakı Sarı-Özək metaforaları Yer küremizin gələcək taleyi üçün onun necə məsul olduğunu zəhmət adamına bir daha xatırlatsın...

# GÜN VAR ƏSRƏ BƏRABƏR

*Və bu kitab – mənim canım əvəzi,*
*Və bu söz ruhim mənim...*

***Qriqor Narekasi***
"Hüzn kitabı" X əsr

## I

Qupquru çökəklərdə, otu-ələfi quruyub dazı açılmış dikdirlərdə ov axtarmaq böyük səbir istəyirdi. Səhərdən axşamacan vurnuxan, yeraltı yuva sakinləri olan xırda heyvanların buraxdığı qarmaqarışıq izlərin koləfini açanacan baş hərlənirdi, gah gücü gəldikcə sünbülqıranın yuvasını eşələyir, gah da saatlarla gözləməli olurdu ki, yağışın yuyub qazıdığı sivri daşın altında gizlənən balaca ərəbdovşanı oradan sıçrayıb çıxsın ki, bir anda onu qamarlasın; siçan ovuna çıxmış ac tülkü beləcə ov axtara-axtara uzaqdan yavaş-yavaş dəmiryoluna yaxınlaşırdı, çöl boyu uzanan köbərin üstündə paralel dəmiryol qaralırdı, o, tülkünü həm cəlb edir, eyni zamanda da hürküdürdü, onun üstü ilə ətrafı lərzəyə gətirərək gah bu yana, gah o yana patıltı-gurultuyla qatarlar gedir, özündən sonra da küləyin sovub yerə yaydığı tüstü, yanıq iyinə qarışmış başqa qıcıqlandırıcı qoxular qoyub gedirdi.

Axşamtərəfi tülkü teleqraf xətti yaxınlığındakı sıx, quru və hündür sirkan kolları bitmiş dayaz dərə kimi bir çökəkdə tünd-qırmızıya çalan bol toxum bağlamış kolların arasında boz-narıncı kündə kimi yumrulanıb uzandı, qulaqlarını narahatlıqla tərpədə-tərpədə aşağıdan əsən yelin şusuzluqdan canı çıxmış quru otlardan çıxardığı zil sızıltısına qulaq verərək, səbrini toplayıb gecənin düşməsini gözlədi. Teleqraf dirəkləri də üzüntülü bir səslə inləyirdi. Ancaq tülkü bu səslərdən qorxmurdu. Dirəklər həmişə eyni yerdə dururdular, onlar tülkünü təqib eləyə bilməzdilər.

Vaxtaşırı gəlib keçən qatarların qulaqbatırıcı səsindən hər dəfə diksinir, nəfəsini qısıb büzüşürdü. Altındakı yerin uğultusundan qatarların dəhşətli hərəkət zəhminin yerbasan ağırlığını öz cılız bədəni, qabırğaları ilə hiss edirdi, buna baxmayaraq yad qoxulara olan nifrət və qorxusunu boğub dərədən getmir, gecəni gözləyirdi, çünki bilirdi ki, dəmiryol gecələr nisbətən sakit olur.

Tülkü buralara çox nadir hallarda, aclıqdan üzülüb əldən düşəndə gələrdi...



Qatarlar ara verəndə çöllüyə uçqundan sonra yaranan gözlənilməz bir sakitlik çökürdü, bu tam sakitlik içində ala-toran çöllük üzərində güclə seçilən, heç kimə aid olmayan, qəlbindən gələn anlaşılmaz bir səs tülkünü şəkləndirirdi. Bu, hava axınlarının tezliklə havanın dəyişəcəyini bildirən əlaməti idi. Heyvancığaz bunu sövq-təbii ilə hiss edir, naçar halda yerindəcə donub durur, yaxınlaşmaqda olan ümumi bir bəlanın doğurduğu nə isə qeyri-müəyyən bir hissdən səs çıxarıb ulamaq, vaqqıldamaq istəyirdi. Ancaq aclıq hissi elə güclü idi ki, təbiətin bu xəbərdarlıq siqnallarını da boğurdu.

Tülkü yüyürməkdən yorulub göynəyən pəncələrini yalaya-yalaya ancaq yavaşdan zingildəyirdi.

O günlər axşama tərəf hava soyuyurdu, mövsümün üzü payıza idi. Gecələr torpaq tez soyuyur, şoran yerlər kimi, ağappaq qırovla örtülür, səhər əriyib açılırdı. Çöl heyvanları üçün qıtlıq, qayğı dolu günlər gəlirdi. Yayın özündə də təkəm-seyrək görünən ov indi tamam yoxa çıxmışdı. Bəziləri isti ölkələrə köçmüş, bəziləri yer altındakı yuvalarına girmiş, bir parçası da qışlamaq üçün qumsallıqlara çəkilmişdi. İndi hər tülkü bu kimsəsiz çöllərdə tək-tənha səfillənərək yem axtarırdı.

Bu ilki bala tülkülər artıq böyüyüb hərəsi bir səmtə dağılmışdı. Döl, cütləşmə vaxtı isə hələ qabaqda idi. Qışda, o dövr gəlib çatanda, tülkülər görüşmək üçün bir yerə toplaşır, erkəklər isə onlara verilmiş əzəli qüvvə ilə süpürləşib vuruşurdular.

Gecə düşəndən sonra tülkü dərədən çıxdı, dayanıb qulaq asdı, dəmiryolunun köbərinə tərəf şortudu. O, sakitcə gah yolun sağı ilə gedir, gah da soluna keçirdi. O, buralarda sərnişinlərin vaqonların pəncərələrindən tulladıqları artıq-urtuq axtarırdı. Tülkü köbərin böyrü ilə çox yüyürməli oldu, qabağına nə çıxdısa iylədi, bir tikə yeməli şeyə rast gələnəcən əldən-ayaqdan düşdü. İyrənc tünd iy verən şeyləri iyləmədi. Qatarların işlədiyi yol qəzet qırıntıları, kağız parçaları, sınmış butulkalar, əzilib əyilmiş boş konserv qutuları, siqaret kötükləri və lazımsız zir-zibillə dolu idi. Bir dəfə salamat qalmış ağzı açıq butulkadan gələn kəskin iy onun beynini dumanlandırmışdı. Bir-iki dəfə başının gicəlləndiyini görüb, tülkü daha spirtli şüşələrdən kənar gezirdi. Fınxırıb kənara sıçrayırdı.

Tülkünü bu yola çıxmağa aclıq vadar eləmişdi, tərs kimi də dişə dəyən bir şey tapa bilmirdi. Amma ümidini itirmirdi, yeməli bir şey tapmaq məqsədilə yolun gah sağına keçir, gah da soluna, yüyürür, hey yüyürürdü...

Tülkü birdən yolun tən ortasında həsləyib dayandı, qəfil iş üstdə tutulan adamlar kimi bir pəncəsi havadan asılı qaldı. Qəlbidə, buludlar arasındakı Ayın bozumtul ziyası altında o, iki relsin arasında döyükmüş kölgə kimi görünürdü. Onu şəkləndirən uzaq uğultu hələ çəkilməmişdi, səs hələlik uzaqdan gəlirdi. Tülkü quyruğunu əvvəlki kimi düz tutaraq yoldan çıxmaq istəyir, tərəddüdlə ayağının birini götürüb, o birini qoyurdu. Yoldan çıxmaq əvəzinə tülkü dişinə dəyən bir şey tapmaq ümidi ilə yenə də köbərin döşü ilə o yan-bu yana vurnuxmağa başladı. Yüzlərlə təkər və dəmir sürtülməsindən qopan səsin qarşısıalınmaz bir zəhmlə yaxınlaşdığını eşitsə də hiss eləyirdi ki, elə bu dəqiqə istədiyini tapacaq. Amma elə bu dəqiqədə döngədən çıxan dalbadal qoşulmuş lokomotivlərin yaxın və uzaqvuran işıqları, güclü projektorları gözqamaşdırıcı işıqla otu-ələfi qurumuş çölü bircə anda ağappaq ağartdı və tülkü od görmüş pərvanə kimi özünü ora-bura çırpmağa, yerində mayallaq vurmağa başladı. Qatar isə amansızcasına yaxınlaşırdı. Havanı boğucu yanıq iyi, toz basdı, şiddətli yel qopdu.

Tülkü özünü kənara atıb tez-tez geriyə baxa-baxa, hərdən də qorxudan yerə sinərək götürülüb qaçdı. İşıqları şütüyən bu əcaib nəhəng hələ xeyli guruldadı, xeyli vaxt çarxların səsi kəsilmədi. Tülkü yerində sıçrayır, yenə də var gücü ilə qaçıb buralardan uzaqlaşmağa çalışırdı.

Dayanıb nəfəsini dərdi, dəmiryolu onu yenə də özünə cəzb eləməyə başladı. Çünki bura dişinin altına qoymağa bir şey tapacağına ümid elədiyi yeganə yer idi. Amma qarşıdan yenə də işıq düşdü, yenə də qoşa lokomotiv uzun və yüklü bir qatarı çəkib aparırdı.

Tülkü işi belə görəndə xeyli çölləmə getdi ki, elə bir yerdə dəmiryoluna yan alsın ki, o yerdə qatar olmasın...

*Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedir...*

*Dəmiryolunun hər iki tərəfi ilə göz işlədikcə çöllüklər uzanıb gedirdi, – Sarı-Özək sarı torpağın özəyi – ortası idi.*

*Coğrafiyada hər şey Qrinviç meridianından ölçüldüyü kimi, bu yerlərin də bütün məsafələri dəmiryolu ilə müəyyən edilirdi...*

*Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər...*

Gecəyarı kim isə uzun yolu inadla, basa-basa yol çevirən növbətçinin köşkünə tərəf tələsirdi. O, əvvəlcə şpalların üstü ilə yeriyirdi, ancaq qarşıdan gələn yük qatarı onu köbərdən enməyə məcbur etdi. Əllərini üzünə tutub tufandan, çovğundan qorunurmuş kimi, sürətlə gedən yük qatarının qopardığı toz-torpaqdan qorunurdu (Bu xüsusi



əhəmiyyətli qatar idi. Belə qatarlar birbaşa qapalı zonaya, xüsusi yol xidmətçiləri olan 1 nömrəli Sarı-Özəyə, kosmodroma gedir. Sözün qısası, belə qatarlar həmişə çadırla örtülmüş olur, onu platformalarda dayanmış hərbi gözətçilər müşayiət edir.)

Yedigey o saat hiss elədi ki, gələn arvadıdır və bu gəliş elə-belə gəliş deyil, onun bu gəlməyinə nəsə çox vacib bir səbəb var. Doğrudan da məlum oldu ki, gümanı düz imiş. Lakin iş üstə olduğuna görə yerindən tərpənə bilməzdi. Sonuncu vaqon da gəlib keçəndən, yolda hər şeyin qaydasında olduğunu bələdçiyə işarə verəndən sonra tolosik arvadına tərəf döndü:

– Xeyir ola?

Qadın həyəcanla ona baxıb dodaqlarını tərpətdi, nəsə pıçıldadı. Yedigey onu eşitməsə də onun nə demək istədiyini başa düşdü, əvvəldən ürəyinə dammışdı.

– Küləyin qabağında durma. – Onu köşkə apardı.

Arvadının dilindən eşidəcəyi sözü əvvəlcədən hiss eləsə də Yedigeyi sarsıdan başqa şey oldu. Əlbəttə, bunu o, əvvəllər də görmüşdü ki, qocalıq artıq onları haqlayıb, amma bu dəfə arvadının bu uzun yolu tələsik gəldiyindən nəfəsinin daralması, tövşüməsi, sinəsindən qopan xırıltı, arıq çiyinlərinin qeyri-iradi olaraq qalxıb-enməsi Yedigeyi bərk sarsıtdı. Ukubalanın göyərmiş üzündəki silinməz qırışlar, əhənglə tərtəmiz ağardılmış, güclü elektrik lampasının işıqlandırdığı bu kiçik yol köşkünün divarları fonunda daha aydın göründü (axı onun hamar qarabuğdayı üzü qırış tanımazdı, parlaq qara gözləri həmişə od saçardı). Mırıq ağzı bir daha sübut edirdi ki, hətta uzun ömür-gün sürmüş qoca qadına da dişsiz olmaq yaraşan iş deyil (onu çoxdan stansiyaya aparıb orda o, metal deyilən dişlərdən ona düzəltdirməli idi. Axı indi qoca da, cavan da özlərinə bu dişlərdən düzəltdirirlər). Onun başından sıyrılmış yaylığının altından üzünə yayılan ağappaq saçları da ürəyini neştərlədi. Arvadının belə qocalmasında özü günahkarmış kimi ürəyində özünü danladı: "Gör necə də qocaltdım səni!". Yedigey ürəyində arvadına böyük minnətdarlıq hissilə susurdu, bu minnətdarlıq hər şeyi əhatə edirdi, birgə keçirtdikləri ömür-günə görə həm də ərinə sədaqət və hörmət əlaməti olaraq bu gecəyarısı belə uzun yol qət edib razyezdin* ən uzaq nöqtəsi olan bu yerə gəlib Qazanqapın ölüm xəbərini ona – Yedigeyə çatdırdığına görə idi. Çünki Ukubala bilirdi

* Dəmiryolu məntəqəsi (kiçik stansiya)

ki, qohumu-zadı olmasa da, hamı tərəfindən tərk edilib, kimsəsiz qalmış bu bədbəxt qocanın ölüm xəbəri bircə Yedigeyə təsir edəcək.

– Otur, bir nəfəsini dər, – içəri girən kimi Yedigey arvadına dedi:

– Sən də əyləş.

Oturdular.

– Nə olub?

– Qazanqap ölüb.

– Nə vaxt?

– Elə indi baş çəkməyə getmişdim, dedim, görüm necədir, bəlkə bir şey-zad lazımdır. İçəri girdim, gördüm işığı yanır, uzanıb yerində, amma saqqalı belə birtəhər dik durub... Yaxınlaşıb soruşdum ki, Qazı əkə, bəlkə sizə isti çay gətirim? Gördüm ki... – səsi tutuldu, qəhər onu boğdu, qapaqları nazilib qızarmış gözləri doldu, içini çəkib yavaşdan ağlamağa başladı. – Sən bir adamın axırına bax?! Necə insan idi! Ölüb getdi. Yanında gözünü qapamağa bir adam da olmadı. – Hönkürdü, ağladı, – axı kimin ağlına gələ bilərdi! Elə beləcə də kimsəsiz-kimsənəsiz öldü... – Ukubala demək istədi ki, səmə it kimi kimsəsiz öldü, amma demədi, sözünü uddu, sözsüz-sovsuz da hər şey aydın idi.

Cəbhədən qayıdandan bəri Yedigey Boranlı razyezdində xidmət edirdi, hamı onu Boranlı Yedigey kimi tanıyırdı. İndi o, divarın dibinə qoyulmuş, stulu əvəz edən taxtanın üstündə oturub arvadına qulaq asa-asa bulud kimi tutqun halda, düyünlü ağır əllərini dizinə dirəmişdi. Yağlanıb çirklənmiş dəmiryolçu şapkasının günlüyü gözlərini kölgələmişdi.

– İndi nə eləyək? – Deyə arvadı sükutu pozdu.

Yedigey başını qaldırıb arvadına baxdı və acı-acı qımışdı:

– Nə eləyəcəyik? Ölü düşəndə nə eləyərlər? Dəfn eləyəcəyik. – O, qəti qərara gəlmiş adam kimi ayağa durdu. – Arvad, sən qayıt geri, amma indi mənə qulaq as...

– Qulağım səndədi...

– Osmanı oyat. Baxma ki, razyezdin rəisidir, dəxli yoxdur, ölüm qabağında hamı bərabərdir. Ona de ki, Qazanqap ölüb. Kişi qırx dörd il burda can çürüdüb. Qazanqap burada işləyəndə bəlkə Osman heç anadan olmayıbmış. O vaxt heç it itliyinən burada, Sarı-Özək çöllərində işləməzdi... Amma Qazanqap burdan başının tükü sanı, bəlkə lap ondan da çox qatar yola salıb. Qoy bir fikirləşsin. Elə belə də deyərsən. Mənə bax, qulaq as... Hamını bircə-bircə oyat, pəncərələrini döy. Bir ovuc adamıq, barmaqla saymaq olar, cəmi səkkiz ev deyilik? Hamını ayağa qaldır. Belə adam ölən günü hamı gərək ayaq üstə ola.

– Birdən narazılıq eləsələr, acıqlansalar necə?

– Bizim işimiz onlara xəbər verməkdir. Qalanını özləri bilsinlər. Denən ki, mən göndərmişəm. Gərəkməz ki, adamın vicdanı da ola. Dayan!

– Dayanmışam, de.

– Əvvəlcə növbətçinin yanına qaçarsan, bu gün növbətçi dispeçer Şahmərdandır. Ona de ki, bəs belə-belə, gör neyləyə bilir, bəlkə mənə bu günlük əvəz tapa bildi. Əgər mümkün olsa, tez xəbər versin, başa düşdün? Necə deyirəm, elə də de!

– Deyərəm, deyərəm! – Ukubula getmək istəyərkən, birdən bağışlanması mümkün olmayan, əsas bir şeyi unudubmuş kimi ayaq saxladı. – Bəs, uşaqları?! Əcəb! Axı əvvəlcə uşaqlara xəbər vermək lazımdır! Ataları ölüb...

Yedigey tutuldu, sonra qaşları çatıldı, sifəti sərtləşdi... Cavab vermədi.

Ukubala bu söhbətin ərini açmadığını bilirdi, buna görə də özünə haqq qazandırmış kimi mülayim bir səslə:

– Yaxşı, ya pis – uşaq uşaqdır, – dedi.

Yedigey əlini yellədi:

– Bilirəm, başım xarab olmayıb ki! Mən də bilirəm ki, uşaqlarsız olmaz... Amma ixtiyar məndə olsaydı, heç yaxına da buraxmazdım!

– Yedigey, bizim nə işimizə, qoy gəlib özləri basdırsınlar, sonra söz-söhbətdən yaxa qurtara bilmərik.

– Gəlsinlər də! Mən bəyəm deyirəm gəlməsinlər?

– Oğlu görəsən şəhərdən özünü çatdıra bilər?

– İstəsə çatdırar. Srağagün stansiyada olanda özüm teleqram vurmuşam. Yazmışam ki, atan ölüm ayağındadır, daha bundan artıq nə yazmalı idim ona. Özünü çox ağıllı sayır, başa düşməlidir ki, iş nə yerdədir...

– Hə, onda sözüm yoxdur, – deyə Ukubala ərinin cavabı ilə razılaşsa da, onu narahat edən məsələni də unuda bilmədi, – Yaxşı olardı ki, gəlinlə birgə gələydi. Qayınata gəlin üçün yad adam deyil ki...

– Daha bu öz işləridir. Uşaq-zad deyillər ki...

– Hə, elə olmağına elədir, – Ukubala tərəddüd etsə də razılaşdı.

Onlar susdular.

– Yaxşı, di yeri, ləngimə, – deyə Yedigey arvadını tələsdirdi.

Ukubalanın isə deyəsən ürəyində yenə sözü vardı:

– Bəs qızı necə olsun? Ayzadə baxtı qara, qalıb əyyaş əlində uşaqlarıyla, görəsən, stansiyadan özlərini yetirə bilərlərmi?

Yedigey acı-acı gülümsündü:

– Hə, indi hamının dərdini sən çəkəcəksən... Ayzadəyə əl uzatsan çatar. Səhər bir adam stansiyaya gedib xəbər eləyər. Gələr, lap yəqin gələr. Amma bir şeyi bil ki, arvad, nə Ayzadədən, nə də Sabitcandan bizə kömək eləyib əl tutan olmayacaq. Gəlməyinə gələcək, amma adını kişi qoysa da, qonaq kimi dayanıb baxacaq. Sən ləngimə, get necə demişəm elə də elə.

Ukubala yol alıb getdi, sonra tərəddüdlə ayaq saxladı, təzədən yola düzələndə Yedigey özü onu səslədi:

– Əvvəlcə növbətçi Şahmərdanın yanına get a!.. Qoy mənim yerimə adam göndərsin, sonra əvəzini artıqlaması ilə işlərəm. Kişinin cənazəsi bomboş evdə qalıb, yanında da bir Allah bəndəsi yox. Belə şey olmaz! Elə belə də deyərsən ona!

Arvadı razılaşıb yola düzəldi. Elə bu vaxt yolun hərəkət göstəricisində qırmızı işıq qırpım çalıb səs salmağa başladı. Boranlı razyezdinə yeni qatar gəlirdi. Növbətçinin göstərişinə görə onu ehtiyat yola qəbul etmək lazım idi ki, razyezdin o biri başından qarşıdan gələn qatarın hərəkətinə mane olmasın. Bu gündəlik adi tədbir idi, qatarlar hərəsi öz yolu ilə hərəkət edərkən Yedigey köbərin böyrüylə yeriyən Ukubalanın dalınca baxdı, sanki yenə nəyisə demək istəyirdi. Əlbəttə, dəfn mərasimi ərəfəsində görülməli o qədər iş, deyilməli o qədər söz vardı ki, hamısı birdən-birə yada düşmürdü. Amma Yedigey indi Ukubalanın qarasınca buna görə baxmırdı. Arvadının son zamanlar necə qocalıb əyildiyinə indi diqqət verib ürəkağrısı ilə onu yola salırdı, Ukubalanın bu vəziyyəti tutqun, sarı işıq zolağında daha aydın nəzərə çarpırdı...

"Deməli, qocalıq haqladı bizi, – deyə fikirləşdi. – Hə, biz də daha mənzil başına çatbaçatdayıq. Bir qarı, bir qoca!". Qocalıqdan gileylənsə də, təbiət Yedigeyi sağlamlıq barədə məğmun eləməmişdi. Çox cavanlar ona baxıb gözünə su verə bilərdi. Amma hər halda ömürdən-gündən keçən günlər də az deyildi. Bir il də əlavə quyruğuynan düz altmış il. Deməli, altmış bir! "Sən bir işə bax, iki-üç ildən sonra mənə təqaüdə çıxmaq təklif eləyə bilərlər", – deyə narazı halda öz-özünə deyinsə də dəqiq bilirdi ki, təqaüdə belə tezliklə çıxmayacaq. Çünki burada onun yerinə adam tapmaq o qədər də asan məsələ deyildi. Yol nəzarətçisi, üstəlik də yol təmiri fəhləsi, təsadüfdən-təsadüfə kimsə xəstələnəndə və ya məzuniyyətə çıxanda yolayıran vəzifəsini də görürdü. Bəlkə əlavə məvacibə aldanıb, susuzluğa-zada baxmayıb razı olan tapıldı... Çətin! Get, indi cavanların arasında beləsini tap görüm, necə tapırsan.

Yox, Boranlı razyezdində yaşamaq üçün adamda gərək hünər olsun. Ayrı cür mümkün deyil, yoxsa məhv olub, gedərsən! Çöl ucsuz-bucaqsız, adam balaca. Çölə heç bir şeyin dəxli yoxdur. Yaxşısan-yamansan ona nə dəxli var. Onu necə var, gərək elə də qəbul eləyəsən. Amma adam hər şeyə belə laqeyd baxa bilmir, əzab çəkir, darıxır, ona elə gəlir ki, adamlar arasında olsaydı daha yaxşı dolana bilərdi, baxtının ucbatından bu yerlərə düşüb... Guya bu səbəbdən ömrünü bu çöllərdə xərcləyir. Şahmərdanın üçtəkərli motosikletinin akkumulyatoru boşalıb gücdən düşən kimi, o da yavaş-yavaş ruhdan düşür... Şahmərdan motosikletini qoruyur, nə özü minir, nə də özgəyə verir. Gərək olanda da işə salmaq olmur, çünki işsiz qalıb, gücdən düşür. Sarı-Özək çölünün bu razyezdində yaşayan adam da eynilə onun kimidir, bir işin qulpundan yapışmadımı, şəraitə uyğunlaşmadımı, burada kök ata bilmədimi, çətin ki, tablaya bilsin. Ötən vaqonlardan baxan bəzi adamlar heyrət eləyirlər ki, ilahi, insan da bu yerlərdə yaşaya bilər! Hara baxırsan çöldən-dəvədən başqa heç nə görmürsən! Amma yaşayanlar yaşayır, kimin səbri nə qədər çatır, o qədər də yaşayır. Üç il, ölüm-zülüm dörd il dözənlər də olur. Bununla da hər şey tamama yetir. Alacağını alıb, halallaşıb, baş götürüb əkilir. Təki bu yerlərdən uzaq olsun...

Boranlıda ancaq iki nəfər – Qazanqap, bir də özü, Boranlı Yedigey ömürlük kök salıb yaşaya biliblər. Eh, onların ikisindən savayı buraya nə qədər gəlib-gedən olmuşdu! Adamın özü barədə söz deməsi çətindir, hər halda yaşayıb, təslim olmayıb! Qazanqap burada ona görə qırx il can qoymayıb ki, axmaq adam olub. Yox, Yedigey onu heç on adama da dəyişməzdi. Neyləsin, yoxdur, daha getdi Qazanqap...

Qatarlar gəlib keçdilər, biri şərqə, o biri də qərbə getdi. Boranlının yolları bir müddət boşaldı. Elə bil hər yer aydınlığa çıxdı, qaranlıq göydəki ulduzlar daha da işıqlandı, külək də köbərin döşündə, hələ də taqqıldayan şpallardakı relslərin arasında cövlan eləməyə başladı.

Yedigey köşkə qayıtmadı, teleqraf dirəyinə söykənib fikrə getdi. Dəmiryoldan xeyli uzaqda otlayan dəvələrin tutqun qaraltısını seçə bildi. Onlar Ay işığında hərəkətsiz dayanıb səhərin açılmasını gözləyirdilər. Yedigey başqa dəvələrin arasında özünün iki donqarlı, nəhəngliyi və başının iriliyi ilə o birilərdən fərqlənən nərini tanıya bildi. Onun dəvəsi də Sarı-Özəkdə yüyrəkliyi, zoruyla ad çıxartmışdı. Öz sahibi kimi Boranlı Qaranər adı ilə tanınırdı. Yedigey öz nəri ilə, onun gücü, hətta ipə-sapa çətin yatan dəlisovluğu ilə də fəxr edirdi. Vaxtında heyvanı axtalatdırmamışdı, sonra da axtalatdırmağa ürəyi gəlməmişdi.

Yedigey fikirləşdi ki, başqa işlərlə bahəm Qaranəri də erkəndən qapıya qaytarıb alıxlamaq lazımdır, sabah dəfn mərasimində kara gələ bilər. Bundan başqa da çox fikirlər gəlib keçdi başından...

Razyezddə isə hələ adamlar şirin yuxuda idilər. Razyezd deyəndə bura dəmiryolunun bir tərəfində salınmış o qədər də böyük olmayan stansiya xidmət binaları, dəmiryol idarəsi tərəfindən tikilmiş altı dənə damı şiferli qurma-taxta ev – bir də ki, Yedigeyin öz əli ilə tikdiyi şəxsi evi ilə mərhum Qazanqapın gillə suvanmış daxmasından ibarət idi. Bundan başqa xörək bişirmək üçün tikililər, heyvan saxlamaq və başqa məqsədlər üçün qamış ağıllar, küzlər də vardı. Bir də elektriklə işləyən su nasosu – bunu axır zamanlarda quraşdırmışdılar. Lazım olanda əl nasosu kimi də işə yarayırdı, vəssalam, Boranlı dediyin bucığaz idi.

Bəli, ucsuz-bucaqsız Sarı-Özək düzlərinin əvvəli-axırı olmayan qan damarını xatırladan dəmiryol xətti üzərində şəhərləri, kəndləri birləşdirən, qatarların yolunu səmtləyən məntəqələrdən biri – Boranlı razyezdi bundan ibarət idi. Nəyi vardısa hamısı da göz qabağında, necə deyərlər, küləklərin şapalağı altında... İllah da qışda, Sarı-Özək çovğunları başlanandan evləri pəncərəyəcən qar basır, dəmiryolunun neçə yerində üzü buz tutub qaysaqlanmış topalar əmələ gəlirdi. Elə buna görə də düzəngahdakı bu razyezdə Boranlı-Burannı deyirdilər, adı da iki dildə yazılmışdı: qazaxca – Boranlı, rusca – Burannıy...

Yedigey hələ yollarda müxtəlif qartəmizləyən maşınların olmadığı vaxtları xatırladı, maşınlar cürbəcür idi: kimisi qarı sorub fəvvarə kimi yanlara fışqırdır, kimisi qarşısındakı gəmi burnuna bənzər bıçaqlarıyla qarı yarıb yanlara basırdı və sairə... Bəli, bu maşınlar hələ olmayanda Qazanqapla yolları basmış qar yığınlarını təmizləmək üçün, demək olar ki, ölümlə əlbəyaxa olurdular. Üstündən gör nə qədər vaxt keçir, amma adama elə gəlir ki, lap dünən olub... Əlli bir, əlli ikinci illərdə elə şaxtalı qışdı ki, Allah göstərməsin! Belə işi ancaq cəbhə ilə müqayisə etmək olar, məsələn, əlbəyaxa süngü həmləsinə çıxanda, ya tanka yaxınlaşıb altına qumbara tullamaq istəyəndə... bir sözlə, canından bezəndə... Orda necə, burda da elə!.. Düzdür, burda adamı öldürən yox idi, əvəzində adam özü canına qəsd eləyirdi. Onlar öz əllərilə nə qədər qar yığını kürüyüb təmizləmişdilər, vəllərlə hamarlamışdılar, hələ Yeddinci kilometrin qarı! Burada yol çapılmış təpənin arasından enişə gedir, buranın qarını onlar kisələrə doldurub dallarında təpəyə qaldırmalı olurdular. Hər dəfə onlara elə gəlirdi ki, bu, qar çovğunu ilə axırıncı əlbəyaxadır, bunun xətrinə cəhənnəmə, – deyib candan da keçmək olar, təki çölün düzündə ilişib yol istəyən parovozların bar-bar bağıran səsi kəsilsin – ona nə var, yolunu aç!

İndi o qarlar əriyib, o qatarlar keçib, o illər də ötüb. Belə günlər olubmu, olmayıbmı, indi bu heç kimi maraqlandırmır. İndiki yoxlama-təmir briqadaları bura yolüstü baş çəkir, haylı-küylü, başqa tipli adamlardır. Görən heç ağıllarına gəlirmi ki, heç inanırlarmı ki, Sarı-Özək məsafəsinin qar basmış yolu və bir neçə əlikürəkli adam! Nağıl danışmayın, siz Allah! Onların içində açıq-açığına gülənlər də olur: axı nəyə görə özünüzü fəda eləyirdiz, niyə əzab çəkirdiz, nəyin xatirinə?! Biz heç belə şeyə gedərik! Aparın verin ölənlərinizin xeyratına, atıb gedərdik başqa yerə, bəd ayaqda verərdik özümüzü tikintiyə-zada, elə yerə ki, hər şey qaydasında olsun. Filan qədər işləmişik, filan qədər say qabağımıza. Çox vacib tələsik iş olanda da yığ camaatı, əlavə muzdla işlə... "Sizi gic yerinə qoyublar, qocalar, elə gic kimi öləcəksiniz!.."

Belə təzə "nırxbazlar"a rast gələndə Qazanqap onlara fikir verməzdi, elə bil eşitdiklərinin heç ona dəxli-zadı yox idi, gülümsünərdi. Yedigey isə dözə bilmirdi, mübahisə eləyirdi, axırda da qanını qaraldıb çəkilirdi.

Axı vaxtilə o, Qazanqapla indi xüsusi vaqonlarda gələn yoxlama-təmir briqadasındakı ağzıgöyçək tiplərin dediyi sözlər barədə öz aralarında söhbətlər eləmişdi, xeyli əvvəllər, bu indiki əllamələr tumançaq gəzdikləri vaxtlarda, başqa-başqa məsələlərdən də danışıqları olmuşdu, onlar hələ o vaxtlar dərrakələri çatan dərəcədə günü-güzəranı götür-qoy eləmişdilər, sonralar həmişə belə-belə şeylərdən

söhbətləri olardı – şükür ki, vaxtı vardı – qırx beşinci ildən bəri, illah da Qazanqap təqaüdə çıxandan sonra, işi düz gətirməyəndə: getdi şəhərə oğlunun yanında qalmağa, heç üç ay da keçmədi ki, qayıtdı geri. O vaxt çox dərd-dur elədilər, dünyanın gəldi-gedərindən. Müdrik adamdı Qazanqap. Yada salmalı çox şey var... Və Yedigey birdən tam aydınlığı və üstünə hücum çəkən bir ağrı, göynək ilə hiss elədi ki, innən belə ancaq xatirələr qalır, ancaq xatirə...

Yedigey danışıq aparatındakı mikrofonun şıqqıltı ilə işə düşdüyünü eşidən kimi tələsik köşkə girdi. Bu səfeh qurğu əvvəlcə çovğun səsi kimi xırıldayıb-vıyıldadı, sonra adam səsi eşidildi:

– Yedige, allo, Yedige, – mikrofonda razyezdin növbətçisi Şahmərdanın xırıltılı səsi eşidildi. – Məni eşidirsənmi? Cavab ver!

– Eşidirəm, eşidirəm!

– Eşidirsən?

– Hə, eşidirəm!

– Necə eşidirsən?

– O dünyadan gələn səs kimi!

– O dünyadan niyə?

– Nə bilim!

– Hə... ə... deməli, qoca, Qazanqapı deyirəm...

– Nə deyirsən?

– Deməli, deyirəm, – Şahmərdan baş vermiş hadisəyə münasib söz axtararaq azacıq fasilə verdi – belə çıxır ki, qoca, necə deyərlər, öz şərəfli həyatını başa vurdu.

Yedigey ürəyində "heyvana bir bax ey, vəfat eləmiş bir adam haqqında da adam kimi söz deyə bilmir" düşünsə də bir kəlmə ilə cavab verdi:

– Hə!

Bir anlığa Şahmərdanın səsi kəsildi, birdən mikrofon daha bərkdən xırıltı, inilti saldı, nəfəs xışıltısı da ona qarışdı. Sonra Şahmərdan yenə xırıldadı:

– Mənə bax, Yedige, əzizim, indi ölüb deyə mənə başağrısı vermə... Mənim adamım yoxdur. Vacibdir yanında oturasan, oturanda xorttayıb durmayacaq, deyirəm...

– Mən də deyirəm ki, səndə qanacaq-zad yoxdur, – deyə Yedigey hiddətindən bilmədi ki, nə eləsin, necə yəni başağrısı vermə, sən cəmi burda ikinci ildir işləyirsən, biz onunla bir yerdə otuz il can çürütmüşük.



Səndə ağıl varsa fikirləş. Aramızda insan ölüb. Onu otaqda tək qoymaq olmaz, yaramaz!

– E!.. Ölü nə bilir ki, təkdir, yoxsa yanında adam var?

– Biz ki, bilirik.

– Di yaxşı, səs-küy salma, qoca, hirslənmə!..

– Səni başa salıram.

– Nə istəyirsən axı, mənim artıq adamım yoxdur. Onsuz da indi gecənin bu vaxtı neyləyəcəksən orda?

– Duva edəcəm, yasin oxuyacam, el adətiynən ölünü kəfənə tutacağam...

– Yasin oxuyacaqsan? Sən, Boranlı Yedigey ha?!

– Bəli, mən, bilirəm, əlimdən gəlir.

– Pay səni, altmış ildir Sovet hökuməti qurulub...

– Sən bu sözləri burax, Şahmərdan, Sovet hökumətinin bura nə dəxli var, ölən üçün qədimdən bu yana yasin oxunur, namaz qılınır, axı insan vəfat eləyib, heyvan ölməyib ki!

– Yaxşı, yaxşı, qaraqışqırıq salma, get öz bildiyini elə. İndi Caydaq Ədilbəyə xəbər göndərərəm, razı olsa gəlib səni əvəz eləyər. İndi ayıq ol, yüz on yeddinci gəlir, ikinci ehtiyat yolu hazırla...

Elə bu sözlə də Şahmərdan danışığı kəsdi, cihazın açarı şaqqıldayıb susdu, Yedigey tələsik yolçevirən makasa yaxınlaşaraq fikirləşdi ki, görəsən, Ədilbəy razılıq verib onu əvəz eləməyə gələcəkmi? Uzaqdan bir neçə evin pəncərəsindən parlayan işıqları görəndə xeyli təskinlik tapdı. "Yox, adamlarda hələ insaf-vicdan var, – deyə düşündü. – Deməli, Ukubala boranlıları narahat edib ayağa qaldırır".

Bu müddət ərzində Yüz on yeddinci ikinci ehtiyat yola qəbul olundu, qarşı tərəfdən də vaqonları neft çənlərindən ibarət olan yeni yük qatarı gəldi, aralanıb hərəsi bir səmtə, biri qərbə, o biri də şərqə getdi.

Gecə saat iki idi, göydəki ulduzların şövqü artır, hər biri özözlüyündə aydın seçilirdi. Ayın özü də Sarı-Özək göylərində elə bil ki, hardansa aldığı, get-gedə çoxalan əlavə bir qüvvə ilə işığını artırdı. Ucsuz-bucaqsız Sarı-Özək çöllərinin ulduzlu göyləri altında isə uzaqlarda dəvələr arasında Boranlının iki donqarlı nəhəng Qaranərinin və yaxınlıqdakı dikdirlərin qaraltısı görünürdü. Qalan yerlər dəmiryolun hər iki tərəfində qaranlığa qərq olmuşdu. Külək də yatmamışdı, yerdəki zir-zibili xışıldadırdı.

Yedigey gah köşkə girir, gah çıxır, gözləyirdi ki, Caydaq Ədilbəy dəmiryolunda görünəcək, ya yox? Elə bu vaxt Yedigey bir az aralıda bir heyvan gördü. Bu, tülkü idi, gözləri qırpım çalan yaşıl bir işıqla parlayırdı. O, teleqraf dirəyinin böyründə ölgün bir vəziyyətdə dayanmışdı. Görkəmindən nə yaxınlaşmaq, nə qaçıb uzaqlaşmaq istəyinə oxşayırdı.

– Burda neynirsən? – Deyə Yedigey zarafatyana deyindi, barmağıyla onu hədələdi. Tülkünün eyninə də gəlmədi. – Bıy, qudurmuşa bax ey! – Ayağını yerə vurdu.

Tülkü azacıq kənara sıçrayıb təzədən şöngüdü, gözünü zilləyib kədərlə baxdı. Yedigey düzü tam ayırd eləyə bilmədi, tülkü ona baxırdı, yoxsa onun yanında olan nəyəsə başqa bir şeyə? Tülkü bura niyə gəlmişdi? Onu nə çəkib gətirə bilərdi bura?! Elektrik işığına gəlib, ya aclıq çəkib gətirib? Tülkünün davranışı Yedigeyə qəribə göründü. Bəlkə bir daş götürüb vurum, indi ki, ov özü gəlib girimə keçib. Yedigey yerdən iri bir daş götürüb tuşladı, qolaylayıb atmaq istədi, amma əl saxladı, daşı ayağı altına saldı. Hətta onu tər basdı. Tülkünü vurmaq istəyəndə bir əhvalat yadına düşdü – kimin danışdığını yadına sala bilmədi, ya təmir üçün gələn tiplərin birindən, ya da oturub-durub Allahdan danışan o fotoqrafdan eşitmişdi... Yox, yox, Allahın lənətinə gəlsin, Sabitcan danışmışdı, deyəsən, ölür əllaməlik üçün, təki qulaq asan olsun, təki camaatı təəccübləndirsin. Ölülərin ruhunun başqasına köçdüyünü Qazanqapın oğlu Sabitcan danışmışdı. İşə bax ey, gör adamın ağlına nələr gəlir! Səfehliyə bax!

Bu gəvəzəni oxudub öz başlarına bəla eləmişdilər. Əvvəlcə adama elə gəlir ki, pis oğlan deyil – hər şeyi bilir, hər şeydən xəbəri var... Amma nə fayda! Oxumağına oxuyub – internatda da, institutda da, di gəl ki, adam deyil, adamlığı yoxdur! Elə hey özünü öyür, içir, məclislərdə sağlıq deyir, amma işə gələndə heç nə! Müxtəsəri, boş gopçunun biridir, diplomunu gözə soxsa da Qazanqapa oxşarı yoxdur. Yox, fərsiz çıxdı, atasına çəkməyib... Allahın işidir, çarə nədir, olanı budur.

Bir dəfə necə oldusa dedi ki, Hindistanda belə bir təriqət sahibləri var ki, ölənlərin ruhunun başqa bir canlıya, lap qarışqaya keçdiyinə inanırlar. Onlar iddia edirlər ki, insan hələ dünyaya gəlməmişdən əvvəl mütləq, nə vaxtsa bir quş, ya adicə bir ev heyvanı, ya vəhşi heyvan, fərqi yoxdur, ya da adicə böcək olub. Buna görə də onlar hansı canlı olursa olsun, fərqi yoxdur, onu öldürməyi günah sayırlar. Yolüstü lap ilana da rast gəlsələr, ancaq baş əyib, təzim edib yol verirlər.



Bu dünyada nə əcaib iş desən olar! İndi kim bilsin ki, bunların hansı düzdür, hansı yalan?! Bu gen dünyanın sirlərinin hamısını insan necə bilə bilər? Daş götürüb tülkünü vurmaq istəyəndə ağlına gələn əcaib fikir də elə bu idi. Kim bilir, bəlkə Qazanqapın ruhu bu tülküyə keçib? Ölümündən sonra daxması boş, kimsəsiz qaldığı üçün canı darıxıb, baş götürüb gəlib ən yaxın dostunun yanına?.. "Olmaya ağlım çaşır?" – Öz-özünü danladı, amma yenə də tülküyə ehtiyatla yaxınlaşa-yaxınlaşa elə danışırdı ki, guya tülkü onun dediklərini başa düşür:

– Çıx get, buralar sənin yerin deyil, eşidirsən, get, yeri çöllüyə, amma itlər olan yerə getmə, get, Allah amanında, çıx get çöllüyə...

Tülkü dönüb uzaqlaşdı, bir-iki dəfə geri baxandan sonra qaranlıqda itdi.

Bu vaxt Boranlıya taraqhataraqla növbəti yük qatarı daxil oldu, tədricən sürətini azaltdı, tamam dayanandan sonra, lokomotivin maşinisti başını çıxarıb salam verdi:

– Ey Boranlı Yedigey, əssalamu-əleyküm.

– Və əleyküm-əssəlam.

Yedigey başını qaldırıb baxdı ki, salam verənin kim olduğunu yaxşı görə bilsin. Bu yolda hamı bir-birini tanıyırdı. Xoşbəxtlikdən gələn tanış çıxdı. Yedigey elə onunla da Ayzadənin yaşadığı qovşaq stansiyası Kumbelə sifariş göndərdi ki, atasının ölüm xəbərini qızına yetirsin. Maşinist Qazanqapın xatirəsinə olan hörmətə görə bu işə məmnuniyyətlə razılıq verdi. Bunu da vəd elədi ki, Kumbeldə qatar briqadaları dəyişiləsi olduğu üçün Ayzadə yetirib hazır ola bilsə, onu ailəsi ilə birlikdə özü gətirər.

Bu, etibarlı adam idi. Yedigey bir yüngüllük hiss etdi. Deməli, vacib işlərdən biri görülmüşdü.

Qatar bir neçə dəqiqədən sonra hərəkətə gəldi, Yedigey maşinistlə xudahafizləşəndə gördü ki, sürətini artıran qatarın böyrü ilə Caydaq bir adam gəlir, diqqətlə baxıb Ədilbəyi tanıdı.

Yedigey növbəni Caydaq Ədilbəyə təhvil verənə baş vermiş hadisə haqda danışıb, ah-ufla mərhumun xatirəsini yad eləyənə kimi, Boranlıdan iki qatar da keçdi. Yedigey işlərini qurtarandan sonra evə yollandı. Yolda bayaq unudub arvadına deyə bilmədiyi söz yadına düşdü. Daha doğrusu, arvadı ilə məsləhət etmək istəyirdi ki, Qazanqapın ölüm xəbərini qızlarına və kürəkənlərinə necə yetirsin?

Yedigeyin iki ərli qızı tamam ayrı səmtdə – Qızıl Ordanın yaxınlığında olurdular. Böyük qızı düyüçülük sovxozunda işləyirdi, əri də orada traktorçu idi. Kiçik qızı isə əvvəlcə Qazanlı stansiyası yaxınlığında olurdu, sonra ailəsi ilə birlikdə bacısıgilə yaxın yerə köçmüşdü. Onun da əri elə o sovxozda sürücü işləyirdi. Düzdür, Qazanqap onlar üçün dəfninə gəlmək vacib olan doğma adam olmasa da, Yedigey belə hesab edirdi ki, Qazanqap onlara qohumdan da yaxındır. Qızları Boranlıda Qazanqapın gözü qabağında böyüyüb ərsəyə çatmışdılar. Kumbel stansiyasındakı internat məktəbində oxumuşdular. Onları internata növbə ilə gah Yedigey özü, gah da Qazanqap aparmışdı. Qızlarının uşaqlıq çağlarını xatırladı. Xatırladı ki, tətilə gedəndə və ya tətildən qayıdanda qızlarını Qaranərin belində necə aparıb-gətirərdi, kiçik qız qabaqda oturar, böyüyü arxada, ata da ortalıqda... Bax beləcə hər üçü bu üç saatlıq yolu gedib-gələrdilər. Qış aylarında Qaranər löhrəm getsə də, Boranlıdan Kumbelə yol daha çox çəkirdi, qızlar dərsi qurtarandan sonra geri qayıdardılar. Yedigeyin vaxtı olmayanda qızları Qazanqap aparırdı, qoca onlara lap doğma ata qədər yaxın idi. Yedigey qərara gəldi ki, səhər onlara teleqram vursun, imkanları olsa, gələrlər, hər halda bilsinlər ki, qoca dünyadan köçüb...

Sonra yol gedə-gedə qət elədi ki, sabah tezdən hər şeydən əvvəl Qaranəri örüşdən gətirsin, çox lazım olacaq. Ölmək də, elə öləni bu dünyada abırla basdırmaq da asan məsələ deyil... Bir də görürsən ki, filan şey yoxdur, filan çatışmır, gərək hər şeyi özün tapasan – kəfəndən tutmuş ehsan ocağı üçün odunacan...

Elə bu andaca havada bir təlatüm əmələ gəldi. Bu, cəbhədə adamın ayağının altında yer titrədən güclü partlayış dalğasına bənzədi. Gözünün qabağındaca çölün o başında, deyilənlərə görə Sarı-Özək kosmodromunun yerləşdiyi tərəfdən, göyə nəsə od-alov qasırğasına bürünmüş bir şey dikəldi. Yedigey döyükübb yerində mıxlandı, – kosmosa raket qalxırdı. O, hələ belə şey görməmişdi. Bütün sarıözəklilər kimi o da bilirdi ki, qırx kilometr aralıda, bəlkə bir az da az, Sarı-Özək kosmodromu yerləşir, onu da bilirdi ki, Toqrək-Tam stansiyasından ora ayrıca dəmiryolu da çəkilib. Hətta, danışırdılar ki, çölün o yerində böyük mağazaları olan böyük bir şəhər də salınıb, radiodan, danışıqlardan, qəzetlərdən kosmonavtlar və kosmik uçuşlar barədə də çox şeylər bilirdi. Bütün bu işlər bu yaxın illərdə görüldüyü halda, onların çox şeydən xəbərləri yox idi. Halbuki, Sabitcanın yaşadığı



şəhər buradan qatarla gün yarımlıq yol olsa da oradakı uşaqlar özfəaliyyət xorunda oxuduqları mahnıda deyirdilər ki, onlar dünyada ən xoşbəxt uşaqlardır, çünki kosmonavt əmilər kosmosa onların torpağından uçurlar. Ancaq kosmodromu əhatə eləyən yerlərin hamısı qapalı zona hesab olunduğu üçün, Yedigey bu yerlərin yaxınlığında yaşadığına baxmayaraq, kənardan eşidib-bildikləri ilə kifayətlənməli olurdu. İndi budur, kosmik raketin ətrafa titrək işıq fəcri saçaraq tüğyan edən gərgin alov içində sürətlə ulduzlu səmanın qaranlığına sancıldığını öz gözləri ilə gördü. Yedigey özünü-sözünü çaşmışdı – yəni doğrudan da od-alov içində adam var? Görəsən neçə nəfərdilər, bir, ya iki? Bəs necə olub ki, illərdən bəri burda yaşaya-yaşaya bir dəfə də olsun bu cür kosmik raket uçuşunu görməyib? İndiyə qədər kosmosa gör nə qədər uçan olub, hesabını da itirib... Bəlkə əvvəlki gəmilər gündüz uçublar? Əlbəttə, gün işığında bu boyda məsafədən onu görmək çətin ki, mümkün olsun. Onda görəsən indiki niyə gecə uçdu? Görünür, tələsik işdir, ya da belə lazım imiş... Bəlkə də buradan gecə qalxır, amma ora çatanda gündüzə düşür? Sabitcan bir dəfə dedi axı, kosmosda hər yarım saatdanbir gecə gündüzü əvəz eləyir. Özü də elə dedi ki, guya özü orada olub. Gərək ondan bir də soruşum. Sabitcan hər şeyi bilir. Bir istəyi varsa, o da hər şeydən xəbərdar olan bilikli adam kimi görünməkdir. Hər necə olsa da vilayət şəhərində işləyir. Amma gözə kül üfürməyi olmasa, axı nəyə lazım? Necə varsansa, elə ol. "Mən filan böyük adamla bir yerdə olmuşam, nə bilim, filan rütbəli adama filan cür dedim...". Amma bizim Caydaq Ədilbəy bir dəfə necə olursa onun iş yerinə gedir, dediyinə görə Sabitcan gözləmə otağı ilə kabinet arasında hələk-vələk imiş. Sözü də bu olub ki: "Eşidirəm, Əlcabbar Qəhrəmanoviç, oldu, baş üstə, Əlcabbar Qəhrəmanoviç!" Caydaq Ədilbəyin dediyinə görə o, Əlcabbar kabinetində oturub elə zəngin düyməsini basırmış, bir dəqiqə oturub əməlli-başlı danışmağa vaxt tapa bilməyib... Deməli, bizim Boranlımız belə imiş... Eh, nə isə, özü bilər, necə var, elə də var. Heyf təkcə Qazanqapdan, axı oğluna görə çox nigaran idi. Axır günəcən bir dəfə də oğlundan giley-güzar eləmədi, getdi şəhərə, oğlunun, gəlininin yanında yaşamağa, özləri gəlib onu dilə tutub apardılar, bəs axırı nə oldu? Bu başqa söhbətdir...

Kosmik raketi gözdən itincəyə qədər izləyib, Yedigey o zinrik gecədə bu cür fikirlərlə gedirdi. O, dayanıb həmin qəribə möcüzəyə xeyli tamaşa etmişdi. Odlu gəmi qalxır, getdikcə kiçilirdi, nəhayət o,

kiçik bir nöqtəyə dönüb, ağ duman kimi qaranlıqda qeyb oldu. Yedigey başını bulayıb, beləcə qəribə ziddiyyətli duyğular içində yoluna davam etdi. Gördüyündən heyrətlənsə də, o eyni zamanda başa düşürdü ki, bu ona dəxli olmayan yad, yabançı heyrət və qorxu doğuran bir şeydir. Birdən o, dəmiryol kənarına qaçıb gəlmiş tülkünü xatırladı. Görəsən tülkü göyə dikilən bu odlu qasırğanı görəndə neyləyib? Yəqin yazıq özünü itirib, başını soxmağa deşik axtarıb...

Bu gecə kosmik raketin fəzaya uçmağının şahidi olmuş Boranlı Yedigey bilmirdi, bilə də bilməzdi ki, bu uçuş təcili və qəza uçuşu idi, bu gecə kosmonavtla birlikdə fəzaya uçan kosmik gəmi, heç bir raport verilmədən, təntənə-filan olmadan, jurnalistlərin iştirak eləmədiyi bir şəraitdə, Amerika-sovet proqramına əsasən il yarımdan bəri şərti olaraq "Tramplin" adlandırılmış orbitdə "Paritet" kosmik stansiyasında baş vermiş fövqəladə hadisə ilə əlaqədar idi. Yedigey bunları haradan biləydi. Yedigey bunu da bilmirdi ki, bu gecə gördüyü hadisənin onun da həyatına dəxli olacaq, özü də ona görə yox ki, sözün ən ümumi mənasında insanla bəşəriyyətin əlaqəsi qırılmazdır. Yedigey bunu da qətiyyən bilə bilməzdi ki, Sarı-Özəkdən qalxmış kosmik gəmidən bir azca sonra planetin əks tərəfindən – Amerikadakı Nevada kosmodromundan eyni məqsədlə qalxan ikinci kosmik gəmi, "Tramplin" orbitində, əks dövriyyə ilə həmin "Paritet" stansiyasına yaxınlaşır.

Kosmik gəmilər təcili surətdə "Demiurq" proqramını ifadə edən Sovet-Amerika Birləşmiş İdarə Mərkəzinin dəniz bazası olan "Konvensiya" təyyarədaşıyan gəmisindən verilmiş əmrə görə göndərilmişdi.

"Konvensiya" təyyarədaşıyan gəmisi öz həmişəki yerində – Sakit okeandakı Aleut adalarından cənubda, Vladivostokla San-Fransisko şəhərləri arasındakı məsafənin ortasındakı kvadratda idi. Birləşmiş İdarə Mərkəzi – Biridamərk – bu vaxt hər iki kosmik gəminin "Tramplin" orbitinə çıxmasını gərginliklə izləyirdi. Hələlik hər şey öz qaydasında idi. "Paritet" kompleksilə birləşmək üçün lazımi manevrlər edilməli idi. Bu mürəkkəb iş idi.

"Paritet" on iki saatdan artıq idi ki, Birləşmiş İdarə Mərkəzi "Konvensiya"dan göndərilən siqnallara cavab vermirdi. Birləşməyə gedən gəmilərin də siqnalları cavabsız qalırdı... Dəqiq müəyyən etmək lazım idi ki, "Paritet"in ekipajına nə hadisə üz vermişdir?



## II

*Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*

*Bu yerlərdə dəmiryolunun hər iki tərəfi ilə intəhasız sarı torpaq çöllərin göbəyi hesab edilən Sarı-Özək düzənliyi uzanıb gedir...*

*Coğrafiyada hər şey Qrinviç meridianından ölçülən kimi, bu yerlərdə də bütün məsafələr dəmiryol ilə ölçülürdü.*

*Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər.*

Naymanların dədə-baba qəbiristanlığı sayılan Ana-Beyit qəbiristanlığına Boranlıdan azı otuz kilometr yol vardı, özü də gərək dəmiryoluna köndələn səmt tutub kəsə yolla gedəsən, Sarı-Özək düzündə gərək fəhmini itirməyəsən, özünə arxayın olub kəsə yolla getməyə ürək eləməsən, onda gərək dəmiryolun böyründəki adi yolla gedəsən. Bu yol xeyli uzundur. Çünki Qıysaqçay dərəsindəki döngədən Ana-Beyitə çatmaq üçün gərək nə boyda dövrə vurasan... Başqa yol yoxdur, sözün qısası, otuz verst o başa, otuz da bu başa. İndiki boranlılardan, Yedigeydən başqa, o yola bələd olanı yox idi. Doğrudur, qədim Beyit qəbiristanlığı haqqında çox söz-söhbət eşitmişdilər, amma vəziyyət elə gətirmişdi ki, hələ gedib Ana-Beyiti öz gözü ilə görən olmamışdı. Əslində buna ehtiyac da yox idi. Uzun illər ərzində səkkiz evdən ibarət olan qəsəbəcikdə bu yeganə hadisə idi ki, adam ölmüşdü, onu dəfn etmək lazım idi. Neçə illər qabaq bir qızcığaz sinəgir olub ölmüşdü. Valideynləri onu dəfn eləmək üçün öz vətənlərinə – Ural vilayətinə aparmışdılar. Bir neçə il əvvəl Qazanqapın arvadı Bikə qarı xəstəxanada vəfat eləyəndə onu Boranlıya gətirməyi məsləhət bilməyib, elə Kumbeldə dəfn elədilər. Kumbel axı Sarı-Özəkdə, demək olar ki, ən iri stansiya idi. Bir də ki, qızı Ayzadə və kürəkəni (içkiyə qurşanmış olsa da özgə deyildi) orda olurdular, heç olmasa qəbrinə göz yetirib baxardılar. O vaxt Qazanqap sağ idi, işini də öz bildiyi kimi tuturdu.

İndi fikirləşir, götür-qoy edir, amma bir qərara gələ bilmirdilər.

Amma Yedigey yenə də öz dediyinin üstündə durdu:

– İgidə yaraşmayan söhbətləri buraxın, canım, – deyə cavanların üstünə bozardı, – belə kişini öz dədə-baba yerimizdə, Ana-Beyitdə dəfn edəcəyik. Mərhum özü belə vəsiyyət eləyib. Yaxşısı budur, gəlin sözdən işə keçək. Xeyli yolumuz var. Hazırlığa başlayaq. Səhər tezdən yola çıxırıq...

Hamı başa düşdü ki,Yedigeyin qərar qəbul eləməyə haqqı var, dediyinə də heç kim etiraz eləmədi. Doğrudur, Sabitcan işə bir pəl vurmaq istədi, o həmin gün, minik qatarları burada dayanmadıqları üçün, yük qatarı ilə özünü yetirmişdi. Gələnə kimi atasının sağlığını, ya öldüyünü qəti bilməsə də özünü çatdırmışdı. Görünür, elə bunu dəqiq bilməyə-bilməyə gəlməsi Yedigeyi mütəəssir eləmişdi, hətta bir növ sevindirmişdi də... Hətta qucaqlaşıb bu böyük dərdin müsibətinə birlikdə ağladıqları anlar-dəqiqələr də olmuşdu. Yedigey sonralar buna görə özünə təəccüb elədi. O özü ilə bacara bilməyib, Sabitcanı bağrına basıb ağlaya-hıçqıra deyirdi: "Nə yaxşı ki, gəldin, gözümün işığı, nə yaxşı ki, gəldin!" Elə bil onun gəlməyi ilə mərhum dirilib ayağa duracaqdı. Yedigey özü də başa düşə bilmirdi ki, niyə belə hönkürüb ağlamışdı, ondan heç vaxt belə şey görünməmişdi. Kimsəsiz qalmış daxmanın həyətində Sabitcanla qucaqlaşıb xeyli ağlamışdılar. Nədənsə yaman kövrəlmişdi, axı atasının sevimli oğlu olan Sabitcan uşaqlıqdan onun gözləri qabağında böyümüşdü, onu Kumbelə, dəmiryolçuların balaları üçün açılmış internat məktəbinə aparırdılar. İmkan tapan kimi gah yük qatarı, gah da dəvəylə gedib ona baş çəkirdilər, görsünlər Sabitcanı yataqxanada incidən yoxdur ki, ya özü cızığından çıxmır ki, necə oxuyur, müəllimlər, onun haqqında nə deyirlər? Bəs totil günlərində onu neçə dəfə kürkə bürüb-büküb Sarı-Özəyin şaxtasında-boranında, qar basmış çöllərlə Kumbelə aparmışdılar ki, dərslərinə gecikməsin.

Eh, yaxşı deyiblər, keçən günə gün çatmaz, çalasan günü günə! Bunlar hamısı indi adama yuxu kimi gəlir. Budur, indi o vaxtkı dəmbərəgöz, üzügülən uşağın yerinə gözlüklü, əzik şlyapalı, köhnə qalstuklu yekə bir kişi gəlib dayanıb. Özü də vilayət şəhərində işləyir, dərdi-azarı da böyük vəzifə, rütbə sahibi kimi görünməkdir. Amma həyat deyilən şey ki var, çox məkrli bir şeydir, böyük vəzifəyə çatmaq elə də asan başa gəlmir. Bir dəfə elə özü şikayətlənib deyirdi ki, qohum-əqrəbadan, yaxşıca tanış-bilişdən arxan, köməyin olmasa, deməli, zəhmətin havayıdır. Mən kiməm ki? Boranlı deyilən bir razyezddə işləyən Qazanqap deyilən birisinin oğlu. Eh, bədbəxt, indi heç bəyənmədiyin o ata da yoxdur. Ölüb getmiş məşhur atadansa, ən fərsiz diri ata min qat yaxşıdır, indi heç bu da yoxdur.

Bir az sonra göz yaşları qurudu. Görüləcək işlərdən danışdılar. Bax, elə buradaca məlum oldu ki, əziz-xələf əllamə oğul, atasını dəfn



eləməyə yox, gəlib ki, tələm-tələsik bir çala qazıb kişini quylayan kimi tezcə də canını qurtarıb qayıtsın. Başladı ki, axı nəyə lazım o uzaqlıqda Ana-Beyitə getmək, gör nə qədər boş yer var, Sarı-Özək elə qapının kənarından dünyanın qurtaracağına qədər bomboş, kimsəsiz, düzənliklər deyilmi? Məgər bu yaxınlıqda münasib bir təpəcikdə, lap elə dəmiryolu böyründəcə qəbir qazmaq olmazmı? Ömrünü bu yerlərdə qoymuş qoca dəmiryolçu qatarların hərəkətlərini, səs-küyünü eşidib həm də bizdən razı qalar. Aralığa salıb köhnə bir məsəl də çəkdi: "Ölü hazır, qəbir qazı!" Artıq-əskik danışmaq, uzatmaq nəyə lazım, ölənin nə eyninə ki, onu harda basdırırlar, necə basdırırlar. İşi nə qədər tez görsən, ölünün də xeyrinədir, dirinin də.

Bu sözləri deməklə o həm də özünə bir növ haqq qazandırmağa çalışdı ki, guya təcili görüləsi mühüm işləri var, onu şəhərdə iş yerində gözləyəcəklər, vaxtı yoxdur. Məlum işdir, rəis rəisdir, onun nə vecinədir ki, qəbiristanlıq uzaqdadır, ya yaxında. Rəis öz sözünü deyir, filan gün, filan saatda işə gəlməlisən, vəssalam! Niyə? Ona görə ki, şəhər şəhərdir, rəis də rəis!..

Yedigey ürəyində özünü – qoca axmaq, – deyə danladı, lap Qazanqapın oğlu olsa da bu tipi bağrına basıb hönkürtü ilə ağladığına xəcalət çəkdi... Skamya əvəzi divarın dibinə düzülmüş şpalların üstündə beş adam oturmuşdu. Yedigey ayağa qalxdı, adamların yanında ona ağır, acı söz deməkdən özünü zorla saxlayaraq, mərhumun xatirinə susub ancaq bunu dedi:

– Yerə qalsa yer çoxdur, nə qədər istəsən yer tapılar. Amma nədənsə adamlar öz qohum-əqrəbasını hara gəldi basdırmır. Yəqin bunun da bir mənası var... Yoxsa kimin torpağa heyfi gələrdi? – Susdu. Boranlılar da susur, ona qulaq asırdılar. – Yaxşı, siz burda bir qərara gəlin, mən də gedim görüm orda işlər nə yerdədir.

Sir-sifəti qaralmış Yedigey ikrahla uzaqlaşdı ki, bir xata-zad işlətməsin. Qaşları düyünlənmişdi. Çox sərt və qızğın adam idi, elə adını da bir cəhətdən xasiyyətinə görə Boranlı qoymuşdular. İndi Sabitcanla tək olsaydılar o utanmazın üzünə olmazın sözünü deyərdi. Elə kəsib tökərdi ki, ölənəcən yadından çıxmasın! Amma arvad söz-söhbətinə baş qoşmaq istəmədi. Odur ey, arvadlar pıçıldaşırlar ki, oğula bir bax, elə bil atasının yasına qonaq gəlib, əli ətəyindən uzun, bomboş. Qalanı başına dəysin, heç olmasa, bircə büküm çay gətirəydi. Gəlini də elə, şəhərli olanda nə olar, hörmət eləyib gələ bilərdi, el qaydasıyla bir az

ağlayıb-oxşasaydı ölməzdi ki... Vallah, camaatda abır-namus deyilən şey qalmayıb, Qazanqapın sağlığında iki sağlam dəvəsi, on beşə kimi qoyun-quzusu olanda yaxşı idi. Onda arvadı da gəlirdi. Gəldi, kişinin olan-qalanını da satdırdı. Guya kişini yanlarına aparırlar. Əslində bütün hoqqaları özlərinə mebel və maşın almaq idi. Elə ki, məqsədlərinə çatdılar, daha kişi də lazım olmadı. İndi heç üzünü də göstərmir. Arvadlar yığışmışdılar mərəkə salsınlar, Yedigey yol vermədi. – Susun, ölənin ruhuna hörmət eləyin, bizim işimiz deyil, qoy özləri ayırd eləsinlər...

O, ağıla tərəf getdi, örüşdən qaytarılmış Qaranər dirəyə bağlanmışdı, hərdən hirslə nərildəyirdi. Bu həftə bir-iki dəfə sürü ilə bərabər nasos qoyulmuş quyunun yanına gəlib su içməyi nəzərə alınmazsa, Qaranər həftəni gecə-gündüz sərbəst gəzmişdi. Əclaf ipə-sapa yatmırdı, indi də öz narazılığını bildirirdi – hərdən qəzəblə ağzını ayırıb iri dişlərini göstərərək nərildəyirdi: köhnə məsələ idi, yenə də tutub bağlamışdılar, ona da öyrəşə bilmirdi...

Sabitcanın sözündən sonra ürəyi nisgilli Yedigey Qaranərin yanına gəldi. O, elə əvvəlcədən bilirdi ki, belə də olacaq. Belə çıxırdı ki, doğmaca atasını dəfn eləməyə gəldiyi üçün hamı Sabitcana minnətdar olmalıdır. Bu işi o, yük hesab eləyirdi və fikirləşirdi ki, bu artıq yükü üstündən mümkün qədər tez atmalıdır. Yedigey Sabitcanla ağız-ağıza verməyi lazım bilmədi, onsuz da hər işi özü görməliydi, sağ olsunlar qonşular da əl yetirirdilər. Dəmiryolunda növbədə olanlardan başqa hamı sabahkı dəfn mərasimi və ehsan üçün hazırlığa kömək eləyirdi. Qadınlar qonşulardan qab-qacaq yığır, samovarları sürtüb təmizləyir, xəmir qatıb çörək bişirirdilər. Kişilər də su gətirir, yollarda öz işini görüb qurtarmış, indi çürüməkdə olan şpallardan odun doğrayırdılar. Quru çöllərdə yaşayanlar üçün yanacaq da su qədər vacib şey hesab edilir. Bu ümumi işdə təkcə Sabitcan əl-ayağa dolaşır, öz yersiz söz-söhbəti ilə onu-bunu işindən-gücündən avara eləyirdi. Nə bilim vilayətdə filankəs filan işdədir, filankəsi işdən çıxartdılar, filankəsi də qabağa çəkdilər. Amma arvadının öz qayınatasını basdırmağa gəlməməsi heç vecinə gəlmirdi. Lap məəttəl qalmalı iş idi! Sözündən belə çıxırdı ki, onun konfransı var, bu konfransda da xarici qonaqlar iştirak edəcəklər: nəvələrin heç adı çəkilmirdi. Nəvələr də məktəb yolunda can qoyurdular ki, aldıqları attestatları instituta girəndə işə yarasın. "Belə də adam olar! – deyə Yedigey ürəyində söyürdü. – Onlara



ölümdən başqa hər şey vacibdir!". Bu məsələ ona rahatlıq vermirdi. "Əgər ölümün onlar üçün heç bir əhəmiyyəti yoxdursa, deməli, həyatın da qədir-qiyməti yoxdur. Onda nə məqsədlə yaşayırlar, niyə yaşayırlar?"

Yedigey hirsini Qaranərə tökdü:

– Nə səsini salmısan başına, timsahın biri, timsah! – Yedigey öz dəvəsinə çox nadir hallarda, lap özündən çıxanda "timsah" deyərdi. Qaranərə timsah adını iri, dişli ağzına və kinli xasiyyətinə görə gəlmə dəmiryolçular qoymuşdular. – Kəs səsini timsah, qanımın qara vaxtı dişlərini qıraram!

Dəvəni alıxlamaq lazım idi. Başı işə qarışdı, hirsi bir az soyuyub sakitləşdi. Qarşısında dağ kimi ucalan Qaranəri baxışlarıyla oxşadı, Yedigey boyca uca olsa da əli Qaranərin başına çatmırdı: dəvəni yatmağa məcbur elədi, əlindəki qamçının sapı ilə dəvənin döyənək olmuş dizinə döyə-döyə, zəhmlə kıx – elədi, nər bərkdən nərə çəkib narazılığını bildirsə də sahibinin əmrinə tabe oldu, dizlərini altına qatlayıb döşünü yerə verərək çöküb toxtadı. Yedigey işə başladı.

Dəvəni tam qaydasıyla alıxlamaq, ev tikmək kimi çətin işdir. Alığı hər dəfə təzədən düzüb-qoşmaq lazım gəlir, bu da xüsusi bacarıq və güc istəyir, illah Qaranər kimi bir dağ ola!

Boranlının dəvəsi "Qaranər" adını da nahaqdan almamışdı. O, qapqara kilkəli başı, qulaqlarının dibinəcən bitmiş sıx qara saqqalı, nərlərin yaraşığı boynunun altıyla dizinəcən sallanan qara-burum yalmanı, belində qoşa qala kimi ucalan donqarı və bütün bu gözəlliyə nöqtə qoyan quyruğunun ucundakı qara saçaqlı qotaza görə almışdı "qara" adını. Bu da eyni zamanda həm qara, həm də böyük demək idi. Nərin qalan yerləri, boynunun üstü, döşü, böyürləri, ayaqları, qarnı, əksinə, açıq-şabalıdı rəngində idi. Qaranər elə rənginə və qamətinə görə şöhrət qazanmışdı. Qaranər nərlik dövrünün ən gözəl çağındaydı. Üçüncü onilliyə təzəcə qədəm qoymuşdu.

Dəvələr çox yaşayırdılar, görünür, elə buna görə də anadan olandan beş il keçməlidir ki, yelinləsin, özü də iki ildən bir doğur, balasını da qalan heyvanlardan çox qarnında gəzdirir. Ən çətini odur ki, köşəyi bir il-il yarım qoruyasan, çölün acı küləklərindən soyuqlayıb tələf olmasın. Sonra daha ona zaval yoxdur, nə soyuqdan qorxacaq, nə istidən, nə susuzluqdan, böyüyüb boy atacaq.

Yedigey belə şeyləri yaxşı bilirdi. Buna görə də Boranlı Qaranəri gümrah saxlayırdı. Qaranərin sağlamlığının və gücünün əlaməti

belindəki çuqun kimi bərk donqarları idi. Bu Qaranəri bir vaxt ona yupyumru, tüklü ördək balasına oxşayan südəmər vaxtında Qazanqap bağışlamışdı, Yedigey cəbhədən qayıdıb Boranlıda məskən salıb kök atanda vermişdi bu dəvəni ona. Yedigey özü də cavan bir oğlan idi. Heç ağlına gəlməzdi ki, burda ömürlük qalıb saç-saqqal ağardacaq. Hərdənbir o illərin fotosuna baxır, gözlərinə inanmırdı. Yamanca dəyişib, saç-saqqalı, hətta qaşları da ağarıb, söz yox sifəti də dəyişib, amma yaşına görə bədəncə hələ möhkəm idi, ağırlaşmamışdı. Bığ-saqqalı da elə bil öz-özünə əmələ gəlmişdi – əvvəlcə bığ buraxdı, sonra da saqqala toxunmadı. İndi də özünü saqqalsız heç təsəvvürünə gətirə bilmirdi. Saqqalsız olmağını elə çılpaq olmaq kimi bir şey bilirdi. Eh, o vaxtdan nə qədər sular axmışdı. İndi Yedigey hıxlanıb oturan, hərdən də uzun boyunlu, kilkəli başını döndərib şir kimi nərə çəkərək dişlərini ağarda-ağarda narazılığını bildirən nəri gah səsi, gah da əli ilə hədələyərək toxdadır, işləyə-işləyə o illərdə olub-keçənləri xatırlayır, xatırladıqca da yumşalırdı...

Yedigey alığı, noxtanı, qalan bənd-bağı yerbəyer eləyənəcən xeyli əlləşdi. Bu dəfə alığın altından dəvənin belinə əlvan xallı, naxışlı, qədim tikməylə işlənmiş bir səfər tərliyi saldı. Axırıncı dəfə bu tərlikdə Qaranəri nə vaxt bəzədiyi heç yadına da gəlmirdi. Ukubala tərliyi yaman qoruyub saxlayırdı. İndi fürsət düşmüşdü...

Qaranəri səfərə hazırlamaq üçün çox əlləşməli oldu, taxt-rəvan düzəldənə qədər onun belinə Ukubalanın qısqanclıqla qoruyub saxladığı əlvan naxışlı, qədim tikməli tərliyi saldı. Qəzanın işinə bir bax, gör nəyə qismət oldu bu təmtəraq, halalı olsun!

Boranlı Qaranər hazır olanda Yedigey onu ayağa durğuzdu və öz işindən razı qaldı, hətta ürəyində fəxr də elədi. Qotazlı tərliklə bəzənmiş, iki donqarı arasında ustalıqla taxt-rəvan qoyulmuş Qaranərin çox əzəmətli və cüssəli görkəmi vardı. Qoy bu cavanlar, xüsusilə bax o Sabitcan baxıb gözünə su versin. Qoy başa düşsün ki, ləyaqətlə yaşamış adamın dəfni artıq yük, əngəl deyil, əksinə kədərli də olsa çox böyük şərəf işidir. Matəmin də şərəfli cəhətləri var, – birində musiqi çalınır, bayraq sallanır, başqasında yaylım atəşi, o birində gül-çiçək əklilləri...

O özü isə, Boranlı Yedigey, sabah tezdən matəm mərasimi üçün qotazlı tərliklə bəzədilmiş Qaranərin üstündə gedəcək, dünyada ona ən əziz adam olan Qazanqapı öz əbədi mənzilinə – Ana-Beyitə yola



salacaq. Bütün yolu intəhasız və kimsəsiz Sarı-Özək düzənliyindən keçərkən ancaq Qazanqap haqqında düşünəcək. Mərhumun öz vəsiyyətinə görə onun cənazəsini dədə-baba qəbiristanlığında torpağa tapşıranda da onu düşünəcək. Aralarında belə bir danışıq olmuşdu. Bəli, Ana-Beyitə gedən yol yaxındır, ya uzaq doxli yoxdur, Qazanqapın bu vəsiyyətini yerinə yetirmək fikrindən Yedigeyi heç kim daşındıra bilməzdi, hətta mərhumun öz doğmaca oğlu da!..

Qoy hamı bilsin ki, ayrı cür ola da bilməz, onun Qaranəri də bu məqsəd üçün bəzədilib, hazırlanıb.

Qoy hamı görsün deyə Yedigey Qaranəri yedəkləyib evlərin qabağından keçirtdi, sonra da gətirib Qazanqapın daxmasının qabağında bağladı. Qoy hamı görsün, ola bilməz ki, Boranlı Yedigey verdiyi sözü yerinə yetirməsin!

Yedigey dəvəni sahmanlayan vaxt Caydaq Ədilbəy fürsət tapıb Sabitcanı kənara çəkdi:

– Gəl çəkilək kölgəyə, sənə sözüm var.

Orda onların söhbəti çox çəkmədi. Ədilbəyin onu dilə tutmaq fikri yox idi, hər şeyi açıq düznəqulu dedi:

– Bilirsən nə var, Sabitcan, Allaha şükür elə ki, atanın Boranlı Yedigey kimi vəfalı dostu var. Mane olma, qoy kişini el adətiylə basdıraq, tələsirsən çıx get saxlamırıq. Sənin yerinə özüm bir ovuc torpaq artıq ataram.

– Ata mənimdir, özüm bilərəm... – deyə Sabitcan yenə də höcət eləmək istəyəndə Ədilbəy onun sözünü yarımçıq kəsdi:

– Ata sənin olmağına sənindir, amma sən özündə deyilsən.

Sabitcan duruxdu:

– Sən də söz danışdın, – dedi, – gəl bu ağır gündə sözləşməyək, qoy Ana-Beyit olsun, yaxşı, dediyim odur ki, uzaqdır...

Söhbət də bununla qurtardı. Yedigey Qaranəri göz qabağında bağlayandan sonra qayıdıb boranlılara üz tutub dedi:

"Kişiyə yaraşmayan söhbətləri qurtarın, bu cür kişini ancaq Ana-Beyitdə basdıracağıq..." – heç kəs etiraz eləmədi. Hamı kirimişcə razılaşdı...

Həmin axşam və gecəni qonşular mərhumun daxmasının qabağında keçirdilər. Şükür ki, hava da yaxşı idi. Gündüzün istisindən sonra, Sarı-Özəkdə payız qabağı axşamlar sərin olurdu. Dünyanı nəhayətsiz, küləksiz, ala-toran sakitlik bürümüşdü, sabahkı ehsan

üçün kəsilmiş qoyunu elə şər qarışandaca soyub təmizlədilər, sonra tüstülənən samovarın yanında çay içdilər, olub-keçəndən danışdılar. Sabahkı dəfn mərasimi üçün, demək olar ki, bütün işlər görülüb qurtarmışdı. Bircə o qalırdı ki, sabah açılsın, Ana-Beyitə yol alsınlar... Həmin gecə sakit və rahat keçdi, – dünyada ömür sürmüş, saç-saqqal ağartmış bir adam öləndə belə də olur – ömrünü sürüb köçdü, artıq dərd eləmək nəyə lazım...

Boranlıya həmişəki kimi yenə də qatarlar girirdi – biri şərqdən, biri qərbdən, təzədən biri qərbə, biri də şərqə yol alırdı...

Bəli, o gecə Ana-Beyitə getmək ərəfəsində vəziyyət pis deyildi, əgər xoşagəlməz hadisə nəzərə alınmasaydı... Həmin gecə Ayzadə münasib yük qatarı ilə atasının dəfn mərasiminə gəldi. Hönkürtü çəkib gəldiyini bildirəndə arvadlar onu araya alıb səsinə səs verdilər. Xüsusilə Ukubala Ayzadəyə qoşulub özünü həlak eləyir, hönkürüb ağlayırdı... Ayzadəyə ürəyi yanırdı, gözlərinin yaşını tökə-tökə ağı deyirdi, sakitləşmək bilmirdilər. Yedigey Ayzadəyə təsəlli vermək istədi ki, daha nə eləmək olar, yazıya pozu yoxdur, birtəhər dözüb qatlaşmaq lazımdır... Amma Ayzadə sakitləşmək bilmirdi ki, bilmirdi.

Belə şey tez-tez olur, – çoxdan bəri yığılıb ürəyində qubar bağlamış dərdini camaatın qabağında açıb tökmək üçün atasının ölümü bir fürsət idi. Saçları, ağlamaqdan şişmiş sifətinə dağılıb tökülən Ayzadə atasının meyitinə üz tutub hönkürtü çəkir, arvadlara məxsus bir əda ilə öz qara bəxtindən şikayət edib deyirdi ki, nə dərdinə qalanı, nə təsəlli verəni var, cavanlıqdan bədbəxt olub – əri əyyaş, uşaqları başsız-böyüksüz, səhərdən-axşamacan stansiyada avaralanırlar, sabah-birisi gün quldur olub qatarlarda soyğunçuluq eləyəcəklər, böyüyü içməyə başlayıb, milisdən gəlib xəbərdarlıq eləyiblər ki, belə getsə işi prokurora veriləcək. Bəs o, başına nə daş salsın, altı uşaqla necə bacarsın! Atalarının heç vecinə deyil...

Onun doğrudan da vecinə deyildi, tamam biganə və məxmur, qüssə-xəyal içində oturmuşdu, amma bu halı ilə yenə də, necə olmasa, yığışıb qayınatasının dəfninə gəlmişdi, oturub bir tərəfdə pis qoxulu ucuz siqaretindən çəkirdi. Arvadların qaraqışqırığı onunçün təzə şey deyildi. Bilirdi: qışqırıb, bağırıb yumşalacaqlar... Bu məqamda qızın qardaşı Sabitcanın işə qarışmağı yersiz çıxdı. Hər şey də elə bundan başlandı: "Bu harda görünüb, nə oyundur açırsan, atanı dəfn eləməyə gəlmisən, yoxsa özünü biabır eləməyə? Qazax qızı hörmətli atasının cənazəsi üstündə belə ağı deyərmi?! Məgər qazax arvadlarının ağı deməsi yüz illərin nəsilləri üçün əfsanəyə, nəğməyə çevrilməyibmi?! O ağıların təsirindən bircə ölülər dirilməyib, dirilərin hamısı göz yaşlarına qərq olub. Bu ağılarda mərhum həmişə tərif olunub, onun ləyaqəti göylərə ucaldılıb – o vaxt qadınlar bax belə ağlayıblar. Bəs sən nə eləyirsən? Başlamısan ki, yazığam, bədbəxtəm, nə bilim nəyəm!.."

Ayzadəyə də elə bil bu lazım idi. O, təzə qüvvət almış kimi, qəzəblə, bir az da bərkdən qışqırmağa başladı:

– Ağıllıya, alimə baxın! Get əvvəlcə arvadının başına ağıl qoy. Bu gözəl sözlərini əvvəlcə onun beyninə yerit! Bəs niyə gəlib o dediyin ağılardan bizə öyrətmir? Gəlib atamız üçün bir az ağlasaydı günah olardı, o ifritə də, sən əclaf da qocanı üryan qoydunuz. Mənim ərim əyyaş olsa da burdadır, bəs sənin o başbilənin hansı cəhənnəmdədir?

Bacısının həyasızlığını görəndə Sabitcan yeznəsinə qışqırmağa başladı ki, Ayzadənin səsini kəssin. Onun da birdən cini vurdu başına, cumub Sabitcanı boğazlayıb boğmağa başladı...

Boranlılar coşub bir-birinə girişmiş qohumları güc-bəla ilə ayıra bildilər, hamı xəcalət çəkib utanırdı. Yedigeyin qanı bərk qaraldı. Onların necə adam olduqlarını bilirdi, amma işin bu çilləyə minəcəyini gözləmirdi. Hirsi soyumamış ikisinə də xəbərdarlıq elədi:

– Əgər siz bir-birinizə hörmət eləmirsinizsə, heç olmasa, atanızın xatirəsini ləkələməyin, yoxsa ikinizi də qapıdan qovaram, heç nəyə baxmaram. Onda özünüzdən küsün...

Bax, dəfn ərəfəsində belə xoşagəlməz əhvalat oldu. Yedigeyin qanı lap qaraldı. Yenə də tutqun sifətində qaşları çatıldı, yenə də suallar qəlbini didişdirdi – bu uşaqlar haradan əmələ gəlib? Axı bunlar niyə bu günə düşüblər? Qazanqapla birlikdə onları göydən od yağan istidə, boranlı soyuqda da Kumbel internat məktəbinə aparanda bunumu arzulayırdılar? Arzuları bu idi ki, uşaqlar oxuyub adam olsunlar, adam içinə çıxsınlar, daha bu Sarı-Özək çölündə çürüyüb qalmasınlar. Sonra valideynlərini günahlandırıb deməsinlər ki, bizi oxutmadılar, bizi lazımınca tərbiyə eləyib təhsil verə bilmədilər. Amma hamısı alt-üst oldu... Bəs niyə, görəsən, böyüyüb elə adam olmadılar ki, baxanda ürək bulanmasın?

Yenə də Caydaq Ədilbəy köməyə gəldi, həssaslıq göstərdi, o axşam Yedigeyin vəziyyətini xeyli yüngülləşdirdi. O,Yedigeyin nələr çəkdiyini yaxşı başa düşürdü. Məlum şeydir ki, dəfn mərasimində

mərhumun övladları əsas simadır, bu həmişə belə olub, nə cür utanmaz, yaramaz olsalar da, gərək birtəhər canını dişinə tutub dözəsən. Buna görə də bacı ilə qardaş arasında yaranmış qanqaralığını birtəhər malalamaq üçün Ədilbəy kişiləri evə dəvət elədi. Sözü də bu oldu ki, nə var həyətdə oturub ulduzları sayırıq, gedək çaydan-zaddan içək...

Caydaq Ədilbəyin evində Yedigey elə bil tamam bambaşqa bir aləmə düşdü. O bu evə əvvəllər də qonşu kimi gələrdi. Hər dəfə də razı qalıb, Ədilbəyin ailə səadətinə ürəkdən sevinmişdi. Bu gün burda daha çox qalmaq istədi, bu nəsə daxili ehtiyac idi, sanki itirdiyi gücünü, qüdrətini təzədən burda tapmaq istəyirdi.

Caydaq Ədilbəy də başqaları kimi yol xidmətçisi idi. Başqalarından da artıq qazanmırdı. Hamı kimi o da quraşdırma taxta evin yarısında – iki otaq və mətbəxdən ibarət olan mənzildə yaşayırdı, di gəl ki, burda tamam başqa həyat hökm sürürdü – təmiz, işıqlı və rahat bir həyat... Hətta bu adi piyalələrə süzülmüş çay da, hansı ki hamının evində var, Yedigeyə şəffaf şan balı kimi şirin gəldi. Ədilbəyin arvadı da həmçinin – görkəmi görkəm, evdarlığı da göz qabağında, gül kimi... Yedigey onlara baxıb özlüyündə fikirləşdi ki, qalıb yaşayarlar, sonra da münasib yer tapıb köçərlər, köçsələr hayıf olar...

Kirz çəkmələrini artırmada çıxarıb içəri otaqda corablı ayaqlarını qoşalayıb bardaş quran Yedigey bu gün ilk dəfə hiss elədi ki, bərk yorulub, həm də acıyıb, kürəyini taxta divara söykəyib susdu. Qalan adamlar isə çox hündür olmayan qabaq stolunun dövrəsində oturub olub-keçəndən danışırdılar.

Əsl söhbət sonra başlandı, aralığa qəribə bir söhbət düşdü. Yedigey dünən gecəki kosmik raket uçuşunu yaddan çıxarmışdı. Ancaq belə şeyləri bilən adamlar elə şeylər danışdılar ki, Yedigey də fikirləşməyə məcbur oldu. Doğrudur, eşitdikləri onun üçün kəşf deyil, intəhası danışılan sözlərə, özünün bu sahədə məlumatsızlığına təəccübləndi. Buna baxmayaraq, içində də olsa xəcalət çəkmədi – başqalarını bu qədər maraqlandıran kosmik uçuşlar onunçün çox uzaq, möcüzə kimi yad bir şey idi. Hər nə isə dünən öz gözləriylə gördüyü kosmik raketin uçuşu onu sarsıdıb valeh eləmişdi. Ədilbəyin evində də söhbət bundan gedirdi.

Əvvəlcə oturub şubat içirdilər – dəvə südündən hazırlanmış kumıs. Şubata söz yox idi, sərin, köpüklü, bir az da xumarlı... Vaqonla gələn yol-təmir briqadasından bəziləri bu şubatın lap ölüsü idilər. Onlar



buna Sarı-Özək pivəsi deyirdilər. Bu evdən araq da çıxdı. Boranlı Yedigey yeri gələndə, məclisdən kənara çəkilməz, başqaları ilə bahəm içərdi. Amma bu dəfə imtina elədi, bununla da zəndinə görə başqalarına bildirmək istədi ki, indi belə şeyə həvəs göstərmək yaramaz – bəs sabah qabaqda uzaq, çətin yol var. Yedigeyi narahat eləyən bir də o idi ki, qonaqlar, xüsusilə Sabitcan araqdan vurub üstündən şubat içirdilər. Şubatla araq cüt qoşulmuş köhlən at kimi bir-birinə yaraşır – adamı yaman keflındirir. Bunun heç yeri deyildi. Yekə kişilərə necə deyəsən, içmə?! Özləri gərək həddini bilsinlər. Yedigeyə az-çox təskinlik verən Ayzadənin əyyaş ərinin araq içməməsi idi. O ancaq şubat içirdi. Görünür başa düşürdü ki, qayınatasının dəfnində keflənib sərələnmək olmaz. Buna onun nə qədər səbri, iradəsi çatacaqdı, bunu bir Allah bilirdi.

Beləcə oturub o yandan-bu yandan xeyli söhbət elədilər. Uzun qollarını ekskavator çalovu kimi yaxına, uzağa uzadaraq hamıya vaxtında şubat süzən Ədilbəy boş piyaləni doldurub, stolun o başından Yedigeyə uzada-uzada dedi:

– Yedigey, dünən gecə sizi növbədə əvəz eləyəndə təzəcə getmişdiniz ki, birdən göy elə çatladı ki, yerimdə silkələndim. Baxdım ki, kosmodromdan göyə raket qalxdı. Çox nəhəng şeydi, lap araba oxu kimi, siz də gördünüz?

– Gördün də sözdür! Ağzım açıla qaldı! Gücə bax ey! Odun içində gedir ey! Nə əvvəli var, nə axırı, vahimə basdı məni! Neçə vaxtdı burdayam, hələ belə şey görməmişdim.

– Elə mən özüm də birinci dəfə gördüm belə şeyi, – deyə Ədilbəy də təsdiq elədi.

– Paho! Əgər sən boyda adam belə şeyləri birinci dəfə görürsə, daha onda bizim danışmağa haqqımız yoxdur, – deyə Sabitcan onun boyuna sataşmaq istədi.

Caydaq Ədilbəy onun sözünə fikir verməyib ötəri qımışdı:

– Mənlik nə var ki, – deyib əlini yellədi. – Baxıram özüm öz gözlərimə inanmıram – yuxarıda od-alov içində nəhəng bir şey guruldayır! Deyirəm hə, kimdisə yenə qalxdı kosmosa. Yaxşı yol! Elə o dəqiqə əlimi atdım tranzistora, onu həmişə yanımda gəzdirirəm. Öz-özümə dedim ki, bu saat yəqin radioyla xəbər verəcəklər. Axı həmişə göyə bir şey uçan kimi kosmodromdan xəbər verirlər, diktor da sevindiyindən elə danışır ki, elə bil mitinqdədir. Adamın tükləri biz-

biz olur. Düzü, Yedigey, çox istədim ki, uçanın kim olduğunu öyrənim, axı onu gözümlə görmüşdüm, amma bilmədim.

– Neynirdin ki? – deyə Sabitcan hamını qabaqlayıb soruşdu. O, içkinin təsirindən turp kimi qızarıb buğlanırdı.

– Bilmirəm, axır ki, bir xəbər vermədilər, çəkib saxladım mayakın dalğasında. Bircə kəlmə də demədilər...

– Ola bilməz, canım! Sən nəsə qarışdırırsan! – Sabitcan yenə də yekəxanalıqla etiraz elədi, tələsik bir qədəh də araq vurub, üstündən şubat içəndən sonra davam etdi, – kosmosa hər uçuş ümumdünya əhəmiyyətli hadisədir... Başa düşürsən? Bu bizim elm və siyasətimizin şöhrətidir!

– Niyə xəbər vermədilər bilmirəm, son xəbərlərə də qulaq asdım radioda, qəzetlərin xülasəsinə də...

– Hım, – Sabitcan başını buladı, – mən öz yerimdə, işimdə olsaydım hər şeyi bilərdim! Heyf, lənət şeytana! Bəlkə də burda başqa bir iş var?

– Əşi, indi biz orasını nə bilək? Amma elə ürəyimə dammışdı ki, vallah! – deyə Ədilbəy səmimiyyətlə boynuna aldı. – O kosmonavt elə bil mənim özümünküydü. Gözümün qabağında uçdu. Deyirdim, bəlkə lap bizim uşaqlardandır. Ay sevinərdik ha! Bir də gördün iş elə gətirdi ki, görüşdün də, yaxşı olardı...

Sabitcanın ağlına nə gəldisə tələsik Ədilbəyin sözünü kəsdi:

– Hə-ə! Başa düşdüm! Görünür, adamsız gəmiymiş. Təcrübə məqsədilə buraxıblar.

Ədilbəy ona əyri-əyri baxdı:

– Necə yəni adamsız?!

– Təcrübə variantıdır, başa düşürsənmi, eksperimentdir! Yoxlayırlar, pilotsuz nəqliyyat gəmisidir, kosmik gəmiylə birləşməyə gedir. Hələ məlum deyil ki, bu təcrübədən nə çıxacaq. Əgər hər şey yaxşı, uğurlu olsa, onda radio ilə xəbər verəcəklər, lap qəzetlərdə yazacaqlar. İstənilən nəticəni verməsə, onda heç bir xəbər verməyəcəklər. Elə elmi təcrübə olaraq da qalacaq.

Ədilbəy təəssüflə alnını ovuşdurdu:

– Eh, mən də sevincək olmuşam ki, kosmosa canlı adamın uçmağını görmüşəm.

Sabitcanın bu izahından hamı pərt idi. Buna görə də susdular. Söz-söhbət görünür elə bununla tamama yetəcəkdi, amma Yedigey özü də bilmədən təzədən söhbəti tərpətdi:



– İgidlər, deməli, belə çıxır ki, kosmik gəmi orbitə çıxıb, özü də adamsız, bəs onu kim idarə eləyir?

– Necə yəni kim?! – deyə Sabitcan əllərini yellədi və qalib nəzərlərlə avam Yedigeyə baxdı. – Yedigey, orada hər şey radio ilə idarə olunur. Yerdən, mərkəzdən, İdarəetmə sistemindən komanda verilir. Hər şey radio ilə idarə olunur. Başa düşürsən? Lap kosmik gəmidə adam olmuş olsa belə, raketin uçuşu radio ilə idarə olunur. Əgər kosmonavt bir şey eləmək istəsə, gərək icazə alsın... Koketay[1], əzizim, bu səninçün Qaranər deyil ki, minib Sarı-Özək çöllərində sürəsən. Orda məsələ çox mürəkkəbdir, çox...

– Belə de... – Yedigey özündən asılı olmayaraq təəccübləndi.

Boranlı Yedigey üçün radio ilə idarə etmək sisteminin özü anlaşılmaz bir şey idi. Onun başa düşdüyünə görə radio uzaq məsafədən efirdə eşidilən söz və səslərdən ibarət idi. Axı cansız bir şeyi radio ilə necə idarə etmək olar? Əgər gəminin içində adam varsa bu başqa məsələ: ona necə göstəriş verərlərsə, elə də eləyər – bunu belə elə, filanı da elə. Yedigey onu düşündürən bu şeyləri soruşmaq istəsə də, amma üz vurmadı, fikirləşdi ki, dəyməz. Nəsə ürəyi heç cür barışa bilmirdi. Ona görə də susdu. Çünki Sabitcan bildiklərini güzəştli bir əda ilə danışırdı. Yəni ki, öz başınız heç nədən çıxmaya-çıxmaya məni avara hesab eləyirsiniz, hələ üstəlik o əyyaş yeznəm də hücum çəkib məni boğmaq istəyirdi, amma görürsüz belə şeyləri mən hamınızdan yaxşı bilirəm. "Gözümüz aydın, – deyə Yedigey fikirləşdi. – Səni havayı yerə oxutmamışıq ki! Gərək bizim kimi kəmsavadlardan artıq bir şey biləsən, ya yox?!" Boranlı Yedigey bunu da fikirləşdi ki: beləsini rəhbər vəzifəyə irəli çəksələr hamını qırıb çatar, tabeçiliyində olanların hamısını məcbur edər ki, əllaməlik eləsinlər, eləməsələr salar gözümçıxdıya. Özü hələ əl buyruqçusudur, amma çalışır ki, heç olmazsa bu Sarı-Özəkdəsə hamı ağzını açıb ona tamaşa eləsin...

Sabitcan elə bil, doğrudan da boranlıları mat qoyub çaşbaş salmaq fikrində idi, təki bacısı və yeznəsilə aralarında baş vermiş rüsvayçılıqdan sonra boranlıların nəzərində qiymətini qaldıra bilsin. Buna görə dünyada baş vermiş ağlagəlməz möcüzələrdən və elmi nailiyyətlərdən danışmağa başladı, hər dəfə də araqdan vurub, şubatla məzələndikcə qızışır, elə şeylər danışırdı ki, yazıq boranlılar doğrudan da çaş-baş qalırdılar, bilmirdilər ki, nəyə inansınlar, nəyə yox...

[1] Nəvazişlə deyilən müraciət sözü olsa da, bir az istehza mənası verir.

– Siz bir özünüz ağlınıza vurun, – o, gözlüyünü parıldadaraq hamını kamına çəkirmiş kimi odlu baxışlarla süzürdü, – əslinə qalsa biz bəşər tarixinin ən xoşbəxt adamlarıyıq. Bax, Yedigey, bizim aramızda ən ağsaqqalı sənsən. Sən, Yedigey, yaxşı bilirsən ki, əvvəllər necə idi, indi necədir! Bunu nəyə görə deyirəm? Keçmişdə insanlar allahlara inanırdılar. Qədim Yunanıstanda guya bu allahlar Olimp dağında yaşayırmışlar, onların nəyi Allah idi?! Sarsağın biriydilər. Əllərindən nə gəlirdi? Bir-biriylə düşmənçilik eləməkdə ad çıxartmışdılar, amma adamların həyatını dəyişə bilmirdilər, heç bu barədə fikirləşmirdilər də... Əslində bu allahlar heç yerli-dibli olmayıb, hamısı uydurma miflər, nağıllardır. Bizim Allahımız bambaşqa – onlar bizimlə yanaşı yaşayırlar, bax burda, bizim Sarı-Özək torpağımızda, elə bununla da bütün dünya qabağında fəxr eləyirik! Onları bizlərdən heç birimiz nə görürük, nə də tanıyırıq, bu heç lazım da deyil, qanun da buna yol verməz ki, hər yetən şırkınbaymırkınbaylar onlara əl verib salam desinlər, bəs kefin-əhvalın necədir? Elə əsl Allah da onlardır! Bax, elə sən özün, Yedigey, təəccüblənirsən ki, onlar kosmik gəmini radio ilə necə idarə eləyirlər. Halbuki bu heç nədir, keçmiş əhvalatdır! O maşınlar, aparatlar proqram üzrə idarə olunur. Gün gələcək ki, adamlar da radio ilə idarə olunacaq, bu indiki avtomatlar kimi. Başa düşürsünüzmü – adamlar, uşaqlardan tutmuş böyüyə kimi, hamı. Artıq bunun üçün elmi əsaslar var. Elm ali mənafe naminə buna da nail olmuşdur.

– Dayan bir görüm, elə tutub ki, ali mənafe naminə, ali mənafe naminə! – Caydaq Ədilbəy onun sözünü kəsdi. – Sən məni bir əməlli başa sal, nəsə yaxşı başa düşmürəm. Belə çıxır ki, bizlərdən hər birimiz yanımızda tranzistorsayaq həmişə gəzdirdiyimiz kiçik bir radioqəbuledici gəzdirməliyik, verilən əmrləri eşitmək üçün? Bu indi hər yerdə var ki?

– Ay məzən olsun! Məgər söhbət bundan gedir? O boş şeydir, uşaq oyuncağıdır! Heç kim heç nə gəzdirməyəcək. İstəsən lap lüt-üryan gəz, dolan. Amma gözə görünməyən radio dalğaları – biotik adlanan şey daim sənə və sənin şüuruna təsir edəcək.

– Belə de!

– Bəs sən nə bilmişdin! İnsan ancaq mərkəzdən verilən proqram əsasında iş görəcək. Ona elə gələcək ki, guya sərbəstcə, azad gəzib dolanır, özü bildiyi kimi, əslində isə lap nəfəsi də yuxarıdan verilən göstərişə əsasən alır. Hamısı da ciddi qayda üzrə. İstəyir ki, oxuyasan



– siqnal verəcək oxuyacaqsan. Oynamağın lazımdır – siqnal – oynayacaqsan. İşləməyin lazımdır – işləyəcəksən, özü də necə işləyəcəksən! Oğurluq, əyrilik, xuliqanlıq, cinayət – hamısı unudulub gedəcək, belə şeylər haqqında ancaq köhnə kitabları oxumaq lazım gələcək. Ona görə ki, insan davranışında hər şey nəzərə alınacaq – bütün əməlləri, fikirləri, bütün arzuları. Məsələn, deyək ki, bu saat dünya demoqrafik fəlakət qarşısındadır, yəni o qədər doğub-törəyiblər ki, yedizdirmək olmur, ərzaq çatmır. Neyləmək lazımdır? Doğum azaldılmalıdır. Arvadına o vaxt yaxın duracaqsan ki, nə vaxt siqnal verəcəklər, cəmiyyətin mənafeyi naminə...

– Ali mənafeyi? – deyə Caydaq Ədilbəy rişxəndlə düzəliş verdi.

– Tamamilə doğrudur, dövlət mənafeyi hər şeydən üstündür.

– Birdən mən mənafesiz-zadsız istədim ki, arvadla, necə deyim, bir balaca o söz, onda necə?

– Əzizim, Ədilbəy, heç nə çıxmayacaq. Belə şey heç ağlına gəlməyəcək. İstəyir lap dünya gözəli göstərsinlər – heç gözünün ucuyla da baxmayacaqsan. Ona görə ki, sənə bunun əks biotoklarını qoşacaqlar. Belə-belə şeylərin də haqq-hesabını çəkəcəklər. Arxayın ol! Ya da elə hərbi işi götürək. Orada da hər şey komanda ilə olacaq. Oda atıl – atılacaqsan, paraşütlə atlan – göz qırpmayacaqsan, atom minasıyla tankın altına gir partlat – gözüm üstə, bir göz qırpımında. Soruşsaz ki, niyə belə? Ona görə ki, qorxmazlıq biotokları verilib – vəssalam, deməli, adamda heç bir qorxu-filan olmayacaq... Bax belə!..

– Ay gopçusan ha! Ay boşboğaz, gör neçə il oxumusan, başına ağıl *qoyan olmayıb! – deyə Ədilbəy səmimiyyətlə* öz təəccübünü bildirdi.

Oturanlar açıqca qımışıb gülürdülər, yerlərində qurcuxur, başlarını bulayırdılar, yəni yamanca yaxır, amma qulaq asırdılar – gopçuluğuna gopçudur, amma maraqlı, eşidilməmiş şeylər danışır, qoy danışsın – hamı bilirdi ki, araq onu götürüb, əməllicə dəmlənib, şubatla qurtum-qurtum gillətdiyi araq öz işini görüb, qoy nə çərənləyir, çərənləsin, qulağı ağzının dediyinə cavabdeh deyil, hardasa nəsə eşidib, nəyin yalan, nəyin doğru olduğunu hardan biləsən?.. Yedigeyi birdən əməllibaşlı qorxu basdı – bizim bu boşboğaz heç də boş yerə çərənləyib qırıldamır, – o, narahatlıqla düşündü, – o bunu hardasa oxuyub, ya da qulaqucu eşidib, axı bir bəd xəbər eşidən kimi göydə tutur. Bəlkə dünyada böyük elm sahibi olan adamlar var ki, bizim üstümüzdə allahlıq eləmək iddiasındadırlar...

Sabitcan ona qulaq asıldığını görüb elə hey doğrayıb tökürdü. Eynəyinin tərləmiş şüşələri altında qaranlığa düşmüş pişiyin bəbəkləri kimi onun da bəbəkləri genişlənib qaralmışdı, arağı da qurtumlayıb, şubatla məzələnirdi. İndi də əllərini ölçə-ölçə okeanda Bermud üçbucağı deyilən bir şey barəsində goplamağa başladı, guya o yerdə gəmilər harasa qeyb olur, bu yerdən uçan təyyarələr əlli-ayaqlı yoxa çıxır.

– Bax bizim vilayətdə birisi xaricə getmək üçün, özünü lap həlak eləyirdi. Guya ki, orda yel əsib, qoz tökülüb! Axır ki, istədiyinə çatdı, başqalarını sıxışdırıb uçdu okeanın o tayındakı Uruqvaydı, Paraqvaydı nədi, ora – elə o gedən getdi. Bermud üçbucağının üstündən keçəndə təyyarə əlli-ayaqlı yoxa çıxıb! Buna görə də, dostlar, axı nəyə görə kimdənsə xahiş eləyib icazə almalıyıq, kimisə sıxışdırıb kənara atmalıyıq, biz elə Bermud üçbucağı olmasa da keçinərik, öz doğma torpağımızdaca cansağlığı ilə yaşasaq bəsimizdir. Gəlin öz sağlığımıza içək!

"Yenə da başlandı, – deyə Yedigey özlüyündə söyləndi. – Bu saat öz məşhur kəlamını deyəcək. Başa bəladır. Dilinə dəyən kimi kələfin ucunu itirir!" Necə demişdi, elə də oldu.

– Öz sağlığımıza içək! – deyə Sabitcan təkrar edib, süzülən bulanıq gözlərlə oturanlara baxır, mümkünü çatdıqca üzünə ciddi, mənalı görkəm verməyə çalışırdı. – Bizim sağlığımız ölkənin ən qiymətli sərvətidir. Deməli, bizim sağlığımız dövlət əhəmiyyətli bir sərvətdir. Bəli, bəli! Biz elə də sən deyən sadə adamlar deyilik, dövlət adamlarıyıq! Bir də onu demək istəyirəm ki...

Boranlı Yedigey onun tostunun ardını gözləməyib yerindən dik durub evdən çıxdı. Qaranlıq artırmada nəyə isə ilişib taqqıltı-şappıltı saldı – görünür ayağı boş vedrəyə, ya da başqa nəyəsə toxunmuşdu – tələm-tələsik açıq havada qalıb soyumuş kirz çəkmələrini geydi, dilxor və əsəbi halda evlərinə yollandı. "Yazıq Qazanqap! – deyə bığlarını gəmirərək sakitcə öz içində inlədi. – Belə də şey olar, nə ölü qanır, nə diri, nə dərd, nə azar!.. Oturub vurur özüyçün, elə bil qonaqlığa gəlib, heç vecinə deyil! Heç dəxli var deynən, söz tapıb – dövlət sağlığı, hər dəfə də içəndə bu oyunu açır başımıza. Allahın köməyilə sabah işi halal-hümmətlə başa vuraq, üçünü verən kimi rədd olub getsin başımızdan, bir də üzünü heç görməyək, kimin nəyinə dərmandır?!"

Amma Caydaq Ədilbəyin evində, sən demə, əməlli-başlıca oturubmuşlar. Gecəni yarı eləmişdilər. Yedigey Sarı-Özək gecəsinin ayazımış



havasından sinədolusu ciyərlərinə çəkdi. Sabah havanın da həmişəki kimi aydın, yağmursuz və kifayət qədər isti olacağı gözlənilirdi. Həmişə belədir. Gündüzü isti, gecəsi soyuq, adama titrətmə gəlir. Buna görə də bütün çöllük quraqlıq içindədir – bitkilər heç cürə uyğunlaşa bilmir. Gündüz istidə günəşə boylanır, qəddini düzəldir, su istəyir, gecələr də ayaz vurur. Bu səbəbdən də ancaq dözümlüsü baş saxlayır, cürbəcür tikan kolları, çoxlu yovşan, bir də ki, yarğan ağzında adda-budda əmələ gələn qarışıq növlü otlar olur ki, bunları da qışa ehtiyat düzəltmək üçün biçirlər. Boranlı Yedigeyin köhnə dostu geoloq Yelizarov bəzən buranı keçmiş nağıl kimi təsvir edib deyirdi ki, buralar nə vaxtsa zəngin ot-ələfi olan otlaq yerləri olubmuş, iqlimi də tamam bambaşqaymış, yağışlar da indikindən azı üç dəfə çox yağarmış, söz yox ki, güzəran da bambaşqa imiş. Sarı-Özəkdə naxırlar, ilxılar, sürülər gəzib... Yəqin, bunlar lap keçmişlərdə olub, bəlkə də qəddar yadelli tayfa olan juan-juanların buraları tutduqları vaxtlardan da qabaq olub, indi onların heç izi-tozu da qalmayıb tarixdə, təkcə qulaqlarda sədaları qalıb. Yoxsa bu qədər adam Sarı-Özəyə necə yerləşib dolana bilərdi? Yelizarov havayı yerə demirdi ki: Sarı-Özək çöllülərin tarixində unudulmuş bir kitabdır... O belə hesab eləyirdi ki, heç Ana-Beyit qəbiristanlığı haqqındakı söhbətlər də təsadüfi deyil. Bəzi üzdəniraq alimlər ancaq kağızda yazılanlara tarix deyirlər. Bəs o vaxt hələ kitab-filan yazılmayıbsa, onda necə olsun?

Yedigey razyezddən keçən qatarların səsini dinlədikcə, qəribə bir oxşarlıqla müharibədən əvvəl sahilində doğulub yaşadığı Aral dənizinin fırtınalı günlərini xatırladı. Axı Qazanqapın özü də oralı – Aral qazaxlarındandı. Elə buna görə də dəmiryolunda işə gələndə bir yerli kimi tapışıb dost olmuşdular. Sarı-Özəkdə də doğma mənzillərinin xiffətini eləmişdilər, ölümündən bir az əvvəl yazqabağı Qazanqapla birlikdə Arala getmişdilər – sən demə, qoca Aralla halallaşmağa, vidalaşmağa gəlibmiş. Kaş heç getməyəydilər, tamam qanqaralığı oldu. Sən demə, dənizin suyu çəkilir, Aral quruyub, əriyir. Sahilə çatanacan, əvvəllər su olan, indi isə boş gilli torpaqlardan ibarət yerlərlə on kilometrlərlə yol getməli olmuşdular. Bax elə burdaca Qazanqap demişdi: "Dünya yaranandan – Aral da yaranıb, indi də quruyub yox olur, onda qalmışdı ki, insan ömrü olsun". Qoca onda bir söz də dedi: "Sən məni Ana-Beyitdə basdırarsan, Yedigey!.."

Boranlı Yedigey əlinin arxasıyla gözünə dolan yaşı sildi, öskürdü ki, boğazının qəhərini təmizləsin və Qazanqapın daxmasına getdi. Yas

saxlayan arvadlar – Ayzadə, Ukubala və o biri arvadlar hamısı burdaydı. Boranlı arvadlarından kimin əli boşa çıxırdısa, gəlirdi bura ki, həm bir yerdə olsunlar, həm də bəlkə bir köməkdən-zaddan lazım oldu.

Ağılın yanından ötəndə Yedigey yerə basdırılmış dirəyin yanında bir anlığa ayaq saxladı, qotazlı tərliklə alıxlanıb bəzədilmiş Qaranər bura bağlanmışdı. Ayın süd işığında dəvə fil kimi nəhəng, sakit və qüdrətli görünürdü. Yedigey özünü saxlaya bilməyib heyvanın böyrünü şappıldadıb dedi:

– Ay maşallah!

Elə daxmanın girəcəyində özü də bilmədən nədənsə dünənki gecəni xatırladı. Qar tülküsünün dəmir yola yaxınlaşmağını, onu vurmağa cürət eləməyib daşı yerə atmağını, sonra da evə gedəndə uzaq kosmodromdan göyün ənginliklərinə od-alov içində start götürən kosmik gəmini yadına saldı...

## III

Elə bu anda Sakit okeanın şimal en dairələrində səhər idi, səhər saat səkkizə işləmişdi. Gözqamaşdırıcı günəşli hava sonsuz işıq seli kimi bu intəhasız və ilğımlı sükunət üzərində yayılmışdı. İndi bu hüdudda sudan və göydən başqa heç nə yox idi. Məhz elə burda, təyyarədaşıyan "Konvensiya" gəmisində, gəmidəkilərdən başqa dünyada heç kimə məlum olmayan, kosmosun mənimsənilməsində hələ görünməmiş, eşidilməmiş, Amerika – Sovet "Paritet" orbital stansiyasında baş vermiş əhvalatla əlaqədar olaraq dünya əhəmiyyəti kəsb edən bir dramatik hadisə üz vermişdi.

"Demiurq" adı verilmiş birgə planetoloji proqramı idarə edən Biridamərkin elmi-strateji qərargahı olan "Konvensiya" təyyarədaşıyan gəmisi bu səbəbə görə bütün dünya ilə hər cür əlaqəni bilatəxir kəsməyinə baxmayaraq, Sakit okeandakı Aleut adalarının cənubunda olan daimi yerini dəyişmədi, əksinə, Vladivostokla San-Fransisko arasında hava yolunun tən ortasındakı mövqeyini daha da dəqiqləşdirdi. Elmi gəminin özündə də bəzi dəyişikliklər oldu. Belə ki, birgə proqramın Amerika və Sovet Baş Müştərək Rəhbərliyinin göstərişinə əsasən kosmik əlaqə bloklarından, "Paritet" də baş vermiş fövqəladə



hadisə ilə əlaqədar məlumatı qəbul etmiş növbətçi operatorların – bir sovet, bir də amerikalı – hər ikisi bu məlumatların kənara yayılmağının qarşısını almaq məqsədilə, müvəqqəti olsa da, ciddi nəzarət altına alındı...

"Konvensiya"nın heç bir hərbi məqsəd daşımadığına və xüsusilə üstündə heç bir silah gəzdirmədiyinə, yalnız BMT-nin xüsusi qərarına əsasən beynəlxalq toxunulmazlıq statusuna malik olduğuna baxmayaraq, gəmi heyətində yüksək hazırlıq vəziyyəti elan edildi.

Gündüz saat on bir üçün, beş dəqiqəlik fasilə ilə "Konvensiya"ya hər iki tərəfdən məsul komissiya gəlməli idi. Onların öz ölkələrinin, eləcə də dünyanın təhlükəsizliyi naminə təcili qərar çıxartmaq və əməli tədbirlər görmək üçün qeydsiz-şərtsiz hüquq və fövqəladə səlahiyyəti vardı.

Beləliklə, "Konvensiya" təyyarədaşıyan gəmisi açıq okeanda Aleut adalarının cənubunda, Vladivostokla San-Fransisko arasında məsafənin tən ortasında dayanmışdı. Bu yer təsadüfən seçilməmişdi. Əvvəllər heç vaxt təsadüf edilməyən bir dəqiqliklə bu dəfə "Demiurq"un yaradıcıları gəminin lövbər saldığı yeri də əvvəlcədən müəyyən etmişdilər, bu da belə nadir beynəlxalq elmi-texniki əməkdaşlığın tam bərabərlik prinsipini əks etdirirdi.

"Konvensiya" təyyarədaşıyan gəmisi bütün avadanlığı, təchizatı, enerji ehtiyatı ilə birlikdə hər iki ölkənin bərabər dərəcədə şərikli malı, yəni pay vermiş ölkələrin kooperativ gəmisi idi. Onun birbaşa, həm də eyni vaxtda fəaliyyət göstərən Sarı-Özək və Nevada kosmodromlarıyla radio-telefon və televiziya əlaqəsi vardı. Təyyarədaşıyanda cəmi səkkiz, hər ölkədən dörd reaktiv təyyarə vardı, bu təyyarələrdən daimi yük və adam daşımaları, eləcə də Biridamərkin qitələrlə əlaqəsi üçün istifadə edilirdi. "Konvensiya"da iki paritet-kapitan vardı – sovet və amerikalı: paritet-kapitan 1-2 və paritet-kapitan 2-1: onların hər biri öz iş növbəsində əsas sımaydı. Gəmidəki bütün ekipajın bu qayda üzrə dublyoru vardı – paritet-kapitanların köməkçiləri, şturmanlar, matroslar, xidmətçilər...

Biridamərkin "Konvensiya"dakı elmi-texniki əməkdaşlarının tərkibi də bu sistem üzrə qurulmuşdu. Hər iki tərəfdən proqramın birgə baş rəhbərliyindən tutmuş – Baş paritet planetoloq 1-2, 2-1 sistemi üzrə fəaliyyət göstərməklə, yerdə qalan elmi işçilər və qalan mütəxəssislərin hamısının eyni qayda ilə dublyorları olduğu üçün, hər

iki tərəfin bərabər sayda adamı vardı. Elə buna görə də indiyə qədər təsadüf edilən orbitlərdən Yer kürəsindən ən uzağı olan "Tramplin" orbitindəki stansiyanın adını "Paritet" – yəni bərabərlik qoymuşdular ki, öz adıyla yerdəki münasibətləri əks etdirsin.

Söz yox ki, bütün bu məsələlərdən əvvəl hər iki tərəfin elmi, diplomatik, inzibati idarələri böyük və müxtəlif hazırlıq işləri aparmışdı. "Demiurq" proqramındakı bütün ümumi və xüsusi məsələlərin razılaşdırılması üçün hər iki tərəf uzun illər ərzində saysız-hesabsız görüşlər və müşavirələr keçirməli olmuşdu.

"Demiurq" proqramı – insan təsəvvürünə sığmayan bir daxili enerjiyə malik olan mineraldan istifadə məqsədilə İks planetinin və həmin mineralın planetdəki ehtiyatını öyrənmək kimi əsrin ən möhtəşəm kosmoloji məsələsini qarşıya qoyurdu. Planetin üz təbəqələrində, demək olar ki, açıq laylar şəklində yatan süxurun yüz tonundan, müvafiq şəkildə işlənəndən sonra, o qədər daxili enerji əldə etmək olardı ki, o, başqa enerjiyə çevrildikdə bütün Avropanın birillik istilik və elektrik enerjisini ödəyərdi. Bir çox milyard illər ərzində davam edən uzunmüddətli planetar təkamülün təsiri altında Qalaktikada yaranmış xüsusi şərait nəticəsində İks planeti materiyasının energetik xüsusiyyəti belə idi. Bunu dəfələrlə kosmik cihazlar vasitəsilə İksin səthindən alınmış süxur nümunələri, eləcə də bizim Günəş sisteminin bu qırmızı planetinə edilən qısamüddətli səfərlər təsdiq edirdi.

İksin mənimsənilməsinin xeyrinə bir də o amil həlledici rol oynayırdı ki, ilk nəzərdə boş səhra təsiri bağışlayan bu planetin dərinliklərində, elmə məlum olan başqa planetlərin hamısından fərqli olaraq – Ay və Venera da daxil olmaq şərtilə – su vardı. İksdə həqiqətən su olduğunu aparılan qazıma işləri də təsdiq edirdi. Alimlərin hesablamalarına görə, İksin səthi altında bir neçə kilometr qalınlığı olan su qatı ola bilərdi, fərziyyəyə görə bu su yatağını sabit vəziyyətdə saxlayan soyuq daş süxurları idi.

"Demiurq" proqramının reallığını təmin edən amil də məhz İks planetində belə böyük su ehtiyatının olması idi. Bu məsələdə su təkcə maye mənbəyi kimi qalmırdı, o eyni zamanda yad planet şəraitində insan həyatı və onun orqanizminin normal fəaliyyətini təmin etməyə, hər şeydən əvvəl, tənəffüs üçün hava istehsal etməyə vacib olan başqa elementlərin sintezində başlanğıc maddəsi idi. Bundan başqa su, istehsalat baxımından İks süxurunun transkosmik konteynerlərə yüklənməmişdən ilkin süzülüb təmizlənmə texnologiyasında əsas rol oynayırdı.



İks enerjisinin harada istehsal olunması məsələsi də müzakirə edilirdi: sonradan geosinxron orbitlər vasitəsilə Yerə verilmək üçün kosmosdakı orbital stansiyalarda, ya bilavasitə Yerin özündə? Hələ belə məsələlərin həlli üçün vaxt vardı.

İksdə uzun müddət qalmaq üçün qazmaçılardan və hidroloqlardan ibarət ekspedisiya hazırlanırdı, onlar İksin dərinliklərindən çıxarılan suyun şəbəkədə avtomat qurğularla idarə edilən daimi axınını təmin etməliydi. Alpinistlərin terminlərindən istifadə etmiş olsaq, "Paritet" orbital stansiyası İksin yolunda əsas baza düşərgəsiydi. İkslə "Paritet" arasında işləməli olan nəqliyyat gəmilərinin yüklənib boşalması üçün lazım olan yanalma qurğuları artıq hazır idi. Bir azdan "Paritet"də əlavə bloklar düzəldiləndən sonra, Yerdən televiziya verilişlərinin qəbulu da daxil olmaqla burada ən gözəl şəraitdə yüzdən artıq adam yaşaya bilərdi...

Bu böyük kosmik əməliyyatda İks planetindəki suyun istehsalı və təhlili insanın öz planetindən kənar indiyə qədər keçirdiyi ilk istehsalat fəaliyyəti ola bilərdi...

O gün yaxınlaşırdı. Bütün işlər buna dəlalət edirdi...

Sarı-Özək və Nevada kosmodromlarında İksdə hidrotexniki əməliyyat aparılması üçün sonuncu hazırlıq işləri qurtarmaq üzrəydi. "Tramplin" orbitində olan "Paritet" ilk kosmik "xamtorpaqlılarının" işçi dəstəsini qəbul edib İksə yola salmağa hazırdır.

Mahiyyət etibarilə müasir bəşəriyyət özünün Yerdənkənar sivilizasiyasının astanasında dayanmışdı...

Məhz belə bir anda, hidroloqların birinci dəstəsinin İksə göndərilməsi ərəfəsində, "Tramplin" orbitindəki "Paritet"də uzunmüddətli kosmik növbədə olan iki paritet-kosmonavt yerli-dibli yoxa çıxmışdı...

Onlar nədənsə göndərilən siqnalların heç birinə cavab vermirdilər – nə müəyyən edilmiş vaxtdakı rabitə seanslarına, nə də başqa vaxtlarda verilən siqnallara. Bu çox ağır təəssürat yaratmışdı – stansiyanın yerini müntəzəm olaraq qeyd edən göstərici cihazlardan və onun hərəkətini dəqiqləşdirən kanaldan başqa radiotelevizion rabitənin bütün qalan sistemləri işləmirdi.

Vaxt gedirdi. "Paritet" heç bir müraciətə hay vermirdi. "Konvensiya"da narahatlıq getdikcə artırdı. Görəsən, paritet-kosmonavtlara nə olub? Onlar nə səbəbə susurlar? Bəlkə xəstələniblər, bəlkə xarab olmuş bir şey yeyib zəhərləniblər? Və ümumiyyətlə sağdırlarmı?

Nəhayət, sonuncu vasitəyə əl atıldı – stansiyada ümumi yanğın həyəcanı siqnalının işə salınması barədə xüsusi radio əmri göndərildi. Bu qorxuducu hərəkətə də heç bir cavab verilmədi.

"Demiurq" proqramı ciddi təhlükə altında idi. Onda "Konvensiya"dakı Biridamərk vəziyyəti aydınlaşdırmaq üçün özünün son imkanına əl atdı. "Paritet"lə birləşmək üçün təcili olaraq Nevada Sarı-Özək kosmodromlarından iki kosmik gəmi buraxıldı.

Öz-özlüyündə son dərəcə çətin bir iş olan sinxron birləşmə başa çatandan sonra, "Paritet"ə daxil olmuş nəzarətçi-kosmonavtlardan alınan ilk məlumat sarsıdıcı təsir bağışladı. Onlar bütün bölmələri, bütün laboratoriyaları, bütün mərtəbələri, lap son künc-bucağacan hər yeri yoxlayandan sonra xəbər verdilər ki, paritet-kosmonavtları stansiyanın bortunda tapa bilməyiblər. Onların nə ölüsü vardı, nə dirisi...

Belə şey heç kəsin ağlına gəlməzdi. Heç bir təxəyyülün qüdrəti çatmazdı ki, bunu təsəvvür eləyə bilsin, – üç aydan bəri orbital stansiyada olan, üzərlərinə düşən vəzifəni bu vaxta qədər dəqiq yerinə yetirən iki adam hara yox ola bilərdi! Buxarlanıb yox olmamışdılar ki! Açıq kosmosa çıxa bilməzdilər ki!

"Paritet"in yoxlanılması "Konvensiya"dan birbaşa radio-televizion rabitə vasitəsilə, hər iki müştərək Baş rəhbərlər – Baş paritet-planetoloqların bilavasitə iştirakı ilə gedirdi. Nəzarətçi-kosmonavtların orbital stansiyanın bölmə və otaqlarını çəkisizlik şəraitində üzüzə, danışa-danışa neçə keçdikləri, Biridamərkin ekranlarında yaxşı görünürdü. Onlar stansiyanı addım-addım yoxlayır, müşahidələri barədə məlumat verirdilər. Bu danışıqlar maqnitofon lentinə yazılırdı:

"PARİTET". Fikir verirsinizmi? Stansiyada heç kim yoxdur. Biz heç kimi görmürük.

"KONVENSİYA". Stansiyada sınmış şeyləri, pozuntu, dağıntı izi görürsünüzmü?

"PARİTET". Yox. Hər şey öz qaydasında, hər şey öz yerindədir.

"KONVENSİYA". Qan izinə rast gəlməmisiniz?

"PARİTET". Qətiyyən.

"KONVENSİYA". Paritet-kosmonavtların şəxsi şeyləri harda və nə vəziyyətdədir?



"PARİTET". Deyəsən, şeylər öz yerindədir.

"KONVENSİYA". Yenə də olsun, diqqətlə baxın.

"PARİTET". Adama belə gəlir ki, onlar, lap bu yaxınlarda burda olublar. Kitablar, saat, valoxutduran, qalan şeylər də yerindədir.

"KONVENSİYA". Yaxşı. Divarda, ya kağızda yazıdan-filandan yoxdur?

"PARİTET". Gözümə belə bir şey dəyməyib. Yox, yox, dayanın! Növbə jurnalının açıq səhifəsində nə isə böyük bir yazı var. Çəkisizlik şəraitində üzməsin deyə qısqaclarla bərkidilib, açıq səhifələri də girişə tərəf çevrilib...

"KONVENSİYA". Oxuyun, niyə ləngidirsiniz?

"PARİTET". Başlıq – "Yer sakinlərinə məktub". Mötərizədə – izahatnamə.

"KONVENSİYA". Saxla. Oxumayın. Rabitə seansı dayandırılır. Gözləyin. Bir azdan sizi yenə çağıracağıq. Hazır olun!

"PARİTET". Okey!

Bu yerdə orbital stansiya ilə Biridamərkin dialoqu dayandırıldı. "Demiurq" proqramının birgə Baş rəhbərləri öz aralarında məsləhətləşdikdən sonra iki paritet-operatordan başqa bütün rabitə heyəti yenidən təzələndi. Paritet-kosmonavtların "Tramplin" orbitində qoyduqları mətn bundan ibarət idi:

"Hörmətli kolleqalar (sənətdaşlar), "Paritet" orbital stansiyasını son dərəcə qeyri-adi bir vəziyyətdə tərk etdiyimiz üçün, qayıtmağımız misli görünməmiş əməlimizlə bağlı bir sıra amillərdən asılı olacağına görə stansiyanı qeyri-müəyyən, bəlkə də namütənahi dərəcədə sonsuz bir müddətə tərk etdiyimiz üçün, tutduğumuz hərəkətin motivlərini izah etməyi özümüzə vacib vəzifə bildik.

Biz yaxşı başa düşürük ki, bizim hərəkətimiz, şübhəsiz, nəinki gözlənilməz, hətta, aydın məsələdir ki, ən adi intizam baxımından belə yolverilməz şeydir. Lakin kosmosdakı orbital stansiyada olduğumuz vaxt üz-üzə gəldiyimiz nadir bir fakt, bəşər mədəniyyəti tarixində misli çətin təsəvvürə gətirilə biləcək bir fakt bizə, heç olmasa bizi başa düşəcəyinizə ümid verir...

Bir neçə vaxt əvvəl biz, əsasən, ardı-arası kəsilməz səs-küy və maneələrlə dolu olan Yer ionosferasından gələn, kosmik mühitdəki saysız-hesabsız radioimpulsları arasında dar tezlikli zolaqda istiqamətləndirilmiş bir radio siqnalı qəbul etdik: o ən dar zolaqda olduğu üçün asanlıqla seçilirdi, həmişə eyni vaxtda, eyni fasilələrlə,

müntəzəm olaraq səslənirdi. Əvvəlcə biz ona o qədər də diqqət vermirdik. Lakin o, təkidlə səslənməkdə davam edirdi, sistematik olaraq kainatın eyni nöqtəsindən bizim orbital stansiyaya yönəldilirdi. İndi biz qəti surətdə bilirik: bu süni surətdə səmtləşdirilən radio dalğaları əvvəllər də efirə buraxılırmış, axı il yarımdan artıqdır ki, "Paritet" uzaq kosmosda, "Tramplin" orbitindədir. Kainatdan verilən bu siqnalla ilk dəfə nə üçün məhz bizim maraqlandığımızı izah etmək çətindir, görünür bu bir təsadüfdür, hər nə isə, biz bu hadisənin mənşəyini öyrənməyə, müşahidə aparmağa və qeydlər etməyə başladıq, getdikcə daha artıq inanmağa başladıq ki, bu süni mənşəli bir siqnaldır.

Ancaq biz bu fikirlə o qədər də tez razılaşmadıq. Bütün o müddət ərzində şübhə bizdən əl çəkmirdi. Bizə süni mənşəli görünən kainat aləminin əsrarəngiz dərinliklərindən gələn bircə radio siqnalına istinad edərək necə təsdiq edə bilərdik ki, Yerdənkənar sivilizasiya vardır? Bizi bir məsələ düşündürdü, daşındırdı: elmin ən minimal məqsədlə – heç olmasa qonşu planetlərdə ən bəsit şəkildə də olsa bir həyat əlaməti tapmaq təşəbbüsü, məlum olduğu kimi, dəfələrlə ümidsizcəsinə nəticəsiz qalmışdı. Yerdənkənar şüurun mövcudiyyətinə güman az idi, daha sonra bunu qeyri-real, hətta utopik bir şey kimi qiymətləndirməyə başlamışdılar, çünki kosmik fazanın tədqiq edilməsi sahəsində atılan hər yeni addım bu şansı hətta nəzəri planda belə azaldırdı, hətta deyə bilərik ki, o praktiki olaraq sıfıra enmişdi. Fərziyyələrimiz barədə məlumat verməyə cürət eləmirdik. Biz yeganə misilsiz vahid bioloji fenomen olan canlı həyatın yalnız Yer planetində mövcud olduğu barədə hər tərəfdə qəbul edilmiş fikri şübhə altına almaq qəsdində deyildik. Bu sahədəki şübhələrimizi başqalarına danışmağı özümüzə borc saymırdıq, çünki bu cür müşahidələr orbital stansiyada üzərimizə düşən vəzifəyə daxil deyildi.

Kainatda Yerdənkənar şüurlu həyatın olduğunu sübut edən bir hadisə baş verəndən sonra, artıq bizim üçün gec idi. Şüurumuzda sıçrayış əmələ gəldi, kainat quruluşu haqqındakı təsəvvürlərimiz dəyişdi və birdən bizə agah oldu ki, əvvəlkindən fərqli olaraq, tamamilə başqa kateqoriyalarla düşünürük. Kainat quruluşunun keyfiyyətcə yeni dərki, yaşayışa olan yeni mövqeyinin kəşfi, yeni və qüdrətli bir şüur enerjisi ocağının mövcud olması bizi belə bir qənaətə gətirdi ki, Yer haqqında yeni qayğı anlayışından çıxış edərək, biz yeni kəşfimizi



müəyyən vaxta qədər Yer sakinlərindən gizli saxlayaq. Biz bu qərara ən müasir cəmiyyətin mənafeyini nəzərə alaraq gəlmişik.

İndi isə məsələnin məğzinə keçək. Hadisə necə baş verdi?

Bir dəfə maraq üçün qərara gəldik ki, həmin tezlik zolağında, kainatın həmin sirli və müntəzəm radio impulsları gələn nöqtəsinə konkret məqsədli cavab radio siqnalı göndərək. Möcüzə baş verdi! Siqnalımız bilatəxir qəbul olundu! O, həm tutulmuş, həm də başa düşülmüşdü! Cavab olaraq bizim qəbul zolağında əvvəlki ilə yanaşı bir dubl da işə düşdü, daha sonra biri də – bu salam üçlüyü idi, kainatdan verilən bu üç sinxron radio siqnalı bir neçə saat davam elədi, onlar bizim qalaktikadan kənarda şüurlu həyatın olması barədə, həm də ağlasığmaz bir uzaqlıqda olsa da, özlərinə bənzər məxluqatla əlaqə yaratmaqda sonsuz yüksək qabiliyyət sahibi olduqlarını bildirən şadlıq marşı kimi özlərilə sevinc xəbəri gətirirdi. Bu bizim kosmos biologiyası haqdakı təsəvvürümüzdə, zaman quruluşu, məkan, məsafə haqqında anlayışımızda inqilab idi... Doğrudanmı biz bu dünyada tək deyilik, doğrudanmı Yer üzündəki insan təcrübəsi kainatda mənəviyyat sahibi olmaq sahəsində müstəsnalıq təşkil etmir?

Rast gəldiyimiz Yerdənkənar sivilizasiyanın real həqiqət olmasını yoxlamaq üçün biz ibtidai yaranışdan başlamış, ta bu günə kimi həyat beşiyimiz olan Yer kürəsinin düsturunu radiosiqnallarla ora göndərdik. Biz cavabında düsturun açılmış şifrini və eyni zamanda, onların təxminən bizim Yerə bərabər olan planetlərin kütləsinin düsturunu aldıq. Biz bundan belə qənaətə gəldik ki, onların yaşadığı planetin ölçüsü kifayət qədər böyükdür, cazibə qüvvəsi də bizim üçün məqbuldur. Beləliklə, biz ilk fiziki qanunlar haqqında fikir mübadiləsi elədik, bu üsulla Yer kürəsindən kənarda ilk dəfə ağıl sahiblərilə təmasda olduq.

Kənar planetdə yaşayanlar əlaqəni dərinləşdirmək, yaxınlaşmaq mənasında çox fəal tərəf-müqabil çıxdılar. Onların cəhdilə əlaqələrimiz tezliklə yeni-yeni məzmunla daha da zənginləşdi. Bir azdan bizə məlum oldu ki, onlar hərəkəti işıq sürətinə bərabər olan uçan aparatlara malikdirlər. Bunları və bundan başqa şeyləri də biz əvvəlcə riyazi və kimyəvi düsturlar vasitəsilə fikir mübadiləsi aparmaq imkanından istifadə etmək yolu ilə öyrəndik, sonra onlar bizə bildirdilər ki, danışmağı da bacarırlar. Məlum oldu ki, Yer sakinləri Yerin cazibə qüvvəsini yenib kosmosa çıxaraq orda stabil yaşamağa başlayandan sonra, onlar neçə ildir ki, Qalaktikanın dərinliyini

dinləməyə imkan verən güclü audostronomik aparatların köməyilə bizim dillərimizi də öyrənmişlər. Yerlə kosmos arasında gedən müntəzəm radio danışıqlarını tutaraq bizim sözlərin və cümlələrin mənasını müqayisə və təhlil yolu ilə özləri üçün müəyyənləşdirməyə nail olublar. Onlar fikirlərini bizə ingilis və rus dillərində izah etməyə cəhd göstərəndə biz buna özümüz əmin olduq. Bu bizim üçün daha bir ağlasığmaz, heyrətamiz kəşf idi...

İndi isə əsas məsələ haqqında. Biz cəsarət edib Yerdənkənar sivilizasiyası olan bu planetə getmək qərarına gəldik. Meşəlidöş – onların planetinin adını özümüz üçün təxminən belə müəyyən eləmişik. Meşəlidöşlülər özləri bizi dəvət elədilər, bu, onların ideyasıdır. Biz də ağılla götür-qoy eləyəndən sonra razılığa gəldik. Onlar bizi başa saldılar ki, sürəti işıq sürətinə bərabər olan uçuş aparatları bizim orbital stansiyamıza iyirmi altı – iyirmi yeddi saata çatacaq, meşəlidöşlülər boyun oldular ki, eynilə həmin vaxtda da istəyən kimi bizi geri qaytarsınlar. Kosmik gəmimizlə birləşmək haqqındakı suallarımıza da cavab verdilər, bu, problem deyil, çünki meşəlidöşlülərin aparatlarında elə bir keyfiyyət var ki, şəklindən və konstruksiyasından asılı olmayaraq istənilən predmetlə hermetik birləşə bilir. Görünür, bu birləşmədə nəsə elektromaqnit xüsusiyyəti var. Biz qərara gəldik ki, onların uçan aparatlarının bizim açıq kosmosa çıxdığımız ağızlıqla birləşməsi yaxşı olar, elə bu yolla orbital stansiyadan olanların yanına keçə bilərdik. Biz elə həmin yolla da geri qayıtmaq niyyətindəyik, əlbəttə, Meşəlidöşə olan səyahətimiz uğurla başa çatarsa...

Beləliklə, biz "Paritet"də öz məktubumuzu deyəkmi, izahatımızı, açıq məktubumuzu, müraciətnaməmizi deyəkmi qoyub gedirik... Söhbət bunun adında deyil... Biz nə elədiyimizi kifayət qədər ayıqlıqla qiymətləndirir, üzərimizə necə ağır məsuliyyət yükü götürdüyümüzü başa düşürük. Onu da başa düşürük ki, bəşəriyyətə belə nadirdən də nadir xidmət göstərmək üçün tale məhz bizə imkan yaratmışdır, biz bundan daha da yüksək bir şey təsəvvürümüzə gətirə bilmirik...

Lakin bizə ən çox əzab verən vəzifə, bağlılıq, borcluluq hissini, ən nəhayət, intizam hissini yenmək idi. O şeyi ki, bizim hər birimizdə çoxdanın ənənələri, qanunları və ictimaiyyətin əxlaq normaları tərbiyə edib. Biz "Paritet"i tərk edərkən sizi – Biridamərkin rəhbərliyini və ümumiyyətlə Yer üzündə yaşayanların heç bir şəkildə razılaşdırmamağımızı Yerdəki ictimai həyat qaydalarına etinasızlıq hesab



etməyin. Biz buna məcbur idik, çünki təsəvvür etmək çətin deyil ki, xokkey oyununda vurulan hər artıq qolu az qala siyasi qələbə hesab edən və öz dövlət quruluşunun üstünlüyü kimi qələmə verən qüvvələr baş qaldırsaydı, necə bir əhval-ruhiyyə yaranacaqdı, nə kimi ziddiyyətlər, ehtiraslar alovlanacaqdı. Əfsus, biz yerdəki vəziyyətə çox yaxşı bələdik! Kim zəmanət verə bilər ki, Yerdənkənar sivilizasiya ilə əlaqə yaratmaq imkanı Yer sakinlərinin arasında yeni dünya qırğını düşməsinə səbəb olmayacaq?

Yer üzündə siyasi mübarizədən kənarda qalmaq çətindir, bəlkə də heç mümkün deyil. Ancaq Yer kürəsinin avtomobil çarxı böyüklükdə göründüyü uzaq kosmosda qaldığımız uzun günlər və həftələr ərzində ürək ağrısı və əlacsız təəssüflə fikirləşirik ki, cəmiyyəti çılğınlığa, ümidsizliyə sürükləyən, bəzi ölkələri atom bombasına əl atmağa sövq eləyən indiki enerji böhranı – böyük texniki problemlərdən başqa bir şey deyil, bu ölkələrin bir-biri ilə dil tapıb razılığa gəlməsi daha vacib məsələdir...

Biz Yer məxluqatının onsuz da təhlükəli vəziyyətini nəzərə alıb onu bir daha kəskinləşdirməmək və mürəkkəbləşdirməmək naminə bu misli görünməmiş məsuliyyəti boynumuza götürməyə cəsarət etdik və qərara gəldik ki, Yerdənkənar ağıl sahiblərinin qarşısında bütün bəşər övladı adından çıxış edək. Biz ümid edir və daxili bir inamla duyuruq ki, öhdəmizə düşən bu könüllü vəzifəni layiqincə yerinə yetirəcəyik.

Nəhayət sonuncu. Düşüncələrimiz, şübhə və tərəddüdlərimizlə yanaşı fikir çəkirdik ki, "Demiurq" proqramına – bu böyük başlanğıca, bəşəriyyətin geokosmik tarixində uzun illər qarşılıqlı inamsızlıq əzabı çəkmiş ölkələrimizin siyasi "qabarmalar" və "çəkilmələr" şəraitində etdikləri əməkdaşlığın nəticəsinə xələl gəlməsin. Şükür ki, ağıl çətinliklərə qalib gəldi, biz də ümumi işimizə vicdanla, öz gücümüz və qabiliyyətimiz daxilində xidmət eləyirdik. Lakin birini o biriylə müqayisə edib, "Demiurq" proqramını yuxarıda qeyd etdiyimiz səbəblərə görə çətinliklər qarşısında qoymamaq üçün, özümüz qət elədik – biz "Paritet"i müvəqqəti tərk edirik, bu şərtlə ki, qayıdanbaş Meşəlidöş planetinə girməyimizin nəticələri haqda bəşəriyyətə məlumat verək. Əgər biz birdəfəlik yoxa çıxsaq və ya rəhbərlik bizi "Paritet"də öz işimizə davam etməyə layiq bilməsə, bizi başqaları ilə əvəz eləmək çətin deyil, lazım olsa elə oğullar tapılar ki, bizdən də yaxşı işləyərlər.

Biz məchul bir yerə gedirik. Bizi ora sövq edən bilik həvəsi, bir də insanın əbədi arzusu – başqa aləmlərdə özünə bənzər ağıllı canlılar

tapıb, ağılı ağılla qovuşdurmaq istəyidir. Lakin hələ heç kim bilmir, başqa dünyanın sivilizasiya təcrübəsi bəşəriyyətə nə gətirəcək – xeyir, ya şər? Biz çalışacağıq ki, qiymət verməkdə qərəzsiz olaq. Əgər hiss eləsək ki, bu kəşfimizdə bizim Yer üçün nəsə təhlükəli, nəsə dağıdıcı bir şey var, o vaxt biz and içirik ki, Yerə üz verə biləcək fəlakətin qarşısını almaq üçün öz müqəddəratımızı öz bildiyimiz kimi həll edək...

Biz vidalaşırıq. Biz illüminatordan Yerə kənardan baxırıq. Fəzanın qaraənginliklərində o, parlaq brilyant kimi bərq vurur. Yer kürəsi özünün misli görünməmiş, müstəsna maviliyi ilə gözəldir. Burdan körpə başı kimi görünür. Hərçənd ki, bunun Yer üzündə belə olmadığını yaxşı bilirik, amma nədənsə burdan bizə elə gəlir ki, dünyada yaşayan bütün adamlar bizim bacı və qardaşlarımızdır, özümüzü onlarsız təsəvvür eləyə bilmirik...

Biz Yer kürəsi ilə vidalaşırıq. Bir neçə saatdan sonra "Tramplin" orbitini tərk edəcəyik, o vaxt Yer gözümüzdən itəcək. Başqa planet sahibləri – meşəlidöşlülər artıq yoldadır. Bizim orbitə yaxınlaşırlar. Bir azdan burda olacaqlar. Bir neçə saatdan sonra, lap az qalıb. Gözləyirik.

Biz öz ailələrimizə məktub qoyacağıq. Sizin hamınızdan artıq dərəcədə xahiş eləyirik, kimin bu işə dəxli olsa, məktublarımızı ünvanına çatdırsın...

P.S: Bizim yerimizə "Paritet"ə kim gələcəksə, onlar üçün məlumat. Növbə jurnalında qəbuledici və verici zolaqda radiodalğasının tezliyni qeyd etmişik, biz bu dalğa vasitəsilə başqa planetlilərlə əlaqə yaratmışıq. Lazım olanda bu kanal vasitəsilə sizinlə əlaqə yaradıb məlumat verəcəyik. Meşəlidöşlülərlə radio əlaqələrimizdən belə başa düşdük ki, ən münasib və yeganə rabitə vasitəsi – orbital stansiyadakı sistemdir. Çünki Yer ətrafındakı qalın ionosfer qatı radiodalğaların qarşısını keçilməz sədd kimi kəsir, onları Yer səthinə çatmağa qoymur.

Bax bu qədər. Əlvida. Daha vaxtdır.

Müraciət mətni bir-birinə mütabiq olaraq iki dildə – ingilis və rusca tərtib olunub.

Paritet-kosmonavt 1-2
Paritet-kosmonavt 2-1
"Paritet" orbital stansiyası.
Üçüncü növbə. 94-cü gün".



Təyin olunmuş dəqiq vaxtda – Uzaq Şərq vaxtilə saat on birdə "Konvensiya" təyyarədaşıyan gəmisinə bir-birinin ardınca, iki reaktiv təyyarə endi, bu təyyarələrdə Amerika və Sovet tərəflərindən xüsusi səlahiyyətləri olan komissiya gəlmişdi.

Komissiyaların üzvləri ciddi rəsmiyyətlə qarşılandılar. Onlara bildirildi ki, nahara yarım saat vaxt verilir. Nahardan sonra komissiyaların üzvləri kayut-kompaniyada toplaşıb "Paritet" orbital stansiyasında baş vermiş fövqəladə vəziyyətlə əlaqədar olaraq qapalı müşavirə keçirməliydilər.

Amma müşavirə elə təzəcə başlanmışdı ki, qəflətən dayandırıldı. "Paritet"dəki nəzarətçi-kosmonavtlar 1-2 və 2-1 paritet-kosmonavtların qonşu Qalaktikadakı Meşəlidöş planetindən göndərdikləri ilk xəbər barədə "Konvensiya"dakı Biridamərkə məlumat verirdilər.

## IV

*Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*

*Dəmiryolunun hər iki tərəfilə – Sarı-Özək deyilən ucsuz-bucaqsız boş düzənliklər uzanıb gedir...*

*Coğrafiyada hər şey Qrinviç meridianından ölçüldüyü kimi, bu yerlərdə də bütün məsafələr dəmiryolu ilə müəyyən edilir.*

*Qatarlar isə qərbdən şərqə, şərqdən də qərbə gedirdilər...*

Nə deyirsən de, dədə-baba Nayman qəbiristanlığı, Ana-Beyit hər halda əl uzatmaqla çatası yer deyil – otuz verstlik yolu Sarı-Özəklə çölləmə, kəsəsinə getməlisən, həm də gərək zəndini itirməyəsən.

Boranlı Yedigey o gün tezdən oyandı. Əslində heç düz-əməlli yatmamışdı da. Sübhə yaxın bir az mürgüləyib gözünün acısını almışdı. Ona qədər isə mərhum Qazanqapın cənazəsini hazırlamışdı. Ümumiyyətlə adətə görə bu iş dəfn günü görülməliydi, meyit yerdən götürülməzdən azca əvvəl ölənin evində cənazə qabağında namaza dayanmalıydılar. İndi isə bu işlərin hamısını axşamdan görürlər ki, səhər tezdən ləngimədən yola çıxsınlar. Meyiti yumaq üçün Caydaq Ədilbəyin ilıq su gətirməyi nəzərə alınmazsa, lazım olan işlərin hamısını Yedigey özü eləmişdi. Ədilbəy meyitə yaxın dura bilmir, eymənirdi. Bir az da xoflanırdı deyəsən. Yedigey bunu üzə vurmayıb eyhamla dedi:

– Yaxşı bax, Ədilbəy, gör-götür dünyasıdır, lazım olar, bir gün doğulan, bir gün də basdırılmalıdır...

– Hə elədir, başa düşürəm, – deyə Ədilbəy cavab xətrinə kəkələdi.

– Elə mən də onu deyirəm. Sözgəlişi elə deyək ki, sabah mən öldüm. Yəni bir Allah bəndəsi tapılmayacaq ki, məni el adətiylə kəfənə tutsun? El adətiylə dəfn eləsin? Yoxsa elə aparıb qabağınıza çıxan bir çalaya tullayacaqsınız?

– Ta elə niyə?! – Ədilbəy tutuldu. Əlində tutduğu çırağı meyitə yaxınlaşdırdı ki, ölünü yumağı, kəfənləməyi öyrənsin və – bu yerlər sizsiz olmasın, – dedi – yaşayın, ömrünüz uzun olsun, çalaya qalsa, çala tapılar.

Meyitin yuyulması saat yarımacan çəkdi. Amma Yedigey öz işindən razı qaldı. O, mərhumu qanun-qaydasıyla yudu, əl-ayağını düzəldib lazımi qaydada uzatdı, kətana qızırqanmayıb Qazanqapı gen-bol kəfənlədi. Bu arada Ədilbəyə kəfən biçməyin təhərini də göstərdi. Sonra da özünü qaydaya saldı. Üzünü tərtəmiz qırxdı, bığını qayçılayıb düzəltdi. Bığı da qaşları kimi qalın və coduydu. Artıq saçlarına dən düşməyə başlamışdı. Çallaşmışdı. Yedigey əsgərlikdə aldığı orden və medalları, hətta əmək zərbəçisi döş nişanını da silib təmizlədi, pencəyinə sancaqlayıb sabahkı səfər üçün hazırladı.

Gecə belə keçdi. Boranlı Yedigey öz-özünə təəccüb eləyirdi – heç ağlına gəlməzdi ki, bu işləri belə sakit və asanlıqla görə bilər. Görünür, alnına belə yazılıbmış – Qazanqapı dəfn eləmək ona tapşırılıbmış. Bu, taleyin əmriymiş.

Bəli, belə-belə şeylər... Onlar Kumbel stansiyasında ilk dəfə görüşəndə kimin ağlına gələ bilərdi ki, belə olacaq!.. Yedigeyi beyin sarsıntısından sonra ordudan qırx dördün axırında tərxis elədilər. Qıraqdan baxan deyərdi ki, nə var sağlam adamdır – əl-ayağı yerində, başı da üstündə, başı üstündə olmağına üstündəydi, amma di gəl ki, elə bil özünün deyildi. Qulaqlarında səs vardı, aramsız külək uğultusu kimi. Bir neçə addım gedən kimi səndələyir, başı hərlənir, ürəyi bulanır, həm də bərk tərləyirdi, onu gah isti, gah da soyuq tər basırdı. Bəzən dili də söz tutmurdu – bir kəlmə kəsmək ona asan başa gəlmirdi. Alman mərmisinin partlayış dalğası onu möhkəmcə sarsıtmışdı. Öldürməyinə öldürməmişdi, amma belə yaşamağın da bir mənası yoxdu. Onda Yedigey tamam ruhdan düşmüşdü. Elə tutaq ki, qayıtdı evlərinə – Aral dənizi sahilinə – görkəmcə cavan, sağlam, di gəl ki, nə



iş görəcək, nəyə yarayacaq? Xoşbəxtlikdən bəxtinə yaxşı həkim çıxmışdı. Əslində onu heç müalicə də eləmədi, eləcə müayinədən keçirtdi, qulaq asdı, yoxladı, indi də gözünün qabağındadır – əynində ağ xalat, başında həkim papağı, yekəburun, güləş gözlü, zorba kürən bir kişiydi, gülə-gülə onun çiyninə şappıldadıb dedi:

– Görürsən də, qardaş, daha davanın axırına bir şey qalmayıb, yoxsa səni təzədən orduya qaytarardım, hələ bir az da vuruşardın. Daha keçib, sənsiz də qələbəyə çatırıq. Amma sən ürəyini lap buz kimi elə – bircə ildən sonra, bəlkə də daha tez, hər şey öz qaydasında olacaq, lap kələ kimi sağlam olacaqsan. Bax, mənim bu sözümü yadda saxla, vaxt gələr özün görərsən. İndisə şələ-küləni yığışdır, qayıt dədə-baba yurduna. Özü də heç fikir-zad eləmə. Sənin kimilər yüz il yaşayırlar...

Elə o kürən həkimin dediyi kimi də oldu. Düzdür ey, dildə bircə il deməyə nə var! Bəs hospitaldan necə çıxmışdı? Əynində əzik-üzük şinel, çiynində əsgər torbası... Ehtiyat üçün qoltuq ağacı da vermişdilər – şəhərə çıxanda elə bil qalın meşəyə düşdü. Başı uğuldayır, ayaqları əsir, gözləri qaralırdı. Vağzallarda, qatarlarda da ki, kimin nə borcuna – camaat qarışqa kimi, zoru çatan dürtür özünü qabağa, səni də itələyir qırağa. Axır ki birtəhər, gətirib özünü çatdırdı. Qərəz ki, bir ay sərgərdanlıqdan sonra, qatar gecəykən Aralsk stansiyasında dayandı. “Beş yüz yeddinci kefcil” deyərdilər o “məşhur” qatara, kaş Allah heç vaxt heç kimə belə qatarlarda getməyi qismət eləməsin...

O vaxt beləsinə də şükür eləyirdi. Qaranlıqda vaqondan düşdü. Elə bil dağdan endi, döyüküb dayandı, göz-gözü görmürdü, təkcə addabudda stansiya işıqlarının işartısı gəlirdi. Küləkli havaydı. Onu qarşılayan da bu külək oldu. Doğma, öz Aralının küləyi idi! Elə bil üzünə dəniz çiləndi. O vaxtlar dəniz lap yaxındaydı, dəmiryolunun böyründə ləpələnirdi. İndi heç binoklla da görmək olmur...

Nəfəsi darıxdı – çöldən Aral düzlərinin yaz oyanışından xəbər verən yapıxmış yovşan qoxusu gəlirdi. Axır ki, yenə də doğma yerlərdədir!

Yedigey stansiyaya, dəniz sahilindəki stansiya qəsəbəsinə, qəsəbənin əyri-üyrü küçələrinə yaxşı bələd idi. Yapışqan kimi palçıq çəkmələrinə yapışırdı. O istəyirdi ki, qalıb tanışlarıgildə gecələsin, səhəri öz balıqçılıq aulları Cangəldiyə yol alsın, çünki ora xeyli yol vardı, heç özü də hiss eləmədi ki, küçə nə vaxt gətirib çıxarıb onu

qəsəbənin qurtaracağındakı sahilə... Daha bu yerdə Yedigey özünü saxlaya bilməyib lap dənizə, sahilə yaxınlaşdı. Dayandı. Ay dan qaranlığının bulud topalarının arasından tənha bir ləkə kimi ağarırdı.

Görüşərmişik, deməli!..

– Salam, Aral. – Yedigey pıçıldadı.

Sonra daş üstə oturdu, həkimlər, xəstəliyinə görə çəkməyi məsləhət bilməsələr də, papiros yandırdı. Sonralar o, bu pis vərdişindən əl çəkdi. Amma onda yaman həyəcanlanmışdı və necə yaşayacağını müəyyən eləyə bilmədiyi halda, papiros tüstüsü nə şeydi ki! Dənizə çıxmaq üçün gərəkdir ki, güclü əllərin ola, həm də güclü belin, ən vacibi isə möhkəm baş lazımdır ki, kərəci səni çalxalayıb tutmasın. Cəbhəyə qədər vətəgədə balıqçıydı, bəs indi kimdir? Nə əlil kimi əlildir, nə sağlam kimi sağlam, nə tüfəngə çaxmaq, nə dümbəyə toxmaq... Qərəz ki, bu başla balıqçılıq tutmazdı, bu barədə heç danışmağa dəyməz...

Yedigey yerindən durmaq istəyirdi ki, hardansa suyun qırağına bir ağ it gəldi. İt ləpədöyəndə tənbəl-tənbəl şörtdüyürdü. Hərdənbir də ciddi iş görürmüş kimi dayanıb nəmişlik qumu imsiləyirdi. Yedigey onu səslədi. İt ehtiyat eləmədən yaxına gəlib onun yanında dayandı, quyruğunu buladı. Yedigey onun pırtlaşıq qıllı boynunu əlləşdirdi.

– Sən hardan çıxdın, hə? Adın nədir? Arslansan? Pələngsən, Qurdbasan? He – ə, başa düşürəm, sahildə balıq axtarırsan, hə, afərin, afərin! Amma dəniz hər ölü balığı ayaq altına atmır. Neyləmək olar. Gərək axtarasan. Elə ona görə də qabırğaların sayılır. Mənsə, dostum, evə qayıdıram. Keniqsberq yaxınlığından. O şəhərə girməyimə lap az qalmışdı, düşmən mərmisi lap böyrümdə partladı, qədər-qismətdən ölmədim, sağ çıxdım. İndisə, fikirləşirəm, götür-qoy eləyirəm, neyləyim, necə olsun... Niyə belə baxırsan? Axı, sənə verməli heç nəyim yoxdur, olan-qalanım ordenlərim, medallarımdır... Müharibədir, dostum, hər yerdə aclıqdır, yoxsa, varlığa nə darlıq... Bir dayan, bax, bir az monpası var, balama aparıram, o indi yəqin yekə oğlan olub. Yüyürür, qaçır...

Yedigey ərinmədən, yarıboş əsgər torbasını açdı, torbada qəzet cırığına bir ovuc şirniyyat bükülmüşdü, yol keçdiyi stansiyaların birində arvadı üçün əldən aldığı yaylıq, iki parça da sabun vardı – onu da alverçilərdən almışdı. Bunlardan başqa torbada bir dəst alt paltarı, kəmər, pilotka, köynək, şalvardı – bütün yükü elə bu idi.



İt ovcunda monpasını yalayıb quyruğunu bulaya-bulaya etibar və ümidlə işıldayan gözlərini ona dikərək şirnini xırtıldatdı.

– Sağlıqla qal, mən getdim.

Yedigey ayağa durub, sahil boyunca yola düzəldi. Qət elədi ki, daha stansiyadakı tanışlarını narahat eləməsin, səhərə az qalırdı, ləngiməyin yeri yoxdur, çalışıb özünü Cangəldiyə çatdırmalıydı.

Həmin günü bütün yolu dəniz sahili ilə gedib ancaq günortaüstü Cangəldiyə çata bildi. Bu xəstəliyindən əvvəl Yedigey bu yolu iti yerişlə iki saata gedərdi. Aldığı dəhşətli xəbər onu ildırım kimi vurdu – sən demə, oğul balası çoxdan dünyadan köçübmüş. Yedigeyi səfərbərliyə alanda körpə altıca aylıq idi. Demə, nəsib deyilmiş – körpəciyi on bir aylığında ölübmüş. Qızılca çıxarıb, içinin istisinə – qızdırmaya tab gətirməyib, yanıb gedib. Bu qara xəbəri atasına yazmaq istəməyiblər. Hara yazsınlar, niyə yazsınlar? Müharibənin öz acı zəhrimarı onsuz da bəs eləyir. Sağ qayıdar – gələn baş bilər, bir müddət xiffət çəkər, birtəhər dözər, – deyə Ukubalanın qohumları ona məsləhət görmüşdülər ki, kişiyə xəbər verməsin. Demişdilər ki, hələ cavansınız, müharibə qurtarar, Allah qoysa təzə oğul-uşaq sahibi olarsınız. "Budaq sınsa eybi yox, təki çinarın gövdəsi salamat olsun". Bir fikir də var – heç kim dilə gətirməsə də içində hərləyirdi: şər deməsən xeyir gəlməz, müharibədir, tələf olsa, qoy son anda bu işıqlı dünya ilə ümidlə vidalaşsın – yəni bilsin ki, nəsli kəsilmir, yurdunda qalan tifili var.

Ukubala özünə divan tuturdu. Ərinə sarılıb elə hönkürürdü ki, elə bil bu dəqiqə bağrı çatlayacaq. Axı o bu günü ümidlə, ürək ağrısı və üzüntülü bir intizarla gözləyirdi. Gözünün yaşını sel kimi axıdıb deyirdi ki, ağbirçək qarılar ona vaxtında dedilər ehtiyatlı olsun: uşaq qızılcadır ha, bu xatalı şeydir, körpəni isti yorğana bükmək lazımdır. Özü də dəvə yunundan sırınmış olsun, dedilər tamam qaranlıqda saxla. Çoxlu sərin su içirt, sonrası Allah kərimdir, qızdırmaya tab gətirsə sağalacaq. Mən qarabəxt aulun ağbirçəklərinin sözünə baxmadım, qonşudan araba alıb xəstə uşağı stansiyadakı qadın həkimin yanına apardım. Uşağı arabada silkələyə-silkələyə Aralska çatdıranacan gec oldu. Tifilim elə yoldaca yanıb külə dönmüşdü. Həkim ağzından çıxanı mənə dedi, dedi ki, gərək ağbirçəklərin sözünə qulaq asaydın.

Yedigeyi qapıdan içəri girəndə belə bir xəbər gözləyirdi. Elə o vaxtdan dərd əlindən qapqara qaralıb daşa döndü. Əvvəllər heç vədə

ağlına belə gəlməzdi ki, oğlundan ötrü bu qədər fikir çəkə bilər, axı o, öz ilkin heç əməlli-başlı oynadıb oxşamamışdı da. Elə bunun özü də bir dərd gətirirdi ona. Körpənin dişsiz ağzını, gülüşündəki məsumluğu unuda bilmir, hər dəfə yadına düşdükcə ürəyi odlanırdı.

Elə səbəb də bu oldu. Yedigeyin auldan üzü lap döndü. Vaxtilə sahildəki gilli dikdirin döşündə əlliyə qədər məhəllə vardı. Aralda balıqçılıqla məşğul olurdular. Çörəkləri bundan çıxırdı. İndisə yarğanın altında beş-on daxma qalmışdı. Hamısını müharibə silib-süpürmüşdü. Qalanı qocalardı, bir də uşaqlar – onları da barmaqla saymaq olardı. Adamların çoxu acından ölməmək üçün, maldarlıq kolxozları olan aullara dağılıb getmişdilər. Artel dağılmışdı. Dənizə çıxmağa adam qalmamışdı.

Ukubala da qohumlarının yanına gedə bilərdi, onlar nəsillikcə çöllü idilər. Qohum-əqrəbası gəlib onu aparmaq istəmişdi. Demişdilər ki, qalarsan yanımızda, bu qan-qada sovuşar, Yedigey davadan qayıdar – kimdi sənə mane olan, qayıt yenə öz balıqçı yurdun Cangəldiyə... Amma Ukubala qəti razı olmamışdı: "Ərimi gözləyəcəyəm. Oğlum tələf oldu. Özü sağ qayıtsa barı arvadını yurdunda görsün. Burda tək deyiləm, qocası, uşağı var, onlara köməyim dəyər, bir-birimizə həyan olub birtəhər keçinərik".

O, doğru yol seçmişdi. Amma Yedigey elə ilk günlərdən deyinməyə başladı ki, dəniz sahilində işsiz-gücsüz qalıb, dözə bilmir. Bu işdə o da özünə görə haqlı idi. Yedigeylə görüşməyə gələn Ukubalanın qohumları təklif elədilər ki, onların yanına köçsünlər. Dedilər ki, çöldə sürülərin yanında dolanarsan. Yavaş-yavaş canın-başın düzələr, bir işin qulpundan yapışarsan, naxıra ki, gedə bilərsən... Yedigey dil-ağız elədi, amma razılaşmadı. Başa düşürdü ki, artıq yük olacaq. Arvadının yaxın qohumlarıgildə bir-iki gün qonaq qalmaq başqa məsələ... Sonra, işə yaramırsansa, kimin nəyinə lazımsan...

Belə olanda Ukubalayla qət elədilər baxtlarını sınasınlar. Qərara gəldilər ki, versinlər özlərini dəmiryoluna. Deyirdilər Yedigeyə orda münasib bir iş tapılar – keşikçidən, gözətçidən olar, ya da yol keçidində şlaqbauma baxar. Hər halda müharibə əlilinə qayğı göstərməmiş olmazlar.

Elə bu ümidlə də yazda auldan getdilər. Cavandırlar, hələlik ayrı qayğıları yoxdur. İlk günləri müxtəlif stansiyalarda gecələdilər. Amma münasib bir iş tapa bilmədilər ki, bilmədilər. Mənzil məsələsində



vəziyyətləri daha da pis idi. Harda gəldi, orda qalırdılar, ruzularını da dəmiryolunda əllərinə keçən işdən çıxarırdılar. O vaxt Ukubalanın köməyi çox olurdu – həm cavandır, həm də sağlam, işin çoxunu o görürdü. Görkəmcə sağlam olan Yedigey, kişi kimi müxtəlif yükləmə və boşaltma işi götürürdü, əslində isə işi Ukubala görürdü.

Beləliklə, günlərin bir günü onlar yazın ortalarında böyük dəmiryol qovşağı olan Kumbel stansiyasına gəlib çıxdılar. Daş kömür boşaldırdılar. Kömür yüklü vaqonları birbaşa ehtiyat yolla depo təsərrüfatının arxa həyətinə verirdilər. Burda kömürü əvvəlcə yerə tökürdülər ki, platformanı mümkün qədər tez boşaltsınlar, sonra da əl arabasında daşıyıb yuxarı qaldırır, evdən də hündür qalanmış tığın üstünə əndərirdilər. *İllik* ehtiyat görülürdü, son dərəcə ağır iş idi. Çarə nədir, birtəhər dolanmalıydılar. Yedigey kömürü kürəklə əl arabasına doldurur, Ukubala da arabanı taxtapuşlu yolla yuxarı qaldırıb boşaldır, təzədən aşağı enirdi. Yedigey arabanı təzədən doldurur, Ukubala qoşqu atı kimi, canını dişinə tutub, arvad işi olmayan bu ağır yüklə təzədən yuxarı dırmaşırdı. Günlər də get-gedə qızır, bürkülər başlanır, istidən və daş kömürün tozundan Yedigeyin əhvalı qarışır, ürəyi bulanırdı. Getdikcə gücdən düşdüyünü özü də hiss eləyirdi. Qınayan olmasaydı, yerdəki daş kömürün üstünə sərələnər, bir də ayağa durmazdı. Hər şeydən də çox Yedigeyə əzab verən o idi ki, onun görməli olduğu işi, qapqara tozdan boğula-boğula arvadı görürdü. Arvadının üzünə baxmağa xəcalət çəkirdi. Təpədən-dırnağa qapqara tozun içində idi, təkcə gözlərinin ağı, bir də dişləri ağarırdı. Özünü də tər aparırdı. Qapqara tozqarışıq tər boynuna, sinəsinə, kürəyinə axırdı. Əvvəlki sağlamlığı, gücü yerində olsaydı, heç buna yol verərdimi! Bu lənətə gəlmiş daş kömürün on vaqonunu təkbaşına boşaldardı, təki arvadının bu zülmünü görməyəydi.

Onlar Yedigeyə müharibə əlili kimi münasib bir iş tapmaq ümidi ilə balıqçılıq aulu Cangəldini tərk edəndə bir şeyi nəzərə almamışdılar ki, indi hər yer onun kimi müharibə əlilləri ilə doludur. Və onların hamısı onun kimi həyatını yenidən qurmalıdır. Hələ yaxşı ki, Yedigeyin əl-ayağı yerindəydi. O vaxt dəmir yollarında nə qədər şikəst – əlsiz-ayaqsız, qoltuq ağacıyla, protezlə, avara-sərgərdan gəzirdi. Ağzınacan dolu, üfunətli stansiya binasının bir küncünə sığınıb uzun gecələri yola salanda Ukubala ürəyində Allahına min dəfə şükür eləyirdi ki, əri yanındadır, özünə də o qədər xəsarət dəyməyib ki, qorxulu

və əlacsız olsun. Çünki stansiyalarda gördükləri onu dəhşətə gətirir, əzablar içində üzürdü. Əyinlərində köhnə şinel, cır-cındır içində arabacıqda, qoltuq ağacında, əlsiz-ayaqsız, kor, şil-küt olmuş yurdsuz-yuvasız bədbəxtlər bu stansiyada batıb, o stansiyadan çıxır, qatardan-qatara keçir, yeməkxanalara və bufetlərə soxularaq kefli-kefli elə qışqırır, elə ağlayırdılar ki, adam sarsılırdı. Onları qarşıda nə gözləyirdi, onların heç bir şeylə əvəz olunmayacaq itkilərini nəylə əvəz etmək olardı? Elə təkcə buna görə ki, belə bir müsibət ondan yan keçib, axı keçməyə də bilərdi, əri kontuziyalı olsa da, şikəst qayıtmayıb. Ukubala bütün dünyanın ən ağır işini görməyə hazır idi. Elə buna görə də əldən-ayaqdan düşsə də, səbri tükənsə də, heç vaxt şikayətlənmir, təslim olmur, üzə vurmurdu.

Ancaq bu, Yedigeyin dərdinə dərman deyildi. Nəsə eləməli, nə cür olur-olsun, yaşayışının səmtini qəti müəyyənləşdirməliydi. Ölənəcən sərgərdan gəzməyəcək ki! Buna görə də axır vaxtlar tez-tez ağlına belə bir fikir gəlirdi: bəlkə Allaha təvəkkül eləyib özünü bir şəhərə vursun, sonrası da Allah kərimdir. Ax bircə sağalaydı, bu lənətə gəlmiş kontuziyadan xilas ola biləydi. Onda yenə də çalışıb-çapalamaq olardı, özünə gün ağlaya bilərdi. Şəhərdə başlarına nə desən gələ bilərdi, amma yavaş-yavaş yovuşub başqaları kimi şəhərli də ola bilərdilər, intəhası taleləri ayrı cür gətirdi, yaxşı deyiblər: sən saydığını say, gör fələk nə sayır. Bu işə ayrı ad qoymaq olmazdı...

Onlar Kumbel stansiyasında deponun kömür yığılan həyətində bir vaqon kömürü tığa vurmaq üçün çalışıb tər tökdükləri günlərin birində bura dəvə üstündə bir qazax gəldi, görünür, çöldən öz iş-gücündən ötrü gəlmişdi. Hər halda görkəmindən belə çıxırdı. Gələn adam dəvəsini cidarlayıb yaxındakı açıqlığa otlamağa buraxdı, özü isə hərdən dönüb nigarançılıqla baxa-baxa, boş bir kisəni qoltuğuna vurub uzaqlaşdı.

– Ay qardaş, – deyə o, Yedigeyin yanından keçəndə ayaq saxladı, – sən Allah, gözün dəvədə olsun, uşaqlar dəyib-dolaşmasınlar, çox yava şakərləri var – heyvana öcəşirlər, vururlar. Şuluqluq xətrinə cidarını da açarlar... Ləngiməyəcəm, indicə qayıdıram.

– Get, get, baxaram, – deyə Yedigey onu arxayın elədi, əsgi ilə üz-gözünü sildi.

Tər də ki, peydəri axırdı. Yedigey onsuz da kömür tökülmüş yerdə əl arabasını doldururdu, işarası dəvəyə baxmaq ondan nə aparırdı, təki



stansiyanın dəcəlləri dəvəni təntitməsinlər. Çünki bir dəfə onların hərəkətini görmüşdü – heyvanı hirsləndirib bir günə saldılar ki, o da nərildəyə-nərildəyə tüpürür, uşaqları qabağına qatıb qovurdu. Onlara da kef üçün elə bu lazımdı, daş dövrünün ovçuları kimi heyvanı araya alıb bağırır, əllərinə keçən daş-kəsək, ağacla yazığı vururdular. Sahibi gəlib çıxana kimi yazıq dəvənin başına min oyun açırdılar...

Elə bu dəfə də haradansa bir dəstə cır-cındırlı uşaq tökülüşüb futbol oynamağa başladılar. Topu var gücləri ilə cidarlanmış dəvənin üstünə vururdular. Dəvə ürküb çəkilir, onlar da topla dəvənin böyrünə ilişdirir, bir-birinin bəhsinə daha güclü, daha sərrast zərbə endirməyə çalışırdılar – hədəfi vuran elə sevinib tullanırdı ki, elə bil qol vurub...

– Bura bax ey, rədd olun burdan, əl çəkin heyvandan! – Yedigey kürəyi qaldırıb onları hədələdi. – Rədd olun, əlim dəyməmiş!

Uşaqlar çəkildilər, dedilər ki, bəlkə dəvənin yiyəsidir, bir də ki, kömür fəhləsinin çox vahiməli görkəmi vardı, kim bilir, bəlkə də içib, onda əlindən qurtarmaq olmaz, ona görə də topu qova-qova uzaqlaşdılar. Hardan biləydilər ki, qorxusuz-ürküsüz, istədikləri qədər dəvəni cırnadıb özündən çıxara bilərlər, Yedigey ancaq onları qorxutmaq üçün kürəklə hədələmişdi, əslində o vaxtkı halında uşaqların dalınca qaça bilərdimi?! Arabaya bir kürək kömür atınca onunku ona dəyirdi. Heç vaxt ağlına gəlməzdi ki, zəiflik, xəstəlik və yararsızlıq bu dərəcədə rəzil və həqir bir şeymiş... Başı müdam hərlənirdi. Tər də bir tərəfdən... Heysiz-halsız, bu yandan da kömür tozu nəfəsin kəsir, sinəsi qara-qatı bəlğəmlə dolurdu. Ukubala çalışırdı ki, işin əsas hissəsini öz üstünə götürsün, təki Yedigey kənarda oturub bir az dincələ bilsin, əl arabasını özü yükləyib tığın üstünə qaldırırdı. Yedigey də arvadının bu əzabına dözə bilmir, yerindən qalxır, gicəllənə-gicəllənə təzədən işə başlayırdı...

Dəvəni tapşırıb gedən adam bir azdan çiyni yüklü qayıtdı. Yükünü yerbəyer eləyib yola çıxmağa hazırlaşanda, Yedigeyə yaxınlaşdı ki, onunla bir-iki kəlmə kəssin. Sözləri də tutdu. Bu elə həmin Boranlı razyezdindən olan Qazanqapın özüydü...

Onlar yerli çıxdılar. Qazanqap dedi ki, elə o özü də nəsillikcə Aral sahili aullarındandır. Bu onları daha tez yaxınlaşdırdı.

O vaxt heç kimin ağlına gəlmirdi ki, bu görüş Ukubala ilə Yedigeyin bütün gələcək ömür yolunu müəyyən edəcək. Qazanqap sadəcə olaraq onları inandıra bildi ki, elə onunla birlikdə Boranlıya

yollansınlar, orada yaşayıb-işləsinlər. Adam var ki, elə ilk görüşdən özünə inam yarada bilir. Qazanqapda sən deyən elə bir şey də yox idi, əksinə, ondakı sadəlik göstərirdi ki, bu adam həyatın ağır keşməkeşlərindən keçib, müdrikləşib. Görkəmindən adicə bir qazaxdı, paltarı da çox geyilməkdən soluxub bədəninə münasib şəkildə əyninə oturmuşdu. Aşılanmış keçi dərisindən şalvarı da boş yerə geyinməmişdi – dəvəyə minmək üçün münasib idi. Yaxşını yamandan seçən adama oxşayırdı, nisbətən təzə, qorunub-saxlanmış bayırlıq dəmiryol şapkası ona yaxşı yaraşırdı, uzun illərin nimdaşı, xrom çəkmələri də bir neçə yerdən çirişli sapla səliqə ilə yamanmışdı. Həm də onun köklü, işlək çöl adamı olduğu, qızmar günəşin və daimi küləklərin yandırıb qaraltdığı bərkimiş sifətindən və möhkəm damarlı əllərindən bilinirdi. Ağır iş vaxtından əvvəl qəddini əymişdi, çiyinləri sallana qalmışdı, özü ortaboy olsa da boğazı lap erkək qaz boğazı kimi uzanırdı. Çox qəribə gözləri vardı – qonur, hər şeyi anlayan, diqqətli, güləş, qıyılanda dövrəsində şüa kimi qırışlar uzanırdı.

O vaxt Qazanqapın qırxa yaxın yaşı vardı. Bəlkə də qısa vurulmuş cod bığları, yığcam qonur saqqalı ona isti-soyuq görmüş kamil adam görkəmi verirdi. Amma hər şeydən çox etibar qazandıran onun ağıllı danışığı idi. Ukubalada da elə başdan bu adama hörmət yaranmışdı, nə deyirdisə hamısı yerinə düşürdü. Danışdıqları da ağlabatan sözlərdi. İndi ki, deyirdi, bu cür bəla üz verib – beyni sarsılıb – xəstəlik hələ canından çıxmayıb, niyə gərək canına qəsd eləyəsən? Mən, deyirdi o saat hiss elədim ki, Yedigey, bu iş sənə zorla başa gəlir. Hələ canın belə iş üçün bərkiməyib. Güclə ayağını sürüyürsən. Hələlik sənə yüngül bir iş lazımdır. Açıq havada olsan, təzə süd içərsən... Məsələn, elə deyək bizim razyezddə yol işində işləmək üçün adama böyük ehtiyacımız var. Razyezdin yeni rəisi hər dəfə danışıb-deyinir ki, sən buranın köhnə sakinisən, danış, bizə lazım adamları çək bura. Belə adamı hardan tapasan? Hamı davada. Qayıdanlar üçünsə başqa yerlərdə də iş-güc bol eləyir. Düzünə qalsa, bizim yerlər bir elə yer deyil. Güzəranımız ağırdı, Sarı-Özəkdəyik, kimsəsiz, susuz yerlərdir. Suyu çənlərdə həftəlik gətirirlər. Olur ki, vaxtında gətirib çatdıra bilmirlər. Belə şeylər də olur. Onda gərək suyu gedib çöldəki uzaq quyulardan tuluqlarda gətirəsən, səhər yollanıb, ancaq axşam qayıda bilərsən. Amma hər necə olsa, deyirdi, avara-sərgərdan gəzməkdənsə, əldən-ayaqdan uzaq da olsa Sarı-Özəkdəcə yaşamaq daha yaxşıdır. Pis-yaxşı



damınız olacaq, daimi işiniz olacaq, göstərərik, nə eləmək, necə eləmək lazım olduğunu öyrədərik, yavaş-yavaş həyət-baca düzəldərsiz – baxır işini necə tutacaqsan. İkilikdə, deyirdi, dolanmaq üçün bəs deyən qədər qazana bilərsiz. O vaxtacan cana gələrsən, sonrası öz işindi, gördün ki, darıxırsız – gedib bir ayrı yerdə daha yaxşı iş taparsız... Bax, o belə-belə sözlər deyirdi. Yedigey xeyli fikirləşəndən sonra razılıq verdi. Elə bu razılıqdan sonra da Qazanqapla birlikdə Sarı-Özəyin Boranlı razyezdinə yol aldılar, çünki o günlərdə Yedigeylə Ukubalanın yır-yığışına bir elə vaxt lazım deyildi. Şey-şüylərini yığıb yola düzəldilər. O vaxt onlarçün fərqi yoxdu – dedilər ki, bir bu yolda da baxtımızı sınayaq. Sonradan da məlum oldu ki, bu elə onların taleyi imiş...

Kumbeldən Sarı-Özəklə Boranlıya gedən bu yol Yedigeyin ömürlük yadında qaldı. Əvvəlcə dəmiryol boyunca gedirdilər, sonra yavaş-yavaş çölləmə gedib aralandılar. Qazanqap başa saldı ki, kəsə getməklə yolu on kilometr qısaltdılar, belə ki, bu yerdən başlamış dəmiryol böyük Takır dərəsi boyunca dövrə vururdu – nə vaxtsa bu yerdə duzlu göl olub, sonra quruyub. Elə bu günün özünə kimi yerin təkindən Takırda duz üzə çıxır. Hər yazda duzlu düzənlik cana gəlir – çamırlanıb yumşalır, keçilməz olur, yay qabağı duz ağ qaysaq bağlayır, günü-gündən bərkiyib lap daşa dönür, ta gələn yaza kimi. Vaxtilə buraların böyük duzlu göl olduğunu Qazanqap Sarı-Özəkdə geoloq işləyən Yelizarovun dilindən eşidib danışırdı. Sonralar Yedigey özü onunla möhkəm dost oldu. Ağıllı adam idi.

O vaxt hələ Boranlı kimi tanınmamış, Yedigey, təsadüfən öz yerlisi olan dəmiryol işçisi Qazanqapa etibar eləyib, Aral qazaxı, cəbhədə yaralanmış, həyatda hələ öz yerini tapa bilməmiş bir adam kimi arvadıyla bir yerdə ona qoşularaq bir iş, bir məskən tapmaq niyyətilə naməlum Boranlı razyezdinə gedəndə güman da eləməzdi ki, ömürlük orda qalacaq. Yazda az müddət göyərib sovuşan ucsuz-bucaqsız intəhasız Sarı-Özək, Yedigeyin ağlını başından almışdı. Aral dənizinin də ətrafında çöl, düzən çoxdur, elə bircə Üst-urt yaylasını desən bəsdir, ancaq belə boş çöllüyü ömründə birinci dəfə görürdü. Beləliklə, Yedigey sonradan başa düşdü ki, ancaq o adamlar bu sükunətli Sarı-Özəklə təkbətək dayanıb tab gətirə bilər ki, bu düzənliklərin genişliyini öz ruhunda tapmağa nail olsun. Doğrudur, Sarı-Özək çox böyükdür, amma canlı insan fikri onu da əhatə eləməyə qadirdir.

Yelizarov müdrik adam idi. Başqalarının dumanlı şəkildə təxmin elədiyi şeyləri izah eləməyi bacarırdı.

Kim bilir, qabaqda dəvəni yedəkləyib inamla addımlayan Qazanqap olmasaydı, Yedigeylə, Ukubala Sarı-Özəyin dərinliklərinə getdikcə, özlərini necə hiss edərdilər. Yedigey isə müxtəlif şeylər yüklənmiş dəvənin üstündə gedirdi. Əslində gərək dəvəyə o yox, Ukubala minəydi. Amma Qazanqap, xüsusilə Ukubalanın özü onu dilə tutub demək olar ki, zorla dəvəyə mindirdilər: "Biz gümrah adamlarıq, sən hələ özünü gözləməlisən, inad eləyib, bizi ləngitmə, yolumuz uzundur..." Dəvə hələ cavandı, ağır yük üçün yetkinləşməmişdi, ona görə də ikisi piyada gedirdi, biri də dəvənin üstə. Bircə Yedigeyin indiki Qaranərinə hər üçü rahatca minə bilərdi, özü də löhrəm yerişlə daha tez – üç saat yarım-dörd saata mənzilə çata bilərdilər. Onlarsa o vaxt Boranlıya ancaq gecədən xeyli keçmiş çata bildilər.

Amma bir tərəfdən başlarını söhbətə qatıb yola nərdivan qoyduqları üçün, bir də ki, bələd olmadıqları yerlərə baxa-baxa getdikləri üçün yolun uzunluğu hiss olunmadı. Qazanqap yol uzunu buranın güngüzəranından, bura necə düşdüyündən, Sarı-Özək yerlərindən, dəmiryoluna gəlməyindən danışırdı. Sinni də elə sən deyən çox deyilmiş, otuz altının içindəymiş. Nəsillikcə Aral qazaxlarındandı. Onun aulu Beşağacın sahil boyunca Cangəldidən otuz kilometrlik arası olar.

Qazanqap oradan lap çoxdan çıxmış olsa da, o vaxtdan bir dəfə də olsun doğma Beşağaca gedə bilməmişdi. Bunun da öz səbəbi vardı. Sən demə, onun atasını qolçomaqları bir sinif kimi ləğv eləyəndə sürgün eləyiblərmiş, o da yoldaca rəhmətə gedib, sürgündən qayıdanbaş, məlum olub ki, heç qolçomaq-zad deyilmiş, tamam haqsız olaraq əyintiyə düşüb: düzünə qalsa, onun kimi ortabab təsərrüfatçılara səhvən çox amansızlıq eləmişdilər. Qərarı ləğv eləsələr də çox gec olub. Ailəsi, qardaşları, bacıları hərəsi bir səmtə dağılışıblar ki, gözdən iraq olsunlar. O vaxtdan elə bil daş olub suya batıblar. O vaxt yeniyetmə olan Qazanqapı, xüsusi canfəşanlıq eləyən fəallar məcbur eləyirmişlər ki, qalxıb iclasda atasını ifşa eləsin, camaat qabağında desin ki, bu xətti böyük ruh yüksəkliyi ilə bəyənir, guya atası yad ünsür kimi haqlı cəzalanıb. Buna görə də belə atadan imtina eləyir, atası kimi sinfi düşmənlərə yer üzündə yer yoxdur, belələri hər yerdə məhv edilməlidir.

Qazanqap bu rüsvayçılıqdan canını qurtarmaq üçün baş götürüb getməyə məcbur olub. Altı ili sərasər Betpak-Dalada işləyib –



Səmərqənd yaxınlığındakı quru torpaqlarda... Əsrlərlə insan əli dəyməmiş bu torpaqları o vaxt pambıq əkini üçün yararlı hala salırdılar. Adama həddən çox ehtiyac vardı. Baraklarda yaşayır, kanal çəkirdilər. O da yer qazdı, traktorçu oldu, briqadir qoyuldu, zərbəçi əməyinə görə fəxri fərmanla təltif edildi... Elə orda da evləndi. O vaxt bu quru yerlərə adam axışıb gəlirdi, qazanc üçün. Xivə tərəfdən olan Qaraqalpaq qızı Bikə də qardaşının ailəsilə Betpak-Dalada işləməyə gəlmişdi. Belə çıxdı ki, qismətmiş bu görüşmək. Evləndilər və belə qərara gəldilər ki, Qazanqapın yurduna, Aral sahilinə, doğma adamlarının yanına, öz torpaqlarına qayıtsınlar. Amma demə hər şeyi axıracan əməlli-başlı ölçüb-biçməyibmişlər. Çox getdilər, qatardan düşüb, qatara mindilər, minikləri də "maksimka"lar oldu[1].

Kumbeldə bir dəfə də qatarlarını dəyişməliydilər, Qazanqap təsadüfən Araldan olan öz yerlilərinə rast gəldi, söhbətdən belə məlum oldu ki, Beşağaca getmələri məsləhət deyil. Sən demə, orda yenə də iş başında elə o əyintiyə yol verən həmən adamlardır. Belə olan surətdə Qazanqap öz aullarına getmək fikrindən daşındı. Ona görə yox ki, nədənsə ehtiyat eləyirdi. Ehtiyatı-zadı yox idi, indi əlində lap Özbəkistanın özündən fəxri fərmanı vardı. Ona görə ki, vaxtilə onu ələ salıb gülən adamları görmək istəmirdi. Hələlik at oynadan onlardır, bütün bu olub-keçmişlərdən sonra, o necə eləyə bilərdi ki, aralarında heç bir şey olmayıbmış kimi onlara salam verib, əleyk alsın! Qazanqap bu olanları yada salmağı sevmir, başa da düşmürdü ki, onun özündən başqa bunları hamı çoxdan unudub. Sarı-Özəyə gəldikləri uzun illər ərzində cəmi ikicə dəfə hiss elətdirmişdi ki, heç nəyi yaddan çıxartmayıb. Birində oğlu onu yaman dilxor eləmişdi, o biri dəfə isə Yedigeyin yersiz zarafatından incimişdi.

Sabitcan bir dəfə yenə evə gələndə hamılıqla, oturub çay içirdilər, söhbət eləyir, şəhər yeniliklərinə qulaq asırdılar. Sözarası, Sabitcan rişxəndlə gülərək dedi ki, kollektivləşmə dövründə Sinsizyana qaçan qazaxlar və qırğızlar təzədən geri qayıdırlar. Çin onları kommunalarda yaman sıxışdırıb – evlərində yeməyi qadağan eləyiblər, gündə üç dəfə, özü də ancaq ümumi tiyanda yeməliymişlər – məmə yeyəndən pəpə yeyənə kimi hamı qaşığı əlində növbəyə dayanırmış. Çinlilər onları elə günə salıb ki, hamısı var-yoxunu atıb geriyə qaçır, elə bil

[1] Sərnişin daşımaq üçün uyğunlaşdırılmış yük qatarı.

başlarına qaynar su əndəriblər... Ayaq öpməyə razıdırlar, təki geri qayıtmağa icazə versinlər.

– Burda öyünməli nə var ki? – deyə Qazanqap qaraldı, hirsindən dodaqları səyridi. Çox nadir hallarda belə vəziyyətə düşərdi, amma yenə də oğlu ilə bu cür hirsli danışmazdı, çünki dini-imanıydı, heç nəyini əsirgəməzdi, inanırdı ki, o da adam olub, adam içinə çıxacaq – sən axı buna niyə gülürsən? – Boğuq bir səslə əlavə etdi, cini başına vurduğundan daha da gərginləşirdi. – Axı bu, insan zəlalətidir.

– Bəs necə danışmalıyam? Əcəb işdir! – deyə Sabitcan etirazını bildirdi. – Necə var, elə də danışıram.

Atası dinmədi, çay piyaləsini kənara çəkib susdu, amma onun bu sükutunda dözülməz bir zəhm vardı.

– Bir də ki, axı kimdən inciyosən? – Sabitcan təəccüblə çiynini çəkib deyindi. – Başa düşmürəm, bir də təkrar eləyirəm, kimdən inciyosən? Zamandan? Zaman ələ gələn şey deyil. Dövlətdən? Buna da haqqımız yoxdur.

– Bilirsən, Sabitcan, mənim işim mənə görə olan işdir, yəni əlimdən gələn... Ayrı məsələlərə baş qoşmuram. Bir şeyi yadında saxla, oğlum, elə bilirdim, öz ağlınla bunu qanmısan, amma görürəm yox, yaddan çıxarma ki, təkcə Allahdan narazılıq ola bilməz – əgər ölüm verirsə, deməli, ömür başa çatıb, adam doğulub ki, vaxtı çatanda da ölsün – yerdə qalan nə varsa, hamısına cavabdehlik lazımdır. – Qazanqap yerindən dik durdu, heç kimə baxmadan, əsəbi halda, sükut içində evdən çıxıb, harasa getdi.

Bir dəfə isə, Kumbeldən gəldikdən çox-çox sonradan, Boranlıda artıq kök atıb bərkimişdilər. Uşaqlar dünyaya gəlib böyümüşdü, bir yaz günü şər vaxtı mal-qaranı ağıla ötürəndə Yedigey artıb törəmiş qoyun-quzuya baxıb zarafatla dedi:

– Yaman yağlanıb-tüklənmişik, Qazanəkə, qorx ki, təzədən qolçomaq kimi ləğv eləməsinlər!..

– Yava-yava zəvzəkləmə!

– Əşi, yəni zarafat da eləmək olmaz?!

– Belə şeylə zarafat olmaz.

– Boşla görək, Qazanəkə, üstündən yüz il keçib...

– İş də elə bundadır. Var alsalar ölməzsən, dözərsən, amma varlığını tapdalasalar, düzəlməyəcək...

Amma o gün ki, Sarı-Özəklə Boranlıya yol almışdılar, belə söhbətlərə hələ çox qalırdı. Hələ heç kim də bilmirdi ki, onların Boranlı



razyezdinə gəlişi neylə və necə nəticələnəcək, burada nə qədər bənd ala biləcəklər, kök ata biləcəklərmi, ya yenə də baş alıb bu yer sənin, o yer mənim dünyanı gəzəcəklər... Söhbət adicə gün-güzərandan gedirdi. Yedigey sözgəlişi maraqlandı ki, nə əcəb onu əsgər aparmayıblar, bir xəstəliyə-zada görə olmayıb ki?

– Şükür Allaha, salamatam, – deyə Qazanqap cavab verdi. – Xəstəliyim-filanım olmayıb, gümanımca başqalarından pis vuruşmazdım. Məsələ başqa cür oldu...

Qazanqap Beşağaca getmək fikrindən daşınandan sonra onlar bir müddət Kumbeldə küllənməli oldular, çarə nə idi, hara getsinlər? Bir də o boyda yol basıb Quru çölə qayıtmayacaqdılar ki! Qalmalı olsaydılar elə qalardılar da! Arala qayıtmaq fikrindən də vaz keçmişdilər. Bəxtlərindən stansiyanın rəisi xeyirxah adammış, o fağırları görüb sorğu-suala tutur, hardan gəldiklərini, nə işlə məşğul olmaq niyyətində olduqlarını öyrənir, elə o gün də Qazanqapla Bikəni yolüstü bir yük qatarına oturdub Boranlıya yola salır. Deyir ki, orda adama ehtiyac var, hər ikinizə iş tapılar. Razyezd rəisinin üstünə məktub yazır. Səhv də eləməmişdi. Bu yerlərin ağır zəhmətinin yanında Quru çöl toya getməli idi – heç olmasa orda gözün adam görürdü, iş də qaynayıb-daşırdı. Sarı-Özəyin susuz çölləri nə qədər qorxulu görünsə də yavaş-yavaş öyrəşdilər, çəmini tapıb güzəranlarını qurdular. Pis-yaxşı öz əli, öz başı... Adları bölmə dəmiryol fəhləsi olsa da, ancaq razyezddə tələb olan bütün işləri görməliydilər. Qazanqapla onun cavan arvadı Bikənin birgə həyatı Sarı-Özəyin bu kimsəsiz Boranlı razyezdində belə başlandı. Düzdür, bir-iki dəfə fikirlərindən keçmişdi ki, bir az puldan-paradan düzəldib başqa bir yerə – stansiyaya, ya da şəhərə yaxın bir yerə köçsünlər, ancaq özlərini yığışdıranacan müharibə başlamışdı. Boranlıdan eşelonların ağzı açıldı – şərqdən qərbə əsgər, qərbdən şərqə köçürülənlər... Qərbə taxıl, şərqə – yaralı. Dövranın necə dəyişdiyi Boranlı kimi əldən-ayaqdan uzaq yerdə də bütün kəskinliyi ilə hiss olunurdu...

Bir-birinə dirənmiş parovozlar bar-bar bağırır, semaforun açılmasını tələb eləyir, qarşıdan gələnlər də səsdə onlardan geri qalmırdılar... Şpallar ağırlığa dözmür, ardı-arası kəsilməyən ağır yüklü qatarların təzyiqinə tab gətirməyib əyilir, əzilir, vaxtından əvvəl sıradan çıxırdı. Relsin birini dəyişib təzələməmiş, yolun bir ayrı yerindən başqa təmir işi çıxırdı...

Elə bil dünyanın axırı idi; gecə-gündüz, həftələrlə, aylarla sonra da illərlə dolu eşelon üz tutmuşdu cəbhəyə... Hamısını də qərbə – bu

qədər qoşunu hardan yığırdılar, aparırdılar o yerə ki, iki quruluş toqquşub ölüm-dirim savaşına çıxmışdı...

Bir azdan Qazanqapın da növbəsi çatdı. Dedilər ki, cəbhəyə getməlisən. Kumbeldən çağırış vərəqəsi göndərdilər ki, toplanış məntəqəsində olmalısan. Razyezdin rəisi daş atıb başını tutdu – yaxşı yol işçisini aparırdılar, onsuz da Boranlıda iki cüt, bir tək adam vardı. Əfsus, əlindən nə gəlirdi, onu eşidən kimiydi, kimə nə var ki, razyezddə vəziyyət necədir... Kimə nə var ki, parovozlar semafor qabağında bar-bar bağırır... Ağzını açıb bir kəlmə desən ki, əlavə bir ehtiyat yol da lazımdır, gülərlər. Kim bu haydadır – düşmən Moskvaya girmək istəyir.

Müharibənin ilk qışı kandarı kəsdirmişdi – elə bil qış tələsir, özüylə boran, çiskin, ayaz gətirirdi. Gecə başlayan qar səhərəcən yağmışdı – əvvəlcə tək-tək, seyrək, dalısı da quşbaşı... Sarı-Özəyin dibsiz sükunəti içində düzü-dünyanı ağzına alaraq, dərələrə, təpələrə, çala-çuxura örtük çəkib yağır, hər yeri göylərin bakirəliyindən enmiş bəyazlığa bürüyürdü. Elə o saat da Sarı-Özək küləyi özünü tərpədib hələ yatıb-yapıxmamış qarın üstüylə yüngülcə əsməyə başladı. Bu hələ ilk sınaq küləyi idi. Sonra bu külək çovğun eləyəcək, qasırğa qoparacaq, boranlayıb qarı sovuracaqdı. Bəs onda gicgah damarı kimi böyük sarı düzlərin özəyindən keçən nazik dəmiryol xəttinin vəziyyəti necə olacaqdı? Damar vururdu – gedirdilər qatarlar, gedirdilər elədən-belə, belədən-elə...

Həmin səhəri Qazanqap cəbhəyə yola düşdü. Özü də tək gedirdi. Ötürən də yox idi. Onlar evdən çıxanda Bikə dayanıb dedi ki, qara baxa bilmir, başı hərlənir. Qazanqap bələnmiş uşağı tezcə onun əlindən aldı. O vaxt Ayzadə təzə doğulmuşdu. Onlar yollandılar, bəlkə də bu sonuncu dəfəydi ki, qar üstündə yanaşı iz salırdılar. Əslində arvad onu yola salmırdı, əksinə, o, yolüstü bir yük qatarına minib Kumbelə yollanmazdan arvadını yolçevirən köşkün yanına qədər ötürmək istəyirdi. İndi Bikə yolçevirən vəzifəsində ərini əvəz eləyəcəkdi. Onlar elə burda da vidalaşdılar. Nə söz-söhbətləri vardı, hamısını hələ gecədən danışmışdılar. Parovoz dayanmışdı. Maşinist Qazanqapı yanına çağırır, tələsdirirdi. Qazanqap onun yanına qalxan kimi, parovoz uzun bir fit verib sürətini artırdı, ərinin çəkmələrini geyinib, baş-gözünü şalla sarıyıb belini kəmərlə çəkmiş, bir əlində yol bayrağı, bir əlində də uşaq tutan Bikənin açdığı yolla ötüb keçdi. Son dəfə bir-birlərinə əl elədilər... Sifət, baxışlar, əllər, semaforun işıqları ötüb dalda qaldı...



Qatar isə sürətini artırır, bəyaz röya kimi səssiz yaxınlaşıb, səssiz uzaqlaşan Sarı-Özək çöllərinin süd örtüyünə səs salaraq gurultunəriltiylə ötüb keçirdi. Parovoza dolan külək ocaqdan yanan kömürün tünd iyinə qarışaraq çöllərin təptəzə qarının pak ətrini gətirirdi... Qazanqap çalışırdı ki, Sarı-Özək çöllərinin bu qış ətrini ciyərlərinə mümkün qədər bol-bol çəksin və birdən başa düşdü ki, daha bu çöl onun üçün yad deyil.

Kumbeldə səfərbərliyə alınanları yola salırdılar. Hamını sıralara düzüb, adbaad çağırır, vaqonlara bölürdülər. Bax elə burda da qəribə bir əhvalat baş verdi. Qazanqap sıraya durub öz vaqonuna tərəf gedəndə hərbi komissarlığın işçilərindən biri özünü ona yetirdi.

– Həsənbəyov Qazanqap! Burda Həsənbəyov kimdir? Sıradan çıx! Ardımca gəl!

Necə demişdilər, Qazanqap o cür də elədi.

– Mənəm Həsənbəyov!

– Sənədlərini ver!.. Düzdür. Özüdür ki, var. Gəl ardımca!

Və onlar geriyə, səfərbərlik yerləşən stansiyaya qayıtdılar. Həmin adam ona dedi:

– Bilirsən nə var, Həsənbəyov, qayıt get evinə, hardan gəlmisən düz ora. Başa düşdün?

– Başa düşdüm, – deyə Qazanqap cavab verdisə də, əslində heç nə başa düşməmişdi.

– Hə, di onda yeri! Buralarda əl-ayağa dolaşma. Sən azadsan.

Qazanqap yola düşən və yola salan camaatın səs-küyü içində tamam çaşbaş qalmışdı. Əvvəlcə işin belə dəyişməsinə sevindi də, ancaq birdən beynindən keçən ani bir fikirdən bədənini dözülməz bir qızışma basdı. Deməli, belə! O, qapının qabağını tıxayan adamları itələyə-itələyə səfərbərlik rəisinin qapısına tərəf soxuldu.

Rəisin otağına girmək istəyənlər onun üstünə qışqırdılar:

– Hara, hara soxulursan?

– Mənim vacib işim var! Eşelon gəlir, vacib işdir! – deyə adamları yarıb özünü içəri soxdu.

Otaq papiros tüstüsündən gömgöy duman içində idi. Adamların aralığı aldığı, çığırmaqdan səsi tutulmuş rəis kağız-kuğuz və telefon aparatlarıyla dolu olan stolun dalında oturmuşdu. Qazanqap ona tərəf cumanda, kişi sir-sifətini turşudub başını qaldırdı:

– Nə deyirsən, nə məsələdir?

– Mən etiraz eləyirəm!

– Nəyə etiraz eləyirsən?

– Mənim atama bəraət qazandırıblar, nahaqdan əyintiyə düşmüş adam kimi. O, qolçomaq olmayıb! Öz kağız-kuğuzlarınızı yaxşı yoxlayın. O, ortabab kimi bəraət alıb.

– Bir dayan görüm! Axı, nə istəyirsən?

– Əgər məni bu səbəbə görə saxlamısınızsa, bu, düzgün deyil!

– Ay kişi, cəfəng-cəfəng danışma. Qolçomaq, ortabab – indi bu kimin danzınadı! Hardan gəlmisən? Kimsən?

– Həsənbəyov, Boranlı razyezdindənəm.

Rəis siyahılara baxdı.

– Bunu bayaqdan desənə! Zəhləmizi tökürsən ki, ortabab belə gəldi, qolçomaq elə getdi, yoxsulu da lap belə-belə olsun! Al bu da sənin imtiyaz kağızın! Düz çağırmayıblar. Şəxsən Stalin yoldaşın öz əmri var – dəmiryolçulara toxunulmasın. Hər kəs öz yerində qalır. Buralarda əl-ayağa dolaşma, yeri get birbaşa öz razyezdinə, iş gör...

Gün batanda onlar Boranlıya çataçatdaydılar. İndi onlar yenə də dəmiryoluna yaxınlaşırdılar, o tərəfə-bu tərəfə yol alan qatarların fit səsi eşidilirdi, qatarların növünü də seçmək olurdu. Uzaqdan, çöllüyün ortasından onlar oyuncaq kimi görünürdülər. Arxa tərəfdən batan günəş yavaş-yavaş sönür, söndükcə də tərtəmiz dərələri kölgələyir, təpələri işıqlandırırdı. Beləcə, hiss olunmadan toran qarışır, havanı göyümtül qaranlıq və hələ də qışın nəmişliyini saxlamış soyuq yaz torpağının ətriylə doldururdu.

– Bax, bu da bizim Boranlı – deyə Qazanqap dəvənin üstündə gedən Yedigeyə və yanınca yeriyən Ukubalaya tərəf dönüb əlilə işarə verdi. – Daha az qalıb, Allah qoysa, tezliklə çatarıq. Dincələrsiz.

Qarşıdakı dəmiryolunun azacıq buruldüğu meydan kimi boş bir yerdə bir neçə ev görünürdü, ehtiyat yolda dayanan qatar semaforun açılmasını gözləyirdi. Ondan o yana hər iki tərəfdən bomboş düzlər, yastı təpələr – səssiz-ünsüz, ölçülüb-biçilməmiş düzənliklər, çöllüklər...

Yedigeyin ürəyi düşdü – öz sahil düzlərinin sakini olsa da, Aralın boş səhralarına alışmış olsa da, belə şey gözləmirdi. Sahilində boy atdığı dəyişkən mavi dənizdən susuz-dənizsiz ölü bir yerə! Belə yerdə yaşamaq olarmı?



Yedigeylə yanaşı gedən Ukubala əlini onun ayağına toxundurdu, bir qədər beləcə gedib, əlini götürmədi. Yedigey onu başa düşdü. "Eybi yoxdur, – deyirdi Ukubala, – təki sən sağal. Sonrasına baxarıq..."

Onlar mənzil başına çatdılar, o mənzil ki, sonradan məlum olduğu kimi, uzun ömür-gün sürdülər, – qalan bütün ömürlərini keçirməli oldular.

Gün tezliklə batdı, artıq qaranlıqda, Sarı-Özək göylərində sayı-hesabı olmayan ulduzlar apaydın görünəndə onlar da Boranlıya çatdılar.

Bir neçə gün Qazanqapgildə qaldılar. Sonra ayrıldılar. O vaxt yol fəhlələri üçün ayrılmış barakda onlara bir otaq verdilər, təzə yerdəki həyatları elə burdan başlandı.

Bu kimsəsiz Sarı-Özəkdə, xüsusilə də təzə vaxtlarda qatlaşdığı əziyyətə baxmayaraq, Yedigeyə iki şey mənfəətli oldu – hava, bir də dəvə südü. Havada elə bil əzəli saflıq vardı ki, bu qədər pak, başqa bir yer çətin tapılaydı... Süd məsələsini Qazanqap düzəltmişdi, iki sağmal dəvəsindən birini ona vermişdi.

– Biz arvadla məsləhətləşib, götür-qoy elədik, – dedi – bizə süd bəs eləyir, siz də bizim o Ağca mayanı özünüzçün sağın. Bu dəvə hələ cavandır, cəmi ikicə qarın doğub. Özünüz qulluq eləyin, bəhəri də sizin. Amma gözünüz köşəkdə olsun, qoymayın acından üzülsün. O sizindir, arvadla məsləhətimiz belə olub, onu verdim sənə. Yedigey, damazlıq üçün verirəm. Yaxşı baxarsan, artıb sürü olar. Birdən köçüb getmək istəsəniz – satarsan, puldan-paradan düzəldərsən.

Ağcanın balası cəmi həftə yarım əvvəl doğulmuş qarabaşlı, bapbalaca qaramtıl qoşa donqarlı bir köşəkdir. Çox təsirli gözləri vardı. Hərdənbir anasının yanında qaça-qaça atılıb-düşərək oynaqlayanda, balaca ağılda tək qalan vaxtlar insan səsinə bənzəyən səslə yazıq-yazıq mələyəndə çox məzəli olurdu. Kimin ağlına gələrdi ki, gələcəkdə bu köşək böyüyüb Boranlının məşhur Qaranəri olacaq. O Qaranər ki, öz yorulmaq bilməyən qüdrəti ilə ətraf mahalda ad qazanacaq. Bu nərlə bağlı Boranlı Yedigeyin həyatında çox hadisələr baş verəcək. Amma o vaxt südəmər köşəyə daimi qayğı lazımdı. Yedigey ona yamanca bağlanmışdı. Olub-qalan boş vaxtlarını onunla əlləşirdi. Qış girəndə Qaranər xeyli böyüyüb boy atdı, soyuqlar düşəndə ona qarnının altında düymələnən isti canlıq tikdilər. Bu canlıqda o lap gülməli

görünürdü, – ancaq başı, boynu, ayaqları, bir də iki donqarı bayırda qalırdı. Bütün qışı canlığı çıxartmadılar. Gecəni-gündüzü çöldə açıq havada gəzib dolanırdı.

O ili qışın girəcəyində Yedigey hiss elədi ki, yavaş-yavaş gücə dolur. Hətta baş hərlənməsinin nə vaxt çəkildiyini belə hiss eləməmişdi. Tədricən qulaqlarındakı uğultu da azalmağa başladı, daha iş vaxtında onu həmişəki kimi tər basmırdı. Qışın oğlan çağında isə yolları qardan təmizləmək üçün o da hamı ilə bərabər köməyə getdi. Sonralar o qədər bərkidi ki, gəl görəsən, axı cavan idi, elə özü də binədən zorlu adam idi, bir az əvvəl keçirdiyi ağır, ayağını güclə sürüdüyü günlər unudulmuşdu. Sarısaqqal həkimin dedikləri düz çıxdı.

Kefinin duru olan vaxtlarında köşəyi oxşayır, boynunu qucaqlayıb zarafatyana deyirdi:

– Biz, deyəsən, süd qardaşı kimi bir şeyik. Maşallah. Ağcanın südündən gör necə böyümüsən, mənim də, deyəsən, kontuziyadan canım qurtarıb. Allah eləsin, birdəfəlik olsun. Fərqimiz ondadır ki, sən birbaşa əmcəkdən əmirsən, mənsə sağıb şubat düzəldirəm...

Uzun illər keçəndən sonra, artıq Boranlı Qaranərin şöhrəti aləmə car olanda Sarı-Özəyə bir neçə adam gəldi ki, onun fotosunu çəksin, bu zaman müharibə unudulub getmişdi, uşaqlar oxuyurdu, artıq razyezddə su nasosu qurğusu qoyulmuşdu, bununla da su qıtlığı problemi həll olunmuşdu. Yedigey isə üstü dəmir taxtapuşlu ev tikdirmişdi, bir sözlə, bu qədər əzab-əziyyətdən, sərgərdanlıqdan sonra axır ki, həyat yoluna düşüb davam elədiyi vaxt bir elə söhbət oldu ki, bu söhbət sonralar uzun müddət Yedigeyin yadından çıxmadı.

Fotomüxbirlərin gəlişi, – onlar özlərini belə təqdim etmişdilər, – əlbəttə yeganə hadisə deməsək də, Boranlının tarixində nadir hadisəydi. Diribaş, söhbətcil fotomüxbirlər üç nəfərdirlər, bollu da vəd verdilər – deyirdilər, gəlişimizdə məqsəd odur ki, Boranlı Qaranərin şəkli bütün qəzet və jurnallarda çap olunsun. Öz sahibi ilə birlikdə Qaranərin ətrafındakı səs-küy, vurnuxma dəvənin o qədər də xoşuna gəlmirdi, o hirslənib nərildəyir, dişlərini qıcıdır, başını dartıb qaldırırdı ki, əl çatmasın, onu rahat buraxsınlar. Gələnlər hey Yedigeydən xahiş eləməli olurdular ki, dəvəni sakitləşdirsin, onu gah bu, gah da o biri tərəfə döndərsin. Yedigey də hər dəfə, uşaqları, arvadları, lap Qazanqapın özünü də çağırırdı ki, bir yerdə şəkillərini çəkdirsinlər, özlüyündə deyirdi ki, belə olsa yaxşıdır. Fotomüxbirlər buna məmnuniyyətlə



razılıq verir, cürbəcür aparatlarla çaqqaçaq çəkirdilər. Əsas nömrə uşaqların hamısının birdən Boranlı Qaranərə mindirildiyi məqam idi – ikisi boynunda oturmuşdu, beşi də belində, tən ortada da Yedigey özü yerləşmişdi – yəni ki, baxın, görün dəvədə nə güc var! Uşaqların səs-küyünün, sevincinin həddi-hüdudu yox idi! Lap axırda fotomüxbirlər boyunlarına aldılar ki, Qaranəri adamsız, təkcə çəkmək onlara daha vacibdir. Gözümüz üstə, nə söz ola bilər!

Hə, bax onda aparatlar Qaranərə tuşlandı, nə tuşlandı, böyürdən, qabaqdan, yaxından, uzaqdan, necə bacardılarsa, o cür də çəkdilər, sonra da Yedigeyin və Qazanqapın köməyi ilə ölçülər götürdülər – boynunun kökündən aşağı hündürlüyünü ölçdülər, döşünün enini, gövdəsinin uzunluğunu ölçdülər və yazdıqca da heyrətləndilər:

– Əla bakteriyandır! Bax, genlər özünü burda göstərib! Klassik bakterial cinsdir! Sən bir döşün eninə bax! Eksteryerə bax!

Əlbəttə, Qaranər haqqında belə sözlər eşitmək Yedigey üçün xoş idi, amma bəzi sözlərin mənasını başa düşmədiyi üçün soruşmalı oldu, məsələn, "bakteriyan". Sən demə, elm aləmində qoşa donqar qədim dəvə cinsi belə adlanırmış.

– Deməli, bu bakteriyandır?

– Saf cinsdir, almaz kimi.

– Bəs bu ölçülər nəyinizə lazım idi ki, götürdünüz?

– Elmi məqsədlər üçün.

Qəzet və jurnal əhvalatında gələnlər, əlbəttə, özlərini mazamata mindirmək üçün boranlıların gözünə kül üfürmüşdülər, amma yarım ildən sonra xüsusi bağlama ilə zootexnika fakültəsi üçün dəvəçilik üzrə yazılmış dərslik kitabı göndərdilər, kitabın üz qabığının bəzəyi klassik bakteriyan – Boranlı Qaranər idi. Bir xeyli şəkil də göndərmişdilər, içində rənglisi də vardı. Elə bu fotolaraca baxanda bilmək olardı ki, o vaxtlar xoşbəxt, firavan günlərmiş. Müharibədən sonrakı illərin çətinlikləri sovuşub getmişdi, uşaqlar da hələ balacaydı, böyüklər sağ-salamat, qocalar da hələ dağlar dalında...

Həmin gün Yedigey qonaqların adına qoyun kəsdi, boranlıları da dəvət eləyib gözəl bir məclis qurdu. Şubat, araq, yemək-içmək doluydu. O vaxt razyezdə səyyar vaqon-mağaza gələrdi, ürəyin nə istəsəydi tapa bilərdin. Təki pulun olsun. Cürbəcür krablar, qırmızı kürü, qara kürü, müxtəlif növ balıqlar, konyak, kolbasa, konfet, quş südü – can dərmanı... Ən maraqlısı da budur ki, şeyin bol olan vaxtı o qədər də

çox alınırdılar. Artıq nəyimə lazımdır? İndi, o səyyar mağazanın yollarda heç izi-tozu qalmayıb...

Onda yaman oturdular, hətta Boranlı Qaranərin sağlığına da içdilər... Söhbətdən belə məlum oldu ki, qonaqlar Qaranər haqqında Yelizarovdan eşidiblər. Bəli, bunu Yelizarov demişdi ki, Sarı-Özəkdə onun dostu Boranlı Yedigey yaşayır və bu dostu yer üzündə ən gözəl dəvənin – Boranlı Qaranərin sahibidir. Yelizarov, Yelizarov! Gözəl insan, Sarı-Özəyi dərindən tanıyan alim... Yelizarov Boranlıya gələndə hər üçü Qazanqapla birlikdə bir yerdə olmalıydılar, oturub sübhəcən söhbət eləyərdilər...

Gah Qazanqap, gah da Yedigey bir-birinin sözünə qüvvət verə-verə qonaqlara burdakı dəvələrin ulu nənəsi məşhur ağbaş dəvə Ağmaya və onun daha məşhur yiyəsi – Ana-Beyit qəbiristanlığında dəfn edilmiş Nayman-Ana haqqında bir Sarı-Özək rəvayəti danışdılar. Deməli, Qaranərin qanı həmin cinsdəndi! Boranlılar güman eləyirdilər ki, bəlkə də bu qəribə rəvayəti qəzetlərdən biri çap elədi. Qonaqlar dinləməyinə maraqla dinləyirdilər, amma belə hesab elədilər ki, bu, nəsildən-nəslə keçən məhəlli əfsanədən başqa bir şey deyil. Amma Yelizarovun fikri tamam bambaşqa idi. O belə hesab eləyirdi ki, o vaxtın tarixi şəraitində bu rəvayət bəlkə də baş vermiş bir həqiqətdir. O belə söhbətlərə qulaq asmağı sevirdi, özü də bu yerlərin keçmişindən xəbər verən rəvayətlərdən az bilmirdi...

Axşamtərəfi qonaqları yola saldılar. Yedigey çox razıydı, fərəhdən az qala uçurdu. Elə bəlkə buna görə ağzından yersiz söz qaçırtdı. Deyəsən, qonaqlarla içməyi təsir eləmişdi. Neyləmək olardı, söz ağzından çıxmışdı.

– Düzünü de, Qazakə, bəlkə Qaranəri köşək vaxtı mənə bağışladığın üçün heyfsilənirsən?

Qazanqap ona baxıb istehza ilə qımışdı. Görünür belə söz gözləmirdi. Bir az duruxub cavab verdi:

– Söz yox, hamımız insanıq. Amma bilirsənmi, babalardan qalma bir zərb-məsəl var: mal yiyəsi xudadandır. Bu Allahın öz işidir. Qismətdir. Deməli, Qaranər ancaq sənin olmalıymış, sən də onun sahibi olmalıymışsan, başqasının əlinə düşsəydi, kim bilir başına nə gələcəkdi, bəlkə də heç salamat qalmazdı. Tələf olub gedərdi. Lap yarğandan uçulardı. Deməli, o sənin olmalıymış. Mənim axı əvvəllər dəvələrim olub, özü də pis dəvələr olmayıb, elə bax bu mayadanca, Qaranərin



anası Ağcadan. Səninsə bircə tək dəvən olub, o da bağışış... Allah eləsin, yüz il karına gəlsin. Amma sənin o fikirlərin nahaqdır...

– Bağışla, bağışla, Qazakə, – Yedigey dediyindən peşman olub xəcalət çəkdi.

Qazanqap söhbəti sürütləyib görüb-götürdüyü bir məsələni də ona açdı: belə bir rəvayət eləyirlər ki, qızıl qanlı Ağmayadan yeddi bala törənib – dördü maya, üçü nər. Elə o vaxtdan da mayalar açıq rəngli, ağbaş, nərlər isə əksinə, qarabaş, yerlikləri isə şabalıdı olur. Onunçün də Qaranər belə yaranıb. Ağbaş dəvədən qara dəvə törəyib. Bu onun həmin Ağmaya nəslindən olacağına əsas sübutdur, o vaxtdan kim bilir nə qədər vaxt keçib, iki yüz, üç yüz, beş yüz il, bəlkə daha çox, amma Sarı-Özəkdə Ağmayanın nəsli kəsilmir. Olmur, olmur, bir də gördün ki, Boranlı Qaranər kimi təzə bir sırtqan[1] – dəvə törədi. Yedigeyin bəxti gətirib. Onun, kəndli bəxtiymiş ki, Qaranər doğulub və onun əlinə düşüb...

Qaranərin əl-ayağını yığışdırmaq vaxtı gəlib çatanda onu ya axtalamaq, ya da zəncir-buxovda saxlamaq lazım gəlirdi, çünki qızıb özündən çıxır, yaxına adam-zad buraxmırdı, qaçıb günlərlə yoxa çıxırdı, – Yedigey Qazanqapla məsləhətləşəndə, dostu öz sözünü açıq dedi:

– Bu sənin öz işindir. İstəyirsən ki, qulağın dinc olsun axtala, yox əgər şan-şöhrət istəyirsən – əl dəymə. Onda gərək bir hadisə üz versə cavabdehliyinə də dözə biləsən. Dözümün, səbrin çatar – döz, üç il qızğınlıq eləyəndən sonra lap özü yedəyincə gələcək.

Yedigey Boranlı Qaranərə əl vurmadı. Ürəyi gəlmədi, əli qalxmadı. Onu elə atan saxladı. Bunun üstündə günlər oldu ki, Qaranər ona qan uddurdu...

## V

*Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*

*Bu yerlərdə dəmiryolunun hər iki tərəfi ilə intəhasız sarı torpaq çöllərinin göbəyi hesab edilən Sarı-Özək düzləri uzanıb gedir...*

*Coğrafiyada hər şey Qrinviç meridianından ölçüldüyü kimi, bu yerlərdə də bütün məsafələr dəmiryolu ilə müəyyən edilirdi.*

*Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər.*

[1] Sırtqan, sırtılan – fövqəlcanlı, məsələn, fövqəladə, iri, güclü.

Səhər tezdən hər şey hazır idi. Qazanqapın meyitini başdan-başa keçəyə bürüyüb üstdən də çatıyla möhkəm sarımışdılar. Cənazəni traktorun yedək arabasına qoymazdan əvvəl arabanın yerliyinə bir qat pirəm, yonqar tökdülər, üstündən də təmiz ot döşədilər, sonra gətirib yerbəyer elədilər. Yola çıxmağa tələsmək lazımdı ki, axşama, saat beşdən-altıdan gec olmayaraq qəbiristanlıqdan qayıda bilsinlər. Otuz kilometr o başa, bir də o qədər bu başa, üstəlik də dəfn mərasimi – deməli, belə çıxırdı ki, ehsanı hardasa ancaq saat altıya yaxın vermək mümkün olacaq. Elə buna görə də tələsirdilər ki, ehsana çata bilsinlər. Artıq hər şey hazırdı. Boranlı Yedigey hələ dünən axşamdan alıxlanıb hazırlanmış Qaranərin noxtasından tutub adamları tələsdirirdi. Elə həmişə beləydilər – nə işləri işdi, nə də əlləri boş. O özü gecəni yatmamışdı, bir az sınıxsa da, gümrah, səliqəli görünürdü. Üzü tərtəmiz qırxılmış, bığ-saqqalı çallaşmış Yedigey ən yaxşı bayırlıq paltarını geymişdi – ayağında xrom çəkmə, əyninə bir az gen gələn məxmər qalife şalvar, ağ köynək üstündən də qara pencək... Başına da bayırlıq dəmiryol şapkası qoymuşdu. Döşünə taxdığı döyüş orden və medalları parıldayırdı. Hətta beşilliyin zərbəçisi döş nişanını da unutmamışdı. Bunlar hamısı ona yaraşır, həm də sanballı görkəm verirdi. Bəli, Qazanqapın dəfn mərasimində Boranlı Yedigey elə-belə də olmalıydı.

Boranlıda məmə yeyəndən pəpə yeyənə kimi nə qədər adam var hamısı cənazəni yola salmağa gəlmişdi. Yedək arabasının yanında yığışıb yola çıxmaqlarını gözləyirdilər. Arvadlar ağlaşırdılar. Heç özü də bilmədi necə oldu. Yedigey birdən camaata üz tutdu:

– Biz indi Sarı-Özəkdə ən qədim, ən müqəddəs qəbiristanlıq olan Ana-Beyitə yola düşəcəyik. Mərhum Qazanqap-ata buna layiqdir. Öz diliylə vəsiyyət eləyib ki, orda dəfn olunsun, – Yedigey bir az duruxub fikirləşəndən sonra davam elədi: – Belə çıxır ki, onun qismətinə düşən duz, su daha tükənib. Bu adam bizim razyezddə düz qırx dörd il can qoyub. Demək olar ki, bütün ömrünü qoyub. O burda işə başlayanda heç su nasosu da yox idi. Suyu həftədən-həftəyə çənlərlə gətirərdilər. O vaxt indi gördüyünüz nə qar təmizləyən maşınlar, nə də başqa maşınlar yox idi. Amma qatarlar işləyirdi, yol da həmişə onların üzünə açıq idi. Qazanqap Boranlıda ömrü boyu öz işini qeyrətlə-namusla görüb. O çox yaxşı adam idi. Bunu özünüz də yaxşı bilirsiniz. İndi biz düşək yolumuza, hamının ora getməsi gərək deyil, heç bununçun minik də yoxdur, bir də ki, yolu da baxımsız qoya bilmərik. Biz ora altı nəfər



gedəcəyik. Hər şeyi də abırla, qaydayla eləyəcəyik. Siz də hazırlıq görüb bizi gözləyin, qayıdanbaş hamını mərhumun uşaqları adından onun üçünə çağırıram, dəvətim budur, oğlu da, qızı da burdadır...

Yedigey qəsdən eləməsə də, balaca matəm mitinqi kimi bir şey çıxdı. Bu sözlərdən sonra çıxdılar yola. Boranlılar yedəyin arxasında bir qədər gedib, dəstəylə də evlərin qurtaracağında dayandılar. Hələ bir müddət arxadan ağlaşma eşidilirdi, Ayzadəylə Ukubala səs-səsə verib ağı deyirdi...

Arvadların səsi yavaş-yavaş uzaqlaşıb kəsiləndə, onlar dəmiryolundan aralanıb Sarı-Özəyin içərilərinə girəndə, Boranlı Yedigey rahatca köksünü ötürdü. İndi daha öz əli-öz başı, nə eləyəcəyini özü yaxşı bilirdi.

Gün üfüqdən boylanır, sevinc gətirən işığını geninə-boluna Sarı-Özək düzlərinə yayırdı. Çöllük hələ sərin idi və zahirdən onların hərəkətinə mane olan bir şey yox idi. Bu boyda dünyanın bu boyda genişliyində əlçatmaz, ünyetməz bir yüksəklikdə vur-tut bir cüt çalağan qanad sərib süzür, hərdən də yolçuların ayağı altında qalan torağaylar qorxu-hürkü içində qanad çırpıb civildəyirdi... "Bunların da uçub getməyinə az qalıb. Qar düşən kimi dəstə bağlayıb uçub gedəcəklər" – deyə Yedigey ürəyindən keçirib bir anlığa yağan qarı, ağappaq qar pərdəsi ardından uçan quşcuğazları gözlərinin qabağına gətirdi. Birdən, yenə də nədənsə o gecə dəmiryol kənarına gələn tülkü yadına düşdü. Hətta oğrun-oğrun bir ətrafa da boylandı – görsün onların izinə düşüb gəlmir ki... Bir də yenidən o gecə od püskürə-püskürə Sarı-Özək üzərindən kosmosa qalxan raketi yadına saldı. Amma tez də bu qənaətə gəldi ki, yolları uzaq olsa da, belə bir məqamda bu cür fikirlərin yeri deyil.

Boranlı Yedigey Qaranərin üstündə qabaqda gedir, Ana-Beyit yoluna bələdçilik edirdi. Altındakı Qaranər getdikcə inamını artırır, geniş löhrəm yerişlə səfər ritminə düşürdü. Qanan adam üçün Qaranərin yol yerişinin xüsusi gözəlliyi vardı. Onun boyun qəvsi üzərində qürurla ucalan başı demək olar ki, tərpənmir, elə bil dağların üstü ilə üzürdü, yorulmaq bilməyən, damarlı uzun ayaqları havanı qayçılaya-qayçılaya yer ölçürdü. Yedigey iki donqar arasında rahat, möhkəm və inamla oturmuşdu. O, Qaranərdən çox razıydı ki, məhmizlənmə-zad tələb etmirdi, yolu yüngül gedir, sahibinin hər istəyini asanlıqla anlayırdı. Döşündəki orden və medalları tərpətdikcə günəşin şüaları altında bərq vurur, xəfifcə cingildəyirdi. Amma bu ona maneçilik törətmirdi.

Onun ardınca yedəkli traktor "Belarus" gedirdi. Kabinədə, cavan traktorçu Qalibəyin yanında Sabitcan oturmuşdu. Dünən xeyli içib boranlılara ağlına gələn cəfəng şeylər, nə bilim radio ilə idarə olunan adamlar və başqa bu cür axmaq-axmaq şeylər danışdığı üçün pərt idi, elə bil ağzına su almışdı, başı boynunda yırğalanırdı. Yedigey də baxıb nigarançılıq keçirirdi ki, birdən gözlüyünü salıb sındırar. Ayzadənin əri yedək arabasında, cənazənin yanında büzüşüb oturmuşdu. Gündən qamaşan gözlərini qıyır, hərdənbir də ətrafa baxırdı. Bu vecsiz əyyaş bu dəfə özünü kişi kimi apardı. Dilinə bir damcı da içki vurmadı. Çalışdı ki, hər işə əl yetirsin, meyit yerdən götürüləndə də can-dildən çalışır, çiynini cənazənin altına verirdi. Yedigey ona dəvədə tərkinə minməyi təklif eləyəndə, o etiraz etdi. "Yox, – dedi, – mən qayınatamın yanında oturub, axıracan öz borcumu verəcəm". Bu, Yedigeyə də, boranlılara da xoş gəldi. Yola düşəndə hamıdan bərk, hamıdan çox ağlayan da elə o oldu, yedək arabasında oturub, elə hey bir ucdan yumub tökürdü. "Nə bilmək olar, birdən ağla gəlib bu zəhrimar içkini tərgizdi-tərgizdi də? Ayzadə üçün də, elə uşaqları üçün də xoşbəxtlik olardı", – deyə Yedigey ümidlə fikirləşdi.

Bu kimsəsiz çöllərdə qotazlı tərliklə bəzədilmiş dəvəyə minmiş Yedigey başçılıq elədiyi bu balaca və qəribə matəm qafiləsini "Belarus" markalı təkərli ekskavator tamamlayırdı. Onun kabinəsindəsə Ədilbəylə Cüməəli gedirdi. Qapqara zonciyə oxşayan Cüməəli sükanda oturmuşdu. Bu maşınla o, adətən müxtəlif yol işlərində işləyirdi. Boranlıya da gəldiyi çox deyildi, burda bənd alıb-almayacağını da indidən demək çətindi. Boyu yanında oturan Caydaq Ədilbəyin çiyninə ancaq çatırdı. Yol uzunu onlar nə barədə isə şirin söhbət eləyirdilər. Sağ olsun razyezdin rəisi Osman. İmkanında olan bütün texnikanı dəfn mərasimi üçün o vermişdi. Razyezdin cavan rəisi düz fikirləşmişdi – bu uzunluqda yol gedib, belə-kürəklə yer qazmağa vaxt sərf eləsələr, axşama qayıda bilməzdilər. Axı qəbir dərin qazılmalıdır, üstəlik qıyqac vurmaq lazım gələcək, – yerli müsəlman adətinə görə qəbir lazımi dərinlikdə qazılandan sonra, meyiti qoymaq üçün ümumi çalanın böyründən qıyqac şəklində, dərinliyə getmək şərtiylə yer qazılmalıdır.

Başdan bu təklif Boranlı Yedigeyə birtəhər göründü, heç ağlına da gəlməzdi, kim isə əllə yox, ekskavatorla qəbir qazmaq fikrinə düşsün. Bu söhbət vaxtı Osmanın qənşərində oturub, alnını qırışdıraraq fikirləşdi. Amma Osman çıxış yolu tapıb, qocanı inandıra bildi.



– Yedigey, mənim sözümə qulaq as. Əvvəlcə əllə qazın. Məsələn, deyək ki, bir bel ağzı qədəri. Dalını ekskavatorla... Sarı-Özək torpağı daş kimi bərk olur, bunu özünüz yaxşı bilirsiniz. Ekskavatorla lazım olan qədər götürərsiz, sonra əyri-üyrüsünü əllə düzəldib necə deyərlər, tamam elərsiniz. Həm vaxta qənaət olar, həm də adət öz qaydasında qalar...

Bax, indi Sarı-Özəyin dərinliklərinə getdikcə Yedigey görürdü ki, Osmanın məsləhəti həm ağıllı, həm də yararlı məsləhətmiş, hətta təəccüb elədi ki, bu onun öz ağlına niyə gəlməyib. Allah qoysa, Ana-Beyitə çatan kimi işlərini elə belə də görərlər, hə, elə edərlər – qəbiristanlıqda mərhumu üzü qibləyə qoymaq üçün münasib bir yer seçib özləriylə yedəkdə gətirdikləri bellə, külünglə bir az qazandan sonra ekskavatoru buraxıb lazımi dərinliyi götürərlər, aşağıda, böyürdən – qıyqac qazanağını – meyitin qoyulacaq yerinisə əllə qazarlar. Onda iş həm tez başa gələr, həm də adət xilafına olmaz.

Onlar beləcə Sarı-Özəklə irəliləyir, gah dikdirlərdə sıralanır, gah da gen çökəklərin dibində görünməz olur, yenidən uzaq düzənliklərə çıxırdılar – qabaqda dəvə üstündə Boranlı Yedigey, dalınca yedəkli traktor, yedəkdən sonra, lap arxada böcəyə bənzər, kələ-kötür, qollu-budaqlı, qabağında buldozer bıçağı, arxasında ağzı çevrilmiş çalovu olan "Belarus" ekskavatoru gedirdi.

Yedigey çevrilib axırıncı dəvə gözdən itməkdə olan razyezdə baxanda kürən köpək Culbarsı görüb çox təəccübləndi – köpək dəstənin böyrüylə çox işgüzar bir görkəmlə asta-asta qaçırdı. Bu nə vaxt bizə bənd olub? Pay səni bir işə bax! Boranlıdan çıxanda axı gözə heç dəymirdi. Bilsəydi ki, belə əməl çıxardacaq, əvvəldən tutub bağlayardı. Sən bir heyvanda bicliyə bax! Görən kimi ki, Yedigey Qaranərə minib yola çıxmağa hazırlaşır, o saatca fürsət tapıb onlara qoşulardı. Elə indi də elə bil yerdən çıxmışdı. Eh, qoy gəlsin, – deyə Yedigey daha əhəmiyyət vermədi. Onu geriyə qovmaq gec idi, bir də itə vaxt sərf eləməyinə dəyməzdi. Gəlir, qoy gəlsin... Elə bil sahibinin fikrini duyub köpək traktoru ötdü, azacıq qabaqda, Qaranərin böyrü ilə yeridi. Yedigey onu qamçının dəstəsiylə hədələdisə də, it heç eyninə almadı. Yəni iş işdən keçib, hədələməyindən nə fayda! Bir də axı onun nəyi əskikdi ki, belə bir işə yaxın qoymayaq! Döşlü, pırtlaşıq qıllı, möhkəm boyunlu, kəsik qulaqları, sakit, ağıllı gözləri olan kürən Culbarsın da öz gözəlliyi, öz sanbalı vardı.

Bunlarla yanaşı, Ana-Beyit yolunda Yedigeyin başından min cür xəyal keçirdi. Üfüqdən boylana-boylana ötən dəqiqələri ölçən günəşə baxdıqca olub-keçənləri yada salır, vərəvürd eləyirdi. O günləri yadına salırdı ki, Qazanqapla cavan, zorbiləng vaxtlarıydı, əslinə qalsa, razyezdin daimi, həm də əsas işçiləriydilər, çünki başqaları Boranlıda çox da bənd almırdılar, hamısı gəldi-gedərdilər. Amma onlar nəfəs dərməyə də vaxt tapmırdılar, ona görə ki, istəsən də istəməsən də heç nə ilə hesablaşmadan, razyezddə nə iş çıxırdısa gərək hamısının öhdəsindən gələydilər. İndi bu barədə danışmaq olmur – cavanlar gülür: qoca sarsaqlar, canınızı çürütmüsüz... Axı nəyin xatirinə? Doğrudan da axı nəyə görə? Deməli, bir səbəb varmış...

Bir dəfə yolları qar basanda əl-əl üstə qoymadan, iki gün dalbadal qar təmizlədilər. Axşamları parovoz faralarıyla işıq salırdılar ki, işlədikləri yeri görə bilsinlər. Qar da ki, tökür, tökür... Bir yandan da külək – bu yandan yığırsan o yanı doldurur. Soyuq da deməklə başa gəlməz. Soyuqdan əlin, üzün şiş gətirir. Arada beş dəqiqəliyinə parovoza çıxıb qızınırsan – yenə qayıdırsan Sarı-Özəyin bu əncamsız işinə. Hətta parovozun özü də təkərlərin üstünəcən qar içində olurdu. Təzə gələn işçilərdən üçü elə ikinci gün əkildi. Özləri də ağıllarına gələn nə söyüş varsa Sarı-Özəyin gün-güzəranına yağdırdılar. Biz, dedilər dustaq deyilik, lap türmənin özündə də yatmağa imkan verirlər. Bax, beləcə duruş gətirə bilməyib, səhəri qatarlar hərəkətə gələndə bizi fitə basıb xudahafizləşdilər:

– Ey, sarsaqqulu, boğazına biləyim!

Ona görə yox ki, bu gəldi-gedər dil pəhləvanları gedəndə onları söymüşdülər, yox, iş elə gətirdi ki, həmin o qar basqını günü Qazanqapla vuruşmalı oldular. Hə, belə şey də olmuşdu. Gecəni işləmək heç cür mümkün olan şey deyildi. Qar səpələyir, külək də ki, qudurmuş it kimi hər tərəfdən hücum çəkib iliyə işləyirdi. Küləkdən baş soxmağa bir yer yoxdu. Parovoz buxar buraxırdı, ancaq nə fayda – buxar donub duman olurdu. Faralar da qaranlıqda güclə işarırdı. O üç nəfər gedəndən sonra onlar dəvələrə qoşulmuş vəllə qarı daşımağa başladılar. İki dəvə qoşulmuşdu. Bu qiyamətdə çəkmirdilər, heyvanlar neyləsin, heyvanın da canı var da! Yolun qırağında qar sinəyə qədər qalxırdı. Qazanqap dəvənin üst dodağına bağlanmış ipi dartırdı, Yedigey də vəlin arxasından qamçılayırdı. Beləcə gecə yarıya kimi əlləşdilər. Sonra dəvələr qarın içinə yıxıldılar, öldür, tərpənmək istəmirdilər, tamam



taqətdən düşmüşdülər. Neyləmək olardı? İşə ara verib havanın düzəlməyini gözləmək lazımdı. Onlar küləkdən daldalanmaq üçün parovozun yanında durmuşdular.

– Bəsdir, Qazəkə, çıxaq parovoza, sonrasına baxarıq, görək hava nə cür olur, – deyə Yedigey buz bağlamış əlcəklərini bir-birinə vura-vura söyləndi.

– Hava necə var elə də olacaq. Onsuz da yolu təmizləmək bizim işimizdir. Gəl kürəklə işləyək, gözləməyə haqqımız yoxdur.

– Əşi, qoy görək, biz adam-zad deyilik?

– İndi adam olmayan – canavar kimi vəhşilər-zadlar yuvaya təpilib gizləniblər.

– Ay səni əclaf! – Yedigey özündən çıxdı. – Səndən ötrü gəbərsək də bəsdi, elə özün də burda gəbərəcəksən! – deyib onun ənginə bir yumruq ilişdirdi.

Tutaşdılar və bir-birinin ağız-burnunu qana boyadılar. Hələ yaxşı ki, ocaqçı parovozdan düşüb onları araladı.

Bəli, Qazanqap belə Qazanqap idi. İndi belə adam hanı! Daha qazanqaplar qalmayıb, axırıncısını da aparırlar basdırmağa. Bircə o qalıb ki, bir-iki vida sözü deyib, mərhumu tapşırsınlar torpağa, vəssalam – amin!

Boranlı Yedigey belə fikirləşə-fikirləşə adda-budda unutduğu duaları öz-özünə təkrar edirdi ki, sözlərin səfini yadına salsın, Allaha xitab olunan fikir ardıcıllıqlarını yaddaşında bərpa etsin, çünki ancaq o, yeganə, naməlum və gözəgörünməz qüvvə əvvəlin axırla, həyatın ölümlə barışmazlığını insan şüurunda barışdırmağa qadir idi. Görünür dualar elə bunun üçün yaradılıb. Axır burdan Allaha səs çatdıra bilməzsən ki, soruşasan nə üçün yaşadırsan ki, öldürəsən? Dünya bina qurandan bəşər övladı belə yaşayır, – razı olmasa da barışır. Bu dualar da o günlərdən necə var, eləcə də qalıb, onlarda elə eyni sözlər deyilir – insanam deyən özünü boş yerə üzməsin, təsəlli tapsın. Qızıl külçəsi kimi min illərdən bəri cilalanan bu sözlər dirilərin ölü üstündə deyəcəkləri son və axır sözlərdir. Adət belədir.

Bir də onu fikirləşirdi ki, fərqi yoxdur, Allahın varlığından və ya yoxluğundan asılı olmayaraq, insan deyilən şəxs, nalayiq olsa da, onu əksər vaxtlarda ancaq işi dara düşəndə yad eləyir. Görünür, elə buna görə də deyiblər ki, allahsızın başı ağrımırsa, Allahı da yada salmaz. Bu belədir, ya qeyri-belə, hər halda namazı, duanı bilmək lazımdır.

Traktorda gedən cavan yol yoldaşlarına baxanda Boranlı Yedigey mütəəssir olub, səmimiyyətlə hayıfsılandı – onlardan heç biri nə dua bilirdi, nə də kəlmeyi-şəhadət. Bəs bu binəvalar bir-birlərini necə dəfn eləyəcəklər? Həyatdan gedəni hansı sözlərlə yola salacaqlar? "Proşşay tovariş, budem pomnit?" Ya da buna bənzər başqa cəfəng bir şey?

Necə olmuşdusa, bir dəfə vilayət şəhərində dəfn mərasimində iştirak etmişdi. Boranlı Yedigey mat-məəttəl qalmışdı – elə bil qəbiristanlıq deyil, iclasdı. Mərhumun cənazəsi qabağında hamı əli kağızlı çıxış eləyir, hamısı da eyni şeyləri danışırdı – nə işdə olub, hansı vəzifələrdə işləyib və necə işləyib, kimə qulluq eləyib və necə qulluq eləyib, sonra da musiqi çalıb qəbrin üstünü əklillərlə ört-basdır elədilər. Birinin də dərrakəsi çatmadı ki, insanların əsrlərdən bəri ölümdirim növbəsi haqqındakı biliyin zirvəsi olan dualarda deyilənlər kimi bir söz desin, elə bil dünyada indiyənəcən ölən olmamışdı, bundan sonra da olmayacaqdı. Bədbəxtlərin hamısı ölməz adamlardı! Gözgörəsi həqiqətin ziddinə olaraq elə belə də deyirdilər: "O əbədiyyətə qovuşdu!".

Yedigey bu yerlərə yaxşı bələddi. Həm də ki Boranlı Qaranərin üstündə olduğu üçün hündürdən, qabaqda nə vardısa hamısını uzaq məsafədən yaxşı görürdü. O elə çalışırdı ki, Ana-Beyitə gedən çölləmə yolu mümkün qədər kəsə götürsün, bircə o vaxt yan gedirdi ki, traktorlar çala-çuxura düşməyib rahat keçsin. Hər şey əvvəldən nəzərə alındığı kimi gedirdi. Az getsələr də, üz getsələr də hər halda yolun üçdən birini keçmişdilər... Qaranər yorulmaq bilmədən löhrəm yerişlə, sahibinin istədiyi yerişlə yeriyirdi. Onların arxasınca yedəkli traktor tırıldayır, yedəyin arxasınca da təkərli ekskavator "Belarus" gəlirdi.

Ancaq qarşıda onları əvvəlcədən nəzərə alınmamış bir hadisə gözləyirdi, qarşılaşacaqları bu vəziyyətin, nə qədər gözlənilməz səslənsə də, Sarı-Özək kosmodromunda baş verən hadisələrlə bir bağlılığı vardı...

"Konvensiya" təyyarədaşıyan gəmisi həmin vaxtda öz həmişəki yerində Sakit okeandakı Aleut adalarının cənubunda, Vladivostokla – San-Fransisko şəhərləri arasındakı hava yolunun tən ortasında dayanmışdı.



Okeanda hava dəyişməmişdi. Günün birinci yarısında günəş ara vermədən gözqamaşdırıcı şüaları ilə nəhayətsiz suların ləpələrində bərq vurmaqda idi. Tərtəmiz üfüqdə havanın korlana biləcəyi barədə bir əsər-əlamət yoxdu.

Təyyarədaşıyan gəmidə xidmətçi bölmələr son dərəcə gərgin vəziyyətdə idi – hava nəqliyyatı və daxili təhlükəsizlik qrupu da daxil olmaqla hamı ayıq-sayıq durmuşdu, hərçənd ki, ətraf mühitdə buna səbəb ola biləcək heç bir konkret faktiki səbəb yox idi. Bu səbəblər kosmosdan kənarda idi.

"Tramplin" orbiti vasitəsilə Meşəlidöş planetindən paritet-kosmonavtların "Konvensiya"ya verdikləri məlumat Biridamərkin rəhbərlərini və xüsusi səlahiyyətli komissiyanın bütün üzvlərini çaşqınlıq içində qoymuşdu. Çaşqınlıq elə güclü və təsirliydi ki, hər iki tərəf əvvəlcə ayrı-ayrılıqda yığıncaq keçirməyə məcbur oldu ki, hər şeydən əvvəl, baş vermiş vəziyyəti öz şəxsi maraq və mövqeləri baxımından aydınlaşdırandan sonra birgə yığıncaqda ümumi bir qərara gələ bilsinlər.

Bəşər tarixində baş vermiş misilsiz kəşfdən dünyanın hələ xəbəri yoxdu – dünya yerdənkənar Meşəlidöş planetindəki sivilizasiyadan xəbərsizdi. Hətta tərəflərin hökumətləri ciddi məxviyyətlə xəbərdar olunsalar da, işin hansı istiqamətdə getdiyini bilmirdilər. Səlahiyyətli komissiyaların ümumi bir razılığa gəlməyini gözləyirdilər. Təyyarədaşıyan gəminin hər yerində ciddi bir rejim qoyulmuşdu – heç kim hava nəqliyyatı da daxil olmaqla, öz yerini tərk eləyə bilməzdi. Heç kim bir səbəb-bəhanə ilə gəmidən kənara çıxa bilməz, heç bir başqa gəmi də "Konvensiya"ya əlli kilometrdən artıq yaxınlaşa bilməzdi. Bu yerlərdən uçan təyyarələr öz istiqamətini dəyişməliydilər ki, təyyarədaşıyan gəmiyə üç yüz kilometrdən artıq yaxınlaşmasınlar.

Beləliklə də, tərəflərin ümumi yığıncağı işini dayandırdı, hər komissiya öz tərəfindən olan "Demiurq" proqramının müştərək rəhbərilə birlikdə elm aləminə məlum olmayan Meşəlidöş planetindən 1-2 və 2-1 paritet-kosmonavtların verdikləri məlumatın müzakirəsinə başladılar.

Onların sözü ağlabatmaz bir astronomik uzaqlıqdan gəlmişdi:

Dinləyin, dinləyin!

Biz, Yer üçün transqalaktiv verilişə başlayırıq!

Yerdə adət elədiyimiz adları olmayan şeyləri izah eləmək çətindir. Hər halda ümumi cəhətlər çoxdur.

Onlar insanabənzər məxluqdurlar, əslində elə bizim kimi adamlardır! Eşq olsun dünya evolyusiyasına! Elə burda da evolyusiya hominid modelini universal prinsiplər əsasında yaratmışdır! Bu hominidlər – kənar planet sakinlərinin gözəl nümunələridir! Dəriləri qarabuğdayıdır, göyümtül saçları, yasəməni-yaşıl gözləri, ağappaq sıx kirpikləri var.

Bizim orbital stansiya ilə birləşəndə, onları tamam şəffaf skafandrlarda gördük. *Onlar gəminin dal tərəfində dayanıb təbəssümlə* baxır, bizi öz yanlarına dəvət eləyirdilər.

Biz də bu sivilizasiyadan başqa bir sivilizasiyaya qədəm qoyduq.

Vintvarı uçuş aparatı orbital stansiyadan ayrıldı, biz zaman axınını yenərək işıq sürətilə hərəkət eləsək də, faktiki olaraq gəminin içində bunu hiss etmir, kainatın içərilərinə doğru irəliləyirdik. Nəzərimizə birinci çarpan bu oldu ki, çəkisizlik vəziyyəti yox idi, bu da gözləmədiyimiz halda vəziyyətimizi xeyli yüngülləşdirdi. Buna nə yolla *nail olduqlarını hələlik* izah eləyə bilmərik.

Rus və ingilis sözlərinin qarışığından ibarət olan ilk cümlələri bu oldu: “Vel kom naş zvezda!”. Biz onu da başa düşdük ki, lazımi qədər cəhd göstərsək fikir mübadiləsi eləyə bilərik. Bu göyümtül saçlı varlıqlar hündürdürlər, iki metrə yaxın boyları var, – beş nəfərdirlər: dördü kişi, biri qadın. Qadın onlardan boyuna görə yox, zərifliyinə və dərisinin nisbətən ağlığına görə fərqlənirdi. Göyümtül saçlı meşəlidöşlülərin hamısı qarabuğdayıdırlar, bizim məğrib ərəbləri kimi. İlk dəqiqələrindən bizdə onlara qarşı inam yaranmışdı.

Onlardan üçü – uçan aparatın pilotu, kişilərdən biri və qadın isə Yer dillərinin mütəxəssisiydilər. İlk dəfə məhz onlar radio verilişlərini tutmaq yolu ilə ingilis və rus sözlərini öyrənib sistemləşdirmiş, Yer sözlüyü yaratmışlar... Biz görüşdüyümüz vaxta kimi onlar artıq iki min beş yüzdən çox söz və istilaların mənasını öyrənə bilmişlər. Onlarla ünsiyyətimiz elə bu linqvistik ehtiyatın köməyi ilə başlandı. Onlar özləri bizim qətiyyən başa düşmədiyimiz dildə danışırlar, ancaq ahəngindən ispan dilini xatırladır.

“Paritet”i tərk elədiyimizdən on bir saat sonra biz artıq Günəş sisteminin hüdudlarından çıxdıq.

Öz ulduz sistemimizdən çıxıb başqa birinə köçməyimiz bilinmədi, demək olar ki, fərqinə varmadıq. Kainatın materiyası hər yerdə eynidir. Ancaq, qarşıda – istiqamət götürdüyümüz kursda (görünür o anda kənar sistem cisimlərinin düzülüşü və vəziyyəti eləymiş,



tədricən işıqlana al şəfəqlər gördük. Bu şəfəqlər getdikcə artıb genişlənir, uzaqlarda sonsuz bir işıq dəryası yaradırdı. Bu zaman biz yolüstü bir neçə planetin yanından keçdik, onların bir tərəfi qaranlıq, digər tərəfisə işıqlıydı. Görə bildiyimiz genişlikdə çoxlu günəşlər və aylar var idi.

Biz elə bil ki, gecədən çıxıb gündüzə düşdük. Birdən-birə sonu, nəhayəti olmayan, gözqamaşdırıcı, təmiz işıq aləminə daxil olduq, bu işıq seli birinci dəfə gördüyümüz bu göydə nəhəng və qüdrətli bir Günəşdən gəlirdi.

– Biz öz qalaktikamızdayıq! Baxın işıq saçan bizim Cazibdir! Tezliklə Meşəlidöş də görünəcək! – deyə dilçi qadın məlumat verdi.

Həqiqətən, yeni kosmik fəzanın ağılkəsməz yüksəkliyində bizim üçün yeni olan Cazib adlı günəşi gördük. Özünün şüalanma gücü, ölçüsünə görə Cazib bizim günəşdən çox böyük idi. Yeri gəlmişkən deyək ki, bu dünyada rast gəldiyimiz bir sıra geobioloji keyfiyyətlərin bizim dünyadan fərqini məhz burdakı günəşin bu xüsusiyyəti və Meşəlidöş sutka uzunluğunun iyirmi səkkiz saata bərabər olması ilə izah etmək fikrindəyik.

Ancaq bunlar haqqında biz çalışıb gələn dəfə, ya da “Paritet”ə qayıdanbaş məlumat verərik, hələlik isə ötəri də olsa bir neçə vacib xəbər vermək istəyirik. Meşəlidöş planeti yüksəkdən baxanda bizim Yeri xatırladır, eynilə bizimki kimi atmosfer buludlarıyla əhatə olunub. Planetə beş-altı min metr qalmış, meşəlidöşlülər bizim üçün ümumi tanışlıqdan ötrü planet ətrafında xüsusi dövrə vurdular – bu, görünməmiş bir gözəllik aləmiydi: dağlar, silsilələr, təpələr, yamaclar yaşıllıq içindəydi. Onların da arasında çaylar, göllər, dənizlər... Amma planetin bir neçə yerində, əsasən qütblər ətrafında, – həyat nişanı görünməyən, başdan-başa toz-tufan içində qalmış səhralar görünür. Bizə ən çox təsir göstərən yaşayış yerləri, bir də şəhərlər oldu. Meşəlidöşün ümumi landşaftı içində bu konstruktor qurğuları hədsiz inkişaf eləmiş urbanizasiyadan xəbər verirdi. Hətta, Manxattan yarımadasındakı ecazkar şəhər belə, bu planetin göyümtül saçlı sakinlərinin şəhər salmaq bacarığı müqabilində heç bir müqayisəyə gələ bilməz[1].

Meşəlidöş məxluqatı, bizim anladığımıza görə, kainatda şüurlu varlığın xüsusi bir fenomenidir. Hamiləlik dövrünü Meşəlidöşün on bir

[1] ABŞ-dakı Nyu-York şəhəri nəzərdə tutulur.

ayı ərzində keçirirlər. Çox uzun ömür-gün sürsələr də, onlar belə hesab eləyirlər ki, cəmiyyətin ən vacib, təxirəsalınmaz problemi və fikri, cəhdi ömrün uzadılmasıdır. Onlar orta hesabla yüz otuz – yüz əlli il ömür sürürlər, ara-sıra iki yüzü də haqlayan olur. Planetin sakinlərinin sayı on milyarddan artıqdır.

Göyümtül saçlıların həyat tərzi barədə, bu sivilizasiyanın nailiyyətləri barədə azacıq da olsa sistemli şəkildə məlumat vermək imkanında deyilik. Odur ki, fraqmentar şəklində bizi ən çox valeh eləyən şeylər barədə danışırıq.

Günəşdən, daha doğrusu, Cazibdən enerji alıb onu istilik, ya da elektrik enerjisinə çevirə bilirlər, özü də bizim hidrotexniki üsulumuzdan qat-qat artıq faydalı iş əmsalı alırlar, bundan daha mühüm onların gecə ilə gündüzün hava temperaturu fərqindən enerji sintezləndirməsidir.

Onlar iqlimi tənzim eləməyi də öyrəniblər. Biz planet üzərində ümumi tanışlıq uçuşu keçirəndə, uçuş aparatı şüalanma yolu ilə, bəzi yerlərdə həddən çox yığılmış duman və bulud topalarını birce anda dağıda bildi. Biz bunu da öyrəndik ki, onlar hava axınına, həmçinin dəniz və okeanlarda suyun axarına da təsir göstərməyi bacarırlar. Bu yolla da planet üzərindəki nəmişliyi və hava temperaturu rejimini lazımi qaydada saxlaya bilir, hətta cazibə qüvvəsini də idarə etməyə nail olublar ki, bu da onlara ulduzlararası uçuşlarda kömək eləyir.

Lakin onların qabağına nəhəng bir problem çıxıb, zənnimizcə Yer üzündə hələ belə şeylə qarşılaşmamışıq. Onlar quraqlıqdan əziyyət çəkmirlər, çünki iqlimi də idarə edə bilirlər. Ərzaq məhsulları istehsalında qıtlıq deyilən şeydən də hələlik xəbərləri yoxdur. Özü də belə bolluğa, əhalisi Yerdəki insanların sayından iki dəfə yarım çox olan bir yerdə nail olmuşlar. Amma planetin xeyli ərazisi tədricən yaşayış üçün yararsız hala düşür. Belə yerlərdə canlı nə varsa tələf olub gedir. Bu hadisə daxildən qurma adlanan prosesin nəticəsidir. Biz ümumi tanışlıq uçuşunda Meşəlidöşün cənub-şərq tərəfində tozanaq tufanları gördük. Planetin daxilində baş verən hansı qorxunc reaksiya nəticəsindəsə, çox ola bilsin ki, bu bizim vulkanik proseslərə bənzər bir şeydir, ancaq, deyəsən, bu tədriclə davam edən yayılmış şüa püskürməsi növüdür, – torpağın üst qatı dağılıb-pozulur, dənəvərliyini itirir, torpaq yaradan bütün ünsürlər yanıb zay olur. Meşəlidöşün bu yerindəki Saxara böyüklükdə olan bir səhra ilbəil, addımbaaddım genişlənərək, göyümtül saçlı planet sakinlərinin yaşayış yerlərini tutur. Bu, onlardan ötrü ən böyük fəlakətdir. Onlar planetin dərin qatlarındakı prosesləri idarə eləməyi hələlik öyrənə bilməyiblər. Bu qorxunc daxili qurma prosesi ilə mübarizə üçün ən yaxşı qüvvələr səfərbər olunub, böyük elmi və maddi vəsait ayrılmışdır. Onların ulduzlar sistemində Ay yoxdur, amma bizim Aydan xəbərləri var, orda olublar. Onların fikrincə, bəlkə bizim Ay da buna bənzər prosesin qurbanı olub. Bunu eşidəndə biz bir az fikrə getdik – axı Ay Yerdən o qədər də uzaq deyil. Belə bir fəlakətlə qarşılaşmağa biz hazırıqmı? Bunun zahiri, eləcə də daxili nəticələri nə cür ola bilər? Görəsən, adamlar bunun qeydinə qalacaqlarmı ki, Yer üzündə ardı-arası kəsilməyən çəkişmələr nəticəsində, özlərinin intellektual inkişafında çox şey itiriblər?

Hazırda Meşəlidöşün elm aləmində ümumplanet əhəmiyyətli mübahisələr gedir – bu daxili qurma prosesinin sirlərini öyrənib, potensial fəlakətin qarşısını almağa cəhd göstərsinlərmi, ya da vaxt varkən kainatda öz həyat tələblərinə cavab verən başqa bir planet tapıb, kütləvi surətdə köç eləsinlər, beləliklə də Meşəlidöşdəki sivilizasiyanı ora köçürüb bərpa etsinlər? Hələlik bu da aydın deyil ki, onlar nəzərlərini hara və hansı planetə yönəldiblər. Göründüyü kimi, planetin indiki vəziyyətində onları heç bir təhlükə-filan gözləmir, burda hələ milyon illər qayğısız ömür-gün keçirmək mümkün olduğu halda, təəccüblüsü budur ki, elə əl-ayağa düşüb narahat olurlar ki, sanki belə bir uzaq gələcəyin fəlakətinin birbaşa indiki əhaliyə aidiyyəti var. Yəni doğurdanmı heç kimin beynində belə bir xəbis fikir olmayıb. "Eh, mən öləndən sonra qoy nə olur olsun?!". Biləndə ki, ümumi maddi nemətlərin xeyli hissəsi bu daxili quruma prosesinin qarşısını almaq üçün ayrılıb, bizim özümüzün ürəyindən buna bənzər bir fikir keçdi, utanıb xəcalət çəkdik. Onlar bunun qarşısını almaqdan ötrü bir neçə min kilometr uzunluqda manеə xətti çəkməyə cəhd göstərirlər, – bu xətt gün-gündən genişlənib böyüyən bütün ölü boşluqlar sərhədi boyunca uzanmalıdır – bunu buruqlar qoyaraq hədsiz dərin quyular qazıb yerin təkinə çox uzunmüddətli təsir göstərən neytrallaşdırıcı maddələr yeritmək istəyirlər, onların fikrincə, bu planetin nüvəsində gedən daxili reaksiyalara lazımi təsir göstərə biləcəkdir.

Şübhəsiz, onların da özlərinə görə insan şüurunu əbədi bir yük altında saxlayan mənəvi, əxlaqi və intellektual xüsusiyyət daşıyan

ictimai həyat problemləri var. Aydın məsələdir ki, onlar necə yüksək maddi nemətlər bolluğuna nail olublarsa olsunlar, bu o demək deyil ki, on milyarddan artıq əhalisi olan planetdə ümumi həyat o qədər də asan keçir. Buna baxmayaraq, təəccüb doğuran odur ki, onlar dövlət deyilən quruluşun nə olduğunu bilmirlər, müharibə və silah deyilən şeylərdən xəbərləri yoxdur. Bunu dürüst deyə bilmərik – çox ola bilsin ki, keçmiş tarixdə müharibələri də olub, dövlət quruluşları da, hətta lap pulları da və o cümlədən bunlarla yanaşı gedən başqa ictimai münasibətlər mövcud olub, hər halda, bunlar keçmişdə olsa da, hazırkı tarixi dövrdə onların dövlət quruluşu adlanan zorakılıq institutları və mübarizənin müharibə deyilən formalarından xəbərləri yoxdur. Əgər biz Yerdə gedən, ardı-arası kəsilməyən müharibələrin mahiyyətini onlara başa salmalı olsaq, bu, onlara mənasız, hətta məsələlərin həllinin ən vəhşi üsulu kimi görünməzmi?

Onların bütün həyatı tamamilə başqa əsaslar üzərində təşkil olunub, bu bizim yerdəki ağıl, mühakimə yürütmək formasından kənar olduğu üçün onları kifayət qədər anlayıb dərk edə bilmirik.

Onlar müharibəni mübarizə vasitəsi kimi rədd edərək elə bir kollektiv planetar şüur səviyyəsinə çatmışlar ki, bizim tariximizə görə, çox güman ki, bu cür sivilizasiya kainat mühitinin ağıl kəsən hüdudlarında ən qabaqcıl sivilizasiyadır. Ola bilsin onlar elmi inkişafın elə bir səviyyəsinə çatmışlar ki, vaxt və fəza ölçüsünün insanilәşdirilməsi şüurlu varlıqların həyat fəaliyyətlərinin əsas mənasına çevrilir, beləliklə də dünya təkamülünün yeni, daha yüksək və sonsuz mərhələsinin davamını təmin edir.

Biz müqayisəyə gəlməyən şeyləri müqayisə eləmək fikrində deyilik. Vaxt gələcək ki, bizim Yer üzündə də adamlar belə yüksək inkişafa çatacaqlar, bizim elə indinin özündə də fəxr edib öyünməli şeylərimiz az deyil, ancaq acı bir fikirdən yaxa qurtara bilmirik: bəs Yer üzündəki bəşəriyyət tragik bir səhvə uyaraq tarixin ancaq müharibələr tarixi olduğuna özünü inandırmışsa onda necə olsun? Bəlkə bu cür inkişaf yolu başdan-binadan çıxılmaz, səhv yoldur? Belə isə biz hara gedirik, bu yol bizi hara aparıb çıxaracaq? Əgər bu doğrudan da belədirsə, bəşəriyyət səhvini etiraf etmək üçün cəsarət tapıb yerlə-yeksan olmaqdan can qurtara biləcəkmi? Taleyin hökmü ilə Yerdənkənar ictimai həyatla ilk təmasda biz olduğumuz üçün anlaşılmaz hisslər keçiririk – bir tərəfdən Yer sakinlərinin gələcəyi üçün



nigarançılıq hissi, digər tərəfdən ümid, çünki kainatda elə bir ictimai həyat nümunəsi var ki, onun inkişafı müharibələr yolu ilə həll edilən ziddiyyətlərdən kənardır...

Meşəlidöşlülər bilirlər ki, kainatın onlar üçün çox uzaq olan bir guşəsində Yer planeti var: onlar Yer sakinləri ilə təmasa girməyi çox istəyirlər, bu təkcə adi maraq hissi deyil, onların fikrinə görə, bu hər şeydən əvvəl, şüur fenomeninin təntənəsi naminə, sivilizasiya təcrübəsi mübadiləsi naminə, kainatdakı intellekt sahiblərinin yeni ruhi və zehni inkişafı naminədir.

Bu münasibətlərdən onlar düşündüyümüzdən daha çox şeylər gözləyirlər. Meşəlidöşlülərin Yer sakinlərinə olan marağı bir də buna əsaslanır ki, onlar hər cür enerjinin əvvəl-axır kəsərdən düşəcəyini, eləcə də hər bir planetin əvvəl-axır məhv olacağı faktorunu nəzərə alaraq, təbiətdəki həyatın sonsuz davamını təmin etməyin əsas yolunu dünya şüurunun bu iki qolunun ümumi səyinin birləşməsində görürlər...

İşıq sürətilə uçan aparatları olduğu üçün onlar elə indinin özündə bizim Yerə gələ bilərdilər. Ancaq Yer sakinlərinin razılığı və dəvəti olmadan bunu eləmək istəmirlər. Onlar Yerə çağırılmamış qonaq kimi soxulmaq fikrində deyillər. Buna görə də bizə işarə vururlar ki, tanışlıq üçün çoxdan münasib imkan axtarırlar. Bizim kosmik stansiyalarımız uzunmüddətli orbitlərə çıxmış obyektlərə çevriləndən sonra onlara aydın olub ki, görüş vaxtı yaxınlaşır, həm də ilk addımı onlar atmalıdırlar. Onlar ciddiyyətlə hazırlaşır, münasib vaxt gözləyirmişlər. Bu da bizim payımıza düşüb, çünki bu aralıqda – orbital stansiyada biz olmuşuq...

Aydın məsələdir ki, bizim onların planetinə gəlməyimiz ağlagəlməz bir sensasiyaya çevrildi. Bu münasibətlə ancaq böyük bayramlarda istifadə olunan qlobal telekontakt sistemi efirə buraxıldı. Ətrafımızda işıq saçan havada bizdən minlərlə kilometr uzaqlıqda olan şeyləri və adamların üzünü tam əyanilikiə yanımızdaca görür və eyni zamanda qarşılıqlı əlaqə yaradıb ünsiyyətdə ola bilirdik – təbəssümlə bir-birimizin üzünə baxır, sevinc, coşqunluq və ehtirasla gülüb-danışır, əl verib görüşür, sanki doğrudan da onlarla həqiqi kontaktda idik. Bu meşəlidöşlülər necə də gözəldirlər, necə də bir-birindən seçilirlər, hətta onların göyümtül-mavi saçlarının çaları da müxtəlifdir – tünd-göydən tutmuş ultramaviyə qədər! Bizim qocalar kimi onların da saç-

saqqalı ağarır. Hətta antropoloji tipləri də müxtəlifdir, çünki müxtəlif etnik qruplardandırlar.

Bütün bunlar və bunlardan daha maraqlı şeylər barəsində biz "Paritet"ə və ya Yerə qayıdandan sonra danışacağıq. İndi əsas məsələdən danışmaq istəyirik. Meşəlidöşlülər bizdən xahiş eləyirlər ki, "Paritet" rabitə sistemi vasitəsilə sizə çatdıraq ki, Yer sakinləri nə vaxt münasib bilərsə, onlar bizim planetə gəlmək arzusundadırlar. Ancaq təklif edirlər ki, hələlik ulduzlararası keçid stansiyası yaratmaq proqramı razılaşdırılsın, bu həm ilkin görüşlər keçirmək üçün yer olardı, həm də gələcəkdə daimi yolüstü baza kimi istifadə oluna bilərdi. Biz söz verdik ki, onların bu təklifini öz həmyerlilərimizə çatdıraq. Ancaq bununla əlaqədar olaraq bizi narahat edən tamam başqa şeylərdir.

Biz, Yer sakinləri bu cür planetlərarası görüşə hazırıqmı, şüurlu məxluqlar kimi bizim buna yetkinliyimiz çatırmı? Biz bir-birindən ayrılıq və mövcud ziddiyyətlər şəraitində birlik tapıb, bir növ özümüzü vəkil edərək, bütün bəşəriyyət, bütün Yer kürəsi adından çıxış eləyə bilərikmi? Sizdən acizanə rica edirik ki, yeni rəqabət alovunun, mənasız birincilik uğrunda yeni mübarizənin qarşısını almaq naminə bu məsələni ancaq BMT-yə həvalə edin. Sizdən onu rica edirik ki, BMT-dəki qadağan hüququndan sui-istifadə etməyin, bəlkə də bu dəfə müstəsna olaraq bu veto hüququ ləğv edilsin. Kosmik fəzanın çox-çox uzaqlarında belə şeylər barədə düşünmək bizim üçün son dərəcə ağır və acıdır, ancaq neyləmək olar, biz Yer kürəsindənik və biz Yer planeti sakinlərinin xasiyyətinə yaxşı bələdik.

Nəhayət, bir daha özümüz və tutduğumuz iş haqqında danışmaq istəyirik. Bizim orbital stansiyadan yoxa çıxmağımızın necə bir təəccübə səbəb olduğunu və bununla bağlı necə təcili tədbirlər görüldüyünü biz yaxşı başa düşürük. Bu qədər təşvişə səbəb olduğumuz üçün dərindən-dərinə təəssüf edirik. Amma bu elə bir unikal hadisə idi ki, imtina edə bilmədik, buna mənəvi haqqımız yox idi. Biz çox ciddi reqlament nizamnamə məhdudiyyəti içində yaşayan adamlar olsaq da, bu böyük məqsəd naminə reqlament xilafına hərəkət etməyə borcluyuq.

Bunu bizim öz vicdanımızın mühakiməsinə buraxın, biz lazımi cəza çəkməyə hazırıq! Amma bunu hələlik yaddan çıxardın. Qulaq asın! Biz uzaq kainatdan siqnal veririk. Biz indiyə qədər məlum olmayan Cazib günəşinin qalaktik sistemindən xəbər göndəririk. Göyümtül saçlı meşəlidöşlülər ən müasir, son dərəcə yüksək müasir sivilizasiyanın



yaradıcılardır. Onlarla görüş bütün bəşəriyyətin taleyində, bizim həyatımızda qlobal dəyişikliklər yarada bilər. Çox təbii ki, ilk növbədə öz Yerimizin mənafeyini gözləmək şərtiylə, belə bir işə cürət edə bilərikmi?

Kənar planet sakinlərinin bizə heç bir təhlükəsi yoxdur. Hər halda bizə belə görünür. Ancaq biz onların təcrübəsindən istifadə eləsək, dünyamızı əhatə edən maddi mühitdən enerji alınması üsullarından başlamış, ta ki, zor işlətmədən silahsız, müharibəsiz yaşamağı öyrənərək öz həyat tərzimizdə çevriliş yarada bilərdik. Son dediklərimiz qulağa da qəribə gələ bilər, ancaq biz təntənəli surətdə təsdiq edirik ki, Meşəlidöş planetindəki şüurlu məxluqatın həyatı məhz bu tərzdə qurulub, öz kütləsi etibarilə bizim Yer kürəsi böyüklükdə olan geobioloji məkanda belə bir kamilliyə çata biliblər. Kainatın yüksək sivilizasiyalı təfəkkür tərzi nümayəndələri kimi onlar özlərinin ağıl qardaşları olan Yer sakinləri ilə açıq əlaqəyə girməyə hazırdırlar, lakin bu kontaktın forması hər iki tərəfin tələblərinə və ləyaqətlərinə uyğun olmalıdır.

Yerdənkənar sivilizasiya kəşf elədiyimizə görə biz nə qədər dərin sarsıntı keçirsək də, tezliklə yerə qayıtmaq arzusundayıq ki, fəza hüdudlarımızdan uzaq qalaktikadakı Cazib Günəş sistemi planetlərindən birində şahidi olduğumuz şeylər barədə adamlara məlumat verə bilək.

Bizim fikrimiz budur ki, iyirmi səkkiz saatdan sonra, yəni bu növbəti radio verilişlərindən bir sutka keçmiş, geriyə istiqamət götürüb öz "Paritet"imizə qayıdaq. "Paritet"ə daxil olan kimi özümüzü verəcəyik Biridamərkin sərəncamına.

Hələlik, görüşənə qədər. Günəş sisteminə uçma ərəfəsində "Paritet"ə çatacağımız vaxt barədə məlumat verəcəyik.

Bununla da Meşəlidöş planetindən ilk verilişimizi qurtarırıq. Tezliklə görüşənə qədər. Çox-çox xahiş edirik ki, ailələrimizə xəbər verəsiniz, bizdən nigaran qalmasınlar.

Paritet-kosmonavt 1-2
Paritet-kosmonavt 2-1".

"Konvensiya" təyyarədaşıyan gəmisindəki "Paritet" orbital stansiyasında baş vermiş fövqəladə hadisəni tədqiq edən xüsusi səlahiyyətli komissiya tərəflərinin ayrıca yığıncağı bununla başa çatdı ki, hər iki tərəfdən olan komissiya bütün üzvlərilə birlikdə yuxarı təşkilatlardan

göstəriş almaq üçün geriyə uçmalı oldular. Təyyarədaşıyan gəminin göyərtəsindən qalxan təyyarələrdən biri San-Fransiskoya, bir neçə dəqiqədən sonra qanadlanan digəri isə əks istiqamətdə Vladivostoka yön aldı.

"Konvensiya" təyyarədaşıyan gəmisi isə öz həmişəki yerində – Sakit okeandakı Aleut adalarından cənubda idi... Təyyarədaşıyan gəmidə çox ciddi qayda qoyulmuşdu. Hər kəs öz işi ilə məşğuldu. Hamı gözdə-qulaqdaydı. Bir adam da danışmırdı...

*Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*
*Bu yerlərdə dəmiryolunun hər iki tərəfilə intəhasız Sarı torpaq çöllərinin göbəyi hesab edilən Sarı-Özək düzləri uzanıb gedir...*

Ana-Beyitə gedən yolun artıq üçdən biri qət olunmuşdu. Günəş əvvəlcə üfüqdən çox sürətlə qalxdı, indi isə elə bil ki, Sarı-Özəyin başı üstündə bircə nöqtədə dayanıb. Deməli, gün-günorta olmuşdu, göydən od ələnirdi.

Boranlı Yedigey gah saatına, gah günəşə, gah da irəlidə uzanıb gedən düzlərə baxa-baxa kəsdirdi ki, hələlik işləri lazımi qaydada gedir. O, yenə də dəvənin üstündə irəlidə gedir, onun ardınca yedəkli traktor, yedəyin ardınca da "Belarus" ekskavatoru gəlirdi, kürən köpək Culbars isə böyür tərəfdən qaçırdı.

"Sən demə, insanın beyni bircə saniyə də fikirsiz dayana bilmirmiş. Sən bir bu şoğəribin işinə bax – istəsən də, istəməsən də fikirdən fikir doğur, yəqin, ölənəcən elə belə gedəcək!". Yedigey bu gülməli qənaətə yol boyu aramsız olaraq nəyinsə haqqında fikirləşdiyini hiss eləyəndə gəlmişdi. Dənizdə dağlar bir-birini qovduğu kimi, fikir də fikri qovurdu. Uşaqlıq çağlarında o, saatlarla Arala tamaşa elərdi. Küləkli havalarda uzaqda sular ağarır, sonra köpüklənə-köpüklənə qabara-qabara yaxınlaşaraq dalğadan dalğa yaradırdı. Bu hərəkətdə dəniz canlı bir varlıq kimi sanki eyni vaxtda yaranır və pozulur, pozulub yenidən yaranırdı. Bax elə onda bu oğlan uşağının üreyindən keçirdi ki, qağayı olub bu su ümmanının necə yaşadığını yüksəklikdən görmək üçün dalğalar üzərində bərq vuran su qırçınlarının üstündə qanad gərib uçsun.

Payız qabağı Sarı-Özəyin ürəyə işləyən bir qüssə gətirən geniş düzləri, löhrəm yerişli dəvənin addım səsi Boranlı Yedigeyi xəyal



aləminə aparmışdı, o da buna mane olmurdu, qabaqda hələ xeyli yol vardı, hərəkətlərinə əngəl olacaq bir şey də yox idi. Həmişə uzaq səfərlərdə olduğu kimi, indi də yol getdikcə Qaranərdən tünd tər qoxusu gəlməyə başlayırdı. Bu qoxu dəvənin ənsəsindən və boynundan gəlirdi. "Hə, hə, bildim, – deyə Yedigey razı halda gülümsündü, – deməli, tamam köpük içindəsən! Lap paçalarının arasınacan köpüklənmisən! Ay səni yırtıcı, ayğırın biri ayğır! Dəlisən dəli!"

Yedigeyin fikri çözələnib onu yenə də keçmiş günlərə apardı, olub keçənləri götür-qoy elədi, o zaman Qazanqap hələ sağlam və canısulu idi, bax elə bu xatirələrin çözümü, – özü istəməsə də, çoxdan ötüb keçmiş bir əhvalat ürəyinə od saldı. Dualar da kömək eləmədi. Duanın sözlərini dönə-dönə öz-özünə təkrar eləyirdi ki, başını qatsın, ürəyinin ağrısını unutsun. Amma qəlbi heç cür təskinlik tapmırdı. Boranlı Yedigey tutulmuşdu, yolu onsuz da həvəslə gedən dəvənin böyrünü nahaq qamçılayır, şapkasının günlüyünü gözünün üstünə basıb daha arxadan gələn traktora sarı baxmırdı. Qoy arxamca gəlsinlər, geri qalmasınlar, axı bizim keçmiş əhvalatlarımızın isti-soyuq görməmiş cavanların nə vecinə... O, bu barədə heç arvadıyla da bir kəlmə kəsməmişdi, bu barədə ancaq Qazanqap öz sözünü deyib, həmişəki kimi vicdanla, ağılla yol göstərmişdi. Təkcə o, məsləhət verə bilərdi, yoxsa Yedigey, Boranlıdan çoxdan çıxıb getmişdi...

Həmin ildə – əlli birin qışının lap axırında, razyezdə bir ailə gəldi. Ər, arvad, iki də oğlan uşağı. Böyük oğlan Daulun beş, kiçiyininsə üç yaşı vardı. Kiçiyinin adı Ermək idi. Abutalıb Kuttubayovun özü Yedigeylə həmyaşıd olardı. Müharibəyə qədər hələ lap cavan ikən bir il aul məktəbində müəllimlik eləyib qırx birin yayındasa onu müharibənin ilk günlərində cəbhəyə göndərmişdilər. Belə çıxır ki, Zərifə ilə ya müharibənin sonuna yaxın, ya da müharibə qurtaran kimi evləniblər. Zərifə özü də, razyezdə gələn kimi aşağı siniflərə dərs deyirmiş. İndi fələk vurub onları da Sarı-Özəyin Boranlısına salmışdı.

Onların belə əldən-ayaqdan uzaq bir yerə gəlməsi, aydın məsələydi ki, kefdən deyildi. Abutalıbla Zərifə başqa yerdə də iş tapa bilərdilər. Görünür vəziyyət elə gətirmişdi ki, başqa çarələri qalmamışdı. Əvvəlcə boranlılar elə güman elədilər ki, onlar burda çox bənd ala bilməzlər, dözümləri çatmaz, baş götürüb qaçarlar. Boranlıyı bu cür gəlib-gedənlər çox olub. Elə Yedigey də, Qazanqapın özü də belə fikirləşirdi. Buna baxmayaraq, elə ilk günlərdən Abutalıbın ailəsinə

hörmət göstərirdilər. Kasıbçılıq çəksələr də, ləyaqətlərini bilən, mədəni adamlardılar. Ər də, arvad da hamı kimi işə can yandırırdı. Çiyinlərində şpal da daşıyırdılar, yolları qar basanda qarı da təmizləyirdilər. Qərəz ki, yol işçisinin payına nə düşürdüsə heç birindən kənar durmurdular. Abutalıbın alman əsirliyində olması sarıdan bədbəxtik çəksələr də, amma mehriban ailəydilər. O vaxtlar artıq müharibə illərinin ehtirasları da bir az soyumuşdu. Əsirlikdə olanlara vətən xaini damğası vurub düşmən hesab eləmirdilər. Boranlılara gəlincə, onlar buna görə çox narahat da olmurdular. İndi neyləmək olar ki, bu adam əsirlikdə olub, bu dəhşətli, dünya vurhavurunda adamların başı nələr çəkməyib ki! Elələri var elə indinin özündə də sərgərdan gəzib dolanırdılar. Müharibə kabusu hələ də adamları təqib edirdi... Buna görə boranlılar gəlmələri bu münasibətdə çox da sorğu-suala tutmadılar, onsuz da səbir kasası dolmuş, başı bəlalar çəkmiş adamın yaralarını təzələmək nəyə lazımdı...

Günlər keçdikcə Yedigey bir də gözünü açıb gördü ki, Abutalıbla dost olub. Ağıllı adam idi Abutalıb. Yedigeyin diqqətini cəlb eləyən o idi ki, Abutalıb belə ağır vəziyyətdə olsa da, dünyadan əlini üzməmişdi. Özünü sındırmır, taleyindən şikayətlənib ah-nalə eləmirdi. Bir sözlə, dünyanın gəldi-gedərini başa düşən adamdı. Görünür, qismətində belə yazıldığını başa düşürdü. Elə, deyəsən, arvadı Zərifə də bu qənaətdə idi. Taleyin bu hökmü ilə daxilən razılaşdıqları üçün onlar həyatın mənasını bir-birinə olan mehribançılıqda, qeyri-adi həssaslıqda görürdülər. Yedigey sonralar başa düşdü ki, beləliklə onlar bir-birinə arxa durur, həm özlərini, həm də uşaqlarını zamanın amansız qasırğalarından qoruyurlar. Xüsusilə də Abutalıb. O, ailəsindən kənar bircə gün də yaşaya bilməzdi. Uşaqlar – oğlanları lap dini-imanıydı. Hər boş dəqiqəsini onlara sərf edir, məşğul olurdu. Onlara savad öyrədir, cürbəcür nağıllar danışır, tapmacalar verir, özündən oyunlar fikirləşirdi. Əvvəllər işə gedəndə uşaqları barakda qoyurdular. Ukubala buna dözə bilməyib uşaqları öz yanına gətirdi. Təzə gələnlərə nisbətən onların evi həm isti, həm də o vaxt daha səliqə-sahmanlı idi. Onların ailəvi yaxınlığına da elə bu səbəb oldu. Axı o vaxt Yedigeyin özünün də balaları boy atırdı, iki qızı elə Abutalıbın uşaqları boyda idilər.

Bir dəfə işdən sonra Abutalıb uşaqları aparmağa gələndə dedi:

– Bilirsən nə var, Yedigey, gəlsənə öz uşaqlarımla birgə sənin qızlarına da dərs deyim. Elə bilmə ki, indiyə kimi avaraçılıqdan uşaqlarla



vaxt keçirirəm. Uşaqlar bir-birilərinə isnişiblər, bir yerdə də oynayırlar. Qoy gündüzləri sizdə olsunlar, axşamlar da bizdə. Bunu sənə niyə deyirəm? Özün görürsən ki, əldən-ayaqdan uzaq olan bu yerdə onsuz da ürəkaçan bir şey yoxdur, deməli, uşaqlarla daha çox məşğul olmaq lazımdır. İndi elə bir zamandır ki, uşaqlara gərək körpəlikdən bilik öyrədəsən. İndinin bax beləcə barmaq boyda uşaqları gərək qabaqlar yekə oğlanların bildiyi qədər bilsin. Ayrı cür savad yiyəsi olmaq mümkün deyil.

Abutalıbın cidd-cəhdinin əsl mənasını Boranlı Yedigey sonralar, bədbəxtlik üz verəndən sonra başa düşdü. Onda Yedigey anladı ki, Abutalıbın vəziyyətində olan adama Boranlı şəraitində uşaqlar üçün əlindən gələni ancaq bu ola bilərdi. Elə bil ürəyinə damıbmış, çalışırdı ki, bacardıqca uşaqlara çox şey öyrətsin, sanki beləliklə onların yaddaşına həkk olmaq, öz ömrünü onların ömrünə qatmaq istəyirdi. Nə isə, Abutalıb işini qurtarıb qayıdan kimi, Zərifəylə birlikdə həm özünün, həm də Yedigeyin uşaqları üçün, nəsə məktəb – uşaq bağçasına bənzər bir şey düzəldirdilər. Uşaqlar bir-birinin bəhsinə hərfləri, hecaları öyrənir, oynayır, şəkil çəkir, valideynlərin oxuduğu kitablara qulaq asır, hətta bir yerdə mahnı oxumağı da öyrənirdilər. Uşaqların bu həvəsi Yedigeyi də maraqlandırdı, hətta o özü də onlara ayaq açmağa başladı, həvəslə dərs oxuyan uşaqlara tamaşa eləməkdən doymurdu. Ukubalanın özü də hərdən bir şeyi bəhanə eləyib gəlsə də, əslində qızlarına tamaşa eləməyə gəlirdi. Yedigey baxdıqca xoşallanır, mütəəssir olurdu. Ürəyi muma dönürdü. Savad belə şeydir, müəllim belə olar! Gör bir uşaqlarla necə rəftar eləyirlər. Belə axşamlarda Yedigey onlara mümkün qədər mane olmamağa çalışırdı. Çəkilib bir küncdəcə otururdu, hər gələndə də qapının ağzında şapkasını çıxarırdı:

– Axşamınız xeyir! Budur bax, bağçanızın beşinci uşağı da gəldi.

Uşaqlar onun bu gəlişinə öyrənmişdilər. Qızları çox sevinirdi. Atalarını görəndə daha çox çalışırdılar. Yedigeylə Ukubala növbə ilə onların sobalarını qalayırdılar ki, axşamları uşaqlara soyuq olmasın, isti ev daha sahmanlı görünsün.

Həmin il Boranlıda bax belə bir ailə məskən salmışdı. Əcaib şey də budur ki, adətən belə adamların bəxti gətirmir.

Abutalıb Kuttubayovun bədbəxtliyi, onun təkcə almanlara əsir düşməyi ilə bitmirdi, xoşbəxtlikdənmi, ya bu da onun bədbəxtliyindənmi, bir qrup hərbi əsirlə Cənubi Bavariyadakı konsentrasiya

düşərgəsindən qaçıb, qırx üçüncü ildə yuqoslav partizanlarına qoşulmuşdu. Abutalıb müharibənin sonuna kimi yuqoslavların azadlıq ordusu sıralarında vuruşmuşdu. Orda yaralanıb, elə orda da müalicə olunmuşdu. Yuqoslavlar onu öz ordenləriylə təltif eləmişdilər. Partizan hərəkatı qəzetlərində şəkli çıxmış, onun haqqında tərifli sözlər yazmışdılar. Qırx beşinci ildə vətənə qayıdanda, xüsusi filtrləmə komissiyası onun sənədlərini yoxlayarkən, bunların ona əməlli-başlı köməyi dəymişdi. Konsentrasiya düşərgəsindən qaçan on iki nəfər əsirdən ancaq dördü sağ qalmışdı. Bu dörd nəfərin bəxti bir də ona görə gətirmişdi ki, sovetlər tərəfindən yoxlama komissiyası birbaşa yuqoslavların azadlıq ordusunun bu bölmələrinə gəlmişdilər, yuqoslav komandirləri bu keçmiş hərbi əsirlərin mənəvi siması və faşistlərə qarşı döyüş xidmətlərini işıqlandıran yazılı xasiyyətnamə vermişdilər.

Nəhayət, iki aylıq üzüntülü çək-çevirdən, dəfələrlə yoxlamalardan, üzləşdirmələrdən, gah ümid verən, gah da ümid üzən gözləmələrindən sonra Abutalıb Kuttubayova günahsız – hüquqlu bir şəxs kimi Qazaxıstana qayıtmağa icazə verdilər, günahsız deyəndə ki, günahsızdı, amma cəbhədən qayıdanlara verilən imtiyazlardan məhrum edilmişdi. Abutalıb Kuttubayov ürəyində də incik deyildi. Müharibəyə gedənə kimi coğrafiya müəllimi idi, yenə də öz sənətinə qayıtmışdı. Bax elə burada da, rayon mərkəzindəki məktəblərin birində ibtidai sinif müəllimәsi Zərifəyə rast gəlmişdi. Nadir hallarda olsa da, həyatda bəzən taylı tayını tapır.

İllər keçdikcə ilk qələbə illərinin səs-küyü də sakitləşirdi. Zəfər təntənəsi və şənliklər ötüşəndən sonra havada "soyuq müharibə"nin ilk qanı yağmağa başladı. Getdikcə də gücləndi. Dünyanın müxtəlif yerlərində, qadalı – zəif nöqtələrdə müharibədən sonrakı münasibətlərin yayları gərginləşdi...

Coğrafiya dərslərindən birində belə yaylardan biri tab gətirməyib açıldı. Gec-tez, bu və ya başqa şəkildə, qərəz ki, bir yerdə bu olmalıydı. Onunla da olmasa, onun vəziyyətində olan başqa birisinin başına gəlməliydi.

Abutalıb Kuttubayov səkkizinci sinif şagirdlərinə dünyanın Avropa hissəsindən dərs keçəndə onları konsentrasiya düşərgəsindən Cənubi Bavariyadakı Alp dağlarının daş karxanasına gətirərək gözətçiləri tərksilah eləyib qaçmalarından, yuqoslav partizanlarına qoşulmalarından danışdı, dedi ki, müharibə zamanı Avropanın yarıdan



çoxunu gəzib. Adriatik sahillərdən Aralıq dənizinə kimi... Bu yerlərin təbiəti, yerli camaatın məişəti ilə yaxşı tanışdır. Və bu dediklərini dərsliklərdə təsvir etmək mümkün deyil. Müəllim belə hesab eləyirdi ki, öz gözü ilə gördüyü əlavə məlumatla mövzunun əhatəsini genişləndirir.

Müəllimin çubuğu məktəb lövhəsindən asılmış Avropa xəritəsinin göy-yaşıl, qəhvəyi rənglərinin üzərində gəzir, hündürlükləri, düzləri, çayları göstərə-göstərə bəzən elə yerlərdə gəlib dayanırdı ki, həmin yerlər indinin özündə də gecələr yuxusuna girirdi, o yerlər ki, neçə il qış-yay, gecə-gündüz vuruşmalar getmişdi... Bəlkə də əlindəki çubuq xəritədə seçilməyən elə bir nöqtəyə toxunmuşdu ki, həmin yerdə böyürdən açılan düşmən avtomatlarından aldığı yaralardan yaşıl otları, daş-kəsəyi al-qanına boyayaraq eniş aşağı yuvarlanmışdı, hətta bir anlıq ona elə gəldi ki, doğrudan da onun al-qırmızı qanı xəritənin üzərinə yayılır, gözləri qaranlıq gətirir, başı hərlənir, dağlar oynayıb yerindən uçur, bu məqamda keçən yayı Bavariya daş karxanasında əsirlikdən birgə qaçdığı polyak dostunu köməyə çağırır: "Kazimir! Kazimir!". Amma dostu onu eşitmir, çünki ona elə gəlir ki, var gücü ilə bağırır, amma əslində heç cınqırı da çıxmamışdı, ancaq partizanların hospitalında qan köçürüləndən sonra ayılmışdı.

Şagirdlərə dünyanın Avropa hissəsi haqqında danışa-danışa, Abutalıb Kuttubayov bir qədər də öz-özünə təəccüb elədi ki, bütün bu ağrılı, əzablı xatirələrdən sonra, belə işgüzarlıq və soyuqqanlılıqla ancaq adicə məktəb coğrafiyasına aid olan şeylər haqqında danışa bilər.

Elə bu vaxt qabaq partadan sərt hərəkətlə qalxan bir əl onun sözünü kəsdi:

– Müəllim, deməli, siz əsgərlikdə olmusunuz?

Müəllimə bir cüt soyuq, qəddar göz zillənmişdi. Başını bir az da geri dartıb, ayaq üstə "farağat" vəziyyətində durmuşdu, nədənsə onun ağzını, dişlərinin qəribə düzülüşünü, – üst dişlərinin alt cərgənin içinə girməsini ömür-billah unuda bilmədi.

– Hə, olmuşam. Necə ki?

– Bəs niyə özünüzü vurmamısınız?

– Özümü niyə vurmalıydım ki? Mən onsuz da yaralanmışdım.

– Ona görə ki, əmr vardı, düşmənə əsir düşmək olmazdı!

– Kim vermişdi bu əmri?

– Yuxarının əmriydi.

– Bunu sən hardan bilirsən?

– Mən hər şeyi bilirəm. Bizim evdə Alma-Atadan, hətta Moskvanın özündən də gələn adamlar olur. Deməli, siz yuxarının əmrini yerinə yetirməmisiniz?

– Sənin atan cəbhədə olub?

– Yox, o səfərbərliklə məşğul idi.

– Onda çətin ki, biz bir-birimizi başa düşə bilək. Bircə onu deyə bilərəm ki, mənim başqa çıxış yolum yox idi.

– Dəxli yoxdur, gərək əmri yerinə yetirəydiniz.

– Nə qır-saqqız olub yapışmısan, – deyə başqa bir şagird yerindən durdu. – Bizim müəllim yuqoslav partizanlarıyla birgə vuruşub. Nə yapışmısan?

– Dəxli yoxdur, gərək yuxarının əmrini yerinə yetirəydi! – deyə o biri qətiyyətlə dediyinin üstündə durdu.

Bayaqdan araya çökmüş sakitlik birdən çatladı, sinif arı pətəyi kimi uğultu saldı: "Gərək vuraydı!", "Yox, heç qırıq da!", "Vuraydı!", "Niyə vursun!", "Düzdür!", "Yox!".

Müəllim yumruğunu stola çırpdı:

– Yığışdırın bu söhbəti! Coğrafiya dərsi gedir! Mən necə vuruşmuşam, başıma nə gəlib, bunu kimə lazımdır demişəm. İndi isə xəritəmizə nəzər salaq!

Yenə də sinifdən heç kim nə xəritədəki o zorla seçilən nöqtəni, nə də böyürdən açılan avtomat güllələrindən yaralanmış əli çubuqlu müəllimin Avropanın göy-yaşıl-qəhvəyi xəritəsini al-qanına boyayaraq eniş aşağı yuvalandığını gördü...

Bir neçə gündən sonra onu rayon xalq maarif şöbəsinə çağırdılar. Orda qısa şəkildə Kuttubayova dedilər ki, öz arzusu ilə işdən çıxmağı haqqında ərizə versin: keçmiş hərbi əsirin mənəvi haqqı çatmır ki, gənc nəslə dərs versin.

Abutalıbla Zərifə öz ilkinləri – Daulu da götürüb vilayət mərkəzindən uzaq, başqa bir rayona getməli oldular. Aul məktəbində işə düzəldilər. Mənzil məsələsini də birtəhər qaydaya sala bilmişdilər, bacarıqlı müəllimə olduğunu görüb Zərifəni dərs hissə müdiri qoydular. Elə bu vaxt qırx səkkizinci ilin Yuqoslaviya ilə bağlı əhvalatı pırtlayıb üzə çıxdı. İndi Abutalıb Kuttubayova təkcə keçmiş hərbi əsir kimi yox, həm də uzun müddət xaricdə olmuş şübhəli şəxsiyyət kimi baxırdılar. O dəridən-qabıqdan çıxıb sübut elədi ki, yuqoslav



yoldaşlarla ancaq partizanlıq eləyib, onun sözünə əhəmiyyət vermədilər... Hamı onun vəziyyətini başa düşürdü, lap yazığı gələnlər də vardı, amma bu işlə bağlı heç kim üstünə məsuliyyət götürmək istəmirdi. Onu təzədən rayon XMŞ-nə çağırdılar, öz xahişi ilə işdən azad olunmaq əhvalatı yenidən təkrar olundu...

Abutalıb Kuttubayovun ailəsi dəfələrlə yer dəyişəndən sonra əlli birinci ilin qışında Sarı-Özəyin Boranlı razyezdinə gəlib çıxdı.

Əlli ikinci ilin yayında günəş bu yerlərə od ələyirdi. Torpaq elə qızmışdı, çöl elə qurumuşdu ki, Sarı-Özək kərtənkələləri də baş soxmağa yer axtarırdılar, adamlardan ehtiyat eləmir, ləhləyə-ləhləyə evlərin kənarına gəlirdilər ki, özlərini kölgəyə versinlər. Çalağanlar isə sərinləmək üçün elə əlçatmaz, ünyetməz yüksəkliyə qalxırdılar ki, oralara göz də işləmirdi. Göyün hansı qatındansa hərdənbir onların qıyya səsi eşidilirdi.

Amma qulluq elə qulluluğunda qalırdı. Qatarlar elə yenə də şərqdən qərbə, qərbdən də şərqə gedirdi. Bir Allah bildi ki, Boranlıda nə qədər qatar görüşüb ayrılmışdı!.. Dövlətin bu böyük magistralında cəhənnəm istisi də nəqliyyatın qabağını kəsə bilməzdi.

Hər şey öz ahəngi ilə axıb gedirdi. Yolda əlcəklə işləmək lazım gəlirdi – nə daşa əl vurmalıydı, nə də ki, dəmirə toxunmalı... Günəş baş üstündə sac kimi yanırdı. Suyu yenə də həmişəki kimi sisternlərdə gətirirdilər, razyezdə gəlib çıxana kimi az qalırdı qaynasın. Pal-paltar ikicə günün içində adamın əynindəcə licimdən çıxırdı. Vallah qışın o oğlan çağlarında da Sarı-Özəkdə adamın halı bundan yaxşı olurdu.

O günlər Boranlı Yedigey Abutalıba ürək-dirək verməyə çalışırdı.

– Buralarda yay həmişə belə olmur. İndi il belə gətirib, – deyə bu yerləri təmizə çıxarmağa çalışırdı, elə bil istiyə bais özüymüş. – Uzağı on beş – iyirmi gündən sonra hava sınar. Lənətə gəlmiş hamını təntidib. Bizim bu Sarı-Özəkdə hava birdən sınır. Amma bu il payız gecikir. Payız ki, gecikdi, bil ki, lap qışacan havalar yaxşı keçəcək, mal-heyvan otlayıb ətə-qana dolacaq. Payızın gecikməsi, xeyrədi, hər şey yaxşı olacaq. İntəhası, gərək bir az dözəsiz, payız yaxşı gələcək.

Abutalıb da onu başa düşüb gülümsünür:

– Deməli, sözün qətidir də! – deyirdi.

– Deyə bilərəm ki, qətidir.

– Nə deyirəm, elə bununçün də çox sağ ol. Bax, indi elə bil ki, hamamdayam. Ancaq mən öz dərdimdə deyiləm. Zərifə də, mən də

dözərik. Bundan da ağır günlərimiz olub. Balacalara yazığım gəlir... Onların üzünə baxa bilmirəm...

Boranlı uşaqlarını da yayın istisi üzüb əldən salmışdı, sir-sifətdən çıxarmışdı. Onları istidən, boğanaqdan necə xilas eləyəsən? Bu yerin nə bir yaşıl ağacı vardı, nə bir sısqa bulağı, yazda Sarı-Özək çölləri əmələ gələndə dərələr, yamaclar göyərəndə uşaqların kefiydi... Top-top gizlənqaç oynayırdılar, *sünbülqıranı qabaqlarına qatıb qovurdular*. Onların uzaqdan gələn sevincək səslərini eşidəndə adama ləzzət verirdi.

Amma yay hər şeyi alt-üst eləyirdi. Bu dözülməz isti bir yerdə qərar tuta bilməyən uşaqları lap üzüb əldən salmışdı. Onlar özlərini evin kölgəsinə verib ancaq qatarlar keçəndən-keçənə boylanıb baxırdılar. Uşaqların yeganə məşğuliyyəti bu idi – sayırdılar hansı tərəfə neçə qatar keçdi, neçəsi yük qatarıydı, neçəsi sərnişin... Razyezddən keçən sərnişin qatarları sürətlərini azaldanda uşaqlara elə gəlirdi ki, bu qatar dayanacaq, onlar əlləriylə gözlərini gündən kölgələyib tövşüyə-tövşüyə qatarın dalınca götürülür, ola bilsin sadədil bir ümidlə düşünürdülər ki, bəlkə qatara minib bu cəhənnəm istisindən canlarını qurtara bilələr. Boranlı uşaqlarının o qatarların dalınca necə qibtə, necə dərin həsrətlə baxdıqlarını görəndə adamın ürəyi şan-şan olurdu. Qapı-pəncərələri taybatay açılmış vaqonlardakı sərnişinlər boğanaqdan, üfunətdən və milçək əlindən cana gəlsələr də, hər halda ümidliydilər ki, iki gündən sonra sərin sulu çaylara, yaşıl meşəli yerlərə çatacaqlar.

Bütün böyüklər, atalar, analar uşaqların dərdindəydilər, amma Abutalıbın nələr çəkdiyini Zərifədən başqa bircə Yedigey başa düşürdü. Elə Zərifəylə də bu barədə ilk söhbətləri o vaxt oldu. O söhbətdə bu iki nəfərin taleyilə əlaqədar bəzi başqa cəhətlər də aşkara çıxdı.

Həmin gün onlar xətdə işləyirdilər, yolun çınqılını təzələyirdilər. Çınqılı səpələyir, rels və şpalların altında boşalmış yerləri çınqılla doldurur, qatarların lərzəsindən süzülməyə başlayan köbəri bərkidirdilər. Gələn qatarları buraxmaq üçün, işi fasiləylə görməli olurdular. Belə istidə bu qurtarmaq bilməyən, üzüntülü bir iş idi. Günortaya yaxınlaşanda Abutalıb boşalmış bidonu götürüb, özü demişkən, sisterndən isti su gətirməyə getdi, dedi həm də bir görüm uşaqlar neyləyir.

O, günün istisinə fikir vermir, yeyin yeriyirdi. Öz halında deyildi, canı uşaqların yanındaydı. Günəşin təsirindən soluxub-saralmış



maykası sümükləri çıxmış arıq çiyinlərindən asılı qalmışdı, başında da eləcə soluxmuş həsir papaq vardı, şalvarı arıq belində amanata bənddi, ayaqqabıları da bağsız... O, heç nəyə fikir vermədən çəkmələrini şpallarda tappıldada-tappıldada gedirdi. Arxadan qatar yaxınlaşanda heç dönüb baxmadı.

– Ey, Abutalıb, yoldan çıx! Karsan, nədi? – Yedigey qışqırdı.

Amma o eşitmədi. Yalnız parovoz fit verəndən sonra, köbərlə aşağı endi, onda da heç ötüb keçən qatara baxmadı. Maşinistin onu yumruğu ilə hədələdiyini də görmədi.

Onun davada, əsirlikdə olanda saçı ağarmışdı, söz yox ki, onda cavandı, on doqquz yaşlı kiçik leytenant olanda cəbhəyə getmişdi. Amma o yay saçı ağarmağa başlamışdı. Saçlarına Sarı-Özək dəni düşürdü... Özü də sıx, uzun və cod saçları yaman tez ağarırdı – gah orda, gah da burda ağ tüklər görmür, illahım ki, gicgahlarında. Yaxşı zəmanə olsaydı, yaman gözəl və görkəmli kişi olardı. Geniş alınlı, qartalburun, xirtdəkli, möhkəm dodaqlı, badamı gözlü bir kişiydi, elə boybuxunu da özünə yaraşırdı. Hərdən Zərifə acı-acı zarafatla deyərdi: "Bəxtin gətirməyib, Abu, sən gərək səhnədə Otello rolunu oynayaydın". Abutalıb da gülümsünüb deyərdi: "Onda gərək axmaqlıq eləyib səni boğaydım, onu istəyirsən?".

Abutalıbın arxadan gələn qatara elə ləng reaksiya verməsi Yedigeyi yaman narahat etmişdi. O bir növ tənə-danlaqla Zərifəyə dedi:

– Sən onu başa sal, elə niyə eləyir? Maşinist cavabdeh deyil buna, yolla getmək qadağandır. İş bunda deyil, axı niyə gərək özünü xataya salsın?

Zərifə köksünü ötürüb, gündən yanıb qaralmış, pörtmüş sifətinin tərini sildi.

– Ondan çox nigaranam.

– Necə ki?

– Qorxuram, Yedigey. Səndən nə gizlədim. Uşaqlar üçün, elə mənim üçün də yaman fikir çəkir. Axı, ora gedəndə qohumlarımın üzünə ağ oldum. Böyük qardaşım özündən çıxıb qışqırırdı ki: "Ömrün boyu peşmançılıq çəkəcəksən, ağılsız! Sən ərə getmirsən, bədbəxtliyinin dalınca gedirsən, uşaqların da bədbəxt olacaq, uşaqlarının uşaqları da hələ doğulmamışdan bədbəxtliyə məhkumdurlar. Sənin o sevgilinin başı üstündədirsə, evlənmək yox, gedib özünü asmalıdır. Bu onuncun ən yaxşı çıxış yoludur!". Amma biz öz bildiyimiz kimi elədik.

Ümidliydik ki, müharibə qurtarıb, daha bundan sonra nə ölü-diri haqq-hesabı? Hamıdan kənar gəzirdik – onunkulardan da, mənimkilərdən də. Axırda, inanırsanmı, qardaşım özü götürüb yazıb ki, vaxtında mənə xəbərdarlıq eləyib, deyib ki, evlənməyimizin əleyhinədir. Yazıb ki, mənimlə heç bir əlaqəsi-filanı yoxdur, onda qalmışdı, uzun müddət xaricdə olmuş Abutalıb Kuttubayov kimi adam olsun. Bundan sonra hər şey təzədən başlandı. Hara getdisə ağzımızdan vurub qaytardılar, axırı gəlib çıxdıq bura, daha burdan oyanası yoxdur.

O susub xırdalanmış çınqılı gücü gəldikcə şpalların altına doldurmağa başladı. İrəlidə yenə yaxınlaşan qatar göründü. Onlar xərəyi, kürəyi də özləriylə götürüb yoldan çıxdılar. Yedigey hiss edirdi ki, belə vəziyyətdə olan adamlara kömək əli uzatmalıdır. Ancaq onun əlindən nə gələrdi, məsələnin kökü Sarı-Özəkdən çox uzaqdaydı.

– Biz neçə vaxtdır burda oluruq. Siz də alışarsız, öyrəşərsiz. Çarə nədir, yaşamaq lazımdır, – deyə onun üzünə baxıb fikirləşdi: "Hə-ə-ə, Sarı-Özəyin çörəyi acıdır. Qış da gələndə sifətin ağappaqdır, indi gör nə rəngə düşüb, torpaq kimidir, – deyə o, Zərifənin gözgörəti solan gözəlliyini görüb təəssüfləndi. – Hanı o saçlar, solub yandı, kirpiklərini də gün yandırıb. Dodaqlar partlaq-partlaq. Lap əldən gedib. Belə şeyi harda görüb! Amma heç özünü sındırmır. Neyləsin, hara getsin – iki balası var. Hər halda, afərin sənə arvad..."

Yedigey belə fikirləşən vaxt növbəti qatar odlu avtomat atəşi kimi havanın qızmar hənirini təlatümə gətirib taqqıltı ilə ötüb keçdi. Onlar işi davam elətdirmək üçün yenidən iş alətlərini darta-darta yola qayıtdılar.

– Bura bax, Zərifə, – deyə Yedigey onu real vəziyyətlə barışdırmaq üçün, ona ürək-dirək verməyə başladı. Sözüm yox, bura uşaqlar üçün ağır yerdir. Elə öz uşaqlarıma baxanda da ürəyimdən qara qanlar axıb gedir. Axı, həmişə belə isti olmayacaq ki! Çəkiləcək. Bir də yaxşı fikirləşsən, siz Sarı-Özəkdə tək deyilsiniz ki, yanınızda adamlar var, bəd ayaqda biz varıq. İndi çarə nədir, işdir gəlib başınıza.

– Elə mən də bunu deyirəm ona, Yedige. Çalışıram ki, ağzımdan artıq bir söz çıxmasın. Məgər bilmirəm o nə çəkir?

– Lap yaxşı da eləyirsən. Mən sənə elə bunu demək istəyirdim, Zərifə. Fürsət gözləyirdim. Özün hər şeyi məndən yaxşı bilirsən. Sözdür ağzımdan çıxdı. Bağışla.

– Elə olur ki, adam lap cana gəlir. Adamın lap özünə yazığı gəlir, ona da, uşaqlara ondan da çox... Onun nə təqsiri var, di gəl, bura gəlməyimizdə özünü təqsirkar bilir. Əlindən də heç nə gəlmir. Əlbəttə, bizim yerlərin, Ala-Tau dağlarının havası tamam başqadır, elə həyat da həmçinin. Heç olmasa, yaydasa da uşaqları ora göndərə bilərdik. Ancaq kimin yanın göndərək? Qocalar yox, dünyadan tez köçüblər. Qardaşlarım, bacılarım, qohumlarım... Adam onları da təqsirləndirə bilmir, axı nəylərinə gərək! Əvvəllər də yaxın durmurdular, indi daha betər. Nələrinə gərək bizim uşaqlar? Üzə vurmasaq da qorxuruq, qorxuruq ömrümüzün axırınacan ilişib qalaq burda. Görürəm, onun nələr çəkdiyini görürəm... Qabaqda bizi nələr gözlədiyini bir Allah bilir...

Onlar ağır fikir içində susdular. Daha bir də bu söhbətə qayıtmadılar. İşləyirdilər, lazım olanda çəkilib qatarları buraxır, yenə işlərini davam etdirirdilər. Çarələri nə idi? Onların bu ağır vəziyyətində bu adamları necə ovundurmaq olardı? "Əl açıb dilənməyəcəklər ki, – deyə Yedigey fikirləşirdi, ikisi də işləyib birtəhər dolanarlar. Belə baxanda guya heç kəs onları burda dustaq eləməyib, di gəl ki, çıxış yolları yoxdur. Nə sabah, nə də o biri gün...".

Yedigey bir tərəfdən də özünə təəccüb eləyirdi, elə ağrıyıb-acıyırdı ki, elə bil onların başına gələn işlərin onun özünə dəxli vardı. Axı bu adamlar onun nəyi idi? Axı o özünə deyə bilərdi ki, bu sənin ağlın kəsən şey deyil, sənə nə qalıb? Bir də son kimsən ki, haqqın olmayan işlərə baş qoşursan, haqq-hesab aparırsan? Zəhmətkeşin, çöllünün birisən, dünyada sənin kimilərin sayı-hesabı yox, sənmi qəzəblənməlisən, sənmi hirslənməlisən, həyatda nəyin ədalətli, nəyin ədalətsiz olduğu barədə sənmi öz vicdanını narahat eləməlisən? Axı bu işlərin başında duranlar yəqin ki, sən Boranlı Yedigeydən çox bilirlər. Sənin bu Sarı-Özəkdə bildiklərin hara, onların orda bildikləri hara!.. Axı sənin nə dərdinə qalıb? Di gəl ki, nə qədər eləyirdi sakit ola bilmirdi ki, bilmirdi. Özü də nədənsə hamıdan çox Zərifəyə ürəyi yanırdı. Onun sədaqəti, dözümü, çətinliklərə sinə gərməyi onu həm təəccübləndirir, həm də valeh edirdi. O, tufan vaxtı qanadlarını gərib yuvasını qoruyub saxlamağa can atan quşu xatırladırdı. Bir başqası onun yerində olsaydı, ağlayıb-ağlayıb soyuyar, gedib qohumlarına baş əyərdi. Amma o, müharibədə olub-keçənlər üçün əriylə bərabər cavabdehlik eləyirdi. Hər şeyin ziddinə, Yedigeyi də hər şeydən çox narahat edən bax, bu vəziyyət idi, axı əslinə qalsa, nə onun ərinə, nə də uşaqlarına köməyi dəyə bilərdi...

Sonralar elə vaxtlar olurdu ki, bu ailənin Boranlıya gəlməsinə təsadüf eləyirdi. Axı bu dərd-azar onun nəyinə lazımdı? Bilməsəydi, görməsəydi, əvvəllərdə olduğu kimi səlim-salamat dolanardı...

## VI

Günün ikinci yarısında Sakit okeanda, Aleut adalarının cənubunda dalğalar hərəkətə gəlməyə başladı. Amerikanın düzənliklərindən başlayan cənub-şərq küləyi yavaş-yavaş güclənirdi. Göz işlədikcə uzanan ənginlikdə su qəlyana gələrək ağır-ağır çalxalanır, dağ kimi dalğaları silsilə ilə yan-yana düzürdü. Bu göstərirdi ki, fırtına başlamasa da, hər halda dəniz hələ çox dalğalanacaq.

Açıq okeandakı belə dalğaların "Konvensiya" təyyarədaşıyan gəmisi üçün qorxusu yox idi. Başqa bir vaxt olsaydı heç vəziyyətini dəyişmək cəhdində də olmazdı. Lakin yuxarı dairələrlə məsləhətləşəndən sonra təcili surətdə geri qayıdan xüsusi səlahiyyətli komissiyaların mindiyi təyyarələr gəmiyə enməli olduğu üçün, təyyarədaşıyan gəmi yan çalxamanı azaltmaq məqsədilə üzü küləyə durmaq qərarına gəldi. Hər şey normal qurtardı. Əvvəlcə San-Fransiskodan gələn, onun dalınca da Vladivostokdan qayıdan təyyarə gəmiyə endi.

Komissiyalar tam heyətdə qayıtmışdılar, hər iki heyət susur, əvvəlki kimi qayğılı görünürdü. On beş dəqiqədən sonra onlar stol başına toplaşıb qapalı müşavirəyə başladılar. Komissiyalar işə başlayandan beş dəqiqə sonra Cazib Qalaktikasında olan 1-2 və 2-1 paritet-kosmonavtlara göndərilmək üçün "Paritet" stansiyasına şifrlənmiş təcili teleqram verildi: "Paritet" orbital stansiyasındakı 1-2 və 2-1 nəzarətçi-kosmonavtlara. Günəş sistemindən kənarda olan 1-2 və 2-1 paritet-kosmonavtlar xəbərdar edilsinlər ki, heç bir hərəkət təşəbbüsündə olmasınlar. Ümidamərkdən xüsusi göstəriş olanadək öz yerlərində qalsınlar".

Bundan sonra xüsusi səlahiyyətli komissiyalar, bir dəqiqə də itirmədən, baş vermiş bu kosmik böhranın həlli üçün tərəflərin mövqe və təkliflərini bildirməyə başladılar...

Təyyarədaşıyan "Konvensiya" gəmisi Sakit okeanın sonsuz dalğaları arasında dayanmışdı. Heç kəsin xəbəri yoxdu ki, bu vaxt gəminin bortunda planetin qlobal taleyi həll olunurdu...

*Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*

*Bu yerlərdə dəmiryolunun hər iki tərəfilə intəhasız sarı torpaq çöllərinin göbəyi hesab olunan Sarı-Özək düzləri uzanıb gedir...*



*Coğrafiyada hər şey Qrinviç meridianından ölçüldüyü kimi, bu yerlərdə də bütün məsafələr dəmiryolu ilə müəyyən edilirdi.*

*Qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedirdilər...*

Ana-Beyit qəbiristanlığına hələ iki saatlıq yol vardı. Dəfn qafiləsi çöldə eyni qaydayla hərəkətdəydi. Boranlı Yedigey Qaranərin üstündə qabaqda yol göstərirdi. Onun Qaranəri yenə də yorulmaq bilmədən dəstənin başında löhrəm yerişindən qalmırdı, dəvənin dalınca yedəkli traktor gəlirdi, mərhum Qazanqapın qızı Ayzadənin əri yenə qayınatasının cənazəsi yanında, tək-tənha oturmuşdu, lap daldan da "Belarus" ekskavatoru gəlirdi. Döşlü-boğazlı Culbarsa böyürdən qaçırdı – o gah irəli keçir, gah geri qalır, gah da mühüm bir işi varmış kimi ayaq saxlayırdı.

Günəş dikəldikcə yanğınını artırırdı. Daha yolun azı qalmışdı., amma qurtarmaq bilməyən Sarı-Özək bir dikdiri aşıb o biri dikdirə çatınca onların qarşısında üfüqlərə qədər uzanan təzə düzənlər açırdı. Çölün-düzənin ucu-bucağı görünmürdü. Bir vaxtlar bu yerlərdə, demək olar ki, Sarı-Özəyi başdan-başa tutub zəbt eləmiş bədnam yadellilər – juanjuanlar yaşayırmış. Buralarda başqa köçəri xalqlar olduğu üçün onlarla juanjuanlar arasında həmişə otlaq və quyular üstündə dava düşərmiş. Gah bir tərəf üstələyərmiş, gah da o biri tərəf. Ancaq məğlublar da, qaliblər də elə bu yerlərdə qalarmışlar, intəhası, biri bir az sıxılıb çəkilər, o birisi isə ərazisini genişləndirərmiş. Yelizarov deyirdi ki, Sarı-Özək bir yaşayış ərazisi kimi bu mübarizəyə dəyərmiş. O vaxtlar yaz-payız bu yerlərdə yağış çox olarmış. Mal-davar üçün kefin istəyən qədər ot varmış. Onda tacirlər – sövdəgərlər buralara toplaşıb hərrac bazarı düzəldərmişlər. Amma sonralar guya iqlim kəskin surətdə dəyişib – quraqlıq düşüb, quyuların suyu kəsilib. Bu səbəbdən də Sarı-Özəyə yığışan xalqlar – qəbilələr pərən-pərən düşüb hərəsi bir tərəfə köçüb gedib, juanjuanlarsa yer üzündən tamam silinib-süpürülüb yox olub gediblər. Deyilənlərə görə, üz tutublar Edil tərəfə – onda Volqa belə adlanırmış, elə Edilin sahillərində də məhv olub itib-batıblar. Nə hardan gəldiklərini bilən olub, nə harda itdiklərini. Deyilənə görə onlar lənətə gəliblər, – qışda köçlə-köməclə Edili keçəndə buz yarılıb, hamısı oğullu-uşaqlı, mallı-davarlı gediblər buzun altına...

Sarı-Özəyin köklü sakinləri olan qazaxlar o vəziyyətdə doğma yerlərini tərk etməyib təzə quyulardan su çıxara bildikləri yerlərdə məskən salıblar... Amma onu da demək lazımdır ki, Sarı-Özəkdə ən gur dirçəliş günləri müharibəndən sonrakı illərdə başlandı. Xüsusi su daşıyan avtomobillər gətirildi. Sürücü bu yerlərə bələd olanda bircə maşın bəs eləyirdi ki, bir gün ərzində bir neçə qoyun, mal yatağına su çatdıra bilsin. Sarı-Özək otlaqlarını icarəyə götürən qonşu vilayətlərin kolxoz və sovxozları artıq bu yerlərdə otlaqlarda bəslənən sürülər üçün daimi yataq bazaları düzəltmək fikirindəydilər. Haqq-hesaba vurub, ölçüb-biçirdilər ki, görsünlər bu yataqlar onlara neçəyə başa gələcək. Elə bir tərəfdən yaxşı olub ki, tələsməyiblər. Ana-Beyitin yaxınlığında yavaş-yavaş, altdan-altdan adsiz bır şəhər əmələ gəlmişdi – Poçt qutusu... Elə belə də deyirdilər – Poçt qutusundan almışıq, Poçt qutusunda gördük. Poçt qutusu böyüyüb genişlənirdi. Təzə asfalt yol onu bir tərəfdən kosmodromla, bir tərəfdən də dəmiryolu ilə birləşdirirdi. Sarı-Özək çöllərinin sənayeləşdirilməsi məsələsi də elə bundan başlanmışdı. Keçmişdən burda əsər-əlamət kimi Ekiz-Təpə adlanan bir cüt dəvə donqarı kimi ucalan qoşa təpələrin yamacındakı Ana-Beyit qəbiristanlığı idi. Bu qəbiristanlıq bütün Sarı-Özəkdə ən müqəddəs yer sayılırdı. Keçmişlərdə adamlar bəzən ölülərini burda dəfn etmək üçün elə uzaq yerlərdən gəlirmişlər ki, çöldə gecələməli olurmuşlar. Əvəzində Ana-Beyitdə dəfn edilənlərin xələfləri nəsilbənəsil fəxr eləyirdilər ki, əcdadlarına belə hörmət göstəriblər. Burda çox ömür sürmüş, gün görmüş, ağıl-mərifət sahibi olanları, diliylə, əməliylə gözəl bir insan kimi ad qazanmış olanları xalq arasında anılıb-sanılan hörmətli adamları basdırırdılar. Yelizarovun bilmədiyi şey yox idi, o deyirdi ki, Ana-Beyit Sarı-Özək panteonudur.

Həmin gün köpəyin müşayiət elədiyi bu qəribə dəvəli-traktorlu dəfn qafiləsi Boranlı dəmiryol razyezdindən bura yaxınlaşırdı...

Ana-Beyit qəbiristanlığının öz tarixi vardı. Əvvəl-başdan rəvayət onunla başlanırdı ki, bu yerləri zəbt eləyən juanjunlar əsir tutduqları düşmən döyüşçüləriylə çox amansız rəftar eləyirmişlər. İmkanları olanda əsiri qonşu ölkələrə qul satarmışlar, bu əsir üçün xoşbəxtlik hesab olunurmuş, çünki ümid yeri qalırdı, kim bilir, bəlkə elə bir imkanı oldu ki, qaçıb vətənə qayıtdı... Juanjuanların özləri üçün qul saxladıqları əsirləri isə dəhşətli tale gözləyirdi. Onlar öz qurbanlarının



başına zif keçirib dözülməz işgəncə verərək onun yaddaşını tamam yox eləyirmişlər. Bu işi adətən, davada əsir alınmış cavan döyüşçülərin başına gətirirmişlər. Əvvəlcə onların başını qırxırmışlar, tükləri bir-bir dibinəcən təmizləyirmişlər. Başı qırxıb qurtaranacan juanjuanların təcrübəli sallaqları lap yaxınlıqda qart bir dəvə kəsərmiş. Dəvənin dərisini soyanda, əvvəlcə onun ən ağır və möhkəm olan boyun dərisindən başlayarmışlar. O dəqiqə də hissələrə bölüb, buğlana-buğlana başı qırxılmış əsirlərin başına keçirirmişlər, dərinin çəkilməyilə saqqız kimi yapışmağı bir olurmuş – bir növ indiki üzgüçülük papaqları kimi. Başa zifi belə keçirirmişlər. Başına belə iş gətirilən adam ya işgəncələrə dözməyib ölür, ya da ömür-billah yaddaşını itirib manqurt olurmuş – yəni keçmişini xatırlaya bilməyən qula çevrilirmiş. Bir dəvənin boyun dərisi beş-altı zifə bəs eləyirmiş. Zif salınandan sonra məhkumun boynuna taxta kündə keçirirmişlər ki, başını yerə çatdıra bilməsin. Onların tükürpərdici nalələri boş yerə narahatlıq verməsin deyə yazıqları bu vəziyyətdə uzaq yerlərə aparıb əl-ayaqları bağlı, ac-susuz atarmışlar qızmar günün altına. İşgəncə bir neçə gün sürürmüş. Müəyyən yerlərdə də güclü gözətçi dəstələri qoyarmışlar ki, hələ sağkən qohumlarından, əqrəbalarından gəlib onları xilas eləmək fikrinə düşsələr qoymasınlar. Ancaq belə hallar çox nadir olurmuş, çünki açıq düzənlikdə hər cür hərəkət uzaqdan görünür. Sonralar bir nəfərin manqurt olması xəbəri gəlib qəbiləyə çatanda, onun ən yaxın qohumları belə onu xilas eləmək, ya satın alıb qurtarmaq istəmirmişlər, çünki bu, adamın özünü yox, müqəvvasını qaytarmaq idi. Rəvayətdə Nayman-Ana kimi tanınan bircə nayman qadını öz oğlunun bu bədbəxtliyi ilə barışa bilməyib. Sarı-Özək əfsanəsində də elə bu barədə danışılır. Qəbiristanlığın adı da bununla əlaqədardır – Ana-Beyit, yəni Ana məskəni.

Sarı-Özəyin qızmar günəşinin döydüyü çöldə ağır işgəncə çəkənlərin çoxu dözməyib ölürmüş. Beş-altı manqurtdan biri, ya ikisi sağ qalırmış. Onların ölümünə bais aclıq, ya susuzluq olurmuş, onların axırına çıxan gün altında quruyub manqurtun başında get-gedə amansızcasına sıxılan xam dəvə dərisinin verdiyi dözülməz ozablardı. Qızmar gınəşin şüaları altında durmadan sıxılan zəif qulun qırxıq başını dəmir məngənə kimi sıxırdı. Əzaba məruz qalan bu yazıqların tükləri ikinci gün uzanmağa başlayırdı. Asiyalıların düz və cod tükü bəzən dəvənin xam dərisinə bitir, çox vaxtsa yol tapa bilmir, qayıdıb

təzədən manqurtun dərisinə girərək onun əzabını daha da artırırdı. Bu sonuncu işgəncə vaxtı məzlumların şüuru lap pozularmış. Juanjuanlar yalnız beşinci gün gəlib onları yoxlayarmışlar ki, görsünlər kim ölüb, kim qalıb. Əsirlərdən birini salamat tapanda belə hesab eləyirmişlər ki, məqsədlərinə çatıblar. Ona su verir, qandal-kündəsini açır, bir az sonra qulluq eləyib gücə gətirir, ayağa qaldırırdılar. O, yaddaşını itirib dönüb olurdu qul manqurt, buna görə də adi sağlam qullara nisbətən birə-on artıq qiymətləndirilirdi. Hətta belə bir qayda varmış – öz aralarında vuruşma-zad düşəndə manqurt öldürülərsə, öz həmqəbilələrinə nisbətən üç dəfə artıq ödəniş aerilməliymiş.

Manqurt kim olduğunu, hansı nəsildən-qəbilədən olduğunu, adını, uşaqlığını, atasını, anasını xatırlayıb yadına sala bilmirmiş – qərəz ki, manqurt özünü insan kimi dərk edə bilmirmiş. Öz mənliyindən məhrum edilmiş manqurtun təsərrüfatçılıq cəhətdən bir çox üstünlükləri varmış. O, dilsiz, ağızsız heyvan kimi bir şey olduğu üçün tamamilə müti və təhlükəsiz idi. Manqurt heç vaxt qaçmaq fikrinə düşməzmiş. Hər bir quldar üçün ən qorxulu şey qulların üsyanıdır. Bu barədə manqurt yeganə istisna idi ki, üsyan və ya itaətsizlik xəyalından da keçmirdi. Onda belə həvəs, ehtiras yox idi. Buna görə də onu güdmək, keşikçi saxlamaq, gizli niyyətlərindən şübhələnmək lazım gəlmirdi. Manqurt sadiq it kimi bircə öz sahibini tanıyırdı, başqa adamlara baş qatıb qarışmazdı. Bircə fikri-qayğısı vardısa o da qarnını doydurmaqdı. Başqa dərdi-çoru yoxdu. Əvəzində tapşırılan işi kor-koruna, can-dildən, inadla yerinə yetirərdi. Manqurtlara, adətən, ən çirkin və ağır işləri gördürərdilər, ya da ki, küt dözüm tələb eləyən cansıxıcı işlər buyurardılar. Uzaqlarda otlayan dəvələrə pasibanlıq eləyən manqurt neçə-neçə xidmətçini əvəz eləyirdi. Yeməyini vaxtlı-vaxtında ver, yay-qış qalıb işini görsün, özü də nə təklikdən, nə də tənhalıqdan şikayət eləsin. Sahibinin əmri manqurtçun hər şeydən artıqdır. Yeməkdən, bir də çöldə soyuqdan donmamaq üçün kör-köhnə nimdaş pal-paltardan başqa heç nə istəmirdi... Əsirin boynunu vurmaq, ya da onu qorxutmaq üçün hər cür başqa xəsarət yetirmək, onun yaddaşını almaqdan, ağlını pozmaqdan, yəni son nəfəsinədək birgə olduğu, başqalarının vara bilmədiyi, özüylə qəbrə apardığı yeganə qazancının köklərini qoparmaqdan qat-qat asandır. Lakin öz mənhus tarixlərindən ən qəddar vəhşilik gətirib çıxarmış köçəri juanjuanlar insanın bu dərunı məğz-mənasına də qəsd eləmişdilər. Onlar qulların canlı yaddaşını



almaq üçün yol taparaq, insan təbiətinə elə bir zərbə vurmuşdular ki, bu ağlagələn və gəlməyən cinayətlərdən ən ağırı idi. Təsadüfi deyil ki, manqurt olmuş oğlunu oxşayıb ağı deyəndə dərd və ümidsizlikdən ağlını itirmək dərəcəsinə çatan Nayman-Ana belə deyirdi:

"Yaddaşını qoparanda, başın qoztək kəlbətinə salınanda, balam ey, o dəvənin dərisinə gün dəydikcə bucurqadək sıxılanda, balam ey, o görünməz çənbər sənin gözlərini qanlı yaşla dolduranda, balam ey, gözlərinin kökü qopub çanağından pırtlayanda, balam ey, Sarı-Özək istisinin tüstüverməz ocağında sən yananda, balam ey, bir damcı da düşmədi ki, dodağının közün basa, can bala, Yer üzünə həyat verən günəşə sən küfr etdinmi, can bala, onda günə işıqların ən qarası söylədinmi, can bala?

Ağrıların acısından haray salıb səhralara, balam ey, gecə-gündüz Allah deyib ah-fəğan eləyəndə, balam ey, boş göylərə üz tutuban imdad – deyib çağıranda, balam ey, cəsədinin ağrısından qursağında boğulanda, balam ey, qıc olub çapalayan nəcəstə bulananda, balam ey, üfunətə həşəratlar dolaşıban ağlın başdan aparanda, can bala, son gücünü toplayıban Allahına ağ oldunmu, can bala?

Əzabların əzabından şikəst beyni toran salan, balam ey, keçənlərin xatirəsi yaddaşında solan zaman, balam ey, çapalaya-çapalaya öz ananı unudanda, balam ey, yay günləri dağ döşündə oynadığın çayın səsi qulağında yoxa çıxıb batıranda, balam ey, öz adını, atan adın bərbad olmuş yaddaşından salanda, balam ey, baxıb sənə həya ilə gülümsünən o üzün, balam ey, qohum-qardaş, dost-yoldaşın pozulanda surəti, qarğıdınmı bu gün üçün səni doğan anaya, can bala?".

Bu əhvalat o dövrlərə aiddir ki, nə vaxt juanjuanlar köçəri Asiyanın cənub zivarlarından sıxışdırılıb çıxarıldıqları üçün şimala yeriş eləməmiş, uzun müddət Sarı-Özək çöllərini zəbt eləyib, ərazilərini genişləndirmək, qul ələ keçirmək məqsədilə qovğalar aparırdılar. İlk vaxtlarda basqınları gözlənilməz olduğundan çoxlu əsir tutmuşdular. O cümlədən də, xeyli arvad-uşaq da ələ keçirə bilmişdilər. Hamısını qova-qova aparıb qul eləmişdilər. Ancaq yadellilərin bu basqınına müqavimət get-gedə artırdı. Ölüm-dirim toqquşmaları başlanmışdı. Juanjuanların Sarı-Özəkdən getmək fikirləri yoxdu, əksinə onlar çalışırdılar ki, heyvandarlıq üçün çox əlverişli olan bu geniş ərazidə kök salsınlar. Yerli qəbilələr də bu itkiyə qatlaşmayıb özlərinə borc bildilər ki, gec-tez qəsbkarları bu yerlərdən qovub çıxarsınlar. Hər nə

isə, qazan qaynayır, toqquşmalar davam eləyirdi. İntəhası, bu üzücü qovğaların ara verdiyi vaxtlar da olurdu, araya sakitlik çökürdü.

Belə sakit günlərin birində Nayman torpaqlarına karvanlarla mal gətirən sövdəgərlər çay məclisində söhbət vaxtı danışırlar ki, Sarı-Özək düzənlərindən keçəndə quyuların başında juanjuanlar tərəfindən sən deyən elə ciddi müqavimətə rast gəlməyiblər, bir də ötəri bir şey danışıblar ki, guya çöllükdə böyük bir dəvə sürüsünü güdən cavan bir pasiban görüblər. Sövdəgərlər onunla danışmaq istəyəndə görüblər ki, oğlan manqurtdur. Baxan deyər ki, sağlam adamdır, heç kəsin ağlına gəlməz ki, onun başına belə bir iş gətirilib. Yəqin o da vaxtında söz deyib, söz anlayan bir oğlanmış, özü də lap cavan-cahıl, bığ yeri təzə tərləyib, sir-sifəti, görkəmi də pis deyil, di gəl ki, danışdıranda elə bil dünyaya təzə gəlib, yazıq uşaq nə atasının adını bilir, nə anasının, juanjuanların onun başına gətirdikləri müsibəti də xatırlaya bilmir, hardandır, kimlərdəndir, bilmir. Nə soruşursan dinmir, bircə "hə" bilir, bir də "yox", bir də ki, qulaqlarınacan keçirdiyi papağından bərk-bərk tutub dayanır. Günah da olsa, adamlar şikəstliyə gülürlər. Bu söhbəti eləyəndə onlar gülə-gülə deyiblər ki, heç demə dəvənin dərisi bəzən ömür-billah bitişib qalır manqurtun başında. Belə manqurt üçün ondan böyük cəza yoxdur ki, deyəsən, gəl başını buğa verib dərini qopardaq. Dəli ayğır kimi şıllaqlayıb-çırpınacaq, bir adamı da başına yaxın buraxmayacaq. Belə manqurt heç vaxt papağını çıxartmır, elə papaqda da yatır... Sonra qonaqlar söhbətə yenə giriz qoyub deyiblər ki, manqurt sarsaq olsa da işini yaxşı bilir – dəvələrinin otladığı yerdən karvan uzaqlaşmayınca onları gözdən yayınmağa qoymurdu. Gethagetdə sarbanlardan biri ona sataşmaq məqsədilə soruşub:

– Qabaqda yolumuz uzundur. Səndən kimə salam yetirək, hansı gözələ, hansı elə? De utanma. Eşidirsən? Bəlkə yaylıqdan-zaddan çatdıraq?

Manqurt sarvana xeyli baxandan sonra deyib:

– Hər gün mən Aya baxıram, o da mənə, amma bir-birimizi eşitmirik... Orda adam oturub...

Bu söhbət gedən vaxt bir arvad sövdəgərlərə çay süzürmüş. Demə, o arvad Nayman-Ana imiş... Sarı-Özək əfsanəsində o arvad bu adla tanınıb.

Gəlmə qonaqların yanında Nayman-Ana heç nəyi üzə vurmur, məsələni açıb-ağartmır. Fikir verən olmur ki, arvad bu xəbərdən necə



halbahal oldu, sifəti necə ayazıdı. Əslində ürəyindən keçirdi ki, sövdəgərlərdən o cavan manqurt haqqında təzə şeylər öyrənsin, di gəl ki, arvadın bu eşitdiyindən daha çox bilməyə ürəyi gəlmirmiş. Buna görə də yaralı quş kimi hıçqırtısını içində boğub, ürəyini parçalayan şübhələri içində basdırıb... Söhbət də səmtini dəyişib yavaş-yavaş ayrı məsələlərə keçir, bədbəxt manqurtun halına yanmaq kimin dərdinə idi, həyatda o qədər belə-belə işlər olur ki... Nayman-Ana ürəyindəki qorxunu, əlindəki əsməni üstələməyə çalışır, elə bil içində çığıran o quşu boğub səsini kəsmək istəyir, bircə neçə vaxtlardan bəri ağarmış başının yeganə örtüyü olan qara yas yaylığını bir az da yendirib alnına çəkir.

Bir azdan sövdəgərlər karvanını çəkib gedirlər. O gecə Nayman-Ana səhərəcən çimir vurmur, başa düşür ki, o manqurt – pasibanı Sarı-Özək çöllərində axtarıb tapmayınca, onun öz oğlu olmadığını bilməyincə rahatlıq tapmayacaq. Çoxdan bəri ürəyində gizləyib saxladığı üzücü, qorxulu bir şübhə ana qəlbində yenidən baş qaldırmışdı – oğlu döyüş meydanında həlak olub, ya yox?.. Ana əziyyətə, bu aramsız qorxuya, bu dözülməz ağrıya, şübhələrə dözməkdənsə, razı olardı ki, oğlunu bir yox, lap iki dəfə basdırsın...

Onun oğlu Sarı-Özək torpaqlarında juanjuanlarla döyüşdə həlak olmuşdu. Əri də bir il əvvəl öldürülmüşdü. Naymanlar arasında ad çıxarmış, sayılan kişilərdən biriymiş. Oğlu döyüşə getmişdi ki, atasının qisasını alsın. Şəhidləri döyüş meydanında buraxmaq adətə xilaf olan şeydi. Qohum-qəbiləsinin adamları onun meyitini mütləq gətirməliydilər. Amma bunu eləyə bilməmişdilər. O böyük döyüşdə düşmənlə üz-üzə gəlib sinələşəndə çoxları görüblər ki, onun oğlu yıxılıb atın boynuna, döyüşün hay-həşirindən hürkən qızğın at götürüb onu aradan, oğlan duruş gətirə bilməyib yıxılıb, bir ayağı ilişib üzəngiyə atın böyründə asılı qalıb, at bundan daha da hürküb götürülüb, oğlanın cansız cəsədini sürüyə-sürüyə üz tutub çölə... Tərslikdən at düşmən tərəfə qaçıb. Hamının qatıldığı qızğın, qanlı döyüşə baxmayaraq həmqəbilələrindən ikisi çapır atın dalınca ki, tutub oğlanın ölüsünü götürsünlər. Amma dərədə pusquya durmuş hörüklü juanjuanlardan iki atlı bağıra-bağıra çapıb onların yolunu kəsirlər. Naymanlardan biri elə o dəqiqə oxlanıb öldürülür, o biri də ağır yaralı halda atını döndərib birtəhər yetirir özünkülərə, orda da atdan dəyir yerə. Bu hadisə naymanları juanjuanların pusquya durmuş dəstəsindən xəbərdar elədi, düşmənin bu dəstəsi həlledici məqamda cinahdan zərbə endirməliydi.

Naymanlar yenidən hücuma keçmək üçün səflərini düzəltmək məqsədilə geri çəkilməli olurlar. Şübhəsiz, bu ayaqda Nayman-Ananın cavan oğlunun başına nələr gəldiyi heç kəsin yadına düşməmişdi... Özünü öz adamlarının yanına çatdıra bilən o yaralı döyüşçü sonralar danışdı ki, onlar oğlanın dalınca çapanda at onu sürüyə-sürüyə qaçıb gözdən itdi...

Naymanlar bir neçə gün dalbadal çölü gəzib axtardılar ki, oğlanın ölüsünü tapsınlar, bir şey çıxmadı. Nə meyitini tapdılar, nə atını, nə də silahını-yarğanını, nə iz vardı, nə əlamət... Onun həlak olduğuna heç kimdə şəkk-şübhə yox idi, çünki yaralı olsaydı belə bu neçə gün ərzində ya qan itkisindən, ya da susuzluqdan ölərdi. Cavan həmqəbilələrin kimsəsiz Sarı-Özək düzənlərində bu müsibəti hamıya yer eləmişdi. Meyitin tapılmaması, ağlayıb-oxşayıb dəfn olunmaması qəbilə üçün böyük rüsvayçılıq sayılırdı. Nayman-Ananın başına toplaşmış arvadlar ağı deyə-deyə ərlərini məzəmmət eləyirdilər:

– Quzğunların payı oldu, çaqqallar didib-tökdü, papağız yerə girsin, a kişilər!..

O gündən Nayman-Ana üçün bu bomboş dünyada bomboş günlər başlandı. O başa düşürdü ki, davada həlak olanlar olur, intəhası, oğlunun meyitinin döyüş meydanında atılıb qalması, onun basdırılmamağı ona rahatlıq vermirdi. Ucu-axırı görünməyən acı fikirlər ana ürəyini şan-şan eləyirdi. Dərdini də tökməyə bir adam qalmamışdı ki, ürəyini boşaldıb təskinlik tapsın, üz tutmağa Allahdan başqa bir kimsəsi yoxdu...

Bu qara fikirləri özündən rədd eləmək üçün oğlunun öldüyünə gərək öz gözləriylə inanaydı. Bundan sonra taleyin hökmünə kim nə deyə bilərdi? Ona hər şeydən çox şübhə gətirən oğlunun atının yerlidibli yoxa çıxmağı idi. At ölməmişdi, at hürküb qaçmışdı. Bütün ilxı atları kimi, o da gec-tez üzəngiyə ilişmiş ölünü sürüyə-sürüyə öz ilxısına qatmalı idi. Onda nə qədər dəhşətli olsa da atın sürüyə-sürüyə gətirdiyi bu ölünün üstə ağlayar, ulam-ulam ulayar, üz-gözünü cırıb öz qara gününə elə sözlər deyərdi ki, məcaz başa düşürsə, Allahın özünün də dözümü çatmazdı. Əvəzində ürəyindəki bütün şübhələri birdəfəlik çıxardıb atardı, ölümünə də soyuq dərrakəylə hazırlaşardı, hər saat, hər dəqiqə hazır gözləyərdi, ömrünü uzatmağı, dünyadan yapışıb qalmağı heç ağlına da gətirməzdi. Ancaq nə fayda ki, nə oğlunun meyiti tapıldı, nə də at qayıtdı. Ana qəlbini şübhələr xırpalasa da, qəbilə



camaatı bu hadisəni yavaş-yavaş unutmağa başlayırdı, çünki zaman keçdikcə hər şey silinir, unudulub gedir... Bircə ana təskinlik tapıb unuda bilmirdi. Fikirləri elə eyni çevrədə cərəyan eləyirdi. Atın başına nə gəlib, yəhər-əsbab nə oldu, yar-yarağı hara itdi? Heç olmasa bu əlamətlərə görə oğlunun taleyini bəlkə öyrənə biləydi! Axı ola da bilər ki, çapıb əldən düşəndən sonra juanjuanlar onu Sarı-Özəyin bir yerində tutub ələ keçirə biliblər. Yəhər-yüyənli əlavə bir at da pis qənimət deyil. Bəs onda juanjuanlar onun üzəngiyə ilişib sürünə-sürünə qalan oğlunun meyitini, görəsən, neyləyiblər? Basdırıblar, yoxsa qoyublar elə çölün düzündə heyvanlara yem olsun? Birdən bəlkə diriymiş o, bəlkə, Allahın işidir, ona ölüm verməyib? Görəsən, onu öldürüb əzablarına son veriblər, ya çölün düzənində atıblar ki, orda canı çıxsın bəlkə?..

Şübhələrin sonu-sonucu yox idi. O gəlmə sövdəgərlərin heç birinin ağlına gəlməzdi ki, çay məclisində Sarı-Özəkdə rast gəldikləri o cavan manqurt haqqında dedikləri sözlər Nayman-Ananın qovrulan ürəyinə təzə bir qığılcım salacaq. Qorxulu hisslərdən onun ürəyi bumbuz kəsilmişdi. Həmin manqurtun onun itmiş oğlu olacağı fikri artır, güclənir, get-gedə qətiləşərək onun bütün qəlbinə və şüuruna hakim kəsilirdi. Ana başa düşdü ki, ta o manqurtu tapmayınca, onun öz oğlu olub-olmadığını bilməyincə sakitlik tapmayacaq.

Naymanların yaylaqları olan yarımquru dağ ətəklərində bir neçə daşlı-çınqıllı çay axırdı. Nayman-Ana gecə səhərəcən oturub çayın şırıltısına qulaq asdı. Onun təlatümlü ruhuyla heç bir uyğunluq olmayan su, görəsən ona nələr deyib, nədən danışmışdı? Sakitləşibsərinləmək istəyindəymiş, yəqin...

Kimsəsiz, dilsiz-ağızsız Sarı-Özək çöllərinə yola düşməzdən axar suyu dinləmək, ondan doyum-doyum içmək arzusundaymış o... Sarı-Özək çöllərinə tək getməyin nə qədər qorxulu olduğunu ana bilsə də, sirrini heç kimə faş eləmək istəmirdi. Onun nələr çəkdiyini başa düşən olmayacaqdı. Hətta ən doğma adamlar da onu məzəmmət eləyəcəklərdi. Çoxdan tələf olmuş oğlunun dalınca təzədən düşməyin yeridirmi? Əgər təsadüfən sağ qalıbsa, onu manqurt eləyiblərsə, nəyə lazım bir də ürəyinə dağ çəkəsən, bir halda ki, manqurt vaxtilə adam olanın ancaq cildi, müqəvvasıdır...

Həmin gecə yola çıxmaq ərəfəsində bir neçə dəfə yurddan bayıra çıxmışdı. Fikrini qətiləşdirmək üçün uzun-uzadı baxıb ətrafa qulaq

verirdi. Gecəyarısı Ay buludsuz səmada lap zilə çəkilib yeri rəvan, solğun süd rənginə boyamışdı. Orda-burda təpələrin döşündə salınmış ağ yurdlar çayın qırağında gecələməyə qonmuş iri ağ quş dəstələrinə bənzəyirdi. Aul tərəfdən qoyun-quzu ağıllarının yerləşdiyi, bir az o yana ilxıların otladığı çökəkliklər tərəfdən it səsi, adam həniri gəlirdi. Amma Nayman-Anaya hər şeydən çox təsir eləyən aulun yaxın tərəfindəki ağılların yanında oyaq qalan qızların nəğmə ilə səsləşməsiydi. Elə özü də vaxtilə bu mahnılardan oxumuşdu... Onu bura gəlin gətirəndən hər il yayda bu yerlərə köçərdilər. Ömrü buralarda keçmişdi: ailələri böyük olanda, burda dörd yurd qurardılar – birini mətbəx üçün, birini qonaq üçün, ikisini də özləri qalmaq üçün –sonrakı illər də yadındadır, juanjuanların basqınından sonra yurdların biri qalmışdı...

İndi o da bu tənha yurdu tərk eləyirdi... Hələ axşamdan yol tədarükü görmüşdü. Yemək və su ehtiyatı götürmüşdü. Suyu lap çox elmişdi. İki tuluq doldurmuşdu ki, birdən Sarı-Özək yerlərində quyu tapmaq vaxt istər... Axşamdan Ağmayanı alıqlayıb yurdların yaxınlığında bağlamışdı. Bu maya dəvə onun həm yoldaşı, həm də ümidiydi. Ağmayanın gücünə, yerişinə arxalanmasaydı Sarı-Özəyin əldən-ayaqdan uzaq yerlərinə baş vurardımı! İki qarın doğandan sonra o il Ağmaya qısır qalmışdı. Arqaz, uzunpaça, ağır yük və qocalıqdan yastılanıb yayılmış, yumru – möhkəm kündəli, möhkəm qoşa donqarlı, arıq əzələli boynu üzərində ucalan qəşəng biçimli başı, yeriş vaxtı havanı öfgəsinə çəkən kəpənək qanadları kimi titrək və yüngül pərəli Ağmaya bir sürü dəvəyə dəyərdi. Ömrünün gümrah çağında belə yüyürək dəvəyə sürüdə böyüyüb boya dolmuş onlarca cavan dəvə verirdilər ki, belə mayadan nəsil artırsınlar. Bu qızıl maya Nayman-Ananın olan-qalanıydı, keçmiş var-dövlətindən bircə bu dəvə qalmışdı. Qalan nə vardısa hamısı əl çirki kimi yuyulub getmişdi. Borclar, şəhidlərin qırxına, ilinə verilən ehsanlar... Dalağı sancdığı üçün, dözülməz qüssə-kədər içində axtarmağa getdiyi oğlunun bu yaxınlarda axırıncı ehsanı verilmişdi. Xeyli adam yığılmışdı – ətraf mahalın bütün naymanları axışıb gəlmişdi.

Sübh açılanda Nayman-Ana yurddan yola hazır çıxdı. Kandarı adlayıb qapıya söykəndi, fikrə getdi, aulu tərk eləməmiş ətrafı diqqətlə süzdü. Hələ keçmiş gözəlliyini itirməmiş, qəddi-qamətini saxlayan Nayman-Ana uzaq səfərə çıxdığı üçün qayda-qanunla qurşaqlanmışdı.



Çaxçurun üstündən uzunboğaz çəkmələr geymişdi, paltar üstdən arxalıq, çiynində də gen, sallanan örtük vardı. Başına da ağ dolayıb uclarını boynunun dalında düyünləmişdi. Ana gecə fikirlərində belə qərara gəlmişdi – indi ki, oğluyla görüşə hazırlaşır, daha matəm libası nəyə lazım?! Arzu-kamına çatmasa başına həmişə qara bağlaya bilər. Səhərin ala-toranı ananın ağ birçəklərini və sifətindəki dərin kədər əlamətini gizlədirdi – kədərli alnında dərin cığırlar salmış qırışlar bilinmirdi. O anda gözləri doldu, dərin bir ah çəkdi. Heç ağlına gələrdimi ki, belə-belə günlər görəcək! Sonra özünü ələ aldı, duanın birinci sözlərini pıçıldadı: "La ilahə il Allah", (Allahdan başqa ilahi yoxdur) və qəti addımlarla dəvəyə yaxınlaşdı, dizlərini qatlayıb hıxladı. Nayman-Ana əlindəki heybələri tələsik alıxdan aşırıb dəvəyə mindi, səsləyib onu dikəltdi, dəvə qalxdıqca özüylə bərabər onu da əlyetməz hündürlüyə ucaltdı. Ağmaya indi başa düşdü ki, qarşıda səfər var...

Ona kənizlik eləyən qaynı arvadından başqa Nayman-Ananın səfərə çıxdığından heç kimin xəbəri yox idi, qaynı arvadı da dalbadal əsnəyir, çox da fikir vermirdi, başqa ötürən-filan yox idi. Nayman-Ana hələ dünəndən ona demişdi ki, öz törkünlərinin, yəni öz ana qohumlarının görüşünə gedir, ordan da yol-yoldaşı zəvvar olsa, qıpçaq torpaqlarındakı Yassəvi pirini ziyarətə gedəcək...

O, səhər tezdən çıxdı ki, sorğu-sual eləyib baş ağrısı verən olmasın. Auldan bir xeyli aralandıqdan sonra Nayman-Ana dəvənin ağzını çevirdi irəlidə hərəkətsiz bir boşluq kimi görünən Sarı-Özəyə...

*Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən şərqə də gedirlər...*

*Bu yerlərdə dəmiryolunun hər iki tərəfilə intəhasız sarı torpaq çöllərinin göbəyi hesab olunan Sarı-Özək düzləri uzanıb gedir...*

*Coğrafiyada hər yer Qrinviç meridianından ölçüldüyü kimi, bu yerlərdə də bütün məsafələr dəmiryolu ilə müəyyən edilirdi.*

*Qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedirdilər...*

"Konvensiya" təyyarədaşıyan gəmisinin bortundan "Paritet" orbital stansiyasındakı nəzarətçi-kosmonavtlara bir şifrlənmiş radioqram da göndərildi. O radioqramda nəzarətçi-kosmonavtlara göstəriş verilirdi ki, Ümidamərkəzin əmrini gözləsinlər və Günəşdənkənar Qalaktikada olan 1-2 və 2-1 paritet-kosmonavtlarla əlaqəyə girib onların orbital stansiyaya qayıtmaq vaxtını müəyyən eləməsinlər...

Okean dalğaları yarım fırtına gücündə çalxalanırdı. Təyyarədaşıyan gəmi dalğalar üstündə əməlli-başlı yırğalanırdı. Sakit okeanın dalğaları bu nəhəng gəminin böyrünə dəyib şappıltı ilə köpüklənirdi. Günəş yenə də okeanı başına götürüb ağappaq eləmiş sonsuz dalğalar üzərində parıldayırdı. Külək də rəvan nəfəs kimi axıb gedirdi.

"Konvensiya" təyyarədaşıyan gəmisində bütün xidmət bölmələri, o cümlədən təyyarə bölməsi və dövlət mənafeyi təhlükəsizliyi bölməsi ayıq-sayıq, hazır vəziyyətdəydi.

Bir neçə gün idi ki, Ağmaya yeknəsəq inləmə kimi bir səslə, ayaqlarını asta bir xışıltıyla yerə toxunduraraq ucsuz-bucaqsız Sarı-Özəyin çökək düzənliyinə yorturdu, yiyəsi ona aman vermir, kimsəsiz qızmar çöllüklə haylayıb qovurdu. Yalnız gecələri dincəlirdilər... Səhər açılan kimi yeni də sövdəgərlərin nişan verdiyi yerə – Malakumducan yarğanının yaxınlığında böyük dəvə sürüsünü, manqurt pasibanı axtarırdılar. O, ikinci gün idi ki, juanjuanlara rast gələcəyindən ehtiyat eləyərək Malakumdıcanın yaxınlığında hərlənirdi, amma nə qədər göz gəzdirirdisə, nə qədər gəzib-axtarırdısa çöldən-düzdən başqa bir şey görmürdü, hara baxırdı – göz aldadan ilğımlı sərabdı... Bir dəfə gördüyünə aldanıb məscidli, qalalı bir şəhərin divarlarına tərəf getmişdi. Bəlkə, oğlu bu şəhərin qul bazarındadır? Onda alardı oğlunu tərkinə, qovardı Ağmayanı, görüm kim çata bilərdi arxadan?.. Səhrada halı ağırlaşdığı üçün gözünə belə şeylər görünürdü.

Söz yox, Sarı-Özəkdə axtarıb adam tapmaq asan iş deyil, belə yerdə adam qum zərrəsi kimi bir şeydir, yox əgər o, düzə yayılıb otlayan böyük bir dəvə sürüsünün yanındadırsa, gec-tez qıraqda otlayan dəvələrdən birini görəcəksən, sonra da o biri dəvələri, axırda da gəlib çıxacaqsan pasibanın izinə. Nayman-Ananın ümidi buna idi.

Hələlik heç yanda belə bir şey görə bilməmişdi. Artıq şübhələnməyə başlamışdı ki, bəlkə dəvələrin otlaq yerini dəyişiblər, bəlkə daha pis – juanjuanlar o dəvələri satılmaq üçün Xivə, Buxara bazarlarına göndəriblər. Belə olsa, o pasiban elə uzaq yerlərdən görəsən bir də buralara qayıdarmı?.. Ana qüssə və şübhələr içində aullarından yola düşəndə bircə arzusu vardı – oğlunu görə bilsin, qoy lap manqurt olsun, qoy yaddaşı olmasın, qoy ağlı bir şey kəsməsin, təki onun oğlu olsun, təki canı sağ, salamat olsun... Məgər bu azdır! Amma Sarı-Özəyin dərinliklərinə getdikcə, bu yaxınlarda burdan karvanla keçmiş



sövdəgərlərin dediyi pasibanın ola biləcəyi yerlərə yaxınlaşdıqca canını qorxu alırdı ki, birdən oğlunun yerinə beyni pozulmuş şikəst bir məxluq görəcək, onu vahimə üzüb əldən salırdı. Onda Allaha üz tutub yalvarırdı ki, o olmasın, onun oğlu olmasın, başqa bir bədbəxt olsun. Bircə məqsədi odur ki, manqurtu öz gözləriylə görüb inansın ki, şübhələri nahaqmış, bunu yəqin eləyəndən sonra, daha özünü üzməsin, qayıdıb taleyin əmrilə ömrünü başa vursun... Sonra yenə dərdi qövr eləyir, yenə deyirdi ki, yox, necə olur olsun qoy öz oğlum olsun...

Belə münaqişəli hisslər içində qabağına çıxan alçaq təpələri aşıb düzə çıxanda birdən qarşısında geniş bir dərəyə yayılıb otlayan böyük bir dəvə sürüsü gördü. Şabalıdı dəvələr alçaq kolluq və tikanlığın arasında gəzir, kol və tikanların ucunu gəmirirdilər. Nayman-Ana əvvəlcə sevincindən nə edəcəyini bilmədi. Ağmayanı hayladı, sonra qorxdu, manqurt olmuş oğlunu görəcəyindən qorxdu. Sonra yenə sevinməyə başladı, daha sonra özü başa düşmürdü ki, nə halət keçirir.

Budur, sürü otlayır, bəs pasiban hanı? Buralarda olmalıdır. Və dərənin o başında adam gördü. Uzaqdan kim olduğu bilinmirdi. Əliçomaqlı pasiban yüklü minik dəvəsinin noxtasından tutub gözünəcən basdığı papağın altdan ona baxırdı.

Yaxınlaşıb oğlunu tanıyan Nayman-Ana özünü dəvənin belindən yerə necə atdığını bilmədi.

– Oğlum, oğul bala! – Elə bil cəngəllik ayırırdı və ana özünü bu cəngəlliyə toxuyub oğlunun üstünə atıldı. – Səni axtarmaqdan əldən düşmüşəm! Mən sənin ananam!

Və birdən hər şeyi başa düşüb acı bir dəhşətlə səyriyən dodaqlarını gəmirərək yeri təpikləməyə başladı, nə qədər çalışdı özünü ələ alsın, özüylə bacara bilmədi. Özünü ayaqda saxlamaq üçün laqeyd dayanıb baxan oğlunun çiynindən bərk-bərk yapışıb hönkürtüylə ağladı, çoxdan bəri başının üstünü kəsdirmiş dərd indi sel kimi onu altına alıb basdırırdı. Və ağlaya-ağlaya göz yaşları ardından, yapıxıb üz-gözünə yapışan ağ saçları altından, yolun tozunu-çirkini üzünə yayan titrək barmaqları arasından oğlunun sifətinin tanış cizgilərinə baxır, yenə də oğlunun onu tanıyacağını zənn edir. Bu ümidlə onun nəzərlərini tutmağa çalışırdı. Burda çətin nə var axı – doğma ananı tanımağa nə var!

Di gəl ki, onun gəlişi oğlana heç bir təsir göstərmədi, elə bil buraların adamıymış, özü də Allahın var günü gəlib çöldə ona baş çəkirmiş,

heç ağzını açıb bir soruşmadı ki, ay arvad, kimsən niyə ağlayırsan? Bir an sonra pasiban onun əlini çiynindən götürüb, özünün yüklü minik dəvəsini çəkə-çəkə sürünün o başına getdi ki, görsün oynaqlamağa başlayan cavan dəvələr sürüdən uzaqlaşmayıblar ki...

Nayman-Ana tərpənməyib yerində qaldı, çömbəlib üzünü əlləriylə örtərək xısın-xısın ağladı, başını qaldırmadan bir müddət bu vəziyyətdə qaldı. Sonra özünü toplayıb oğlunun yanına getdi, çalışdı ki, özünü sakit saxlasın. Manqurt – oğul heç bir şey olmamış kimi mənasız və laqeyd nəzərlərlə ona baxdı, gündən-küləkdən avazıyıb kəsəyə dönmüş üzgün sifətində nə isə təbəssümə bənzə bir şey işardı. Ancaq heç nəyə heç bir maraq göstərməyən gözləri yenə də əvvəlki kimi tamam etinasızdı.

– Otur danışaq, – deyə Nayman-Ana dərindən bir ah çəkdi.

Onlar yerə çökdülər.

Nayman-Ana soruşdu:

– Məni tanıyırsan?

Manqurt başıyla yox dedi:

– Bəs adın nədir?

– Manqurt.

– Səni indi belə çağırırlar, əvvəlki adın yadındadır? Bir əsl adını yadına sal görüm...

Manqurt danışmırdı. Anası görürdü ki, o, adını yadına salmağa çalışır, qaşlarının arasında iri tər damlaları puçurlanır, gözləri də titrək duman içindədir. Amma görünür oğlan qalın bir divara rast gəlmişdi, divarı keçə bilmirdi.

– Bəs atanın adı nədir? Bəs özün kimsən, kimlərdənsən? Heç olmasa doğulduğun yerisə də bilmirsənmi?

Yox, heç nə bilmir, heç nə xatırlamırdı.

– İlahi, gör səni nə günə salıblar! – deyə ana pıçıldadı, yenə də özündən asılı olmayaraq dodaqları səyridi, ağrıdan, qəzəbdən, dərddən boğula-boğula hıçqırıb ağlamağa başladı, nə qədər çalışdısa da, özünü ələ ala bilmədi. Ananın bu dərdi kədəri manqurta qəti təsir eləmirdi.

– Torpağı almaq olar, mal-dövləti almaq olar, lap adamın həyatını da almaq olar, – deyə ana söyləndi, – ancaq adamın hafizəsinə kim qəsd eləyə bilər, bunu kim fikirləşib tapıb?! Pərvərdigara, varsansa, bunu necə insanların beyninə salmısan? Məgər dünyada zülm – şər azdır?



Bax, elə o vaxt ana manqurt oğluna baxa-baxa Günəş, Allah və özü haqdakı məşhur ağısını demişdi, o sözləri bilən adamlar Sarı-Özək əhvalatından söz düşəndə bunu indi də danışırlar... Bax, elə o anda, bilənlərin indi də xatırladığı o məşhur oxşamasına belə başlamışdı:

– Mən botası ölgən boz maya
Tulıbın gelip iskegen...[1]

Sarı-Özəyin sonsuz-ünsüz çöllərini başına götürən, bağrından qopan qəlbovutmaz, dərdsöndürməz ağılarını elə o vaxt demişdi...

Heyhat, heç manqurtun tükü də tərpənməmişdi.

Onda Nayman-Ana qərara gəldi ki, onun kim olduğunu ona soruşmaqla yox, təlqinlə başa salsın.

– Sənin adın Jolamandır. Eşidirəsən? Sən – Jolamansan. Atanın da adı Donenbaydı. Atan yadında deyil? Axı o səne hələ uşaqlıqdan ox atmağı öyrədərdi. Mən də sənin ananam, sən də mənim oğlum. Sən naymanlar qəbiləsindənsən, başa düşdün? Sən naymansan...

Ananın dediklərinə o, tam laqeydliklə qulaq asırdı, elə bil bu sözlərin ona dəxli yoxdu. Yəqin otluqda cırıldayan çəyirtkəyə də beləcə qulaq asardı.

Və onda Nayman-Ana manqurt oğlundan soruşdu:

– Bəs sən bura gəlməmişdən nələr vardı?

– Heç nə, – deyə manqurt cavab verdi.

– Gecəydi, ya gündüz?

– Heç nə, – manqurt eyni sözləri təkrar etdi.

– Kimnən danışmaq istəyirdin?

– Aynan. Ancaq biz bir-birimizi eşitmirik. Orda kimsə oturub.

– Sən daha nə istəyirdin?

– İstərdim ki, mənim də hörüyüm olsun, ağamınkı kimi.

– Qoy görüm onlar sənin başına nə iş gətiriblər? – deyə Nayman-Ana əlini onun başına uzatdı.

Manqurt kənara sıçrayıb çəkildi, əliylə papağından yapışıb daha anası tərəfə baxmadı. Arvad başa düşdü ki, başını heç vaxt oğlunun yadına salmaq olmaz.

[1] Mən, potası ölmüş boz mayayam. Gəlmişəm saman təpilmiş dərini qoxlayam.

Bu vaxt uzaqdan dəvəyə minmiş bir adam göründü. O yaxınlaşırdı. Nayman-Ana soruşdu:

– Bu kimdir?

– Mənimçün yemək gətirir.

Nayman-Ana təşvişə düşdü. Yersiz, böyürdən çıxan bu juanjuan onu görməmiş tez çəkilib gizlənməliydi. O tez dəvəsini hıxlayıb minə-minə oğluna xəbərdarlıq elədi:

– Ona heç nə demə. Mən tezliklə qayıdacağam.

Oğlu cavab vermədi. Onun heç eyninə deyildi.

Nayman-Ana başa düşdü ki, dəvə üstdə sürü içindən keçməkdə səhv eləyib. Amma gecdi, əlbəttə juanjuan ağ dəvə üstündə oturan adamı görə bilərdi. Gərək otlayan dəvələrin arasıyla gizlənə-gizlənə piyada keçəydi.

Nayman-Ana otlaq yerindən xeyli uzaqlaşandan sonra qıraqlarını yovşan basmış dərin bir dərəyə girdi. Burda dəvəni dərənin dibinə çöküzdürüb yerə düşdü, daha Ağmayanı qalxmağa qoymadı. Gizlənib baxmağa başladı. Juanjuan onu görmüşdü. Bir azdan o, dəvəsini yortma sürə-sürə gəlib çıxdı. Nizə və oxla silahlanmışdı. Təhrindən bilinirdi ki, juanjuan məəttəl qalıb, ətrafa boylana-boylana qalmışdı – uzaqdan ağ dəvəyə minmiş adam hara yoxa çıxdı? Kəsdirə bilmirdi ki, dəvəni hayana sürsün. Əvvəlcə bir tərəfə sürdü, sonra başqa səmtə döndü. Axırıncı dəfə lap dərənin yanından keçdi. Yaxşı ki, Nayman-Ananın ağlına gəlib dəvənin ağzını yaylıqla çəkib bağlamışdı. Nə desən ola bilərdi, – bir də gördün dəvə burdan səs verdi. Nayman-Ana yovşanlığın dalında gizlənib juanjuanı lap yaxşı görə bilmişdi. O, qıllı bir dəvənin üstündə oturub ətrafına göz gəzdirirdi, şişkin sifəti çox gərgindi, başındakı qara papağın ucları qayıq burnu kimi yuxarı qatlanmışdı, boynunun ardından bir cüt qara, quru hörük sallanırdı. Juanjuan üzəngidə dikəlib nizəsi hazır vəziyyətdə ətrafa boylandı, gözləri də yaman parıldayırdı. Bu, Sarı-Özəyi tutub xalqın xeyli hissəsini qul eləyən, onun ailəsinə bu qədər bədbəxtlik gətirən düşmənlərdən biriydi. Ancaq arvad xeylağı boş əllə bu amansız juanjuan döyüşçüsünə neyləyə bilərdi? Arvad onu da fikirləşdi ki, görəsən hansı cür həyat, nə kimi hadisələr bu adamları belə amansızlığa, belə bir vəhşiliyə gətirib çıxarmışdı – qulun yaddaşını ləğv eləmək...

Juanjuan bir az da o yan-bu yana səyirdəndən sonra geriyə, sürüyə tərəf qayıtdı.



Axşam düşürdü. Gün batsa da hələ göyün şəfəqi çəkilməmişdi. Sonra hava birdən qaraldı. Ətrafı qaranlıq bir gecə bürüdü.

Nayman-Ana o gecəni dərd-sər oğlunun olduğu yaxın yerlərdəki çöllükdə keçirdi. Oğlunun yanına qayıtmağa ürək eləmirdi, qorxurdu bayaqkı juanjuan gecəni sürünün yanında qala.

Və o gecə qəti qərara gəldi ki, oğlunu xilas eləsin, çalışıb özüylə aparsın. Manqurt olsun qoy, qoy heç nə başa düşməsin, təki öz adamları içində olsun, kimsəsiz, tənha Sarı-Özəkdə qalmaqdansa, juanjuanlara çobanlıq eləməkdənsə, qoy öz adamları arasında qalsın. Ana ürəyi belə deyirdi. Başqalarının dözüb barışdığı vəziyyətə o dözə bilmirdi. O rəva bilmirdi ki, qanı qanından olan doğma oğlu qul qalsın. Kim bilir, bəlkə də doğma yerləri görəndən sonra ağlı öz yerinə gələcək, uşaqlıq illəri yadına düşəcək...

Səhəri Nayman-Ana yenə Ağmayaya süvar oldu. O yenə iraqdan-iraqa hərlənə-hərlənə gecə ərzində xeyli aralanmış sürüyə yaxınlaşmağa başladı. Sürünü görəndən sonra da xeyli fikir verib baxdı ki, görsün juanjuanlardan orda var, ya yox. Heç kəsin olmadığını yəqin eləyəndən sonra oğlunu səslədi:

– Jolaman! Jolaman! Salam!

Oğlu dönüb baxanda ana sevincindən içini çəkdi, ancaq elə o dəqiqə də başa düşdü ki, oğlu elə-belə səsə dönüb.

Nayman-Ana yenə də çalışdı ki, oğlunun yaddaşını diriltsin.

– Adını yadına sal, tap gör adın nədir? – deyə yalvarıb onu qandırmaq istəyirdi. Bilmirsən məgər atan Donenbaydır? Sənin adın manqurt deyil, Jolamandı[1]. Adını onuncun belə qoymuşuq ki, sən naymanların böyük köçü vaxtı yolda doğulmusan. Sən anadan olanda biz üç gün köçü saxlayıb dayandıq. Üç gün toy-bayram elədik.

Ananın bu dediklərinin manqurt oğluna təsir göstərmədiyinə baxmayaraq, danışığına ara vermir, boş da olsa, yenə ümid eləyirdi ki, bəlkə bu qaralmış şüurda bir qığılcım işara. Nə fayda ki, arvad qıfıllı bir qapını döyəcləyirdi. Bütün bunlara rəğmən, yenə də öz dediyini deyirdi:

– Adını yadına sal! Atanın adı Donenbaydı!

Sonra o, götürdüyü ehtiyatdan onu da yedirib-içirtdi, oğlunu doyuzdurandan sonra ona layla deməyə başladı.

[1] Jolaman – iki sözdən əmələ gələn addır: "jol" – yol, "aman" – sağlıq mənası, yol salamatlıq versin.

Layla onun çox xoşuna gəldi. Arvadın laylası onun ürəyinə yayılırdı. Xoşluqla qulaq asırdı, onun gündən qaralıb codlamış, donuq sifətində nə isə canlı, ilıq bir halət əmələ gəlmişdi. Bunu görən ana onu inandırmağa çalışdı ki, bu yerləri tərk eləyib, ona qoşulsun, öz yerlərinə qayıtsın, juanjuanlardan birdəfəlik canını qurtarsın. Manqurt ağlına vura bilmirdi ki, necə durub getsin, bəs sürü nə olsun? Yox, ağası deyib ki, sürünü gözdən qoymasın...

Və yenə Nayman-Ana pozulmuş yaddaşın o bağlı qapısını təkrar-təkrar döyəcləməyə başladı, dediyini dedi:

– Yadına sal kimsən? Adın nədir? Sənin atan Donenbaydır!

Ananın başı elə qarışmışdı ki, axşamın necə düşdüyünü hiss eləməmişdi, o vaxt ayılıb gördü ki, juanjuan dəvə üstündə sürünün o başına yaxınlaşır. Bu dəfə o daha yaxındaydı, dəvəsini də getdikcə daha bərk qovurdu. Nayman-Ana fürsəti itirməyib tez Ağmayaya mindi və uzaqlaşdı. Ancaq o biri tərəfdən də bir juanjuan çıxıb onun yolunu kəsmək istədi. İşi belə görən Nayman-Ana dəvəsini qoparaqlayıb onların arasından keçdi. Ayaqdan yüngül Ağmaya onu vaxtında aradan çıxartdı, juanjuanlar dalda qalıb çığıra-bağıra, nizəçilərini oynadaraq onu qovmağa başladılar. Ağmayaya çatmaqmı olardı?! Onlar qıllı dəvələrində şorttuyana qədər Ağmaya əfgəsini körükləyib nəfəslənir, Sarı-Özəkdə yel kimi qanadlanıb Nayman-Ananı bu ölüm-dirim qovhaqovundan uzaqlaşdırırdı.

İntəhası, onun xəbəri olmadı ki, əlləri boşa çıxan juanjuanlar ürəklərini soyutmaq üçün yazıq manqurtu o ki var döydülər. Ancaq ondan nə gözləmək olardı, elə deyib dururdu:

– Deyirdi mənim anamdı.

– Anan-zadın deyil! Sənin anan yoxdu! Heç bilirsən niyə gəlib? Bilirsən? İstəyir ki, papağını çıxardıb başını buğa versin! – Onlar yazıq manqurtun canına qorxu salmağa çalışırdılar.

Manqurt bu sözləri eşidəndə qaralmış sifəti bomboz oldu. O, boynunu qısıb, papağından bərk-bərk yapışaraq, tələyə düşmüş heyvan kimi yan-yörəsinə baxmağa başladı. Juanjuan ona ox-yay verib dedi:

– Qorxma! Al bunu!

– Nişanla görüm! – deyə juanjuan papağını göyə atdı. Ox papağı deşib keçdi. – Gör ha! – deyə papaq yiyəsi təəccübləndi. – Əlinin yaddaşı hələ də qalır!

Nayman-Ana yuvasından ürküdülmüş quş kimi düzdə vurxunur özünə yer tapa bilmirdi. Bilmirdi neyləsin, nə gözləsin. Görəsən juanjuanlar oğlunu sürülə bir yerdə onun əli çatmayacaq öz böyük ordularına yaxın yerlərə aparacaqlar, ya ki, onu tutmaq üçün pusqu quracaqlar? Beləcə fikir-xəyal içində o, halay vurub gizlənə-gizlənə gəzirdi, nəhayət pusub görəndə ki, juanjuanlar sürüdən getdilər, çox sevindi. Nayman-Ana xeyli onların dalınca baxıb görəndən sonra ki, uzaqlaşıb gözdən itdilər, qərara gəldi yenə qayıtsın oğlunun yanına. İndi onun qəti fikri oğlunu evə aparmaqdı. Başına nə gəlibsə, onun təqsiri deyil, neyləsin ki, bəxti belə gətirib – düşmənlər onu bu kökə salıblar, nə olursa olsun anası onu qulluqda qoymayacaq. Qoy naymanlar görsünlər ki, yadelli basqınçılar onların igidlərinin ağlını başdan çıxarıb necə rəzil eləyirlər. Qoy qəzəblənib silaha sarılsınlar. Məsələ torpaqda deyil, torpaq hamıya bəs eləyər. Məsələ ondadır ki, juanjuanların bu rəzaləti onlarla heç yad qonşu olmağa da haqq vermir.

Nayman-Ana oğlunun yanına bu fikirlərlə qayıdırdı. Elə hey götür-qoy eləyirdi ki, necə onu inandırsın, necə başa salsın ki, elə bu gecə biri-birinə qoşulub qaçmalıydılar.

Toran qarışırdı. Ötüb-keçmiş və gələcək gecələrin saysız silsiləsindən olan bir gecə də azman Sarı-Özək çölləri üzərinə çökür, qırmızımtıl bir ala-toran şəklində dərələrdən, döşlərdən sürünə-sürünə sezilmədən yaxınlaşırdı. Ağmaya öz sahibəsini yüngül, sərbəst bir yerişlə böyük bir dəvə sürüsünə tərəf aparırdı. Batan günəşin şüaları ananı dəvənin donqarları arasında çox aşkar işıqlandırırdı. Şəkk-şübhə və qayğılar içində olan Nayman-Ananın rəngi-ruhu özündə deyildi, çox ciddi görkəmi vardı. Ağ saç-birçəyi, üzündəki Sarı-Özək toranlığı kimi qırışıqlar, alnına və gözlərinə çökmüş qayğıları, tükənməz ağrı... Budur, o, sürüyə çatdı, otlayan heyvanların arasından keçdi, ətrafa göz gəzdirdi, amma oğlunu görə bilmədi. Onun minik dəvəsi yüklü halda noxtasını sürüyə-sürüyə otlayırdı... Nayman-Ana oğlunu səsləyib çağırmağa başladı:

– Jolaman! Hardasan? Mənəm, ananam! Hardasan?

O, narahatlıqla ətrafa boylana-boylana qaldığı üçün oğlunun dəvə dalında daldalanıb, dizini yerə verərək oxla onu nişan aldığını görmürdü. Günəşin şövqü ona mane olurdu, fürsət gözləyirdi ki, oxu buraxsın.

– Jolaman! Oğlum! – Nayman-Ana oğlundan nigaran halda onu səsləyirdi. Birdən qanrılıb baxanda onu gördü. Birce:

– Atma! – deyə bildi, elə Ağmayanı məhizləmək istəyirdi ki, dönüb oğluyla üzbəüz gəlsin, yetirmədi – ox vızıltıyla onu sol qoluna sancıldı.

Bu ölümcül zərbə idi. Nayman-Ana dəvənin boynuna sinib ilişə-ilişə yıxıldı. Ancaq ananın özündən əvvəl başının yaylığı açılıb düşdü, havada bir quş olub çığıra-çığıra uçub getdi: “Yadına sal kimlərdənsən! Adın nədir? Sənin atan Donenbaydır! Donenbay! Donenbay!”.

Deyilənə görə o vaxtdan Sarı-Özəkdə Donenbay qışı uçur. Donenbay quşu yolçuya rast gələndə onun yaxınlığında uça-uça səslənir: “Yadına sal kimlərdənsən! Kimin oğlusan? Adın nədir? Adın? Sənin atan Donenbaydır! Donenbay! Donenbay! Donenbay! Donenbay!..”.

Sarı-Özəkdə Nayman-Ananın basdırıldığı yerə o vaxtdan ana-Beyit, yəni Ana məskəni qəbiristanlığı deyirlər... Ağmayanın törəməsi çoxdur. Mayaların hamısı ona çəkir – ağbaş dəvələr o yerlərdə tanınır, amma nərlər, əksinə, Boranlı Qaranər kimi qara və zorlu olur.

İndi Ana-Beyitdə dəfn edilmək üçün aparılan mərhum Qazanqap həmişə deyərdi ki, Boranlı Qaranər cins heyvandır. Nayman-Ana həlak olandan sonra düzdə qalan məşhur Ağmayanın nəslindəndir.

Yedigey Qazanqapın dediyinə ürəkdən inanırdı. Axı niyə də inanmasın... Boranlı Qaranər buna dəyərdi... Yaxşısında da, yamanında da o qədər sınaqlardan çıxmışdı ki, Qaranər həmişə darda onun dadına çatmışdı... Bircə ayıbı qızmağındadır – yaman pis qızır, Allah göstərməsin, özü də qızanda həmişə soyuqların oğlan vaxtına düşür, onda üzünü görmə – bir tərəfdən qış gözünü açmağa qoymur, bir tərəfdən də Qaranər onun gününü qara eləyir. Bir dəfə Yedigeyi yaman xataya salmışdı, belə ki,o, heç insan yox, başqa bir şüurlu məxluq olsaydı, o işi Boranlı Yedigey heç vaxt Boranlı Qaranərə bağışlamazdı... Di gəl ki, qızmış dəvədən nə istəyəsən, özü də cütləşmə dövrü ola... Əslində məsələ heç onda deyil. Heyvandan nə incimək, bunu sözgəlişi deyirdi ki, tale belə gətirmişdi. Qaranərin nə təqsiri? Qazanqap o əhvalatı yaxşı bilirdi, elə özü də ayırd elədi, yoxsa kim bilir axırı necə qurtaracaqdı.

## VII

1952-nin yayının axırıyla payızın əvvəlini Boranlı Yedigey xüsusi bir ötüb-keçmiş xoşbəxtlik hissilə xatırlayırdı. Yedigeyin əvvəlcədən dedikləri yuxu kimi çin olmuşdu. Həmin o, Sarı-Özək kərtənkələlərinin günəşdən qorunmaq üçün evlərin kənarına gələn vaxtların



dəhşətli istisi birdən-birə çəkildi, heç kəsin gözləmədiyi bir vaxta, avqustun ortalarında hava sındı. Dözülməz isti yavaş-yavaş sərinliklə əvəz olunmağa başladı, heç olmasa gecələr rahat yatmaq olurdu. Sarı-Özəkdə belə şeylər olur, düzdür, il ilə oxşamır. Qışı həmişə eynidir – həmişə sərtdir, amma yayda hərdən görürsən ki, insafa gəlir. Bir dəfə Yelizarov danışırdı ki, belə şey atmosferin yuxarı qatlarındakı hava axınlarında böyük dəyişikliklər baş verəndə olur. Yelizarov belə-belə şeylərdən danışmağı xoşlayardı. O deyirdi ki, yuxarıda sahilləri, daşan axmazları olan görünməz çaylar axır. Bu çaylar daimi dövrədə olub guya Yer kürəsi ətrafında cərəyan edirlər. Yer küləklərin əhatəsində üzür, elə zamanın axını da bu deməkdir. Yelizarova qulaq asmaq maraqlı idi. Belə adamları hələm-hələm tapmaq olmaz, nadir adamdı. Boranlı Yedigeyin ona böyük hörməti vardı, onun da Yedigeyə. Hə, deməli Sarı-Özəyə qızmar vaxtlarda hərdən sərinlik gətirən həmin səma çayı nədənsə öz hündürlüyündən enir, endikcə də Himalay dağlarına dirənir. Himalay, Allah bilir, nə uzaqlıqdadır, amma dünya miqyasında belə çıxır ki, o qədər də uzaq deyil. Hava axını Himalaya dəyib geri qayıdır. Hindistana, Pakistana toxunmur, orda istilik elə istiliyində qalır, amma geri qayıdanda yayılır Sarı-Özəyə, çünki Sarı-Özək açıq dəniz kimi bir şeydir, heç bir manеəsi-filanı olmayan genişlikdir... Həmin çay Himalaydan sərinlik gətirir...

Hər nə isə, söhbət ondadır ki, o ilin yayın axırı, payızın əvvəli doğrudan da adama fərəh gətirirdi. Yağış dediyin Sarı-Özəkdə tək-tək tapılan şeydir. Hər yağan yağışı hələm-hələm yaddan çıxmır. Amma o bircə yağış Boranlı Yedigey ömür-billah yaddan çıxarmayacaq. Əvvəlcə göyü bulud aldı, heç inanmaq olmurdu ki, Sarı-Özəyin toxtayıb durmuş göyünün qızmar boşluğu buludla dolarmış. Ətraf elə buxarlanıb qızdı ki, elə bil təndir həniriydi. O gün Yedigey vaqonları qoşurdu. Razyezdə çınqıl və təzə şam ağacından şpallar gətirmiş üç platforma boşaldıqdan sonra hələ də öz yerində dururdu. Onları ta dünəndən boşaltmışdılar. Həmişə olduğu kimi bu dəfə də qovduqova salıb – ay aman tez boşaldın – deyib tələsdirirdilər, sonra məlum oldu ki, heç tələsmək lazım deyilmiş. Boşaldılandan sonra platformalar yarım gün boş-boşuna dayanmışdı. Boşaltmaya hamı girişmişdi – Qazanqap, Abutalıb, Zərifə, Ukubala, Bikə, qərəz kim ki, xətdə məşğul deyildi, hamını bu təcili işə göndərmişdilər. O vaxt da işlərin hamısı əllə görülürdü. İsti də istiydi ha! Deyən gərək bu platformalar

hökmən bu istidə gələydilər! Ancaq çarə nədir – deyirlər lazımdır, deməli lazımdır. İşlədilər, Ukubalanın ürəyi bulandı, sifraq elədi. Qızmış şpalların qatranlı qoxusunu götürmürdü. Məcbur oldular göndərsinlər evə. Sonra arvadların hamısını evə yolladılar – evdə uşaqları isti əldən salmışdı. Təkcə kişilər qaldı, canları çıxdı, amma işi görüb qurtardılar.

O biri gün, elə yağışqabağı vaqonlar Kumbelə gedən yük qatarına qoşulub göndərilməliydi. Manevr eləyib vaqonları qoşanda Yedigeyin istidən nəfəsi kəsilmişdi, ona elə gəlirdi ki, əsgər hamamının parxanasındadır. Bundansa gün yandırsaydı daha yaxşıydı. Bəxtindən elə maşinist düşmüşdü ki, işi uzadırdı. İndi ikiqat olub gir vaqonların altına, görüm necə girirsən! Yedigey də cana gəlib söyürdü o maşinistin yeddi arxadönənini. Maşinist də ondan geri qalmır, cavabını qaytarırdı. Çünki parovoz ocağının böyründə halı onunkundan betərdi. İstidən təntiyib gicəlmişdilər. Şükür Allaha, axır ki, yük qatarı üzülüşüb getdi. Boş platformaları da apardı. Bax elə bu vaxt şıdırğı yağış başladı. Yer sanki bir anda qovuqlanan gölməçələrlə qabardı. Başladı, nə başladı – dəli, quduz bir yağış, deyilən doğrudursa, Himalayın qarlarında soyuyub sərinləmiş yağış... Sən bir Himalaya bax! Dönüm zoruna! Yedigey evlərinə yüyürdü. Heç özü də bilmədi ki, niyə yüyürdü. Elə-belə. Axı yağışa düşən adam ya evə qaçar, ya da başqa bir daldaya... Adətdir. Yoxsa belə yağışdan da adam qaçıb gizlənər? Bu həqiqəti o ancaq Kuttubayovun ailəsini görəndən sonra başa düşüb dayandı: Abutalıb, Zərifə, oğlanları Daul, Ermek baraklarının qabağında əl-ələ verib yağışı altında yallı gedirdilər. Bu mənzərə Yedigeyi sarsıtdı. Ona görə yox ki, onlar yağışın altında şənlik eləyib oynayırdılar, ona görə ki, bayaq Abutalıbla Zərifə işdən evə onunçun tələsirmişlər ki, yağış vaxtı uşaqlarıyla bir yerdə olsunlar. Yedigeyin ağlına belə şey gəlməzdi. Amma onlar uzaq yerlərdən Aral dənizinə gəlib çimən qazlar kimi şorhaşor yağan yağışın altında çimişir, atılıb-düşür, çığırışırdılar! Bu, onlara göydən göndərilmiş bir bayramdı. Sarı-Özəkdə yağış həsrətindən yanıb kabab olmuşdular. Yedigey onları görəndə sevincqarışıq bir kədər duydu qəlbində – Boranlıya sığınmış bu kull-küf[1] adamların işıqlı bir dəqiqəyə necə can atdıqlarını görəndə Yedigeyin onlara həm gülməyi gəlirdi, həm yazığı...

[1] Hər şeydən məhrum edilmiş.



Abutalıb onu görəndə üzgüçülər kimi əl-qol ata-ata yağış pərdəsi dalından səsləndi:

– Yedigey! Gəl bura!

– Yedigey əmi! – deyib uşaqlar sevinə-sevinə ona tərəf yüyürdülər.

Yedigeyin sevimlisi olan Ermekin onda üç yaşı hələ tamam olmamışdı, uşaq qollarını açıb ağzına yağış dola-dola ona tərəf yüyürürdü. Onun gözləri təsviredilməz bir sevinc, qəhrəmanlıq və şeytanlıqla parıldayırdı. Yedigey onu qaldırıb havada fırlatdı. Kişi ağlına gətirə bilmirdi ki, daha neyləsin. Elə bu vaxt onun qızları – Səuləylə Şərafət çığıra-çığıra tinin dalından çıxdılar. Onlar Abutalıbgilin səsinə gəlmişdilər. Qızlar da çox sevinirdilər. "Ata, gəl qaçaq!" – deyə qızlar təkid etdilər. Bu, Yedigeyin tərəddüdünü götürdü. İndi onların hamısı birləşib qurtarmaq bilməyən yağışın altında şitlik eləyir, oyun çıxarırdılar.

Yedigey Ermeki qucağından yerə qoymurdu ki, birdən uşaq çökəyəzada düşüb boğular. Abutalıb da onun kiçik qızı Şərafəti boynuna mindirmişdi. Onlar beləcə yüyürür, uşaqları əyləndirirdilər. Ermek Yedigeyin qucağında atılıb-düşür, ağzına yağış dolanda sifətini onun boynuna qısırdı. Bu mənzərə elə təsirliydi ki, oğlanlarının Yedigey əmisinin qucağında belə sevindiyi üçün Abutalıbla Zərifənin minnətdarlıqla parıldayan baxışları Yedigeyin gözündən yayınmadı. Kuttubayovgilin yağışın altanda düzəltdikləri bu oyun elə Yedigeylə qızlarının da ürəyindəndi. Yedigeyin özündən asılı olmayaraq Zərifənin gözəlliyinə fikir verdi. Yağış onun siyah tellərini çöhrəsinə, boyun-boğazına, çiyinlərinə dağıtmışdı, qüdrətdən axan su onun cavan və şux təni boyu tökülərək mina gərdəninə xüsusi gözəllik verir, şümşad qollarını, budlarının və yalın ayaqlarının baldırlarını adamın gözünə soxurdu. Gözləri şən bir ötkəmliklə parıldayır, inci dişləri sevinclə ağarırdı.

Sarı-Özəyin yağışı nə ata yemdi, nə eşşəyə yük. Qar yavaş-yavaş əriyib yerə hopur. O ki. qaldı yağışa, yağış ovuc içində civə kimi bir şeydi – dikdən axıb çökəyə, dərəyə dolacaq. Köpüklənib, şırıldayıb çəkilib gedəcək.

Üstündən heç bir dəqiqə də keçməmişdi ki, hər yeri sel-su başına götürdü, şığıyıb axa-axa köpüklənib daşdı. Onda boranlılar bu təbii arxların üstündən tullanmağa başladılar, elə keçən tasdan, təkədən gətirib suya buraxdılar. Hətta uşaqlardan böyükləri – Səulə ilə Daul teknəyə minib üzdülər də. Məcbur olub balacaları da teknəyə mindirməli oldular...

Yağışsa ara vermək bilmirdi. Suda üzən taslara minməyə başları elə qarışmışdı bir də gördülər ki, gəlib çatıblar lap köbərin qırağına, razyezdin girəcəyinə. Bu vaxt Boranlıdan sərnişin qatarı gəlib keçirdi. Qatarın taybatay açılmış qapı-pəncərələrindən adamlar qurşağacan boylanıb bu bədbəxt səhra səfehlərinə tamaşa eləyirdilər. Onlar nə isə qışqırıb deyirdilər, onları fitə basıb gülürdülər. Görünür, çox qəribə görkəmləri vardı. Yağışın altında yuyuna-yuyuna gedən qatar ötüb keçdi, o adamları da özüylə apardı, o adamları ki, bir-iki gündən sonra tanış-bilişi güldürüb əyləndirmək üçün gördüklərini danışacaqdılar. Yedigey Zərifənin ağladığını görməsəydi, belə-belə fikirləri heç ağlına da gətirməzdi. Adamın sifətindən vedrə-vedrə su axanda onun ağlayıb-ağlamadığını demək çox çətin məsələdir. Amma Zərifə ağlayırdı. Özünü elə göstərirdi ki, guya gülür, əslində ağlayırdı, hıçqırtılarını boğub gah gülür gah ağlayırdı. Abutalıb nigarançılıqla onun əlindən tutdu:

– Sənə nə oldu? Özünü pis hiss eləyirsən? Gedək evə.

– Yox, yox, elə belə hıçqırıram, – deyə Zərifə cavab verdi.

Onlar bu təsadüfi yağışın bəxş etdiyi nemətdən istifadə etməyə çalışaraq yenə də uşaqları əyləndirməyə başladılar. Yedigeyin halı lap xarab oldu. Yağışın qeyri-adi bir hadisə olmadığını, uşaqların tamam başqa qayğılar tələb etdikləri bambaşqa bir aləmin nə olduğunu təsəvvürünə gətirəndə onların necə ağır dəqiqələr keçirdiyini hiss elədi...

Uşaqlar da, böyüklər də doyunca oynayıb yoruldular, amma yağış elə yağırdı. Sonra qaçıb hərə öz evinə getdi. Ürəyi yuxalmış Yedigey dayanıb Kuttubayovgilin necə yanaşı – ata, ana, uşaqların bir yerdə qaçmağına tamaşa elədi. Hamısı su içindəydi. Sarı-Özəkdə onlara, heç olmasa, bir günsə də xoşbəxtlik nəsib olmuşdu.

Yedigey kiçik qızını qucağına alıb, böyüyün də əlində tutaraq kandardan keçdi. Ukubala onları görəndə qorxdu:

– Vay, bu nədi, nə olub? Nəyə oxşayırsız?

– Qorxma, arvad, – deyə Yedigey güldü. – Atan qızanda köşəkləriylə oynayır.

– Deyirəm axı, oxşamısan, – deyə Ukubala tənəylə gülümsündü. – Di yaxşı, sudan çıxan cücə kimi dayanmayın, soyunun.

Yağış kəsdi, ancaq uzaqlarda çaxan şimşəklərin gecəyarısı eşidilən gurultusundan bilmək olardı ki, hələ Sarı-Özəyin ucundan-ətəyindən yağır. Yedigey neçə dəfə göy gurultusundan diksinib oyanmışdı. Özü



də bu işə təəccüb eləyirdi. Aral dənizində elə vaxtlar olurdu ki, göy lap başın üstdə parlayırdı – yanırdı. Oranın həyatı bambaşqaydı. – Həftə yeddi-mən səkkiz şimşək çaxıb göy guruldayırdı. İndi Yedigey hər dəfə oyananda kirpiklərini aralayıb çölün müxtəlif yerlərində parlayan şimşək çaxımlarının pəncərəyə düşən tutqun əksini görürdü.

O gecə yenə də Yedigeyin yuxusuna cəbhə girmişdi-görürdü ki, düşmən atəşi altında yerə yatıb. Amma mərmilər səssiz partlayırdı. Partlayışdan qara fəvvarələr kimi sovrulan torpaq bir ləhzə havada donuxur, sonra aşağı tökülür. Belə partlayışlardan biri onu qaldırıb havaya atdı, o da ürəyi ağzında dəhşətli bir boşluğa enməyə başladı. Sonra, o, həmləyə keçdi, özləri də çoxdurlar, həmləyə keçən saysız-hesabsız boz şinelli əsgər vardı, amma sifətlərini seçmək olmurdu, ona elə gəlirdi ki, əliavtomatlı şinellilər öz-özünə qaçır. Şinellilər "Ura!" qışqıranda Yedigeyin yoluna yağışdan islanmış, gülə-gülə yaxınlaşan Zərifə peyda oldu. Bu çox qəribə bir vaqiə idi. Çit donda, pəjmürdə, çöhrəsi dalğa-dalğa su, gülə-gülə... Yedigeyin ləngiməkçün macalı yoxdu – bilirdi ki, həmləyə qalxıb. Bircə onu deyə bildi ki: "Niyə gülürsən, Zərifə? Pis əlamətdir". "Mən gülmürəm ağlayıram", – deyə o yenə şaqqanaq çəkə-çəkə yağış seli altında cavab verdi...

Ertəsi gün o istədi ki, yuxusunu Abutalıbla Zərifəyə danışsın. Ancaq fikrindən döndü, yuxusu ona bəd göründü. Axı niyə onların kefini bulandırsın...

O gur yağışdan sonra istinin üzü Sarı-Özəkdən döndü, Qazanqap demişkən, yayın bəyliyi qurtardı. Hələ hərdən isti günlər qayıtsa da, dözmək olurdu. Elə o günlərdən də Sarı-Özəyin gözəl çağları başlandı. Boranlının uşaqlarının da istidən canı qurtardı. Onların gümrah səsi yenə də sevinclə cingildəyirdi. Bu yanda da Kumbeldən xəbər gəldi ki, Qızıl Ordadan qovun-qarpız gəlib. Boranlıların fikrini soruşurdular – paylarını göndərsinlər, ya özləri gəlib aparacaqlar? Yedigey bundan istifadə elədi. Razyezdin rəisini inandırdı ki, özləri gedib gətirməsə əllərinə gələni göndərəcəklər. O da razılıq verdi. Dedi, yaxşı, Kuttubayovu da götür get, yaxşılarını seç. Yedigey də elə bunu istəyirdi. O, ürəyində niyyət eləmişdi ki, heç olmasa bircə günsə də Abutalıbla Zərifəni, uşaqlarla bərabər Boranlıdan çıxarsın. Elə özləri də havalarını dəyişsəydilər pis olmazdı. Hər iki ailə çolma-çocuğu da yığışdırıb səhər tezdən qatara mindilər, Kumbelə yola düşdülər. Özləri də geyinib-keçinmirdilər. Yaman sevinirdilər. Uşaqlara elə gəlirdi ki,

əfsanəvi bir aləmə gedirlər. Yol uzunu sevinə-sevinə səs-səsə verib sual yağdırırdılar: Orda ağac bitir? Bitir. Bəs yaşıl çəmən necə? Var, yaşıl çəmən də var. Hətta gül-çiçək də var. Bəs böyük evlər var, küçələrdə maşın var? Çoxlu qovun-qarpız var? Dondurma necə, dondurma var? Yəqin dəniz də olar?

Külək yük vaqonunun açıq qapısından içəri dolurdu, Yedigeylə Abutalıb boş yeşiklərin üstündə qapının qabağında oturmuşdularsa da, hər ehtimala qarşı, uşaqlar yıxılmasın deyə, qapının qabağını enli taxta il kəsmişdilər. Onlar oturub ordan-burdan söhbət eləyir, uşaqların suallarına cavab verirdilər. Boranlı Yedigeyin kefi lap kök idi: bir yerdə gedirdilər, hava da yaxşıydı, uşaqlar sevinirdilər, amma Yedigeyi uşaqlardan da çox sevindirən Abutalıbla Zərifə idi. Hər ikisinin eyni açılmışdı. Onlar müvəqqəti də olsa, daimi qayğıdan, daxili əziyyətdən azad olub yüngülləşmişdilər.

Adama ləzzət verirdi – Zərifə ilə Ukubala bir tərəfdə oturub həyatdan, məişətdən şirin-şirin söhbət eləyirdilər. Çox xoşbəxt görünürdülər. Əslində belə də olmalıdır, insana nə lazımdır?!.. Yedigeyin istədiyi o idi ki, Kuttubayovgil öz çətinliklərini yaddan çıxarsınlar, bərkiyib kök salsınlar, başqa çıxış yolları olmadığı üçün Boranlının həyatına alışsınlar. Yedigeyə bir də o ləzzət verirdi ki, Abutalıb onunla çiyin-çiyinə yanaşı oturub, başa düşürdü ki, Yedigeyə arxalanmaq olar, artıq-əskik danışmadan bir-birini başa düşürlər, Yedigey Abutalıbın ağlına-kamalına qiymət verirdi, amma bundan da artıq Abutalıbın ailəsinə bağlılığına, həyatını həsr etdiyi ailəsindən qüvvət alaraq təslim olmamasına qiymət verirdi. Yedigey Abutalıbın danışdıqlarına qulaq asdıqca belə bir qənaətə gəlirdi ki, insanın başqaları üçün görə biləcəyi ən yaxşı iş öz ailəsində ləyaqətli uşaqlar tərbiyə etməkdir. Özü də başqasını köməyi ilə yox, günbəgün, addımbaaddım, özünü təpədən-dırnağa bu işə həsr eləməlisən, imkanın olduqca uşaqlarının yanında olmalısan.

Elə söz məsəli, Sabitcanı götürək: daha onu haralarda oxutmamışdılar? Uşaqlıqdan internatlarda, sonra cürbəcür institutlarda, təkmilləşdirmə kurslarında... Yazıq Qazanqapın gözünün ağı-qarası, bircə oğlu olan Sabitcan tay-tuşunun yanında başıaşağı olmasın deyə əlinə düşəni göndərirdi ona, axırı nə oldu? Bilməyinə hər şeyi bilir, amma di gəl ki, bir qəpiklik adam deyil, nə xeyrə yarayır nə şərə...

Elə buna görə də Yedigey yol gedə-gedə fikirləşirdi ki, daha yaxşı bir çıxış yolu yoxdursa, Abutalıb Kuttubayov Boranlıda qalıb kök



atmalıdır. Təsərrüfatını sahmana salsın, heyvandan-zaddan saxlasın və imkanı daxilində çalışsın ki, balalarını Sarı-Özək torpaqlarında boya-başa çatdırsın. Düzdür, o Abutalıbın başına ağıl qoymaq fikrinə düşmədi, çünki özü də hiss elədi ki, deyəsən, Abutalıbın özü də bu fikirdədir. Görürdün hərdən soruşurdu ki, kartofu hardan almaq olar, qış üçün arvad-uşaq üçün keçə çəkmələri necə tapsın, deyirdi özüm bu qışı birtəhər dəri çəkmədə keçirərəm. Bir də maraqlanırdı ki, görəsən, Kumbeldə kitabxana var, ya yox, varsa, kitabları istifadə üçün razyezdlərə verirlərmi? Onlar elə həmin günün axşamı yük qatarında evə qayıtdılar, fəhlə təminatı şöbəsinin onlar üçün ayırdığı qovun-qarpızı da gətirdilər. Axşama tərəf uşaqlar bir az yorulmuşdular, amma çox razı idilər. Kumbeldə xeyli şey görmüşdülər, oyuncaqlar almışdılar, dondurma yemişdilər, hə, amma stansiyadakı bərbərxanada balaca bir hadisə baş vermişdi. Öz aralarında qərara gəldilər ki, uşaqların başını qırxsınlar. Növbə Ermekə çatanda bir qaraqışqırıq saldı ki, gəl görəsən! Nə qədər çalışdılarsa, onu sakit eləyə bilmədilər. Daha lap əldən düşdülər – uşaq qorxusundan çırpınır, qışqırır, atasını çağırırdı. Abutalıb o vaxt qonşudakı mağazaya getmişdi. Zərifə özünü itirib neyləyəcəyini bilmirdi. Utandığından, xəcalətindən yer aralansaydı, yerə girərdi. Məsələ burasındaydı ki, anadan olandan uşağın başına qayçı dəyməmişdi – hayıfları gəlirdi, çox gözəl buruq saçları vardı. Anasına çəkmişdi: doğrudan da çox gözəl, sıx, buruq-buruq saçları vardı. Ümumiyyətlə, uşaq eynilə Zərifəyə oxşayırdı: elə ki başını yuyub, saçlarını darayırdılar, adam uşağa baxmaqdan doymurdu.

Onun xətrinə Ukubala razı oldu ki, Səulənin də saçlarını kəsib qısaltsınlar: yeni bax gör qız da səndən ürəklidir. Bunun, deyəsən bir balaca təsiri oldu, amma usta maşını əlinə alan kimi Ermek yenə də səsini başına atdı, yaxşı ki, bu vaxt Abutalıb gəlib çıxdı. Atası onu qaldırıb onu bağrına basdı, vəziyyəti belə görüb başa düşdü ki, uşağı incitmək əbəsdir. Ustadan üzr istədi:

– Bağışlayın, başqa bir vaxt düzəltdirərik. Bir az cürətlənəndən sonra... Niyə tələsirik gələn dəfəyə qalsın...

"Konvensiya" təyyarədaşıyan gəmisində xüsusi səlahiyyətli komissiyanın fövqəladə iclasında tərəflərin qarşılıqlı razılığı ilə "Paritet" orbital stansiyasına yeni bir kodlaşdırılmış radioqram göndərildi. Bu radioqram Yerdənkənar sivilizasiyası olan planetdəki, 1-2 və 2-1

paritet-kosmonavtlar üçün idi. Onlar xəbərdar edilirdilər ki, Ümumi Mərkəzi İdarənin xüsusi göstərişi olmadan yerlərindən tərpənməsinlər, hər hansı bir təşəbbüsdə olmaq onlara qəti surətdə qadağan edilir.

Müşavirə yenə də bağlı qapılar dalında, gizli keçirilirdi. "Konvensiya" təyyarədaşıyan gəmisi yenə də əvvəlki yerindəydi – Sakit okeanda, Aleut adalarından cənubda, San-Fransisko ilə Vladivostok şəhərləri arasındakı hava yolunun tən ortasında dayanmışdı.

Əvvəlki kimi yenə də dünyada heç kimin xəbəri yox idi ki, son dərəcə böyük bir qalaktikalararası hadisə baş vermişdir – Cazib günəşinin sistemində Yerdənkənar sivilizasiyası olan yeni bir planet kəşf edilmişdir. O planetin şüurlu sakinləri Yerdə yaşayan insanlarla əlaqəyə girmək arzusundadırlar.

Fövqəladə müşavirədə tərəflər bu qeyri-adi və gözlənilməz məsələni hər üzünə müzakirə etdilər – həm "lehinə" həm də "əleyhinə". Komissiya üzvlərinin hər birinin qarşısında başqa yardımçı materiallardan əlavə, 1-2 və 2-1 paritet-kosmonavtların göndərdikləri radioqramların tamam mətni də vardı. Sənədlərdəki hər bir söz, hər bir fikir diqqətlə öyrənilirdi. Meşəlidöş planetindəki şüurlu həyat quruluşuna dəlalət edən ən xırda detal, hər şeydən əvvəl, Yer sivilizasiyasının təcrübəsinə uyğun olub-olmaması, eləcə də planetimizin əsas ölkələrinin mənafeyi baxımından müzakirə edilirdi... Hələ heç bir insan belə problemlərlə qarşılaşmamışdı. Məsələ isə təcili həll olunmalı idi.

Sakit okeanda yenə də yüngül fırtına vardı...

Kuttubayovun ailəsi Sarı-Özək yayının ən dəhşətli dövrünə dözüb, olan-olmazlarını yığışdırıb Boranlıdan baş götürüb qaçmayanda, boranlılar başa düşdülər ki, onlar daha burdan heç yana tərpənməyəcəklər. Abutalıb Kuttubayov açıq-aşkar dirçəlmişdi, yəni dirçəlmişdi deyəndə ki, Boranlının qoşqusuna qoşulmuşdu. Söz yox, vaxt keçdikcə razyezdin həyat şəraitinə alışırdı. O da başqaları kimi deyə bilərdi ki, Boranlı dünyanın lap zay yeridir, haqqı da vardı – bir yerə ki, işlədilməli və hətta içməli su da dəmiryolu ilə sisterndən gətirilsin, daha bu yerdən nə ummaq olar?! Kimin ürəyindən təmiz, sərin su keçirdisə, gərək dəvəyə minib itin quduran yerində quyudan tuluqlarda su gətirəydi. Belə şeyə də ancaq Qazanqapla Yedigey ürək eləyə bilərdi.

Bəli, əlli ikinci ildə, lap altmış səkkizin özünəcən, nə qədər ki, razyezddə elektrik – külək dərinlik nasosu qoymamışdılar, vəziyyət



belə idi. O vaxtlar belə-belə şeylər onların heç xəyalına da gəlmirdi. Bütün bu çətinliklərə baxmayaraq Abutalıb nə Sarı-Özək çöllərini, nə də Boranlı razyezdini pisləmirdi. Pisi pis kimi, yaxşını da yaxşı qəbul edirdi. Axı torpaq neyləsin, torpağın heç kimin yanında təqsiri yox idi. Adamın özü gərək bir qərara gələydi ki, bu yerlərdə yaşasın ya yaşamasın...

Buna görə də burda yaşayan adamlar çalışırdılar ki, güzəranlarını mümkün qədər rahat qura bilsinlər. Kuttubayovgil başqa gedəsi yerləri olmadığı üçün Boranlıda qalmaqlarını qətiləşdirəndən və buna görə məskənlərini möhkəmləndirmək lazım gəldiyini başa düşəndən sonra, gördülər ki, ev işləriylə məşğul olmağa vaxtları çatmır. Söz yox, onlar hər gün öz növbələrində işləməli idilər, amma boş vaxtlarında o qədər iş çıxırdı ki, çoxuna əlləri çatmırdı. Evlərini qışa hazırlayanda Abutalıb lap əldən düşdü – sobanı təzədən hörmək lazım idi, qapının dəlmə-deşiyini tutub bərkitmək, pəncərə çərçivələrini möhkəmlətmək gərəkdi. Belə-belə işlərdə onun o qədər də səriştəsi olmasa da Yedigey onu tək qoymur, kömək eləyir, haç-hacət və material verirdi. Anbarın yanında buz zirzəmisi qazmağa başlayanda Qazanqap da kənarda qalmayıb köməyə gəldi. Onlar üçlükdə balaca buz zirzəmisi düzəldib üstünü köhnə şpallarla, küləş və gillə örtdülər, möhkəm bir qapı da düzəltdilər ki, qonum-qonşunun heyvanı-zadı zirzəmiyə düşməsin. Kişilər işləyən vaxt Abutalıbın uşaqları əl-ayağa dolaşsalar da onlara acıqlanmırdılar, deyirdilər, elə belə yaxşıdır. Yedigeylə Qazanqap Abutalıba təsərrüfat düzəltmək üçün neyləmək lazım gəldiyi barədə öz aralarında bəzi şeylər fikirləşmişdilər. Qərara gəlmişdilər yazbaşı onun üçün bir sağmal dəvə ayırsınlar. Məsələnin çətini orasında idi ki, Abutalıb dəvə sağmağı öyrənməli idi. Axı, dəvə inək deyil, ayrı cür sağılır, dəvəni gərək ayaq üstə sağasan, çöldə dalıycan gəzəsən. Ən vacibi də köşəyi qorumaqdır, gərək vaxtında əmməyə buraxıb, vaxtında da ayırmağı bacarasan. Qərəz, qayğısı çoxdur. Hər işin qaydasını bilməlisən...

Ancaq Yedigeyi hər şeydən çox sevindirən Abutalıbın nəinki təsərrüfatla, nəinki hər iki ailənin uşaqlarıyla məşğul olmağı, Zərifə ilə birlikdə onlara oxumaq, şəkil çəkməyi öyrətmək idi, bunlardan daha artıq öz üzərində çalışmağıydı. Axı Abutalıb Kuttubayov təhsilli adamdı. Kitab oxumaq, müxtəlif qeydlər etmək, yazı yazmaq onun üçün vacib məsələ idi. Yedigey belə bir dostu olmağıyla ürəyində

qürrələnirdi, elə buna görə də çalışırdı ki, ona yaxın olsun. Buralara tez-tez gələn Sarı-Özək geoloqu Yelizarovla dostluğu təsadüfi deyildi. Yedigeyin oxumuş, bilikli adamlara xüsusi hörməti vardı. Abutalıb da bilikli adamdı. İntəhası, çalışırdı ki, fikirlərini az büruzə versin. Ancaq bir dəfə çox ciddi söhbətləri olmuşdu.

Axşamüstü işdən qayıdırdılar. Həmin gün onlar yeddinci kilometrdə qarın qabağını saxlamaq üçün taxta çəpər düzəltməklə məşğul olmuşdular, bu yerləri həmişə qar basırdı. Payızın hələ təzəcə girdiyinə baxmayaraq, indidən qışa hazırlıq görmək lazımdı. Hə, deməli, onlar işdən qayıdırdılar. Bu işıqlı və xoş axşam adamı söhbətə çağırırdı. Belə axşamlarda Aral gölündə qayıqdan suya baxanda suyun dibi necə qaraltı şəklində sezilirsə eləcə Sarı-Özək düzləri də qürub çağının xəfif dumanlığı içində namüəyyən bir görkəm alır.

– Xeyir ola, Abu, gecələr nə vaxt yolum evinizin qabağından düşürsə, həmişə başını pəncərədən görürəm. Yazırsan, ya bir şey təmir edirsən? Lampan da həmişə yanır, – deyə Yedigey söhbətə başladı.

– Çarəm nədir, – deyə Abutalıb çiynindəki belə o biri çiyninə atdı, – yazı masam yoxdur axı. Elə ki, o dəcəllər yatır, Zərifə də başlayır kitabdan-zaddan oxumağa, mən də keçirəm ora, bəzi qeydlər eləyirəm – müharibədən, nə qədər ki yadımdadır, əsasən, Yuqoslaviya illərini yazıram. Vaxt keçdikcə onlar da uzaqlaşır. – O, sözünə ara verdi: – Mən hey fikirləşirəm ki, görən uşaqlarım üçün neyləyə bilərəm. Yedirtmək, içirtmək, tərbiyə eləmək, bunlar olmalıdır, aydın məsələdir. Bu barədə əlimdən gələni eləyəcəyəm. Mən elə şeylərdən keçmişəm, elə sınaqlardan çıxmışam ki, bəlkə də başqası heç yüz ilə də elə şeylər görə bilməz, amma mən hələ də yaşayıram, nəfəs alıram, görünür, tale mənə bu imkanı ona görə verib ki, bir söz deyim, ilk növbədə öz uşaqlarım üçün. Madam ki, onları dünyaya gətirmişəm, bəlkə də yaşadığım həyat üçün onların qarşısında hesabat verməliyəm. Əlbəttə, söz yox, hamıya aid olan ümumi bir həqiqət var, amma bundan başqa hərənin özünəməxsus bir düşüncəsi də var. Bu anlayış bizimlə də gedəcək. İnsan bu dünyanın kəşməkəşində həyatla ölüm arasında hərlənən zaman onu azı yüz dəfə öldürə bilərlər, amma sağ qalır, çox şeylər öyrənir – xeyir və şər, həqiqət və yalan...

– Dayan bir görüm, – deyə Yedigey təəccüblə onun sözünü kəsdi. – Bəlkə də dediklərin doğrudur, oğlanların hələ uşaqdır, bərbər maşınından qorxurlar, onlar sənin yazdıqlarından nə anlayacaqlar?



– Elə ona görə də yazıram. Fikirlərimi onlar üçün qoruyub saxlamaq istəyirəm. Heç kim əvvəlcədən deyə bilməz ki, nə qədər yaşayacaq. Elə bax ta srağagün fikir məni elə aparmışdı ki, axmaq kimi az qala qatarın altına düşəcəkdim. Qazanqap özünü yetirdi. Yamanca da abrımı aldı: gərək, deyir, uşaqların bu gün diz çöküb Allaha şükür eləsinlər.

– Düz deyir, sənə neçə vaxtdır deyirəm. Zərifəyə də demişəm, – Yedigey də hirsləndi, fürsətdən istifadə edib öz sözlərini də dedi. – Relsin üstü ilə elə gedirsən ki, guya parovoz yoldan çıxıb sənə yol verməlidir! Oxumuş adamsan, nə qədər demək olar? Sən indi dəmiryolçusan, amma elə davranırsan ki, elə bil bazardasan. Zarafata salma, iş çıxardarsan.

– Elə şey olsa təqsirkar özüm olaram, – deyə o, qaşqabaqla razılaşdı. – Sən əvvəlcə mənə qulaq as, qoy sözümü qurtarım, sonra danlayarsan.

– Sözgəlişi dedim, danış, qulaq asıram.

– Keçmiş vaxtlarda adamlar uşaqlarına miras qoyub gedirdilər – var-dövlət... Bu miras xeyrə idi, ya şərə – bilmək olmurdu, gətirməyinə baxırdı. Bu barədə kefin istəyən qədər kitab, nağıl yazılıb, o dövrlərə aid tamaşalar oynanır, mirasın bölüşdürülməsini, sonradan vərəsələrin başına gələn işləri göstərirlər. Soruşa bilərsən neyçin? Onunçun ki, çox vaxt həmin var-dövlət əyri yollarla yaranmış olurdu, başqalarının əziyyəti bahasına, başqalarının zəhməti hesabına, yalanla-palanla, buna görə də onlar binasından şər, günah insafsızlıq mənbəyi olub. Mən özümə təskinlik verirəm ki, şükür Allaha, biz belə şeylərdən uzağıq. Mənim qoyduğum mirasdan heç kim korluq çəkməyəcək. Bu ancaq mənim ruhum, mənliyim, yazılarım olacaq, orda da ancaq müharibədə görüb başa düşdüyü məsələlərdir. Mənim uşaqlarım üçün bundan artıq dövlətim yoxdur. Mən bu fikrə burda Sarı-Özək çöllərində gəlmişəm. Həyat məni sıxa-sıxa gətirib bura ki, yox olum gedim, mən də nə fikrim varsa, hamısını yazacağam, gümanım var, vaxt gələr uşaqlarımın simasında arzularım yerinə yetər. Mənim eləyə bilmədiklərimi onlar eləyərlər... Onların həyatı bizimkindən də çətin olacaq. Qoy cavan yaşlarından başlarına ağıl yığsınlar...

Bir müddət hərə öz fikrilə məşğul, səssiz yeridilər. Belə-belə sözlər eşitmək Yedigeyə qəribə gəlirdi. Ona təəccüblü görünürdü ki, dünyada həyatın mənasını belə də başa düşmək olarmış. Buna baxmayaraq, o istədi ki, onu təəccübləndirən məsələni aydınlaşdırsın:

– Hamı deyir, lap elə radionun özü də deyir ki, uşaqlarımız bizdən yaxşı, bizdən rahat yaşayacaqlar, amma sən tərsinə deyirsən. Deyirsən ki, onların vəziyyəti bizimkindən ağır olacaq. Atom müharibəsi olacaq, deyirsən?

– Yox, canım məsələ təkcə onda deyil. Dava, bəlkə də heç olmadı, olsa da bu tezliklə olmaz. Söhbət çörəkdən getmir. Onu demək istəyirəm ki, çərxi-fələyin sürəti artır. Onlar hər şeyi özləri öyrənməyə, özləri dərk etməyə məcbur olacaqlar, hələ üstəlik bir az da bizim əməllərimizə cavab verməli olacaqlar. Düşünməksə həmişə ağır iş olub. Ona görə deyirəm ki, onların işi bizimkindən ağır iş olacaq.

Daha Yedigey bərkinə durmadı ki, niyə düşünmək həmişə ağır olub? Özü də çox nahaq yerə, sonralar bu söhbəti yada salanda çox heyfsilənirdi. Gərək soruşaydı, öyrənib biləydi onun mənası nə deməkdir...

– Bunları niyə deyirəm, – Abutalıb Yedigeyin şübhələrinə cavab verirmiş kimi davam etdi, – balacaların gözündə böyüklər ən ağıllı ən nüfuzlu adamlardır. Böyüyəndən sonra görəcəklər ki, demə müəllimləri, yəni biz, göründüyü kimi o qədər də çox bilən və ağıllı adamlar deyilmişik. Onlara gülmək də olarmış! Qocalıq vaxtları keçmiş tərbiyəçiləri bəzən onlara çox miskin görünəcək. Bəli, fələyin çərxi sürətini get-gedə artırır. Amma, zənnimizcə, biz özümüz haqqında son sözü özümüz deməliyik. Əcdadlarımız bunu əfsanələrində deməyə çalışıblar. Onlar öz böyüklüklərini sonrakı nəsillərə sübut etməyə çalışmışlar. Biz də əcdadlarımıza onların əfsanələrdə əks olunmuş ruhu əsasında qiymət veririk. Mən də buna görə əlimdən gələni eləyirəm ki, uşaqlarım bizi tanısınlar. Mənim əfsanələrim mənim hərbi illərimdir. Partizan dəftərlərimi onlar üçün yazıram. Necə olub elə, nə görmüşəm o, başıma nə gəlibsə o! Böyüyəndə lazımları olar. Bunlardan başqa da bəzi fikirlərim var. Uşaqlar Sarı-Özəkdə yaşamalı olacaqlar. Mənim fikrim odur ki, onlar böyüyəndən sonra elə bilməsinlər ki, boş yerdə böyüyüblər. Bizim qədim mahnıları yazmışam, bir az keçsə onlar da yaddan çıxıb itəcək. Mənə qalsa, o mahnılar bizim keçmişimizdən xəbər verir. Heç demə, sənin Ukubala belə mahnılardan çox bilir. Dedi ki, hələ təzələrini də yada salıb oxuyacaq.

– O eləyər, oxuyar, soyu-kökü Araldandır axı!.. – Deyimindən görünürdü ki, Yedigeyi bu çox öyündürür. – Aral qazaxları sahildə yaşayırlar, dəniz görəndə də adamın oxumağı gəlir. Dəniz hər şeyi hiss eləyir. Elə ki, ürəkdən bir şey dedin, o saat qəbul eləyir.



– Bunu düz deyirsən, tamam doğrudur. O gün yazdıqlarımı bir də oxudum, Zərifə də, mən də qəhərləndik, az qalmışdı ki, ağlayaq. Qədimlərdə nə qədər gözəl oxuyurmuşlar! Hər mahnı bir tarixdir. O adamlar hamısı gəlib durur gözünün qabağında. Adam istəyir ki, onlara qovuşub canbir qəlb olsun. Onlar kimi sevmək və əzablara dözmək istəyirsən. Sən gör özləri haqqında necə xatirə qoyub gediblər! Mən Qazanqapın Bikəsinə də demişəm ki, öz qaraqalpaq mahnılarını yadına salsın. Ayrı dəftərə yazacağam. Qaraqalpaq dəftərimiz də olacaq...

Onlar beləcə söhbət eləyə-eləyə dəmiryolu boyunca gedirdilər. Çox qəribə idi. Payız bu səfalı axşamı insana yüngüllük gətirən rahat bir köks ötürməsi kimi yavaş-yavaş əriyib gedirdi. Məəttəl qalmalı iş idi – buralarda nə meşə vardı, nə çay, nə çəmən. Amma yerin açıq simasında işıqla kölgənin sezilməz hərəkəti, qürub edən Günəş çöllüyə nə isə bir dolğunluq gətirmişdi. İnsanın nəfəsini qısan tutqun və axıcı bir mavi genişlik xəyalı qanadlandırır, çoxluca yaşamaq və düşünmək həvəsi oyadırdı...

Bu məqamda Abutalıb fikrində sonraya saxladığı bir məsələni də xatırlayıb, söhbətin yeri gəldiyini hiss edərək sükutu pozdu:

– Bura bax, Yedigey çoxdan soruşmaq istəyirdim. O Donenbay quşunu deyirdim. Necə bilirsən, yəqin təbiətdə belə bir quş var da – Donenbay quşu. Sənə rast gəlməyib ki?

– Bu əfsanədir axı...

– Başa düşürəm. Çox vaxt əfsanənin həyati əsası da olur. Olmuş bir şeylə təsdiq edilir. Məsəlçin götürək elə bizim İsaq-musak quşunu, bizim dağlıq yerlərin bağlarında səhərəcən oxuyub bir-birini səsləyirlər – guya itən iki qardaş bir-birini axtarır. Bu barədə nağıl da var. Mən fikirləşirəm bəlkə bu əfsanədə də belə bir şey var? Deyirəm, bəlkə uzaq çöllərdə elə bir quş var ki, səsi, çığırmağı adam adı Donenbaya oxşayır, ona görə də əfsanədə adı çəkilir.

– Yox ağlım kəsmir. Zənnimcə, belə şey yoxdur, – deyə Yedigey onunla razılaşmadı. – Mən bu yerləri eninə-uzununa ayaqdan salmışam, amma heç yerdə belə quşa rast gəlməmişəm. Yəqin elə quş yoxdur.

– Bəlkə də, – Abutalıb fikirli-fikirli cavab verdi.

Yedigey onun belə fikirli cavabından narahat olub soruşdu:

– Necə ki, belə bir quş yoxdursa, deməli, əfsanə də düz deyil?

– Yox niyə ki! Bəs Ana-Beyit qəbiristanlığı nədir? Deməli, nəsə bir şey olub da! Bir də mənə qalsa, elə bilirəm, Donenbay quşu var. Kim isə, nə vaxtsa o quşu görəcək. Uşaqlar üçün belə yazacağam.

– Uşaqlar üçün ayrı məsələ, – deyə Yedigey mızıldandı – Uşaqlar üçün olar...

Boranlı Yedigey Nayman-Ana haqqındakı əfsanəni kağıza yazan cəmi iki adam tanıyırdı. Əvvəlcə bunu Abutalıb Kuttubayov öz uşaqları üçün yazmışdı, böyüyəndə oxusunlar. Bu əlli ikinci ilin axırında idi. O yazı itib getdi. O əhvalatdan sonra başlarına nə qədər işlər gəldi! O vaxt yazı yada düşmürdü! Bir neçə il sonra, əlli yeddinci ildə həmin əfsanəni Yelizarov Afanasi İvanoviç yazdı. İndi artıq Yelizarov da dünyadan gedib. Kim bilir, bəlkə həmin əlyazması onun Alma-Atadakı yazılarının içində qalır... Abutalıb da, o da əfsanəni əsasən Qazanqapın dilindən yazmışdı. Yedigey ancaq kənardan kömək eləyir, yaddan çıxanları yada salır, bəzən də yozum verirdi...

"İllərə bax ey! Gör üstündən nə qədər keçib, ilahi!" – Boranlı Yedigey üstünə naxışlı tərlik salınmış Qaranərin donqar belində yırğalana-yırğalana fikirləşirdi. İndi o, Qazanqapın özünü Ana-Beyit qəbiristanlığına aparırdı. Bir növ çevrə qapanan kimi olurdu. Əfsanəni söyləyənin özü, tarixini yadında saxlayıb başqalarına çatdırdığı qəbiristanlıqda son məskən tutmalı idi.

"Bircə biz qalmışıq, – mən, bir də Ana-Beyit. Elə mənim də vaxtıma çox qalmayıb, gəlməliyəm. Gəlib öz yerimi tutmalıyam. Axırı buna gedir" – Yedigey qəm içində, beləcə fikirləşə-fikirləşə yenə də yedəkli traktor və çarxlı ekskavatordan ibarət olan bu qəribə dəfn qafiləsinin önündə gedirdi. Qafiləyə özbaşına qoşulan sarı köpək – Culbars özünü tamam sərbəst aparır, gah irəli keçir, gah dala qalır, böyürdən qaçır, hərdən də istədiyi yerdə yox olurdu... Quyruğunu şax tutmuşdu. Gün günorta yerinə qalxmışdı. Ana-Beyit qəbiristanlığına daha o qədər də yol qalmamışdı...

## VIII

Hər halda yazın gəlişi gecikse də, əlli ikinci ilin axırı – yəni bütün payız, boransız, çovğunsuz qış Boranlı razyezdinin o zamankı bir ovuc sakini üçün, demək olar ki, ən yaxşı günlər idi. Sonralar Yedigey o günləri yadına saldıqca qüssələnirdi.

Boranlıların ədəb-ərkan gözləyən, heç vaxt özünə aid olmayan işlərə baş qoşmayan, hamının ağsaqqal hesab elədiyi Qazanqapın canı



hələ sulu idi, əməlli-başlı sağlam adam idi. Onun Sabitcanı Kumbeldəki internatda oxuyurdu. O vaxt Kuttubayovgil Sarı-Özəkdə əməlli kök salmışdılar. Qışa tərəf kartof ehtiyatı tutmuşdular, Zərifə və uşaqlara keçə çəkmə almışdılar, Kumbeldən bir çuval un gətirmişdilər, unu Yedigeyin özü alıb, o vaxt özünü təzə tanımış cavan Qaranərə yükləyib gətirmişdi. Abutalıb boş vaxtlarında yenə də əvvəlki kimi uşaqlarla məşğul olurdu, gecələri isə şıdırğı yazırdı.

Onlardan başqa razyezddə iki-üç başqa ailə vardı, stansiya işçiləri olsalar da görünürdü ki, müvəqqəti, gəldi-gedərdilər. Razyezdin o vaxtkı rəisi Əbilov da pis adama oxşamırdı. Boranlılardan heç biri xəstələnmirdi. İş gedirdi. Uşaqlar böyüyürdü. Yolun təmiri də öz vaxtında görülürdü.

Sarı-Özək çöllərinə qəhvəyi payız gəlmişdi. Sonra da qış başladı – qar birdən-birə düşdü. Bu da çox gözəldi – hara baxırdın göz işlədikcə dümağ idi. Bu bəyaz səssizlik içində bir cüt qara xətt uzanırdı və bu qara xəttin böyründəcə kiçik bir qəsəbə yerləşmişdi – Boranlı razyezdi... Bir neçə ev və qeyri tikililər... Yolla ötənlər vaqonlardan laqeyd nəzərlərlə qəsəbəni süzür, bəziləri də bir anlığa razyezdin tənha sakinlərinə acıyırdı...

Ancaq bu ötəri acıma nahaq yerə idi. Ancaq yayın cəhənnəm istisi nəzərə alınmasa, şükür ki, o vaxtlar ötüb keçmişdi, boranlılar bu ili çox yaxşı il hesab edirdilər. Əslinə qalsa, elə hər yerdə belə idi – müharibədən sonra hamının güzəranı təzə-təzə yoluna düşürdü. Yeni il üçün ərzaq sənaye mallarının qiymətinin yenidən endiriləcəyi gözlənilirdi, doğrudur, mağazalarda sən deyən şey-mey tapılmasa da, hər halda ildən-ilə vəziyyət yaxşılaşırdı...

Adətən boranlılar Yeni il bayramına o qədər də fikir verməzdilər, bir para adamlar kimi gecə yarısını səbirsizliklə gözləməzdilər. Dəmiryolunda iş ara vermirdi, Yeni ilin yolda onları nə vaxt haqlayacağına əhəmiyyət verməyən qatarlar hərəkətdə idi. Bundan başqa qışda təsərrüfat işləri də artırdı. Sobalar qalanmalı idi. Ağıldakı və çöldəki heyvanlara da qulluq lazım gəlirdi. Gün uzunu adam lap əldən düşürdü, ona görə deyirdi ki, bircə axşam gələydi, başımı atıb yataydım...

İllər beləcə bir-birinin ardınca ötüb keçirdi...

Əlli üçüncü ilin ərəfəsində isə Boranlıda əməlli-başlı bayram oldu. Şübhəsiz, bayramı Kuttubayovgil təşkil eləmişdilər. Yedigey Yeni il hazırlıqlarına lap axırda qoşuldu. Məsələ Kuttubayovgilin uşaqlara

yolka bəzəmək fikrindən başlandı. Bəs yolkanı hardan tapsınlar? Sarı-Özəkdə qədim dövrlərdə yaşamış nəhəng dinozavrın yumurtasını tapmaq yolka tapmaqdan asa idi. Yelizarov Sarı-Özəkdəki geoloji cığırlarla gəzə-gəzə doğrudan da milyon illər əvvəl yaşamış dinozavrın daşlaşmış yumurtasını tapmışdı. Bu daşlaşmış yumurtaların hərəsi bir qarpız boyda olardı. Onları Alma-Atadakı muzeyə apardılar. Bu barədə qəzetlər də yazmışdılar.

Abutalıb Kuttubayov məcbur oldu ki, ayaza-şaxtaya baxmayıb yolka tapmaq üçün Kumbelə getsin. O boyda stansiyaya beşcə dənə yolka vermişdilər. Abutalıb stansiyanın yerli komitəsiylə xeyli danışandan sonra yolkalardan birini Boranlı razyezdi üçün qopara bilmişdi. Məsələ də elə bundan başladı. Yedigey anbarın yanında razyezdin rəisindən iş əlcəkləri alırdı, elə bu vaxt ayazdan krujeva kimi qırov tutmuş yük qatarı şaxtalı havaya məxsus bir qıcırtı ilə birinci yolda dayandı. Uzun bir qatar idi, dördoxlu vaqonların hamısı plomblanmışdı. Abutalıb axırıncı vaqonun açıq meydançasından dəri çəkmədə donmuş ayaqlarını zorla tərpədərək yerə düşdü. Əynində qalın kürk, başında da qulaqları boğazının altında möhkəm bağlanmış xəz papaq olan bələdçi, meydançada zor-bəla tərpənərək ona nə isə yöndəmsiz bir şey verməyə çalışırdı. Yedigey başa düşdü ki, bu yolkadır, çox da təəccübləndi.

– Ey, Yedigey Boranlı! Gəl kişiyə kömək elə! – Bələdçi yekə gövdəsini vaqondan sallayıb Yedigeyi səslədi.

Yedigey tələsik özünü onlara yetirdi və Abutalıbı görəndə mat qaldı. Abutalıb qaşlarınacan ağappaq idi, üst-başı qar içində, elə donmuşdu ki, dodaqları tərpənmirdi. Yolka da yanında idi, o bu yolkadan ötrü az qala o dünyaya getməli olacaqdı.

– Adamı da belə yola salarlar! – deyə bələdçi xırıltıyla qışqırdı. – Küləkdən az qala canı çıxacaqdı. İstədim kürkümü verim, dedim bəs özüm neyləyim! Soyuqdan canım çıxar.

Dodaqlarının donu bir balaca açılan kimi, Abutalıb üzr istədi:

– Gərək bağışlayasınız, işdir olub. Elə indi, burdaca qızınaram.

Bələdçi Yedigeyə baxa-baxa deyinirdi:

– Ona deyirəm ki, mən hələ kürkün altından sırıqlı geymişəm, ayağıma da keçə çəkmə, başımda qulaqlı papaq, de gəl, yolu başa vuranacan ağlım başımdan çıxır. Heç belə şey olar?!

Yedigey xəcalətlə dedi:

– Düz deyirsən, Profim, nəzərə alarıq. Çox sağ ol. Sənə yaxşı yol.



O, yolkanı götürdü. Yolka adam boyda olardı, yaman da soyuq idi. Ağacdan qış meşəsinin ətri gəlirdi. Yedigeyin ürəyi atlandı – cəbhədəki meşələr yadına düşdü. Ordakı küknar meşələrinin ucu-bucağı yox idi. Tanklar vurub yıxırdı – mərmilər eşim-eşim eşirdi... O vaxt Yedigeyin ağlına gəlməzdi ki, vaxt gələcək, yolkanın ətri ona belə ləzzət verəcək.

Yedigey Abutalıba çəpəki nəzər salıb, yolkanı çiyninə atdı:

– Gedək.

Abutalıbın bomboz bozarmış sifətinin dərisi ayazdan dümbək kimi tarım çəkilmişdi, gözünün suyu yanaqlarında donub buz bağlamışdı, amma qırov tutmuş qaşlarını altından baxan gözləri sevincdən par-par yanırdı. Yedigeyi birdən dəhşət götürdü: görəsən uşaqlar atalarının bu sədaqətini başa düşəcəklərmi? Axı, həyatda hər addımbaşı bunun əksini görürsən. Minnətdarlıq əvəzinə – laqeydlik, bəzən hətta nifrət... "Allah onu bu bəladan saxlasın, onsuz da kişinin başı qaldadır", – deyə Yedigey öz-özünə fikirləşdi. Yolkanı hamıdan qabaq Kuttubayovun böyük oğlu Daul gördü. O, sevincindən çığırıb özünü baraka soxdu. Oğlanın içəri girməyi ilə Zərifə və Ermek özlərini bayıra atdılar.

– Yolka, yolka, yolkaya bax, yolkaya, – Daul çığıra-çığıra yolkanın dövrəsində atılıb-düşürdü.

Zərifə də ondan geri qalmırdı:

– Nə əcəb tapa bildin, nə yaxşı oldu!

Heç demə Ermek hələ bu vaxta qədər yolka görməyibmiş. O, gözlərini Yedigeyin əlindəki yolkadan çəkmirdi.

– Anacan, bu yolkadır, hə? O yaxşı ağacdır, hə? O bizim evdə bitəcək, hə?

Yedigey başını bulaya-bulaya Zərifəyə dedi:

– Ruslar demişkən, bu "yolki-palki"dən ötrü ərin az qalmışdı ki, donub buza dönsün! Tez çək onu içəri, bir az qızışdırıb donunu açaq. Əvvəlcə çəkmələrini çıxarmaq lazımdır.

Çəkmələr donub yapışmışdı Abutalıbın ayaqlarına. Hərə bir tərəfdən yapışıb ayaqqabıları onun ayağından dartanda, Abutalıb ağrıdan dişlərini kilidləyib sifətini qırışdırır, hərdən də özünü saxlaya bilməyib zarıyırdı. Uşaqlar xüsusi canfəşanlıq eləyirdilər. Onlar qalın göndən tikilmiş ağac çəkmələrdən yapışıb, şaxtanın dondurub daş kimi bərkitdiyi çəkmələri atalarının ayaqlarından necə gəldi çəkib çıxarmağa çalışırdılar. Axırda anaları onları qovdu:

– Uşaqlar, siz çəkilin, mane olmayın, özüm çıxardaram!
Amma Yedigey etiraz edib yavaşdan dedi:
– İşin olmasın, Zərifə, qoy zəhmətə alışsınlar.
O, daxilən hiss edirdi ki, Abutalıb üçün ən böyük mükafat uşaqlarının məhəbbəti və onun ağrılarına şərik olmalarıdır. Deməli, daha adam olublar, deməli, ağılları bir şey kəsir. Kiçik oğlanın hərəkətləri xüsusilə gülməliydi. Ermek nədənsə atasına "atika" deyirdi. Heç kəs onun səhvinin düzəltmək istəmirdi, çünki insan dilindəki ən ilkin sözlərdən biri olan bu sözün deyilişini o özü dəyişmişdi.
– Atika, atika, – deyə-deyə o, qıpqırmızı pörtərək vurnuxurdu. Onun buruq saçları pırpızlaşmışdı, gözləri nə isə lazımlı bir iş görmək şövqü ilə yanırdı, təhər-tövrü də elə ciddi idi ki, adamın lap gülməyi gəlirdi.
Elə bir şey eləmək gərəkdi ki, uşaqlar öz arzularına çata bilsinlər! Yedigey bunun yolunu tapdı. Çəkmələrin artıq istidən donu açılmağa başlamışdı, indi onları Abutalıba əziyyət vermədən çəkib çıxarmaq olardı.
– Gəlin, keçin arxama, uşaqlar, gəlin qatar kimi dartaq. Daul gəl sən məndən yapış, Ermek, sən də yapış Dauldan.
Abutalıb məsələni başa düşüb sobanın tüstüsündən gözləri yaşarmış halda razılıqla başını tərpədib gülümsündü. Yedigey gəlib Abutalıbın qarşısında oturdu, uşaqlar da onun arxasına keçdilər. Elə ki, bir-birindən yapışıb hazırlaşdılar, Yedigey çəkmələri çıxarmağa başladı.
– Hə, uşaqlar, bərk yapışın, ikiniz də birdən çəkin! Tək bacara bilmərəm! Gücüm çatmaz! Daul, çək, Ermek, çək! Bərk bir az da bərk!
Uşaqlar gücləri gəldikcə dartır, kömək eləməyə çalışırdılar, Zərifə də azarkeşlik eləyirdi. Yedigey özü qəsdən gücənir, guya çəkməni çıxarda bilmirdi. Buna görə də axır ki, çəkmənin birini çıxaranda uşaqlar sevinə-sevinə qışqırışdılar. Zərifə tez ərinin üstünə cumub yun yaylıqla ayağını ovuşdurmaq istədi, ancaq Yedigey hamını qabaqlayıb saxladı:
– Hə, uşaqlar, ay ana, bəs ikinci çəkməni kim çıxaracaq? Yoxsa deyirsiniz bir ayağı yalın qalsın, bir ayağı çəkməli? Elə yaxşıdır?
Nədənsə hamı səs-səsə verib güldü. Hamı yerə yıxılıb uğunurdu, illah ki, Abutalıb...
Sonradan Boranlı Yedigey dəhşətli bir sirri başa düşmək üçün dəfələrlə öz-özünə fikirləşirdi, kim bilir, bəlkə də elə həmin dəqiqələrdə Boranlıdan çox-çox uzaq yerlərdə Abutalıb Kuttubayovun adı yenidən partlayıb kağızlarda üzə çıxmışdı. Və həmin kağızları alan adamlar bu kağızların əsasında nə bu ailədə, nə razyezddə heç kəsin nə ağlına gələ bilən, nə də yuxuda görə biləcəyi bir məsələni həll edirdilər.



Bəla çox nagahani gəldi. Əlbəttə, Yedigey belə-belə işlərdə bir az təcrübəli, bir az da çoxbilmiş olsaydı, məsələdən baş çıxarmasaydı da, hər halda onu dumanlı da olsa duyar, narahat olardı.
Nədən narahat olmalıydı axı? Məsələ burasında idi ki, həmin ilin axırına yaxın sahə müfəttişi razyezdə gələrdi. O, cədvəl üzrə stansiyaları, razyezdləri bir-bir gəzərdi. Gələr, bir-iki gün qalar, maaşın necə verildiyini, materialların necə sərf edildiyini yoxlar və başqa belə-belə işlərlə maraqlanandan sonra razyezdin rəisi və fəhlələrdən biri ilə gördüklərini aktlaşdırar, sonra da səmtinə düşən qatara minib gedərdi. Axı, razyezddə nə iş ola bilərdi ki? Bəzən elə Yedigeyin özü də belə yoxlama aktlarına qol çəkərdi. Bu dəfə müfəttiş Boranlıda üç gün qaldı. Gecələri razyezdin əsas binası olan növbə evində qalırdı. Burda həm telefon, həm də rəisin kabinet adlandırdığı otaq vardı. Razyezdin rəisi Əbilov yüyürə-yüyürə çaynikdə ona çay daşıyırdı. Yedigey də gəlib müfəttişə baş çəkdi. Kişi oturub tüstülədə-tüstülədə kağızları yoxlayırdı. Yedigey elə bilirdi ki, ələn əvvəlki tanışlardandır, amma gördü yox, bu dəfə gələn təzə adamdır. Qırmızıyanaq, seyrək dişli, çal, gözlüklü bir adam idi. Nə isə sürüşkən və güləş bir şey sezilirdi gözlərində.
Onlar axşamdan xeyli keçmiş bir də rastlaşdılar. Yedigey növbəni təhvil verib qayıdanda gördü ki, müfəttiş növbətçi evinin qabağındakı fənərin altında gezişir. Başında çal papaq vardı, paltosunun çal dərili yaxalığını qaldırıb, fikir içində papirosunu tüstülədə-tüstülədə gəzir, ayağının altındakı qumu xırtıldadırdı.
– Axşamınız xeyir, deyəsən, papiros çəkməyə çıxmısınız? Kağızlar yorub sizi, deyəsən? – Yedigey qayğı ilə maraq göstərdi.
– Hə, elədir, – deyə müfəttiş gülümsündü. – Ağırdır. – Yenə də gülümsündü.
Yedigey də ədəb gözləyib təsdiq etdi:
– Aydın məsələdir.
– Sabah səhər gedirəm, – müfəttiş bildirdi. – On yeddinci gələndə dayanacaq, minib gedəcəm. – Bir də gülümsündü. Səsi boğuq çıxırdı,

elə bil istəmədən, zorla danışırdı. Gözlərini isə qıyıb diqqətlə baxırdı.

– Yedigey Jangəldin sisiniz, deməli?

– Bəli mənəm.

– Mən hiss eləmişdim – müfəttiş seyrək dişləri arasından güclü bir tüstü burumu fısqırtdı. – Keçmiş cəbhəçi. Qırx dördüncü ildən razyezddə işləyirsiniz. Dəmiryolçular sizə Boranlı deyirlər.

– Bəli, doğrudur, – deyə Yedigey sadəlövhlüklə cavab verdi. Bir tərəfdən müfəttişin onun haqqında belə çox bilməyi Yedigeyə xoş gəlirdi, digər tərəfdən təəccüblənirdi ki, belə dəqiq məlumat bunun nəyinə lazımdır ki, yadında saxlayıb?

Görünür Yedigeyin nə fikirləşdiyini hiss edib, müfəttiş yarıtəbəssümlə sözünə davam etdi:

– Mənim hafizəm yaxşıdır. Axı mən də sizin Kuttubayov kimi yazıram, – deyə o, başının hərəkətiylə Kuttubayovgilin evini göstərib, tüstünü o tərəfə fısqırtdı. Yenə də həmişəki kimi pəncərənin qabağında oturub yazı yazan Kuttubayovun başı görünürdü. – Üç gündür fikir verirəm – elə hey yazır. Başa düşmürəm, elə mən özüm də yazıram. Amma mənimki şeirdir, şeir yazıram. Demək olar ki, hər ay deponun çoxtirajlı qəzetində çap olunuram. Orada ədəbiyyat dərnəyimiz var. Rəhbəri mənəm. Bir dəfə səkkiz mart bayramında vilayət qəzetində çap olunmuşam, bu il də may bayramında.

Onlar susdular. Yedigey sağollaşıb ayrılmaq istəyəndə müfəttiş yenə danışmağa başladı:

– O, Yuqoslaviyadan yazır?

– Vallah, düzünü bilmirəm, – deyə Yedigey cavab verdi. – Deyəsən, orda partizanlıq edib axı, uşaqları üçün yazır.

– Bilirəm, Əbilovdan soruşmuşam. Dediyindən belə çıxır ki, əsirlikdə də olub. Deyəsən, bir müddət müəllimlik də eləyib. İndi özünü göstərmək üçün qələmə qurşanıb hə, – müfəttiş nə isə xısıltılı bir səslə güldü. – Amma bu o qədər də asan iş deyil. Mən də böyük bir əsər üzərində düşünməyə başlamışdım. Deyirdim ki, cəbhəni, arxanı, zəhməti göstərəcəyəm... Heyf ki, bizdə vaxt yoxdur, çatmır, ömür ezamiyyətlərdə keçir...

– O da ancaq axşamlar vaxt eləyib yazır, gündüzlər işdə olur, – deyə Yedigey cavab verdi.

Onlar yenə susdular. Yedigey bu dəfə də macal tapıb ayrıla bilmədi.

– Elə hey yazır, başını da qaldırmır, – müfəttiş Abutalıbın pəncərədən görünən kölgəsindən gözünü çəkməyərək yenə də xısın-xısın güldü.



Yedigey cavabında dedi ki:

– Adam gərək bir şeylə məşğul olsun da... Oxumuş adamdır. Yan-yörəsində adam yox, bir şey yox... Ona görə də vaxtını yazmaqla keçirdir.

– Aha, bu da yaxşı fikirdir – yan-yörəsində adam yox... – Müfəttiş dodaqaltı donquldanıb nəsə fikirləşə-fikirləşə gözlərini qıydı. – Sərbəst adamsan, yan-yörəndə kimsə yox, yaxşı ideyadır... Sərbəst adamsan...

Söhbət bura çatanda onlar ayrıldılar. Sonrakı günlər Yedigeyin fikrində idi ki, fürsət tapan kimi, bu söhbəti Abutalıba danışsın, amma nə isə baş tutmadı, bir azdan sonra da yaddan çıxıb getdi.

Üzü qışa idi, iş də çox. Ən böyük məsələ o idi ki, Qaranər qızmağa başlamışdı. Bu heyvan, yiyəsi üçün əsl başağrısı, Allah bəlası idi! Cavan atanşa Qaranər yetişəndən sonra Yedigeyin günü qara olmuşdu. Keçən iki ildə onun qızmağı hələ bu dərəcəyə çatmırdı, qorxu-hürkü qanırdı, üstünə qışqıranda tabe olurdu. Bir də ki, Boranlı sürüsündəki qoca nər – Qazanqapın dəvəsi onu qol-qanad açmağa qoymurdu. Onu döyə-döyə, gəmirə-gəmirə mayalardan uzaqlaşdırırdı. Nə fayda! – Çöl böyük, düzənlik gen – bu yandan qovanda o yandan yetirirdi. Beləcə qoca atan səhərdən-axşamacan onu qovur, axırda yorulub əldən düşürdü, cavan və qızğın Qaranər zorla olmasa da biclikl ə məqsədinə çatırdı.

Amma yeni mövsümdə – soyuqlar düşən kimi – təbiətin əbədi çağırışı dəvələrin qanını qaynadanda Qaranər Boranlı sürüsündə hakim oldu. Qaranər gücə-qüvvətə dolmuşdu, qabağına çıxanı yıxıb dağıdırdı. Qazanqapın atanını qova-qova yarğanın dibinə salıb döyə-döyə, tapdaya-tapdaya, gəmirə-gəmirə yarımcan eləmişdi, çölün düzündə görən yox, ayıran yox. Bu təbiətin amansız qanunu idi. meydan Qaranərin idi. İndi nəsil növbəsi ona çatmışdı. Di gəl ki, bu məsələ üstündə Qazanqapla Yedigey ömürlərində ilk dəfə sözləşdilər. Qazanqap yarğanın dibində tapdanmış nərini görəndə bu acınacaqlı mənzərəyə dözə bilmədi. Çöldən qayıdanda qaşqabağı yerlə gedirdi. O, Yedigeyin üzünə baxmadan:

– Belə şeyə niyə yol verirsən? – dedi – Onlar heyvandır, biz ki, adamıq! Sənin Qaranərinin elədiyi qatillikdir! Elə heyvanı açıb buraxırsan çölə!

– Mən buraxmamışam, özü qırılıb qaçıb, Qazakə. Axı mən onu necə bağlayıb saxlayım?! Zəncirləyirəm, zənciri də qırır. Özün bilirsən,

atalar nahaq deməyiblər ki: "güc atasın tanımazdı"[1]. İndi dövran onun dövranıdır.

– Sən də sevin. Dayan, hələ baxarıq dalı necə olacaq. Ona yazığın gəlir, burnunu deşmirsən ki, şiş[2] keçirdə biləsən... Dayan, hələ başına çox işlər gətirəcək, hələ dalınca çox qaçacaqsan. Belə yırtıcı, bir sürüylə soyuyan deyil. Gedib Sarı-Özəyin nə ki nəri var hamısıyla döyüşəcək. Qabağında duran olmayacaq. Onda mənim sözlərimi yadına salarsan...

Daha Yedigey Qazanqapın sözünün üstündən söz yetirmədi, kişiyə hörməti vardı, bir də ki, haqqına qalsaydı, Qazanqap haqlı idi. Buna görə də barışıq niyyəti ilə mızıldandı:

– Özün bağışlamısan ki, köşək vaxtı, indi də dava eləyirsən. Yaxşı, fikirləşib bir şey taparam, əl-ayağını yığışdıraram.

Amma Qaranər kimi bir gözəl nərə buruntaç vurmaqdan ötrü burnunu deşməyə onun əli gəlmədi. Sonralar o, Qaranər onun canını boğazına yığanda dəfələrlə Qazanqapın sözlərini xatırlamışdı, and içib qəsəm eləmişdi ki, heç nəyə baxmayacaq, tutub burnunu deşəcək, amma yenə də əli gəlməmişdi, nərə əl vurmamışdı. Bir vaxt fikrə düşdü ki, tutub axtalasın, yenə də ürəyi gəlmədi. İllər isə ötürdü, hər dəfə qış soyuqları başlayanda, Yedigeyin də əzablı günləri başlayırdı. Qızıb çöllərə düşmüş Qaranəri axtarmağa gedirdi.

Elə o qış da Qaranərə görə yadında qalmışdı. O, Qaranəri sakitləşdirib, dəvə təzədən qaçmasın deyə ağılı bərkitməklə məşğul olanda Yeni il bayramı da gəlib çatdı. Kuttubayovgil yolka bəzəməyə hazırlaşırdılar. Bu, Boranlı uşaqları üçün böyük hadisə idi. Ukubalayla qızları, demək olar ki, köçüb qalmışdılar Kuttubayovgildə. Bütün günü sərasər hazırlıqla, yolka bəzəməklə məşğuldular. Yedigey hər dəfə işə gedəndə, işdən qayıdanda əvvəlcə Kuttubayovgilə baş çəkirdi ki, yolkaya baxsın. Yolka günü-gündən gözəlləşirdi: onu əlvan lentlər və özləri düzəltdikləri oyuncaqlarla bəzəyirdilər. Bu məsələdə qadınlara əhsən demək lazım idi, – Zərifə ilə Ukubala uşaqların xətrinə əllərindən gələni eləmişdilər. Şübhəsiz, məsələ təkcə yolka deyildi, bəlkə də yolkadan çox yeni il arzularında, ümidlərindəydi, hamının sövqitəbiilə gözlədiyi, nə isə tezliklə baş verəcək xoşbəxt dəyişikliklərdə idi.

[1] Qolu zorlu adam atasını da tanımaz.
[2] Şiş – dəvəni noxtalamaq üçün istifadə olunan alət.



Abutalıb bununla kifayətlənmirdi, uşaqları həyətə çıxarıb böyük bir qar qarısı düzəltməyə başladılar. Əvvəlcə Yedigey elə bildi ki, onlar oyun oynayırlar, əylənirlər, amma sonra Abutalıbın bu əməlinə heyran qaldı. Adam boyda yekə bir qar qarısı, gülməli, əcaib bir şey düzəltmişdilər, kömürdən ona qara qaş-göz qoymuşdular, burnu qırmızıydı, gülməkdən ağzı qulaqlarına çatırdı, başına da Qazanqapın tülkü dərisindən tikilmiş köhnə papağını keçirmişdilər. Qar qarısı razyezdin qabağında dayanıb qatarları qarşılayırdı – bir əlində yaşıl bayraq – yəni yol açıqdır, bir əlində də çay taxtası vardı – taxtanın üstündə "Yeni 1953-cü iliniz mübarək!" sözləri yazılmışdı. Əntiqə çıxmışdı! O qar qarısı yanvarın birindən sonra hələ xeyli vaxt qaldı.

Ötüb keçən ilin 31 dekabrında Boranlının uşaqları həyətdəki bəzəkli yolkanın dövrəsində axşamacan oynadılar. Növbədə olmayan böyüklər də orda idilər. Ertəsi gün Abutalıb Yedigeylə danışırdı ki, uşaqlar səhər tezdən necə onun yorğan-döşəyinə girib oyatmaq istəyirmişlər, o da özünü yuxuluğa vurub durmurmuş. Ermek onu itələyib deyirmiş ki: "Atika, atika dur. İndi Şaxta baba gələcək, gedək onu qarşılayaq".

– Yaxşı, – deyirəm, – indi durub əl-üzümüzü yuyarıq, paltarımızı geyərik, gedərik, söz verib gələcək...

Böyüyü soruşur ki:

– Hansı qatarla gələcək?

– Rastına hansı keçsə, – deyirəm, – Şaxta baba üçün hansı qatar desən dayanar, lap bizim razyezddə də...

– Onda tez olun, durun!

– Mən də tam ciddiliklə deyirəm ki, deməli onda yığışırıq.

Daul bunu eşidəndə narahat oldu:

– Bəs anam? Axı o da Şaxta babanı görmək istəyir.

– Doğru deyirsən, – deyirəm, – bəs necə, onsuz olarmı, onu da çağırın. – Qərəz ki, yığışıb hamımız bir yerdə evdən çıxdıq. Uşaqlar bizi qabaqlayıb növbətçi binasına tez çatdılar. Biz də onların dalınca özümüzü yetirdik, uşaqlar ha ora-bura qaçdılar, ha o yan-bu yana baxdılar, Şaxta babanı görə bilmədilər.

– Atika, bəs Şaxta baba hanı?

– Bu saat növbətçidən öyrənərəm, – dedim, – tələsməyin. Girdim növbətçinin otağına, dünəndən orda Şaxta babadan məktub, bir də bir bağlama gizlətmişdim. Çıxan kimi cumdular üstümə.

– Nə oldu, atika?

– Bilirsizmi, – dedim, – Şaxta baba sizə məktub qoyub, budur baxın: "Əziz balalarım Daul və Ermek. Mən sizin məşhur razyezdiniz. Boranlıya səhər tezdən, saat beşdə gəldim. Hava çox soyuq idi, siz yatmışdınız. Elə mən özüm də çox soyuğam, saqqalım da buz yundandır. Qatar cəmi iki dəqiqə dayanacaqdı. Ancaq yetirə bildim ki, məktub yazım, hədiyyələrinizi qoyum gedim. Torbada razyezd uşaqlarının hərəsinə bir alma, iki qoz var. İnciməyin, hələ görüləsi işim çoxdur. Başqa uşaqların yanına gedirəm. Onlar da məni gözləyirlər. Gələn Yeni ildə çalışaram ki, sizinlə görüşək. Hələlik sağlıqla qalın. Sizin Şaxta baba, Ayaz ata". Dayan, dayan, burda nə isə yenə yazılıb. Çox tələsik yazıb oxumaq olmur, yəqin qatar yola düşürmüş. Hə, oxuya bildim: "Daul, itini vurma, bir dəfə eşitdim, onu qaloşla vuranda yaman zingildədi. Amma sonra elə şey eşitmədim. Görünür daha onu incitmirsən. Vəssalam. Bir daha sizin Ayaz ata". Dayan görüm, deyəsən yenə nəsə yazılıb. Hə başa düşdüm: "Qar qarısını yaxşı düzəltmisiniz. Afərin! Mən onunla əl verib görüşdüm".

Uşaqlar yaman sevindilər. Şaxta babanın məktubu onları tam inandırdı. Bircə mübahisə onun üstündə düşdü ki, torbanı kim aparsın. Burda anaları köməyə gəldi:

– Əvvəlcə Daul on addım aparsın, o böyükdür. Sonra da sən on addım apar, Ermek sən kiçiksən...

Yedigey sidq-ürəkdən qəhqəhə çəkib güldü: "Yaman şeysiniz, elə mən də olsaydım inanardım".

Bunun əvəzində, günorta Yedigey hamıdan hörmətli olmuşdu. O, uşaqları kirşədə gəzdirdi. Qazanqapda köhnə bir kirşə vardı. Kirşəyə Qazanqapın qoca və farağat bir dəvəsini qoşdular. Bu dəvə boyunduruqda yaxşı gedirdi. Söz yox, Qaranəri belə işlərə yaxın qoymaq olmazdı. Dəvəni qoşub dəstə ilə yola düşdülər. Səs-küydən qulaq batırdı. Yedigey sürücü yerində oturmuşdu. Uşaqlar hərəsi bir tərəfdən dürtülür, onun yanında oturmağa çalışırdılar. Hamısı da bir ağızdan çığırırdı: "Qov, bərk sür, sür!". Abutalıbla Zərifə kirşənin yanınca qaçır, eniş yerlərdə kirşənin qırağında otururdular. Razyezddən iki kilometr aralanandan sonra, təpənin ətəyindən dönüb enişlə geri qayıtdılar. Qoşqu dəvəsi tövşüyürdü, ona bir az dinclik vermək lazım idi.

Gözəl gün idi. Sarı-Özəyin göz işlədikcə və qulaq dinlədikcə uzanan dümağ düzlərində dərin bir sakitlik vardı. Hara baxırdınsa qar



örtüyü altında gizlənmiş enişli-yoxuşlu, düzənli çöllər idi, Sarı-Özəyin üstündəki səma qış günortasına donuq və kövrək bir işıq saçırdı. Xəfif külək qulaqları sığallayıb qıdıqlayırdı. Qənşərdəki dəmiryolunda bir-birinin dalına qoşulmuş iki baca ilə tövşüyən parovozun çəkdiyi sarı-qəhvəyi rəngdə uzun bir yük qatarı yaxınlaşırdı. Parovozların bacasından çıxan tüstü sakit havada üzərək həlqə-həlqə yayılıb əriyirdi. Semafora yaxınlaşanda irəlidəki lokomotiv güclü və sürəkli bir fit verdi. Səsində bir xəbər varmış kimi fit iki dəfə təkrar olundu. Qatar dayanmadan razyezddən ötüb keçdi – semaforlar, genişliyə baxmayaraq dəmiryoluna qısılmış beş-altı ev geridə qaldı. Yenə də hər tərəf sakitliyə qərq oldu. Heç bir hərəkət-filan yox idi. Bircə Boranlı daxmalarının bacalarından çıxan tüstülər burulurdu. Hətta bayaqkı kirşə gəzintisindən qızışıb pörtmüş uşaqlar da susub-kirimişdilər. Zərifə yalnız ərinin eşidə biləcəyi bir səslə dedi:

– Nə qədər gözəl, necə də qorxuncdur!

– Düz deyirsən, – Abutalıb da eyni səslə təsdiq elədi.

Yedigey başını çevirmədən onlara çəpəki nəzər saldı. Onlar yanaşı dayanmışdılar, yamanca da bir-birinə oxşayırdılar, Yedigeyə aid olmasa da, Zərifənin yavaşdan, lakin aydın dediyi sözlər ona toxundu. O birdən-birə başa düşdü ki, Zərifə bacalarından buruq-buruq tüstü çıxan bu evlərə necə də qüssə və qorxu ilə baxır. Lakin çox təəssüf ki, Yedigeyin əlindən heç nə gəlmirdi, çünki dəmiryoluna qısılmış bu evlər onların hamısı üçün yeganə məskən idi.

Yedigey qoşqu dəvəsini hayladı, bir-iki qırmanc çəkdi və onlar geri, razyezdə tərəf hərəkət etdilər...

Yeni il gecəsi ərəfəsində axşam boranlıların hamısı Yedigeylə Ukubalanın başına toplaşmışdılar, – bunu hələ bir gün qabaq Ukubala ilə Yedigey qərara almışdı.

O gün Ukubala:

– Kuttubayovgil bizdən sonra gəliblər, – dedi, – yolka bəzəyiblər, bizə Allah özü buyurub ki, onlardan geri qalmayaq, daha keçib, simiclik eləməyək.

Arvadının bu təklifindən Yedigey çox sevindi. Doğrudur, hamı iştirak eləyə bilməyəcəkdi – bəziləri növbədə idi, bəziləri isə axşam işləyəcəkdilər. Qatara nə var ki, qatarlar öz işlərindədir – nə bayram bilirlər, nə iş günü... Qazanqap ancaq məclisin başlanğıcında otura bildi. Axşam saat doqquz üçün o, xəttə çıxdı, elə Yedigeyin özü

yanvarın biri səhər saat altıdan iş başında olmalı idi. İş işdir. Buna baxmayaraq, məclis çox gözəl alındı. Hamının kefi kök idi, gündə on dəfə görüşməklərinə baxmayaraq hamı uzaq yerdən gələn qonaq kimi geyinib-kecinmişdi. Ukubala lap açılışıb cürbəcür yeməklər hazırlamışdı. İçki də vardı – araq, şampan şərabı... İstəyən üçün keçən ildən hələ südü kəsilməmiş dəvələrin südündən şubat da hazırlamışdılar. Bu dəvələri Qazanqapın yorulmaq bilməyən arvadı Bikə sağırdı.

Ancaq bayram, birinci badələr içiləndən, mahnılar başlanandan sonra bayrama oxşadı. Daha istədiyin kimi kef eləyə, eyşə qatılıb, hər gün görüşüb tanıdığın adamlarla ünsiyyətdə olub onlarda yeni-yeni keyfiyyətlər görə bilərdin, çünki bayramın xüsusiyyətlərindən biri də odur ki, bayram adamları dəyişir, elə bil onları yeniləşdirir. Bəzən bunun əksinə də olur. Ancaq burda yox, boranlıların arasında yox. Sarı-Özəkli olasan, özü də davakar, adamayovuşmaz – belə şey ola bilməz... Yedigey bir balaca hallanmışdı. Amma bu hal ona yaraşırdı. Ukubala o qədər nigarançılıq çəkməsə də hər halda ərinə xatırladırdı:

– Yadından çıxmasın, sabah səhər altıda işə çıxmalısan.

– Aydındır, Uku, bildim, – deyə o cavab verdi.

O, Ukubalanın boynunu qucaqlayıb mahnı oxuyurdu. O elə bir halətdəydi ki, ağıl aydınlığı ilə hisslərin coşqunluğu bir-birinə xətər yetirmədən uzaqlaşırdı. Yedigey oxuya-oxuya xoşhallıqla qonaqlara baxır, hamının üzünə gülürdü, çünki arxayındı, bilirdi ki, qalanları da özlərini onun kimi yaxşı hiss edir. O vaxtlar Boranlı Yedigey qaraqaş, qarabığ, parlaq qonur gözlü, saf dişləri sədəf kimi cərgələnmiş gözəl bir kişi idi. O vaxt ən güclü təsəvvürə malik olan adamlar onun qocalanda necə olacağını deyə bilməzdilər. O, hamıya diqqət yetirməyə macal tapırdı. Artıq kökəlməyə başlamış mehriban Bikənin çiynindən vurub, deyirdi ki, sən bütün boranlıların anasısan, onun sağlığına badə qaldırıb, onun simasında Amudərya sahillərində yaşayan Qaraqalpaq xalqının şərəfinə içirdi, onun ürəyini alırdı ki, Qazanqapın məclisi vaxtsız tərk edib işə getməyindən fikir çəkməsin.

Bikə də gülə-gülə deyirdi ki:

– Onsuz da zəhləmi töküb!

O axşam Yedigey öz Ukubalasını tam adı ilə çağırırdı – Ukubalası, yəni Bayquş balası, Bayquşbala... Qərəz ki, hamı üçün xoş və səmimi söz tapırdı, bu yığcam məclisdəkilərin hamısını özünə doğma bacı-qardaş hesab eləyirdi, hətta Sarı-Özəkdə kiçik bir vəzifədə işləməyi



özünə sığışdırmayan razyezd rəisi Əbilova da, onun rəngi-ruhu qaçmış, bu yaxınlarda Kumbeldəki stansiya doğum evinə getməli olacaq zahı arvadı Səkinəyə da eyni gözlə baxırdı. Yedigey ürəkdən inanırdı ki, ayrı cür ola da bilməz, o məhz doğma adamlarının arasındadır, hətta oxuyanda hərdən gözlərini yumub bir ailə kimi onun evinə yığışmış bir ovuc adamı Sarı-Özəyin qar basmış intəhasız çölündə təsəvvürünə gətirəndə bunun həqiqət olduğuna inanırdı. Amma düzünə qalsa, hamıdan çox Abutalıbla Zərifə üçün darıxırdı. Ər-arvad buna dəyərdi. Zərifə həm oxuyurdu, həm də tez-tez dəyişən mahnıların melodiyasını tutub mandalinada çalırdı. Onun çox təmiz və şaqraq səsi vardı, Abutalıb isə sinədən gələn dərin və həzin bir səslə oxuyurdu. Onlar avazla, məlahətlə oxuyurdular, illah ki, tatar ahəngini... Onlar bu mahnıları deyişmə tərzində oxuyurdular. Mahnının əsasını onlar oxuyur, yerdə qalanlar da nəqarət tuturdular. Onlar bir xeyli qədim və yeni mahnılar oxusalar da yorulmaq bilmir, əksinə daha da qızışırdılar. Deməli, belə çıxırdı ki, qonaqların əhvalı yaxşıdır. Abutalıb və Zərifə ilə üzbəüz oturan Yedigey gözünü onlardan çəkmir, baxdıqca ürəyi axa-axa fikirləşirdi ki, onları göz açmağa qoymayan acı taleləri olmasaydı bunlar gərək həmişə belə olaydılar. Yayın qızmarında Zərifənin saçları kökünəcən bozarırdı, özü də yanğından çıxmış kösöv kimi gündən qaralıb partlamış dodaqlarının qanı axırdı. İndi isə tamam tanınmaz olmuşdu. Qara gözləri par-par yanırdı, təmiz və hamar asiyalı sifəti ona xüsusi gözəllik verirdi. Onun ovqatını hər şeydən çox qaşları büruzə verirdi – qədim mahnılar qanadlandıqca qaşları gah yay kimi gərilir, gah da kədərlə düyünlənirdi. Abutalıb da oxuduğu sözlərin hər birini qeyd etməyə çalışaraq onları xüsusi hissiyyatla tələffüz edirdi:

...Yəhərin açdığı yağır yeritək,
Silinməz könlümdən surətin sənin...

Zərifə barmaqlarını simlərin üstündə gəzdirir, Yeni il gecəsinə toplaşan bu məhrəm məclisdə melodiyanı inlədirdi. O, sanki mahnıya qarışıb üzürdü, Yedigeyə elə gəlirdi ki, Zərifə hardasa uzaqlarda, əynindəki ağ yaxalı bənövşəyi toxunma koftada, Sarı-Özəyin qarlı çöllərində əlində mandalina sinədolusu nəfəs alaraq azad və sərbəst addımlarla qaçır, o yüyürdükcə qaranlıq çəkilir, sonra uzaq dumanlıqda qeyb olur, təkcə mandalinanın səsi eşidilir, sonra birdən o,

boranlıları yadına salıb düşünür ki, onsuz bu adamların halı pis olacaq, yenə geri, stolun dalına qayıdıb mahnısını davam etdirir...

Sonra Abutalıb partizanlıqda necə əllərini bir-birinin çiyninə qoyub ayaqlarını ata-ata yallı getdiklərini göstərdi. Abutalıb oynaq bir serb mahnısı oxuyur, Zərifə də mandalinada çalıb ona kömək eləyir, qalanlar da "oplya, oplya..." deyə-deyə yallı gedirdilər.

Sonra yenə içdilər, badə toqquşdurdular, bir-birini Yeni il münasibətiylə təbrik etdilər, gələn gəldi, gedən getdi... Razyezdin rəisi zahı arvadı ilə hələ rəqslər başlamamışdan getmişdi. Gecə bu minvalla yavaş-yavaş ötüb keçirdi...

Zərifə nəfəsini dərmək üçün eşiyə çıxdı, Abutalıb da onun dalınca. Qonaqlar tərli-tərli soyuğa çıxmasınlar deyə Ukubala hamını məcbur eləyirdi ki, paltarını geysin. Zərifə ilə Abutalıb xeyli ləngidilər. Yedigey dedi ki, gedim onları çağırım, onlarsız bayramın dadı qaçır. Ukubala onu səslədi:

– Əynini qalın elə, Yedigey, elə getmə, soyuqlayarsan!

– İndi qayıdıram, – deyə Yedigey kənardan adladı. Ayazlı, aydın bir gecəydi. – Abutalıb, Zərifə! – O, ətrafa boylandı.

Cavab gəlmədi. Evin dalından səslər gəlirdi. Bilmədi neyləsin, çaşıb qaldı: geri qayıtsın, ya ki, əksinə, gedib onları evə qaytarsın. Aralarında nəsə bir şey olmuşdu, deyəsən.

– Mən istəmirdim sən görəsən, – Zərifə hıçqıra-hıçqıra deyirdi. – Bağışla. Nəsə birdən doluxsundum. Sən Allah, bağışla.

Abutalıb da ona təskinlik verirdi:

– Başa düşürəm, hamısını başa düşürəm. Axı məsələ onda deyil ki, mən beləyəm. Bu təkcə mənə aid olsaydı, ona nə vardı ki!.. Bir adam artıq, bir adam əskik... Onda həyatdan belə yapışmağa da dəyməzdi. – Bir müddət susdular, sonra Abutalıb davam etdi: – Uşaqlarımızın canı qurtaracaq, ümidim bircə bunadır...

Məsələdən axıracan başı çıxmayan Yedigey soyuqdan büzüşə-büzüşə evə qayıtdı. O, içəri girəndə ona elə gəldi ki, hər şey soluxub, bayram da qurtarıb gedib.

1953-cü ilin yanvar ayının 5-də Boranlı razyezdində bir sərnişin qatarı əyləndi. Təəccüblü idi: bütün yollar açıqdı, o həmişəki kimi dayanmadan ötə də bilərdi. Qatar cəmi dəqiqə yapım ləngidi. Görünür, bu bəs eləmişdi. Ayaqlarında eyni biçimli xrom çəkmələr olan üç adam vaqonlardan birinin pilləsindən enib düz növbətçi binasına tərəf



yönəldi. Ətrafa baxmır, dinməz-söyləməz, inamla yeriyirdilər, yalnız bir anlığa qar qarısının yanında yüngülcə ayaq saxladılar. Dinməz-söyləməz çay taxtasının üstündəki təbrik sözlərini oxudular, bir də qar qarısının başına keçirilmiş Qazanqapın tükü tökülmüş papağına baxıb yollarına davam etdilər.

Bir neçə dəqiqədən sonra razyezdin rəisi Əbilov növbətçi otağından bayıra yüyürdü. Az qala qar qarısının üstünə yıxılacaqdı. Hirsindən bir söyüş də söydü, tələsik demək olar ki, yüyürə-yüyürə uzaqlaşdı – ondan çıxmayan iş idi. Üstündən heç on dəqiqə keçməmiş Abutalıb Kuttubayovu iş yerində tapıb onunla hövlnak geri qayıdırdı. Abutalıbın rəngi qaçmışdı, papağı əlində idi. O, Əbilovla birgə növbətçi binasına girdi. Bir az keçmədi ki, bu xrom çəkməlilərlə bir yerdə binadan çıxıb, Kuttubayovgilin yaşadığı baraka tərəf yönəldilər. Tezliklə onlar Kuttubayov da yanlarında geri qayıtdılar, əllərində onun evindən götürdükləri kağızlar vardı.

Sonra hər şey sakit oldu. Daha növbətçilər binasından nə çıxan oldu, nə də girən.

Olan əhvalatı Yedigeyə Ukubala çatdırdı. O, Əbilovun tapşırığı ilə özünü təmir işləri aparılan dördüncü kilometrə çatdırdı. Yedigeyi kənara çəkib dedi:

– Abutalıbı dindirirlər.

– Kim dindirir?

– Bilmirəm. Gəlmə adamlardı. Əbilov dedi ki, bərkinə durmasalar, Yeni ildə Abutalıbgilnən bir yerdə olduğumuzu deməyəsən.

– Bunda nə var ki?

– Bilmirəm. Məndən xahiş elədi ki, sənə çatdırım. Özü də tapşırdı ki, saat iki üçün yerində olasan. Səndən də nəsə soruşacaqlar, Abutalıb barədə.

– Nə soruşacaqlar?

– Mən nə bilim! Əbilov lap özünü-sözünü itirmişdi, dedi tez özünü yetir Yedigeyə. Mən də yetirdim.

Yedigey saat ikidə onsuz da evlərinə fasiləyə gedirdi. Yolda, elə evlərində də hey fikirləşirdi ki, görəsən nə olub? Bir cavab tapa bilmirdi. Bəlkə keçmişi üçün, əsirlikdə olduğu üçün idi? Çoxdan yoxlayıblar, qurtarıb-gedib, daha nə ola bilər? Nə isə daxilində bir həyəcan, narahatlıq duydu. Əriştədən bir-iki qaşıq götürüb qabı kənara çəkdi. Saata baxdı. İkiyə beş dəqiqə qalmışdı. Madam ki, deyiblər

ikidə, deməli, ikidə də getməlidir. Evdən çıxanda gördü ki, Əbilov razyezd binasının qabağında var-gəl eləyir. Çox da incik, əzgin və dilxor görünürdü.

– Nə olub?

– Başımıza bəla gəldi, bəla, Yedigey, – deyə Əbilov qorxa-qorxa binaya tərəf baxdı. Qorxusundan dodaqları səyriyirdi. – Kuttubayovu tutdular.

– Niyə?

– Nəsə qadağan olunmuş yazılar tapıblar ondan. Axı axşamlar oturub yazırdı. Bunu hamı bilir də... Axırı ki başına bəla açdı.

– O ki uşaqlar üçün yazırdı...

– Bilmirəm, bilmirəm kim üçün yazırdı. Mən heç nə bilmirəm. Yeri, səni gözləyirlər.

Rəisin kabinet deyilən balaca otağında elə onun yaşında olan, bəlkə də bir az cavan, saçları kirpi iynəsi kimi biz-biz, yekəbaş, canlı bir kişi oturmuşdu. Çopur, ətli burnu gərginlikdən tərləyir, o, nə isə oxuyurdu. Ağır və enli alnını qırışdıra-qırışdıra yaylıq çıxardıb burnunun tərini sildi, elə sonra da söhbətin axırınacan tez-tez burnunun tərini silirdi. Stolun üstündəki "Kazbek" qutusundan uzun bir papiros çıxartdı, yandırandan sonra başını qaldırıb, çalağan gözünə oxşayan parlaq sarımtıl gözlərini kandarda dayanan Yedigeyə zillədi:

– Otur.

Yedigey stolun qabağındakı kətilə oturdu.

– Qoy, heç bir şübhən olmasın, – deyə çalağan gör, kitelinin döş cibindən qəhvəyi cildli bir kitabça çıxarıb açdı, açan kimi də örtüb yerinə qoydu, burnunun altında da "Tansıkbayev", ya da "Tasıqbayev" kimi bir söz dedi. Yedigey onun familiyasını heç fərli-başlı eşidə də bilmədi...

– Aydındır? – deyə çalağangöz soruşdu.

Yedigey də məcbur olub:

– Aydındır, – dedi.

– Onda başlayaq işə. Deyirlər, sən Kuttubayovun ən yaxın dostu, yoldaşısan, elədir?

– Bəlkə elədir, necə ki?

– Bəlkə də elədir. – Çalağagöz onun sözlərini təkrar edib, bunun mənasını aydınlaşdırmaq istəyirmiş kimi kazbekdən dərin bir qullab vurdu. – Bəlkə də elədir. Fərz edək. Aydındır. – Birdən gözlənilməz



bir təbəssümlə, şüşə kimi aydın gözlərində parlayan ləzzət və sevinc ifadəsiylə söz atdı: – Deməli, əziz dost, yazırıq hə?

Yedigey özünü itirən kimi oldu:

– Nə yazırıq?

– Onu mən bilmək istəyirəm.

– Nə demək istədiyinizi başa düşmürəm.

– Doğrudan? Hə? Bir yaxşı-yaxşı fikirləş!

– Söhbət nədən gedir axı?

– Kuttubayov nədən yazır?

– Bilmirəm.

– Necə bilmirsən? Hamı bilir, sən bilmirsən?

– Bilirəm ki, nəsə yazır. Amma nə yazdığını hardan bilim? Mənim nə işimə? Həvəsi var qoy yazsın. Kimin nə işinə?

– Necə yəni kimin nə işinə? – Deyə çalağangöz təəccüblə diksinib, güllə kimi cana işləyən qara bəbəklərini ona zillədi.

– Belə çıxır ki, kim nə istəyir, ağlına nə gəlir yazsın da? Bunu sənin beyninə o yeridib?

– O mənim beynimə heç nə yeritməyib.

Çalağangöz onun cavabını heç vecinə almadı. Yaman hirslənmişdi:

– Bax, düşmən təbliğatı budur! Sən heç beyninə vurmusan ki, hərə ağlına gələni yazsa nə olar? Fikirləşmisən nə olar? Sonra da başlayacaq ağzına gələni danışmağa! Belə deyirsən? Bu yad ideyalar səndə hardandır? Xeyr, əzizim, biz belə şeyə yol vermərik. Belə əksinqilab keçməz!

Yedigey başına yağdırılan bu sözlərin ağırlığı altında özünü itirib susurdu. Və çox təəccüb elədi ki, belə sözlərdən sonra heç nə dəyişmədi. Elə bil heç nə olmamışdı. Pəncərədən də gördü ki, Daşkənd qatarı ötüb keçdi, bir anlığa qatarın içini gözünün qabağına gətirdi: vaqonlarda adamlar oturub, hərə öz işində – kimi çay içir, kimi də araq... Oturub söhbət eləyirlər, heç birinin də eyninə deyil ki, Boranlı razyezdində Yedigey adlı bir adam nagahani bəla kimi gəlmiş bu çalağangözün qarşısında oturub. Ürəyini sıxan bir qüssə içində az qala durub o qatarın dalınca qaçacaq, minib hara gəldi baş götürüb gedəcəkdi, təki bu otaqda olmasın.

– Nə dediyimi başa düşdün? Sözümün canı sənə çatdı? – deyə çalağangöz sorğusuna davam etdi.

– Çatır, çatır, – Yedigey təsdiq etdi. – Amma bir şey mənə aydın deyil. Axı o istəyirdi ki, öz uşaqları üçün xatirələrini yazsın. Olanları,

keçənləri, söz məsəli cəbhədə, əsirlikdə, partizanlıqda başına gələnləri... Burda pis nə var axı?

– Uşaqları üçün! Kim buna inanar! Bir qarış uşaq üçün kim belə şeylər yazar? Boş danışıqdır! Təcrübəli düşmən məhz belə hərəkət edər! Gizlənib əldən-ayaqdan uzaq bir yerdə, ətrafda nə ins var, nə cins, güdən yox, baxan yox, başlayıb xatirələrini yazmağa!

– İndi adamdı da, ürəyi yazmaq istəyib, yazıb, – Yedigey yenə də etiraz etdi. – Görünür, öz şəxsi sözünü demək istəyib, özündən öz fikirlərindən yazıb ki, uşaqları böyüyəndən sonra oxuyub bilsinlər.

– Əşşi, necə yəni şəxsi söz! Bunu hardan çıxartdın?! – deyə çalağangöz məzəmmətlə başını buladı, köksünü ötürdü. – Özündən söz demək nədir? Özündən fikir demək nədir? Bəlkə şəxsi dünyagörüşü demək istəyirsən? Bəlkə xüsusi mülahizə demək istəyirsən? Heç bir şəxsi söz-filan olmamalıdır. Nə ki kağızla yazıldı, o daha şəxsi söz deyil. Nahaq yerə deməyiblər ki, qələm yazanı heç balta da kəsməz. Bir o qalmışdı ki, hərənin ağzından bir avaz gəlsin. Çox yağlı olar! Budur onun üzdəniraq "Partizan dəftərləri", bax gör başlıq altında nə yazır – "Yuqoslaviyanın gecə və gündüzləri", buyur bax! – O, stolun üstünə üç müşəmbə cildli qalın ümumi dəftər atdı. – Biabırçılıqdır! Sən də dostuna qahmar çıxmağa çalışırsan. Biz onu ifşa eləmişik!

– Onu nədə ifşa eləmisiniz?

Çalağangöz yenə də stulda dartındı, ləzzət və kinli bir razılıq hissi ilə gülümsündü, şüşə gözlərini qırpmadan dedi:

– Zəhmət çək, icazə ver onu özümüz bilək nədə ifşa etmişik. – O bu sözlərdən hər birinin göstərdiyi təsirin dadını ağzında duya-duya deyirdi: – Bu öz işimizdir. Hər yetənə məlumat vermək fikrində deyiləm.

Yedigey çaşıb qalaraq dili dolaşa-dolaşa dedi:

– Belədirsə, neyləmək olar...

– Onun düşmən xatirələri ona baha başa gələcək, – deyə çalağangöz danışa-danışa sürətlə nə isə yazmağa başladı:

– Mən elə bilirdim ki, sən daha ağıllı adamsan, bizim adamsan. Qabaqcıl fəhlə. Sabiq cəbhəçi. Düşməni ifşa etməkdə bizə kömək eləyəcəksən.

Yedigey qaşqabağını töküb, yavaş, lakin aydın və heç bir şübhə yeri qoymayan bir ahənglə dedi:



– Mən heç nəyə qol çəkməyəcəm. Sizə bu başdan deyirəm.

Çalağangöz ona öldürücü bir nəzər saldı.

– Bizim sənin imzana heç ehtiyacımız yoxdur. Yoxsa elə bilirsən ki, qol çəkməsən iş dağılacaq? Səhvin var. Sənin imzan olmasa da onu ciddi məsuliyyətə cəlb etmək üçün əlimizdə kifayət qədər materialımız var.

Yedigey bir alçaqlıq, içini yandıran bir boşluq hiss edərək susdu. Eyni zamanda düşdüyü vəziyyətdən, onun daxilində Aral dənizində coşan dalğa kimi bir qəzəb və narazılıq hissi baş qaldırdı. Birdən o, az qaldı ki, bu çalağangözü tutub quduz it kimi boğsun, özü də inanırdı ki, eləyə bilər. Cəbhədə öz əliylə boğduğu faşistin boynu bununkundan da möhkəm və damarlı idi. Orda başqa çarəsi qalmamışdı. Düşməni səngərlərdən qovub təmizləyəndə onlar gözlənilmədən üz-üzə gəlmişdilər. Onlar cinahdan girib səngərə qumbara atır, keçidləri avtomat atəşinə tutaraq irəliləyirdilər, artıq atəş xəttini təmizləyib qabağa cumanda gözlənilmədən üzbəüz toqquşdular. Görünür pulemyotçuymuş, son gülləyədək atəş açdığı üçün ləngiyib qaçanlardan geri qalmışdı. Əlbəttə, onu əsir götürsəydi daha yaxşı olardı, bu fikir Yedigeyin başından keçmişdi. Amma daha gec idi, alman bıçağını çıxarmışdı. Yedigey bunu görəndə tez kaskalı başıyla onun sifətindən bir kəllə ilişdirdi, süpürləşib ikisi də birdən yerə yıxıldı. Daha onu boğazlamaqdan başqa çarəsi qalmamışdı. Faşist də çapalayır, qurcuxur, xırıldaya-xırıldaya əli ilə yeri eşib Yedigeyin vurub saldığı bıçağı axtarırdı. Yedigey anbaan gözləyirdi ki, bıçaq onun kürəyinə sancılacaq, buna görə də hayqıraraq dişləri ağaran, qapqara qaralan düşmənin xirtdəyini qeyri-insani, heyvani bir güclə sıxırdı. Elə ki, burnunda kəskin sidik iyi duydu, onun boğulduğunu başa düşdü, qıc olub bir-birinə sarmaşmış barmaqları boşaldı. Elə o dəqiqə ödü ağzına gəldi – gözü qaranlıq gətirdi, qusdu, qusmağına bulaşa-bulaşa, zarıya-zarıya kənara süründü. Bu əhvalatı Yedigey nə onda, nə də sonralar heç kimə açıb demədi. Bəzən bu dəhşətli hadisə onun yuxusuna girirdi, ertəsi gün o özünə yer tapmır, az qalırdı ki, özünü öldürsün... Bu məqamda Yedigey həmin hadisəni ikrah və nifrətlə xatırladı. Ancaq onu da demək lazımdır ki, Yedigey başa düşürdü ki, çalağangöz onu ağlının üstünlüyü və hiyləgərliyi ilə üstələyir. Bu da onun heysiyyətinə toxunurdu. Çalağangöz yazısını qurtaranacan Yedigey çalışırdı onun müddəalarında zəif yer tapsın. Çalağangözün yürütdüyü

fikirlərdən biri az məntiqsizliyi və hiyləgər uyğunsuzluğu ilə Yedigeyi lap mat qoymuşdu: "düşmən xatirələr" üstündə adamı necə təqsirləndirmək olar? İnsan xətirələri düşmən və qeyri-düşmən ola bilərmi? Axı, xatirə, çoxdan olub keçmiş, yəni çoxdan ötüb keçən zamanlarda baş vermiş, indi isə olmayan şeylər hadisələr, əhvalatlar deməkdir. Deməli, Adam bir şeyi yadına salırsa, onu vaxtilə olduğu kimi yadına salır.

– Mən bir şey bilmək istəyirəm, – Yedigey boğazı həyəcandan qurusa da özünü məcbur eləyib sakit səslə soruşdu: – Bax, sən deyirsən ki... – O, özü bilə-bilə "sən" – deyə müraciət elədi ki, çalağangöz bilsin – ondan qorxub eləyən yoxdur, Yedigeyi Sarı-Özəkdən o yana sürməyəcəklər ki! – Bax, sən deyirsən... O, bir də təkrar etdi, – düşmən xatirələr. Bunu necə başa düşək? Məgər xatirənin düşməni, ya qeyri-düşməni ola bilər? Mənə elə gəlir ki, adam çoxdan olub-keçənləri necə olubsa, elə də xatırlayır. Yoxsa belə çıxır ki, yaxşını xatırla, pisi unut, belə deyirsən? Mən bilən heç belə şey ola bilməz. Onda belə çıxır ki, gördüyün yuxunu da yaddan çıxarmalısan. Bəlkə yuxu qorxulu yuxudur, birinin xoşuna gəlmir, onda necə olsun?..

– Deməli, belə ha! Hm, lənət şeytana! – deyə çalağangöz təəccübləndi, – Fikir yürüdürsən, mübahisə eşqinə düşmüsən! Deyəsən buranın filosofusan? Nə olar, gəl başla görək, – o, sözünə ara verdi, elə bil tərəf müqabilini ölçüb-biçirdi, sonra davam etdi: – Həyatda tarixi hadisələr baxımından hər cür şey ola bilər. Ancaq nə olsun ki, nə olub və necə olub?! Əsas məsələ odur ki, keçmişdə olanları şifahi və xüsusilə yazılı surətdə xatırlayanda indi bizə lazım olan kimi, indi tələb olunan kimi xatırlamalısan. Buna əməl eləmirsənsə, deməli, düşmən-cəsinə hərəkət etmiş olursan.

– Mən razı deyiləm, – Yedigey etiraz elədi. – Elə şey ola bilməz!

– Sənin razılığına heç kəsin ehtiyacı yoxdur. Bunu mən sözgəlişi dedim. Sən soruşursan, mən də lütf edib izah eləyirəm. Əslinə qalsa, mən səninlə belə-belə söhbətlər eləməməliyəm. Yaxşı, keçək mətləbə. De görüm, Kuttubayov açıq söhbət zamanı tutaq ki, içki məclisində-zadda sənin yanında ingilis adları çəkməyib?

Çalağangözün bu sözləri Yedigeyi təəccübə saldı:

– Bu nə deməkdir?

– O deməkdir ki... – Çalağangöz Abutalıbın "Partizan dəftərlərindən" birini açdı, altından qırmızı qələmlə çəkilmiş yerləri oxudu: "Sentyabrın 27-də bizim mövqelərimizə ingilis nümayəndəliyi



gəlmişdi – bir polkovnik, iki də mayor. Biz onların önündən rəsmi marşla keçdik. Onlar bizi salamladılar. Sonra komandirlərin çadırında ümumi nahar təşkil edildi. Nahara bizi də, yeni yuqoslavlarla bir sırada döyüşən əcnəbi partizanları da dəvət elədilər. Məni polkovniklə tanış edəndə o mənim əlimi nəzakətlə sıxıb tərcüməçi vasitəsilə hardan gəldiyimi və bura necə düşdüyümü soruşdu. Mən başıma gələnləri qısaca nəql etdim. Mənə də şərab süzdülər, onlarla bir yerdə içdim. Sonra yenə xeyli söhbət etdik. İngilislərin sadəliyi və ürəkaçıqlığı çox xoşuma gəldi. Polkovnik dedi ki, xoşbəxtlikdən, onun öz sözü ilə desəm, Allahın rizasıdır ki, biz hamımız Avropada faşizmin əleyhinə birləşmişik. Bu olmasaydı, Hitlerlə mübarizə daha ağır olacaqdı, pərakəndə düşmüş xalqlar üçün bəlkə də faciə ilə nəticələnə bilərdi" və ilaxır... – Çalağangöz sitatı oxuyub qurtarandan sonra dəftəri kənara çəkdi, kazbekdən də damağına qoyub alışdırdı, susub bir-iki qullab vurandan sonra davam etdi: – Belə çıxır, Kuttubayov orda ingilis polkovnikinə etiraz eləməyib, deməyib ki, Stalinin dühası olmasaydı, onlar Avropada nə qədər çalışıb-çapalasaydılar, nə qədər partizanlıq-filan eləsəydilər də, qələbə mümkün olmayacaqdı. Belə çıxır ki, o, Stalin yoldaşı heç fikrində də tutmayıb! Bu sənə çatır, ya yox?

– Bəlkə də deyib, – Yedigey Abutalıbı müdafiə eləməyə çalışdı, – görünür, yazmağı yaddan çıxarıb.

– Hanı, harda deyilib? Sübut eləyə bilməzsən! Bundan başqa da biz yoxlamışıq, Kuttubayov qırx beşinci ildə yuqoslav partizan birləşməsindən qayıdanda, yoxlama komissiyasından keçəndə verdiyi ifadə ilə bu yazıları tutuşdurmuşuq. O, orda ingilis nümayəndələri barədə heç nə deməyib. Deməli, burda natəmiz bir şey var. Kim zəmanət verə bilər ki, o, ingilis kəşfiyyatı ilə bağlı olmayıb?!

Yenə də Yedigey ağırlaşdı, ürəyi ağrıdı. O, işdən baş çıxara bilmirdi, başa düşə bilmirdi ki, çalağangöz məsələni hara əyir.

– Kuttubayov sənə heç nə deməyib? Bir fikirləş ingilis adı çəkməyib? Biz bilməliyik görək o ingilis nümayəndəliyinin kim olub, bu çox vacibdir.

– Onların adları necə olur?

– Misal üçün, Con, Klark, Smit, Cek...

– Ömrümdə eşitməmişəm.

Çalağangöz qaşqabağını töküb fikrə getdi, görünür Yedigeylə görüşünün bir çox tərəfi onu açmırdı. Sonra o, oğrun səslə soruşdu:

– Deyirlər, o, məktəb açıbmış, uşaqları öyrədirmiş?

– Nə məktəb, canım, – deyə Yedigey özünü saxlamayıb güldü. – Onun iki oğlu var, mənim də iki qızım. Vəssalam, bu da sənin məktəbin. Böyüklərin hərəsinin beş yaşı, kiçiklərin də üç. Uşaqların getməyə bir yeri yoxdur: hara baxırsan çöl-biyaban... Uşaqların başını qatırlar, deməli, tərbiyə verirlər. Hər nəsə müəllim olublar – ər də, arvad da... Nə bilim. oxuyurlar, şəkil çəkirlər, uşaqlara hesab, yazı-pozu öyrədirlər. Bu da məktəb!

– Bəs mahnı, nə mahnı oxuyurdular?

– Cürbəcür uşaq mahnıları, nə bilim, yadımda deyil.

– Bəs uşaqlara nə öyrədirdi? Nə yazırdılar?

– Hərflər, adi sözlər.

– Məsələn, necə sözlər?

– Axı nə bilim. Yadımda deyil.

– Budur, bax, belə sözlər! – Çalağangöz kağızları araşdırıb üstündə uşaq cızmaqarası olan bir-iki vərəq çıxardı. – Budur onların yazdıqları ilk sözlər. – Kağızın üstündə uşaq xəttilə "Bizim ev" sözləri yazılmışdı. – Görürsən uşağın yazdığı ilk sözləri: "Bizim ev". Bəs niyə yazmır "Bizim qələbə"? İndi bizim dilimizdə, fikirləş görək, hansı söz olmalıdır? "Bizim qələbəmiz" olmalıdır. Düz demirəm? Onun ağlına niyə belə söz gəlmir? Qələbə və Stalin ayrılmazdır.

Yedigey nə deyəcəyini bilmədi. Amma bu əhvalatdan özünü o dərəcədə alçalmış hesab etdi ki, ağlı söz kəsməyən bir tikə uşaqlara sərf etdikləri vaxt və o qədər zəhmət üçün Abutalıbla Zərifəyə elə yazığı gəldi ki, qəzəbindən cürətlənib dedi:

– Ona qalsa, hamıdan əvvəl gərək "Bizim Lenin" yazaq. Hər halda Lenin birinci yerdə durur.

Çalağangöz gözlənilməz zərbə almış adamlar kimi bir anlığa nəfəsini qısdı, sonra sinəsindəki tüstünü burnundan buraxa-buraxa ayağa qalxdı. Görünür var-gəl etmək ehtiyacı duymuşdu, ancaq belə dar otaqda necə gəzəsən...

O, kəskin və aydın bir səslə cavab verdi:

– Biz Stalin deyəndə – Lenini düşünürük! – Bunu deyib, yüyürəndən sonra yüngül nəfəs alan adamlar kimi, barışdırıcı bir ahənglə sözünü tamamladı: – Yaxşı, belə hesab edək ki, aramızda belə söhbət olmayıb.

O, təzədən yerinə keçib oturdu, yenə də onun daş kimi donuq sifətində çalağan kimi sarıya çalan şüşə gözləri işıldayırdı.



– Əlimizdə məlumat var ki, Kuttubayov uşaqların internat məktəblərində oxumasının əleyhinəymiş. Bu barədə nə deyə bilərsən, deyirlər söhbət sənin yanında olub?

– Bu məlumat sizdə hardandır, bunu sizə kim deyib? – Yedigey mat qalmışdı. O dəqiqə ağlına gəldi ki, bütün təqsirlər razyezdin reisi Əbilovdadır, o çuğullayıb, çünki bu söhbət onun yanında olmuşdu.

Yedigeyin verdiyi bu sual çalağangözü yaman hirsləndirdi:

– Bura bax, bayaq sənə qandırdım ki, məlumat hardandır, kimdəndir – özümüz bilərik. Biz heç kimə hesabat vermirik. Saxla bunu qulağında! Danış görək o nə deyirdi?

– Nə deyirdi axı? Qoy bir yadıma salım... Deməli, məsələ belədir, bizim razyezdin ağsaqqalı Qazanqapın oğlu Kumbel stansiyasındakı internat məktəbində oxuyur. Məlum məsələdir, oğlan uşağıdır, bir az nadincliyi də var, hərdən yalanı da... O dəfə də sentyabrın birində Sabitcanı məktəbə hazırlamağa başladılar. Atası onu dəvəyə mindirib apardı. Uşağın anası, deməli, Qazanqapın arvadı Bikə başladı uşağın dalınca ağlayıb-gileylənməyə ki, guya uşaq internata gedəndən sonra lap yad olub gedib. Daha əvvəlki kimi evlərinə, ata-anasına ürəkdən bağlı deyil. Kəmsavad arvaddır – bir yandan balasını buraxmaq istəmir, o biri tərəfdən də oxutdurmaq istəyir...

– Yaxşı, bunları bildik, – deyə çalağangöz onunu sözünü kəsdi. – Onda Kuttubayov nə dedi?

– O da bizim yanımızda idi. Dedi ki, ana balanı ürəyi ilə hiss eləyir. İnternat təhsili çarəsizlikdəndir. İnternat, uşağı bir növ ailədən, atadan, anadan ayırır, ayırmasa da uzaqlaşdırır. Qərəz ki, çox çətin məsələdir. Hamı üçün çətin məsələdir – onun üçün də, elə başqaları üçün də... Mən onu başa düşürəm, bizim uşaqlar da böyüyür. İndidən canımı dərd alıb, görəsən nə təhər olacaq, bundan nə çıxacaq? Əlbəttə, yaxşı deyil...

– Bu barədə sonra, – çalağangöz onu saxladı. – Deməli, o deyirdi ki, sovet internatı pisdir, hə?

– O demirdi "sovet internatı", eləcə internat deyirdi. Bizim internat Kumbeldədir. Ona mən də deyirəm ki, pisdir.

– Bunun məsələyə dəxli yoxdur, Kumbel də Sovet İttifaqındadır.

Yedigey çalağangözün onu dolaşdırmaq istədiyini görüb özündən çıxdı:

– Necə yəni məsələyə dəxli yoxdur, lap yaxşı var! Demədiyin sözü adamın ayağına niyə yazırsan? Ona qalsa elə mən də o fikirdəyəm.

Razyezddə yaşamasaydım, başqa bir yerdə olsaydım, uşaqların birini də internata verməzdim. Bəli, mən də belə fikirləşirəm. Onda necə olsun?..

– Fikirləş, yaxşı fikirləş! – Çalağangöz yenə də onun sözünü kəsdi. Balaca fasilədən sonra yenə də davam etdi: – Çox gözəl... İndi də gəl nəticə çıxardaq. Belə çıxır ki, o, kollektiv tərbiyənin əleyhinədir, eləmi?

– Əleyhinə-zada deyil! – Yedigey dözməyib cavab qaytardı. – Kişiyə niyə böhtan ataq! Belə də şey olar!

– Bəsdir, bəsdir qurtar, – deyə çalağangöz onun dediklərini eyninə almayıb izahat verməyi belə lazım bilmədi. – İndi məni başa sal görüm "Donenbay quşu" adlı dəftər nə deməkdir? Kuttubayovun dediyinə görə onu Qazanqapın dilindən yazıb, sən də iştirak eləmisən. Elədir?

– Elədir ki var, – deyə Yedigey bir az dirçəldi. – Bu guya Sarı-Özəkdə olmuş bir əhvalatdır, söz məsəli, əfsanədir. Bu yazınlıqda nayman qəbiristanlığı var, vaxtilə nayman qəbiristanlığı olub, indi ümumi qəbiristanlıqdır, adına Anna-Beyit deyirlər. Manqurt oğlu tərəfindən öldürülmüş Nayman-Ana həmin qəbiristanlıqda basdırılıb...

– Yaxşı bəsdir, biz özümüz oxuyub baxarıq görək o qoşun altında nə yatır, – çalağangöz öz-özünə danışırmış kimi donquldanır, beləliklə də münasibətini bildirirdi: – Donenbay quşu. yaxşı fikirləşiblər. Adam adlı quş... Bu da mənimçün yazıçı olub. Təzə muxtar Auezov peyda olub... Feodal keçmişinin yazıçısı. Donenbay quşu, hm. Elə bilir ki, başımız çıxmayacaq... Altdan-altdan cızmaqaraya başlayıb, guya uşaqlar üçün yazırmış... Bəs bu nədir? Sən bilən bunu da uşaqlar üçün yazıb? – çalağangöz üzü müşəmbəli dəftərlərdən birini də düz onun gözünün qabağına gətirdi.

– Bu nədir ki? – Yedigey bir şey başa düşməyib soruşdu.

– Nədir? Nəliyini sən bilməlisən. Budur başlığını oxu: "Rəhimalı ağanın qardaşı Əbdülxana müraciəti".

– Hə, düzdür, o da əfsanədir, – deyə Yedigey təsdiq etdi. – Olan şeydir. Qocalar o əhvalatı bilirlər...

Çalağangöz bu dəfə də Yedigeyin sözünü ağzında qoydu:

– Narahat olma, mən də bilirəm. Qulağıma çatıb. Səfehləmiş kaftar bir qoca on doqquz yaşlı bir qıza vurulur. Burda yaxşı nə var ki? Belə çıxır ki, o Kuttubayov nəinki düşməndir, həm də əxlaqsız adamdır. Sən bir gör o biabırçılığı necə səliqə-sahmanla yazıb.



Yedigey qızarıb pörtdü. Utandığından yox, əksinə, içi başdan-başa qəzəblə dolmuşdu, çünki Abutalıba qarşı bundan böyük böhtan ola bilməzdi. Buna görə də hirsini boğa-boğa dedi:

– Bilirsən nə var, bilmirəm sən öz yerində necə böyük adamsan, amma belə-belə şeylərdə Abutalıba sataşma. Təki Allah hamını onun kimi ata eləyəydi, ər eləyəydi. Burda pəpə yeyəndən, məmə yeyənəcən, kimdən soruşsan sənə deyər. Burda bizi barmaqla saymaq olar, biz bir-birimiz barədə hər şeyi bilirik.

– Yaxşı, yaxşı, sakit ol, görürəm hamınızın beynini dumanlandırıb, – deyə çalağangöz cavab verdi. – Düşmən həmişə maskalanır. Biz də onu ifşa edirik. Qurtardıq, gedə bilərsən.

Yedigey qalxdı, papağını geyinmək bəhanəsiylə ayaq saxladı.

– İndi onun işi necə olacaq, bu cızmaqaradan ötrü kişini tutub basacaqsınız, necə olacaq?

Çalağangöz yerindən sıçradı:

– A kişi, bir də təkrar eləyirəm, bunun sənə dəxli yoxdur! Düşməni təqib etmək, onunla necə rəftar etmək, nə kimi cəza vermək – öz işimizdir. Bunun üçün sənin başın ağrımasın. Öz yerini bil! Yeri!

Həmin gün axşamdan xeyli keçmiş Boranlı razyezdində sərnişin qatarı bir də dayandı. Ancaq bu qatar əks tərəfə gedirdi. Bu qatar da çox ləngimədi – iki-üç dəqiqə... Abutalıb Kuttubayovu özləriylə aparan o üç nəfər xrom çəkməli, qaranlıqda birinci yolun qabağında durub qatarı gözləyirdi, bir az kənarda isə Abutalıbı onlardan sipər kimi ayıran çiyin-çiyinə dayanmış enli kürəklərin arxasında boranlılar yığışmışdılar: uşaqlarla Zərifə, Yedigeylə Ukubala, bir də ki qatar yarım saat gecikdiyi üçün irəli-geri vurnuxan, rəzalətlə alçalan razyezd rəisi Əbilov. Ona nə dəxli vardı? Dursana yerində kirimişcə! Abutalıbda tapılmış üzüqara əfsanələrin ucbatından çağırılıb din-dirilmiş Qazanqap isə o vaxt yol dəyişmək üçün iş başında dayanmışdı. Abutalıbı Sarı-Özəkdən uzaqlara aparmaq üçün gəlməli olan qatarı o, öz əli ilə birinci yola yönəltməli idi. Bikə Yedigeyin qızları ilə evdə qalmışdı.

O çəkməli adamlar soyuqdan qorunmaq üçün paltolarının yaxasını qaldıraraq gərgin bir vəziyyətdə susub, kürəkləri ilə Abutalıbın qarşısını kəsib dayanmışdılar. Onunla vidalaşmağa gələn boranlılar da susurdular.

Əsən külək yerin qarını xışıltı və incə fitə bənzər bir səslə sovururdu. Bilinirdi ki, boran başlanacaq. Sarı-Özəyin bomboz göyləri get-

gedə dolub ağırlaşırdı. Göydə solğun, tənha ləkə kimi görünən ay yabanı, cansıxıcı və mənasız bir işıqla işarırdı. Şaxta adamın yanaqlarını dalayırdı.

Zərifə ərinə vermək üçün hazırladığı yemək və paltar boğçası əlində, xısın-xısın ağlayırdı. Ukubalanın ağzından çıxan buxardan bilmək olardı ki, arvad necə dərindən ah çəkir. O, Daulu kürkünün ətəyi ilə soyuqdan qoruyurdu. Daul, deyəsən, nəsə duyub şübhələndiyi üçün Ukubala xalasına sıxılıb dururdu. Ermekin işi hamıdan çətin idi, Yedigey onu küləkdən qorumaq üçün qucağına almışdı. Yazıq körpə heç nədən şübhələnmirdi.

– Atika, atika! – O, atasını səsləyirdi. – Gəl bizim yanımıza. Biz də sənnən gedərik!

Abutalıb hər dəfə onun səsini eşidəndə diksinib uşağa bir cavab vermək üçün dönmək istəyəndə ona imkan vermirdilər. O üç nəfərdən biri dözə bilmədi:

– Burda dayanmayın! Eşidirsiz? Gedin burdan, sonra gələrsiz.

Çarəsiz qalıb bir az aralı çəkilməli oldular.

Axır ki, uzaqdan parovozun işıqları göründü, hamı öz yerində hərəkətə gəldi. Zərifə özünü saxlaya bilməyib daha ucadan içini çəkməyə başladı. Ukubala da ona qoşuldu. Qatar özü ilə ayrılıq gətirirdi. Qabaq tərəfdəki işığıyla şaxtalı havanın qaranlığını yarıb, duman burumlarında peyda olan haylı-həşirli bir varlıq kimi zəhmlə yaxınlaşırdı. O yaxınlaşdıqca parovozun par-par yanan faraları get-gedə yerdən aralanır, relslər arasında sovrulan qar dənələri daha aydın görünürdü. Budur, artıq qatarın cizgiləri də seçilməyə başladı.

– Atika, atika! Ora bax, qatar gəlir! – Ermek qışqırır, atasının cavab vermədiyini görüb susurdu. Sonra yenə də onun diqqətini cəlb etməyə çalışırdı: – Atika, atika!

Yaxınlıqda vurnuxan razyezd rəisi Əbilov o üç nəfərə yaxınlaşıb dedi:

– Poçt vaqonu qatarın baş tərəfindədir. Xahiş edirəm irəli, o tərəfə buyurun. O tərəfə. – Hamısı birdən cəld addımlarla o, göstərən tərəfə yönəldilər, qatar arxadan çatırdı. Hamıdan qabaq ətrafına baxmadan, əli portfelli çalağangöz yeriyirdi, onun dalınca da Abutalıbı müşayiət edən müstəntiqin enlikürək köməkçiləri gedir, onların dalınca da Zərifə, Daulun əlindən tutub çəkən Ukubala tələsirdilər. Yedigey isə qucağında Ermek bir az arxadan gəlirdi. O, arvadların yanında ağlamağı



özünə ar bildi. Buna görə də yol getdikcə özünü ələ almağa, boğazına tıxanmış qəhəri udmağa çalışırdı.

– Sən ağıllı oğlansan, Ermek, sən ağıllısan, düzdür? Sən ağıllısan, ağlamayacaqsan, yaxşı? – O beləcə öz-özüylə danışa-danışa uşağı bərk-bərk bağrına basıb yeriyirdi.

Onlar yeridikcə qatar da sürətini azaldır, dayanacağa çatırdı. Parovoz onlarla bərabərləşib, hələ də ətalətlə hərəkətini davam etdirərək kəskin fışıltı ilə pərini buraxa-buraxa qabağa keçdi, bu vaxt konduktor zildən bir fit çalanda uşaq Yedigeyin qucağında qorxudan dik atıldı.

– Qorxma, qorxma, – deyə o, uşağı ovundurmağa çalışdı, – mənim yanımda olanda heç nədən qorxma.

Nəhayət, qatar, uzun və ağır bir qıcırtı ilə dayandı, qırovdan və narın qar zərrələrindən naxış bağlamış, pəncərə şüşələrini buz tutduğu üçün kor kimi görünən vaqonlar yerlərində donub qaldılar. Ətrafa sakitlik çökdü. Ancaq elə o dəqiqə də parovoz yenidən pərini fışqırdıb, yola düşmək üçün hazırlaşdı. Parovoza bağlanmış baqaj vaqonundan sonra poçt vaqonu idi. Poçt vaqonunun pəncərələrinə barmaqlıq çəkilmişdi, qapısı da vaqonun ortasındaydı. Qapılar içəridən açıldı, başlarında poçt işçilərinin rəsmi papağı, əyinlərində sırıqlı pencək-şalvar olan bir arvad, bir kişi bayıra boylandı. Əlində fənər tutan arvad deyəsən vəzifədə böyük idi. Dolu, gərdənli-döşlü bir arvad idi.

Arvad hamını görə bilsin deyə fənəri başının üstünə qaldırdı:

– Sizsiniz? Gözləyirik. Yer hazırdır.

Hamıdan əvvəl əlində böyük portfel tutan çalağangöz qalxdı. Yerdə qalan iki nəfər də səs-səsə verib tələsdirməyə başladılar:

– Tez olun, tez olun, ləngitməyin!

– Tezliklə qayıdacağam! Bu səhvdir, anlaşılmazlıqdır! – Deyə Abutalıb tez-tez təkrar edirdi. – Gözləyin bu yaxınlarda qayıdaram.

Ukubalanın dözümü çatmadı. Abutalıb uşaqlarla görüşüb vidalaşanda hönkürtü çəkib ağlamağa başladı. O, əhvalatdan ağlı bir şey kəsməyən, qorxudan özlərini itirmiş uşaqları qucaqlayıb, basmarlayır, üz-gözlərindən öpə-öpə nə isə deyirdi. Parovoz pərini qızdırıb hazır dayanmışdı. Bütün bu hadisə əl fənərinin işığı altında gedirdi. Bu vaxt yenə də qatar boyu elektrik cərəyanı kimi adamın beyninə işləyən şiddətli qulaqbatırıcı fit səsi eşidildi.

– Qurtarın daha, çıx görək! – deyə o iki nəfər Abutalıbı vaqonun pillələrinə tərəf dartdılar.

*Son anda Abutalıbla Yedigey macal tapıb bərk-bərk qucaqlaşdılar,* islaq, tüklü yanaqlarını bir-birinə sıxıb, bir an donub durdular. Abutalıb onun qulağına pıçıldadı:

– Onlara dənizdən danış!

Bu sözlər onun son sözləri oldu. Yedigey başa düşdü. Abutalıb demək istəyirdi ki, Yedigey onun oğlanlarına Aral dənizdən danışsın.

Onları itələyib bir-birindən ayırdılar:

– Qurtarın görək, tez olun, tez min, tez ol! – O iki nəfər çiyinləri ilə daldan itələyə-itələyə Abutalıbı vaqona dürtdülər. Ayrılığın dəhşətli mahiyyəti bundan sonra uşaqlara çatdı. Onlar səs-səsə verib ağlaya-ağlaya qışqırmağa başladılar:

– *Ata, ata, atika, atacan!*

Yedigey qucağında Ermek özünü vaqona tərəf atdı.

Fənərli arvad ətli çiyinləri ilə qapının qabağını kəsdi, Yedigeyi gücü gəldikcə sinəsindən itələyib çığırdı:

– Hara, hara? Rəhmətliyin oğlu!

Uşaqlar ağlaşmağa başlayanda Yedigeyin nələr çəkdiyini, ürəyinin necə ağrıdığını heç kim bilmirdi, bilmirdi ki, Yedigey çalağangözü yolda öz əlilə boğmaq üçün Abutalıbın yerinə özü getməyə hazırdı.

– Çıxın gedin, durmayın burda! Gedin burdan, gedin! – deyə fənərli arvad çığırırdı. Onun qatı tənbəki və soğan iyi verən nəfəsi Yedigeyin burnuna doldu.

*Əlindəki bağlama Zərifənin indi* yadına düşdü. O yüyürüb bağlamanı vaqona atdı:

– Verin ona, yeməkdir!

Poçt vaqonunun qapısı örtüldü. Sakitlik çökdü. Parovoz fit verib tərpəndi. O, çarxlarını qıcırtı ilə hərlədir, şaxtada sürətini ehtiyatla artırırdı. Boranlılar özlərindən asılı olmayaraq qapısı kip bağlı olan vaqonun yanınca getdilər. Hamıdan əvvəl Ukubala özünə gəldi. O, Zərifəni çəkib sinəsinə basıb saxladı, buraxmadı. Yanlarından ötən və getdikcə sürətini artıran çarxların səsini üstələmək üçün var gücüylə çığırdı:

– Daul getmə! Dayan, dur burda! Yapış ananın əlindən!

Yedigey isə Ermek qucağında hələ xeyli qatarın yanınca yüyürdü, sonuncu vaqon onları ötüb-keçəndən sonra dayandı. Qatar getdi, getdikcə də hərəkətini yavaşıyan səsini və qırpım çala-çala gözdən itən işıqları özü ilə aparırdı... Axırıncı sürəkli fit səsi eşidildi...



Yedigey geri döndü. *Xeyli çalışandan sonra uşağı ovundurub* kiridə bildi...

Evlərinə qayıdandan sonra, o, başından zərbə alan gicəllənmiş adamlar kimi sobanın böyründə oturmuşdu. Birdən gecənin bu vaxtı Əbilov yadına düşdü. Yedigey sakitcə yerindən qalxıb geyinməyə başladı. Ukubala o saat kişinin məqsədini başa düşdü.

– Hara? – deyib onun əlindən tutdu. – Ona əl vurma, heç barmağını da toxundurma! Arvadı zahıdır. Heç haqqın da yoxdur, sübut eləyəksən?

– Nigaran qalma, – deyə Yedigey onu sakit elədi. – Ona dəymərəm, amma gərək bilsin ki, burdan baş götürüb getsə canı salamat olar. Getsin başqa yerə. Sənə söz verirəm ki, başından bir tük də əskiyi olmayacaq. Arxayın ol! – O, əlini arvadının əlindən çəkib getdi.

Əbilovgilin pəncərələrindən işıq gəlirdi. Deməli, yatmayıblar.

Yedigey qarı xırtıldada-xırtıldada cığırla gəlib, evin soyuq qapısını bərkdən döydü. Qapını Əbilov açdı.

– A, Yedigc, gəl, gəl, – deyə qorxa-qorxa geri çəkilib yol verdi.

Yedigey şaxtadan buğlana-buğlana içəri girdi. Kandarda ayaq saxlayıb qapını örtdü. O, bacardığı qədər sakit danışmağa çalışaraq soruşdu:

– O bədbəxtləri niyə yetim qoydun?

Əbilov diz üstə yıxılıb sürünə-sürünə Yedigeyin ətəyindən yapışdı.

– Allaha and olsun ki, mən eləməmişəm, Edigə! Yalan deyirəmsə, arvadım salamat qurtarmasın! – O, can-dildən and içə-içə qorxudan yerində quruyub qalmış arvadına tərəf döndü. Tələsdiyindən dili dolaşa-dolaşa dedi: – Vallah, mən eləməmişəm, Edigə, mən elə şey eləyərəmmi! O müfəttiş eləyib! Yadına sal! O soruşmurdumu o nə yazır, niyə yazır? O eləyib, müfəttişin işidir! Mən elə iş görərəmmi? Yalan deyirəmsə heç o, salamat qurtarmasın! Bayaq, qatarın yanında özümə yer tapa bilmədim, vallah, yer yarılsaydı, yerə girərdim ki, o müsibəti görmüyüm! O müfəttiş girirdi adamın ürəyinə, söküb-tökürdü, hər şeyi soruşub öyrənirdi, nə bilim mən başı daşlı... Bilsəydim nə vardı ki...

– Yaxşı, – Yedigey onun sözünü kəsdi. – Dur ayağa, adam kimi danışaq. Lap arvadının yanında. Allah eləsin, sağ-salamat azad olsun. İndi söhbət ondan getmir. Lap elə tutaq ki, səndə təqsir olmayıb,

səninçün harda yaşamağın bir əhəmiyyəti yoxdur. Amma biz burda bəlkə də ölənəcən qalmalı olduq. Bununçun da fikirləş. Mən bilən bir azdan sonra özünə başqa bir iş tapsan pis olmaz. Mənim məsləhətimə qulaq as. Vəssalam. Biz bir də bu məsələnin üstünə qayıtmayacağıq. Elə bunu demək istəyirdim.

Yedigey sözünü qurtaran kimi çıxdı, dalınca qapını örtdü.

## IX

Sakit okeanda Aleut adalarının cənubunda gün-günortanı çoxdan keçmişdi. Yenə də əvvəlki kimi okean yarıfırtınalı bir qüvvə ilə çalxalanırdı, yenə də əvvəlki kimi üfüqdən-üfüqə səf çəkən başı köpüklü dalğalar bir-birini qovaraq ucsuz-bucaqsız sular aləmində daimi hərəkətdə idi. "Konvensiya" təyyarədaşıyan gəmisi dalğalar üzərində aram-aram yırğalanırdı. O yenə də əvvəlki yerindəydi. – San-Fransisko ilə Vladivostok arasındakı hava yolunun tən ortasında. Beynəlxalq elmi proqram gəmisinin bütün xidmət bölmələri gərgin vəziyyətdə əməliyyata hazır dururdu.

Cazibə günəşi sistemində Yerdənkənar sivilizasiyanın kəşf edilməsiylə əlaqədar yaranmış fövqəladə vəziyyət münasibətilə gəmidə xüsusi səlahiyyətli komissiya tərəfindən çağırılmış təcili müşavirə başa çatmaq üzrə idi. Kənar planetdən gələnlərə qoşulub getmiş 1-2 və 2-1 paritet-kosmonavtlar hələ də Meşəlidöş planetindəydilər. Onlar Ümumi İdarə Mərkəzi tərəfindən "Paritet" orbital stansiyasının radioqurğusu vasitəsilə üç dəfə xəbərdar edilmişdilər ki, Ümumi İdarə Mərkəzinin xüsusi göstərişi olmadan heç bir təşəbbüsdə olmasınlar.

Ümumdamərkin bu qəti tələbi əslində təkcə beyinlərdə yaranmış təlatümü əks etdirməklə məhdudlaşmırdı, eyni zamanda fövqəladə, mürəkkəb, qarşısıalınmaz bir sürətlə kəskinləşən vəziyyət, tərəflər arasında yaranmış münaqişəli münasibətlərin qızğınlığına, nəticədə əməkdaşlığın tamamilə pozulmasına, hətta bəlkə də qarşıdurmaya gətirib çıxara biləcək vəziyyəti əks etdirirdi. Bu hadisə baş verəndə iki aparıcı dövləti yaxınlaşdıran maraq, iki ölkənin elmi-texniki qüdrətinin inteqrasiya marağı – "Demiurq" proqramı öz-özünə ikinci plana keçmiş, Yerdənkənar sivilizasiyanın kəşfiylə əlaqədar ortalığa



çıxmış fövqəladə problemlə müqayisədə öz keçmiş əhəmiyyətini itirmişdi. Komissiyaların üzvləri bir məsələni çox aydın başa düşürdülər: bu misli görünməmiş, heç bir şeylə müqayisəyə gəlməyən kəşf müasir dünya ictimaiyyətinin əsaslarını kökündən sınaq qarşısında qoyur, əsrlər boyu gələn nəsillərin şüurunda yaradılan, təlim edilən, inkişaf etdirilən nə varsa hamısını, bir sözlə onun mövcudiyyət qaydalarının cəmini köklü sınaq qarşısında soyur. Hələ Yer kürəsinin ümumi təhlükəsizliyi bir yana qalsın, belə bir riskə gedə biləcək adam tapılardımı?

Tarix həmişə olduğu kimi, belə bir məqamda Yerdəki iki müxtəlif quruluş arasındakı köklü ziddiyyətlər yenə də bütün çılpaqlığı ilə aşkara çıxdı.

Məsələnin müzakirəsi qızğın mübahisəyə çevrildi. Baxışların, münasibətlərin müxtəlifliyi getdikcə daha artıq barışmaz xüsusiyyət alırdı. Məsələ ildırım sürətilə toqquşmaya, müqabil təhdidlərə doğru gedirdi, elə ziddiyyətlərə doğru gedirdi ki, mütləq dünya müharibəsinə çevrilə bilərdi. Ona görə də hadisələrin belə istənilməz inkişafından ehtiyat edərək, tərəflər özlərini ifrata varmaqdan qoruyurdu. Bundan daha güclü amil, Yerdənkənar sivilizasiyası olması faktının, ümumiyyətlə məlum olandan sonra bəşəriyyətin şüurunda kortəbii olaraq baş verə biləcək ümumi sıçrayışın, daha doğrusu, sıçrayış təhlükəsinin istənilməzliyi idi... Bu məsələnin sonrasına heç kim cavabdeh ola bilməzdi...

Axır ki, kamal qalib gəldi, tərəflər bir-birinə güzəştə getdilər – məcburi və yenə də dəqiq müvazinətləşdirilmiş bir güzəştə... Bununla əlaqədar olaraq, Ümumidamərkəz "Paritet" orbital stansiyasına aşağıdakı məzmunda kodlaşdırılmış teleqram göndərdi:

"1-2 və 2-1 nəzarətçi-kosmonavtlara. Sizə bir vəzifə olaraq tapşırılır ki, "Paritet" kosmik gəminin qurğuları vasitəsilə bilatəxir Günəşdənkənar qalaktikada, "Cazib" adlanan sistemdəki Meşəlidöş planetində olan 1-2 və 2-1 paritet-kosmonavtlarla radio əlaqəsinə girəsiniz. Onları təcili surətdə xəbərdar etmək lazımdır ki, 1-2 və 2-1 paritet-kosmonavtların Yerdənkənar sivilizasiyası haqqındakı məlumatı öyrənən ikitərəfli komissiyanın gəldiyi nəticəyə əsasən Ümumidamərkəz yenidən baxılması qəti mümkün olmayan qərar qəbul edir:

a) sabit 1-2 və 2-1 paritet-kosmonavtlar Yer sivilizasiyası üçün məqbul olmayan simalar kimi bir daha "Paritet" orbital stansiyasına, o cümlədən Yer kürəsinə buraxılmasınlar;

b) Meşəlidöş planetinin sakinlərinə elan edilsin ki, Yer kürəsinin tarixi təcrübəsi, Yer ictimaiyyətinin hazırkı inkişaf səviyyəsi və zəruri mənafeyinə zidd olduğu üçün onlarla hər cür əlaqəni rədd edirik;

v) 1-2 və 2-1 paritet-kosmonavtlar, eləcə də onlarla kontaktda olan kənar planet sakinləri xəbərdar edilsinlər ki, "Tramplin" orbitində olan "Paritet" stansiyasına gəldikləri kimi bir daha yerlilərlə əlaqəyə girməyə təşəbbüs göstərməsinlər və xüsusilə Yer ətrafındakı sahələrə yaxınlaşmasınlar;

q) Yer ətrafındakı kosmik fəzanın kənar planetdən gələn uçan qurğularının mümkün ola bilən müdaxiləsindən mühafizə məqsədilə Ümumidamərkəz elan edir ki, kosmosda Yerə yaxınlaşan hər cür predmeti nüvə-lazer şüalanması ilə məhv etmək üçün müəyyən proqram əsasında, müəyyən orbitlərdə uçacaq döyüş raket robotlarından ibarət, təcili surətdə "həlqə" adı altında fövqəladə transkosmik rejim yaradılır;

d) kənar planet sakinlərilə özbaşına kontakta girmiş sabiq paritet-kosmonavtların nəzərinə çatdırılsın ki, yerlilərin mövcud geosiyasi quruluşunun sabitliyinin qorunub saxlanması məqsədilə onlarla hər haqlı əlaqə qeyri-mümkün hesab edilir. Sonra isə baş vermiş hadisənin tam məxfiliyini təmin etmək və həmçinin yeni kontaktlara yol verməmək üçün qəti tədbirlər görüləcək. Bu məqsədlə "Paritet" stansiyasının orbiti bilatəxir dəyişdiriləcək, stansiyanın radio-rabitə kanalları yenidən kodlaşdırılacaq;

e) kənar planet sakinləri bir daha xəbərdar edilsinlər ki, Yer kürəsi ətrafındakı "həlqə" sahəsinə yaxınlaşmaq təhlükəlidir.

Ümumidamərkəz. "Konvensiya" gəmisinin bortu".

Ümumidamərkəz bu qoruyucu tədbirlərə əl atmaqla məcbur oldu ki, İks planetindən istifadə imkanlarını öyrənmək üçün nəzərdə tutulmuş "Demiurq" proqramını namüəyyən müddətə təxirə salsın. "Paritet" orbital stansiyasının da orbitinin parametrlərini dəyişərək ondan yalnız gündəlik kosmik müşahidələr üçün istifadə ediləcəkdi. Qərara alınmışdı ki, müştərək "Konvensiya" elmi-tədqiqat təyyarədaşıyan



gəmisi saxlanılmaq üçün bitərəf Finlandiyaya tapşırılsın. "Həlqə" sistemi uzaq kosmosa buraxılandan sonra bütün elmi və inzibati işçilər, bütün köməkçi heyət dabılacaq, dillərindən də iltizam alınacaqdı ki, ölənəcən Ümumidamərkəzin fəaliyyətinin dayandırılma səbəblərini açmayacaqlar.

Geniş ictimaiyyət üçün başqa bir məlumat nəzərdə tutulmuşdur k: "Demiurq" proqramı üzrə işlər İks planetində əsaslı axtarışlar və vacib düzəlişlər tələb olunduğu üçün qeyri-müəyyən müddətə dayandırılır.

Hər şey dərindən düşünülmüşdü. Və bütün bunların hamısı "Həlqə" sistemi Yer kürəsi ətrafına çıxarılan kimi həyata keçiriləcəkdi.

Bir az əvvəl, komissiyaların müşavirəsi qurtaran kimi, bütün sənədlər, bütün şifrlənmiş xəbərlər, sabiq paritet-kosmonavtların göndərdikləri bütün məlumat bu qəmli hadisəyə az və ya çox aidiyyatı olan bütün protokollar, maqnit lentləri və kağızlar məhv edilmişdi.

Sakit okeanda, Aleut adalarından cənubda, gün batmaq üzrə idi. Hava yenə də əvvəlki kimi nisbətən təhlükəli idi. Hər halda okeanda dalğalar get-gedə böyüyürdü. Artıq ətrafda köpürüb kükrəyən dalğaların nəriltisi eşidilirdi.

Təyyarədaşıyan gəminin aviasiya bölməsinin işçiləri xüsusi səlahiyyətli komissiya üzvlərinin müşavirəni qurtarıb təyyarələrə yaxınlaşmalarını gözləyirdilər. Budur, nəhayət onların hamısı çıxdı. Vidalaşdılar. Bir hissəsi bir təyyarəyə, o biri hissəsi də o biri təyyarəyə tərəf yönəldi.

Gəminin lövbər vurmağına baxmayaraq, təyyarələr çox yaxşı qalxdılar. Laynerlərdən biri San-Fransiskoya, o biri isə əks tərəfə – Vladivostoka istiqamət götürdü.

Yer kürəsi fəzada üzə-üzə öz əbədi dövründə idi. Yer üzürdü... O, kainatın ölçülməz sonsuzluğunda qum zərrəciyi kimi bir şey idi. Kainatda belə qum zərrəciklərinin nə sayı, nə hesabı... Fəqət bircə orda – Yer kürəsində adamlar yaşayırdılar. Onlar bacardıqları kimi yaşayır, bəzən maraq güc gələndə çalışırdılar bilsinlər ki, başqa planetlərdə də onlara bənzər canlılar var ya yox. Mübahisə edirdilər, nəzəriyyələr qururdular. Aya uçurdular, başqa səma cisimlərinə avtomatik cihazlar göndərirdilər və hər dəfə təəssüflə qənaətə gəlirdilər ki, Günəş sisteminə yaxın olan ətraf yerlərin heç birində onlara bənzəyən heç kim və heç nə yoxdur, ümumiyyətlə, heç bir həyat əlaməti görünmür. Bir az sonra onlar bu həqiqəti unudurdular, çünki

bundan da vacib işləri olurdu, çünki bir yerdə yaşayıb yola getmək onlara o qədər də asan başa gəlmirdi, bir də gündəlik çörək tapmaq da çətinləşmişdi... Çoxları da belə hesab eləyirdilər ki, bu, onların işi deyil. Dünya isə özü üçün üzməyində idi.

O ilin yanvarı yaman şaxtalı, buludlu idi. Sarı-Özəyə bu qədər soyuğun hardan dolduğunu bir Allah bilirdi! Qatarların buksları donub bir-birinə yapışırdı, ayazın buzlu küləyindən ağappaq olurdular. Adətən qapqara olan neft sisternlərinin çovğundan qırov tutmuş ağappaq düzümünü görən adam mat qalırdı. Qatarlar üçün yerdən tərpənmək də güc istəyirdi. Qoşalaşdırılmış parovozlar çiyin-çiyinə verən adamlar kimi iki tərəfdən güc verir, donub relslərə yapışmış çarxları təkanlarla qoparmağa çalışırdılar. Parovozların vaqonları qoparmaqçün vurduğu təkanların şaqqıltısı ayazlı havada lap uzaqlardan eşidilirdi. Gecələr boranlıların uşaqları bu səsdən diksinib yuxudan oyanırdılar.

Bir yandan da yolları qar basmağa başladı. Guya şaxta bəs deyilmiş, bu da bu yandan gəldi – küləklər elə bil dəli olmuşdu. Sarı-Özəkdə yol vurub yengələr oynayırdı – çovğunun hansı tərəfdən vuracağını bilmək olmurdu. Boranlılara elə gəlirdi ki, çovğuna deyən vardı ki, qarı sovurub dəmir yoluna yığ. Özünə bir balaca deşik kimi güc eləyib tığ vururdu.

Yedigey, Qazanqap, üç nəfər də onlardan əlavə yol fəhləsi, onu bilirdilər ki, razyezdin payına düşən məsafədə gah bir yerin, gah o biri yerin, gah da yenə əvvəlki yerin qarını təmizləsinlər. Dəvələr olmasaydı batardılar, vəl kimi bir şey düzəldib dəvələri qoşmuşdular. Əvvəlcə bu vəllərlə qarın yapıxmış üst qatını sıyırıb yolun kənarına tökdülər, qalanını da əllə təmizləməli oldular. Yedigey Qaranəri əsirgəmirdi, əksinə, elə düşən girvədən razıydı ki, nəri yorub əldən salsın, zorunu, hovunu-köpünü alsın. Qaranəri özünə yaraşan bir güclü dəvə ilə cüt qoşmuşdu. Onları qırmancla qovur, qarı vəlin qabağından bərkidilmiş köndələn taxta ilə sırıyır, özü də ağırlıq üçün vələ minirdi. O vaxt əvvəllərin daha başqa bir şey yox idi. Söz gəzirdi ki, guya zavodlar xüsusi lokomotivlərlə işləyən qartəmizləyənlər hazırlayıblar, qar tığını özü təmizləyib yanlara atır. Vəd eləmişdilər göndərsinlər, hələlik vəd söz olaraq qalırdı.

Yayda isti iki ay ağlı başdan çıxardırdısa, indi adam şaxtalı havanı nəfəsinə çəkməkdən qorxurdu – adama elə gəlirdi ki, ciyərləri partlayır. Buna baxmayaraq qatarlar işləyir, onlardan da iş tələb eləyirdi. Yedigeyin üzünü tük basmışdı, o qış saqqalına dən düşmüşdü, bir-iki yerdən ağ tük işarırdı, yuxusuzluqdan gözləri şişmişdi, heç güzgüdə baxılası deyildi: elə bil sifəti çuqundan tökülmüşdü. Yarımkürkünü heç əynindən çıxarmırdı, üstündən hələ başlıqlı brezent plaş da geyinirdi. Ayaqlarında keçə çəkmələr...

Di gəl ki, Yedigey nə ilə məşğul olar olsun, nə qədər əzab çəkir çəksin, Abutalıb Kuttubayovun müsibəti yadından çıxmırdı. Bu hadisə onun ürəyində ağrılı bir əks-səda vermişdi. Onlar tez-tez Qazanqapla söhbət, götür-qoy eləyir, fikirləşirdilər, görəsən bu məsələnin səbəbi nə olub və necə qurtaracaq. Qazanqap əksər hallarda qaşlarını düyünləyib susur, nə isə öz fikirləriylə əlləşirdi. Nəhayət bir gün dilə gəldi:

– Elə həmişə belə olub. Məsələni ayırd eləyənəcən... Keçmişlərdə nahaq yerə deməyiblər ki: "Xan Tanrı deyil. Bəzən o öz yanında olan adamların neylədiklərini bilmir, onun yanındakılar da bazarlarda vergi yığanların neylədiklərindən xəbərsizdir". Həmişə belə olub.

– Burax canım, sən də! Əllaməlik eləmə, – Yedigey narazılıqla ona məsxərə elədi. – Sənin xanlarının, bəylərinin çoxdan dalından dəyiblər! İş bundadır məgər?!

– Bəs nədədir? – Qazanqap heç əhvalını pozmadan soruşdu.

– Nədədir, nədədir, – Yedigey donquldansa da cavab tapa bilmədi.

Məlumdur ki, bədbəxtlik gələndə birdən gəlir. Kuttubayovgilin böyük uşağı – Daul yaman soyuqlamışdı. Uşaqcığaz qızdırma içində sayıqlayır, öskürəkdən boğulur, boğazı ağrıyırdı. Zərifə deyirdi ki, uşaq angina olub, ona cürbəcür həblər verirdi. İş burasında idi ki, o, səhərdən axşamacan uşaqların yanında ola bilmirdi: yoldəyişən vəzifəsində işləyirdi, neyləsin, dolanmaq lazım idi. Vaxt olurdu gecə işləyirdi, vaxt olurdu gündüz. Çarə yoxdu, uşaqların qayğısını Ukubala öz üzərinə götürməli oldu. Abutalıbın ailəsinin necə çıxılmaz vəziyyətdə olduğunu başa düşürdü, ona görə də iki özününkü, iki də onlarınkı – dörd uşağa baxırdı. Yedigey də əlindən gələn köməyi eləyirdi. Hər səhər tezdən anbardan kömür gətirirdi, imkan tapanda sobanı da qalayırdı. Sobada daş kömür alışdırmaq səriştə istəyir. Bir dəfəyə vedrə yarım kömür tökürdü ki, axşamacan uşaqlara isti olsun. Qabağı kəsilmiş xəttin axırında dayanan su sisternlərindən suyu da özü gətirirdi, yandırmaq üçün odun doğrayırdı. Belə-belə şeylər eləmək – odun doğramaq, su gətirmək və başqa xırda-mırda iş onun əlində nə idi ki... Ən çətini uşaqların gözünə baxmaq, onların suallarına cavab

verməkdi, mümkün deyildi, bundan da əzablı, dözülməz bir şey ola bilməzdi. Böyük xəstə yatırdı, özü də sakit uşaqdı, ancaq balacası Ermek anasına çəkmişdi, çox şux, istiqanlı, sonsuz dərəcə kövrək və həssas uşaqdı, onun işi çətin idi. Səhərlər Yedigey kömür gətirib sobanı qalayanda çalışırdı ki, ehtiyatlı olsun, uşaqları oyatmasın. Ancaq nadir hallarda gözə dəymədən gedə bilirdi. Qara, buruq saçlı Ermek o saat oyanırdı. Gözlərini açan kimi də ilk sualı:

– Yedigey əmi, bu gün atam gələcək? – olurdu.

Uşaq alt paltarında, ayaqyalın yüyürür, gözlərində elə çılğın bir ümid yanırdı ki, guya Yedigey desəydi ki, "hə" – atası mütləq qayıdacaq, təzədən onlarla olacaqdı. Yedigey arıq və isti uşağı qucağına alıb yenidən yatağa salırdı. Özü də onunla öz tay-tuşu kimi çox ciddi danışırdı:

– Bu gün deyə bilmərəm, Ermek, atikan gələcək, ya gəlməyəcək, bilmirəm, gələndə stansiyadan telefonla xəbər verəcəklər hansı qatarla gələcək. Sən özün bilirsən ki, sərnişin qatarları bizdə dayanmır. Ancaq dəmiryolunun baş dispetçerinin əmriylə dayanır. Mən bilən, bu günlərdə xəbər verərlər. Onda biz, Daul sağalsa, Daulu da götürüb çıxarıq qatarın qabağına, qarşılarıq.

– Deyərik, atika, bax, səni qaşılamağa gəlmişik!

Yedigey də eyni ahənglə təsdiq elədi:

– Bəs necə, elə də deyərik!

Ancaq diribaş uşağı aldatmaq o qədər də asan iş deyildi.

– Yedigey əmi, gəl ondakı kimi yenə də minək yük qatarına, gedək la-p, l-a-p baş dispetçerin yanına. Deyək ki, papika gələn qatarı bizdə saxlatdırsın.

Yedigey vəziyyətdən çıxmağa məcbur olurdu:

– Onda yay idi, axı istiydi. İndi bu soyuqda yük vaqonunda getmək olarmı? Yaman soyuqdur. Küləkdir. Ora bax, gör pəncərələr necə donub. Biz heç ora çatmarıq, yolda donub buz olarıq. Yox, olan iş deyil, qorxuludur.

Uşaq bundan sonra qəmgin-qəmgin susurdu.

– Sən hələlik yerindən durma, mən görüm Daul necədir, – deyə Yedigey bəhanə eləyib böyük oğlanın yanına gedirdi, düyün-düyün qabarlı əllərini uşağın isti alnına qoyurdu... Daul gözlərini zorla aralayıb qızdırmadan qaysaqlanmış dodaqlarıyla gülümsünürdü. Qızdırma hələ düşmürdü. – Üstünü açma. Eşidirsən, tərlisən, Daul. Daha da bərk



naxoşlayarsan. Ermek, o, çiş eləmək istəyəndə sən ona tas gətir. Yaxşı? Qoyma yerindən dursun. Bir azdan ananız növbədən qayıdar. Ukubala xalanız da indicə sizə yemək gətirəcək. Daul sağalandan sonra gələrsiz bizə, Səulə, Şərafətlə oynayarsınız. Mən işə getməliyəm, yaman qar yığılıb, yoxsa qatarlar dayanar, – Yedigey belə sözlərlə uşaqların başını qatırdı.

Amma Ermekə söz-zad qandırmaq olmurdu. Yedigey qapıya çatanda onu bir az da səsləyirdi:

– Yedigey əmi, atikanın qatarı gələndə qar çox olsa mən də gedərəm qar təmizləməyə. Mənim öz kürəyim var.

Yedigey onlardan həmişə ürəkağrısıyla çıxardı. Dilxorçuluqdan köməksizlikdən, ürəyi sızıldayırdı. Belə vaxtlarda dünya başına dar gəlirdi, hirsini-qəzəbini tökürdü qara, küləyə, qar tığlarına, işdə aman verrnədiyi dəvələrə. Div kimi işləyirdi, elə bil Sarı-Özək çovğununun qabağını təkbaşına kəsəcəkdi...

Günlər isə qarşısıalınmaz bir qaydada düşən damcılar kimi bir-birinin dalınca ötüb-keçirdi. Bu minvalla yanvar da ötüb-keçdi. Şaxtalar bir balaca sındı. Abutalıb Kuttubayovdan heç bir xəbər-ətər yox idi. Yedigey ilə Qazanqap fikir-xəyalat içində başlarını itirmişdilər – ağıllarına cürbəcür şeylər gəlirdi. Əslində onların ikisi də o fikirdə idi ki, kişini bu yaxınlarda buraxsınlar gərək, axı nə böyük xata çıxarmışdı – özü üçün nəsə yazmışdı, başqaları üçün yazmamışdı ki?! Onlar ümidlə yaşayırdılar, bunu Zərifəyə də təlqin eləyirdilər ki, ruhdan düşməsin. Elə Zərifənin özü də yaxşı başa düşürdü, uşaqların xətrinə ürəyini daşa döndərməlidir. Elə həqiqətən də o dərdini salmışdı içinə, kəlmə kəsmirdi, bircə gözləri nigarançılıqla parıldayırdı. Allah bilir, nə qədər belə dözüb duruş gətirəcəkdir.

Arada Boranlı Yedigey fikirləşdi ki, çölə gedib dəvələrə baş çəksin, görsün necə otlayırlar. Qaranərin əhvalı necədir? Görən sürüdəki dəvələri şikəst eləməyib? Hovdan düşmür, vaxtdır axı? Xizəklə getdi, o qədər də uzaq deyildi. Vaxtında qayıtdı. İstəyirdi ki, Qazanqapa xəbər versin, narahat olmasın, hər şey öz qaydasındadır, heyvanlar Tülkü Quyruğu çökəkliyində otlayırlar, orda demək olar ki, qar yox kimidir, külək sovurub aparıb, otun üstü açıqdır, heç bir nigarançılıq yoxdur. Ancaq Yedigey fikirləşdi, əvvəlcə evə dəyib xizəkləri qoysun. Böyük qızı Səulə qorxa-qorxa qapıdan boylandı:

– Ata, anam ağlayır! – bunu deyib yenə içəri çəkildi.

Yedigey həyəcandan xizəkləri atıb hövllə içəri girdi. Ukubala elə bönkürürdü ki, Yedigeyin nəfəsi tıxandı.

– Nə var? Nə olub?

– Görüm bu dünyanı xaraba qalsın! – Ukubala yenə hıçqırıb ağladı.

Yedigey heç vaxt arvadını bu vəziyyətdə görməmişdi. Ukubala çox möhkəm və ağıllı arvad idi.

– Təqsirlərin hamısı səndədir!

Yedigey lap məəttəl qalmışdı.

– Niyə? Mənim təqsirim nədir?

– Ağlına nə gəlir, deyirsən o bədbəxt tifillərə. Bir az əvvəl, lap elə sənin qabağınca sərnişin qatarı gəlib dayandı. Qarşıdan gələni gözləməliydi. Dayandı ki, ötüb-keçsin. Bilmirəm, hardan gəlib bizim razyezddə qarşılaşdılar. Abutalıbın uşaqlarının ikisi də qatarın dayandığını görüb, çığıra-çığıra yüyürdülər ki, ay haray: "Atika, ata! Atamız gəldi!". Birbaş qatarın üstünə. Mən onların dalınca. Yüyürürlər vaqondan-vaqona, çığırırlar, "ata, atika! Hanı bizim atika?". Dedim indi düşərlər qatarın altına. Qatarlardan biri də açılmadı. Onlar da dayanmaq bilmir. Uzun-uzadı bağlı bir qatardı. Onlar elə hey qaçırlar. Mən onlara çatıb kiçiyinin əlindən yapışınca, özümü böyüyə çatdırınca qatar yola düşüb getdi. Uşaqlar çapalayıb əlimdən qurtulmaq istəyir, ağlayıb özlərini öldürürdülər ki: "Atika orda qaldı, düşə bilmədi!". Elə çığırıb ağlayırdılar ki, az qala ürəyim partlaya. Ermekin vəziyyəti lap ağırdır! Get uşağı sakit elə! Yeri! Onlara sən demisən sərnişin qatarı dayananda atanız gələcək. Gərək görəydin ataları çıxmamış qatar yola düşəndə onlar nə eləyirdilər! Axı, niyə belə olsun gərək, niyə ata-balaya, bala da ataya bağlı olsun gərək! Axı, belə zülm kimə lazımdır?

Yedigey onları edama gedən adamlar kimi gedirdi. O, Allaha yalvarıb bircə şeyi xahiş edirdi: ona rəhmi gəlsin, o balaca sadədil uşaqları aldatdığı üçün günahından keçsin. Axı, əslində o onlara pislik istəməyib. Bəs indi onlar nə deyəcək, nə cavab verəcək?

Ağlamaqdan üz-gözləri şişmiş Ermeklə Daul onu görəndə təzədən səs-səsə verib ağlaya-ağlaya, bir-birinin sözünü kəsərək ona danışmağa başladılar ki, qatar dayandı, ataları düşməyə macal tapmamış qatar getdi. Qoy o, Yedigey əmi tez gedib qatarı dayandırsın...

– Atikamı istəyirəm, atikam gəlsin! – deyə Ermek çığıra-çığıra yalvarır, öz görkəmi, kədəri və ümidilə ona nə qədər etibar elədiyini göstərməyə çalışırdı.



– İndi hər şeyi öyrənərəm. Sakit olun, sakit olun, ağlamayın. – Yedigey ağlamaqdan az qala qəşş edəcək uşaqları birtəhər ovundurmağa çalışırdı. Bundan daha betər onun öz vəziyyəti idi, çalışırdı özü də uşaqlara qoşulub ağlamasın, sifəti dəyişməsin ki, uşaqlar qarşılarında zəif, köməksiz bir adam görməsinlər. – İndi bir yerdə gedib öyrənərik!

"Hara gedəcəyik, kimin yanına gedəcəyik? Neyləyim? Necə eləyim?" – o fikirləşirdi. – Gəlin çıxaq eşiyə, orda fikirləşək, danışaq, – Yedigey nə isə belə dəxli olmayan sözlər deyir, mənasız-mənasız donquldanırdı.

Sonra Zərifəyə yaxınlaşdı. Zərifə çarpayının üstündə üzüqoylu yıxılıb qalmışdı.

– Zərifə, Zərifə, – deyə Yedigey onun çiyninə toxundu.

Zərifə heç qımıldanmadı.

– Biz indi gedib bir az buralarda gəzərik, sonra da bizə gedərik, – Yedigey bir də dedi: – Mən uşaqlarla gedirəm.

Bu Yedigeyin öz fikrini cəmləşdirmək və uşaqları sakitləşdirmək, diqqətini yayındırmaq üçün tapa bildiyi yeganə şey idi. O, Ermeki dalına mindirdi, Daulun da əlindən yapışdı. Onlar məqsədsiz-filansız dəmiryolunun böyrüncə yol tutub getdilər. Boranlı Yedigey hələ ömründə başqasının dərdinə belə acımamışdı. Onun dalına aldığı Ermek hələ də hıçqırır kədərlə çəkdiyi nəmli nəfəsini onun peysərinə vururdu. Qüssə əlindən haldan düşmüş bu bir tikə insan balası elə bir inam, elə bir etibarla ona qısılıb çiyinlərindən yapışmışdı ki, elə ikinci balaca da elə ürəklə onun əlindən tutmuşdu ki, Yedigey içini dolduran ağrıdan, acıdan bar-bar bağırmaq istəyirdi. Onlar beləcə Sarı-Özək çöllərinin boşluğunda dəmiryolunun böyrü ilə addımlayırdılar. Və bu kimsəsizliyi elədən-belə, belədən-elə ötən qatarlar pozurdu... Gələn gəlirdi, gedən gedirdi... Yedigey yenə də uşaqlara yalan satmalı oldu. Dedi ki, onlar yanılıblar; razyezddə təsadüfən dayanan bu qatar ayrı tərəfdən gəlmiş, onların atası gərək o biri tərəfdən gəlsin. Özü də çox güman ki, bu tezliklə gələ bilməyəcək. Heç demə, onu uzaq dənizdə üzən bir gəmiyə matros göndəriblər, gəmi uzaq səyahətdən qayıdan kimi ataları da evə qayıdacaq. Hələlik gözləmək lazımdır. Onun anlayışına görə, bu yalan uşaqlara ayrılığa davam gətirməyə kömək etməli idi, ta bu yalan çevrilib həqiqət olana qədər. Abutalıb Kuttubayovun qayıdacağına Yedigeyin şübhəsi yoxdu. Bir müddətdən sonra

məsələni ayırd edəyərlər, o da buraxılan kimi bir dəqiqə də olsun ləngiməyib evlərinə qayıdar. Uşaqlarını bu qədər istəyən ata bir saniyə belə ləngiməz... Buna görə də Yedigey uşaqlara yalan deyirdi... Yedigey Abutalıba kifayət qədər bələd olduğu üçün bu adama ailədən uzaq düşməyin nə demək olduğunu hamıdan yaxşı bilirdi. Bir başqası öz ixtiyarı ilə olmasa da, ancaq qayıdacağı ümidiylə ailəsindən müvəqqəti ayrılığı bəlkə də belə keskin, belə ağır keçirməzdi. Amma Yedigey əmin idi ki, bu ayrılıq Abutalıb üçün ən ağır cəzaya bərabər idi. Elə Yedigeyin də nigarançılığı buna görə idi. Görəsən məsələ öz həllini tapanacan davam gətirə biləcəkmi?..

Zərifə o vaxtacan lazım olan yerlərə bir neçə məktub göndərib soruşmuşdu ki, desinlər əriylə görüşə bilər ya yox? Hələlik bir cavab yox idi. Qazanqapla Yedigey də başlarını sındıra-sındıra qalmışdılar. Kişilər belə fikirləşirdilər ki, Boranlı razyezdinin birbaşa poçt əlaqəsi yoxdur. Məktubları ya bir adamla göndərir, ya da özləri Kumbelə aparmalı olurdular. Gələn məktublar da həmçinin başqasının könüllü köməyi ilə çatdırılırdı... Məlumdur ki, belə rabitə vasitəsi həmişə istənilən sürətdə olmur.

Doğrudan da günlərin birində elə oldu...

Fevralın axırlarında Qazanqap Kumbeldəki internatda oxuyan Sabitcana baş çəkməyə getmişdi, özü də dəvə ilə getmişdi. Qışda razyezddən keçən yük vaqonları çox soyuq olurdu, vaqona girmək olmazdı – qadağandır, açıq meydançada da soyuqdan dayanmaq mümkün deyildi. Dəvəylə ayrı məsələ – isti geyin, səhər çıxıb axşama qayıdıb gələ bilərsən, hələ üstəlik lazımi işləri yoluna salmağa vaxt da qalar.

O gün Qazanqap axşamtərəfi qayıtdı. Kişi hələ dəvədən düşəndə Yedigey duydu ki, deyəsən, kişinin kefi yoxdur, nəsə qaşqabağı yerlə gedir, dedi yəqin uşaq məktəbdə bir qələt qarışdırıb, bir də ki, dəvə üstündə lökləyə-lökləyə burdan ora, ordan bura – zarafat gəlməsin, yəqin yorulub. Hər halda Yedigey kişini dindirmək üçün onu səslədi:

– Necə gedib-gəldin?

– Getdim də, – deyə Qazanqap yükü ilə əlləşə-əlləşə boğuq bir səslə cavab verdi. Sonra ona tərəf döndü, bir balaca tərəddüd eləyib soruşdu: – İndi evdə olacaqsan?

– Hə, evdəyəm.

– İş var, indi gələrəm.

– Gəl.



Qazanqap çox ləngimədi, Bikə də onunla gəlmişdi. Özü qabaqda, arvadı da dalınca. İkisi də nəsə çox qayğılı görünürdülər. Qazanqapın üz-gözündən yorğunluq tökülürdü, boynu bir az da uzanmışdı, nəinki çiyinləri, bığları da sallanırdı. Bikə kök arvad idi, elə təngnəfəs olmuşdu ki, nəfəsini güclə çəkirdi, elə bil ürəyi ağzından çıxacaqdı.

– Xeyir ola, dava-zad eləməmisiniz ki? – deyə Ukubala gülə-gülə soruşdu. – Barışmağa gəlmisiniz? Oturun.

Bikə hələ də tövşüyə-tövşüyə xırıltılı səslə dedi:

– Dava eləsəydik dərdimiz nədi...

Qazanqap ətrafa göz gəzdirib maraqlandı:

– Qızlar hanı?

– Zərifəgildədirlər, uşaqlarla oynayırlar, – deyə Yedigey cavab verdi. – Onları neynirsən ki?

Qazanqap bir Yedigeyə baxdı, bir Ukubalaya baxdı, udqunub dedi:

– Bəd xəbər gətirmişəm. Hələlik qoy uşaqlar bilməsinlər. Böyük bəla üz verib. Bizim Abutalıb ölüb!

– Əşşi, nə danışırsan? – Yedigeylə Ukubala dik atıldılar. Ukubala əllərini ağzına basıb hıçqırtısını uddu, divar kimi ağappaq ağardı.

Bikə də ona qoşulub yarıpıçıltılı, yarıxırıltıyla ağlamsındı:

– Ölüb! Ölüb! Yazıq uşaqlar, bədbəxt yetimlər!

Yedigey hələ də eşitdiyinə inanmayıb, oturduğu yerdən qorxa-qorxa Qazanqapa tərəf sürüşdü:

– Necə yəni ölüb?

– Stansiyaya kağızı gəlib.

Hamısı birdən susub bir-birinin üzünə baxdılar. Sonra Ukubala əlləriylə başını tutub yırğalana-yırğalana zarımağa başladı:

– Dərdə bax, ay Allah, niyə bu dərdi göstərdin?..

– Hanı o kağız? – deyə nəhayət Yedigey dilləndi.

– Kağız ordadır, stansiyada qaldı, – deyə Qazanqap danışmağa başladı. – Deməli, əvvəlcə internata baş çəkdim, sonra da dedim ki, gedim stansiyaya, o gözləmə zalındakı balaca mağazaya dəyim, Bikə sabun istəmişdi. Elə qapıya yaxınlaşanda stansiyanın rəisi Çernovun özü qabağıma çıxdı. Salamlaşdıq, daha neçə vaxtdır tanışıq, qayıdıb mənə dedi ki: "Yaxşı rastıma gəldin, gedək kabinetə, məktub var, qayıdanda apararsan razyezdə". Kabinetini açdı, girdik içəri. Siyirmədən üstü çap hərflərlə yazılmış bir konvert çıxarıb soruşdu ki: "Abutalıb Kuttubayov sizin razyezddə işləyirdi?" Dedim, bəli, bizdə

işləyirdi, nə olub ki? Dedi ki: "Üç gündür bu kağız gəlib. Boranlı razyezdinə aparmaq üçün adam tapa bilmirəm. Götür, apar ver arvadına. Onun sorğularına cavab gəlib. Kağızda yazılıb ki, ölüb", sonra da başa düşmədiyim bir söz dedi. "İnfarktdan ölüb". Soruşdum bəs o infarkt nə olan şeydir, cavabında dedi: "Ürəyi partlayıb". İşə bir bax ey, ürəyi partlayıb. Oturduğum yerdə quruyub qaldım. Əvvəlcə inanmadım. Kağızı götürdüm əlimə, gördüm yazılıb ki: Kumbel stansiyasının rəisinə. Boranlı razyezdinə rəsmi məlumat verin, vətəndaş filankəsin sorğusuna cavab olaraq bildiririk ki, – dalısınca da yazırdılar istintaq altında olan Abutalıb Kuttubayov ürək tutmasından ölüb. Beləcə də yazmışdılar. Məktubu oxuyandan sonra rəisə baxdım, nə eləyəcəyimi bilmirdim. Çernov da mənə baxıb çiyinlərini çəkdi: "Belə işlər... Apar ver arvadına". Dedim yox, bizdə belə şey olmaz. Biz qara xəbər aparmarıq. Balaca uşaqları var, mən onlara necə deyə bilərəm, yox dedim. Dedim ki, əvvəlcə qoy öz aramızda məsləhətləşək, sonra bir qərara gələrik. Ya bizlərdən birimiz məxsusi bu kağızın dalınca gəlib qara kağız qaydasıyla götürüb apararıq, zarafat deyil, sərçə-zad deyil ki, adam ölüb, bəlkə də lap arvadı Zərifə Kuttubayovanın özü gəlib apardı... Gələr, əlbəəl verərsiz özünə. Özünüz danışarsız, başa salarsız ki, necə olub. Cavabında mənə dedi ki: "Özün bilərsən, qoy elə olsun. Ancaq mən ona nə deyəcəyəm, nə başa salacağam? Mən burda yazılandan başqa heç nə bilmirəm. Mənim borcum odur ki, məktubu yiyəsinə çatdıram. Vəssalam". Mən də dedim ki, gərək bizi bağışlayasız, qoy hələlik kağız qalsın sizdə, dilcavabı çatdıraram. Orda da öz aramızda biz məsləhətləşərik. Dedi: "Özün bil, məsləhət səníndir". Yanından çıxan kimi qalxdım dəvəyə, qov ki, qovasan, çatanacan daha ürəyimdə tab qalmayıb, elə hey fikirləşirdim: biz neyləyəcəyik? Belə xəbəri kim ürək eləyib onlara çatdıracaq?..

Qazanqap susurdu. Yedigey elə əyilmişdi ki, elə bil üstünə dağ yıxılmışdı.

– İndi necə olacaq? – Deyə Qazanqap sükutu pozdu. Heç kəs ona hay vermədi.

Yedigey kədərlə başını bulayıb dedi:

– Elə ürəyimə dammışdı... Uşaqların ayrılığına dözə bilməyib. Hər şeydən artıq qorxduğum da bu idi. Ayrılığa dözməyib. Qüssə yaman şeydir. Görmürsüz uşaqları onun üçün necə xiffət çəkir?.. Adam üzlərinə baxa bilmir. O başqa cür adam olsaydı, elə qoy bir iş üstündə lap



tutaydılar, nə bilim, bir iş üçün tutub basaydılar. Çəkərdi işini, bir ildən, iki ildən sonra qayıdardı evinə. Axı o, alman əsirliyində olub, konsentrasiya düşərgələrində başına olmazın işlər gəlib. Elə partizanlıqda da başı az çəkməyib, bütün bu illəri yad yerlərdə vuruşub, amma ruhdan düşməyib, niyə, çünki o vaxtlar tək idi, öz əli, öz başı. Ailəsi-zadı yoxdu. Amma indi əti ilə-canı ilə qopartdılar əti-canı olan, dünyada ən əziz şeyi olan uşaqlarından. Elə ona görə də axırı belə bədbəxtçiliklə qurtardı.

Qazanqap da onunla razılaşdı:

– Hə, hə, mən də elə deyirəm. Mən inanmazdım ki, adam ayrılıqdan ölə bilər. Özü də lap cavan-cahıl, ağıllı-savadlı, dözüb gözləyə bilərdi ki, işi ayırd eləyib buraxsınlar. Axı təqsiri də yoxdur. Ağlı ilə başa düşürmüş, əlbəttə, di gəl ki, ürəyi tablamayıb.

Sonra da onlar xeyli oturdular, vəziyyəti götür-qoy elədilər ki, bu xəbəri Zərifəyə necə versinlər, amma bir xeyli düşünüb-daşınandan sonra bu qərara gəldilər ki, bunun fərqi yoxdur, olan olub: – ailə başsız uşaqlar yiyəsiz qalıb, Zərifə də dul, bunun nə o yanı vardı, nə də bu yanı. Axırda yenə də az-maz yöndəmli məsləhəti Ukubala verdi:

– Elə eləyin ki, Zərifə bu məktubu stansiyada özü alsın. Qoy xəbərin ağrı-acısını da burda, uşaqların yanında yox, elə orda çəksin. Nə eləyəcəyini də özü yoluna qoysun – elə orda, stansiyada, üstəlik geri qayıdanda yolda fikirləşməyə vaxtı olacaq ki, nəyi necə eləsin. Uşaqlara bu barədə bir söz desinmi, ya hələlik səbir eləsin. Kim bilir, bəlkə elə deyəcək ki, qoy uşaqlar hələ bir az böyüsünlər, bəlkə atalarını yavaş-yavaş yaddan çıxartdılar... Nə biləsən nə eləyəcək...

– Yaxşı deyirsən, – Yedigey də arvadına tərəf çıxdı, – analarıdır, qoy hər şeyi özü bildiyi kimi eləsin. Abutalıbın ölümü barədə uşaqlara deyər, ya deməz, öz işidir. Şəxsən mən bunu bacarmaram... – Yedigey daha sözünün ardını gətirə bilmədi, dili dönmürdü, boğazına tıxanmış qəhəri dağıtmaq üçün öskürdü.

Onlar ümumi razılığa gələndən sonra Ukubala bir məsləhət də verdi:

– Qazikə, siz gərək Zərifəyə bildirəsiz ki, stansiya rəisinin kabinetində onun adına nəsə bir məktub var. guya ki, onun sorğularına cavab gəlib. Guya məktubu ancaq özü ala bilər. Qayda belədir. İkincisinə də qalanda, – deyə sözünə davam elədi, – bəd ayaqda Zərifəni ora tək buraxmaq olmaz. Axı, burada heç kimi-kimsəsi yoxdur. Elə bunun özü dərd üstünə dərddir. Yedigey, sən Zərifə ilə gedərsən, belə

vaxtda onun yanında ol. Belə müsibəti eşidib biləndə nə desən ola bilər. De ki, stansiyaya iş üçün getməlisən, birgə gedərsiz. Uşaqlar da bizdə qalar.

– Yaxşı, – deyə Yedigey arvadı ilə razılaşdı, – sabah mən Əbilova deyərəm ki, Zərifəni xəstəxanaya aparmalıyam. Qoy gəlib keçən qatarlardan birini bir dəqiqəliyə saxlasın.

Elə bu fikrin üstündə durdular. Amma Kumbelə ancaq iki gündən sonra gedə bildilər. Razyezdin rəisinin xahişi ilə dayandırılmış qatara mindilər. Onda martın 5-i idi. əmin gün Boranlı Yedigeyin yaddaşına ömür-billah həkk olunub qaldı.

Ümumi vaqonda gedirdilər. Ağzına kimi vaqonda nə cür adam desən görə bilərdin – uşaqlı, ailəli, səfər şəraitində araq iyində ora-bura vurnuxan kim, kart oynayan kim... Arvadlar da baş-başa verib xosunlaşır, dərdlərindən-sərlərindən danışır, kişilərin içməyindən, boşanmaqdan, toydan, yasdan qeybət qırırdılar... Səfərləri uzağa idi. Adət elədikləri gün-güzəranı özləri ilə daşıyırdılar... Zərifə də öz dərd-səri ilə Yedigeyin müşayiətində müvəqqəti olaraq bu dəstəyə qoşulmuşdu.

Əlbəttə, Zərifənin halı o hal deyildi. Tutqundu, nigarandı, bütün yolu susur, görünür stansiya rəisinin yanında onu nə cavab gözlədiyini fikirləşirdi. Yolun çox hissəsini Yedigeyin özü də elə demək olar ki, danışmırdı.

Axı dünyada elə həssas, arif adamlar var ki, baxan kimi ürəyinə damır ki, adamın işində nəsə bir əyinti, fənalıq var. Zərifə yerindən durub pəncərənin qabağında durmaq üçün tambura gedəndən sonra, Yedigeyin qənşərində oturan bir rus qarısı nə vaxtsa mavi, indi isə soluxub rəngini itirmiş gözləriylə ona baxa-baxa mülayim bir istiqanlılıqla soruşdu:

– Nədir, oğlum, arvadın naxoşdur?

Yedigey hətta diksindi də.

– Arvadım deyil, bacımdır, mamaşa. Xəstəxanaya aparıram.

– Deyirəm axı, içəridən üzülür, halı çox pərişandır. Gözündən qüssə yağır. Qorxusunu içində çəkir. Yəqin qorxur ki, xəstəxanada, Allah eləməmişkən, qorxulu naxoşluq-zad tapsınlar. Nə deyim, vallah, güzərandır da! Yaranmasan dünyanın nə olduğunu bilmirsən, elə ki, yaranırsan – onda da günün göy əsgiyə bürünür. Çarə nədir! – qarı, sövq-təbii ilə stansiyaya yaxınlaşdıqca Zərifənin daha çox artmaqda



olan qəm-qüssəsini, nigarançılığını duyduğuna görə, əlavə elədi: – Yaradan adildir. Ötüşər, inşallah!

Kumbelə yarım saatlıq yol idi. Qatardakı sərnişinləri bu yerlər qətiyyən maraqlandırmırdı. Onlar bircə onu soruşurdular ki, qabaqdakı hansı stansiyadır. Sonsuz, kimsəsiz bir sükut içində yatan ucsuz-bucaqsız Sarı-Özək çölləri isə hələ də qarın altında idi. Ancaq, hər halda, hiss olunurdu ki, qış yavaş-yavaş çəkilir. Güneylərdə qar ərimiş, yerlər qaralır, yarğanların qaşı haşiyələnir, dikdirlər ləkə-ləkə görünür, martın gəlişiylə düzlərdə oynayan həlim küləklərdən nəmişlik alan qar yavaş-yavaş yerə yapıxırdı. Amma günəş hələ də alçaq, hətta görkəmindən belə su tökülən boz bulud topalarından sıyrılıb çıxa bilmirdi. Qışın canı hələ suluydu, – sulu qar tökə bilər, lap borana, çovğuna çevirə bilərdi.

Yedigey hərdən pəncərəyə baxır, elə o qarı ilə üzbəüz oturub təkəm-seyrək söhbət eləyir, Zərifənin yanına getmirdi. Öz-özünə deyirdi ki, qoy tək qalsın, vaqonun pəncərəsi qabağında durub, öz vəziyyətini düşünüb-daşınsın. Bəlkə də ürəyi ona bir şey dedi, öz-özünə bir yol tapdı. Çox güman ki, Zərifə keçən ilin payızında yolüstü yük qatarına minib Kumbelə qarpız-yemiş almağa getdikləri o xoşbəxt günü xatırlayacaq, – uşaqlar üçün lap toy-bayram idi o gün. Elə bil bu dünən olmuşdu. Bax, onda Yedigeylə Abutalıb vaqonun açıq qapısı ağzında dayanıb özlərini küləyə verir, ötüb-keçəndən danışır, uşaqlar da qovurğa kimi qaynaşır, sürətlə ötüb-keçən yerlərə baxırdılar, arvadlar – Zərifəylə Ukubala da nəsə öz ürək söhbətlərini eləyirdilər, öz pıçhapıçlarında idilər. Sonra da mağazaları gəzdilər, stansiyadakı bağa getdilər, kinoya baxdılar, bərbərxanada da oldular. Uşaqlar dondurma yedilər. Ən qəribə şey də o oldu ki, nə qədər çalışdılarsa balaca Ermeki dilə tutub başını qırxdırmağa razı sala bilmədilər. O nədənsə başına toxunan bərbər maşınından qorxurdu. Yedigey onu da xatırladı ki, Abutalıb bərbərxananın qapısında görünəndə oğulbalası onun üstünə necə atıldı, atası da onu bağrına basıb, oğlunu bərbərdən qoruyurmuş kimi dedi ki, onlar cəsarətlənib bu işi mütləq gələn dəfə görəcəklər, hələlik birtəhər keçinmək olar. Qara, qıvrım saçlı Ermek elə indinin özündə də anadan necə olubsa elə də başı qırxılmamış böyüyür, intəhası fərqi budur ki, indi atasız böyüyür...

Boranlı Yedigey dəfələrlə olduğu kimi bu dəfə də Abutalıb Kuttubayovun ölməyinin səbəbini araşdırır, özünə bir aydınlıq hasil

eləmək istəyirdi. Yedigey bu dəfə də eyni fikrin üstündə dayanırdı – ancaq balalarından ayrılığın dözülməz dərdi onun ürəyini partlatmışdı. Ayrılıq elə bir dərddir ki, buna hamı dözüm gətirə bilmir. Təkcə bu nisgil onun bəsi idi ki, balalarından ayrı yaşamaq nədir, heç nəfəs almağı da ağlına gətirmədiyi halda, onlarsız bircə an belə dünya gözlərində bir heçə döndüyü halda indi bu balalar susuz, səlsiz kimsəsiz qalmış razyezdin birisində yerdən-göydən əlləri üzülmüş halda Sarı-Özəkdə tükdən asılı qalıblar, Abutalıbı öldürsə bircə bu öldürə bilərdi...

Yedigey stansiyanın böyründəki bağçada oturub Zərifəni gözləyəndə də bunları fikirləşirdi. Onlar belə vədləşmişdilər ki, Zərifə stansiya rəisinin yanına məktub üçün gedib-gələnə kimi Yedigey onu bu skamyada gözləsin.

Artıq gün-günorta olsa da hava yaxşı deyildi. Göyün üzü alçaqdan gedən tutqun buludlardan açılmadı ki, açılmadı. Göydən arabir Yedigeyin üzünə qarlı-yağışlı damcılar düşürdü. Çöldən əsən nəmiş külək əriməyə başlayan xarlanmış qarın havasını gətirirdi. Yedigeyin canında bir üşərti, nigarançılıq vardı. Adətən o, təsadüf düşəndə, stansiyada qaynaşan camaat içində vurnuxmağı sevirdi, çünki özünün sən deyən elə bir nigarançılığı, uzun yolu-zadı yoxdu, amma burda vəziyyət ayrı idi – bir də görürdün ki, qatar gəldi, sərnişinlər vaqonlardan tökülüşüb perronda qayır-qayır qaynaşdı, lap elə bil kinodur: budur qatar gəldi, tezcə də yola düşüb getdi...

Yedigeyi bu dəfə bunların heç biri maraqlandırmırdı. Yedigeyi təəccübləndirən adamların simasızlığı, üzlərdəki biganəlik, yorğunluq, bir-birindən uzaqlıq idi... Bir tərəfdən də stansiya meydanını başına götürmüş radionun xır-xır və yeknəsəq musiqisi ümidsizlik və qüssə gətirirdi. Belə də musiqi olar? Allah kəssin! Nədənsə diktorların məğrur, təntənəli səsi eşidilmirdi. Elə hey musiqiydi ki, uzanıb gedirdi?..

Zərifənin vağzal binasına getdiyindən iyirmi dəqiqə, bəlkə də daha çox vaxt keçirdi. Yedigey nigarançılıq keçirməyə başladı, hərçənd onlar əməlli-başlı sözləşmişdilər ki, Yedigey onu bu skamyada gözləsin, dəqiq bu skamyada, çünki keçən dəfə də Abutalıbla burda oturub uşaqlarla dondurma yemişdilər, vəziyyəti bilmək üçün binaya yollanmaq istədi.

Elə bu vaxt o, qapı ağzında göründü, istər-istəməz Yedigeyin canından bir üşütmə keçdi. Girib-çıxan camaat arasında o, dörd



dövrəsindən xəbəri olmayan halı, üzündəki sonsuz süstlük və biganəliklə hamıdan seçilirdi. Ağappaq ağarmış üzündə canlı adamdan daha çox ölü sifəti vardı. Heç yana baxmadan, elə bil yuxuda yeriyirdi, ətrafda heç nə yoxmuş kimi heç nəyə, heç kimə toxunmurdu, sanki səhrada idi, kor kimi gedir, müsibətli, matəmli başını dik tutub, dodaqlarını kip sıxıb yeriyirdi. Zərifə yaxınlaşdıqda Yedigey ayağa durdu. O yaxınlaşdıqca elə bil vaxt uzanırdı, yenə də yuxulu adamlar kimi yeriyirdi, gözləri bomboş boşalmış bu qadının bu ləng yerişində nə isə dəhşətli bir şey vardı. Bu müddət ərzində bəlkə də bir əbədiyyət ötdü – ölçüyə gəlməyən soyuq, sonsuz zülmət içində dözülməz bir intizar... Nəhayət ki, çatdı – Qazanqapın dediyi həmin o üstü hərflərlə yazılı qalın kağızdan düzəlmiş açıq zərfi əlində bərk-bərk tutmuş halda yaxınlaşdı, dodaqucu soruşdu:

– Sən bilirdin?

Yedigey başını ağır-ağır aşağı əydi. Zərifə skamyaya çöküb üzünü əllərilə örtdü, başını bərk-bərk sıxdı, elə bil başı dağılıb parça-parça olacaqdı, özünə, öz dərdinə, öz itkisinə qapanıb hönkürtü ilə ağladı. Zərifə ağlayırdı, o, yumaq kimi yumulub bütün varlığı ilə lərzəyə gələrək dərdinin sonu-hüdudu görünməyə dərinliklərinə qərq olur, olduqca daha dərinlərə gedirdi. Yedigey isə onun yanında oturub Abutalıbın aparıldığı gün olduğu kimi yenə də onun yerində olmaq istərdi və bütün zərbələri öz üstünə götürüb bir an tərəddüd etmədən hər əzaba qatlaşardı ki, təki yanındakı bu qadını hər dərd-bəladan xilas eləyə bilsin. Onu da başa düşürdü ki, zərbənin ilk gicəllədici təsiri keçməyincə ona heç cür təsəlli vermək olmayacaq, buna Zərifənin özü dözməlidir.

Onlar stansiyanın böyründəki bağçada beləcə oturmuşdular. Zərifə hıçqıra-boğula ağlayırdı, bir an özü də duymadan əlində xışmalayıb sıxdığı qara xəbər kağızını kənara tulladı. Abutalıb dünyada olmayandan sonra kimə gərəkdi bu kağız?! Ancaq Yedigey zərfi götürüb cibinə qoydu, sonra da dəsmal çıxarıb, Zərifənin barmaqlarını zorla açıb məcbur elədi ki, gözünün yaşını silsin. Bunun da bir köməyi olmadı.

Stansiyadakı radiodansa bayaqdan ardı-arası kəsilmədən ağır, üzücü matəm musiqisi verilirdi, elə bil vaxtını seçmişdilər. Martın bozumtul havasında dolmuş bulud toraları göydən asılı qalmışdı, külək də bu yandan zəhlə tökürdü. Gəlib-keçənlər isə Zərifəylə Yedigeyə

əyri-əyri baxır, yəqin özlüklərində fikirləşirdilər ki, fağırların sözləri çəp gəlib deyosən, görünür bərk dəyib arvadın xətrinə...

Ancaq bir azdan məlum oldu ki, hamı belə fikirləşmirmiş.

– Ağlayın, ay adamlar, ay insanlar... Ağlayın, – deyə yaxınlıqdan onların dərdinə şərik çıxan bir səs eşidildi. – Sevimli atamızdan məhrum olduq! İndi başımıza nə kül tökəcəyik?

Yedigey başını qaldırıb yanlarından keçən köhnə şinel geyinmiş, qoltuq ağacı ilə yeriyən arvadı gördü. Bir ayağını lap dibindən kəsmişdilər. Yedigey onu tanıdı. Keçmiş cəbhəçi qadın stansiyada bilet kassasında işləyirdi. Kassir arvad, olsun ki, yaxşıca ağlamışdı, elə ağlaya-ağlaya da gedir, gedə-gedə də danışırdı: "Ağlayın. Ağlayın. Kim bilir bundan sonra başımıza nələr gələcək?" – Beləcə ağlaya-ağlaya yolunu davam elədi, – adət elədiyi bir ahəngdə, qoltuq ağaclarını küt bir taqqıltıyla yerə vura-vura, çiyinləri qeyri-təbii şəkildə yuxarı dartılmış halda, köhnə əsgər çəkməsinə geydirilmiş tək ayağını sürüyə-sürüyə gedirdi...

Onun sözlərinin mənasını Yedigey ancaq stansiyanın girəcəyində, adamların toplaşdığını görəndə başa düşdü. Onlar başlarını qaldırıb gördülər ki, nərdivan qoyub Stalinin qara matəm lenti ilə haşiyələnmiş hərbi geyimli böyük portretini qapının üstündə ucadan asırlar, adamlar da yığılıb tamaşa eləyir.

Bayaqdan radioda niyə belə musiqi verildiyini Yedigey indi başa düşdü. Başqa məqam olsaydı, Yedigey özü də gedib adamlara qarışar, dünyanın onsuz dövr edəcəyini heç kəsin təsəvvür eləyə bilmədiyi bu möhtəşəm insanın başına nə gəldiyini soruşub öyrənərdi, amma indi durmadı, çünki öz dərdi özünə bəs idi. Yedigey bir kəlmə də danışmadı. Zərifənin də həmçinin gözünə heç nə, heç kim görünmürdü...

Qatarlar isə dünyada nə olur olsun işləyir, necə lazımdırsa o.cür də hərəkətdəydilər. Yarım saatdan sonra 17 nömrəli uzaq səfər sərnişin qatarı vağzala daxil olmalı idi. Bütün sərnişin qatarları kimi bu sərnişin qatarı da Boranlı kimi razyezdlərdə dayanmırdı. Bu hesabla da hərəkətindəydi. Heç kimin də ağlına gələ bilməzdi ki, 17-ci bu dəfə Boranlıda dayanmalı olacaq. Yedigey bunu özlüyündə sakitcə, həm də inamla qət eləmişdi. O, Zərifəyə dedi:

– Biz tezliklə qayıtmalıyıq, Zərifə. Yarım saat qalıb. Sən elə indi hər şeyi götür-qoy eləməlisən ki, işini biləsən, atalarının ölümünü uşaqlara deyəcəksən, ya hələlik səbir eləyəcəksən. Mən sənə



təskinlik, məsləhət-filan verməyəcəyəm. Hər işi öz ağlınla görməlisən, indi sən onlar üçün həm ata olmalısan, həm də ana. Bu barədə gərək yolda ətraflı fikirləşib əncam çəkəsən. Uşaqlara hələlik bir söz demək istəmirsənsə, özünü ələ almalısan. Onların yanında gözünün yaşını axıtmamalısan. Buna gücün çatarmı, bacararsanmı? Onların yanında özümüzü nə cür aparmalı olduğumuzu gərək biz də bilək. Başa düşürsənmi? İş bax bu yerdədir.

– Yaxşı, mən başa düşürəm, – deyə Zərifə gözünün yaşını axıdaraq cavab verdi. – Çatana kimi fikirlərimi cəmləşdirib özümüzü nə cür aparacağımızı deyərəm. Mən indi... Özümü ələ almağa çalışaram, bir dəqiqə...

Qayıdanbaş qatarda yenə də basabas idi, vaqonu tütün, tənbəki tüstüsü basmışdı. Adamlar sonu-sərhədi görünməyən böyük ölkəni o başdan-bu başa ölçür, vurnuxurdular.

Zərifə ilə Yedigey kupeli vaqona düşmüşdülər. Burada sərnişinlər nisbətən az idi, onlar keçidin kənarında pəncərə qabağında özlərinə yer düzəltdilər ki, başqalarına mane olmasınlar, həm də söhbətlərini eləyə bilsinlər. Yedigey vaqonun divarına bərkidilmiş açma oturacaqda əyləşmişdi. O, yeri Zərifəyə təklif elədi, o oturmadı, onun yanında ayaq üstə durub pəncərədən baxırdı:

– Mənimçün ayaq üstə daha yaxşıdır.

İndi isə hərdənbir içini çəkərək, çiyinlərinə çökmüş bu müsibətə qarşı özünü cəmləmək, özünü ələ alıb pəncərədən baxa-baxa fikirlərini bir yerə yığmağa, başlanğıc üçün, özünün yeni gün-güzəranı barədə bir fikrə gəlməyə çalışırdı. Əgər əvvəllər bir ümid işartısı var idisə, günlərin birində başlarına gələn bu bəla qara bir yuxu kimi qurtaracaq, gec-tez Abutalıb qayıdacaq, axı, ola bilməzdi ki, bu dolaşıqlığın, anlaşılmazlığın dibinə yetib onu ayırd eləməsinlər, o vaxt yenə də ailəlikcə bir yerdə olardılar, yerdə qalan əyər-əskik də öz yoluna düşər, necə çətin olsa da, birtəhər yol tapıb yaşayarlar... Uşaqları da böyüdərlər. İndi isə bu ümid də kəsildi... Dərd üstünə gələn dərd dözüm tələb eləyirdi...

Elə Boranlı Yedigeyin özü də eyni fikir-xəyal içindəydi, çünki heç cür bu ailənin taleyi üçün narahat olmaya bilməzdi. Vəziyyət özü belə gətirmişdi. Yedigey bunu da bilirdi ki, indi özünü elə aparmalıdır ki, az da olsa onlara bir inam verə bilsin. Yedigey Zərifəni tələsdirmirdi. Düz eləyirdi. Ağlayıb-ağlayıb, axırda sözə Zərifə özü başladı:

– Gərək hələlik uşaqlardan gizləyim, deyə bilmərəm ki, daha atanız dünyada yoxdur, – deyə Zərifə ağrısını-acısını uda-uda hıçqırığını boğa-boğa danışmağa başladı. – Yox, indi heç cür deyə bilmərəm. Xüsusən Ermek... Axı belə bağlı olmaq, istəmək nəyə lazımmış, lap müsibətdir... Onun arzularını əlindən nə cür alım? Bəs onların günü nə olar? Axı onlar elə bu arzularla yaşayırlar... Gözləri yoldadır, hər günü, dəqiqəni... Bir az sonra gərək burdan köçüb yerimizi dəyişək... Qoy uşaqlar bir balaca böyüsünlər. Ermekdən çox nigaranam. Heç olmasa bircə qırıq böyüsün... Onda hər şeyi deyərəm. Elə özləri də yavaş-yavaş başa düşərlər... İndi yox, deyə bilmərəm. Gücüm çatmaz buna... Qoy hər şeyi özüm çəkim. Qardaşlarıma, bacılarıma məktub yazacağam. Elə onunkulara da. İndi bizim nəyimizdən qorxacaqlar? Ümidvaram ki, cavab verərlər, köçməyimizə də kömək eləyərlər... Sonrasına da baxarıq... İndi ki, Abutalıb özü yoxdur, mənim işim ancaq uşaqlarını böyüdüb ərsəyə yetirməkdir...

Zərifə danışdıqca Boranlı Yedigey də hər sözün çəkisini mənasını başa düşə-düşə susub qulaq asırdı. Yedigey buna da əmin idi ki, bu sözlər onun beynindən qasırğa kimi keçən və hələ də keçməkdə olan fikirlərin ən üst qatı, kiçicik bir hissəsidir. Belə məqamda dilə söz gəlmir... Buna görə də söhbəti dərinləşdirmək istəməyib dedi:

– Doğrudur, sən haqlısan, Zərifə... Uşaqları mən yaxşı tanımasaydım, bəlkə də şübhəm olardı. Sənin yerinə heç mən də bunu deməyə cəsarət eləməzdim. Mümkün qədər gözləmək lazımdır. Hələliksə, qohumların sənə cavab verənə kimi biz sarıdan arxayın ol, əlimizdən nə gəlir eləyəcəyik. Necə varıq elə də olacağıq. Sən işindən-gücündən qalma. Uşaqların da yenə əvvəlki kimi bizdə, bizimkilərlə bir yerdə olacaq. Özün bilirsən ki, Ukubala onları heç də özününkülərdən seçmir. Dalısına da baxarıq...

Zərifə dərindən köksünü ötürüb dedi:

– Sən bir bax, gör dünyanın necə işləri varmış... İnan, Yedigey, uşaqlar olmasaydı, bir dəqiqə də yaşamazdım. Düzü, heç uf da deməzdim. Nə üçün yaşayım axı? Amma uşaqlar qabağımı kəsib, məcbur eləyirlər, məni saxlayan onlardır. Xilas yolu da elə budur, ömrün davamı da budur. Ağırdır, məşəqqətli də olsa, amma davamıdır... Mənə bu saat dəhşətli görünən heç də bunu uşaqların bilməyi deyil, cidanı çuvalda gizlətmək olmaz, məni qorxudan sonrasıdır. Atalarının müsibətindən aldıqları yaranın qanı heç vaxt qurumayacaq. Başlarına



gələn bu işdən sonra onlar nəyə əl atsalar – oxumağa, işləməyə, cəmiyyətin gözündə adam olmağa cəhd göstərsələr, bu familiya ilə onların üzünə hər yerdə qapılar bağlı olacaq... Bunları fikirləşəndə mənə elə gəlir ki, qabağımızı nəsə qüdrətli, keçilməz bir sədd kəsir. Biz Abutalıbla bu söhbətlərdən uzaq olmağa çalışırdıq. Biz bir-birimizi qoruyurduq, Abutalıbla olanda inanırdım ki, uşaqlarımız ləyaqətlə böyüyüb adam içinə çıxacaqlar... Bu da bizi müsibətlərdən, fəlakətlərdən qoruyurdu, bizə ürək verirdi... İndi mən bilmirəm nə eləyim... Mən atalarını əvəz eləyə bilməyəcəyəm... Ona görə ki, Abutalıb Abutalıb idi... O, hər şeyə nail olardı. O özünü uşaqların qəlbində, ruhunda görməyə can atırdı. Elə onu uşaqlardan ayırdıqları üçün dözə bilmədi, öldü...

Yedigey ona diqqətlə qulaq asırdı. Zərifə ən yaxın adamı kimi ən məhrəm fikirlərini ona dedikcə Yedigeyin ürəyində səmimi bir duyğu baş qaldırır, ürəkdən ona kömək eləmək, sinəsini sipər edib qorumaq istəyirdi, amma əlindən də bir şey gələ bilmədiyini fikirləşdikcə əsəbləri gərilir, içindəki küt ağrı onu əzirdi.

Onlar artıq Boranlıya yaxınlaşırdılar. İndi keçdikləri bu tanış sahədə Boranlı Yedigey özü neçə qış, neçə yay işləmişdi...

– Sən hazırlaş, – Yedigey Zərifəyə xəbərdarlıq elədi, – indi çatırıq. Deməli, belə danışdıq: uşaqlara hələ bir söz demirsən. Deməli belə, biz də işimizi bilərik. Elə elə ki, Zərifə, heç nə bilinməsin. İndi özünü qaydaya sal. Sonra da tambura get. Qapının yanında dur. Qatar dayanan kimi sakitcə vaqondan düşüb məni gözlə, mən də düşəndən sonra gedərik.

– Neyləmək fikrindəsən ki?

– Heç nə, bunu mənim öhdəmə burax. Axır ki sənin qatardan düşməyə haqqın var, ya yox!

Həmişə olduğu kimi 17 nömrəli qatar razyezddən sürətlə keçirdi, amma semaforun yanından nisbətən sakit ötürdü. Elə bu vaxt Boranlının girəcəyində qatar kəskin xırıltılı, ətürpədən bir səslə tormoz verdi. Hamı qorxu içində yerindən dik atıldı. Qışqırıqla, fit səsi bütün qatarı bürümüşdü.

– Nə olub?

– Stop-kranı çəkdilər?

– Kim?

– Harda?

– Kupeli vaqonda!

O vaxtacan Yedigey Zərifə üçün qatarı açdı. O, qatardan düşdü. Özü içə bələdçi və konduktor hövlnak tambura girənəcən gözlədi.

– Dayan! Stop-kranı kim çəkdi?

– Mən, – deyə Yedigey cavab verdi.

– Sən kimsən? Nə ixtiyarla?

– Belə lazım idi.

– Necə yəni lazım idi? Olmaya ürəyindən məhkəmə keçir?

– Eybi yoxdur. Məhkəməyə, ya başqa istədiyiniz yerə verəcəyiniz o aktda yazın. Bu da mənim sənədlərim. Yazın ki, keçmiş cəbhəçi, yol işçisi Yedigey Cangəldin Boranlı razyezdində yoldaş Stalin vəfat etdiyi gündə təcili əyləci çəkib, matəm əlaməti olaraq qatarı saxlamışdır.

– Nə? Məgər Stalin ölüb?

– Bəli, radio ilə dedilər, qulaq asmaq lazımdır.

– Onda başqa məsələ, – onlar çaş-baş qalıb daha Yedigeyi saxlamadılar. – İndi ki belədir, gedə bilərsən.

Bir neçə dəqiqədən sonra on yeddi nömrəli qatar öz yoluna davam etdi...

*Qatarlar yenə də şərqdən qərbə, qərbdən də şərqə gedirdilər.*

*Dəmiryolunun hər iki tərəfi ilə əsrlərdən bəri insan əli dəyməmiş düzlər – Sarıtorpaq çöllərinin göbəyi hesab edilən Sarı-Özək düzləri uzanıb gedirdi.*

*Onda Sarı-Özək-I kosmodromunun bu yerlərdə heç adı da çəkilmirdi. Ola bilsin ki, hələ ancaq gələcək kosmik uçuş yaradıcılarının fikrində-zehnində dolanırdı.*

*Qatarlar həmişəki kimi qərbdən şərqə, şərqdən də qərbə gedirdilər...*

Əlli üçüncü ilin yayı və payızı Boranlı Yedigeyin həyatında ən əzablı günlər idi. Nə o vaxta qədər, nə də sonra nə yolları qar basanda, nə də Sarı-Özəyin susuz, qızmar günləri başlayanda, hətta Keniqsberqə qədər keçdiyi cəbhə yolları – o yollarda ki, min dəfə yaralana, əlil ola bilərdi. Yedigeyə bu günlərə qədər əzab-əziyyət gətirməmişdi...

Bir dəfə Afanasi İvanoviç Yelizarov necə olmuşdusa Boranlı Yedigeyə yer sürüşməsindən danışıb, bu qarşısıalınmaz hadisənin səbəbini izah edib başa salmışdı ki, bəzən lap dağın özü yerindən



dəbərib sürüşür, yerin altını üstünə çevirir. Adamlar da bunu görəndə dəhşətə gəlib deyirlər ki, gör ayağımızın altında necə fəlakət gizlənibmiş. Bu sürüşmələrin qorxulu cəhəti orasındadır ki, fəlakət özünü büruzə vermir, yeraltı sular günü-gündən süxurların dibini yuyub torpağını aparır. Bundan sonra da kiçik bir təkan, ildırım çaxması və ya güclü selləmə bəs eləyir ki, dağ yavaş-yavaş, dayanmadan sürüşməyə başlasın. Bunun əksinə, uçqun bir dəfəyə, həm də qəflətən baş verir. Yer sürüşməsinin isə zəhmli gedişini heç bir qüvvə ilə dayandırmaq, onun qarşısını almaq mümkün deyil...

İnsan da öz vicdanı ilə təkbətək qalanda, qarşısıalınmaz ziddiyyətləri üzüntüləri içində ruhdan düşəndə və dərdini də heç kimə açıb danışa bilməyəndə təxminən belə bir vəziyyətə düşə bilər, çünki dünyada heç kim onun bu dərdinə nə dərman eləyər, nə də onu başa düşər. Yedigey bunu bilir və dəhşətə gəlirdi. Bu fəlakət onu basmarlayırdı...

Yedigey ilk dəfə bu tərpənişi Zərifəylə iki ay əvvəl Kumbelə gedib qayıdandan sonra təzədən iş üçün bir də Kumbelə getməli olanda hiss elədi və bunun nə demək olduğunu da apaydın başa düşdü. O, Zərifəyə söz vermişdi ki, poçta baş çəkib ona məktub olub-olmadığından xəbər tutsun, əgər məktub olmasa, onun verdiyi üç ünvana üç teleqram vursun. Zərifə indiyə qədər qohumlarının göndərdiyi bir məktuba da cavab almamışdı. İndi Zərifənin bilmək istədiyi bircə o idi ki, onlar bu məktubları alıblar, yoxsa yox, teleqramlarda da elə belə yazmışdı – artıq dərəcədə xahiş edirəm, siz məktubu almısınızmı, bircə kəlmə yazın hə, ya yox, məktublara cavab yazmaq vacib deyil. Belə çıxırdı ki. bacı və qardaşlar Abutalıbın ailəsi ilə heç post vasitəsilə də əlaqədə olmaq istəmirdilər.

Yedigey səhər tezdən Boranlı Qaranərə minib yola çıxdı ki, axşama qayıda bilsin. Əlbəttə, başqa vaxtlarda olduğu kimi yüksüz-filansız tək özü gedəndə rastına çıxan hər tanış maşinist onu həvəslə götürər və saat yarımdan sonra Kumbeldə olardı. Ancaq Abutalıbın uşaqlarına görə Yedigey qatarla gedib-gəlməkdən mümkün qədər ehtiyat eləyirdi. Onların hər ikisi – böyüyü də, kiçiyi də günlərlə dəmiryolunun kənarında dayanıb atalarının yolunu gözləyirdilər. Uşaqların əyləncələrində də, danışıqlarında da, tapmacalarında da, çəkdikləri şəkillərdə də atalarını gözləmək əsas məqsədə çevrilmişdi. Şübhəsiz ki, o vaxtlar bu uşaqlar üçün ən nüfuzlu adam Yedigey əmiləri idi, inanırdılar ki, o hər şeyi bilir və onlara kömək edəcək.

Yedigey özü də başa düşürdü ki, razyezddə onsuz, uşaqların yetimçiliyi daha ağır keçər, buna görə də demək olar ki, bütün boş vaxtlarını onlara sərf eləyir, onları boş-boş gözləmələrindən tədricən yayındırmaq istəyirdi. Abutalıbın xatirəsi naminə onun uşaqlarıyla dəniz barəsində danışmaq vəsiyyətinə əməl edib, hər dəfə uşaqlıq çağlarından yeni-yeni əhvalatlar yadına salır, cavanlığındakı balıqçılıqdan, Aral dənizindən hər cür olub-olmamış söhbətlər eləyirdi. Bacardıqca bu hekayətləri uşaqlar üçün uyğunlaşdırmağa çalışır, hər dəfə də onların kamalına, onlardakı ağlın itiliyinə, həssaslığa və yaddaşa məəttəl qalırdı. Buna da çox sevinirdi ki, ata tərbiyəsi onlarda öz təsirini göstərirdi. Yedigey söhbətlərində hər şeydən əvvəl balaca Ermeki nəzərə alırdı. Amma Ermek də dörd dinləyicinin heç birindən geri qalmırdı – hər iki evin uşaqları arasında – başqalarından seçmək istəməsə də, Yedigeyə ən yaxın, doğma olanı Ermek idi. Ermek hekayətlərə maraqla qulaq asan, hər şeyi yerli-yataqlı öyrənməyə çalışan dinləyici idi. Söhbət nədən gedir-getsin, hər əhvalatı, hadisələrin gözlənilməz dönüşünü, necə olur olsun mütləq atası ilə bağlayırdı. Onunçün atası hər şeydə və hər yerdə vardı. Məsələn, söhbət belə bir şeydən gedir:

– Aral dənizinin sahillərində dövrəsini sıx qamış basmış göllər var. Bu qamışların içində də əli ovçular gizlənir. Yazda ördəklər uçub Aral dənizinə gəlirlər. Bu ördəklər qışda daha isti olan başqa dənizlərdə yaşayırlar, elə ki, Aralda buzlar əridi, o saatda da gecəni gündüzə qatıb tələsik, sürətlə uçub gəlirlər, ona görə ki, bu yerlər üçün çox qəribsəyiblər. Ördəklər böyük dəstələrlə gəlir, gəlirlər ki, suda üzsünlər, baş vurub lap mayallaq aşsınlar, sahilə yaxınlaşdıqca, get-gedə aşağıdan uçurlar, elə bu yerdə qamışlıqdan od parlayıb tüstü çıxır, part-part! Bu odu püskürdən də ovçulardır. Ördəklər qışqıra-qışqıra suya düşürlər. Sağ qalanları da hürkür, uçub dənizin ortasına gedir, bilmirlər ki, başlarına nə çarə qılsınlar, necə yaşasınlar. Dalğalar üzərində uçub dövrə vurur, qışqırışırlar. Axı, onlar sahil yaxınlığında üzməyə adət eləyiblər. Sahilə də yaxınlaşmağa qorxurlar.

– Yedigey əmi, axı ördəklərdən biri o saat geriyə – uçub gəldiyi yerə qayıtdı.

– Bilirsən niyə qayıtdı?

– Əlbəttə, axı atikam orda matrosdur. Böyük gəmilərdə üzür. Bunu sən mənə özün demisən ki, Yedigey əmi.



– Düzdür, demişəm, – Yedigey də öz dilindən tələyə düşməmək üçün ehtiyatı əldən verməyərək sözü dəyişdi.

– Bəs o ördək necə oldu? – soruşdu.

– Bax, həmin o ördək uçub atikama dedi ki, ovçular qamışlıqda gizlənib, onlara tüfəng atırlar. Daha yaşamağa yerləri yoxdur!

– Hə, hə, sən bunu lap düzcə deyirsən.

– Atikam da o ördəyə dedi ki, tezliklə qayıdacaq, razyezddə onun iki oğlu var – Daul, Ermek. Bir də Yedigey əmi, atikam gələn kimi biz hamımız yığışıb Aral dənizinə gedərik, ördəkləri vuran ovçuları qamışlıqdan qovarıq. Ördəklər yenə də Aral dənizində sakit yaşayarlar... Dənizdə üzüb özləri üçün mayallaq vurarlar, bax belə...

Nə vaxt ki, hekayətlər tükənirdi, Boranlı Yedigey daşlarla fala baxıb uşaqların başını qatırdı. İndi o, həmişə öz yanında iri noxud boyda daşlar gəzdirirdi. Hələ uzaq keçmişlərdən miras qalmış bu fala baxma üsulunun öz mürəkkəb rəmzi və qəribə islahatları vardı. Yedigey Abutalıb adında adamın salamatlığını və onun harada olduğunu bilmək, onun alnına yazılanları öyrənmək, qəlbindəkilərdən agah olmaq üçün, daşların düzgün fal açması üçün dua-əfsunla daşları yerə düzəndə uşaqlar həyəcanla bu daşların düzülüşünə baxırdılar. Bir dəfə necə oldusa Yedigey tinin dalından pıçıltıya bənzər səs eşitdi. Ehtiyatla baxdı. Abutalıbın uşaqları idi. İndi Ermek özü daşlarla fal açmışdı. O, daşların hər birini öpüb alnına toxundurur, sonra da özü bildiyi kimi düzüb deyirdi:

– Mən də səni sevirəm. Ancaq sən çox ağıllı, gözəl daşsan. Sən də çaşma, büdrəmə, Yedigey əmimin daşları kimi sən də açıq-açığına hər şeyin düzünü de, – sonra da daşların düzülüşündəki mənanı böyük qardaşına başa salmağa başladı, eynilə Yedigeyin sözlərini təkrar eləyirdi. – Bax görürsən Daul, daşların ümumi düzülüşü bəd deyil, lap yaxşıdır. Bax, bu yoldur, amma yol bir az dumanlıdır. Nəsə duman var. Amma bunun zərəri yoxdur, Yedigey əmi deyir ki, bu xırda-xuruş yol çətinlikləridir. Yol bunsuz olmaz. atam elə hey yola hazırlaşır! Yəhərə qalxmaq istəyir, amma tapqırı bir az boşalıb. Bax, görürsən tapqır yaxşı çəkilib bərkidilməyib. Onu çəkib bərk bağlamaq lazımdır. Deməli, atamızı hələ nəsə ləngidir, Daul. Gərək gözləyək. İndi baxaq görək sağ qabırğada nə var, sol qabırğada nə var. Qabırğalar salamatdır. Bu yaxşı əlamətdir. Bəs onun alnındakı nədir? Alnında nəsə bir qəmginlik var. Bizdən nigarandır. Bəs ürəyində, bu daşı görürsən, ürəyi ağrıyır, qəmlidir – evimiz üçün yaman darıxır. Yola tez çıxacaq-

mı? Tez. Amma atın dal ayağının birində nalı laxlayıb. Deməli, nalını dəyişmək lazımdır. Bir az da gözləməli olacağıq. Bəs heybələrindəki nədir? Hə, bazardan aldığı şeyləri qoyub! İndi də baxaq görək ulduzlar ona yaxşı yol göstərirlərmi? Bax, bunu görürsən, bu qızıl xal-xal ulduzdur. Burdan da iz gedir. Amma iz hələlik tamam aydın deyil. Deməli, tezliklə atı xal-xaldan açıb yola düşməlidir...

Boranlı Yedigey bu gördüklərinə təəccüblənmiş halda, mütəəssir və pərişanlıqla sakitcə çəkilib getdi. Elə həmin gündən də o çalışdı ki, bir də daş falı açmasın...

Necə olsa uşaq uşaqlığında qalır. Onları bir yolla ovundurub ümidli eləmək olar, bəd ayaqda lap günaha batarsan – ağlı kəsənə kimi aldada da bilərsən. Amma Yedigeyin ürəyində başqa dərd yuva salmışdı. Belə bir vəziyyətdə hadisələrin bu gedişində bu mütləq baş qaldırmalı, o altdan-altdan başlanan yer sürüşməsi kimi dəbərməliydi. Yedigey də bunun qabağında tamam aciz idi...

Yedigey onunçün – Zərifə üçün çox həyəcan keçirirdi. Hərçənd onun Zərifə ilə adi məişət söhbətlərindən başqa elə bir söz-söhbəti olmamışdı. Zərifə də bu barədə ona heç bir əsas verməmişdisə də, Yedigey daim onun haqqında fikirləşirdi. Məsələ onda idi ki, bu fikir ayrı fikir idi – Yedigeyin fikri başqaları kimi Zərifənin başınaələnmiş müsibəti görüb onun halına yanmaqdan ibarət deyildi, belə olsaydı onda bundan heç söhbət açmağına dəyməzdi. Yedigey Zərifə haqqında məhəbbətlə, dönməz bir inadla fikirləşir, daxili bir sədaqətlə istəyirdi ki, Zərifənin öz həyatının, bütün işlərini etibar eləyə biləcək adamı olsun. Əgər Yedigey bilsəydi ki, tutalım, Zərifə də məhz onu, Boranlı Yedigeyi dünyada ona ən sadiq adam, onu ən çox sevən adam hesab eləyir, çox xoşbəxt olardı.

Üzüntülü vəziyyət idi, özünü elə göstərməli idi ki, guya ona heç bir istəyi-zadı yoxdur və onların arasında heç bir şey ola bilməz!..

Kumbelə gedəndə o, bütün yol boyu bu barədə fikirləşirdi. Fikir onu əldən salırdı. Ağlına cürbəcür şeylər dolurdu. Özündə qəribə bir ruhi dəyişkənlik hiss edirdi, sanki tezliklə ya ürəkdən sevinəcək, ya da mütləq xəstələnəcək. Bu vəziyyətində ona hərdən elə gəlirdi ki, yenə də dənizdədir. Dənizdə adam özünü həmişə ayrı cür hiss eləyir, hətta dəniz tam sakit olanda, heç bir təhlükə-filan olmayanda belə quruda olduğun kimi olmursan. Dənizdə necə sərbəst olsan da, dalğaların qoynunda üzmək nədir, lap süzsən də, dənizdə vacib bir işlə məşğul



olsan da, qürub və şəfəq çağı günəş şüaları suyun güzgüsündə necə gözəl əks olunsa da, dəxli yoxdur, əvvəl-axır sahilə qayıtmalısan, hansı sahil olur olsun, bir sahilə çıxmalısan. Ömürlük suda qalmaq olmaz. Sahildəsə səni tamam başqa bir həyat gözləyir. Dəniz müvəqqətidir, quru – həmişəlik. Əgər sahilə çıxmaq təhlükəlidirsə, deməli, bir ada tapıb ora çıxmalı və bilməlisən ki, bura sənin məskənindir və sən burda ömürlük qalmalı olmayacaqsan. Yedigey bunu hətta təsəvvürünə gətirdi: belə bir ada tapılsaydı, o, Zərifəni, uşaqları da götürüb elə orda yaşayardı. Həm uşaqları dənizə öyrədərdi, həm də özü bu dənizin ortasındakı adada ömrünü-gününü başa vurar, taleyindən gileylənməz, Allahına şükür edərdi. Bircə onu bilərdi ki, Zərifəni istədiyi vaxt görə bilər, ona ən lazımlı, ən əziz və doğma adam olar bilər...

Elə o dəqiqə də ürəyindən keçən bu istək və arzularına görə öz-özündən xəcalət çəkdi, yüz kilometr ətrafda bir ins-cinsin olmadığını bilsə də, pul kimi qızardığını hiss elədi. Kimsəsiz adaya düşmək istəyən uşaq xəyalındadı, bir soruşan gərək axı hansı əsasla, nəyə görə? Axı onun bu xülyalara düşməyə nə haqqı var, o ki ömrü boyu bütün ruhu, canı-ciyəri ilə ailəsinə, uşaqlarına, işinə, dəmiryoluna, ən nəhayət, Sarı-Özəyə bağlanmışdı. O Sarı-Özəyə ki, özü də bunu duymadan bilmədən onunla birlikdə böyüyüb-boy atıb, indi onun canına-ciyərinə, ruhuna çevrilib... Əlbəttə, Zərifə indi zillət içindədir, amma Yedigey onun nə dərdinə dərman ola bilər? Axı niyə bu cür xəyallara düşməlidir, nəyə görə onun istəklisi olmalıdır? Uşaqlar barədə şübhəsi yox idi – onlara ürəkdən bağlı idi, elə uşaqlar da onu – Yedigeyi çox istəyirdilər. Nə olsun, Zərifə niyə mehrini ona salmalı idi?! Axı, bu cür xülyalara qapılmağa onun nə haqqı vardı, axı həyat onu öz yerinə bərk bağlayıb, bəlkə də ömrünün axırınacan burdan tərpənməyəcək...

Boranlı Qaranər işlək, daimi tapdağı olan tanış cığırla getdiyi üçün qabaqda hələ nə qədər yol qaldığını bilir, özünü sahibinə məhmizlətmədən, yüyrək yerişlə yortur, yortduqca nərildəyir, ağır-ağır inildəyərək, sonu-sonluğu bilinməyən Sarı-Özək düzlərini ölçə-ölçə yaz nəfəsindən canlanmış ətəklərlə, geniş dərələrlə nə vaxtsa olub qurumuş duzlu-şor gölün qırağı ilə gedir, gedirdi. Qaranərin belindəki Yedigey isə qəlbinin oduna yanır, əzab çəkirdi... Ürəyinə soxulmuş bu ziddiyyətli, anlaşılmaz fikirlər onu elə dəhmərləmişdi ki, özünə yer tapa bilmir, bu sonsuz Sarı-Özək düzləri ürəyini ovundurmaq üçün ona dar gəlirdi... Öz-özü ilə heç cür bacara bilmirdi...

Elə bu ovqatla da Kumbelə gəldi. İstədiyi də elə bu idi ki, Zərifə nəhayət, qohum-əqrəbasından öz məktublarına cavab alsın, amma fikirləşəndə ki, bu qohumlar gələ bilər, atadan yetim qalmış ailəni öz yurd-yuvalarına apara bilər, ya da elə məktubla da çağıra bilərlər, Yedigeyin halı daha da pozulurdu. Poçtun xüsusi tələblə verilən məktublar şöbəsinin pəncərəsi qabağında ona yenə də cavab verdilər ki, Zərifə Kuttubayovaya heç bir məktub yoxdur. Bu cavab özü də gözləmədən onu sevindirdi, hətta vicdanı xilafına olaraq başına natəmiz, qara-qura fikir gəldi: "Elə yaxşı ki, yoxdur". Sonra da insafla onun tapşırığını yerinə yetirdi – üç ünvanın üçünə də teleqram vurdu. Beləliklə də axşam ancaq qayıda bildi...

Beləliklə, yaz çıxır, yavaş-yavaş yay gəlirdi. Artıq yaşıllıqlar solur, Sarı-Özək düzləri quruyurdu. Ot-ələf şirin yuxu kimi çəkilib yoxa çıxırdı. Sarı çöllər təzədən sarılıq gətirmişdi. Havalar getdikcə boğanaqladır, göydən od yağan günlər yaxınlaşırdı. Amma Kuttubayovların qohum-əqrəbasından hələ də bir xəbər-ətər yox idi. Yox, onlar nə məktublara, nə də teleqramlara cavab verirdilər. Qatarlar isə yenə də köhnə qaydayla Boranlıdan ötüb-keçir, həyat davam edirdi... Zərifə də artıq başa düşürdü ki, qohum-əqrəbası ona kömək əli uzadan deyil, buna görə də daha cavab gözləməyir, kömək uman məktubları ilə onlara başağrısı vermirdi... Ümidlərinin üzüldüyünü görən Zərifə dərdini içinə salır, – bilmirdi ki, neyləsin, başına nə çarə qılsın?.. Uşaqlara ataları barədə nə desin, necə desin, nədən başlasın, alt-üst olmuş həyatı təzədən nə cür qaydasına salsın? Hələ ki, bir cavab tapa bilmirdi.

Bəlkə də Zərifənin özündən çox Yedigey onların halına yanırdı. Elə ona qalsa boranlıların hamısı həyəcan keçirirdi, amma bir Yedigey özü bilirdi ki, bu ailənin müsibəti necə onun şəxsi faciəsinə çevrilib. Yedigey artıq özünü onlardan ayrı təsəvvür edə bilmirdi. Gündən-günə o, daha çox uşaqların və Zərifənin taleyinə bağlanırdı. Üzüntülü bir intizar içindəydi – görəsən, onların başına daha nələr gələcək, – deyə düşündükcə onun da əli yerdən-göydən üzülür, sustalırdı – indi onlar neyləsinlər. Bütün bunlarla yanaşı, onu üzüb əldən salan başqa bir fikir də vardı: bəs özü necə olsun, özünü necə ələ alsın, onu Zərifəyə sövq eləyən içindəki səsi necə boğub məhv edə bilsin? Heyhat ki, bunlara da cavab tapa bilmirdi... Heç vaxt gümanı gəlməzdi ki, belə bir işə düşə bilər...



Yedigey neçə dəfə qət eləmişdi ki, kişi-kişiyana ürəyini ona açsın, onu necə sevdiyini desin, desin ki, bütün əzab-əziyyətlərinə qatlaşmağa hazırdır, çünki özünü onlarsız təsəvvür eləyə bilmir, amma dili gəlmirdi ki, gəlmirdi. Necə desin? Zərifə onu başa düşə biləcəkmi? Başına belə bir müsibətin ələndiyi bir vaxtda kimsəsiz Zərifə belə şeylərin hayındadır ki, o da ona öz hisslərini izhar eləyəydi. Bu heç yarayan işdirmi? Bu fikirləri daimabeynində hərləyən Yedigey adamlar arasında tutulur, çaşır, özünü həmişəki kimi sakit, təmkinli apara bilmirdi.

Hər halda bir dəfə o işarə verdi. Yol nəzarətindən qayıdırdı, uzaqdan gördü ki, Zərifə vedrələrlə çöldən su gətirməyə gedir. Elə bil biri onu Zərifəyə tərəf itələdi. O da getdi. Ona görə yox ki, guya vedrələri əlindən alıb aparmaq üçün münasib fürsət düşmüşdü. Demək olar ki, günaşırı, onlar yolda birgə işləyirdilər, istədikləri qədər də danışa bilərdilər. Məhz elə bu dəqiqədə Yedigey özündə elə qarşısıalınmaz bir istək buydu ki, gərək indicə ona yaxınlaşıb, daha gizlədə bilmədiyi sözləri desin. Hətta isti-isti, soyumamış fikirləşdi ki, elə bu yaxşıdır, – qoy onu başa düşməsin, lap rədd eləsin heç olmasa yüngülləşər, ürəyini soyudar... Zərifə onun yaxınlaşmağını nə gördü, nə də eşitdi. Çənin kranını açıb arxası ona tərəf durmuşdu. Vedrələrdən birini doldurub qırağa qoymuşdu. O biri vedrə də dolub daşa-daşa qalmışdı. Kran tamam açıqdı. Su çalxalanıb köpüklənir, tökülüb göllənirdi, o da elə bil bunu görmür, çiynini çənə söykəyib başını sallayıb durmuşdu. Zərifənin əynində keçən ilin yayında şıdırğı yağış selləməsində çimdiyi həmən çit don idi. Yedigey onun gicgahlarından başlamış qulaqlarının ardıncan qıvrılan birçəklərinə baxdı. Ermekin də saçları burum-burum idi, anasına çəkmişdi, Zərifənin sifəti uzanmış, boyun-boğazı nazilmiş, çiyinləri sallanmışdı, heysiz əlini belinə qoymuşdu. Dağlardan qıjıltı ilə gələn maviren-nəhirin dağ çaylarını, arxlarını xatırladan suyun şırıltısını onu sehrləmişdi, ya elə-belə, xəyala dalıb o dəqiqədə öz acı taleyinə küsənirdi? Bunu Allah bilir. Ancaq aydın olan bu idi ki, Yedigey onu görən kimi ürəyi sıxıldı, çünki onun bu görkəmində, varlığında sonsuz bir doğmalıq gördü, elə bu anın içindəcə onu əzizləyib-oxşamaq istəyi ilə, onu incidən nə varsa hamısından qorumaq arzusu ilə yanıb-yaxıldı. Amma bu mümkün olan şey deyildi. Bircə bunu eləyə bildi ki, kranı sakitcə bağladı, şırıltı ilə axan suyu kəsdi. Zərifə onun bu qəfil görünüşünə təəccüb eləmədi, alacalanmış gözləri ilə ona

elə baxırdı ki, elə bil Yedigey onun yanında deyil, hardasa çox-çox uzaqlarda dayanmışdı.

– Niyə belə durmusan? Sənə nə olub? – Yedigey qayğı ilə soruşdu.

Zərifə dinib-danışmadı, ancaq ağızucu gülümsündü, qaşları qeyri-müəyyən halda yuxarı dartıldı, gözləri aydınlaşdı: bununla demək istədi ki, nə bilim...

– Halın yaxşı deyil? – Yedigey təzədən soruşdu.

– Hə, yaxşı deyil, – deyə dərindən köksünü ötürdü.

Yedigey özünü itirmiş halda çiynini oynatdı.

– Axı niyə özünü belə üzürsən? – Başqa sözlər demək fikrində olduğu halda Zərifəni tənələdi. – Belə olmaz axı? Bununla yara sağalmır. Biz də az çəkmirik (demək istədi ki, mən də), sənin də, elə uşaqların da üzünə baxmaq olmur. Başa düş, belə eləmə. Nəsə bir çıxış yolu tapmaq lazımdır, – o, elə sözlər tapmaq istəyirdi ki, o sözləri deyəndə Zərifə başa düşsün ki, dünyada ondan çox onun halına yanan, onu sevən adam yoxdur, – sən bir özün fikirləş, tutaq ki, məktublarına cavab vermirlər, cəhənnəmə vermirlər, qoy verməsinlər, ölməyəcəyik ki! Biz ki səninləyik (demək istədi ki, mən) şükür, burda özgə yoxdur. Bircə sən ruhdan düşmə. İşində-gücündə ol, özünü ələ al. Uşaqlar elə burda, bizimlə də (demək istədi ki, mənimlə) böyüyüb boy atarlar. Hər şey yavaş-yavaş öz qaydasına düşər. Axı niyə gərək didərgin düşəsən? Burda hamımız doğma kimiyik. Özün bilirsən ki, uşaqlara öyrənmişik, gün olmur ki, onların yanında olmayım. – Sözünün qalanını uddu, demədi, çünki o vəziyyətdə bundan artıq açılışa bilməzdi.

– Mən hamısını başa düşürəm, Yedigə, – deyə Zərifə cavab verdi, – əlbəttə, minnətdaram. Bilirəm ki, bizi darda qoymazsınız, amma biz gərək burdan üzülüşək. Qoy uşaqlar burda olub-keçənləri yaddan çıxarsınlar. Qalsaq, gərək hər şeyi açıb deyəm... Özün də bilirsən ki, bu cür çox davam eləyə bilməz... Elə buna görə də fikirləşirəm ki, nə çarə qılım...

– Düz deyirsən, – Yedigey istər-istəməz razılaşmağa məcbur oldu. – Bircə sözüm odur ki, tələsmə. Yenə də bir fikirləş. Axı bu körpələrlə hara gedəcəksən, başınıza nələr gələcək? Bunu ağlıma gətirəndə bağrım yarılır, fikirləşirəm ki, sizsiz necə qalacam... –

Həqiqətən də, onlar üçün, Zərifə və uşaqları üçün hədsiz nigarançılıq çəkir, narahat olurdu, özü də başa düşürdü ki, bu vəziyyət çox davam eləyə bilməz. Bu söhbətdən bir neçə gün sonra bir hadisə ilə



bağlı o, içindəkiləri bir də büruzə verdi, sonradan da uzun müddət bunun peşmançılığını çəkdi, özünə haqq qazandıra bilməyib üzüldü.

Kumbeldə Ermekin dəlləkdən qorxub başını qırxdırmağa qoymadığı o unudulmaz gündən aylar keçsə də, hələ də başını qırxmağa qoymurdu. Uşağı tamam tük basmışdı, qapqara qıvrım saçları boynuna, boğazına dolmuşdu, hərçənd cod qıvrım saçlar ona yaraşırdı, amma bu tərs qorxağın başının qırxılmaq vaxtı çoxdan ötüb keçmişdi. Yedigey fürsət düşəndə burnunu uşağın tük basmış əmgəyinə soxur onu öpür, bu körpə uşağın başından gələn ətri ciyərlərinə çəkirdi. Amma daha uşağın saçları çiyinlərinə çatırdı. Ermekə, qaçanda, oynayanda mane olurdu. Nə qədər vacib olsa da, uşaq başının qırxılmağına heç cür razılıq vermir bunu başa düşmək istəmirdi, heç kimi də yaxına qoymurdu. Vəziyyəti belə görən Qazanqap onun saqqızını oğurlaya bilmişdi. Hətta bir balaca qorxuzmuşdu da – çəpişlər tük basmış uşaqları xoşlamırlar, cumub buynuzlayırlar.

Ermekin başının necə qırxılmağını sonradan Zərifə danışdı. Qazanqap lap əməlli-başlı güc işlətməli olub, tutub salıb iki dizinin arasına, qırxıb-töküb. Uşağın səsi bütün razyezdi başına götürübmüş. Ürəyiyumşaq Bikə uşağı ovundurmaq üçün başı qırxılandan sonra ona güzgü vermişdi. Yəni, al bir özünə bax, gör nə qəşəng oldun. Uşaq güzgüyə baxıb özünü tanımayıb, təzədən səsini başına salaraq daha bərkdən ağlamışdı. Elə Zərifə onu var səsi ilə ağlaya-ağlaya Qazanqapın həyətindən aparanda cığırın üstündə Yedigeyə rast gəlmişdi.

Başı tərtəmiz qırxılmış Ermek özünə oxşamırdı. Əvvəllər tük basmış boğazı indi napnazik görünürdü, qulaqlarına qədər tərləmişdi. Yedigeyi görən kimi anasının əlindən qopub daha bərkdən qışqıraraq ona sığındı:

– Yedigey əmi, gör onlar başımı nə günə saldılar!

Boranlı Yedigeyə əvvəllər desəydilər ki, başına belə bir oyun gələ bilər, buna heç bir vəchlə inana bilməzdi. O, uşağı qucaqlayıb sinəsinə sıxdı. Bu köməksiz körpənin ona inana-inana etdiyi şikayətini eşitdikcə onun bütün dərdinə şərik çıxdı. Elə bil ki, bütün bunlar onun yox, öz başına gəlmişdi, onu ürəkdən öpə-öpə, yana-yana qəlbindən qopan, həlim isti səslə ovundurur, nə dediyinin fərqinə varmırdı:

– Sakit ol, gözümün işığı! Ağlama! Qoymaram bir adam xətrinə dəysin, mən sənin lap atan əvəzi olaram! Mən səni lap ata kimi sevəcəyəm, amma ağlama! – Elə bu andaca gözü Zərifəyə sataşdı, gördü

ki, o tamam çaşbaş halda donub qalıb və başa düşdü ki, çox dərinə gedib, həddini aşıbdır. Özünü itirdi, elə uşaq qucağındaca tələsik uzaqlaşdı. Gedə-gedə özünü itirib çaşdığı üçün eyni sözləri təkrar eləyirdi. – Ağlama! İndi görərsən mən o Qazanqapa neylərəm, gör neylərəm! İndi baxarsan neylərə! Gör o Qazanqapa neyləyəcəm! Görərsən neyləyəcəyəm!

Bu hadisədən sonra bir neçə gün Yedigey Zərifədən uzaq gəzdi. Onun başa düşdüyünə görə, elə Zərifə özü də Yedigeydən gen gəzməyə çalışırdı. Boranlı Yedigey ürəyindəkini ağzından qaçırmağına çox peşman idi. Dərd-qəm içində yanan təqsirsiz, tər-təmiz arvadı pərt eləyib incitmişdi. Onsuz da onun öz dərdi özünə bəs idi, birini də üstündən qoydu. Yedigey özünə nə haqq qazandıra, nə də özünü bağışlaya bilərdi. Yedigey köməksiz incik uşağa necə can dediyini, bu səhnədən sarsılmış Zərifənin necə baxdığını, onun gözündəki diləgəlməz hüznü uzun müddət, bəlkə də son nəfəsinəcən unutmayacaqdı.

Bu əhvalatdan sonra Boranlı Yedigey bir az sakitləşmişdi, qəlbinin həsrətini, ağrısını içinə çəkib boğmuş, mehrini uşaqlara salmışdı. Başqa çıxış yolu tapa bilmirdi. Nə qədər boş vaxtı vardısa, hamısını uşaqlarla keçirir, onlara hey dənizdən danışır, bəzən dediyini təkrar edir, unudulmuşları təzədən yadına salırdı. Bu, onların ən maraqlı, ən istəkli söhbətləri, mövzusuzdu. Qağayılardan, balıqlardan, köçəri quşlardan başqa yerlərdə artıq tamam yoxa çıxmış nadir heyvanların hələ də qorunub saxlandığı Aral dənizindəki adalardan danışırdı. Amma uşaqlarla elədiyi söhbətdə unudulmaz bir xatirə kimi heç vaxt, heç kimə danışmaq istəmədiyi, Aral dənizində öz başına gəlmiş bir əhvalatın acısını daha tez-tez və təkidlə duymağa başlamışdı. Əlbəttə, bu, uşaq söhbəti deyildi. Bu əhvalatı ancaq iki nəfər, o özü, bir də Ukubala bilirdi, onlar da bu barədə öz aralarında heç vaxt söhbət açmırdılar, çünki bu onların ilk övladlarının ölümü ilə bağlı idi, o körpə indi sağ olsaydı Boranlının bütün çolma-çocuğundan böyük olardı, hətta Qazanqapın Sabitcanından da iki yaş böyük idi. Hayıf ki, yaşamadı, tələf oldu. Axı hər uşağın dünyaya gəlməyini böyük ümidlə gözləyirlər, yəni doğulub uzun illər yaşayacaq, lap çox, lap təsəvvürə gəlməz dərəcədə uzun ömür sürəcək, yoxsa adamlar heç uşaq doğub törədərdilərmi?

Müharibəyə az qalmışdı. Gənc yaşlarında, balıqçılıq eləyəndə Yedigey arvadı Ukubalayla təəccüb doğuran bir əhvalatın şahidi



olmuşdu. Belə hadisə, bəlkə də, adamın başına bir dəfə gələ bilər, təkrar ola bilməz.

Onlar evlənəndən sonra Yedigey dənizdə olanda evə tez qayıtmağa can atırdı. O, Ukubalanı çox sevirdi. Bilirdi ki, Ukubala da onu səbirsizliklə gözləyir. O vaxt Yedigey üçün Ukubaladan başqa istəkli bir qadın yox idi. O vaxtlar ona elə gəlirdi ki, həmişə, təkcə Ukubalanı düşünmək üçün yaşayır, günəşdən və dənizdən güc alıb yığır ki, bunu təkcə ona, onu gözləyən arvadına bəxş etsin: yerdə qalan hər şey bu xoşbəxtliyi ancaq tamamlayır və zənginləşdirirdi. Əsas kök elə o dənizin və günəşin bəxş elədiyi gücün, qüdrətin zövq-səfası idi. Ukubala hiss eləyəndə ki, onda nəsə bir dəyişiklik var, hamilə olub, tezliklə ana olacaq dənizdəki ərinin intizarına dünyaya gələcək körpələrinin intizarı da qarışdı. O vaxt onların həyatında qayğısız, xoşbəxt günlər idi.

Payızın axırlarında, qışın girgagirində Ukubalanın üzünə ləkə düşməyə başladı, diqqətlə baxanda bu qəhvəyi ləkələri seçmək olurdu. Qarnı da yellənir, yumrulanırdı. Bir dəfə Yedigeydən soruşdu ki, bu altun məkrə deyilən balığın təhər-tövrü necə olur axı? "Adını eşitməyinə eşitmişəm, amma bir dəfə də üzünü görməmişəm". Yedigey ona dedi ki, bu nərə cinsindən olan nadir balıqdır, çox iri olur, həm də dərində üzür, amma qiyməti də elə onun gözəlliyindədir. Balığın özü göyümtül-qəhvəyi rəngə çalır, əmgəyi, üzgəcləri, xmirtəkdən olan belindəki darağı – başdan tutmuş düz quyruğuna kimi elə bil xalis qızıldan tökülüb, özü də qızıl kimi par-par yanır. Elə buna görə də ona altun məkrə deyirlər, yəni qızıl məkrə...

Bu söhbətdən bir neçə gün sonra Ukubala dedi ki, altun məkrəni yuxuda görüb. Guya balıq onun dövrəsində üzürmüş, Ukubala da onu tutmaq istəyirmiş. İstəyirmiş ki, balığı tutub təzədən suya buraxsın, nəsə onu əlinə almaq, onun gövdəsinin ağırlığını duyandan sonra buraxmaq... Ukubala o balığı tutub, onu o qədər saxlamaq istəyirmiş ki, hətta yuxuda onun ardınca qaçırmış. Balıq isə quyruq ələ verməmiş, Ukubala yuxudan oyanıb bir xeyli sakitləşə bilməmişdi, elə bil ki, o həqiqətən bir məqsədinə çata bilməmişdi. Ukubala öz-özünə gülüb, ancaq yenə də arzusundan dönə bilməyib, elə oyaqlıqda da ürəyi çırpınırmış ki, necə olsa gərək o altun məkrəni tutsun.

Yedigey bu istəyin səbəbini anladı. Bunu dənizdən toru yığanda başa düşmüşdü, sonradan da məlum olmuşdu ki, arvadının yuxusunu

və arzusunun mənasını düz yozub. O başa düşüb qət elədi ki, nəyin bahasına olur olsun qızıl məkrəni ələ keçirməlidir, çünki hamilə qadının ürəyinə bir şey düşürsə, deməli, o şeyə yerikləyir. Qadınların çoxu hamiləlik dövründə nəsə bir çatışmazlıq duyur, onların yerikləməsi özünü bunda göstərir ki, turşməzə bir şey yemək istəyirlər, kimisi də şoraba, nəsə çox tünd, ya acı bir şey yeyir, bir parasının da ürəyindən xırç qızardılmış ət keçir, ya ov heyvanının, çöl quşunun ətini istəyir. Yedigey də arvadının istəyinə təəccüb eləmdi. Vətəgə işçisinin arvadı elə şey istəməli idi ki, ərinin iş-gücünə bir dəxli olsun. Elə bil Allah özü buyurmuşdu, Ukubalanın arzusu o böyük balığı öz gözü ilə görüb qızılını əlində tutmaq olsun. Yedigey dildən-ağızdan eşitmişdi, qadının yerikləmə arzusu yerinə yetmirsə, bunun uşaq üçün ana bətnində çox pis nəticələri ola bilər.

Ukubalanın istəyi o qədər qeyri-adi idi ki, heç o özü də bu barədə ağzını açıb danışmağa cəsarət eləmirdi, Yedigey də üstünü vurmur, məsələni açıb-ağartmırdı, çünki heç özü də bilmirdi ki, bu nadir balığı ələ keçirə biləcək, ya yox. Belə qət elədi ki, əvvəlcə balığı tutsun, sonra arvadının istəyini soruşsun.

Bu vaxtlar Aral dənizindəki vətəgələrdən balıqçılığın əsas mövsümü sona çatmaqda idi – işin qızğın vaxtı iyuldan noyabra kimi olurdu. Daha qışın soyuq nəfəsi duyulmaqdaydı. Artel vətəgələrdə qış mövsümünə, buzaltı balıq ovuna hazırlıq işləri görürdü. Elə ki çevrəsi min beş yüz kilometr olan Aral möhkəm buz bağladı, onda bu buzda böyük dəlmələr açacaq, ağır qurğuşunlar bağlanmış toru dəlmənin birindən salıb, sonra da bu yerlərdə tayı-bərabəri olmayan dəvələr qoşulmuş bucurqadlar vasitəsilə o biri dəlmədən çıxardacaqdılar... Küləklər qarı sovuracaq, tora düşən balıqların tərpənməyə belə imkanı olmayacaq, onları yuxarı çəkən kimi Aralın ayazından buz bağlayıb daşa dönəcək... Amma Yedigey həm yay, həm də qış mövsümlərində artel işçiləri ilə nə qədər dəyərli və ucuz balıq növləri tutsa da, heç yadına gəlmirdi ki, qızıl məkrə bir dəfə də olsa tora düşsün. Bu balığı ancaq xüsusi parlamaç[1] və ya adi qırmaq bağlanmış tilovla tutmaq olurdu, özü də çox dərindən. Belə şeyi balıqçılar nadir bir hadisə hesab eləyirdilər. Sonradan danışırdılar ki, filankəsin bəxti gətirib, qızıl məkrə çıxarıb.

[1] Rusca "blesna" deyilir. Həvəskar balıqçıların bəzi yırtıcı balıqları tutmaq üçün istifadə etdikləri gümüş qaşığa bənzər qarmaqlı parlamac.



Həmin gün səhər sübhdən arvadına dedi ki, dəniz buz bağlamamış ev üçün bir az balıq tutmaq istəyir. Ötən gün Ukubala onu dilə tutmuşdu ki, getməsin:

– Evdə nə qədər desən balıq var, özü də hər cüründən. Dənizə çıxmağa dəyərmi? Soyuqlar başlayıb.

Amma Yedigey dediyindən dönmədi.

– Evdəki evdə, – deyə cavab verdi. – Axı özün dedin ki, Saqın xala bərk naxoşlayıb, onun dərdinin dərmanı isti şirbit, ya xəşəm şorbasıdır. Bəs o qarının balığını kim tutsun?

Elə bu bəhanə ilə də Yedigey sübh tezdən qızıl məkrəni ovlamaq üçün dənizə üz qoydu. Lazım olan hər şeyi, bütün əməsalahı təfərrüatına qədər əvvəldən fikirləşib hazırlamışdı, hamısını da qayığın burun hissəsinə yerləşdirmişdi. Özü də yaxşı-yaxşı altdan geyib üstdən qıfıllanmışdı, plaşını da geyib, başlığını çəkmişdi. O, beləcə qayığı dənizə çıxartdı.

Hava tutqun idi, payızla qış arasında olan günlərin havasına bel bağlamaq olmazdı. Yedigey dalğaların səfini qıyqacı yara-yara avar çəkir, qayığı açıq dənizin, zənninə görə qızıl məkrə balıqlarının yem yeri olan tərəfə yönəldirdi. Əlbəttə, hər şey gətirməkdən asılı idi, çünki dənizdə tilovla balıq ovlamaq elə özü də əslində dəryada balıq sövdası kimi bir şeydir. Burda hər necə olsa, insan şikarının məkanını, şəraitini öyrənirdi, ovçu öz şikarını təqib edir, ona yaxınlaşır, gizlənir, güdür. Suyun altından balıq ovlayan balıqçı isə bunların hamısından məhrumdur. Tilovu suya atıb gərək gözləsin ki, balıq nə vaxt gələcək, gəlsə də qırmaqdakı şeyə meyl salıb götürəcəkmi?

Yedigey ürəyində çox ümid edirdi ki, gərək bəxti gətirsin, axı o, dənizə həmişəki kimi vətəgə ovuna yox, hamilə arvadının Allahdan gələn istəyini yerinə yetirmək üçün çıxmışdı.

Avar çəkməkdə Yedigeyin güc və bacarığına söz ola bilməzdi. Yorulmadan sürüşkən axarlı sulara təkan vurur eyni bir ahənglə qayığı qıvrılıb-əyilən dalğaların arasından keçirib dənizə sürürdü. Aral balıqçıları belə dalğalara iyrək-əyri dalğalar deyirlər. İyrək dalğalar başlanan fırtınanın ilk əlamətidir. Öz-özlüyündə qorxulu deyil, ehtiyat eləmədən dənizin dərin yerlərinə getmək olardı.

Qurudan uzaqlaşdıqca sahilin gilli yarğanları, daşlı ləpədöyən zolağı getdikcə kiçilir çətin seçilirdi, bir azdan lap nazikcə bir xətt kimi gah görünür, gah da yoxa çıxırdı. Göyü bürümüş qara buludlar

hərəkətsiz, asılı qalsalar da alçaqdan əsən külək dənizin qırışıqlarını yalayır, sazağını bildirirdi.

Təqribən iki saatdan sonra Yedigey qayığı saxlayıb avarları götürdü, lövbərlənib ov ləvazimatını qaydaya saldı. Onun iki çarx möhkəm vic ipi vardı. Öz əliylə bir əyləc də düzəltmişdi ki, lazım olanda ipi saxlayıb dayandırsın. Onlardan birini qayığın dal tərəfində sahmanladı – qurğuşun bağlanmış qırmaqlı ipi yava kimi haça ağacın arasından keçirib yüz metr dərinliyə buraxdı, ehtiyatda hələ iyirmi metrəcən ipi qalmışdı. O biri tilovu da sazlayıb elə eyni üsulla qayığın burum tərəfindən suya buraxdı. Sonra da avarları təzədən əlinə aldı ki, qayığı küləyin, suyun axarı və dalğaların lazımi səmtində düzəldib saxlaya bilsin. Ən vacibi də bu idi ki, tilovların ipləri dolaşmasın.

Beləcə gözləməyə başladı. Onun zənnincə, o nadir balıq məhz belə yerlərdə dolanmalı idi. Bunun üçün əlində elə bir sübutu-filanı yox idi, bircə öz zənninə arxalanırdı. Hər halda inanırdı ki, o balıq gəlməli, mütləq özünü göstərməlidir. Balıqsız evə qayıda bilməz. Balıq ona məzə üçün yox, onun həyatında çox əhəmiyyətli bir iş üçün lazım idi.

Bir azdan balıqlar özlərini göstərməyə başladılar. Amma bu balıqlar o balıq deyildi. Əvvəlcə tilova xəşəm düşdü. Yedigey onu çəkəndə bilirdi ki, bu qızıl məkrə deyil. Ola bilməzdi ki, elə tilovu atan kimi qızıl məkrə düşsün. Belə olsaydı yaşamaq çox sadə və maraqsız olardı. Yedigey isə gözləməyə, cəfasını da çəkməyə hazır idi. Sonra qarmağa böyük bir şirbit ilişdi, bu, Aralın yaxşı balıqlarından bəlkə də ən birincilərindən sayılırdı. Yedigey bu balığı da zərbə ilə keylədib qayığın dibinə atdı. Hər halda azarlamış Saqın xalanın balıq şorbası üçün artıqlaması ilə bəs elərdi. Bu dəfə də qarmağa Aral çapağı – tran düşmüşdü. Görəsən, bu hardan gəlib çıxıb bura? Axı çapaq üzdə gəzən balıqdır. Öz bəxtindən küssün, günah özündədir. Bundan sonra uzun üzücü bir fasilə başladı... "Yox, gözləməliyəm, vəssalam, – deyə Yedigey öz-özünə söz verdi.– Ukubalaya açıq söz deməsəm də bilir ki, mən bura qızıl məkrə üçün gəlmişəm. Gərək onu mütləq ələ keçirəm ki, bətnindəki körpə təskinlik tapsın. Axı anasının qızıl məkrəni əlində tutmaq istəyi körpənin öz istəyidir. Körpənin də niyə belə şey istədiyini heç kim bilməz. Bunu anası da istəyir, lap əldən-ayaqdan gedir. Mən də atayam, mən onları bu arzularına çatdırmalıyam".

Dalğalar şıltaqlıq eləyir, qayığı hərləyib səmtini dəyişirdilər. Yedigey az hərəkət elədiyi üçün üşüyür, soyuq iliyinə işləyirdi. Amma



gözünü tilovlardan çəkmir, diqqətlə izləyirdi, görsün haçanın arasındakı vici nə vaxt tərpənəcək, nə vaxt sürüşəcək... Yox, qayığın nə arxasındakı, nə də burnundakı tilovlarda heç bir nişan, əlamət yox idi. Amma Yedigey səbrini itirmədi. O, əmin idi ki, inanırdı ki, qızıl məkrə gəlməlidir. Təki dəniz bir balaca aman verəydi, sakit qalaydı – bu iyrək dalğalardan heç gözü su içmirdi. Axı niyə belə olsun? Yox, fırtına belə tezliklə qalxa bilməz. Nərildəyən alabaş dalğalar axşama ancaq, bəlkə də lap gecə baş qaldıra bilərlər. Bax onda qəzəbli Aral başdan-başa qaynayıb ağ köpük tutacaq, bax onda kişi istəyir ki, dənizə yaxın gəlsin, hələlik mümkündür, hələ vaxt var...

Soyuqdan tükləri biz-biz olsa da, donsa da, Yedigey ətrafı gözdən qoymur, dənizdən öz balığını gözləyirdi. "Niyə ləngiyirsən axı, qəribəsən vallah, sən qorxub eləmə, – deyə o balıq barədə fikirləşdi. Deyirəm ki, qorxub eləmə, səni təzədən suya buraxacam. Deyirsən belə şey olmaz? Təsəvvür elə ki, olur. Axı mən səni yemək üçün gözləmirəm. Yemək üçün evimizdə hər cür balıq var, artıqlaması ilə. Görürsən ki, balığın üçü də qayığın içindədir. Yemək üçün olsaydı, səni gözləyərdimmi, qızıl məkrə! Başa düş, bizim ilkimiz dünyaya gəlməlidir. Sən də bu yaxınlarda arvadımın yuxusuna girmisən, o vaxtdan da dincliyini itirib, bunu dilə gətirməsə də özüm görürəm. İşin niyə belə gətirdiyini deyə bilmərəm, onu bilirəm ki, vacibdir ki, səni görsün, əlində tutsun, söz verirəm, elə o dəqiqə də səni dənizə buraxacağam. Məsələ ondadır ki, sən ayrı balıqsan, nadir balıqsan. Sənin əmgəyin, quyruğun qızıldır, üzgəclərin, başdan quyruğa qədər belinin üstü də qızıldır. Sən bircə dəqiqəliyə özünü bizim yerimizə qoy. O səni öz gözü ilə görmək üçün yerikləyir, səni əlində tutub saxlamaq üçün sino gedir, qızıl məkrə. Elə bilmə ki, sən balıqsan deyə bizə heç bir dəxlin-zadın yoxdur. Hərçənd sən balıqsan, amma bilmirəm nədənsə öz bacı-qardaşının həsrətini çəkən kimi sənin həsrətini çəkir, buna görə də uşağı dünyaya gəlməmiş səni görmək istəyir. Bundan onun bətnindəki uşaq da razı qalacaq. Bax, iş belə gətirib. Kömək elə, dostum, qızıl məkrə, yaxın gəl. Xətrinə dəymərəm. Söz verirəm. Mənim bir bəd niyyətim olsaydı, bunu özün bilərdin, ürəyinə damardı. Qarmağa gəl, iki qarmaqdır. Hərəsinə bir parça ət taxmışam, xətrin hansını istəyir özün seç. Bir balaca vaxtı ötmüş ət qoymuşam ki, iyini uzaqdan alasan. Yaxına gəl, ağlına pis şey gəlməsin. Mən ki səni parlamacla aldatmıram. Hərçənd sən onu görüb daha tez gələrdin, amma

bu mən tərəfdən düzgün iş olmazdı. Axı sən bu metal parçasını udacaqsan, bəs mən səni dənizə buraxandan sonra qarnındakı o metal parçasıyla necə yaşaya bilərsən? Onda mən səni aldatmış olardım. Mən sənə düz-düzənqulu qarmağı təklif eləyirəm. Bir balaca dodağın yaralanacaq, vəssalam. Heç narahat olma, mən böyük bir tuluq da götürmüşəm, onu su ilə dolduracağam, o suyun içindəcə qalacaqsan, sonra da buraxaram üzüb gedərsən. Mən burdan sənsiz heç yana gedən deyiləm. Vaxtım da yoxdur. Görmürsən ki, dalğalar bərkiyir, külək güclənir, onu istəyirsən ki, ilkim atasız yetim kimi doğulsun? Bir özün fikirləş, bir kömək elə mənə... ".

Göyümtül dənizin sazaqlı-soyuqlu gen sinəsi yavaş-yavaş qaralırdı. Sahilə doğru yol almış qayıqlar dalğalar arasında gözdən itir, gah da köpüklü zirvələrə qalxırdı. Qayıq təlatümə gəlmiş dalğalar arasında çətinliklə hərəkət edirdi, dəniz də artıq hayqırtı salıb, altdan-altdan qaynayır, çalxalanır, fırtına üçün güc yığırdı. Buz kimi damlalar üzünə çırpılırdı, avar tutan əlləri soyuqdan şişmişdi.

Ukubala sahil boyu vurnuxurdu. Ərindən nigaran olduğuna görə neçə vaxt idi ki, evdən çıxıb onu sahildə gözləyirdi. Hələ balıqçıya ərə getməyə razılıq verəndə düzdə maldarlıqla məşğul olan qohum-əqrəbası demişdi: "Söz verməmiş bir yaxşı-yaxşı fikirləşəydin, ağır, dözüm istəyən bir həyata qədəm basmağa ürək eləyirsən, dənizə ərə gedirsən, dənizçiyə yox, dəfələrlə sahildə dayanıb üzünü gözyaşınla yumalı olacaqsan, dənizə yalvaracaqsan". Ukubala isə Yedigeyin sözünü yerə salmadı, qohumlarına da təkcə bunu dedi: ərim necə mən də elə...

Elə onların dediyi kimi də oldu. Amma Yedigey bu dəfə dənizə artel yoldaşları ilə deyil, tək çıxmışdı, hava tez qaralırdı, dəniz də uğuldayıb, çalxalanırdı.

Budur, ləpəqıranların arasında qaraltı kimi əvvəlcə avarların hərəkəti, sonra da qayıq göründü. Qarnı artıq qalxmış Ukubala şala bürünüb ləpədöyəndə dayanmışdı, Yedigey qayığı sahilə bərkidənəcən yerindən tərpənmədi. Arxadan gələn güclü dalğa təkanı vurub qayığı lap dayaza saldı. Yedigey quş kimi yerindən sıçrayıb, qayığı öküz kimi darta-darta quruya çıxardı. Ukubala gəlib taxta kimi qurumuş plaşın altında onun yaş boynunu qucaqladı.

– Baxmaqdan gözüm qaraldı, niyə belə gec qayıtdın?

– Səhərdən yaxın gəlmir, elə indilərdə gəlib çıxdı. Hə, birtəhər dilə gətirdim, baxa bilərsən.



Yedigey qayıqdan su ilə dolu ağır dəri tuluğu çıxartdı, ağzını açdı, qızıl məkrəni suqarışıq sahil çınqıllarının üstünə əndərdi. Böyük balıq idi. Güclü, gözəl bir balıq. Balıq qızıl quyruğunu var gücüylə yerə döyəcləyir, qıvrılıb tullanaraq çınqılları ətrafa dağıdıb-səpələyir, çəhrayı ağzını geniş açaraq doğma məkana, dənizə, ləpədöyənə can atırdı. Balıq bir anlığa gərginlik içində donub qaldı, qırpımsız təmiz, gözəl gipgirdə gözlərini təsadüfən düşdüyü bu aləmə dikdi, onu başa düşüb qanmaq istədi, hətta qış gününün şər vaxtı ala-toranlıqda belə adət eləmədiyi, alışmadığı işıq onun beyninə işlədi və balıq, əyilib sevincindən parlayan gözlərlə ona tamaşa eləyən adamları gördü, sahilin haşiyəsini, dənizin üzərində, göyün uzaq üfüqlərindəki buludlar arxasında batmaqda olan, lakin ona parlaq görünən günəşin işığını da gördü. Təngiməyə başladı. O yenidən atlandı. Özünü suya yetirmək üçün yeni güc və qüvvə ilə fırfıra kimi fırlandı. Yedigey qızıl məkrəni qəlsəməsindən tutub qaldırdı.

– Altdan tut, əl yetir, – dedi Ukubalaya.

Ukubala balığı uşaq alan kimi qollara arasına aldı, sinəsinə sıxdı.

– Necə də tanımdır, lap yay kimidir! – deyə Ukubala balığını içindən gücünü duydu. – Gör necə ağırdır, elə bil kötükdür! Dəniz ətri verir. Gözəlliyinə bir bax! Al Yedigey, mən razıyam, çox-çox razıyam. Arzuma yetdim. İndi onu burax suya, tez ol...

Yedigey qızıl məkrəni dənizə tərəf apardı. Ləpədöyəndə dizəcən suya girib əlini boşaltdı, balıq aşağı sürüşdü. Qızıl məkrə suya düşəndə bir an qatı göyümtül havada başdan quyruğa bütün gözəlliyi ilə bərq vuraraq güclü gövdəsiylə suyu yarıb dərinlərə üzdü...

Gecə dənizdə güclü fırtına başlamışdı. Sahil yarğanına çırpılan dənizin uğultusu evin divarı dalından da aydın eşidilirdi. Yedigey bir daha əmin oldu ki, tufandan əvvəl yaranan iyrək ləpəqıranlar heç də səbəbsiz deyildi. Artıq gecə yarıdan keçmişdi. Yedigey mürgüləyə-mürgüləyə dalğaların gurultusuna qulaq verərək arzu-kamında olan məkrəsini xatırladı. Görəsən onun balığının halı necədir? Olsun ki, suyun dərinliklərində dəniz sən deyən elə də çalxalanmır. Yəqin balıq da o qaranlıq içindən suyun üzündəki dalğaların hərəkətinə qulaq asır. Yedigey bu xəyallarla gülümsünüb yuxuya gedəndə əlini arvadının böyrünə qoydu və onun bətnində içəridən gələn təkanı hiss elədi. Bu təkanı vuran onun gələcək ilkiydi. Bu təkandan sonra da Yedigey razılıqla gülümsədi və quzu kimi yuxuya getdi.

Yedigeyin heç ağlına gəlmirdi ki, bir il keçməmiş müharibə başlayacaq, onun gün-güzəranını tərsinə çevirəcək, dənizdən ömürlük ayrılmalı olacaq və bu dənizi ancaq xatırlayacaq. O özü də ağır, qara günlərində buna xüsusi ehtiyac duyacaq...

*Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*
*Bu yerlərdə dəmiryolunun hər iki tərəfilə intəhasız Sarıtorpaq çöllərinin göbəyi hesab edilən Sarı-Özək düzləri uzanıb gedir.*

Boranlı Yedigey üçün çox ağır keçən əlli üçüncü ilin qışı da vaxtından tez gəlmişdi. Sarı-Özəkdə heç vaxt belə qış olmamışdı. Oktyabrın axırlarında artıq qarlamağa başladı, soyuqlar düşdü. Hələ yaxşı ki, vaxt tapıb özünə və Zərifəgilə Kumbeldən kartof gətirmişdi. Ürəyinə dammışdı, buna görə də tələsmişdi. Axırıncı dəfə dəvəylə getməli oldu, qorxurdu ki, yük qatarının açıq tamburunda kartofu gətirənəcən yolda don vursun. Soyuq aparmış kartof kimin nəyinə lazım. Qaranərin belinə iki tay yükləmişdi – özü təkbaşına tayların öhdəsindən gələ bilməzdi, yaxşı ki, adamlar kömək elədilər, yükü xurcuntayı eləyib dəvənin belinə aşırdılar, üstündən də qalın keçə örtüb, yanlarını bərkidib bağladılar ki, külək vurub açmasın, bundan sonra da özü mindi, iki tayın ortasında lap yuxarıda oturub arxayınca Boranlıya yol aldı. Elə bil Qaranərin üstündə yox, fil belində oturmuşdu. Yedigey özü də elə bu cür fikirləşirdi. O vaxta qədər burda hələ heç kimin minik filləri haqqında təsəvvürü yox idi. Həmin ilin payızında stansiyada birinci dəfə Hind filmi göstərmişdilər. Kumbeldə balacadan-böyüyə hamı axışıb Hind kinofilmlərinə tamaşa eləyirdilər. Filmdə bolluca mahnı və rəqslərdən başqa, filləri də göstərirdilər, bu fillərlə cəngəlliklərə pələng ovuna gedirdilər. Həmin filmə Yedigey də baxa bilmişdi. Yedigeylə razyezdin rəisi boranlılar adından yerli komitənin ümumi iclasında nümayəndə kimi iştirak eləyirdilər, deponun klubunda iclasdan sonra Hind filmi göstərdilər. Elə bundan da başlandı. Kinodan çıxanların arasında qızğın söhbət gedirdi, dəmiryolçular təəccüb eləyirdilər ki, Hindistanda fillərə necə minə bilirlər.

Kimsə bunun cavabında ucadan dedi:

– Nə təəccüblü şeymiş bu fillər, Yedigeyin Boranlı Qaranərinin onlardan nəyi əskikdir axı? Sən ona yük vur-gör necə çəkir, lap fildən də betər!



– Yaxşı deyirsən, vallah! – Ətrafdakılar gülüşdülər.

– Fil nədir canım! – deyə bir başqası da söhbətə qarışdı. – Ancaq isti yerlərdə yaşaya bilir. Hünəri var bizim Sarı-Özəkdə bircə qış qışlasın. O saat canı çıxar! Fil hara, Qaranər hara!

– Mənə bax, Yedigey, gör nə deyirəm, axı niyə o Hindistanda fillərin üstünə qoyulan köşklərdən birini də sən Qaranərin belinə qoymayasan, hə? Oranın varlıları kimi oturarsan içində özünçün!

Yedigey cavab vermir, gülürdü. Dostları onunla zarafat eləsələr də, hər halda özünün məşhur atanı haqqında belə sözlər eşitmək ürəyindən idi...

Qaranərin ucbatından həmin qış başına çox işlər gəldi, nə qədər həyəcan keçirdi, dərd çəkdi...

Ancaq o məsələlər soyuqlar düşəndən sonra olmuşdu. O gün isə Yedigey yolda qara düşdü – ilk qardı, ilk deyəndə ki, əvvəl də bir-iki dəfə qarlayıb, tez də əriyib getmişdi. Amma bu qar o qarlardan deyildi! Sarı-Özəyin göyləri zülmət kimi qapqara bulud idi, külək də ki bu yandan qarı sovururdu. Quşbaşı qar elə tökürdü ki, heç nəyi seçmək olmurdu. İndi neyləyəsən? Sarı-Özəkdə yolüstü elə bir yer yoxdur ki, hava düzələnəcən dayanıb gözləyəsən. Ümid qalırdı – Boranlı Qaranərin zoruna və fəhminə... Gərək necə olsa, aparıb mənzilə çatdırsın. Yedigey Qaranəri tam sərbəst buraxıb üst geyiminin boynunu qaldırdı, papağını üstdən basıb bərkitdi, başlığını da qaldırdı, bir çarəsi qalmışdı, səbrini basıb gözləsin, çünki nə qədər baxsa da heç nə seçə bilmirdi. Gözünün qabağında qar pərdəsindən başqa heç nə görmək olmurdu. Qaranər qar burulğanının içindən keçirdi, bəlkə də başa düşürdü ki, sahibi indi ona sahiblik eləmir, çünki səsi çıxmır, tayların üstündə oturub, heç cınqırını da çıxartmır. Qaranərin gərək tükənməz gücü olaydı ki, belə qarın altında özü də belə bir yüklə çöllükdə yortma gedəydi. Belində sahibini aparan dəvə görüklənir, nəfəsindən od yağırdı, vəhşi kimi bağırır, nərildəyir, bəzən də döşdən gələn bir səslə uzun-uzadı inildəyir, yorulmadan, nəfəs dərmədən qarın içiylə yortub gedir, gedirdi...

Təbii şeydir ki, yol Yedigeyə çox uzun görünürdü. "Bircə tez çata bilsəydik", – deyə tələsir, fikirləşirdi ki, evdə nigarandırlar – görəsən, kişi bu havada harda qaldı. Ukubala onunçün həmişə nigaran qalsa da, heç vaxt bunu üzə vurmurdu. Ukubala o adamlardan deyildi ki, ürəyindəkiləri tez-tələsik ovcuna qoysun. Ola bilsin, Zərifə də onun haqqında

fikirləşir ki, görəsən başına nə gəldi? Əlbəttə, fikirləşir. Zərifə, sözsüz ki, heç cınqır çıxarmaz, bacardıqca Yedigeydən uzaq gəzir, təkbətək söhbətdən qaçır. Uzaq gəzmək niyə, nə pis iş olub, axı? Axı Yedigey nə diliylə nə də əməliylə elə bir günah işlətməyib ki, kiminsə ağlına qara-qura girsin, guya arada nəsə qarışıq bir iş var. Əvvəl necəydi, indi də elə. Onlar təsadüfən həyatda yol yoldaşı olublar, yolda bir an ayaq saxlayıblar ki, baxıb görsünlər düz yollamı gedirlər... Sonra yenə də düzəliblər yollarına. Vəssalam. Bu yolda nə çəkirsə o onun öz işidir... Bəxti belədir – alnına yazılıbmış ki, odla su arasında qalsın. Qoy bundan heç kim narahat olmasın, öz-özüylə nə cür bacaracaq, ürəyinin oduna necə yanacaq özü bilər. Kimə nə dəxli var o nə çəkir, sonra başına nələr gələcək! Körpə deyil, vəziyyətdən özü baş açmalıdır, onun öz günahı ucbatından getdikcə daha çox dolaşıq düşüb bərkimiş düyünü özü açmalıdır...

Bunlar üzüntülü, heç bir işıq ucu olmayan fikirlər idi. Budur, Sarı-Özəyə qış gəlib, Yedigey isə yenə əvvəlki kimi nə Zərifəni unuda bilir, nə də Ukubaladan keçə bilirdi. Bədbəxtlikdən onların hər ikisinə eyni dərəcədə ehtiyac duyurdu, çox güman ki, onlar da bunu görür, dolaşıq işdən tez baş açması üçün Yedigeyi qısnayıb tələsdirmirdilər. Zahirən hər şey indiyə kimi necə vardısa elə də qalırdı – qadınların arasındakı sakit münasibət davam etdiyi kimi, hər iki evin uşağı bir ailənin övladları kimi bir yerdə böyüyüb boy atır, həmişə bir yerdə oynayırdılar – gah bu evdə, gah da o biri evdə... Yayı belə keçirdilər, payıza da elə ötürdülər...

Boranlı Yedigey bu qarlı gündə özünü yurdsuz-yuvasız yetim kimi hiss eləyirdi. Göydən qar ələnir, ətraf kimsəsiz... Hərdən Qaranər silkələnərək başına yapıxan qar topasını yorta-yorta yerə tökür, öz nəriltisi, iniltisiylə sükutu pozurdu. Sahibinin halı isə özündə deyildi. Yedigey öz-özüylə bacara, müəyyən qərara gələ bilmirdi. Nə ürəyindəkiləri Zərifəyə aşkar eləyə, nə də Ukubaladan keçə bilirdi. Özünü yamanlayır, dişinin dibindən çıxan sözlərlə özünü söyürdü: "Heyvanın biri heyvan, elə sən də öz dəvən kimi bir şeysən! Əclaf! İtin biri it, gicin biri gic!" – deyə araya lap qatı söyüşlər qatıb söyür, öz-özünü hədələyir, təhqir eləyirdi ki, bir balaca yüngülləşib ayılsın, özünə gələ bilsin, lənət şeytana deyib bu işdən əl götürsün. Amma heç nə fayda vermirdi... Vəziyyəti bir növ yerindən oynamış uçqunları xatırladırdı... Onu qarşıda gözləyən yeganə sevinci uşaqlar idi. Onlar Yedigeyi necə



varsa elə qəbul edir, qabağına xüsusi şərt-filan qoymurdular. Nə kör-kömək lazım olsa, Yedigey böyük məmnuniyyətlə yerinə yetirirdi. Necə ki, elə indinin özündə onların qış azuqəsi üçün Qaranərə iki böyük tay kartof yükləyib aparırdı. Yanacaq sarıdan da ehtiyat görülmüşdü...

Uşaqlar barədə fikirləşmək Yedigeyə qəlbini ovundurmaq üçün yeganə pənah yeriydi, bu barədə özündən şikayəti yoxdu. Bir anlığa gözünün qabağına gətirdi ki, Boranlıya çatan kimi uşaqlar onun gəlişini eşidib necə də evdən qaça-qaça gələcəklər, onları geri qovmaq olmaz ki, lap qar-boran olsa da, dövrəsində atılıb-düşüb qışqıracaqlar: "Yedigey əmi gəldi! Qaranərdə! Kartof gətirdi!" O da səsinə sərtlik verib hökmlə dəvəni hıxlayacaq, təpədən-dırnağa qar içində dəvədən düşüb üst-başının qarını çırpa-çırpa uşaqların başını tumarlayacaq, sonra da yükü açıb yerbəyer eləyəndə oğrun-oğrun baxacaq ki, görsün Zərifə evdədirsə, onlara tərəf gəlirmi, Yedigey ona elə xüsusi söz-söz deməyəcək, Zərifə də susacaq, eləcə ancaq onun üzünü görmək bəsidir – yenə də əhvalı pozulacaq, qəm dəryasına batacaq, bundan yaxasını qurtara bilməyəcək, şübhəsiz, uşaqlar da ətrafda əl-ayağa dolaşıb, hayqıran dəvədən qorxsalar da, özlərini cəsur göstərməyə çalışıb onun üstünə atılacaqlar, ona kömək etməyə cəhd eləyəcəklər, onun da mükafatı bu olacaq, bütün əzab və ağrılarını canından çıxaracaq...

Yedigey daxilən Abutalıbın uşaqlarıyla qarşıdakı görüşə hazırlaşdı və əvvəlcədən fikirləşdi ki, dinləyicilərinə bu dəfə nədən danışacaq? Yenə də Aral dənizindən? Ən sevimli hekayətləri – dənizdə baş verən hər cür əhvalata onlar da öz əlavələrini eləyir, özü də mütləq atalanın iştirakıyla, beləliklə özləri də bilmədən onun xatirəsini yad edirlər. Ancaq məsələ bunda idi ki, Yedigey dənizdə nə görüb, nə eşitmişdisə hamısını dönə-dönə onlara nağıl eləmişdi, daha danışmağa bir şey yoxdu – qızıl məkrə əhvalatından başqa. Bəs bu əhvalatı necə izah eləsin? Keçmişdə baş vermiş bu əhvalatın içində nə mənalar olduğunu təkcə özü bildiyi halda, bunu başqa kimə başa sala bilərdi?

Həmin o qarlı gündə yolu bu cür qət edirdi. Yol boyu nə fikirlər, nə tərəddüdlər ondan əl çəkdi, nə də ki, qar ara verdi.

Elə həmin qarın siftəsiylə də Sarı-Özəkdə erkən ayazlı qış başlandı. Soyuqlar düşən kimi Qaranər qızdı, yenidən azğınlaşdı, yenidən yerə-göyə sığmadı, canındakı erkəklik qüdrəti təzədən dirçəlmişdi, indi onu heç kim və heç nə ipə-sapa yatızdıra bilməzdi. Bu yerdə sahibinin özü də, xatadan uzaq olmaq üçün istər-istəməz güzəştə getməliydi.

Qar düşəndən üç gün sonra şaxtalı külək boranlayıb tüğyan elədi, çölü-düzü bir anın içində ağ buxar kimi, sərt soyuq çən-duman bürüdü. Ayazda uzaq addım səslərinin qarlı xırıltısı, ən kiçik xışıltı, nə səs olur olsun apaydın eşidilirdi. Qatarların səsi isə bir neçə kilometrdən gəlirdi. Yedigey sübh tezdən yuxulu-yuxulu ağıldakı Boranlı Qaranərin sinədən gələn nərəsini eşitdi, onun ayaqlarını yerə döyə-döyə evin dalındakı çəpəri şaqqıltı ilə yerindən oynadıb dağıtmaq istədiyini gördü, qapısını necə bir bəla kəsdirdiyini başa düşdü. Tezcə paltarını geyib ağıla getdi, hava tikan kimi boğazına dolub göynətsə də bağırdı:

– Nə var, azar dəymiş! Yenə nə olub, dünya dağılıb? Yenə öz bildiyindəsən? Yenə də qanıma susamısan! Ah səni, heyvanın biri heyvan! Səsini kəs! Sus deyirəm! Nə oldu bu il belə tez qızışıb özündən çıxdın, heç olmasa camaatı güldürmə!

Yedigey tamam nahaqca ağzına gələni deyirdi. Ehtirasın gücündən gözünü qan tutmuş nər, sahibinə ram olmaq fikrində deyildi. O, nərildəyir, fınxırır, hirslə-hikkəylə dişlərini qıcırdıb ağılı dağıdır, istədiyini tələb edirdi.

– Deməli, imsiləmisən? – deyə Yedigey hirsini tənəli sözlərlə əvəz elədi. – Məsələ məlumdur. Sən bu saat nə olur-olsun gərək dəvə sürüsünün yanına yortasan. İmsiləmisən ki, nəsə yaxşı bir kaymanca[1] həvəsə gəlib! Ay-hay! Bircə bunu başa düşə bilmədim – Allah sizin bu dəvə cinsini niyə belə xəlq eləyib ki, ildə bircə dəfə qızırsız, olmazdı ki, elə hər gün bu işlə səssiz-küysüz, dava-dalaşsız məşğul olaydınız? Onda axı, kimin nəyinə qalmışdı! Yoxsa elə bil qiyamət qopub!..

Yedigey Qaranərin önündə öz acizliyini hiss elədiyi üçün elə-belə deyinirdi. Daha ayrı bir əlacı qalmamışdı, havayı deyinməkdən nə çıxardı, nəri buraxmaq lazım idi.

Yedigey ağılın ağzını açan kimi Qaranər qeyzlə hayqırıb nərə çəkə-çəkə kömbəli ayaqlarıyla vaz ataraq, daş kimi bərk qara donqarlarını əsdirə-əsdirə çöllüyə üz qoydu. Bir anda qopardığı qar tozanağı içində it-bat olub gözdən itdi.

– Tfu sənə! – deyə Yedigey dəvənin ardınca tüpürdü. – Bərk yorğala, axmaq, birdən sənə çatmaz!

Yedigey səhəri işə çıxmalıydı. Elə buna görə də Boranlı Qaranərə güzəştə getməli oldu. Bilsəydi ki, bunun axırı nəylə qurtaracaq, onu

[1] Cavan maya



heç buraxardı – lap partlayıb canı da çıxsaydı *buraxmazdı*. Özü evdə olmayandan sonra bu qızmış Qaranərin öhdəsindən kim gələ bilərdi? Qoy cəhənnəm olub hara gedir getsin. Yedigey güman eləyirdi ki, dəvə sərbəst gəzər, bir az yellənəndən sonra başına vurmuş qanı soyuyar, sakitləşər...

Günortaüstü Qazanqap gəldi, Yedigeyin halına yanırmış kimi gülə-gülə dedi:

– Hə, bəy, işlərin fırıqdır. Elə bu saat örüş yerindən gəlirəm. Belə başa düşdüm ki, sənin Qaranərin böyük səfərə çıxıb. Buranın kaymançaları deyəsən ona azlıq eləyir.

– Yenə baş götürüb qaçıb? Zarafatçın vaxt tapdın, de görüm nə olub?

– Heç zarafatın yeridir? Sənə deyirəm ki, gedib başqa sürülərə soxulub. Nəsə duyub yırtıcı. Getmişdim ki, görüm orda bizimkilərin vəziyyəti nə yerdədir. Elə böyük qobuya çatmışdım ki, gördüm nəsə yaxınlaşır, ayağının zərbindən yer titrəyir – dedim, ədə, görən bu nədir, bir də gördüm Qaranər. Gözləri hədəqədən çıxıb, var gücüylə nərildəyir, ağzından da selik axır. Elə bil parovozdur! Arxasınca qarı elə sovururdu ki, deyərsən tufandır! Dedim ayaqlayacaq məni. Yanımdan yel kimi ötüb keçdi, qabağında adam-zad olduğunu görmürdü. Malakumdıçap tərəfə getdi. Orda, yarğanın altındakı sürülər bizimkindən çox böyükdür. Qudurmuş daha buraları bəyənmir. Əl-ayaq açmağa bolluq lazımdı, heyvanın bu saat lap gücdən olan vaxtıdır.

Yedigeyin ovqatı əməlli-başlı təlx oldu. Fikirləşdi ki, yenə də min əngəl çıxarıb, ona başağrısı verəcək.

– Yaxşı, narahat olma. O tərəfdə də yaxşı nərlər tapılıb qabağına çıxar, ona elə toy tutarlar ki, döyülmüş it kimi zingildəyə-zingildəyə qayıdar, – deyə Qazanqap onu sakitləşdirmək istədi.

O birisi gün isə, cəbhədən verilən məlumat kimi Boranlı Qaranərin döyüş rəşadəti haqqında xəbərlər gəlirdi. Vəziyyət elə də ürəkaçan deyildi. Qatarlar Boranlıda dayanmağa bənd idi ki, maşinist, ocaqçı, ya da ki, bələdçinin özü, iki daşın arasında stansiya və ya razyezd yaxınlığındakı dəvə sürülərində Qaranərin azğınlığından, onun aləmi viran qoymağından danışsın. Xəbər çatdırdılar ki, Malakumdıçap razyezdində Qaranər iki nəri nəfəsi kəsiləndəcən əzişdirib, dörd mayanı qabağına qatıb qovub düzənliyə, yiyələri bir zülmlə onları Qaranərin əlindən ala bilib. Camaat axırda havaya güllə atmağa məcbur olub.

Ayrı bir yerdə bir maya dəvə üstündə gələn kişini dəvədən salıb, heyvanı ondan ayırıb. Kişi də lap Allahın gicbəsəriymiş, iki saatacan gözləyib, fikirləşib ki, Qaranər kefini çəkib axırda mayanı öz razılığıyla buraxar, amma deyəsən o maya özü də bu sırtıqdan aralanmaq fikrində deyilmiş. Yazıq kişi dəvəsinə yaxınlaşıb ki, minib getsin evinə, Qaranər qudurğan vəhşi kimi cumub onun üstünə qov ki, qovasan – yazıq özünü güclə bir xəndəyə yetirib orda siçan kimi hənirini içinə çəkməsəymiş kişini ayağının altına salıb öldürəsiymiş. Kişi özünə gələndən sonra Qaranərlə bir də rastlaşmasın deyə yarğanın dibiylə xeyli uzaqlaşandan sonra sağ-salamat qurtardığı üçün Allahına şükür eləyərək evə tələsib.

Sarı-Özəyin simsiz telefonlarıyla ağızdan-ağıza Qaranərin törətdiyi azğınlıqların sorağı gəlsə də, ən həyəcanlı və qorxulu xəbərdarlıq Ağ-Moynak razyezdindən göndərilən yazılı məktub idi. Gör bir-çər dəymiş haralara gedib çıxıb. Ağ-Moynak Kumbel stansiyasından da o yanadır! Ordan məktub göndərən Kospan adlı bir adam idi. Görün o, öz diqqətəşayan məktubunda nə yazırdı:

"Salam hörmətli Yedigey ağa! Hərçənd sən Sarı-Özəkdə tanınmış sanlı adamsan, amma indi tənəli sözlər eşitməli olacaqsan. Mən səni möhkəm bir adam bilirdim. Axı sən bu ziyanəvəri niyə açıb buraxıbsan? Səndən heç belə şey gözləməzdik. O, burda bizim günümüzü qara eləyib, cınqır çəkə bilmirik. Bizim nərlərin hamısını şil-küt eləyib, mayalarımızdan üç ən yaxşısını özü üçün ayırıb. Hələ üstəlik gələndə tək gəlməyib, alıxlanmış bir mayanı da qabağına qatıb gətirib, görünür sahibini elə yolda yerə salıb, belə olmasaydı, dəvə niyə alıxlansın? Hə, bax o mayaları qovub səhraya, heç kimi də yanına buraxmır – nə adam tanıyır, nə heyvan. Belə də iş olar? Bizim cavan nərlərdən birinin qabırğalarını sınıq-sıqın eləyib öldürdü. Havaya güllə atdım, dedim bəlkə qorxa, bizim mayaları buraxa. Heç eyninə də almadı! Qorxu-hürkü bilmir. Kimi desən diri-diri gəmirib məhv edər! Təki ona öz işini görməyə mane olmasınlar. Nə yeyir, nə içir, iş-gücü mayalarladır... Yer ayağının altında lərzəyə gəlir. Vəhşi görməmiş işi elə heyvanlıqla görür ki, adam çiyrinir baxanda, səsi-çığırtısı dünyanı götürür! Səsindən qulaq tutulur! Mənə elə gəlir ki, imkan versən, bu işlə nəfəs dərmədən yüz il məşğul ola bilər. Ömrümdə belə bir vəhşi görməmişdim. Bizim qəsəbədə hamı zinhara gəlib. Arvad-uşaq evdən aralanmağa qorxur. Buna görə də mən tələb eləyirəm ki, lap tezliklə gəlib Qaranəri aparasan. Vaxt verirəm. Bircə gündən sonra gəlib bizi bu zülmdən qurtarmasan incimə, hörmətli ağa. Tüfəngim iri çaplıdır. Elə güllələrim var ki, lap ayını yıxar. Şahidlərin yanındaca onun o murdar başına bir güllə sıxacam, bununla da işə xitam verəcəm. Gönünü də soyub yolüstü yük qatarında göndərəcəyəm. Daha onun Boranlı Qaranər olmağına baxan-zad deyiləm. Mən də sözümün üstündə duran adamam. Nə qədər gec deyil, tez gəl.

Sənin ağ-moynaklı inin[1] Kospan".

Hə, işlər bax bu çilləyə minmişdi. Məktub barnəzə adam tərəfindən yazılsa da, xəbərdarlıq çox ciddiydi. Qazanqapla məsləhətləşib bu qərara gəldilər ki, Yedigey əlüstü Ağ-Moynak razyezdinə getsin. Bu işi yerinə yetirmək sizə heç də dildə deyildiyi qədər asan görünməsin. Ağ-Moynaka gedib, orda da çöllükdən Qaranəri tutub bu soyuqda, şaxtada geri qayıdanda, hər dəqiqə boran qalxa bilərdi. İşin qolayı o idi ki, yaxşıca isti geyinib yolüstü bir yük qatarına minsin, oracan getsin, ordan da dəvəylə qayıtsın. Amma kim bilir ki, Qaranər öz hərəmlərini çəkib hara aparıb. Məktubun yazılışından belə məlum olurdu ki, ağmoynaklılar bərk inciyiblər, çətin ki, minməyə dəvə versinlər. Belə çıxır ki, Qaranərin qarasınca qarı basa-basa piyada getməli olacaq.

Yedigey səhəri yola çıxdı. Ukubala yol üçün azuqə hazırlamışdı. Əynini qalın elədi. Sırıqlı pencək-şalvarın üstündən qoyun kürkü, ayağına da keçə çəkmələrini geydi, tülkü xəzindən olan malaxayını[2] başına qoydu ki, böyürdən-başdan külək onu döyə bilməsin, boynu-başı hamısı xəzin içindəydi – qoyun dərisindən tikilmiş isti əlcəklərini də əlinə keçirdi. Ağ-Moynak səfərinə çıxmaq üçün nəzərdə tutduğu mayanı alıxlayanda Abutalıbın uşaqlarının ikisi də onun yanına gəldi. Daul Yedigey üçün əldə toxunma yun boğaz şərfi gətirmişdi.

– Yedigey əmi, anam dedi ki, bağlasın boynuna, soyuq dəyməsin, – deyə şərfi ona verdi.

– Boynuma? Denən boğazıma.

Yedigey şərfi alıb sevincindən uşaqları bağrına basdı, öpdü, elə mütəəssir oldu ki, daha deməyə gəlməz... Ürəyində lap uşaq kimi sevindi, bu, Zərifə tərəfindən ilk diqqət, ilk qayğıydı.

---

[1] İni – böyüyə hörmət qaydasında deyilmiş "kiçiyin", "kiçik qardaşın", "ellin" mənası verir.

[2] Malaxay – üç yarpaq şəklində tikilən qulaqlı papaq. Arxa tərəf şəm boynu tutur, həm də ucları ensiz və uzun olduğu üçün boğaza dolanır.

Yedigey yola düşəndə uşaqlara eşitdirdi ki, ananıza deyin Allah qoysa, tezliklə qayıdacağam, günü sabah burdayam. Bir dəqiqə, bir saniyə də ləngimərəm. Qayıdanbaş hamılıqla bir yerə yığılıb çay içərik.

Şərfi əziz bir şey kimi qatlayıb pencəyinin döş cibində gizlədən Yedigeyin bircə arzusu o idi ki, Zərifəni görmək, onun gözlərinə baxıb bu şərfin təsadüfi bir işarə olmadığına inanmaq üçün bu lovxəbəri aldığı Ağ-Moynaka tez gedib qayıtsın. Yedigey yola düşəndə, hətta evdən xeyli aralanandan sonra, az qala dönüb qayıdacaqdı, qoy cəhənnəm olsun Qaranər də, lap ondan böyüyü də, qoy onu Kaspan deyilən o adam güllə ilə vurub gönünü göndərsin, canı sağ olsun, bu azğın daha yığdı canımı boğazıma, cəhənnəmə! Canı çıxsın! Bəli, başından belə fikirlər də keçdi! Amma geri qayıtmağa da həya elədi. Başa düşdü ki, bu axmaqlığına görə camaatın gözündə, elə birinci Ukubalanın, lap elə Zərifənin də gözündə bədnam olar. Səbrini basıb soyudu. Özünü inandırdı ki, bu səbirsizlik yanğısını söndürməyin bircə çarəsi odur ki, mümkün qədər tez mənzil başına çatıb, əlüstü də qayıtsın.

Elə bu fikirlə də mindiyini qovdu. Hava kifayət qədər şaxtalıydı. Sərt külək də ara vermədən bir qaydada əsirdi. Küləkdə üzü qırov bağlayır, tüklü malaxayın yumşaq tükləri üstündə də buz naxışları qoyurdu. Qonur mayanın nəfəsindən çıxan buxar da onun boynundan süksününəcən bu cür naxış salırdı. Uzaqlar duman içindəydi elə bil. Əslində yaxın yerlər dumanlı deyildi, amma baxırdın göz işləyən yerin qurtaracağı dumanlıqdı elə bil. Hərəkət elədikcə bu duman da ondan bir qədər uzaqlaşırdı. Yolçu nə qədər yaxınlaşırdısa, duman da ondan bir qədər uzaqlaşırdı. Qışın bu küləkli bəyazlığına qərq olmuş Sarı-Özək sərt və kimsəsiz idi.

Cavan, löhrən yerişli maya alıq altında pis getmirdi, qarı basa-basa gümrah yeriyirdi. Amma Yedigeyin nəzərində bu nə sürət idi, nə yeriş. Altındakı Qaranər olsaydı, yol getməyi ayrı cür olardı. Onun nəfəsi hara, onun addımının arası hara, bununku hara!.. Qədimdən belə bunu havayı deməyiblər ki:

Bu atın o atdan nəyi yazxşıdır?
Atın gərək yol-yerişi xub olsun.
İgidin igiddən nəyi yaxşıdır?
Ağıl gərək, kamal gərək iyiddə...

Səfər uzaq, yol da kimsəsiz. Zərifənin hədiyyə verdiyi şərf olmasaydı, bu yol sözsüz ki, Yedigeyi bezikdirəcəkdi. İlk baxışda elə



qiymətli bir şey olmasa da, bütün yol boyu onun istisini duyurdu. Yer üzündə bu qədər ömür sürmüşdü, inanmazdı ki, istəkli qadın tərəfindən verilmiş bu cür xırda bir şey ürəyi bu qədər qızındıra bilərmiş. Elə buna görə də bütün yolu məşğuliyyəti o oldu. Əlini qoynuna soxub şərfi sığallayır, məst olub gülümsünürdü. Amma sonra fikrə getdi. İndi nə təhər eləsin, bundan sonra necə yaşamalıdır? Qarşıda vəziyyətdən çıxış yolu görmürdü. Nə cür eləsin? Adamın gərək qabağında bir məqsədi olsun və bu məqsədə gedən yolu görsün. Neyləsin ki, bunların heç biri yoxdu.

Belə olanda sükuta qərq olmuş o şaxtalı-dumanlı Sarı-Özək düzləri kimi Yedigeyin də gözlərinə kədərli bir duman gəlirdi. Yedigey cavab tapa bilmir, bədbinləşir, həyəcan keçirir, ruhdan düşür, təzədən ümidsiz xəyallarla özünə təskinlik verirdi...

Bəzən bu kimsəsiz sükut içində onu sözün əsl mənasında dəhşət basırdı. Axı nəyə görə məhz ona belə bir tale nəsib olmalıydı? Hardan gəlib bu Sarı-Özəyə düşdü? Taleyin dərbədər saldığı bu bədbəxt ailə niyə gəlib Boranlıya tuş oldu? Belə olmasaydı – o da heç bir əzaba-üzüntüyə məruz qalmaz, özü üçün sakit, rahat yaşardı. Yox, mümkün deyildi, ürəyi eşitmir, inadla həlli müşkül olan bir şey tələb edirdi. Bu tərəfdən də bu azğınlaşmış Qaranər, bu da bir yük, Allahın bəlasıdır, adamınkı gətirməyəndə hər tərəfdən gətirmir. Yox, zarafatsız, mənimki doğrudan da gətirmir...

Yedigey Ağ-Moynaka şər qarışıb, axşam düşəndə çatdı. Maya da yorulmuşdu. Yol uzaq idi, üstəlik də ki, qışın günü.

Ağ-Moynak deyilən yer elə Boranlı kimi razyezddir. Təkcə fərqi budur ki, onların öz suyu var, quyu suyu. Başqa elə bir fərqi yoxdur – elə həmən Sarı-Özəkdir ki, var.

Yedigey Ağ-Moynaka gəlib çıxanda doqqazın başında rast gəldiyi bir uşaqdan soruşdu ki, bəs burda Kospan deyilən adamı harda görmək olar? O da cavab verdi ki, Kospan bu saat işdədir, razyezddə növbətçidir. Boranlı Yedigey də ora yollandı. Növbətçi məntəqəsinə çatan kimi tələsik içəri keçmək istəyirdi ki, artırmada ortaboylu, diribaş, güləş gözlərindən cin yağan bir kişi göründü, onun əynində bədəninə görə çox böyük olan yarımkürk vardı, nimdaş keçə çəkmə geymişdi, qulaqlı papağı başında yanakı dayanmışdı.

– A-a, Yedigey ağa! Bizim əziz Boranlı ağa! – Deyə Yedigeyi o dəqiqə tanıdı, artırmadan düşdü. – Deməli, gəldin, daha gözümüzün kökü saralıb. Deyirik, görəsən, gələcək, gəlməyəcək.

– Hünərin var gəlmə, – deyə Yedigey gülümsündü, – o yazını ki, siz göndərmisiz, onun qabağında pozu olarmı?!

– Bəs neyləyəydik?! Məktub hələ dərdin yarısıdır, Yedigey ağa. Məktuba nə var, məktub kağızdır. Burda vəziyyət elədir ki, gərək bizi lap tezliklə bu Qaranərin əlindən qurtarasan, yoxsa elə bil mühasirədəyik. Çölə-bayıra getmək olmur. Uzaqdan bir kimsəni gördümü – quduz kimi cumur üstünə ki, altına alıb xurd-xəşil eləsin. Əclaf! Belə nərə yiyəlik eləmək müsibətdir, – o susdu, hələ də dəvənin belində oturan Yedigeyə baxıb əlavə elədi, – vallah heç bilmirəm onu nə cür ipə-sapa yatızdıracaqsan, belə boş əllə?

– Boş əllə niyə? Bu da mənim silahım, – deyə Yedigey heybədən dəstəyinə dolaşmış bir qamçı çıxartdı.

– Eləcə bu qamçıynan?

– Bəs nə olmalıydı ki, gərək top-tüfəng götürəydim?

– Biz onun qabağına heç tüfənglə də çıxmağa cürət eləmirik. Vallah, bilmirəm, bəlkə səni öz sahibi kimi tanıya, onda... Amma çətin, gözü elə qızıb ki...

– Hələ baxarıq, – deyə Yedigey cavab verdi. – Vaxtı boş yerə niyə itirək? Belə çıxır ki, o Kospan elə sən özünsən. Onda apar məni göstər görüm hardadır, qalan iş mənim boynuma.

– O yer elə də sən deyən yaxın deyil, – deyə Kospan cavab verib ətrafa boylandı, sonra da saatına baxdı. – Bilirsən nə var, Yedigey ağa, indi gecdir. Biz ora çatana kimi axşam düşər. Axşamın xeyrindən sabahın şəri yaxşıdır. Yox, yox, belə yaramaz. Sənin kimi hörmətli qonaq hələm-hələm elə keçmir. Axşamı bizə qonaq ol. Səhəri – özün baxırsan.

Yedigey işin bu səmtə dönəcəyini gözləmirdi. Onun niyyəti bu idi ki, bu gün Qaranərin ipini ələ keçirə bilsə, elə bu axşam Kumbelə gedib, stansiyanın yanında olan tanışlarıgildə gecələsin, sübh tezdən də evlərinə yol alsın. Yedigeyin qayıtmaq niyyətini görən Kospan qəti etiraz elədi:

– Yox, Yedigey ağa, belə olmaz. Məktub üçün bağışla. Ayrı əlacımız yox idi, günümüz qara olmuşdu. Ancaq səni buraxan deyiləm. Allah eləməmiş, gecə vaxtı, qışın günü kimsəsiz səhrada bir xəta-zad çıxar, mən bu Sarı-Özəkdə üzüqara qalaram. Gecəni qal, səhəri özün bilərsən. Bax, o qıraqdakı mənim evimdir. Hələ saat yarımlıq növbəm var. Belə hesab elə ki, öz evindir. Xətrin çəkən kimi, mayanı ağıla sal, ələfi də tapılar. Öz suyumuz da var, istədiyin qədər.



Həmin o qış günü hava tez qaraldı. Kospan da, elə ailəsi də canlara dəyən adamlar çıxdılar. Qoca anası, arvadı, beş yaşında oğlu (böyük qızı, sən demə, Kumbeldə internatda oxuyurmuş), elə özü də qonağa hörmət göstərmək üçün əldən-ayaqdan gedirdilər. Hamam kimi isti evdə xüsusi bir canlanma vardı. Mətbəxdə ət bişirdi. Xörək hazır olana kimi çay içdilər. Kospanın qoca anası Yedigeyin piyaləsinə özü çay süzür, arada da onun ailəsi, uşaqları barədə suallar verir, havalardan danışır, hansı tərəfdən, kimlərdən olduğunu öyrənirdi, özlərinin də Ağ-Moynak razyezdinə necə və nə vaxt gəlməklərindən danışırdı. Yedigey həvəslə söhbətə qoşulur, ornik sarı yağı tərifləyir, isti kökələrdən kəsir, yağa batırıb yeyirdi. Sarı-Özəkdə inək yağı nadir tapılan şeydir. Qoyun-keçi, dəvə yağının özü də pis deyil, amma inək yağına çata bilməz. İnək yağını onlara Uraldakı qohumları göndərmişdi. Yedigey kökələrlə bu yağdan yedikcə inandırmağa çalışırdı ki, lap çəmən otlarının ətrini duyur, bu sözlər də qarının canına o sarı yağın özü kimi yayılırdı. Qarı öz vətəni Yayıq[1] torpağı haqqında, oranın çayları, çəmənləri haqqında danışdı...

Elə bu vaxt razyezdin rəisi Ərnəfəs gəlib çıxdı – Ərnəfəsi, Boranlı Yedigeyin gəlişi münasibətilə Kospan dəvət eləmişdi. Ərnəfəsin gəlişiylə, aydın işdir ki, kişi söhbəti başlandı, xidməti işdən, yol nəqliyyatından, yolları qar basmasından danışdılar. Yedigeyin Ərnəfəslə bir az tanışlığı vardı: o, dəmiryolunda lap çoxdan işləyirdi, indi də yaxından tanış oldular. Ərnəfəs Yedigeydən yaşca böyük idi. Müharibə qurtarandan Ağ-Moynakda rəis idi, həm də hiss olunurdu ki, razyezddə hörmət-izzət sahibidir.

Artıq gecə idi. Eynilə Boranlıda olduğu kimi, burada da qatarlar səs-küylə keçir, şüşələri cingildədir, külək də qapı-pəncərəni döyəcləyirdi. Nə qədər bənzoyişi olsa da bu başqa yer idi, həmin Sarı-Özək dəmiryolunun kənarı olsa da, Yedigey bambaşqa adamların əhatəsində idi. O, burda qonaq idi, azğınlaşmış Qaranəri aparmağa gəlsə də, dəxli yoxdur, onu hörmətlə qarşılamışdılar.

Ərnəfəsin gəlişilə Yedigey özünü daha sərbəst və xoşhal hiss elədi. Qazax torpağının keçmişinə yaxşı bələd idi. Söhbət tezliklə səmtini dəyişib keçmişlərə qayıtdı, məşhur adamlardan, unudulmaz əhvalatlardan söz düşdü. Həmin axşam təzə Ağ-Moynak dostları

[1] Yayıq – qazaxca "Jayıq" (axar-baxarlı, geniş) deməkdir. Əvvəllər qazaxlar Ural çayını belə adlandırırdılar.

Yedigeyin ürəyinə yaman yatmışdılar. Bu dilxoşluğa təkcə şirin söhbət deyil, həm də ev sahiblərinin onu xoşhallıqla qəbul edib, naz-nemətlə, içkiylə qarşılamaları da səbəb olmuşdu. Süfrədə araq da vardı. Soyuq yoldan gəlmiş Yedigey araqdan yarım stəkan vurub alçaq stolun üstündə açılmış süfrədəki şorabalardan ağzına atdı, üstündən də qurudulmuş cavan dəvə əti ilə donqar piyindən hazırlanmış duzlu qaxac-orkaçla məzələndi, arağın istisi canına yayıldı, elə bil ruhuna sığal çəkdilər. İçkidən azacıq təsirlənmiş Boranlı Yedigey cana gəlib gülümsündü. Ərnəfəs də qonağın şərəfinə içməyi özünə rəva bilmişdi, onun da kefi bir qədər yuxarıydı. Buna görə də Kospandan xahiş elədi:

– Kospan, sən Allah, get mənim domburumu gətir.

– Bax, buna varam, – deyə Yedigey təklifi bəyəndiyini bildirdi. – Lap uşaqlıqdan domburda çala bilənlərə həsəd aparmışam.

– Sən deyən elə yaxşı çala bilməsəm də, Yedigey, amma sənin şərəfinə çalışıb bir şey yadıma salaram, – deyə Ərnəfəs pencəyini atıb irəlicədən köynəyinin qollarını çirmələdi.

Çevik dil-dil ötən Kospandan fərqli olaraq, Ərnəfəs daha toxtaq idi. Onun cüssəli bədəni, dolğun iri sifəti, özünə qürrələnən adam təsiri bağışlayırdı. O, donburu əlinə alanda özünü cəmləşdirdi, elə bil bir az gündəlik qayğılardan aralandı. Ərnəfəs domburu kökləyə-kökləyə Yedigeyə uzun bir nəzər saldı. Onun iri, qara gözlərində dənizdə bərq vuran şüalar kimi işıq işartıları göründü. O, simləri dilləndirib uzun və möhkəm barmaqlarını domburun pərdələrində gəzdirəndə, yeni-yeni xallar vuranda Boranlı Yedigey başa düşdü ki, bu musiqini dinləmək ona baha başa gələcək. Heç demə, qonaqlıqda fikri ötəri dağılıbmış, bir az kefi durulubmuş, domburdan çıxan ilk səslər onu yenidən özünə qaytarıb əzablı-ağrılı qəm dəryasına atdı. Bunun səbəbi nə idi görəsən? Belə çıxır ki, bu mahnını qoşanlar Yedigeyin başına nələr gələcəyini, onun alnına nə dərd-ələm, nə qəza-qədər yazıldığını əvvəldən bilirmişlər. Başqa cür olsaydı onlar hardan bilərdilər ki, Ərnəfəsin çalğısında o özünü görüb – özünü eşidəndə nələr çəkəcək? Yedigeyin ruhu sızıldadı və dünyanın bütün qapıları taybatay olub üzünə açıldı – sevinc, kədər, düşüncə, qeyri-müəyyən arzular və şübhə qapıları...

Ərnəfəs domburda doğrudan da ela çalırdı. Keçmiş adamların ürək döyüntüləri simlərdə yenidən cana gəlib ocağa atılan quru odun kimi ürəklərin odunu qızışdırıb daha da alovlandırırdı. O dəqiqələrdə Yedigey pencəyinin döş cibində gizlətdiyi hədiyyə verilmiş şərfi oxşaya-



oxşaya fikirləşirdi ki, dünyada sevdiyi bir qadın var, onun haqqında fikirləşməyin özü də onunçün həm səfadır, həm də cəfa, onsuz yaşamaq mümkün deyil, elə buna görə də nəyin bahasına olur – olsun onu tükənməz, tərəddüdsüz və sonsuz bir məhəbbətlə sevəcək. Elə Ərnəfəsin əlindəki dombur da gah zilə çıxıb, gah da bəmə düşərək bundan danışırdı. Havalar bir-birinə qarışaraq dənizdə dalğaların oynatdığı qayıq kimi Yedigeyin ruhunu yerindən oynadırdı. O, xəyalən yenidən gedib Aral dənizinə çıxdı, suyun sahil boyunca gözə görünməyən axarını xatırladı, axının səmtini ancaq sıx qadın saçları kimi uzanan yosunların sudakı üzmə səmtindən müəyyən eləmək olurdu, çünki onlar axın üzrə həmişə eyni səmtə tərəf meyl edirdilər. Vaxtilə Ukubalanın da saçları dizdən aşağı uzanırdı. Ukubala çiməndə onun da saçları axan o yosunlar kimi eyni səmtə meyl edirdi. O zaman, o, qarabuğdayı güləş bir gözəl idi.

Domburun səsi Boranlı Yedigeyi təsirləndirib lap hayıl-mayıl eləmişdi. Elə təkcə bunun xatirinə qışın günündə Sarı-Özəkdən bir günlük yol gəlməyinə dəyərdi. "Elə yaxşı olub ki, Qaranər gəlib buralara çıxıb, – deyə Yedigey fikirləşdi. – Özü bura gəlməklə, məni də dartıb gətirdi, gəlməyə məcbur elədi. Heç olmasa bir dəfə doyunca dombura qulaq asdım. Əhsən sənə, Ərnəfəs! Sən demə, lap ustasanmış! Heç xəbərim yoxmuş... ".

Ərnəfəsə qulaq asa-asa Yedigey öz fikirlərinə dalmışdı. Çalışırdı öz həyatına kənar gözlə bir nəzər salsın, düzənlikdə yüksəklərə qalxıb, qanadlarını sərərək hava axınında qıy vurub cövlan edərək aşağılarda hər şeyi görə bilən tənha çalağan kimi, o da öz ömür yolunun fövqünə qalxıb oradan hər şeyi görə bilsin. Təsəvvüründə qışın qarına bürünmüş Sarı-Özəyin ucsuz-bucaqsız mənzərəsi canlandı. Orda, dəmiryolunun azacıq haçalanmış yerində bir-birinin böyrünə qısılmış bir neçə ev, beş-altı da işıq işartısı görünürdü – bu Boranlı razyezdi idi. Ukubala öz qızlarıyla bu evlərdən birindəydi. Qızlar yəqin ki, indi yatmış olarlar. Ukubala isə güman ki, oyaqdır. Yəqin fikrə gedib, ola bilməz ki, ürəyinə nəsə dammasın. Zərifə də oğlanlarıyla başqa bir evdədir. Zərifə şəksiz oyaqdır. Dərdi ağırdır, heç deyiləsi deyil. Görəsi günləri hələ qabaqdadır – uşaqlar atalarının başına nə gəldiyini hələ bilmirlər. Gec-tez biləcəklər, cidanı çuvalda gizlətmək olmaz.

Bir anlığa bu qaranlıq gecədə od püskürən qatarların nərilti, fısıltıyla, yolun qarını sovura-sovura necə getdiyini gözünün qabağına

gətirdi – necə də sonsuz və kimsəsiz bir gecəydi. Onun qonağı olduğu və dombura qulaq asdığı yerdən çox da uzaq olmayan insan əli dəyməmiş çöldə qarın, boranın içində ipə-sapa yatmayan Qaranər də oyaq idi. Nə rahatlıq, nə də yuxu eyninə idi. Sən bir təbiətin işinə bax! İl boyu güc yığır, Allahın var günü ələf yığır, güclü çənəsi bir an belə boş durmayıb köşək vurur, mədəsi də elə buna uyğun qurulub. Əvvəlcə ələfi diri-diri ötürür, sonra qaytarıb kövşək vura-vura üyüdür, gecə-gündüz işi budur. Yol gedəndə də, lap yatanda da gövşəyir, deynən neyçin, onunçün ki, donqarlarına güc toplaya bilsin, donqarlar nə qədər iri, tunc kimi bərkdirsə, onun piyi də bərk və cövhərlidir, nər qışda qızanda elə erkəkliyin gücünü-zorunu bundan alır. Belə olanda nə qar, nə soyuq ona əsər eləmir, hətta sahibini də vecinə almır, onda qalmışdı kənar adamlar ola. Belə vaxtda o, coşub-daşan gücünün sərməstliyindən azğınlaşır, fironluq eləyir – yorulmaq bilmir, qorxusu-hürküsü olmur, yeməkdən-içməkdən qalır, ancaq aşıb-daşan ehtirasını söndürməklə məşğul olur. Axı bütün il boyu birco bununçün yaşayıb, bununçün də hər gün, hər saat güc yığıb toplayıb! Bəli, Boranlı Yedigey elə bir vaxtda qonaqlıqda, isti otaqda oturub dombura qulaq asırdı, həmin o vaxtda da bu yerlərin həndəvərində boranlı gecədə, ayın işıq saldığı qarlı çölün düzündə Qaranər yerə-göyə sığmır, seçib bəyəndiyi mayaları qısqanclıqla bütün kənar dünyadan qoruyur, qalın pırtlaşıq qara saqqalını zəhmlə silkələyərək fəryadla nərə çəkəndə quşquşluğuyla qanad salır, qorxudan bu mayalara yaxın gəlmirdi.

Domburun səsindən hissiyyata qapılmış Yedigey bunları da fikirləşirdi...

Musiqi bir anlığa onun fikrini keçmişdən qoparıb bu günə gətirdi və təzədən bir də keçmişə qaytardı. Fikirləşdi ki, onu sabah nə gözləyir. Onda ürəyindən qəribə bir arzu keçdi – ona əziz olan hər şeyi, hər kəsi sinə gərib qadadan-bəladan qorusun, bütün dünya gəlib gözləri qabağında dayandı, qoy heç nə, heç kim, Yer üzündə pislik görüb, neyləyim deməsin.

Yedigey həyatı ilə bağlı olan adamların yanında özünü nəsə bir növ günahkar kimi hiss elədi, bu da ona dəruni bir qəmginlik gətirdi...

– Ehey, Yedigey, – deyə Ərnəfəs fikirli halda gülümsünərək astadan simlərə toxundu.

– Yol səni yorub, deyəsən, dincəlməlisən, mən də dombur dınqıldatmağa vaxt tapmışam.



– Yox, nə danışırsan, Ərnəkə, – deyə Yedigey səmimiyyətlə əllərini sinəsinə qoydu, – əksinə, çoxdandır əhvalım belə yaxşı olmayıb. Əgər özün yorulmayıbsansa, savab iş gör, çal.

– Xətrindən keçəni de, çalım.

– Özün yaxşı bilərsən, Ərnəkə. Ustad özü bilir harda nə çalsın. Əlbəttə, köhnə havalar – daha əziz, daha doğmadır. Bilmirəm nədənsə, ürəyə yatır, fikir-xəyal gətirir.

Ərnəfəs hal əhli kimi başını tərpətdi.

– Bax, bizim bu Kospan da sənin kimidir, – deyə xasiyyəti xilafına susqunlaşmış Kospana baxıb gülümsündü. – Elə ki, dombura qulaq asdı, elə bil kişi əriyir, bambaşqa adam olur. Belədir, ya yox, Kospan? Amma bu gün qonağımız var, qonağı yaddan çıxarma. Qədəhlərə bir əl gəzdir.

– Belə mənim gözüm üstə, – deyə Kospan təzədən dirçəldi, stəkanlara araq süzdü.

Onlar içdilər, məzələndilər. Bir az ara verəndən sonra Ərnəfəs domburu təzədən götürdü, simləri dınqıldadıb kökünü yoxladı.

– İndi ki köhnə havalar ürəyindəndir, – deyə o, Yedigeyə üz tutdu, – onda bir əhvalatı yadına salacağam, Yedigə. Bu əhvalatı qocalarımızın çoxu bilir, elə sən özün də bilirsən. Yeri gəlmişkən deyim ki, sizin Qazanqap çox yaxşı nağıl eləyir, o, nağıl eləyir, amma mən nağıl eləyə-eləyə həm də çalıb-oxuyuram. Mənimki lap teatrdır. Sənin şərəfinə, Yedigə. "Rəhimalı ağanın qardaşı Əbdülxana müraciəti".

Yedigey razı halda başını tərpətdi. Ərnəfəs simlərə toxundu. Yedigeyin çox yaxşı bildiyi bu əhvalatı domburda gözəl bir bərdaşla[1] başladı, Yedigeyin səksəkəli qəlbi yenidən sızladı, çünki bu əhvalatda olanlar xüsusi kədər və anlamla onun ruhunda əks-səda verirdi.

Dombur gurlayır, Ərnəfəsin sinədən gələn qalın nəfəsi də bu səsə calanaraq məşhur jırau[2] Rəhimalı ağanan faciəvi taleyini nağıl eləmək üçün çox gözəl bir ahəng yaradırdı.

Rəhimalı ağa, on doqquz yaşlı xanəndə qız Bəyimaya vurulanda sinni altmışı ötmüşdü, qız bir ulduz olub onun ömür yoluna işıq salmışdı. Əslini axtarsan, qızın özü ona vurulmuşdu. Ancaq Bəyimay sərbəst böyümüş, öz istədiyi kimi yaşayan, ürəyindən keçəni eləyən bir qız idi. Di gəl ki, camaat bunu Rəhimalı ağaya irad tutdu. O

[1] Dəsgaha giriş musiqi.
[2] Jırau – o yerlərin el aşığı

çağdan-bu çağa bu macəranın həm tərəfdarları, həm də əleyhdarları var, laqeyd qalan yoxdur. Bir para adam, Rəhimalı ağanın hərəkətini pisləyib qəbul eləmir, təkid eləyirlər ki, onun adı unudulsun, beziləri də onu başa düşür, halına yanır, bu nakam məhəbbət macərasını dildən-dilə nəsildən-nəslə keçirib yaşadırlar. Rəhimalı dastanı indiyə kimi də yaşayır. Rəhımalı ağanın həmişə söyənləri də olub, tərəfdarları da.

Həmin o gecə Yedigey Abutalıb Kuttubayovun kağızları arasında axtarış aparanda Rəhimalı ağanın qardaşı Əbdülxana müraciətini tapan çalağangöz müstəntiqin necə söyüb özündən çıxdığını xatırladı. Abutalıb isə tamam əksinə, bu barədə çox yüksək fikirdəydi, bu əhvalatı səhra Getesi haqqında poema adlandırmışdı: sən demə almanlarda da cavan bir qıza vurulmuş böyük və müdrik bir qoca varmış. Abutalıb Rəhimalı ağa dastanını Qazanqapın dilindən yazmışdı ki, uşaqlar böyüyüb ərsəyə çatanda oxusunlar. Abutalıb deyirdi ki, bəzən bir adamın şəxsi taleyi, ondan çıxarılan nəticənin qiyməti o qədər yüksək, əhatə dairəsi o qədər geniş olur ki, bir adamın başına gələnləri o dövrdə yaşayan bütün adamlara, hətta ondan çox-çox sonralar dünyaya gələnlərə də şamil edə bilirsən...

Onun qabağında oturan Ərnəfəs domburda ilhamla çalıb-oxuyurdu, halbuki razyezd rəisinin hər şeydən əvvəl əsas vəzifəsi yola baxmaq, dəmiryolunun öz öhdəsinə düşən müəyyən bir sahəsinə cavabdeh olmaqdır, belədirsə, bəs nəyə görə o, uzaq keçmişin bu əzablı əhvalatını – Rəhimalı ağanın sərgüzəştini öz başına gələn əhvalat kimi ürəyində gəzdirib Rəhimalı ağanın özü kimi əzab çəkməlidir?.. Musiqi deyilən şey budur, əsil ustad oxumağı belə olurmuş, – deyə Yedigey fikirləşdi, – o anda desəydilər öl, vallah, ölüb təzədən dirilərdi... Ah, kaş ki, adamın ürəyində həmişə belə bir işıq yanaydı ki, adam aydın və sərbəst şəkildə özü haqda ən yüksək duyğularla düşünə biləydi...

Yedigey yatağa girməmişdən qabaq havasını dəyişsə də, ev sahibləri ona rahat, isti yer düzəldib hər bir evdə qonaq-qara üçün qorunub saxlanılan qatı açılmamış mələfə salsalar da Yedigey təzə yerdə elə o saat yuxuya gedə bilmədi. O, pəncərənin qabağında uzanıb küləyin çərçivə taxtalarını taqqıldadıb titrətməsini, gah bu, gah da o biri səmtə gedən qatarların səsini eşidirdi... O, səhərin açılmasını gözləyirdi ki, azğınlaşmış Qaranərin hovunu alıb mümkün qədər erkən yola çıxsın, Boranlıya tez çata bilsin, çünki Boranlıda hər iki evin uşaqlarının gözləri yolda qalıb, çünki bu uşaqların hamısı ona eyni dərəcədə əzizdir, çünki onun yeganə həyat məqsədi o uşaqların qadadan-bəladan uzaq olmasıdır... Onu da fikirləşirdi ki, Qaranəri nə yolla ram eləsin. Bu da işdir, sən Allah, axı onun bəxti niyə belə bəd gətirir, bir işə bax, dəvənin də ən azğını, quduğanı ona düşüb, baxanda adamı vahimə basır, iş o yerə çatıb ki, vurub gəbərtmək istəyirlər... Axı, heyvanı nə cür başa salasan – yaxşı nədir, pis nədir... Axı o bura havadan gəlib çıxmayıb – təbiət özü onu dartıb gətirib. Qaranərsə nəhəngdir, qüdrətlidir, onun üçün heç bir sədd-sərhəd yoxdur, qorxu nə olduğunu bilmir, yolunun üstünə çıxanı o saat məhv edər... Bəd ayaqda adam başına nə çarə qılsın, odunu-hovunu nə cür alsın? Onu zəncirləyib bütün qışı ağılda saxlamaqdan başqa əlacı yoxdur. Yoxsa öz əməli öz başına bəla olar, Kospan da olmasa bir başqası vurub öldürər, sonra əlim hara çatar... Yuxuya gedəndə Ərnəfəsin oxumağını və çalğısını bir də fikrində dolandırdı, belə adamlara rast gəlib onlarla keçirdiyi gecə üçün çox xoşhal oldu. Nə vaxtlarsa nakam məhəbbətə mübtəla olmuş haqq aşığı Rəhimalı ağanın əzabı-möhnəti domburun səsində yenidən canlanıb onun qəlbində yer eləmişdi. Onların arasında heç bir ümumi cəhət olmasa da, Yedigey bu əhvalatda öz ağrılarına uzaq bir həmahənglik duyurdu. Rəhimalı ağanın keçmişlərdə keçirdiyi üzüntülər indi Sarı-Özək çöllüyündə yaşayan Boranlı Yedigeyin qəlbində əks-səda tapırdı. Yedigey dərindən köksünü ötürdü, yerində qurcalandı, daxilindəki qeyri-müəyyənlikdən bir nəticə hasil eləyə bilmədikcə onu qüssə, kədər bürüyürdü. İndi nə eləsin, başına nə çarə qılsın? Zərifəyə nə desin, Ukubalaya nə cavab versin? Hey hərlənib-dolanıb özünü bir yolayrıcına çıxara bilmirdi, yuxuya gedəndə birdən gördü ki, Aral dənizindədir... İlahi, gör nə qədər küləkliydi – dözüm çatmır, baş hərlənirdi... Uşaqlıq vaxtlarında olduğu kimi yenə də özünü qağayı kimi sərbəst hiss eləmək, burulğanlar, köpüklü dalğalar üzərində qanad gərib cövlan etmək arzusuyla dənizə baş vurdu, bütün varlığı sevinc, fərəh içindəydi. Bir də qızıl məkrəni dənizə buraxmağı yuxusuna girdi. Məkrə ağır, həm də oynaq idi, onu dənizə aparan vaxt, balığın canlı gövdəsini duyur, doğma mühitinə necə can atdığını hiss eləyirdi. O, ləpədöyəndə yeriyəndə elə bil ki, dəniz onu qarşılamaq üçün qabağa gəlirdi, o da üzü küləyə gülürdü, sonra da əllərini boşaltdı, qızıl məkrə havanın tünd göylüyündə canlı qövs-qüzeh kimi bərq vuraraq axa-axa sürüşüb suya düşdü... Musiqi də hardasa öz davamındaydı... Kimsə ağlayır, öz taleyindən şikayətlənirdi...

Həmin gecə çöldə şaxtalı, sərt külək cövlan eləyirdi. Şaxta getdikcə güclənirdi. Boranlı Qaranərin seçib bəyəndiyi və qoruduğu dörd baş maya özlərinin arxac yeri, kiçik təpənin daldeyində sakitcə dayanmışdı. Küləyin sovurduğu qardan qorunmaq üçün qısılaraq başlarını bir-birinin boynuna qoyub isinmək istəyirdilər, amma onların qıllı hökmdarı yazıqlara rahatlıq vermirdi. Qaranər hey vurnuxur, onların başına dolanıb nərə çəkir, mayaları kiməsə, nəyəsə qısqanırdı, kim bilir, bəlkə də yuxarıda dumanlar arasından sıyrılıb işıq saçan ayın özünə qısqanırdı.

Qaranər özünə yer tapa bilmirdi. Boranlı dumanlı qarı tapdaya-tapdaya vurnuxurdu. Bu qoşadonqar, uzunboyun, kilkəbaş, nərə çəkən qara heyvanda nə qədər güc olarmış! O, elə indinin özündə də sevgi yolunda zəhmətə qatlaşırdı, mayalardan gah birini, gah da o birini dəhməzləyib baldırından, budundan dişləyərək təkləməyə çalışırdı. Amma Qaranər bu yerdə lap ağ eləmişdi. Mayalar gündüz ona yaxınlaşmaq üçün özləri həvəs göstərirdilər, indi isə gecə vaxtı rahatlanmaq istəyirdilər. Buna görə də mayalar cavabında narazılıqla çəmkirir, onun yersiz hərəkətlərinə cavab qaytarır, "əl" vermirdilər. Gecə dinclik istəyirdilər.

Sübhə yaxın Boranlı Qaranərdə bir qədər rahatlanıb, sakitlik tapdı. O, mayaların yanında durub hərdənbir nərildəyir, elə bil yuxudan diksinib vəhşi nərələrlə ətrafa göz yetirirdi. Mayalar da rahatlanıb qarın üstünə yatdılar, dördü də böyür-böyürə verib boynu uzana, başı aşağı sakitləşdilər, gözlərinə yüngülvarı çimir gəldi. Yuxularında balaca-balaca köşək gördülər, bir də hardansa gəlib buralara çıxan o biri nərləri döyüşlərdə yenib onları elə keçirən bu Qaranərin gücündən yaranmalı olan köşəkləri də gördülər. Hətta yuxularında yovşan ətirli yay günlərini də gördülər, balaların əmcəklərə zərif-zərif toxunmalarını da hiss etdilər və bunun təsirindən yelinlərində bir süd həsrəti duydular... Boranlı Qaranər isə necə vardı eləcə də keşikdə durmuşdu. Külək də onu pırtlaşıq qıllarına dolaşıb səslənirdi...

Bu vaxt əbədi küləklərin yuyub sığal verdiyi Yer kürəsi öz dövrünü vururdu. Günəşin ətrafında dövr eləyə-eləyə öz oxu ətrafında da fırlanırdı, nəhayət, Sarı-Özək olan böyrünü günə verdi, bu yerlərdə sabah açıldı, Boranlı Qaranər də birdən gördü ki, iki nəfər, maya dəvənin üstündə ona tərəf gəlir. Onlardan biri Yedigey, o biri də Kospandı. Kospan özüylə tüfəng də götürmüşdü.



Boranlı Qaranəri hirs götürdü, əsdi-coşdu, qəzəbi kükrəyib qaynadı, nərə çəkdi – bunlar nə cəsarətlə bu səmtə ayaq basıblar, necə cürət eləyib onun mayalarına yaxınlaşıblar, nə hünərlə onun işinə maneçilik eləmək istəyirlər? Qaranər uzunboyun başını dik tutub qəzəblə, kinli-küdurətli bir nərə çəkib dişlərini ağartdı, əjdaha kimi ağzını ayırıb iti dişlərini bir-birinə vurub şaqqıldatdı. Şaxtalı havada onun ağzından tüstü kimi buxar çıxır, elə o dəqiqə də qara yalına yatıb ağ naxışlarla qırovlanırdı. Bu müdaxilə Qaranərə bərk əsər eləmişdi, buna görə də həyəcandan pəşə eləməyə başladı.

Yedigey dəvədən yerə tullandı, kürkünü qarın üstünə atıb yüngülləşdi – pambıqlı gödəkcədə qalıb dəstəyə dolanmış şallaqlı qamçını açmağa başladı.

– Özünü gözlə, Yedigə, bir şey olsa, onun işini bitirəcəm, – deyə Kospan tüfəngi hazırladı.

– Yox, elə şey eləmə. Mən sarıdan narahat olma. Sahibi mənəm, özüm də cavabdehəm. Bərk ayaqda öz hayına qal. İşdi sənin üstünə cumsa, onda işini gör.

– Yaxşı, – deyə Kospan razılaşdı, mayanın da belindən yerə düşmədi.

Yedigey kəskin hərəkətlə qamçının şallağını havada oynadıb, şappıldadaraq öz Qaranərinin üstünə yeridi. Onun üstünə adam gəldiyini görən Qaranər daha qəzəblə əsib-coşdu, nərildəyə-nərildəyə, ağzının seliyini axıda-axıda ona tərəf yortdu. Mayalar da ona baxıb arxaclarından qalxdılar, narahat halda yorta-yorta dövrə vurmağa başladılar.

Yedigey adətən bu şallaqla yolları qar basanda vəl qoşulmuş dəvələri qovardı, o indi şallağı şappıldadıb, qarı basa-basa hələ uzaqdan Qaranəri səslədi, ümidi də bu idi ki, bəlkə onu səsindən tanıdı:

– Ehey, Qaranər! Axmaqlıq eləmə! Deyirəm axmaqlama! Mənəm! Korsan, məni görmürsən? Səsimi eşitmirsən, deyirəm ki, mənəm!

Amma Qaranər onun səsinə məhəl qoymadı, pırtlaşıq tüklərinin arasından dəvənin quduzlaşmış gözlərini görəndə Yedigeyi vahimə basdı, elə bil belindəki donqarları əsdirə-əsdirə onun üstünə yerindən oynamış qara bir dağ gəlirdi. İşi belə görəndə qulaqlı papağını başına bərk basıb şallığı işə salmalı oldu. Qətranlanmış ağır göndən hörülmüş şallağın yeddi metr uzunluğu vardı. Dəvə nərə çəkib Yedigeyin üstünə cumurdu ki, onu dişinə keçirsin, ya da yerə sərələyib tapdağının altına salsın, Yedigey isə onu var gücü ilə şallaqlayıb yandırıb-yaxır yaxına

qoymurdu, qamçını yığanda geri çəkilir, təzədən qışqıra-qışqıra onun üstünə cumurdu ki, bəlkə özünə gəlib onu tanıdı. Onlar bu cür kəllə-kəlləyə gəlib, güzəştə getmək istəmirdilər, hərəsi də özünə görə haqlıydı. Yedigey Qaranərin öz istəyi yolunda dönməzliyini, onun ipə-sapa yatmaq meylində olmadığını görəndə sarsıldı, amma başqa əlacı da yox idi. O, təkcə ondan ehtiyat edirdi ki, qəflətən Qaranərin gözünü vurub tökməsin, yerdə qalanların eybi yoxdu. Yedigeyin yenilməzliyi, nəhayət ki, heyvanın inadına üstün gəldi. Qamçıyla üz-gözünü yandıra-yandıra, qışqıra-qışqıra dəvənin üstünə yeridi, sonra da onun üst dodağını elə keçirdi, elə dırnaqla yapışmışdı ki, sanki bu dəqiqə üzüb qoparacaqdı, elə burdaca fürsət tapıb əvvəlcədən hazırladığı kəndirlə onu buruntaqladı. Qaranər buruntağın ona verdiyi dözülməz əzabdan iniltiylə mələdi, onun hədəqələnmiş, qırpıqsız, qorxudan və ağrıdan sönükmüş gözlərində güzgüdə olan kimi Yedigey öz əksini görəndə öz görkəmindən vahiməyə düşüb bir an geri atılmaq istədi. Bir anlığa ürəyindən keçirdi ki, hər şeyi atıb getsin, axı nəyə görə heç bir günahı olmayan bu heyvana bu cür əzab verməliydi, elə həmin dəqiqə də fikrini dəyişdi: onu Boranlıda gözləyirdilər, Qarənərsiz qayıda bilməzdi, yoxsa onu Ağ-Moynaklı qonşuları vurub gəbərdəcəklər. Buna görə də öz istəyinin əksinə getdi. Hökmlə, hikkəylə qışqırıb dəvəyə qara-qorxu gəldi, sonra da onu yerə yatmağa məcbur elədi. Qaranər hələ də müqavimət göstərir, inildəyir, nərildəyir, od yağan ağzından isti, nəmli nəfəsini Yedigeyin üzünə vursa da, sahibi dönmək bilmirdi.

– Kospan, o alığı bəri tulla, o mayaları da qov təpənin dalına, bu görməsin! – deyə Yedigey Kospana qışqırdı.

Kospan elə o dəqiqə mayanın belindəki alığı ona tulladı, özü də Qaranərin sürüsünü qovmağa yönəldi. O vaxtacan hər şey tamam oldu. Yedigey alığı tez Qaranərin belinə qoydu, Kospan da qaçıb qarın üstünə tullanmış kürkü Yedigeyə gətirdi. O, kürkü tələsik geyinib ləngimədən, alıqlanmış, hovu alınmış Qaranərin belinə qalxdı.

Qəzəblənmiş dəvə hələ də ayrıldığı mayaların yanına qayıtmağa cəhd edirdi, hətta başını yana atıb sahibini qapmağa çalışırdı. Amma Yedigey də işini bilən adamdı. Qaranərin nəriltisinə, iniltisinə, qəzəbli fəryadına, əsbiliklə ulamasına məhəl qoymadan onu qarlı düzdə inadla qovur, ağlını başına gətirməyə çalışırdı.

– Hə, çər dəymiş! Di bəsdir! – Deyə ona acıqlanırdı, – Sus daha! Onsuz da geri qayıdan döyülsən. Malbaşsan, malbaş! Elə bilirsən sənə



yazığım gəlmir? Mən olmasaydım səni ziyankar, qudurğan bir vəhşi kimi gülləylə vurmuşdular. Nə deyə bilərdim axı? Lap düz deyirlər, qudurmusan, özü də nə cür! Qudurmusan, üstəlik sarsaqlamısan! Belə olmasaydı, daha bura niyə gəlib çıxırdın, öz mayaların bəs eləmirdi? Yadında saxla, evə çatdıq, – sənin daha özgə dəvə sürülərində şuluqluq eləməyin qurtardı! Səni zəncirləyəcəm, indi ki, belə nanəcib çıxdın, addım atmağa qoymayacağam!

Yedigey onu hədələməklə, hər şeydən əvvəl, özünü öz gözündə doğrultmaq istəyirdi. Qaranəri Ağ-Moynak mayalarının yanından zor gücünə aparırdı. Bu da əslində insafdan deyildi. Sakit heyvan olsaydı nə vardı ki! Bax elə bununçün də mindiyi mayanı Kospanın yanında qoymağa məcbur oldu. Kospan söz verdi ki, imkan düşən kimi mayanı Boranlıya gətirəcək, – vəssalam, nə ağrısı var, nə itkisi. Amma bu çər dəymişin hər addımı başa bəladır, bəla.

Boranlı Qaranər təzədən alıq altında düşüb, sahibinə ram olduğuna görə bir az sakitləşib susmağa məcbur oldu. İndi daha arabir nərildəyir, yerişini düzəldib addımlarını yeyrəkləşdirirdi, tezliklə lap yüksək sürət götürdü – löhrəm yerişə keçib, həmişəki kimi iti addımlarla Sarı-Özək yolunu qayçılayırdı. Yedigey də rahatlıq tapdı, donqarların arasındakı çökəkdə yerini rahatladı, külək vurmasın deyə boyun-başını əməlli bürüb-bükdü, qulaqlısının qulaqlarını yaxşıca bağladı, səbirsizliklə Boranlı deyilən yerə çatmağını gözlədi.

Ancaq hələ evlərinə xeyli yol vardı. Bəxtindən hava da babat idi. Bir az küləkli, azacıq da buludluydu. Bu tezliklə boran – zad ola bilməzdi, əlbəttə, gecəyə qalsaydı, hər şey ola bilərdi. Boranlı Yedigey Qaranəri tutub cilovunu yığa bildiyi üçün razı qayıdırdı. Bu məmnunluq həm də dünən gecə Kospangildəki dombur çalğısı və Ərnəfəsin oxumağıyla bağlıydı.

Yedigey qeyri-ixtiyari olaraq yenidən öz uğursuz ömrünün fikirlərinə qərq oldu. Sən bir müsibətə bax! İndi nə cür eləsin ki, nə şiş yansın, nə də kabab, onu üzən ağrılar da gizli qalmasın, hər şeyi açıq-aşkar desin – yəni məsələ belədir. Zərifə, mən səni sevirəm. Əgər Abutalıbın uşaqları atalarının familiylə bir yana çıxa bilməzlərsə, əgər Zərifə razıdırsa, gözlərim üstə, qoy uşaqları Yedigeyin famlinə keçirsin. Əgər onun famili Daula və Ermekə yarayarsa buna ancaq şad olar. Qoy onlar üçün dünyada heç bir sədd-sərhəd, sıxıntı olmasın. Qoy həyatda öz gücləri, bacarıqlarıyla gün-dirrik qazansınlar. Məgər belə

şey üçün ailə heyfsilənmək olar? Bəli, yolda Boranlı Yedigeyin ürəyindən belə fikirlər də keçmişdi.

Artıq gün əyilmişdi. Yorulmaq nə olduğunu bilməyən Qaranər inad eləsə də, nə qədər qəzəblənsə də öz sahibini ləngitmirdi. Budur, qabaqda Boranlının dərələri görünməyə başladı, bu da tanış çala – çuxurlar, bu da böyük təpəlik, qabaqdakı dəmiryolun haçasının yanında da məskən salmış Boranlı. Bacalardan çıxan tüstü burula-burula qalxırdı. Görəsən, onun doğma ailələri necədir. Onlardan cəmi-cümlətanı bircə günlüyə ayrılsa da elə nigarandır ki, elə bil bir ildir üzlərini görmür. Onlar üçün möhkəmcə darıxıb – xüsusilə uşaqlar üçün burnunun ucu göynəyirdi. Qabaqdakı şənliyi görən Qaranər addımlarını daha da yeyinlətdi. Tərləmişdi, şövqlə gedirdi, ağzından qatı buxar buraxır, addımlarını geniş atırdı. Yedigey evlərinə çatana kimi razyezddə iki qatar rastlaşıb ayrıldı. Onlardan biri qərbə, o birisi şərqə getdi...

Yedigey evinin arxasında dayandı ki, elə o dəqiqə də Qaranəri ağıla salıb bağlasın. Tələsirdi. Tez yerə basdırılmış dirəyə bərkidilən yoğun zənciri götürüb dəvənin qabaq ayağına buxovladı. Bununla da ondan əl çəkdi: "Qoy hələ soyusun, alığını sonra götürərəm". Nədənsə çox tələsirdi. Keyimiş kürəyini və qıçlarını düzəldib, ağıldan çıxanda böyük qızı Saulə qaçaraq gəldi. Kürkü maneçilik eləsə də, Yedigey onu qucaqlayıb öpdü.

– Donarsan, ay qız, – dedi. Qız yüngül paltarda idi. – Qaç evə, indi gəlirəm.

– Ata, – deyə Saulə atasına sığındı, – Daulnan, Ermek getdilər.

– Hara getdilər?

– Həmişəlik getdilər. Analarıyla. Qatara minib getdilər.

– Getdilər? Nə vaxt getdilər? – Hələ də söhbətin nədən getdiyindən heç nə qanmayan Yedigey qızının gözlərinə baxıb təzədən soruşdu.

– Hə, elə bu gün səhər.

– Belə de! – Yedigey cavab verəndə səsi titrədi. – Di yaxşı, sən qaç evə, – deyə qızı buraxdı. – Gəlirəm, gəlirəm. Sən get evə...

Saulə tini burulub getdi. Yedigey isə tələsik, ağılın qapısını bağlamadan, sırıqlısının üstündən kürkü necə geymişdisə elə o cür Zərifəgilin baraklarına yollandı. Gedirdi, amma eşitdiyinə inanmırdı. Uşaq yəqin nəyisə səhv salıb. Belə şey gərək olmasın. Ancaq evin artırmasında çoxlu ayaq izləri vardı. Yedigey qapının əl yerini hirslə çəkib içəri girəndə, artıq çoxdan soyuyub buza dönmüş küncdə-bucaqda



lazımsız tullantılar atılıb qalmış boş otağı gördü. Nə uşaqlar vardı, nə də Zərifə!

– Belə də şey olar? – deyə Yedigey pıçıldayıb, hələ də baş vermiş hadisəni anlayıb barışmaq istəmədi. Otağın boş qaldığı açıq-aşkar bilinsə də Yedigey kədərli bir təəccüblə dilləndi. – Deməli, gediblər?

Onun halı pisləşdi, elə pisləşdi ki, ömründə belə hala düşməmişdi. O, əynində kürk, otağın ortasında soyuq sobanın yanında durub, bu əvəzsiz itkinin, ona qarşı olan haqsızlığın müqabilində içində qalan hönkürtünün, hayqırtının əlində aciz qalıb, nə edəcəyini, bundan sonra necə yaşayacağını bilmirdi. Pəncərənin qırağında Ermekin yadından çıxarıb qoyduğu fal daşları tökülüb qalmışdı, bu həmin o qırx bir daş idi ki, onlar çoxdan dünyadan köçmüş atalarının nə vaxt qayıdacağını bilmək üçün fal açmaq öyrənmişdilər, məhəbbət və ümid daşlarıydı bu daşlar. Yedigey bu daşları xışmalayıb ovcunda sıxdı – vəssalam, onlardan qalan bircə bu daşlardır. Daha özü ilə bacara bilmədi, çevrilib od tutub yanan üzünü divarın soyuq taxtasına söykədi, boğuq, ümidsiz bir hönkürtüylə ağladı. O ağladıqca ovcundakı daşlar bir-bir döşəməyə tökülürdü. Yedigey daşları ovcunda sıxıb saxlamağa çalışırdı, ancaq qıc olan barmaqları sözünə baxmır, daşlar bir-birinin ardınca sürüşüb küt bir taqqıltıyla yerə düşür, hərəsi də kimsəsiz qalmış evin bir küncünə diyirlənirdi...

Sonra da o, divara sürtünə-sürtünə, ağır-ağır çömbəlib, arxasını divara söykədi, elə beləcə də, kürkün içində, papağının qulaqları bağlı halda, acı-acı ağlayıb içini çəkdi. Zərifənin dünən bağışladığı şərfi cibindən çıxardıb gözlərinin yaşını sildi...

Yedigey kimsəsiz qalmış barakda beləcə tək oturub baş vermiş hadisəni anlamağa çalışırdı. Belə çıxırdı ki, Zərifə uşaqlarını da götürüb qəsdən, onun burda olmadığı vaxt çıxıb gedib. Deməli, o özü belə istəyib, ya qorxub ki, birdən Yedigey onları buraxmaz. Elə doğrudan da Yedigey onları heç vəchlə, nəyin bahasına olur olsun qoymazdı getməyə. Bu nə ilə nəticələnsə də, burda olsaydı qoymazdı getsinlər. İndi isə daha gecdir, nə faydası var oturub içini yesin ki, getməsəydi işlər necə ola bilərdi. Onlar daha yoxdu. Zərifə yox idi! Uşaqlar da yox idi! Yedigey onlardan heç ayrılardımı? Bunu Zərifə başa düşüb ki, Yedigey burda olmayanda çıxıb getməlidir. Öz işini yüngülləşdirib, amma onun haqqında fikirləşməyib ki, o gəlib barakı boş görəndə nə hala düşəcək.

Axı bir adam razyezddə onlar üçün qatar saxlamalı idi! Kim ola bilər? Məlum şeydir ki, Qazanqap, daha kim olacaq? Əlbəttə ki, Qazanqap Stalinin ölüm günündə Yedigeyin elodiyi kimi stop-kranı çəkib qırmayıb. Danışıb, razyezdin rəisindən xahiş eləyib ki, yolüstü minik qatarlarından birini dayandırsın. Tipin biridir. Bu qazanda Ukubalanın da çömçəsi olmamış olmaz, çalışıb onları burdan mümkün qədər tez rədd eləyib yola salsın! İndi dayanın bir! Başına vurmuş qara, küt intiqam hissi coşur, beynini qıjıldadırdı, – bu saat istərdi ki, bütün gücünü toplayıb, Allahın lənətinə gəlmiş bu Boranlı deyilən razyezddə nə varsa, hamısını vurub dağıtsın, elə dağıtsın ki, heç çöpü çöp üstündə qalmasın, sonra da Qaranərə minib Sarı-Özək çöllərinə üz tutsun, orda da aclıqdan, soyuqdan ölüb getsin. O heysiz, halsız və sarsılmış vəziyyətdə boş barakda oturmuşdu. Təkcə küt bir ümidsizlik, çarəsizlik qalmışdı: "Hara getdi, niyə getdi? Hara getdi axı, niyə getdi?".

Axır evinə gəldi. Ukubala dinməzcə onun kürkünü, papağını, keçə çəkmələrini alıb evin küncünə qoydu. Boranlı Yedigeyin donub daşa dönmüş, bozarmış sifətindən nə fikirləşdiyini, nə eləmək qəsdində olduğunu bilmək mümkün deyildi. Gözləri də elə bil işıqdan düşmüşdü. Bu gözlərdən nə isə oxumaq mümkün deyildi, amma bircə o sezilirdi ki, o ilahi bir güclə özünü ələ almaq, sakit saxlamaq istəyir... Ukubala bayaqdan neçə dəfə samovara od salmışdı, ərini gözləyirdi. Samovar qaynayırdı, içindəki kömür hələ də közərirdi.

Çay qaynardır – deyə arvadı sükutu pozdu. – Od kimidi.

Yedigey dinməzcə ona ani nəzər salıb qaynar çayı qurtumlayırdı. O, çayın qaynarlığını duymurdu. Hər ikisi gərginlik içində sözün açılmasını gözləyirdi.

– Zərifə uşaqlarını da götürüb köçdü, – deyə nəhayət Ukubala dilləndi.

– Bilirəm. – deyə Yedigey başını piyalədən qaldırmadı. Bir qədər sükutdan sonra yenə də başını piyalədən qaldırmadan soruşdu: – Hara köçdülər?

– Bizə bir söz demədi. – deyə Ukubala cavab verdi.

Elə bununla da qurtardılar, Yedigey qaynar çayla dil-dodağını pöşləsə də bunun fərqinə varmadan bircə şeyin dərdini çəkirdi: təki özündən çıxıb partlamasın, bircə bu ev-eşikdə nə varsa vurub darmadağın eləyib uşaqları qorxuya salmasın, bircə xəta çıxartmasın...



Çayını içib qurtarandan sonra yenə də doqqaza çıxmaq istədi. Keçə çəkmələrini, kürkünü və papağını təzədən geyindi.

– Hara? – deyə arvadı soruşdu:

– Heyvana bir baş çəkim, – deyib qapıdan çıxdı.

Qısa qış günü tamam olub başa çatmışdı. Hava gözgörəti qaralıb qatılaşırdı. Soyuq da getdikcə sərtləşir, yersüpürən külək baş qaldırır, yerdə nə vardısa dalğa-dalğa silib-süpürüb aparırdı! Yedigey tutqun halda ağıla tərəf getdi. Ağıla girəndə nəriltiylə zənciri kökündən qoparmağa çalışan Qaranərə əsəbiliklə göz ağardıb qışqırdı:

– Sən hələ də anqırırsan! Hələ də dincələ bilmirsən! Yaxşı, əclaf, indi sənnən danışaram! Söhbətimiz lap qısa olacaq! İndi dünya eynimə deyil!

Yedigey Qaranərin böyrünə bərk bir dürtmə vurdu, ağzından çıxan söyüşləri yağdıra-yağdıra onun belindən alığı götürüb kənara vızıldatdı, ayağından zənciri açdı. Sonra da cilovundan yapışdı, o biri əlində də dəstəyə sarınmış qamçı vardı. Qüssə ilə zarıyan nərin noxtasından tutub çöllüyə çəkdi. Yedigey bir neçə dəfə geriyə dönüb Boranlı Qaranərin noxtasını darta-darta onun üstünə qıcandı ki, zəhlətökən zarıltısına son qoysun, amma ona təsir eləmədiyini görüb tüpürdü, daha ona fikir vermədi. Yedigey dəvənin iniltisinə səbirlə dözüb axşamın qaranlığında yavaş-yavaş şəklini itirən çöllükdə qarı basa-basa yersüpürən küləyə qarşı tutqun, bikef halda gedirdi. Nəfəsi təngisə də dayanmadan gedirdi. Başını aşağı salıb belə fikirli-fikirli çox getdi. Razyezddən əməlli-başlı uzaqlaşmışdı, təpəliyin yanında Qaranəri saxlayıb ona qəddarcasına divan tutdu. Kürkünü çıxarıb qarın üstünə tulladı, tələsik noxtanın ucunu sırıqlısının üstündən toqqasına düyünlədi ki, dəvə əlindən qopub qaça bilməsin, həm də əlləri boş olsun, hər iki əliylə tutduğu qamçını şaqqıldadıb bütün hirs və ağrısını Qaranərin üstünə tökərək onu amansızcasına döyməyə başladı. Qaranərə zərbəni zərbə ardınca endirir, qızğınlıqla, amansızlıqla döyür, xırıltılı səslə söyüşlər yağdırır, onu lənətləyirdi:

– Al gəldi! Al! Əclaf heyvan! Təqsirin hamısı səndədir! Sənə görə! Bütün günah səndədir! İndi ipini buraxacam, rədd ol, hara gedirsən get! Amma əvvəlcə səni zəlil eləyəcəyəm! Al gəldi! Al! Acgöz çərdəymiş! Sənin gözün doyan deyil, gözün elə orda-burda, yad yerlərdədir. Elə sənin dalınca gedəndə o, uşaqları götürüb gedib! Sizin nə vecinizədir ki, mən nə çəkirəm! İndi mən bu yer üzündə nə cür

yaşayım? Onsuz mən neyləyim? İndi ki, sizin vecinizə deyil, elə mənim də vecimə gəlmir! Al, itin belindən gələn!

Qaranər anqırır, dartınır, zərbələrdən yayına bilmirdi, qorxu və ağrıdan dəli kimi sahibini yıxdı, qarın üstündə sürüyə-sürüyə qaçmağa üz qoydu. O, öz sahibini dəli bir inadla, görünməmiş bir güclə, adi odun parçası kimi sürüyürdü ki, təki ondan can qurtara bilsin, sərbəstliyə çıxsın, o yerdən ki, onu zorla gətirmişdilər, təzədən ora qayıtsın.

Qaranər onu sürüdükcə Yedigey qar içində çapalayır, ağız-burnuna qar dola-dola çığırırdı:

– Dur! Dayan deyirəm, dur!

Papağı başından düşdü, üz-gözü qar yığınlarına dəydikcə yandırır, soyuq qar başına, qarnına çırpılır, boyun-boğazına dolurdu, qamçısı əlinə dolaşmışdı, Qaranəri heç cür saxlamaq mümkün deyildi ki, kəmərinə keçirdiyi noxtanı aça bilsin. Qaranər isə onu vahimə, qorxu içində sürüyür, xilasını ancaq qaçmaqda görürdü. Kim bilir, əgər Yedigey görünməmiş bir möcüzə gücünə toqqasını boşaldıb noxtanı aça bilməsəydi, başına nələr gələcəkdi, bəlkə də elə bu qarın içində nəfəsi kəsiləcəkdi. O, noxtanın ipini ələ keçirib son gücünü toplayıb dartanda dəvə onu bir neçə metr sürüyüb dayandı.

– Ax səni! – Deyə Yedigey təngnəfəs olub büdrəsə də özünü ələ aldı. Demək belə odu hə?.. Al, əclafın biri əclaf! Rədd ol gözümdən, cəhənnəm ol, lənətə gəlmiş, bir də gözüm səni görməsin! İtil cəhənnəmə! Rədd ol, harda istəyirsən gəbər! Qoy səni qudurğan it kimi güllə ilə vurub gəbərtsinlər! Bütün günahlar səndədir! Get, gəbər çöllərdə... Bir də sənin adını eşidib, üzünü görməyim!

Qaranər nərilti qoparıb Ağ-Moynak tərəfə qaçırdı. Yedigey yüyürüb ona çatır, şallaqla vurub yandırır-yaxır, ondan üz döndərərək dünyada nə söyüş vardısa, üstünə yağdırıb yola salırdı. Ayrılıq və hesablaşmaq məqamı çatmışdı. Buna görə də Yedigey uzun müddət onun qarasınca qışqırdı:

– İtil, cəhənnəm ol, heyvan! Yeri, yeri! Gəbər, acgöz, çərləmiş! Görüm səni gülləyə tuş olasan!

Qaranər qaranlıq çöllükdə qaçıb uzaqlaşdı, tezliklə Boranlı dumanlıqda görünməz oldu, ancaq hərdənbir onun kəskin nəriltisi eşidilirdi. Yedigey təsəvvürünə gətirdi ki, o bütün gecəni qar-boran bilmədən, dayanıb-durmadan, Ağ-Moynak mayalarının yanına qaçacaq.



– Tfu! – Yedigey tüpürüb geri döndü və bayaq sürünəndə bədəniylə kotan yeri kimi açdığı şırımla yeridi. Papaqsız, kürksüz, üzünün dərisi, əlləri od tutub yana-yana qaranlıqda qamçını sürüyə-sürüyə gedirdi. Birdən özündə sonsuz bir boşluq və heysizlik duydu. O, dizi üstə qarın üstünə çöküb əlləriylə bərk-bərk başını tutub ikiqat bükülərək küt bir ümidsizliklə hönkürməyə başladı. Sarı-Özəyin ortasında, tək-tənha dizi üstü düşmüş halda birdən küləyin çöllükdəki hərəkətini duydu, onun uğultuyla qaldırdığı qasırğanın yerdə nə varsa silib-süpürdüyünü gördü və yuxarıdan ələnən qarın səsini eşitdi. Hər bir qar dənəsi, milyon-milyon qar dənələriylə birgə havaya sürtülməkdən xəzin xışıltı salıb, sanki ona deyirdilər ki, bu ayrılığın dərdinə dözə bilməzsən, sevdiyin qadını itirəndən sonra yaşamağın mənası yoxdur, o uşaqlara ki, sən o cür bağlanmışdın, hər ata öz doğma övladını o cür istəyə bilməz. O elə burdaca ölüb qurtarmaq istəyirdi ki, üstünü qar basıb-basdırsın.

– Yoxdur Allah! Heç onun da həyatdan qandığı bir şey yoxdur! Onda, daha başqalarından nə umasan? Yoxdur Allah, ola bilməz! – deyə Sarı-Özəyin kimsəsiz gecəsinin tənhalığında öz-özünə inamsızlıqla söyləndi. Buna qədər o belə sözləri heç dilinə gətirməzdi. Hətta, Yelizarov özü də dəqiqəbaşı Allahın adını çəkəndə və eyni zamanda deyəndə ki, elmi nöqteyi-nəzərdən Allah yoxdur, o belə-belə sözlərə inanmırdı. Amma indi inandı...

Əbədi küləklərin yuyub sığal verdiyi Yer kürəsi yenə öz dövrünü vururdu. Öz oxu ətrafında fırlana-fırlana Günəşin də ətrafında dövrə vurur, qar basmış kimsəsiz çöllərin düzündə diz çökmüş bir adamı da özü ilə aparırdı. Dövlətini və hökmranlığını itirmiş heç bir kral, heç bir imperator, heç bir hakim bu dərəcədə ümidsizliyə qapılıb, bu gen dünya qarşısında belə diz çökməzdi ki, Yedigey sevdiyi qadından ayrı düşdüyü üçün belə ümidsizliyə qapılıb diz çökmüşdü... Yer öz dövründə idi...

Bu əhvalatdan üç gün keçmiş, Qazanqap Yedigeyi yol təmiri üçün şpal mıxı və rels yataqlığı saxlanan anbarın yanında əylədi.

– Bura bax, Yedigey, xeyir ola, adama-zada yovuşmursan, – deyə məftilə keçirilmiş dəmir topasını xərəyə qoyanda, sözarası, saymazyana soruşdu. – Məndən niyə qaçırsan, yan gedirsən, söz də demək olmur.

– Danışmağa başlasaq, səni gərək yerindəcə boğum öldürəm. Bunu özün də yaxşı bilirsən!

– Orası elədir, bilirəm ki, məni boğub öldürməyə hazırsan, bəlkə məndən başqa birini də... Amma bircə bunu başa düşmürəm ki, nəyə görə belə hirslənirsən?

– Onu burdan köçməyə siz məcbur elədiniz! – Yedigey ona əzab verən, bu günlər ərzində onun rahatlığını əlindən alan dərdini Qazanqapın gözünün içinə dedi.

– Bilirsən nə var, – deyə Qazanqap başını buladı. Sifəti həyadanmı, ya hirsindənmi qıpqırmızı qızardı. – Əgər ağlına belə şeylər gəlirsə, deməli, təkcə biz barədə yox, elə onun barəsində də pis fikirdəsən. Sən gərək şükür eyləyəsən ki, o qadında dərya ağıl varmış, sənin tayın deyilmiş. Bəs fikirləşmirsən ki, bunun axırı nə olacaqdı? Yox? Amma o fikirləşib və qət eləyib ki, nə qədər gec deyil, getmək lazımdır. Gəlib məndən təvəqqe elədi, mən də kömək elədim. Daha ondan soruşmadım ki, uşaqları götürüb hara köçürsən, özü də üstünü vurmadı, qoy bunu bircə özü bilsin. Anladın? Köçüb getdi, amma bir kəlmə də artıq-əskik sözlə nə özünü əydi, nə də sənin arvadının ürəyinə toxundu. Adam kimi halallaşıb ayrıldılar. Sən gərək onların ikisinin də ayağına düşəsən ki, yaxanı belə bəladan qurtardılar. Ukubala kimi arvadı ömründə tapa bilməzsən. Onun yerinə başqası olsaydı, səninçün bir həngamə açardı ki, başını götürüb qaçardın, Qaranər yalan olardı...

Yedigey kirimişdi, axı nə cavab verəydi? Qazanqap əslində doğru danışırdı. Ancaq Qazanqap başa düşmürdü ki, axı qayış nə çəkir. Buna görə də Yedigey *açıq-açığına ətiacılığa keçdi.*

– Yaxşı! – Deyib etinasızlıqla kənara tüpürdü. – Səni eşitdik, ağıl dəryası. Elə buna görə də iyirmi üç ildir buralarda baş girləyirsən, nə tüfəngə çaxmaqsan, nə dümbəyə toxmaq... Axı sən belə şeyləri hardan qanasan! Yaxşı da! Havayı söhbətə vaxtım yoxdur. – Daha dalına qulaq asmayıb çıxıb getdi.

– Nə deyirəm, öz işindir, – deyə Qazanqap arxadan dilləndi.

Bu söhbətdən sonra Yedigey qərara gəldi ki, onu zara gətirmiş bu Boranlıdan birdəfəlik çıxıb getsin. Bu fikir qəti idi, çünki rahatlıq tapa bilmirdi, onu unutmağa iqtidarı çatmışdı, içini gəmirən bu qəm-qüssəyə duruş gətirə bilmirdi. Zərifəsiz, Daulsuz, Ermeksiz ətrafda nə vardısa hamısı gözündən düşüb mənasızlaşmışdı. Belə olan tərzdə bu üzüntülü əzablardan can qurtarmaq üçün, Yedigey Cangəldin qət elədi



ki, razyezdin rəisinə rəsmi ərizə verib işdən çıxsın, ailəsini də götürüb baş alıb getsin. Bir də bu yerləri nə görsün, nə də könlü bulansın. Axı onu bu itin quduran yerinə zəncirlə bağlamayıblar ki, camaatın çoxu başqa yerlərdə yaşamır məgər – kənddə, şəhərlərdə... Onları heç zəncirlə də bağlayıb burda saxlamaq olmaz. Axı nəyə görə o, ömrünü bu Sarı-Özəkdə çürütməlidir? Axı niyə, hansı günahına görə? Yox, daha bəsdir, köçüb gedəcək – Aral dənizinə qayıdacaq, ya da Qaraqanda tərəfə, Alma-Ataya gedəcək, yerə nə gəlib, yer qəhətliyi deyil ki! İşçi kimi yaxşı işçidir, işləkdir, əli-ayağı da yerində, sağlam, ağlı da başında, daha burda fikirləşməli nə var ki, hər şeyə tüpürüb gedəcək, vəssalam. Yedigey özünün bu niyyətini Ukubalaya nə cür deyib, onu nə cür inandıracağı haqda götür-qoy eləyir, yerdə qalanlarsa boş şeydir deyə fikirləşirdi. O, söhbət üçün münasib vaxt tapana kimi bir həftə keçdi, qəfildən də sahibinin qovub çölə buraxdığı Boranlı Qaranər gəlib çıxdı.

Yedigey fikir verdi ki, it evin dalında nəsə hürür, narahatdır, qaçıb kiməsə hürür, təzədən qayıdır. Getdi görsün nə var, ağıldan bir az aralıda yad bir heyvan gördü – dəvəydi, özü də birtəhər durub, yerindən tərpənmirdi. Yedigey ancaq yaxınlaşandan sonra öz Qaranərini tanıya bildi.

– Deməli, sənsən? Gör bir nə günə düşmüsən, a beçara, üzülüb getmisən ki, – Yedigey lap çaşıb qalmışdı.

Əvvəlki Boranlı Qaranərdən bir dəri-bir sümük qalmışdı. İndi bir az da yekə görünən yekə qıllı başını güclə saxlayırdı, çuxura düşmüş gözləri yazıq-yazıq baxırdı, dizindən aşağı saçaqlanan yalı elə bil özününkü deyildi, onu gülünc göstərmək üçün sonradan yapışdırılmışdı. Qaranərin belində bir cüt qara qala kimi ucalan donqarlardan əsər-əlamət qalmamışdı, – qarı əmcəkləri kimi şəndirlənib sallanmışdı. Atan elə haldan düşmüşdü ki, ağıla girməyə belə taqəti qalmamışdı. Dayanmışdı ki, bir az nəfəsini dərsin. Son damla qanına qədər, bütün var gücünü çöldə qoyub, boşalmış çuval kimi, ölüm-zülüm birtəhər yıxıla-dura gəlib çıxmışdı.

– Eyy, ha-ha! – Deyə Yedigey onu istehza ilə hayladı, təəccüblə dolanıb dəvənin böyür-başına göz gəzdirdi. – Yazıq, gör nə günə qalmısan. Gör nə günə düşmüsən ki, səni heç qapının iti də tanımadı. Ay atan oğlu, atan! Nə üzlə qayıtmısan? Nə abrın var, nə də həyan! Püf, başdan-ayağa üfunət içindəsən. Gücün çatmayıb, ayağına işəmisən, məqsədin də buz bağlayıb, beçara! Elə nəfəsin də oradan çıxır.

Qaranər özünü zor-bəla ayaq üstə saxlayırdı. Qımıldanmağa belə taqəti qalmamışdı, əvvəlki vüqarından da əsər-əlamət yoxdu. Sönüb acınacaqlı vəziyyətə düşmüş Qaranər başını əsdirə-əsdirə cəndərdi dayanmışdı ki, yıxılmasın.

Yedigeyin Qaranərə yazığı gəldi. Evə gedib bir ləyən seçmə buğda götürdü, üstündən də yarım xışma duz səpib geri qayıtdı.

– Al, ye, – deyə buğdanı dəvənin qabağına qoydu. – Bəlkə heyə gəldin. Sonra gəlib çəkərəm səni ağıla, uzanıb özünə gələrsən.

Həmin günü onun Qazanqapla söhbəti oldu. Özü onlara getdi, söhbəti də özü başladı:

– Yanına bir iş üçün gəlmişəm, Qazanqap. Təəccüb eləmə: – yəni, dünən kəlmə kəsmək istəmirdi, altdan-üstdən vururdu, indi də təşrif gətirib. – Yüngül söhbət deyil. İstəyirəm Qaranəri özünə qaytarım. Gəlmişəm öz minnətdarlığımı bildirəm. Nə vaxtsa onu mənə bala köşək kimi bağışlamışdın. Çox sağ ol. Xeyli işimə yaradı. Bir az əvvəl onu qovmuşdum, daha dözümüm qalmamışdı, bu gün qayıdıb geri. Zor-bəla birtəhər gəlib çıxıb. İndi ağılda yatıb. İki həftədən sonra yenə də elə əvvəlki Qaranərdi. Yenə də sağalıb gücə gələcək. Ancaq bordamaq lazımdır.

– Bir dayan görüm, – deyə Qazanqap onun sözünü kəsdi. – Bu daşı hara atırsan? Niyə axı birdən-birə Qaranəri mənə qaytarmaq həvəsinə düşdün? Bunu səndən xahiş eləmişdim?

Onda Yedigey ürəyi istəyən kimi dərdini açdı. Söhbət bunda deyil, yəni ailəmlə birlikdə köçmək fikrindəyəm. Daha bəsdir, yeri-yurdu dəyişmək vaxtıdır. Bu Sarı-Özək bezikdirib məni. Bəlkə üzü yaxşılığa oldu. Qazanqap ona diqqətlə qulaq asandan sonra belə dedi:

– Hər halda özün bilərsən. Ancaq mənə elə gəlir ki, nə istədiyini heç özün də bilmirsən. Elə tutaq ki, çıxıb getdin, öz-özündən ki, qaça bilməyəcəksən, hara istəyirsən get, öz içindəki üzüntülərdən qaça bilməyəcəksən. Hara getsən dalınca gələcək. Yox, Yedigey, kişisənsə elə burda özün özünü basıb bağlaya bilərsən. Kişilik çıxıb getməkdə deyil. Hamı çıxıb gedə bilər. Amma hər adam özünü yeni yola gətirə bilməz.

Yedigey onunla razılaşmadısa, mübahisə də eləmədi. Oturub dərindən köksünü ötürdü, fikir eləyirdi: "Bəlkə çıxıb gedim, ayrı yerlərə üz tutum, fikirləşirdi. – Görəsən unuda bilərəm? Axı niyə unutmalıyam? Bəs sonra neyləyəcəyəm? Bu dərdi nə çəkmək kimi çəkmək olur, nə də yaddan çıxır. Bəs onda o neyləsin? Görəsən, o tifilləri hara götürüb getdi? Elə bir adam varmı ki, bəd ayaqda ona kömək olub, arxa dursun? Ukubalaya da ağırdır, gör neçə gündür qaşqabağıma, soyuqluğuma sakitcə dözür... Axı niyə dözsün?".



Qazanqap Boranlı Yedigeyin qəlbindən nələr keçdiyini duyurdu, buna görə də onun vəziyyətini yüngülləşdirmək istədi, diqqətini cəlb eləmək üçün öskürdü, Yedigey başını qaldıranda dedi:

– Düzünə qalsa, Yedigey, mən niyə səni dilə tutmalıyam, guya ki, bir xeyrim-zadım var. Elə özün də hər şeyi yaxşı başa düşürsən. İndi ki, yeri gəlib qoy deyim: nə sən Rəhimalı ağasan, nə də mən Əbdülxan. Bir də ki, bizim yüz verstlik həndəvərimizi axtarsan bir ağac da tapmazsan ki, tutub səni ona sarıya biləm. Azad adamsan – öz əlin öz başın, xətrin nə cür çəkir elə də elə. Bircə məsləhətim budur ki, isti yerini soyuq eləməmiş bir az fikirləş.

Qazanqapın bu sözləri Yedigeyin xatirindən uzun müddət çıxmadı.

## X

Rəhimalı ağa öz dövrü üçün çox məşhur oxuyan idi. Lap cavanlığından ad çıxarmışdı. O, Allahın iltifatıyla özündə üç gözəl keyfiyyəti birləşdirib haqq aşığı olmuşdu: əvvəla şair idi, ikinci – yazdığına mahnı qoşurdu, üçüncüsü də gözəl səsi, gen nəfəsi vardı. Rəhimalı ağa öz müasirlərini heyrətə gətirirdi. Əlini simlərə toxundurmağıyla camaatın gözü qabağında mahnının yaranması bir olurdu. Ertəsi gün isə bu mahnı dildən-dilə, ağızdan-ağıza gəzirdi, çünki bunu Rəhimalı ağanın ağzından eşidənlər onu öz aullarına, köçəri tayfalarına aparıb çatdırırdılar. Onun bu mahnısını o vaxtın igidləri dillər əzbəri eləmişdilər:

Qızğın köhlən bulaq suyu içəndə,
Sönər təşnə, sərinləyər dodaqdan,
İgid oğlan yar ləbini əməndə,
Bu dünyanın şəhdin əmər dodaqdan...

Rəhimalı ağa gözəl də geyinərdi, elə bil bu da Allah vergisiydi. Bahalı ən yaxşı xəzlərlə köbələnmiş papaqlara xüsusi həvəsi vardı –

qışınkı qış, yazınkı yaz, yayınkı da yay... Bir də onun heç vaxt ayrılmadığı vəfalı atı vardı. – Axal-təkə cinsindən olan bu qızıl kürən atı ona bir ziyafətdən türkmənlər bağışlamışdılar. Atın adı Saralı idi. Tərifdə, şan-şöhrətdə Saralı heç də sahibindən geri qalmırdı. Onun zərif məğrur yerişindən bilicilər xüsusi zövq alırdılar. Ona görə də məzələnmək istəyənlər deyərdilər ki, Rəhimalı ağanın varı-yoxu domburun səsi, bir də Saralın yerişidir.

Düzünü axtarsan, elə belə də vardı. Rəhimalı ağa bütün ömrünü, əlində dombur, yəhər üstə keçirmişdi. Şöhrəti aşıb-daşsa da, var-dövləti yox idi. Həmişə toylarda, məclislərdə, lap yaz bülbülü kimi ömür-gün keçirərdi. Hər yerdə də hörmət-izzət görərdi. Atının arpa-samanı da öz yerində. Amma bir para varlı-hallı adamlar vardı ki, onu istəmir, gözləri götürmürdü – yelbeyin adamdır, deyirdilər, ömür-gününü küləyə verdi. Hə, arxasınca belə deyənlər də vardı.

Rəhimalı ağa şadlıq məclisinə ayaq basdımı, domburunu kökləyib bir az oxudumu, hamı sakitləşər, əfsunlanmış kimi onun əlinə, gözlərinə, üzünə tamaşa eləyərdilər, hətta onu sərgərdan həyatını sevməyənlər belə bu əfsundan can qurtara bilməzdilər. Əlinə ona görə baxırdılar ki, insan ürəyinin elə bir incə, gizli sirri olmazdı ki, onu simlərdə tapıb dilləndirməsin; gözünə baxırdılar ona görə ki, onun qəlbinin, ruhunun gücü gözlərində alışıb-yanırdı; üzünə baxırdılar ona görə ki, gözəl, həm də şövqlü idi. Rəhimalı ağa oxuyanda küləkli havada dənizin əhvalı dəyişən kimi onun da üzü dəyişir, haldan-hala düşür...

Arvadları onun yolunu gözləməkdən yorulub gedirdilər, ancaq onun həsrətini çəkib gecələr gizlicə gözyaşı axıdanlar da vardı.

Onun ömrü-günü mahnıdan-mahnıya, toydan-toya, məclisdən-məclisə keçib gedirdi, bir də gözünü açıb gördü ki, qocalıq haqlayıb. Əvvəlcə bığlarına dən düşdü, sonra da saqqalı ağarmağa başladı, hətta Saralı da daha o Saralı deyildi – əldən düşmüşdü, yalı-quyruğu seyrəlmişdi, bircə yerişindən bilinirdi ki, vaxtilə barmaqla göstərilən at olub. Bəli, Rəhimalı ağa ömrünün qışına qədəm qoymuşdu, qocalıb qurumaqda olan tənha qələm çinardır sanki... İş gəlib bura çatanda məlum oldu ki, nə yurdu var, nə yuvası, nə də külfəti, nə qoyunu var, nə quzusu, nə də başqa var-dövləti... Ona kiçik qardaşı Əbdülxan sığınacaq verdi, amma əvvəlcə yaxın qohumlarını yığıb öz narazılığını bildirdi və onu möhkəm danladı. Bununla belə, göstəriş verdi ki, ona ayrıca yurd qursunlar, yeməyinə-içməyinə baxsınlar, pal-paltarını yusunlar...



Rəhimalı ağa qocalıq haqqında oxumağa, axirətini düşünməyə başladı. Həmin günlərdə ölməz, qəmli mahnılar yaranırdı. Artıq Rəhimalı ağanın da boş vaxtlarında keçmişin ağıllı adamlarının fikirlərini öyrənib anlamaq vaxtı gəlib çatmışdı – insan nəyə görə dünyaya gəlir görəsən? İndi daha əvvəlki kimi vaxtını toylarda, kef məclislərində keçirmirdi, vaxtının çoxunu evdən çıxmır, elə hey domburda qəmli havalar çalırdı, təkcə xatirələr qalmışdı ona, ağsaqqallarla daha çox vaxt keçirir, bu dünyanın faniliyindən, gəldi-gedərindən bəhs edən söhbətlərlə başını qal eləyirdi...

Əgər ahıl vaxtında onu sarsıtmış bir hadisə olmasaydı, Allah özü şahiddir ki, Rəhimalı ağa öz ömrünü-gününü beləcə də rahat başa vuracaqdı.

Günlərin birində Rəhimalı ağanın giridarı tikiş tutmadı, qocalıb əldən düşmüş Saralısını yəhərləyib, böyük el şənliyinə yollandı ki, bir az fikrini dağıtsın, hər ehtimala qarşı domburunu da götürmüşdü. Çünki çox hörmətli şəxslər ondan xahiş eləmişdilər ki, oxumasa da, heç olmasa, toy məclislərində əziz qonaq kimi iştirak eləsin. Rəhimalı ağa da elə bu niyyətlə yollandı – evdən xoş əhvalla çıxdı, qəsdi də tezcə qayıtmaqdı. Onu böyük hörmət və izzətlə qarşıladılar, ən yaxşı ağqübbəli yurda dəvət elədilər. Orda hörmətli şəxslərin yanında oturub kumıs içir, ədəb-ərkanla söhbət edir, həm də toy sahiblərinə öz xoş arzularını bildirirdi. Aulda isə böyük şənlik idi – hər tərəfdən cavanların gülüşü, səs-küyü mahnıları eşidilir, məzəli-məzəli oyunlar çıxarırdılar. Cavanlar təzə bəylə gəlinin şərəfinə cıdıra hazırlaşırdılar. Aşpazlar ocaq başında əl-ayaq edir, ilxıların kişnərtisi, itlərin hürüşməsi eşidilir, çöldən əsən külək də çiçəklənən otların ətrini gətirirdi... Amma hər şeydən çox Rəhimalı ağa qonşu yurddan gələn oxumaq səsinə və musiqiyə qısqanclıqla diqqət yetirirdi, qızların qəhqəhə səsləri onu daha da şənləndirirdi...

Qoca aşığın qəlbi intizar içində göynədi. Rəhimalı ağa həmsöhbətlərinə bildirməsə də, fikrən keçmiş günlərə qayıtdı, o zaman ki, özü də cavan, gözəl bir oğlandı, qıvraq Saralıya minib yollarda səyirdərdi. Otlar onun nalları altında tapdaq olardı, gülərdi, ağlayardı, onun mahnılarını eşidən günəş ona tərəf əyilərdi, o zaman ki, dünyanın küləkləri onun sinəsinə sığışmazdı, o zaman ki, onun domburunun səsindən adamların qəlbində qanı od tutub yanardı, o zaman ki, hər sözü ağzından qoparardılar, o zaman ki, o, sevməyi də, cəfasını çəkməyi də,

ölüb-dirilməyi, atdan düşməyib üzəngidəcə vidalaşmağı da bacarırdı... Axı bunlar nə üçünmüş, ilahi? Buna görəmi ki, sonra qocalıq çağında boz küləklər altında öləziyən köz kimi heyfsilənib öz-özünə yazıq deyəsən?

Yenə qəm bürümüşdü Rəhimalı ağanı, çəkilib öz içinə susurdu Rəhimalı ağa. Birdən o, yurda yaxınlaşan addım səsləri, çutqabağının qızıl cingiltisi, tanış paltar xışıltısı eşitdi. Kimsə bayır tərəfdən yurdun qapısına salınmış pərdəni kəskin hərəkətlə qaldırdı və kandarda sinəsi sazlı bir qız peyda oldu, qız nə qız – ay qabaqlı, şeytan gözlü, qaşı kaman... Qaşların yayından bilinirdi ki, elə özü də yay kimi möhkəm iradəli qızdır, zalımın qızı elə bil qüdrətdən qələmlə çəkilmişdi. Boy nə boy-buxun nə buxun – yemə-içmə, tamaşa elə xətti-xalına, gül camalına. O, ağsaqqallardan icazə istəyərək baş əyib öz rəfiqələri və bir neçə igidlə kandarda durmuşdu. Ancaq heç kimə ağız açmağa macal verməyib simləri səslədərək Rəhimalı ağaya etirafla başladı:

"Vahəyə cana atan bir sarban kimi, salama gəlmişəm, Rəhimalı ağa! Lütf eylə, məzur qıl günahımızı – məclisdə səhv olar, qəbahət olar. Üzümə üz tutub gəlmişəm bu gün, nəğmə gətirmişəm hüzuruna mən, qorxumu, hürkümü boğub içimdə sənə öz eşqimi yetirmişəm mən – dolu tüfəng kimi atəşə hazıram, Rəhimalı ağa! Bal yığan arıtək bütün ömrümü görüşə gəlməyə güc toplamışam, qönçə idim, səbir edib gözləmişəm ki, açılmış gül kimi yanına gəlim, rəhminə möhtacam, Rəhimalı ağa!.."

"Allahın eşqinə, bir kərəm eylə, pərilər pərisi de görüm kimsən?" – Rəhimalı ağa soruşmaq istədi, ancaq qızın sözünü kəsməyə qıymayıb özünü boğdu. Ancaq fərəh və təəccübü intəhasızdı, qınayan olmasaydı qanad açıb uçardı ona tərəf, ruhu sarsılıb, qaynar qanı ürəyinə od vurmuşdu və əgər ətrafdakıların xüsusi görmə qabiliyyəti olsaydı, onda görərdilər ki, Rəhimalı ağa necə dirçəldi, qalxmaq istəyən qartal kimi necə qanad gərdi. Gözləri cana gəlib şövqləndi. Çoxdan bəri həsrətində olduğu göylərdən gələn qıy səsi kimi eşitmiş kimi təpərləndi və unudub yaşını Rəhimalı ağa dikəltdi başını...

Qız isə davam edirdi:

"Hali ol dərdimdən, ey ulu aşiq, indi ki düşmüşəm payinə bu gün hələ gənc yaşından sevirəm səni, ey Tanrı elçisi, Haqq aşiqi! Gəzmişəm dalınca qarabaqara, səsin gələn yerə daxıl düşmüşəm. Arzum o idi ki, sənə bənzəyim – sazımla, sözümlə oxşayım sənə, ay akınlar akını



Rəhimalı ağa! Ardınca kölgətək gəzmişəm müdam – nəğməni, sözünü yığmışam bir-bir, qarətək oxuyub təkrar etmişəm – sən deyən sözləri dua bilmişəm. Allaha yalvarıb təmənna etdim – bir füzun aşiqlik bəxş etsin mənə, bir zaman yetirəm salamımı mən, göstərim sevgimi, məhəbbətimi, söz deyim, saz çalım hüzurunda mən, yenilsəm də olmaz peşmanlığı – yenilib ram olsam nə eybi var ki – Rəhimalı ağaya ram olursa mən! Cavanlar toy günü arzulayantək, mən də o günün arzusundayam, eşit sən, bil bunu, Rəhimalı ağa! Mən çox kiçik idim, sənsə böyükdün – xalqın sevimlisi, böyük sənətkar, bu qədər toyda, bu qədər büsatda, bu çalhaçalda hardan görəcəkdin qız uşağını – sənə eşq bəsləyən od-ocağını – həyadan istərdim yanıb kül olum, fəqət nəğmələrin hifz etdi məni – ərsəyə çatdırıb böyütdü məni, cəsarət doldurdu qəlbimə mənim, gəlmişəm hüzuruna, Rəhimalı ağa! Özün bir hökm ver, özün bir çarə qıl. Vüsala yetməyə tələsirdi can, zamansa tələsmir, hey uzanırdı... Nəhayət, bu bahar vaxtı oldu tamam – axır ki çatdım mən on doqquzuma, sənsə bakirə qəlbimin dərinliyində əvvəlki kimisən, Rəhimalı ağa. Saçlara dən düşüb azacıq, əfsus... Amma çox qaratellidən əfzəlsən, hənüz sevib-sevilməkçün yarandın məxsus. Onu da bil ki, sən möhtərəm aşiq, qız kimi, bəlkə də rədd etdin məni, ixtiyar sənindir, Rəhimalı ağa, amma haqqın yoxdur rədd eyləyəsən bir müğənnitək məni – gəlmişəm bura saz çalıb, söz deyək – yarışaq sənlə... Mən sözümü dedim, meydan sənindir. Buyur çıx irəli, Rəhimalı ağa!"

– Sən kimsən? Hardansan? – Rəhimalı ağa yerindən dik qalxdı. – Adın nədir?

– Adım Bəyimaydı.

– Bəyimay? Bəs indiyə kimi hardaydın? Bəs hardan nazil oldun, Bəyimay? – Bu sözlər Rəhimalı ağanın ağzından qeyri-iradi çıxdı, əhvalı pozulmuş halda baş əydi.

– Axı mən dedim, Rəhimalı ağa, dedim ki, körpəydim, böyüyürdüm.

– Hər şeyi başa düşürəm, – deyə o, qıza cavab verdi, – bircə şeyi başa düşə bilmirəm – öz bəxtimi, taleyimi anlaya bilmirəm! Axı ömrümün qışa əyilən qürub çağında səni belə gözəl xəlq eləməkdə qəsdi nədir? Nə istəyir? Mənə onu dedizdirmək istəyir ki, əvvəlləri nə olubsa, heç bir şey imiş, ömrümü bihudə keçirmişəm, bilməmişəm ki, göylər mənə səni eşitmək və görmək kimi əzablı bir şirinlik göndərəcək? Axı görəsən taleyim niyə belə zülm eləyir?

– Nahaq yerə taleyinə küsənirsən, Rəhimalı ağa, – deyə Bəyimay cavab verdi. – Əgər taleyim mənimlə bağlıdırsa, məndən nigaran qalma, Rəhimalı ağa. Bilsəydim ki, öz bakirəliyimlə, mehribanlığımla, mahnılarımla, təmənnasız məhəbbətimlə səni sevindirə biləcəm, yer üzünün ən xoşbəxti olardım, mənə özgə heç nə lazım deyil. Mən sarıdan heç bir şübhən olmasın, Rəhimalı ağa. Əgər sən öz şübhələrinə güc gələ bilməsən, məhəbbət qapılarını mənim üzümə bağlamış olsan belə, yenə də səni sonsuz bir məhəbbətlə sevərək özüm üçün xüsusi bir şərəf bilərdim ki, mənimlə sənət aləmində yarışaydın, mən bütün sınaqlara hazıram.

– Sən nə danışırsan! Söz sınağı nədir, Bəyimay! Deyişmə sınağının dəyəri nə olan şeydir axı, daha dəhşətli sınaq – məhəbbətin sınağıdır, o məhəbbət ki, bizim adətlərlə, qanun-qaydalarla düz gəlmir. Yox, Bəyimay, mən səninlə söz səltənətində yarışmağa vəd verə bilmərəm. Ona görə yox ki, daha deməyə sözüm yoxdur, ona görə yox ki, daha səsim gərləşib, ya gücdən düşmüşəm. Yox, yox, mən sənə ancaq heyran ola bilərəm, Bəyimay. Mən səni ancaq bəlalı bir məhəbbətlə sevə bilərəm, səninlə təkcə məhəbbət meydanında yarışa bilərəm, Bəyimay.

Rəhimalı ağa bu sözlərlə də domburu götürüb yeni bir hava üstündə köklədi və keçmiş günlərdə olduğu kimi təzə bir mahnı oxudu – o gah otları titrədən səhər mehini andırır, gah da göylərdə çaxan ildırım gurultusunu xatırladırdı. O vaxtdan bu yana da səsi-sorağı yer üzündən çəkilmir "Bəyimay" mahnısının:

"...Uzaq eldən gəlib bulaq başına, yanğını söndürmək istəsən əgər, qarşına meh kimi əsib gələrəm, səriləm payinə, gözəl Bəyimay. Əcəl çatsa, öl desələr ölmərəm, görsəm səni bircə kərə Bəyimay, – gözüm görsə dirilərəm, duraram, sənsiz qalsam gözlərimdən olaram, hifz eləsin xuda səni, Bəyimay...".

Bəli, o, "Bəyimay" mahnısını belə oxudu. Həmin o gün adamların xatirindən uzun müddət çıxmadı. O əhvalatdan sonra Rəhimalı ağa və Bəyimay barədə çox söz-söhbət oldu. Elə ki bayram libası geymiş atlıların müşayiətilə gəlini bəy evinə aparmaq vaxtı çatdı, bayramsayağı bəzədilmiş ağ yurdların arasından keçib-gedəndə, bayram libası geyinmiş izdihamın önündə at oynadan, bəylə gəlinin şərəfinə mahnılar oxuya-oxuya dəstəni aparan Rəhimalı ağayla, Bəyimay idi. Böyür-böyürə üzəngi-üzəngiyə gedən də onlardılar, bir-birinə



yaraşıq verən də onlardılar, gah domburda, gah da tütəkdə çalan da onlardılar, Allaha, peyğəmbərə, bütün xeyirxah qüvvələrə üz tutub bəylə gəlinə xoşluq arzulayan nəğmələr oxuyan da onlardılar – Rəhimalı ağa susmamış, Bəyimay başlayırdı... gah biri, gah da o biri...

Hamını məftun etmişdi bu mahnılar – otlar, çəmənlər də onların üzünə gülürdü ətrafda, tüstünü payəndaz edib sərirdi ocaqlar ətrafda, quşlar qanad çalırdı ətrafda, ürgələri yallayıb cıdıra çıxırdı uşaqlar ətrafda...

Tanımaq olmurdu qoca Rəhimalı ağanı. Səsi yenə də cingildəyirdi cavan kimi, yenə yaydan gərgin, qırğıdan qıvraqdı cavan kimi, yaşıl çəməndə qurulmuş ağ yurd lampaları kimi yanırdı gözləri. Hətta atı Saralı, gərdən çəkib tovuzlanırdı.

Di gəl ki, buna pis baxanlar da vardı. Camaatın içində olanlardan bəzisi Rəhimalı ağaya baxıb tüpürürdü.

Bu adamlar onun öz qohum-qəbiləsiydi – onlara Bərəkbəylər nəsli deyirdilər. Toy məclisində olan Bərəkbəylər bərk hirslənmişdilər. Heç belə də iş olar – Rəhimalı ağanın qoca vaxtında ağlı çaşıb. Qardaşı Əbdülxana giley-güzar elədilər. Bu qoca köpək Rəhimalı bizi belə rüsvay eləyəndən sonra nə üzlə səni mahal qazısı seçə bilərik, seçki vaxtı bizə gülüb, ələ salmazlarmı? Bir gör nə oxuyur, lap xam daylaq kimi kişnəyir! Hələ sən o şortunun verdiyi cavablara bax! Biabırçılıqdır! Camaatın qabağında gic eləyib başdan çıxardır! Yox, bunun axırı pis olacaq. Axı bu ləçərlə onun nə alveri? Onun ipini yığmaq lazımdır ki, el-oba içində dilə-dişə düşməyək...

Əbdülxan bu ipə-sapa yatmayan, eyş-işrətdə saçını ağartmış qardaşının əlindən çoxdan yığmışdı. Belə güman eləyirdi ki, daha qocalıb, həddinə düşər, amma gör nə oyun çıxartdı... Bütün Bərəkbəy nəslinin papağını yerə soxdu.

İş bu yerə gələndə Əbdülxan atını qamçılayıb camaatı yara-yara qardaşına yaxınlaşdı, onu qamçıyla hədələdi: "Bəsdir, özündə-sözündə ol! Evə qayıt!". Ancaq öz ürək mahnılarını oxuyan böyük qardaş onu nə gördü, nə də sözlərini eşitdi. Onları istəyənlər – oxuyanları üzük qaşı kimi ortaya alan atlılar, onların hər kəlməsini göydə ovlayanlar – Əbdülxanı bircə göz qırpımında sıxışdırıb çıxartdılar, hələ üstəlik qamçıladılar da. Bu vurhavurda nə biləsən ki, kim qamçıladı. Vəziyyəti belə görən Əbdülxan atını məhmizdəyib aradan çıxdı...

Mahnılarsa oxunmağındaydı, həmin dəqiqədə ağızlarda yeni söz, yeni mahnı yarandı.

"Eşq oduna yanan maral səhər-səhər mələyəndə, qayalara dəyib-düşər sədası" – deyə Rəhimalı ağa oxuyurdu. "Sona sonasından iraq olanda, gözündə qaralan qızıl günəş də" – deyə Bəyimay ona cavab verirdi.

Beləliklə də söz birinin ağzından düşməmiş o biri oxuyur – gah biri, gah da o biri təzə bəylə gəlinin şəninə tərifler deyirdi...

Rəhimalı ağa öz işindəydi, xəbəri yoxdu ki, qardaşı Əbdülxan nə kinlə, nə qəzəblə çapıb getdi. Qohum-qəbiləsi necə inciklik, nə hayıf hissiylə atları onun dalınca saldılar – Bərəkbəylərin hamısı. Xəbəri yoxdu ki, birləşib ona nə tənbeh hazırlayıblar...

Mahnılarsa oxunmağındaydı – gah o, gah da o biri, gah o, gah da o biri...

Əbdülxan atın yalına yatıb qara yel kimi əsirdi. Evə, birbaş aula! Canavar sürüsü kimi onun sağ-solunda çapan qohum-əqrəbası Əbdülxanı qızışdırırdılar:

– Qardaşının ağlı çaşıb! Dəli olub, müsibətdir! Gərək tez müalicə olunsun!

Mahnılarsa oxunmağındaydı – gah o, gah da o biri, gah o, gah da o biri...

Beləliklə onlar ürəkdən gələn mahnılarla toy qafiləsini bəy evinə tərəf çəkib aparırdılar. Son məkanda vida əlaməti kimi yenə də xoş arzulu mahnılar oxudular. Rəhimalı ağa camaata üz tutub bildirdi ki, o bu xoş günü gördüyü üçün xoşbəxtdir, taleyi özünə bərabər akını, cavan müğənni Bəyimayı ona hədiyyə göndərmişdir. Dedi ki, ancaq çaxmaq daşı çaxmaq daşıyla toqquşub qığılcım verdiyi kimi, sənət dünyasında akınlar ancaq yarışlarda öz sənətlərinin sirlərinə vaqif ola bilirlər. Ancaq hər şeydən artıq həyatda ağıla gələ bilən ən ülvi səadətin, elə bir səadətin ki, ömrünün bu qürub çağında yaranışından bəri güc toplayan günəşin qürub vaxtı fəxr etdiyi şəfəq kimi insan ruhunun ən ali təzahürü olan məhəbbətin mənasını anladı.

– Rəhimalı ağa! – deyə Bəyimay ona cavab verdi. – Mən də öz arzu-kamıma çatdım. Mən həmişə sənin izinlə gedəcəm. Hara desən, nə cür desən – əlüstü domburla gələcəm. Qoy mahnı mahnıya qovuşsun, məhəbbət məhəbbətə... Mən tərəddüd etmədən həyatımı taleyə tapşırıram!..

Mahnılar belə oxunurdu.



Elə buradaca bu köçəri camaatın yanında məsləhətləşib razılığa gəldilər ki, birisi gün böyük həftə bazarında görüşsünlər, elə orda hər tərəfdən axışıb gələn adamlar üçün mahnı oxusunlar.

Həmin gün toydan qayıdanlar bütün mahala car çəkdilər ki, Rəhimalı ağayla Bəyimay həftə bazarına gəlib oxuyacaqlar. Xəbər ayaq tutub yeriyirdi:

– Həftə bazarına!

– Atları yəhərləyin həftə bazarına.

– Həftə bazarına gəlin, akınların oxumağına qulaq açın!

Bu xəbər camaatın dilində əks-səda tapdı:

– Böyük şənlik olacaq!

– Kef olacaq!

– Nə gözəl!

– Sən bir biabırçılığa bax!

– Varam, varam buna!

– Sən bir həyasızlığa bax!

Rəhimalı ağayla Bəyimay yolun yarısında ayrıldılar:

– Həftə bazarında görüşənə kimi, gözümün işığı, Bəyimay!

– Həftə bazarında görüşənə kimi, Rəhimalı ağa!

Ayrılandan sonra da hələ xeyli uzaqdan səsləri eşidilirdi:

– Həftə bazarında görüşənə qədər, hey!

– Həftə bazarında görüşənə qədər, Rəhimalı ağa, hey!..

Artıq gün batmaqda idi. Ucsuz-bucaqsız düzlərin üzərinə yay toranlığı çökməkdə idi. Dağlara yağan yağışdan sonra havada saf bir sərinlik vardı, çalağanlar qürub qabağı qanadlarını sərərək tənbəl-tənbəl aşağılarda süzür, quşcuğazlar bu sakit axşamın şərəfinə mahnılar oxuyurdular...

– Necə sakitlikdir, nə xoş havadır! – deyə Rəhimalı ağa atının yalını oxşaya-oxşaya dinləndi. – Eh Saralı, ah mənim qoca dostum, yəni dünya doğrudanmı bu qədər gözəlmiş, yəni ömrün son amanında sevmək olarmış?

Saralı isə cığırla iti yerişlə gedir, fınxırır, evə tələsirdi ki, bir az ayaqlarına dinclik versin, bütün günü yəhər altında yortub-yorğalamışdı. İstəyirdi çay suyuyla ürəyinin yanğısını söndürsün,sonra da çöldə ay işığında otlamağa çıxsın.

Aha, bax bu da aul, bu çayın dirsəyi, bu da ki, yurdlar, ocaqlardan baş alıb gedən tüstülər.

Rəhimalı ağa atdan düşdü. Atın təri soyusun deyə dirəyə bağladı. İçəri keçməzdən çöldəki ocağın yanında oturdu ki, bir az dincini alsın. Kim isə yaxınlaşdı. Qonşu uşağı idi.

– Rəhimalı ağa, sizi içəri çağırırlar.

– Kimlərdir məni çağıran?

– Hamısı özümüzünkülərdir, Bərəkbəylər.

Rəhimalı ağa içəri girən kimi nəsillərinin ağsaqqallarını gördü. Onlar yarımdairə şəklində oturmuşdular, bir az kənarda da qardaşı Əbdülxan əyləşmişdi. Çox qaşqabaqlı idi. Başını qaldırmırdı.

– Salam əleyküm! – Rəhimalı ağa qohumları salamladı. – Xeyir ola?

– Səni gözləyirik, – deyə ən hörmətli ağsaqqal dilləndi.

– Məni gözləyirsizsə, hüzurunuzdayam, – deyə Rəhimalı ağa cavab verdi, – cərgənizdə oturmaq üçün özümə münasib yer axtarıram.

Kim isə amiranəliklə dedi:

– Dayan! Qapının ağzında dur! Özün də diz çök!

– Bu nə deməkdir, hələlik bu yurdun sahibi mənəm.

– Yox, sahibi sən deyilsən! Ağlını itirmiş qocadan yurd sahibi olmaz.

– Nə demək istəyirsiniz?

– Onu demək istəyirik ki, sən and içməlisən: bir də heç vaxt, heç yerdə oxumayacaqsan, məclislərdə sülənməyəcəksən, çal saqqalını unudub, bizi də, özünü də rüsvay eyləyib, qoşulub biabırçı mahnılar oxuduğun o şortunu birdəfəlik yaddan çıxardacaqsan. And iç! Bir də onun həndəvərində dolanmayacaqsan!

– Havayı danışırsız. Birisi gün onunla həftə bazarında camaatın qabağında oxuyacağam.

Ağsaqqallar qəzəblə bağırdılar:

– O bizi rüsvay eləyəcək!

– Hələ ki gec deyil, tök daşı ətəyindən!

– Bu ki lap sarsaqlayır!

– Vallah, başı lap xarab olub!

– Bir sakit olun görüm! Susun! – Baş hakim qayda yaratdı. – Deməli, Rəhimalı, bu sənin axır sözündür?

– Hə, mən sözümü dedim.

– Eşitdinizmi, Bərəkbəyli nəslinin törəmələri, bizim qan qohumumuz, bu arsız-görsuz Rəhimalı nə dedi?



– Yaxşı eşitdik.

– Onda eşidin, görün mən nə deyirəm. Əvvəl sözüm sənədir, ay bədbəxt Rəhimalı. Sən ömrün boyu kasıb dolanmısan, bir atın olub, bir özün, gün-güzəranını da toylarda, məclislərdə dombur dınqıldadıb, təlxəklik-oyunbazlıq eləməklə keçirmisən. Başqalarını əyləndirmək üçün ömrünü bada verdin. Nə qədər ki cavandın, avaragor keçirdiyin günləri sənə bağışlayırdıq. İndi qocalmısan, gülünc görünürsən. Biz sənə nifrət eləyirik. Axirətini fikirləş, dinclik tap. Amma sən bunların qeydinə qalmaqdansa, yad aulda axmaq dəmdəməki kimi kefə qurşanmısan, qanunlarımızı, adətlərimizi tapdayıb ilişmisən o şortuya. İndi ki, bizim məsləhətlərə qulaq asmaq istəmirsən, qoy Allah sənə öz bəlanı versin, daha öz bəxtindən küs. İndi, ikinci sözümə qulaq as. Ayağa dur, Əbdülxan, sən onun doğma qardaşısan, bir atanın belindən gəlib, bir anadan olmusuz, sən arxamız, dayağımızsan. Arzumuz budur ki, səni bütün Bərəkbəylər nəsli adından qazı görəydik. Amma sənin qardaşın ağlını itirib, bu da o işdə sənə əngəl törədə bilər. Buna görə də ağlını itirmiş qardaşınla nə cür rəftar eləməyi gərək özün deyəsən, belə ki, bu ipləmə bizi el içində biabır eləyə bilməsin, belə ki, heç kim bizim gözümüzün içinə güldən ağır söz deməyə cəsarət eləməsin, belə ki, Bərəkbəylər nəsli bədnam olub gülünc vəziyyətdə qalmasın!

– Heç kim mənə peyğəmbərlik, hakimlik eləyə bilməz, – deyə Rəhimalı ağa əbdülxanı qabaqladı. – Mənim sizə yazığım gəlir, burda olanlara da, olmayanlara da, siz cəhalət içindəsiz, siz elə bir şeydən danışırsız ki, onu ümumi yığıncaqla həll eləmək olmaz. Siz bu dünyada haqq-ədalətin, xoşbəxtliyin nə olduğunu bilə bilməzsiz. Ürək oxuyanda oxumaq ayıb olan işdirmi, göylərdən insana Allah vergisi kimi göndərilən məhəbbət günah sayıla bilərmi? Axı yer üzündə ən böyük sevinc – sevənlərin sevməyinə sevinməkdir. İndi ki, siz mahnı oxuduğum üçün, gecikmiş məhəbbətdən üz döndərməyib onu sevinclə qəbul etdiyim üçün məni ağıldankəm hesab eləyirsiniz, onda mən sizdən ayrılıb gedərəm. Dünyada yer qəhət deyil. Bu saat Saralını minib gedərəm onun yanına, lap baş alıb üz tutarıq başqa vilayətlərə ki, bir də sizi nə mahnılarımızla, nə də əmllirimizlə narahat eləməyək.

– Yox, heç yana gedə bilməyəcəksən! – deyə bayaqdan susub dayanan Əbdülxan xırıltılı, vahiməli bir səslə partladı. – Burdan o yana addım da atmayacaqsan. Bazara-mazara getdi yoxdu! Ağlın başına gələnə kimi səni müalicə eləyəcəyik.

Elə bu sözlərlə də qardaşı akının əlindən domburu qapdı.

– Bax, belə! – O, kövrək çalğı alətini yerə çırpıb, dəli buğa naxırçısını tapdayan kimi tapdaladı. – Bu gündən səsin boğazında qalacaq! Ay uşaq, o yabını, Saralını bura çəkin! – deyə işarə verdi.

Həyətdə əmrə müntəzir duranlar əlüstü atı dirəkdən açıb gətirdilər.

– Açın yəhərini! Tullayın bura!

Əbdülxan yəhəri baltalayıb doğram-doğram elədi.

– Bildin! Heç yana getməyəcəksən! Bazar-zad yoxdur! – deyə qeyzlə doğradığı yəhərin tapqır-qayışını, üzəngi bağlarını, cilovyüyənini doğrayıb tökdü, üzəngilərin də hərəsini bir kola tolazladı.

Qorxudan hürkmüş Saralı da həsləyib xırıldayır, qantarğasını gəmirirdi, elə bil ürəyinə dammışdı ki, onu da yəhərinin taleyi gözləyir.

– Deməli, həftəbazarına hazırlaşırsan? Saralını minib gedəcəksən? Onda bax! – Əbdülxanın gözləri qan çanağına dönmüşdü.

Əbdülxan bu sözləri deyən kimi qohumları bir göz qırpımında Saralını yıxdılar, elə o dəqiqə də örkənlə çəkib əl-ayağını bağladılar. Əbdülxan da güclü pəncəsiylə atı burunlayıb başını qanırdı və bıçağı fağır heyvanın boğazına dirədi.

Rəhimala ağa var gücüylə onu tutub saxlayanların əlindən partlayıb çıxdı.

– Əl saxla! Öldürmə heyvanı! – demək istədi.

Macal tapmadı, bıçağın altında fışqıran qan gün işığında zülmət kimi gözlərə doldu və Saralının buğlanan qanına qəltan olmuş Rəhimalı ağa büdrəyərək yerdən qalxdı.

– Nahaq iş gördün. Axı mən piyada da gedərəm. Mən dizin-dizin sürünərəm! – deyə ətəyi ilə üz-gözünü silərək alçaldılmış aşiq özünün son sözünü bildirdi.

– Yox, sən heç piyada da gedə bilməyəcəksən! – deyə Saralının qanı axan başı üstündə çömbəlmiş Əbdülxan hikkəylə dişlərini ağartdı. Bir addım da atmayacaqsan! – Bu sözləri alçaqdan deyib birdən qışqırdı: – Tutun onu! Görürsüz ki, dəlidir! Bağlayın, öldürə bilər!

Səs-küy qopdu, aləm bir-birinə dəydi:

– Kəndiri bura ver!

– Qollarını qanırın!

– Bərk burun!



– Ağlı yerindən oynayıb! Allah haqqı!

– Bir gözlərinə baxın!

– Dəli olub, vallah!

– Çəkin ağacın dibinə!

– Yapışın çəkdik!

– Əlli olun!

Artıq ay qəlbilənib qalxmışdı. Göylər də, yerlər də sakitlik içindəydi. Hardansa şamanlar gəldi, tonqal çatdılar, böyük akının ağlını pozmuş cinləri qovmaq üçün əcaib oyunlar çıxarıb rəqs etdilər.

Sonra da molla gəldi. O da Qurandan ayələr oxudu. Və onu Alahın doğru yoluna dəvət etdi.

Rəhimalı ağa isə qolları arxadan çatılmış halda ağaca bağlı durmuşdu.

Və o qardaşı Əbdülxana üz tutub görək nə dedi:

"Zülmət gecə əriyəndə toranı da çəkib gedər özüylə, gündüz olar, günəş çıxar təzədən. Amma mənə işıq yoxdur bir daha, sən söndürdün işığımı, Əbdülxan! Allahın verdiyi o xoş nemətdən – göydən yetirdiyi o məhəbbətdən məhrum etdiyinçin çox da öyünmə. Nə qədər ki, cida deyil, nəfəsim, nə qədər ki, sinəmdə ürək var – bu sevinci yaşadacam özümdə... Bədbəxt qardaş, qollarımı qanırıb bağlasan da ağaca, bil ki, yoxam burda daha, Əbdülxan. Qalan ancaq boş cəsəddir, ay yazıq, ruhum uçub onunladır, Əbdülxan. Ruzigartək qanadlanıb uçur ki, yağış olub yerlə qovuşsun yenə, yarın öz nəfəsi, öz zülfü kimi. Sübh çağında o, yuxudan duranda, dağ kəlitək gələrəm pişvazına, sıldırımda qərar tutub gözlərəm – yurddan çıxan yarı salamlamaqçün. O atlanıb çaydan çapıb keçəndə, at nalından qopan zərrələr olub, gül üzünə, əllərinə qonacam. Oxumağa başlayanda sevgilim, nəğmə olub ləblərinə qonacam...".

Onun başı üstündəki budaqdan səhər mehinin xəfif xışıltısı gəldi. Səhər açılırdı. Rəhimalı ağanın dəli olmaq xəbərini eşidən qohum-qonşu maraq göstərib gəldilər. Atlarından düşməyib bir yerə komlaşaraq uzaqdan dayandılar.

O isə cırıq paltarda, qolları arxadan çatılıb ağaca sarınmış halda durmuşdu.

Sonralar dildən-dilə düşən məşhur mahnısını böyük həvəs və şövqlə oxudu:

Qara dağdan köç qayıdanda[1]
Aç qollarımı, qardaşım Əbdülxan,
Ala dağdan köç qayıdanda
Aç qollarımı, qardaşım, Əbdülxan,
Yatanda yuxuma girməzdi mənim
Qardaşım salarmış məni kəməndə.
Qara dağdan köç qayıdanda,
Ala dağdan köç qayıdanda,
Aç qollarımı, qardaşım, Əbdülxan,
Mən öz xoşumla uçaram göylərə...
Qara dağdan köç qayıdanda,
Həftə bazarına gələ bilmədim, Bəyimay,
Ala dağdan köç qayıdanda,
Biz həftə bazarında oxuya bilmədik, Bəyimay.
Məni atım çatdıra bilməz daha, özüm də çata bilmərəm.
Qara dağdan köç qayıdanda
Məni həftə bazarında gözləmə, Bəyimay,
Mən öz xoşumla göylərə uçuram...

Bəli Rəhimalı ağa haqqındakı rəvayət belə rəvayətdir...

İndi Ana-Beyit yolunda Qazanqapı son mənzilinə yola salanda Yedigey – elə hey bunları fikirləşirdi.

## XI

*Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirlər...*

*Bu yerlərdə dəmiryolunun hər iki tərəfi ilə intəhasız Sarıtorpaq çöllərinin göbəyi hesab edilən Sarı-Özək düzləri uzanıb gedir...*

*Coğrafiyada hər şey Qrinviç meridianı ilə ölçüldüyü kimi bu yerlərdə bütün məsafələr dəmiryolu ilə müəyyən edilirdi.*

*Qatarlar isə şərqdən qərbə, qərbdən də şərbə gedirdilər...*

Deyilənlərə görə, nə vaxtlarsa Nayman-Ananın öz manqurt oğlunu axtardığı bu yerlərdə – qızılqumlu Malakumdıçap yarğanın boyunca çox uzun bir yol keçəndən sonra daha Ana-Beyitə bir şey qalmamışdı. Boranlı Yedigey gah saatına, gah da Sarı-Özək üzərindəki günəşə

[1] Sətri tərcümədir.



baxıb fikirləşirdi ki, hələlik işləri öz qaydasınca gedir. Dəfndən sonra onlar vaxtında evə qayıdıb, hamıyla birlikdə ehsanda iştirak edəcək və Qazanqapı yad eləyə biləcəkdilər. Neyləmək, üzü axşama olacaq, təki ehsan sabaha qalmasın. Ey gidi dünya! İşə bax ey, Qazanqap Ana-Beyitdə yatacaq, onlar isə qayıdıb, ehsanını yeyib rəhmət oxuyacaqlar...

Yenə də həmin qaydada-qabaqda Yedigey qotazlı tərliklə bəzədilmiş Qaranərin üstündə, ondan sonra yedəkli traktor, lap axırda "Belarus" ekskavatoru – Malakumdıçapdan keçib, dilini sallayıb ləhləyə-ləhləyə qafilənin böyürü ilə özbaşına qaçan kürən itin müşayiəti ilə Ana-Beyit düzünə çıxdılar. Elə burda da, Malakumdıçapdan çıxanda gözləmədikləri maneəyə rast gəldilər – tikanlı məftildən çəkilmiş çəpərlə rastlaşdılar.

Birinci dayanan Yedigey oldu – bu nə olan şeydi! O hətta üzəngidə dikəlib Qaranərin üstündən sağa-sola boylandı – göz işlədikcə düzənlik boyu aşağı-yuxarı ilan kimi qıvrılan keçilməz tikanlı məftil çəpəri uzanıb gedirdi. Bir neçə cərgə olan məftil hər beş metrdən bir yerə basdırılmış dəmir-beton dirəklərə bağlanmışdı. Özü də çox möhkəm, əsaslı düzəldilmişdi. Onun nə əvvəli görünürdü, nə də axırı. Bəlkə də heç qurtaracağı yox idi. Qərəz ki, qabağa yol bağlı idi. İndi bəs neyləsinlər, hardan yol tapsınlar?

Traktorlar da çatıb dayandılar. Kabinədən birinci Sabitcan düşdü, onun ardınca da Caydaq Ədilbəy.

– Bu nə deməkdir? – Sabitcan əliylə tikanlı məftilləri göstərdi. – Yoxsa yolu düz gəlməmişik?

– Niyə düz gəlmirik? Düz gəlməyinə düz gəlmişik, amma bilmirəm bu məftil hardan çıxdı. Lənət şeytana!

– Bəyəm əvvəllər yox idi?

– Yox, məftil nə gəzirdi!..

– Bəs indi nə təhər olsun? Burdan necə keçəcəyik?

Yedigey dinmədi. Çünki nə cavab verəcəyini özü də bilmirdi.

– Ey sən də, bu zəhrimarın səsini kəs! Tırıltısı lap zəhləmizi tökdü, – deyə Sabitcan traktorun kabinəsindən boylanıb baxan Qalibəyə tərəf əsəbiliklə donquldandı.

O motoru söndürdü. Traktordan sonra da ekskvator susdu. Sakitlik çökdü. Qu deseydin qulaq batardı. Boranlı Yedigey qaşqabağını töküb dəvənin üstündə oturmuşdu, Sabitcan, Caydaq Ədilbəy də onun yanında durmuşdular, traktorçular – Qalibəylə Cümaəli kabinədən

çıxmadılar, ağ keçəylə bürünmüş mərhum Qazanqap da yedəkdə arxası üstə uyuyurdu, onun yanında kürəkəni, Ayzadənin əyyaş əri oturmuşdu, vəziyyətdən istifadə edən it tez özünü traktorun təkərinin dibinə verib dal ayağını qaldırdı.

Göylərin altında yatıb qalmış böyük Sarı-Özək düzlərinin sonu görünməsə də, Ana-Beyit qəbiristanlığına yol yox idi. Hamı bu tikanlı çəpərin qabağında çaşıb qalmışdı.

Sükutu birinci Caydaq Ədilbəy pozdu:

– Nə var, Yedigə, məgər bu əvvəllər burda yox idi?

– Heç izi-tozu yox idi! Birinci dəfədir görürəm.

– Belə çıxır ki, sahəni xüsusi məqsədlə çəpərə alıblar. Bəlkə kosmodrom üçündür? – deyə Caydaq Ədilbəy öz gümanını bildirdi.

– Belə görünür. Yoxsa bu qədər havayı zəhmət çəkməzdilər – boş düzəngahda bu boyda həngamə nəyə lazım, – deməli, kiminsə ağlı belə kəsib. Kimin ağlına nə gəlir, onu da eləyir, lənət şeytana! – deyə Yedigey deyindi.

– Daha burda deyinib-danışmağın mənası yoxdur, – yaxşısı budur ki, bu uzunluqda yolu gəlməmişdən hər şey yerli-yataqlı öyrənileydi, sonra da dəfn eləməyə gələydik, – deyə Sabitcan məzəmmətlə deyindi.

Üzüntülü bir sükut yarandı. Boranlı Yedigey Qaranərin üstündən yanında dayanmış Sabitcana yuxarıdan aşağı kinli bir nəzər saldı.

– Bilirsən nə var, əzizim, bir balaca səbrin olsun, əl-ayağa düşmə, – deyə Yedigey mümkün qədər sakit danışmağa çalışdı. – Əvvəllər burda məftil-zad yox idi, mən ovcumu iyləməmişdim ki?

– Mən də elə bunu deyirəm, – Sabitcan donquldanıb arxasını ona çevirdi.

Yenə də susdular. Caydaq Ədilbəy fikirləşib çıxış yolu axtarırdı.

– Yaxşı, indi nə cür olsun, Yedigey? Məsləhətin nədir? Qəbiristanlığa başqa bir yol-iz yoxdur?

– Olsun gərək. Niyə də olmasın? Burdan sağa, beş kilometrlik də yol var, – deyə Yedigey ətrafına nəzər salaraq cavab verdi. – Gəlin o səmtə gedəyin, ola bilməz ki, bir yolu olmasın – ya gərək girişi olsun, ya da çıxışı.

– Yəni o tərəfdə doğrudan yol var? – deyə Sabitcan yekə-yekə soruşdu. – Yoxsa elə çıxmasın ki, kor atı minib köndələn gedək!

– Var, var, – deyə Yedigey təsdiqlədi. – Oturun gedək. Vaxt itirməyinə dəyməz.



Təzədən düzəldilər yola. Yenə də arxadan traktorların tırıltısı eşidildi. Tikanlı məftilin böyrü ilə gedirdilər.

Yedigey çox nigarandı. Gördükləri onu lap çaşdırmışdı. Belə də iş olar, ürəyində çox məyus olmuşdu, – hər tərəfi bağlayıblar, amma qəbiristanlığa gedən yol üçün izdən, nişandan bir işarə də qoymayıblar. Sən bir dünyanın əməlinə bax! Hər necə də olsa ümidini hələ tamam itirməmişdi – ola bilməz ki, bu cənub tərəflərdə bir işarəyə-filana rast gəlməsinlər. Elə belə də oldu. Düz şlaqbaumun üstünə çıxdılar.

Şlaqbauma yaxınlaşanda Yedigey buraxılış məntəqəsinin çox əsaslı, möhkəm tikilisinə fikir verdi: kənarlarda monolit dəmir-beton sütunlar qoyulmuşdu, giriş yolunun lap kənarında kərpicdən tikilmiş ev görünürdü, evin müşahidə üçün geniş, sal şüşəli pəncərəsi vardı, yastı damında bir cüt projektor qoyulmuşdu – görünür gecələr yolu işıqlandırmaq üçün idi. Şlaqbaumdan o yana asfalt yol gedirdi. Yedigey bu səliqə-sahmanı görəndə çox narahat oldu.

Onların yaxınlaşmasıyla gözətçi postundan cavan, sarışın, bığ yeri təzəcə tərləmiş, çiynindən üzüaşağı avtomat sallanmış bir əsgər çıxdı. Görkəminə rəsmiyyət vermək üçün gələ-gələ köynəyinin qırışlarını dartışdırır, papağını düzəldirdi. O, sərt bir görkəmlə zolaqlı şlaqbaumun tən ortasında dayandı. Amma, buna baxmayaraq, Yedigey yolu kəsən şlaqbauma lap yaxın gələndə ona salam verməyi unutmadı.

– Salam, – deyə əlini gicgahına apar, rəsmi təzim eləyib hələ də uşaqlıq yağan açıq mavi gözləriylə Yedigeyə baxıb soruşdu:

– Kimsiz? Hara gedirsiz?

– Biz buralıyıq, soldat, – deyə Yedigey onun uşaq ciddiyyətinə baxıb gülümsündü. – Ölü aparırıq, qocalarımızdan biri rəhmətə gedib, bizim qəbiristanlığımızda basdırmaq istəyirik.

– Buraxılış vərəqəsi yoxdursa, olmaz, – deyə başını bulayıb, kövşək eləyən Qaranərin iti dişli ağzından bir az kənara çevrildi. – Bu sahə nəzarət altındadır, – deyə o, məsələnin nə yerdə olduğunu başa saldı.

– Bunu başa düşürəm, axı biz qəbiristanlığa gedirik. Lap yaxındadır. Burda nə var ki? Basdırıb qayıdırıq.

– Olmaz! İxtiyarım yoxdur, – deyə gözətçi cavab verdi.

– Mənə bax, əzizim. – Yedigey alıxdan əyildi ki, sinəsindəki döyüş orden və medalları yaxşı görünsün. – Axı biz yad adam deyilik,

biz Boranlı razyezdindənik. Eşitmiş olarsan. Dəfn eləmək lazımdır axı. Biz ancaq qəbiristanlığa gedib-qayıdacağıq.

– Başa düşürəm ey, – deyə gözətçi səmimiyyətlə cavab verib çiynini çəkdi, elə bu vaxt Sabitcan yersiz olaraq, məsul, işgüzar bir görkəmlə irəli soxuldu.

– Nə var, nə olub? Mən Vilayət Həmkarlar Şurasındanam, – deyə özünü nişan verdi. – Niyə durmuşuq?

– Ona görə ki, olmaz.

– Axı ağzımda deyirəm ki, yoldaş gözətçi, Həmkarlar Şurasından gəlmişəm.

– Hardan gəldiyinizin qətiyyən mənə dəxli yoxdur.

– Necə yəni yoxdur? – deyə Sabitcan çaşıb qaldı.

– Yoxdur, vəssalam. Bura qorunan sahədir.

– Daha onda baş aparmaq nəyə lazımdır? – deyə, heysiyyətinə toxunulmuş Sabitcan donquldandı.

– Baş aparan kimdir? Mən hörmət üçün bu dəvədəki yoldaşı başa salıram, sizlə danışan yoxdur. Ona izah eləyirəm. Əslində kənar adamlarla danışmağa heç ixtiyarım yoxdur. Mən keşikdəyəm.

– Deməli, qəbiristanlığa yol yoxdur?

– Yox, təkcə qəbiristanlığa yox, burdan o yana heç kim keçə bilməz.

– Daha burda nə söz ola bilər! – Sabitcan əsəbiləşdi. – Mən elə əvvəldən bilirdim, – deyə Yedigeyə tənə vurdu. – Bilirdim ki, bu işin axırı puçdur. Xeyr! Nə danışırsan, gərək Ana-Beyit ola! Ana-Beyit! Bu da səninçün Ana-Beyit! – O, təhqir olunmuş halda hirslə tüpürüb uzaqlaşdı.

Yedigey:

– Bağışla, oğlum, – bir ata kimi ona üz tutdu. – Aydın işdir, sən xidmət başındasan, amma indi bu mərhumu nə cür eləyək? Axı kötük deyil ki, atıb çıxıb gedək.

– Mən başa düşürəm. Mənim əlimdən nə gələr? Mənə nə buyururlar, onu yerinə yetirirəm. Mən ki rəis deyiləm.

– Hə, yamanca işə düşdük, – Yedigey çarəsizliklə səsini uzatdı. – Bəs sən özün haralardansan?

– Voloqdadanam, əmican, – deyə vəziyyətdən pərt olmuş gözətçi “o” hərfini uzadaraq uşaqcasına sevindi və gülümsədi.

– Bəs sizin Voloqdada necə, qəbiristanlıqda gözətçi dayanır?



– Nə danışırsız, əmican, gözətçi nədir! Bizlərdə qəbiristanlığa nə vaxt istəsən, haçan istəsən gələ bilərsən. Məgər iş bundadır? Axı bura qapalı sahədir. Belə görürəm, əmican, sən özün də hərbi xidmətdə olmusan, hətta vuruşmusan da, xidmətin nə olduğunu bilirsən. İstəsəm də, istəməsəm də vəzifəmdir, ayrı çarəm yoxdur.

– Elə olmağına elədir, – deyə Yedigey razılaşdı, – ancaq bir iş var ki, indi biz mərhumu neyləyək?

Onlar susdular. Əsgər bərk fikrə getdi, sonra sünbül qaşlı, aydın gözlü başını buladı, təəssüflə dedi:

– Yox, əmican, sizi içəri buraxa bilmərəm! İxtiyarım yoxdur!

– Nə deyim, – Yedigey tamam başını itirmişdi.

O, üzünü yoldaşlarına tərəf çevirə bilmirdi. Çünki Sabitcan getdikcə qızışırdı, axır Caydaq Ədilbəyə yaxınlaşdı.

– Mən, axı dedim! Bu boyda yol basmağın mənası yoxdur! Bu mövhumatdır, gerilikdir! Özünü də, bizi də işə saldı! Ölünü harda quylayırsan, quyla, nə fərqi var! Xeyr: ölsən də, patlasan da gərək Ana-Beyit ola! Sən də bu yandan ona qoşuldun – çıx get sənsiz dəfn eləyərik! Hə, indi elə görüm, necə eləyəcəksən!

Caydaq Ədilbəy cavab verməyib uzaqlaşdı.

– Mənə bax, dostum, – deyə o, şlaqbauma yaxınlaşaraq gözətçiyə müraciət etdi. – Mən də xidmətdə olmuşam, bəzi qanun-qaydalardan mənim də başım çıxır,. Burda telefon var?

– Əlbəttə var.

– Onda sən belə elə – keşik rəisinə zəng vur. Ona xəbər ver ki, yerli camaat gəlib. Ana-Beyit qəbiristanlığına getmək üçün icazə istəyir.

– Nə cür? Nə cür? Ana-Beyit? – deyə gözətçi bir də soruşdu.

– Hə, Ana-Beyit. Bizim qəbiristanlığın adı belədir. Zəng vur, dostum, daha ayrı çarəmiz yoxdur. Qoy o özü şəxsən bizə icazə alsın. Bizi də, əmin ola bilərsən, qəbiristanlıqdan başqa heç nə maraqlandırmır.

Gözətçi ayağının birini boşaldıb o birinin üstündə duraraq alnını qırışdırıb fikrə getdi.

– Sən tərəddüd eləmə, – deyə Caydaq Ədilbəyə onu arxayın elədi. – Hər şey nizamnamə üzrədir. Posta kənar adamlar gəlib. Sən də keşik rəisinə məlumat verirsən. Vəssalam, qurtardı getdi. Daha bu olmadı ki! Məlumat vermək sənin borcundur.

– Di yaxşı, – gözətçi razılaşdı, – indi zəng vuraram. Bircə bu var ki, keşik rəisi bir yerdə durmur, sahədə maşınla postları gəzir. Ərazini də özünüz görürsünüz.

– Bəlkə icazə verəsən mən də yanında durum? – deyə Caydaq Ədilbəy xahiş elədi. – Bəlkə bir şey-zad demək lazım oldu.

– Di yaxşı gəl, – gözətçi razılıq verdi.

Onlar gözətçi binasına girdilər. Qapı açıq olduğu üçün Yedigey hər şeyi eşidirdi. Gözətçi harasa zəng vurur, hey keşik rəisini soruşurdu. Amma tapa bilmirdi.

– Yox, mənə keşik rəisi lazımdır! – deyə o, izahat verirdi. – Şəxsən özü... Burda vacib iş var.

Yedigey əsəbiləşirdi. Axı bu keşik rəisi hara itib-batdı? Eh, adamınkı gətirməyəndə gətirmir!

Axır ki, tapıldı.

– Yoldaş leytenant! Yoldaş leytenant! – deyə gözətçi həyəcanlı, zil səslə danışırdı.

Nəhayət, məlumat verdi, dedi ki, yerli adamlar gəlib, ölülərini buradakı qəbiristanlıqda dəfn eləmək istəyirlər. Necə olsun? Yedigey gərildi. Leytenant desə ki, burax, vəssalam, iş düzələcək! Halal olsun Ədilbəyə! Ağlı başında olan oğlandır. Amma nədənsə gözətçinin söhbəti uzanırdı. İndi o, təkcə suallara cavab verirdi:

– Hə... Neçə nəfər? Altı adamdır. Mərhumla yeddi. Bir qoca rəhmətə gedib. Onların böyüyü dəvəyə minib. Sonra yedəkli traktor. Traktorun ardınca ekskavator da var, hə... Dediklərindən belə çıxır ki, qəbri qazmaq üçündür... Nə cür? Bəs mən nə deyim? Deməli, olmaz? İcazə yoxdur? Oldu, baş üstə!

Bu yerdə Caydaq Ədilbəyin səsi eşidildi. Görünür, dəstəyi əlinə keçirə bilmişdi.

– Yoldaş leytenant! Bizim vəziyyətimizi nəzərə alın. Biz Boranlı razyezdindən gəlmişik, yoldaş leytenant. Bəs indi nə cür olsun axı? Vəziyyətimizi nəzərə alın. Biz yerli adamlarıq, əlimizdən heç bir pis iş gəlməz. Mərhumu dəfn eləyib, o dəqiqə də geri qayıdırıq... Eh! Nə cür? Axı belə də olmaz! Di yaxşı, gəlin, gəlin özünüz görüb inanarsız! Bizim burda bir qoca var, cəbhəçi olub, vuruşub, onu başa salın.

Caydaq Ədilbəy gözətçi otağından qanıqara çıxdı, amma dedi ki, leytenant özü gəlib sözünü elə burda deyəcək. Ədilbəyin ardınca gələn gözətçi də eyni sözləri dedi. Gözətçi indi özündə bir yüngüllük



duyurdu, çünki məsələni keşik rəisi özü həll edəcəkdi. O arxayınlaşıb zolaqlı şlaqbaumun qabağında var-gəl eləyirdi.

Boranlı Yedigey fikrə getdi. Kim bilirdi ki, iş belə tərs gətirəcək? Leytenantı gözləməkdən başqa ayrı çarə yoxdur. Leytenant gələnə kimi Yedigey düşdü, dəvəni yedəkləyib ekskavatorun yanına çəkdi, ipini çalova bağladı. Sonra şlaqbaumun yanına qayıtdı. Traktorçular – Qalibəylə, Cümaəli öz aralarında söhbət eləyib, siqaret tüstülədirdilər. Sabitcan hamıdan aralı əsəbi halda gəzişirdi. Qazanqapın kürəkəni Ayzadənin əri yenə də yedəkdə mərhumun cənazəsi yanında oturmuşdu.

– İş nə yerdədir, Yedigə, bizi içəri buraxacaqlar? – deyə o, Yedigeydən soruşdu:

– Gərək ki, buraxsınlar. Bu saat rəis özü, leytenant gəlməlidir. Axı bizi niyə buraxmasınlar? Şpion-zad ha döyülük! Sən də o yedəkdən bir aşağı düş, gəzin elə, bir az ayağının üyüşüyü açılsın.

Artıq saat üç idi. Yolları çox uzaq olmasa da hələ ki, Ana-Beyitə çatmamışdılar.

Yedigey gözətçinin yanına qayıtdı.

– Oğlum, sən bilən sizin bu rəisi çoxmu gözləməli olacağıq, – deyə ondan soruşdu.

– Yox, indilərdə gəlib çıxar. Maşını var. Burdan on-on beş dəqiqəlik yoldur.

– Nə deyirəm ki, gözləyək. Buralar çoxdanmı belə tikanlı çəpərə alınıb?

– Hə, xeyli vaxtdır. Çəpəri biz vurmuşuq. Mən burda bir ildir ki, xidmətdəyəm. Təxminən yarım il olar çəkilməyi.

– Belə de! Çəpərin çəkilməyindən heç mənim xəbərim olmayıb. Buna görə də işimiz düz gətirmədi. İndi belə çıxır ki, günah məndədir, çünki mərhumun burda dəfn olunmasını mən demişəm. Burda bizim qədim qəbiristanlığımız var – Ana-Beyit. Rəhmətlik Qazanqapsa çox yaxşı adamdı. Otuz il razyezddə bir yerdə işləmişik. Dedik hörmətli olsun.

Əsgərdə, görünür, Boranlı Yedigeyə rəğbət oyanmışdı.

– Mənə bax, əmican, – deyə o, işgüzarlıqla məsləhət verdi. İndi keşik rəisi leytenant Tansıkbayov gələcək, sən vəziyyəti olduğu kimi ona danış. Bəyəm o adam döyülmü? Qoy yuxarıya məlumat versin. Bəlkə də ordan icazə verdilər.

– Bu məsləhət üçün sağ ol, bala. Başqa cür ola da bilməz! Necə dedin – Tansıkbayov? Leytenantın famili Tansıkbayovdur?

– Hə, Tansıkbayovdur. Bura bu yaxınlarda gəlib. Nədir ki? tanışdır? Sizlərdəndir o. Bəlkə elə yaxın adamınız çıxdı.

– Yox, canım, nə danışırsan, – deyə Yedigey gülümsündü. – Bizim Tansıkbayovlar da elə sizin elə o İvanovlar kimi nə qədər desən var. elə belə bu famildən olan bir adam yadıma düşdü.

Bu məqamda telefon zəng çaldı, gözətçi ora tələsdi. Yedigey tək qaldı. Tutqun halda ətrafa nəzər salıb başını buladı, diqqət yetirdi ki, görsün "şlaqbaumdan o tərəfdən maşın-zad görünmür ki. Birdən bu o çalağangözün oğlu olar? – deyə fikrindən keçirdi və özü də özünü danladı, – gör bir ağlıma nə gəlir! Lap xərifləmişəm! Bu famil düzü-dünyanı götürüb. Yox, ola bilməz, gərək belə olmasın. Axı sonra Tansıkbayovla lazımi hesab çəkildi... Necə olmasa, yer üzündə haqq-ədalət var. Var! Lap dünya da dağılsa, haqq-ədalət həmişə olacaq...".

O, kənara çəkildi, dəsmalını çıxarıb səliqə ilə orden və medallarını, zərbəçi döş nişanını sildi parıldasın ki, leytenant Tansıkbayovun diqqətini cəlb etsin.

## XII

O çalağangöz Tansıkbayovla məsələ belə olmuşdu.

1956-cı ilin payızının sonunda Kumbel deposunda böyük mitinq çağırmışdılar, xeyli adam yığılmışdı, bütün stansiyalardan, razyezdlərdən yol işçiləri gəlmişdilər. Yerlərdə təkcə iş başında olanlar qalmışdı. Boranlı Yedigey ömründə nə qədər iclaslar görmüşdü, amma o mitinqi heç vaxt unuda bilmirdi.

Parovozların təmir sexində yığılmışdılar. İynə atsan yerə düşməzdi, bəziləri lap yuxarılara, damın altındakı taxçədirəyin üstünə dırmaşıb oturmuşdular. Ən vacibi deyilən sözlər idi – özü də nə cür sözlər! Beriya haqqında nə vardısa hamısı açılıb-töküldü. O cəlladı nifrətlə lənətlədilər, təəssüf-filan olmadı! Lap axşama kimi odlu-odlu danışdılar, deponun işçiləri özləri tribunaya çıxırdılar, bir adam da tərpənmirdi, hamı elə bil yerinə mıxlanmışdı. Təkcə həyəcanlı səslər eşidilirdi, binada elə bil meşə uğuldayırdı. Yanındakı adamlardan birinin təmiz rus ləhcəsində dediyi sözlər yadına düşdü: "Lap elə bil fırtınaqabağı



dənizdi..." Doğrudan da, eləydi ki, vardı. Ürəyi elə vururdu ki, elə bil cəbhədəki kimi bu saat həmləyə keçəcəkdi, susuzluq da bu yandan əldən salmışdı, dil-dodağı qupquru qurumuşdu. Bu boyda adamın içində su tapmaq olar? Su məqamı deyildi, gərək dözəydi. Tənəffüs vaxtı Yedigey özünü birtəhər stansiyanın keçmiş rəisi hazırda isə partiya təşkilatı katibi olan Çernova yetirdi. O, rəyasət heyətində oturmuşdu.

– Mənə bax, Andrey Petroviç, bəlkə mən də danışım?

– Həvəsin varsa, buyur...

– Həvəsim var, özü də lap çox. Ancaq əvvəlcə məsləhət eləməliyik. Yadındamı bizim razyezddə Kuttubayov işləyirdi, Abutalıb Kuttubayov. Hələ müfəttiş də ondan yazmışdı ki, guya Yuqoslaviyadakı xatirələrini yazmaqla məşğuldur. Abutalıb orada partizanlara qoşulub döyüşmüşdü. Həmin müfəttiş hələ bundan başqa da ağzına gələni uydurub yazmışdı. Beriyanın adamları gəlib yazığı apardılar. Dözə bilmədi, heç nədən öldü getdi. Yadına düşdü?

– Hə, yadımdadır, arvadı da ölüm kağızını aparmağa gəlmişdi.

Hə, hə, özüdür ki, var! Sonra da ailəsi çıxıb getdi. İndi mən söhbətlərə fikir verə-verə fikirləşirdim. Yuqaslaviyayla biz dostuq – aramızda heç bir narazılıq-filan yoxdur. Bəs o günahsız adamlar nəyə görə zülm çəkməlidir? Abutalıbın uşaqları böyüyürlər, bu gün-sabah məktəbə gedəsidirlər. Haqqı nahaqdan ayırmaq lazımdır. Yoxsa yazıqlara göz verib-işıq verməyəcəklər. Tifillər onsuz da zülm içindədirlər – atalarını itirdilər.

– Bir səbr elə, Yedigey, deməli, bu barədə danışmaq istəyirsən?

– Hə, bu barədə.

– Bəs o müfəttişin famili nədir?

– Bunu bilməyə nə var ki. Düzdür, sonralar onu görməmişəm.

– Bunu kimdən öyrənə bilərsən ki? Bir də əlində sənədin-sübutun varmı ki, doğrudan da yazan o olub?

– Daha ondan başqa kim olacaqdı?

– Burda faktiki dəlil-sübut lazımdır, əzizim Boranlı. Belə şeylə zarafat olmaz. Bilirsən nə var, Yedigey, sən mənə bir əməlli qulaq as, gör nə deyirəm. Bütün bu dediklərim haqqında Alma-Ataya məktub yaz. Hər şeyi nə cür var, elə o cür də yaz, respublika partiyasının MK-na göndər. Orda mütləq ayırd elərlər. Partiya belə şeylərlə ciddi məşğul olur. Bunu özün görürsən.

Həmin mitinqdə Boranlı Yedigey də hamı ilə bərabər ürəkdən qışqırırdı: "Partiyamıza eşq olsun! Partiyanın xəttini ürəkdən bəyənirik!". Sonra da mitinqin axırında kim isə İnternasional oxudu. Onun səsinə bir neçə adam da səs verdi, heç bir dəqiqə də keçmədi ki, izdiham deponun dam-dirəyini titrədən, bütün dövrlərdə zülmə, əsarətə məruz qalmış adamların bu böyük himnini bir nəfər kimi, bir ağızdan oxumağa başladı. Yedigey heç vaxt bu boyda izdihamla ağız-ağıza verib oxumamışdı. Dünyanın təri və duzu ilə dolanan adamlara birlik hissindən doğan təntənəli qürur və acı sanki onu dalğalar üzərində qaldırıb özü ilə apardı. Kommunistlərin himni getdikcə genişlənir, ucalır, kütlələrin səadət hüququnun təsbit və müdafiəsi üçün ürəklərdə mərdlik və cəsarət hisslərini coşdururdu. Çox vaxt həyəcanlı dəqiqələrində olduğu kimi bu dəfə də Yedigeyə elə gəlirdi ki, yenə Aral dənizindədir. Onun ruhu azad bir qağayı kimi köpüklənən dalğaların üstündə cövlan edir.

Elə bu cür fərəhli əhval içində də evə qayıtdı. Elə çay için-içə mitinqdə olanları yerli-yataqlı nə vardısa hamısını Ukubalaya danışdı. Onu da dedi ki, mitinqdə az qala özü də çıxış edəcəkmiş və bununla əlaqədar indiki partkomları Çernov ona nə məsləhət verib. Ukubala ərinə qulaq asa-asa samovardan onun piyaləsinə dalbadal çay süzür, Yedigey də piyaləni piyaləyə calayıb içməkdən doymurdu.

– Sənə nə olub, bir bax samovarı boşaltdın! – deyə Ukubala gülümsünərək təəccübünü bildirdi.

– Bilirsən, hələ mitinqdə nədənsə ciyərim yanırdı. Yamanca həyəcanlanmışdım. Amma adam əlindən tərpənmək olmurdu, su harada idi. Ordan çıxandan sonra yanğımı söndürmək istəyirdim ki, gördüm biz tərəfə qatar yola düşür. Tez yüyürdüm maşinistin yanına. Öz adamımız çıxdı. Töğrək-Tamlı Candost idi. Yolda ondan su alıb içdim. Gördüm, yox, Fatıya tuman olmadı!

– Deyirəm axı, – Ukubala ərinə təzədən çay süzdü. Sonra da əlavə elədi: – Bilirsən nə var, Yedigey, lap yaxşı eləmisən ki, onlar barədə canıyananlıq eləmisən. Abutalıbın uşaqlarını deyirəm. İndi ki, vəziyyət belədir, indi ki, zəmanə dəyişib daha tifilləri gözümçıxdıya salmayacaqlar, sən də bir mərdlik elə. Məktub pis fikir deyil, amma o məktub yazılası, göndəriləsi, oxunulması, nə bilim hələ bu məktubun üstə fikirləşiləsi... Gör nə qədər çəkər, yaxşısı budur elə özün get Alma-Ataya. Nə olubsa, hamısını özün danış.



– Deməli, deyirsən ki, gedim. Alma-Ataya? Birbaşa böyüklərin yanına?

– Bəs nə, iş üçün gedirsən də? Neçə vaxtdır dostun Yelizarov çağırır ki, gəl. Hər dəfə də sənin üçün ünvan qoyur. Mən evdən tərpənə bilmərəm, uşaqları neyləyim, kimin yanında qoyum? Amma sən ləngimə. Məzuniyyət götür. Üst-üstə yığsan yüz illik məzuniyyət edər. Heç olmasa bir dəfə məzuniyyətini götür get ora, hər şeyi böyük adamlara danış.

Yedigey arvadının ağıllı tədbirinə heyrət elədi.

– Hə, arvad, deyəsən ağıllı söz danışırsan. Gəl bir yaxşı fikirləşək.

– Çox fikirləşməyin mənası yoxdur. O məqam deyil. Nə qədər tez eləsən yaxşıdır. Afanasi İvanoviç də sənə kömək eləyər. Axı o hara, kimin yanına getməyi daha yaxşı bilir.

– Bu da düzdür.

– Mən də elə bunu deyirəm. Ləngitməyinə dəyməz. Həm də ev-eşik üçün bir az xam-xurd alarsan. Qızlar da böyüyüblər. Saulə payızda məktəbə gedəcək. İnternata qoyuruq, ya qoymuruq, heç bu barədə fikirləşmisən?

– Bəs necə, əlbəttə, əlbəttə, – qızlarından ilklərinin belə tez böyüdüyünü və artıq məktəbə getməli olduğunu sanki indicə anlayan Yedigey heyrətini gizlətməyə çalışdı.

– Hə, lap yaxşı, indi ki, fikirləşmisən, – deyə Ukubala davam elədi, – get, o vaxt başımıza gələnləri danış, qoy görsünlər nələr çəkmişik. Qoy heç olmasa atalarının təmizə çıxmasında tifillərə kömək dursunlar. Sonra da vaxtın olsa, dükanları gəzib dolan, gör qızlara yarıyan nə görürsən, elə mənimçün də bir şey tapsan, pis olmaz. Axı mən də daha təzə gəlin deyiləm, – dedi və astadan köksünü ötürdü.

Yedigey arvadına baxdı. Qəribədir ki, həmişə görüşdüyün bir adamda əvvəllər görmədiyin bir şeyi sonra birdən görürsən. Əlbəttə, o, təzə gəlin deyildi, amma indidən qocalıq haqqında danışmağına da dəyməzdi. Hər halda, onun görkəmində əvvəllər görmədiyi nəsə başqa bir əlamət vardı. Hə, anladı – arvadının baxışlarında müdrik bir sərrastlıq duyulurdu, bir də ki saçlarında gümüşü tellər əmələ gəlmişdi. Gicgahındakı bu ağ tüklər ya üç olardı ya da dörd, amma hər halda bu ötən ömür-gündən, bir də görüb-götürdüklərindən xəbər verirdi.

Yedigey ertəsi gün Kumbel stansiyasındaydı, özü də bu dəfə sərnişin kimi gəlmişdi. Bəli, Alma-Ata qatarına minmək üçün Boranlıdan

geriyə qayıtmalı olmuşdu. Yedigey buna təəssüf eləmirdi. Fərqi yox idi, onsuz da əvvəlcə öz gəlişi haqqında Yelizarova teleqram vurmalıydı. Bunu da stansiyadan başqa heç yerdə eləmək olmazdı.

Sonra da Moskva – Alma-Ata qatarı gəldi. Yedigey doğma razyezdi Boranlıdan ötərək elə bu qatarla da getdi. Onun yeri – kupeli vaqonun yuxarı yatağında idi. Şey-şüyünü yerbəyer eləyib, dəhlizə çıxdı, pəncərə qabağında dayandı ki, öz razyezdini ötürməyib, qatardan sərnişin kimi ona tamaşa eləsin. Sonra da öz yerinə qalxıb yata bilərdi, şükür ki, qabaqda hələ iki günlük yolu vardı. O, əvvəlcə bu fikirdə olsa da, elə ikinci gün bu məcburi bekarçılıqdan özünə yer tapa bilmirdi. Böyrünü yerdən qaldırmayan, peşələri yeyib-yatmaq olan bir adamlarına təəccüblə baxırdı.

Amma, ev-eşiyindən uzun müddətə ayrılmağa adət etmədiyi üçün həyəcan keçirsə də birinci gün, xüsusən ilk saatları nəsə bir sevinc duyurdu. O, həyəcanlı halda pəncərə qabağında dayanmışdı, səliqə ilə geyinmişdi – başına bu səfər münasibətilə stansiya mağazasından aldığı şlyapa qoymuşdu, təmiz köynək, köynəyin üstündən də Qazanqapın indiyəcən yaxşı qoruyub saxladığı hərbi kitelini geymişdi. Kitelin yaxası yarıya qədər açıqdı. Kiteli geyinməyi Qazanqap özü təkid eləyib demişdi ki, döşündəki orden-medallarla qalife şalvarda, uzunboğaz zabit çəkmələrində görkəmin daha yaxşı olar. Bu çəkmələri azaz geysə də, Yedigeyin çox xoşuna gəlirdi. O belə hesab eləyirdi ki, adama sanbal verən hər şeydən əvvəl yaxşı çəkmə, bir də təzə baş geyimidir. Bu şeylərin ikisi də onda vardı.

Beləcə pəncərə qabağında durmuşdu. Gəlib-keçənlər ona nəzər yetirir, yanından hörmətlə ötürdülər. Boranlı Yedigey başqalarından öz görkəminə görə seçilirdi.

Qatar isə var gücü ilə yazlamış Sarı-Özəyin ucsuz-bucaqsız çölləriylə şütüyür, sanki irəlilədikcə qabağa qaçan üfüq xəttinə yetməyə tələsirdi. Bütün yer üzündə təkcə iki aləm vardı – səma, bir də sonsuz düzənlik. Bunlar da uzaqlarda bir işıq zolağı kimi birləşirdi, sürət qatarı da elə ora tələsirdi... Bu da Boranlı... Burda hər cadar, hər daş ona tanışdır. Qatar Boranlıya yaxınlaşanda Yedigey yerindən qalxdı. Bığaltı gülümsünüb, pəncərəyə yaxın durdu, sanki burdan ayrıldığı, bu yerləri tərk elədiyi uzun illərdi. Bax bu da razyezd. Semafor, evlər, yardımçı tikililər, anbarın yanındakı şpal qalaqları, dəmiryolunun böyründə yerləşmiş, geniş düzün ortasındakı bu şənlik sanki ayaq açıb



geriyə qaçırdı. Yedigey hətta öz qızlarını da gördü. Onlar çox güman ki, bu gün qərbdən şərqə gedən bütün qatarları güdürdülər. Səulə də, Şərafət də sevincək atılıb-düşür, gəlib-keçən vaqonların pəncərələrinə əl eləyirdilər. Onların balaca hörükləri yellənir, gözləri də par-par parıldayırdı. Yedigey qeyri-iradi olaraq pəncərəyə yapışdı, onlara əl eləyib xoş sözlər dedi, ancaq qızlar ya onu görmədilər, ya da tanımadılar. Hər halda onun üçün xoş idi ki, qızları onu gözləyirlər və sərnişinlərdən heç birinin ürəyinə gəlmədi ki, elə indicə arxada qalan onun uşaqları, ev-eşiyi, razyezdi idi! Bu da heç kimin ürəyinə gələ bilməzdi ki, indi onun məşhur Qaranəri razyezdin yaxınlığındakı dəvə sürüsündə gəzir. Yedigey onu uzaqdan o saat tanıdı və gözlərinə işıqlı bir ifadə gəldi.

Evdən bir neçə stansiya uzaqlaşandan sonra Yedigey yatdı. Təkərlərin yeknəsəq taqqıltısı, vaqon qonşularının alçaqdan elədikləri söhbətin laylasıyla şirin yuxuya getdi.

Ertəsi gün günortaya yaxın Alatau dağları başlandı – bu silsilə Çimkənddən düz Yeddiçaya qədər uzanırdı. Bax dağ buna deyərəm, adam baxmaqdan doymur.

Yedigey dəmiryolu boyunca düz Alma-Ataya uzanıb gedən əzəmətli dağ silsiləsinin qarlı zirvələrinə nə qədər baxdısa, yenə də gözü doymadı. Ömrünü Sarı-Özək düzlərində keçirmiş bir adam üçün bu möcüzə, əbədiyyət mənzərəsi idi. Alataunun nəhəngliyi onu təkcə heyrətə gətirməklə qurtarmırdı, Yedigey ona tamaşa elədikcə həm də fikirləşmək ehtiyacı duyurdu. Bu onun xoşuna gəlirdi – gözün dağlarda, fikrin də uzaqlarda... Yedigey fikrən ona indiyə qədər tanış olmayan məsul adamlarla görüşə hazırlaşırdı, həmin o şəxslər ki, keçmiş səhvlərin bir daha təkrar olunmayacağını elan eləmişdilər. Elə buna görə də o, Abutalıbın ailəsinin acı taleyini onlara danışmaq istəyirdi. Qoy indi ayırd eləsinlər, bir qərara gəlib görsünlər bu işi nə cür səmtinə sala bilirlər. Abutalıbın özünü diriltmək mümkün olmasa da, heç olmasa uşaqları gözüm-çıxdıya salmasınlar, qapılar üzlərinə açıq olsun. Böyük oğlu Daul bu payız məktəbə getməlidir, qoy heç nədən çəkinmədən getsin. Görəsən indi onlar hardadır? Güngüzəranları necədir? Zərifə indi neyləyir?

Bunları xatırladıqca onun qəlbini üzücü, soyuq bir kədər bürüyürdü. Keçmişi unudub ürəyini ayrı cür kökləməyin vaxtı çatmışdı. Axı elə Zərifənin də getməkdə məqsədi bu idi ki, onu birdəfəlik

yadından çıxartsın. Ancaq bunu təkcə bir olan Allah bilir ki, yaddan çıxan nədir, çıxmayan nə! Özünü taleyinin hökmü ilə barışmağa məcbur edən Boranlı Yedigey qəm-qüssə içindəydi. İndi kimə deyəsən axı bu dərdi, kim başa düşər? Bəlkə başı göylərə dəyən bu qarlı dağlara, onlar da elə hündürdə dayanıblar ki, yerdəki adamların havarı onlara çatmır. Elə onlar buna görə Alatau dağlarıdır ki, çoxları bu dünyaya gəlib köçürlər, onlar isə bir əbədiyyət kimi durub qalırlar, qalırlar ki, çoxları onlara baxıb fikrə getsinlər, onlar isə pozulmaz bir sükutla durub baxsınlar...

Yedigey bunu da xatırladı ki, Abutalıb "Rəhimalı ağanın qardaşı Əbdülxana müraciətini" yazandan sonra bu haqda çox düşünərdi, necə oldusa, bir dəfə özü ona demişdi ki, Rəhimalı ağayla Bəyimay kimiləri rast gələndə bir-birinə xoşbəxtlik qədər də bədbəxtlik gətirirlər, bir-birini başqalarının mühakiməsinə məruz qalmaq kimi çıxılmaz faciə girdabına dartırlar. Elə buna görə də yaxın adamları, guya yaxşılıq xətrinə, Rəhimalı ağaya zülm elədilər, çünki başa düşdükləri buydu. Nə qədər ki, özü yanar oda düşməmişdi, bunun nə qədər haqlı olduğunu öz ürəyində yoxlamamışdı, Abutalıbın bu sözlərinə ancaq quruca ağıllı söz kimi baxırdı. Əlbəttə, Zərifəylə o bu əhvalatdan yerlə göy qədər uzaq olsa da, Zərifəylə onun arasında heç bir şey olmasa da, hər halda Zərifə haqqında çox fikir eləyir, onu çox sevirdi. Amma Zərifə zərbəni birinci özü-öz üzərinə götürdü ki, onu həlli mümkün olmayan bu işdən xilas eləsin. Qəti qərara gəlib dırnağı ətdən bir dəfə ayırdı, amma onun halını nəzərə almadı, düşünmədi ki, bu əməli Yedigeyə *baha başa gələcək. Şükür ki, hələ sağ-salamat qalıb.* İndi hərdən ürəyi elə sıxılır ki, desələr get dünyanın o başına, lap yüyürə-yüyürə gedər, təki onu görə bilsin, heç olmasa bircə dəfə səsini eşitsin...

Yedigey öz-özünə gülümsəyərək bunu da xatırladı ki, Abutalıbdan eşidəndə Almaniyada çox görkəmli böyük bir şair var, adı da Getedir. Onun adı qazaxca bir o qədər xoş səslənməsə də, məsələ bunda deyil, hər kəs taleyin verdiyi adla yaşayır. Qoca Gete deyilənə görə, sinni yetmişi aşanda cavan bir qıza vurulur, elə qız özü də bir könüldən min könülə ona aşiq olur. Bu əhvalatı da hamı bilirmiş, heç kim Geteyə dəli deməyib, əl-ayağını ağaca sarımayıb... Bəs Rəhimalı ağaya nə cür divan tutublar! Yazığı alçaldıblar, məhv eləyiblər, adını da qoyublar ki, guya yaxşılıq eləmək istəyirmişlər... Elə Zərifə özü də ona yaxşılıq eləmək istəyib, buna görə də öz vicdanının səsinə qulaq asıb hərəkət



eləyib... Buna görə də Zərifədən incimir. Məgər sevdiyin adamdan incimək olar? Əksinə, özünü daha ittiham eləyib, günahkar biləcəksən. Qoy nə zülm olursa sənə olsun, təki ona xətər yetişməsin... Kişiliyin çatırsa, səni qoyub gedəndən sonra onu unutma, sev... Boranlı Yedigey elə bu xəyal içində Zərifəni xatırlayıb, sevə-sevə, Abutalıbın yetim qalmış uşaqlarının fikrini çəkə-çəkə yolunu gedirdi...

Alma-Ataya yaxınlaşanda Yedigey narahatlıqla fikirləşdi ki, birdən Yelizarov yerində olmaz! Heç bu da sözdür! Nədənsə bu fikir onun ağlına evlərində gəlməmişdi. Heç Ukubala da bu barədə bir söz deməmişdi. Gümanları özlərinə getmişdi. Özləri Sarı-Özəkdən kənara addım atmırlarsa, elə bilirdilər ki, elə hamı onlar kimidir. Axı çox ola bilsin ki, Afanasi İvanoviç evdə olmasın. Kişi akademiyanın özündə işləyir, hər yerdə ona ehtiyac var, bəyəm belə bir alimin işi-gücü yoxdur? Ezamiyyətə gedə bilər, özü də lap uzun müddətə. "Əcəb işə düşdük!" – deyə Yedigey həyəcanlandı. Fikirləşdi ki, belə olan tərzdə gərək qazax dilində çıxan qəzetlərinə müraciət eləyə, hər nömrənin axırında redaksiyanın ünvanı göstərilir. Orda yəqin ona məsləhət verərlər ki, kimə, nə cür müraciət eləsin. Belə məsələni qəzet işçiləri də bilməsə, kim biləcək, onda daha nə oldu! Evdə ona hər şey asan görünürdü – nə var ki, yığış, düş yola. İndisə mənzil başına yaxınlaşdıqca Boranlını nədənsə nigarançılıq basırdı – havayı yerə deməyiblər ki, pis ovçu həmişə evində xəyalında ov vurur. Elə o da bu ovçuların tayıdır. Əlbəttə, bu yerdə Yelizarova ümid bağlamışdı. Yelizarov öz adamıdır, çoxdankı dostudur, dəfələrlə razyezddə onun evində olub, *Abutalıb Kuttubayov əhvalatını da bilir*. Tapılsaydı, heç ağzını açmamış onu başa düşərdi, bəs tanış olmayan adamlara nə deyəsən, nədən başlayasan, sözü ağzında nə cür bişirib çıxardasan – məhkəmədə olan kimi şahidlik eləyəsən, məlumat verəsən, ya başqa cür? Ona qulaq asacaqlarmı, cavabında nə deyəcəklər? Bir də görək axı sən özün kimsən, Abutalıb Kuttubayovu təmizə çıxarmaq üçün niyə hamıdan çox sən canfəşanlıq eləyirsən, məqsədin nədir axı? Onun nəyisən – qardaşısan, kirvəsisən, yeznəsisən, nəyisən axı!

Yedigey bu fikirlərdə ikən qatar artıq Alma-Atanı ətəkləmişdi. Sərnişinlər yır-yığış eləyib vaqonun dəhlizində qatarın dayanmağını gözləyirdilər. Yedigey də hazır durmuşdu. Budur, vağzala çatdılar, bu da son mənzil. Perron adamlarla doluydu – yola salan kim, qarşılayan kim, nə cür desən adam vardı. Qatar tədricən dayandı. Birdən Yedigey

perronda qaynaşan adamların arasında Yelizarovu gördü, lap uşaqtək sevindi. Yelizarov ona tərəf şlyapasını yelləunder, özü də vaqonla yanaşı addımlayırdı. Hə, bəxti gətirmişdi! Onu Yelizarovun özü qarşılayacağını heç ağlına belə gətirməzdi. Onlar çoxdan görüşmürdülər, lap keçən payızdan bəri. Yox, Afanasi İvanoviç dəyişməmişdi. Elə həmişəki kimi qayışbaldır, özü də qayır-qayır qaynayırdı. Qazanqap ona arqamak deyərdi – yəni cins cədər atı. Arqamak Afanasi ayaması balaca tərif döyüldü. Yelizarov bunu bilir – və təbəssümlə razılaşırdı – qoy sən deyən olsun, Qazanqap! Sonra əlavə edib deyirdi ki, qoca arqamak olsam da, hər halda arqamakam! Elə bu tərifinə görə də sağ ol! Yelizarov adətən Sarı-Özəyə iş paltarında gələrdi. Kirz çəkmələr geyər, köhnə-külə kepkasını qoyardı, indisə tünd-göy kostyum geyib, qalstuk taxmışdı. Bu kostyum da elə bil əyninə biçilib, xüsusilə saçlarının rənginə çox yaraşırdı – saçlarının yarıdan çoxu çallaşmışdı.

Qatar dayananacan Afanasi İvanoviç vaqonla böyür-böyürə gedir, pəncərə qabağında duran Yedigeyə baxıb gülümsünürdü. Ağımtıl kirpikli ala gözləri bu görüşdən məmnun halda gülümsünürdü. Bu Yedigeyi ürəkləndirdi. Şübhələri bircə anda yox oldu. "Əvvəli, deyəsən, yaxşı gətirib – deyə məmnun halda fikirləşdi, – Allah qoysa, səfərim uğurlu olacaq".

– Axır sən də gəlib çıxarmışsan! Gün hardan çıxıb, görəsən! Salam, Yedigey! Xoş gəlmisən, ay Boranlı! – deyə Yelizarov onu qarşıladı.

Onlar ürəkdən qucaqlaşdılar. Yedigey qaynaşan izdiham içində sevincdən özünü bir qədər itirmişdi. Onlar vağzal meydanına çıxana kimi Yelizarov onu sorğu-suala tutdu. Hamının bir-bir kefini soruşdu – Qazanqap, Ukubala necədir, uşaqlar yaxşıdırmı, indi razyezddin rəisi kimdir, hətta Qaranəri də unutmadı.

– Sənin Qaranərin oralarda neyniyir? – deyə nəyəsə gülümsünə-gülümsünə soruşdu. – Yenə də elə şir-pələng kimi nərə çəkirmi?

– Gəzir özü üçün. Nərə çəkməyib neyləsin, – deyə Yedigey cavab verdi. – Sarı-Özəyin düz-dünyası əlində deyilmi! Daha başqa nə təmənnası ola bilər?

Vağzalın yanında işım-işım işıldayan böyük, qara bir maşın durmuşdu. Yedigey beləsini ilk dəfəydi görürdü. Bu əllinci illərin ən yaxşı maşını – ZİM idi.

– Bu da mənim Qaranərimdir! – Yelizarov zarafat elədi, – Otur, Yedigey, – o, maşının qabaq qapısını açdı.– Gedək.



– Bəs maşını kim sürəcək? – deyə Yedigey soruşdu.

– Özüm, – dedi Yelizarov və rulun arxasına keçdi. – Görürsən ki, qoca vaxtımda yorğalıq həvəsinə düşmüşəm. Bizim amerikalılardan haramız əskikdir?

Yelizarov inamla motoru işə saldı. Yerdən tərpənməmiş gülümsünüb suallı nəzərlə qonağına baxdı.

– Hə, gəldiyini görüb inandım. İndi de barı, çoxmu qalacaqsan?

– Axı mən iş üçün gəlmişəm, Afanasi İvanoviç. Görək içindən nə çıxır? Əvvəlcə sizinlə bir məsləhətləşməliyik.

– Mən bildim ki, iş üçün gəlibsən, yoxsa səni o Sarı-Özəkdən dartıb çıxartmaq müşkül məsələdir, zor işdir. Belə eləyək Yedigey. İndi gedirik bizə. Bizdə qalacaqsan. Çəm-xəm eləmə! Mehmanxana-zad yoxdur! Sən mənim əziz qonağımsan, mən sizin Sarı-Özəkdə necə sən də burda elə. Sıydın sıyı bar – gərək ki, qazaxca belədir, hə! Hörmət hörmətə bağlıdır.

– Hə, belədir, – deyə Yedigey təsdiq elədi.

– Deməli, danışdıq. Mənimçün də yaxşı olar. Mənim Yuliyam Moskvaya oğlumun yanına gedib, ikinci nəvəm olub. Eşidən kimi uçdu cavanların yanına.

– İkinci nəvə! Təbrik edirəm! – dedi Yedigey.

– Daha demə, ikincisidir! – deyə Yelizarov təəccüblə çiynini çəkdi. – Özün baba olarsan, onda məni başa düşərsən. Amma hələ sən hara baba olmaq hara. Sənin vaxtında kor atı minib köndələn çapardım. Amma qəribə budur ki, bizim yaş fərqimizə baxmayaraq, bir-birimizi yaxşı başa düşürük. Yaxşı, getdik. Səni şəhəri gəzdirə-gəzdirə aparsam. Yuxarıda, bax, görürsənmi, o başında qar olan dağları? Bax ora gedirik, dağətəyi Medeoya. Səhv eləmirəmsə, mən sənə demişdim ki, bizim evimiz şəhər kənarındadır, elə kənd kimi bir şeydir.

– Yadımdadır, Afanasi İvanoviç, siz deyirdiniz ki, eviniz düz çayın qırağındadır. Həmişə suyun şırıltısını eşidirsiz.

– İndi özün hər şeyi görərsən. Gedək. Nə qədər ki, hava qaralmayıb şəhərə baxa bilərsən. Bu saat bizdə hər şey gözəldir. Bahardır, bahar! Tamam güllük-çiçəklikdir!

Vağzaldan başlanan küçə bütün şəhər boyu dümdüz gedirdi. Sonu görünməyən küçə qovaq ağaclarının və parkların arasından keçərək tədricən yuxarı qalxırdı. Yelizarov maşını yavaş sürürdü. Yol boyu nəyin harda olduğunu nişan verirdi. Göstərdiklərinin əksəriyyəti müxtəlif

böyük mağazalar, idarələr, yaşayış evləri idi. Şəhərin mərkəzində geniş, açıq meydanda bir bina vardı ki, Yedigey onun görkəmindən nə bina olduğunu o dəqiqə ayırd elədi – bu hökumət eviydir.

– Hə, Mərkəzi Komitədir, – deyə Yelizarov başı ilə təsdiq elədi.

Bu binanın yanından keçdilər, amma güman eləmədilər ki, sabah iş üçün bura gəlməli olacaqlar. Maşın sola burulanda Yedigey binalardan birini də tanıya bildi. – Bu da qazax opera teatrı idi. İki kvartal da gedəndən sonra onlar yenə buruldular, dağ səmtinə gedən Medeoya çıxdılar. Şəhərin mərkəzi arxada qaldı. Uzun bir küçə idi. Hər iki tərəfdə düzülmüş xüsusi evlərin və həyətyanı bağçaların yanından ötüb gedirdilər, dolu arxlarda dağdan gələn su qıjıltıyla axıb gedirdi. Bağ-bağat bütün gül-çiçək içindəydi.

– Gözəldir, – dedi Yedigey.

– Mən çox şadam ki, bu vaxtı gəlmisən, – deyə Yelizarov cavab verdi. – Alma-Atanın bundan gözəl vaxtı yoxdur. Qışı da yaxşıdır. Amma indi adamın ruhu qanadlanır!

Yelizarov ona iri, ala gözləriylə ötəri nəzər saldı, başını tərpədib ciddiləşdi, tutqunlaşdı və təzədən güləş gözlərindən üzünə təbəssüm qırışları yayıldı.

– Bu bahar özgə bahardı, Yedigey. Yeniliklər var. Buna görə də ömürdən-gündən getsə də, adam yaşamaq istəyir. Deyəsən, götür-qoy eləyib ağıla gəlmişik! Sən heç ömründə elə xəstələnmisən ki, sağalandan sonra həyatın qədir-qiymətini, ləzzətini təzədən duyasan?

– Nəsə yadıma gəlmir, – deyə Yedigey tam səmimiyyətlə cavab verdi. – Ola bilsin ki, kontuziyadan sonra...

– Əşi, sən lap div kimi möhkəmsən! – deyə Yelizarov gülümsündü. – Mən bunu nəzərdə tutmurdum. Sözgəlişi dedim. Hə, onu deyirəm axı, ilk addımı partiya özü atdı. Hərçənd şəxsi həyatımda bunun mənə dəxli yoxdur, amma çox razıyam. Lap cavanlıqda olduğu kimi səmimi qəlbdən sevinirəm. Kim bilir, bəlkə də qocalıqdandır? Hə?

– Afanasi İvanoviç, əslində elə mən özüm də bu iş üçün gəlmişəm.

– Necə yəni? – deyə Yelizarov onu başa düşmədi.

– Bəlkə yadınıza düşə? Mən sizə Abutalıb Kuttubayov haqqında danışmışdım.

– Bir dayan görüm, bəs necə, bəs necə! Lap yaxşı yadımdadı. Belə de... Sən lap kökünə gedirsən. Əhsən. Deməli, işi ləngitmədən, əlüstü gəlmisən.



– Əşi, bu əhsən mənim payıma düşmür. Bunu ağlıma Ukubala saldı. Ancaq nədən başlamağı, kimin yanına getməyi bilmirəm.

– Nədən başlamaq? Biz bunu gərək səninlə götür-qoy eləyək. Evdə çay içəndə tələsmədən görək ipin hansı başından tutaq. – Yelizarov bunu çoxmənalı dedi: – Zaman gör nə cür dəyişir, Yedigey, üç il bundan əvvəl belə bir iş üçün gəlməyi heç ağlına gətirə bilməzdin. Amma indi – nə qorxu var, nə hürkü. Əslində elə belə olmalıdır. Hamı gərək, bir nəfər kimi haqqın keşiyində dursun. Heç kimə də fövqəladə üstünlük verilməməlidir. Mənim başa düşdüyüm budur.

– Burda daha yaxşı baş çıxarda bilirsiniz. Bir də ki, siz alim adamsınız. – Yedigey də öz sözünü dedi. – Depoda keçirdiyimiz mitinqdə də elə bu barədə danışırdılar. Mən də elə o saat Abutalıb barədə fikirləşdim, bu ağrı ürəyimdə çoxdan qövr eləyir. Hətta mitinqdə çıxış eləmək istədim. Sözüm təkcə haqq-ədalət barədə olmayacaq. Axı Abutalıbın uşaqları qalıb, böyüyüb boy atırlar. Böyük oğlu bu payız məktəbə getməlidir.

– Bəs onlar indi hardadır, ailəni deyirəm?

– Bilmirəm, Afanasi İvanoviç, köçəndən sonra bir səs-soraq yoxdur, yaxınlarda üç il tamam olacaq, heç nə də bilmirik.

– Bunun eybi yoxdur, elə də çətin iş deyil. Axtararıq, taparıq. Bu saat əsas məsələ hüquq dili ilə desək, Abutalıbın işinə təzədən baxılmasıdır.

– Bax görürsüz, siz lazım olan sözü o saat tapdınız. Bunu bildiyim üçün də yanınıza gəlmişəm.

– Güman eləyirəm ki, gəlişin havayı deyil.

Yedigey qayıdandan heç üççə həftə keçməmiş, Alma-Atadan kağız gəldi, o ağ kağızda gözgörəti qara hərflərlə yazılmışdı ki, Boranlı razyezdinin keçmiş işçisi istintaq zamanı ölmüş Abutalıb Kuttubayovun işində cinayət tərkibi olmadığı üçün ona tam bəraət verilir. Elə bu cür də yazılmışdı! Məktubu zərərdidənin iş yerində kollektivə oxunmaq tövsiyə olunurdu.

Demək olar ki, bu sənədlə eyni vaxtda Afanas İvanoviç Yelizarovdan da məktub gəldi. Bu da əlahiddə bir məktub idi. Yedigey bu məktubu ömrünün axırına kimi ailənin vacib sənədləriylə bir yerdə saxladı, uşaqların yaş kağızı, döyüş təltifləri, cəbhədə yaralanması haqqında arayış, əmək fəaliyyəti haqqında xasiyyətnamələrlə bir yerdə...

Bu böyük məktubda Afanasi İvanoviç yazırdı ki, Abutalıb Kuttubayovun işinə belə tez baxılıb bəraət almasından çox-çox razıdır. Elə bu faktın özü – zamanın böyük qələbəsidir. Belə yazırdı ki, bu bizim özümüzün öz üzərimizdə qələbəmizdir.

Daha sonra yazırdı ki, Yedigey gedəndən sonra o yerə ki məsləhətləşib getmişdilər, həmin idarədə bir də oldu və çox mühüm yenilik öyrəndi. Əvvəla, müstəntiq Tansıkbayov qüsurlarına görə işdən kənara atılıb, aldığı təltiflərdən məhrum edilib, özü də məsuliyyətə cəlb olunub. İkinci də yazırdı ki, ona verilən məlumata görə, Abutalıb Kuttubayovun ailəsi, sən demə, Pavlodarda yaşayır (gör bir gedib haralara çıxıblar), Zərifə məktəbdə müəllimə işləyir. Hazırda ailə vəziyyəti – evlidir, ərə gedib. Bu rəsmi məlumat onun yaşadığı yerdən göndərilib. Sonra da yazırdı ki, Yedigey, o müfəttiş barədə sənin şübhələrin, işə təzədən baxılanda tamam doğru çıxdı – sən demə, Abutalıb Kuttubayov haqqında donosu elə o özü yazıbmış. "Bunu nəyə görə yazıb, bu əclaflığa onu nə vadar eləyib? Mən bu barədə çox fikirləşdim, bu əhvalata bənzər işləri də xatırladım, sən deyənləri də bununla tutuşdurdum, Yedigey. Bu tutuşdurmaqla da onun qərəzini başa düşmək istədim. Yox, buna cavab verməyə çətinlik çəkirəm. Bunu özüm də aydın eləyə bilmirəm ki, onunçün tamam bir yad olan bir adama – Abutalıb Kuttubayova bu nifrət nəylə bağlıdır. Görünür bu da belə yoluxucu xəstəlikdir, tarixin müxtəlif dövrlərində düzü dünyanı ağzına götürür. Həm də ola bilsin ki, başqalarının məhvinə çalışmaq kimi meyllər elə ibtidai insan təbiətində gizli şəkildə yaşayır, bu paxıllıq deyilən şey tədriclə adamın təbiətini yoxsullaşdırır, axırda qoddarlığa gətirib çıxarır. Axı Abutalıbın şəxsiyyəti nə paxıllıq oyada bilər? Bu da mənim üçün qıfılbənddir. Onu böhtanlayıq, ləkələmək məsələsinə gəlincə, bu üsul dünyanın özü qədər köhnədir. Bir zamanlar birinə qara yaxıb desəydilər ki, dinsizdir, – bəs idi. Onu Buxara bazarında daş-qalaq edərdilər, Avropadasa yandırardılar. Bu barədə sən gələndə çox danışmışıq, Yedigey. Abutalıbın işinə təzədən baxılandan sonra tfaktlar aydınlaşanda bu qənaətə gəlirəm: adamları bir-birini gözü götürməmək kimi naqislikdən xilas eləmək üçün hələ çox vaxt lazım olacaq. O qədər uzun vaxt ki, bunu təsəvvürə gətirmək belə çətindir. Amma mən yenə də dünyaya eşq olsun deyirəm – yer üzündə haqq-ədalət olub, həmişə də olacaq. Bax bu dəfə də o ədalət yenə də qalıb gəldi. Çox baha başa gəlsə də, amma hər halda qalib gəldi. Dünya



bərqərar olduqca bu da belə olacaq. Mən çox razıyam ki, Yedigey, sən heç bir şəxsi mənfəət güdmədən həqiqətə nail oldun...".

Yedigey bir müddət məktubun təsirindən çıxa bilmədi. Həm də təəccübləndi – özündəki dəyişikliyə, aydınlığa, duruluğa təəccüb eləyirdi.

Yelizarovun məktubu onun üçün sanki hədd olmuşdu – məktuba qədər, məktubdan sonra. Məktuba qədərki fikirləri uzaqlaşan sahil kimi dumanlar içində əriyib gedirdi, məktubdan sonrakı həyatı isə günlər keçdikcə öz sakit axarıyla davam elədi, onu da unutmadı ki, bu əbədi olmasa da, uzun müddət, ömrünün axırına kimi belə davam edəcək. Ən vacibi də məktubdan bildi ki, Zərifə ərə gedib. Bu xəbər onun yenidən ağır günlər keçirməsinə səbəb oldu. Özünü bununla sakitləşdirdi ki, onun ərə getmiş olmağı əvvəlcədən ürəyinə dammış olsa da, hər halda Zərifənin harda olduğunu, uşaqlarının başına nələr gəldiyini, yad adamlar arasında nə cür dolandığını bilmirdi. Qatarla evə qayıdanda bu nisgilin ağrılarını xüsusilə bərk duymuşdu. Bunun səbəbini özü də deyə bilməzdi. Amma bu heç də onun ümumi ovqatı ilə bağlı deyildi. Əksinə, Yedigey Alma-Atadan şən, gümrah əhval-ruhiyyə ilə qayıdırdı. Yelizarovla hansı qapını açmışdısa, onları gülərüzlə qarşılayıb, başa düşmüş və əllərindən gələn xeyirxahlığı əsirgəməmişdilər. Bu da öz-özlüyündə Yedigeyin haqlı olduğunu göstərmiş, işin yaxşı nəticə verəcəyinə ümidini artırmışdı. Axırı belə də oldu. Yedigey Alma-Atadan qayıdacağı gün Yelizarov onu vağzalın yanındakı restorana nahar eləməyə aparmışdı. Qatarın yola düşməsinə hələ çox vardı. Onlar da oturub nuşcanlıqla bala-bala içir, olub-keçənlərdən danışır, ürəkdən halallaşırdılar. Həmin söhbətdə Yedigeyin başa düşdüyünə görə Afanasi İvanoviç özünün ən məhrəm ürək sözlərini danışırdı. O, keçmiş Moskva komsomolçusu, iyirminci illərdə basmaçılarla mübarizə etmək üçün Türkistan diyarına düşmüşdü, elə burda da kök atıb ömürlük qalmışdı, geologiya elmi ilə məşğul olmuşdu. O, belə hesab eləyirdi ki, bütün bəşəriyyətin Oktyabr inqilabının başladığı işə bəslədiyi ümidlər əbəs deyil. Buraxılan səhvlər bizə necə baha başa gəlmiş olsa da, bu yeni yoldakı inkişaf dayanmayıb davam edir – tarixin məğzi, mənası da elə bundan ibarətdir. Bir də onu dedi ki, bundan sonra inkişaf yeni qüvvə ilə davam edəcək. Cəmiyyətin öz səhvlərini düzəltməsi, özünü təmizləməsi buna zəmanətdir. "Əgər özümüz öz üzümüzə bunu deyə biliriksə, –

deməli gələcək üçün kifayət qədər gücümüz var!" – deyə Yelizarov inamla bildirdi. Hə, nahar vaxtı onlar belə şeylər barədə əməlli-başlı söhbət elədilər. Boranlı Yedigey elə bu əhvalla da öz ev-eşiyinə, Sarı-Özəyə qayıdırdı.

Yenə də bütün Yeddiçay ərazisi boyunca uzanıb gedən möhtəşəm Alataunun, mavi – qarlı silsiləsi uzaqdan onları müşayiət edirdi. Bax, elə onda Alma-Ata yolunda qəlbindən qopan hansı bir səs isə ona demişdi ki, Zərifə gərək ki, ərə getmiş olsun.

Dağlara tamaşa eləyə-eləyə, düzlərə baxa-baxa Yedigey fikirləşdi ki, dünya yaxşı adamlardan xali deyil, sözü ilə işi-əməli düz gələn Yelizarov kimi adamlar var, belə adamlar olmasaydı, dünyada insanların işi daha da çətin ola bilərdi. Yedigey Abutalıbın işi üçün lazım olan bütün qapıları döyəndən sonra bir də zamanın etibarsızlığı dəyişkənliyi barədə fikirləşdi – əgər Abutalıb sağ qalmış olsaydı, onun üstünə atılan bu şərdən təmizə çıxardı, bəlkə də təzədən öz balalarıyla xoşbəxt həyat sürərdi. Sağ olsaydı! Elə məsələ də bundadır. Sağ olsaydı, əlbəttə, Zərifə də onu son nəfəsinə qədər gözləyərdi. Daha bunun o yan bu yanı yoxdur! O cür qadın nəyin bahasına olur olsun ərini gözlərdi. İndi ki, heç kimi gözləmirsən, əlin yerdən-göydən də üzülübsə, cavan qadın niyə tək yaşasın gərək? İndi ki, iş belə gətirib, münasib adam rast gələndən sonra niyə ərə getməsin, niyə axı? Bu fikirlərdən Yedigeyin qanı qaraldı, bu barədə fikirləşməyə diqqətini nə isə başqa bir şeyə yönəltməyə cəhd göstərdi, təsəvvürünün qol-qanad açmasına imkan verməyə çalışdı. Amma bundan heç nə çıxmadı. Dilxor olub getdi vaqon-restorana.

Vaqon-restoranda adam az idi, yolun başlanğıcı olduğuna görə hələ hər yer tərtəmiz, gül kimi idi. Yedigey təktənha pəncərə qabağında oturdu. Əvvəlcə bir şüşə pivə götürdü ki, başını qatsın. Vaqon-restoranın geniş pəncərəsi imkan verirdi ki, bir baxışla eyni vaxtda dağları da, düzləri də, göyü də görə bilsin. Bir tərəfdən ötüb-keçən lalə xalılı yaşıl düzlər, o biri tərəfdən də başı qarlı dağların təntənəli silsiləsi onun ruhunu əlçatmaz arzulara doğru uçurur və axırıncı nisgillə doldururdu. Acı ağrılardan ürəyi acılıq istədi. Araq sifariş elədi. Ancaq bir neçə qədəh içəndən sonra gördü ki, araq təsir eləmir, təzədən pivə gətizdirib fikrinin cilovunu buraxaraq xeyli oturdu. Gün batmaq üzrə idi. Yaz axşamının duruluğunda sanki dəmiryolunun hər iki tərəfində nə varsa, ayaq açıb geriyə qaçırdı. Ötüb-keçən qəsəbələr,



bağlar, yollar, körpülər, adamlar, sürülər Yedigeyə az təsir edirdi, çünki keçmişin qurtardığından xəbər verən ağır qüssə yeni bir qüvvə ilə hücum çəkərək onun əhvalını pozur, qəlbini sıxırdı.

Yenə də ağlına Rəhimalı ağanın vida sözləri gəlib düşdü.

...Elatımız qara dağdan köçəndə,
Qoyun-quzu göy dağlardan enəndə,
Yola baxma həsrət ilə, Bəyimay...

Bu vəziyyətində Yedigeyə elə gəldi ki, keçmişdə Rəhimalı ağanı ağcaqayın ağacına bağlayan kimi elə onun özünü də çəkib bağlayıblar, elə onun özünü özündən qoparıb ayırıblar...

Yedigey qaranlıq düşənə kimi elə bu cür oturdu, sonra müştərilər gəlib doluşdular, tütün-tüstü əlindən nəfəs almaq mümkün olmadı. Yedigey başa düşə bilmirdi ki, axı bu adamlar bu araqla tütündə nə tapıblar görəsən? Burda kişilərlə gələn arvadlar da onu çimçədirdi. Xüsusilə gülüşləri lap təbindən çıxarırdı. O qalxıb səndələyə-səndələyə restoranın stollara arasında təntiyən ofisiantı tapdı, pulunu verib öz kupesinə getdi. Qabaqda bir neçə vaqondan keçməliydi. O, qatarın ahəngiylə yırğalana-yırğalana vaqonlardan keçdikcə özünün tənhalığı və kimsəsizliyindən getdikcə daha çox pozulur və ağırlaşırdı.

Axı bu yaşamaq nəyə lazımdır, kimə lazımdır sənin bu yol ölçməyin?..

İndi hardan gəlib hara getdiyinə də, gecənin bu vaxtı bu sürət qatarının belə tələsməyinə də tamam laqeyd idi. Hansı tamburdasa ayaq saxladı, od tutub yanan alnını qapının soyuq şüşəsinə söykəyib durdu, heç yana baxmadı, yanından ötüb-keçən sərnişinlərə də fikir vermədi.

Qatar isə yırğalana-yırğalana gedirdi. Qapını aça bilərdi, çünki bütün dəmiryolçular kimi onun da açarı vardı, qapını açar, elə buradaca cəhənnəm olub gedərdi... Bu kimsəsiz yerlərin zil qaranlığında Yedigey uzaqdan ona sanki gəl-gəl deyən iki işartı gördü. Bu işıqlar uzun müddət gözləri önündən çəkilmədi. Bunlar ya tənha bir evin pəncərəsindən gəlirdi, ya da kiçik tonqal işığı idi. Yəqin ki, bu işıqların yanında bir adam olmalı idi. Bəs onlar kim ola? Orda neyləyirlər? Eh, kaş Zərifə olaydı uşaqlarıyla! Elə o saat qatardan tullanıb birnəfəsə onun yanına qaçar, ayaqlarına yıxılar, utanıb eləmədən hönkürüb ağlar, bütün dərdini, nisgilini göz yaşlarıyla çıxarardı.

Boranlı Yedigey artıq kənarda gözdən itməkdə olan işıqlara baxıb ümidsiz halda inlədi. Elə bu cür də tamburun qapısında dayanıb, sərnişinlərin səsli-küylü gediş-gəlişinə əhəmiyyət vermədən, səssizcə içini çəkib hıçqırırdı... Onun üzü göz yaşlarından islanmışdı... Qapını da açıb kandarı da adlamağa imkanı vardı...

Qatar isə yırğalana-yırğalana gedirdi.

... Elatımız qara dağdan köçəndə,
Qoyun-quzu göy dağlardan enəndə,
Yola baxma həsrət ilə, Bəyimay...

*...Qatarlar bu yerlərdən şərqdən qərbə, qərbdən də şərqə gedirdilər...*

*Bu yerlərdə dəmiryolunun hər iki tərəfiylə intahasız Sarı torpaq çöllərinin göbəyi hesab olunan Sarı-Özək düzləri uzanıb gedir.*

*Coğrafiyada hər şey Qrinviç meridianı ilə ölçüldüyü kimi, bu yerlərdə də bütün məsafələr dəmiryolu ilə müəyyən edilir.*

*Qatarlar isə bu yerlərdən şərqdən qərbə, qərbdən də şərqə gedirdilər...*

Böyük ağquyruq çalağan ətrafı gözdən keçirmək üçün Malakumdıçap yarğanındakı yuvasından qalxdı. O öz ov yerlərini iki dəfə nəzərdən keçirərdi – bir dəfə günortadan əvvəl, bir dəfə günortadan sonra.

Düzdə olan hər şeyə yuxarıdan diqqətlə nəzər yetirib, aşağıda hərəkət eləyən nə varsa, sürünən böcəklərdən tutmuş çevik kərtənkələlərə kimi, hamısını görən çalağan sakitcə Sarı-Özək üzərində uçurdu, sanballa qanad çalır, getdikcə yüksəkliklərə qalxırdı ki, aşağıdakı düzləri daha geniş dairədə görə bilsin, eyni zamanda enginliklərdə süzərək özünün sevimli ovlağına yaxınlaşırdı – bu qapalı zonanın sahəsiydi. Bu geniş sahə çəpərə alınandan sonra burda xırda-xuruş heyvan və quş xeyli artmışdı. Ona görə ki, tülkü və başqa yırtıcıların bura soxulması çətinləşmişdi. Çalağan üçün isə çəpər-məpər manee deyildi, bundan da istifadə eləyirdi. Bu onun üçün əlverişli şərait yaratmışdı. Amma hər halda bunun da düşər-düşməzi vardı. İki gün əvvəl yuxarıdan balaca bir dovşanı qaralayıb şığıyanda dovşan özünü məftillərin altına dürtmüşdü, sürətlə şığıyan çalağan da az qala dəmir



tikanlara sancılacaqdı. Çətinliklə səmtini dəyişib yan keçə bildi və qəzəblə havalandı. Döşündən bir neçə xırda tük qopub sonradan havada sərbəst yellənə-yellənə enməyə başladı. O vaxtdan bu yana çalağan bu təhlükəli çəpərdən uzaq gəzməyə çalışırdı.

Dediyimiz vaxtda da çalağan bu yerlərin sahibi kimi tələsmədən təmkinlə uçur, bir dəfə də olsun artıq qanad çalmırdı ki, yerdəki canlıların diqqətini cəlb etməsin. Bu gün səhər birinci uçuşunda, sonra da ikinci uçuşda aşağıda böyük canlanma, kosmodromun geniş beton sahəsində çoxlu maşın gördü. Maşınlar irəli-geri gedib-gəlir, əsasən də raket qurğularının başına dolanırdı. Öz meydançalarında göylərə tuşlanıb dayanmış bu raketlərə çalağan çoxdan alışmışdı, amma bu gün onların dövrəsindəki vurnuxmadan bilinirdi ki, nəsə bir hadisə baş verib. Həddən çox adam, həddən çox maşın, həddən çox vurnuxma vardı...

Çalağanın gözündən bu da yayınmadı ki, bayaq çöldə gördüyü dəvəyə minmiş bir adam, iki traktor, bir də tükləri pırtlaşıq kürən it gəlib çəpərin dibində durublar, elə bil bu maneədən keçə bilmirlər... Kürən it öz bekara görkəmi ilə onun əsəblərinə toxunurdu, adamların yanında vurnuxmağı da onu lap təbdən çıxarırdı. Amma o öz münasibətini kürən itə qəti bildirmədi – bu dərəcədə alçala bilməzdi... O, əvvəlki kimi bu yerlərin üstündə dövrə vurur, diqqətlə kürən iti izləyirdi ki, görsün adamların yanında quyruq bulayan bu kürən it daha nə hoqqalardan çıxacaq... Yedigey saqqalı sifətini yuxarı qaldırıb baxdı və havada süzən çalağanı gördü. "Ağquyruq, özü də böyüyündəndir", – deyə fikirləşdi. – Eh, kaş çalağan olaydım, məni kim saxlaya bilərdi. Uçardım, qonardım düz Ana-Beyitin günbəzinə!..

Elə bu vaxt qarşıdakı yolda maşın göründü. "Gəlir! – deyə Yedigey sevindi, – Allah qoysa, hər şey qaydasına düşər!". Maşın sürətlə şlaqbauma yaxınlaşdı, gözətçi məntəqəsinin böyründəki qapının yanında sərt tormoz verdi. Gözətçi də maşının gəlməyini gözləyirdi. Rəis maşından düşən kimi həmin dəqiqə özünü qurutdu, keşik rəisi Tansıkbayovu hərbi salamla qarşılayıb məlumat verməyə başladı:

– Yoldaş leytenant, məlumat verirəm ki...

Ancaq keşik rəisi əlinin hərəkətiylə onun sözünü yarıda kəsdi, gözətçi sözünün yarısında əlini gicgahından çəkəndə, şlaqbaumun o tərəfində dayanan adamlara tərəf döndü:

– Kimdir burda kənar adam? Gözləyən kimdir? Sizsiz? – deyə o, Boranlı Yedigeyə müraciət elədi.

– Biz, bizqoy, karaqım. Ana-Beyitgə jeltpey turup kaldık. Kolay da bolsa, jardamdeş karaqım[1], – deyə Yedigey ordenlərini cavan zabitə göstərməyə çalışdı.

Bu leytenant Tansıkbayova heç bir təsir göstərmədi, rəsmi bir görkəmlə boğazını arıtladı, qoca Yedigey bir də ağzını açmaq istəyəndə, soyuq bir səslə onu qabaqladı:

– Yoldaş kənar adam, mənimlə rus dilində danışın. Mən xidməti vəzifə başındayam, – deyə qıyıq gözləri üstündən qara qaşlarını çataraq xəbərdarlıq etdi.

Boranlı Yedigey yaman pərt oldu:

– E-e... bağışla, bağışla. – O, özünü itirib susdu. Dili tutulan kimi oldu, deyəcəyini də unutdu.

Caydaq Ədilbəy qocanın köməyinə çatıb özü leytenanta müraciət etdi:

– Yoldaş leytenant, icazə verin xahişimizi bildirim.

– Bildirin, amma qısa eləyin, – deyə leytenant xəbərdarlıq etdi.

– Bircə dəqiqə. Qoy mərhumun oğlu da burda iştirak etsin. – Caydaq Ədilbəy Sabitcana tərəf döndü. – Sabitcan, ay Sabitcan bura gəl!

Amma kənarda gəzişən Sabitcan etinasızlıqla əlini yellədi:

– Özünüz danışın.

Caydaq Ədilbəy pörtüb qızardı.

– Bağışlayın yoldaş leytenant, işin belə gətirdiyindən inciyib. Bizim mərhumun oğludur, bizim qoca Qazanqapı deyirəm. Kürəkəni də burdadır, odur yedəkdə oturub.

Kürəkənə elə gəldi ki, onu çağırırlar qalxıb yedəkdən düşdü.

– Bu xırdalıqlar məni maraqlandırmır. Mətləbə keçin, – deyə keşik rəisi təkid etdi.

– Yaxşı.

– Qısa və aydın.

– Yaxşı. Qısa və aydın.

Caydaq Ədilbəy hər şeyi olduğu kimi danışdı – kimdirlər, hardan gəliblər, bura gəlməkdə məqsədləri nədir. O danışdıqca Yedigey leytenant Tansıkbayovun üzünə baxır və görürdü ki, bu işdən bir şey çıxmayacaq, o şlaqbaumun o tərəfində dayanmışdı ki, elə belə, formal

[1] Hə, bizik, oğlum. Bizi Ana-Beyit qəbiristanlığına buraxmağa kömək elə, oğlum.



olaraq kənar adamların şikayətinə qulaq assın. Yedigey bunu başa düşən kimi tamam məyus oldu. Qazanqapın ölümüylə bağlı olan bütün işlər, yola çıxmaq üçün gördüyü hazırlıq işləri, mərhumu Ana-Beyitdə dəfn etmək üçün cavanları razı salmaq cəhdləri, özünün Sarı-Özək tarixiylə bağlı olmaq haqqındakı fikirləri, bir sözlə, nə vardısa hamısı, Tansıkbayovun simasında puç olub getdi. Yedigeyin ən müqəddəs hissləri təhqir olunmuşdu. Dünən araq üstündən şubat vurub dil pəhləvanı kimi allahlardan, radio ilə idarə olunan adamlardan dəm vurub öz məlumatı ilə boranlıları təəccübləndirmək istəyən Sabitcanın indi qorxusundan ağzını açıb bir kəlmə də danışmaması ona bir tərəfdən gülməli görünürdüsə, digər tərəfdən də qəhərləndirib ağlamaq dərəcəsinə çatdırırdı. İndi onun nəzərində qotazlı-naxışlı tərliklə bəzədilmiş Qaranər də gülməli göründüyü üçün onu ağrıdırdı. Bu gündən belə kimə və nəyə lazımdı bu? Öz ana dilində danışmağa cürət eləməyən, ya danışmaq istəməyən bu bala leytenant Tansıkbayov nə qanır ki, Qaranərin üst-başı nəyə dəyər? Yedigey mərhum Qazanqapın əyyaş kürəkəninə görə də xəcalət çəkirdi ki, mərhumun yanında olmaq üçün dünəndən bəri dilinə bir gilə də içki vurmayıb, yedəkdə silkələnə-silkələnə gəlmişdi ki, qayınatasını burda dəfn etsin, indi də yaxınlaşıb ümidlə gözləyirdi, bəlkə buraxdılar içəri. Boranlı Yedigey hətta kürən iti Culbars üçün də pərt olub xəcalət çəkirdi ki, bu boyda yolu onlara qoşulub nəyə gəlib, indi də oturub səbirlə gözləyir ki, nə vaxt tərpənəcəyik? Axı bu itin nəyinə lazımdı görəsən? Kim bilir, bəlkə də it işin belə qurtaracağını əvvəlcədən hiss eləyirmiş, elə onunçün də gəlib ki, dar ayaqda sahibinin yanında olsun. Cavan traktorçular – Cuməəli ilə Qalibəy də traktorların kabinələrində oturub gözləyirdilər, indi onlara nə desin, bundan sonra onlar nə fikirləşəcəkdilər?

Alçalıb pərt olmuş Yedigey tədricələ qəzəbləndiyini, qanının qaynayıb coşduğunu hiss edirdi, amma iradəsini toplayıb özünü təmkinli saxlamağa çalışırdı. Yox, nə qədər ki, mərhum dəfn edilməyib, onun özündən çıxmağa haqqı yoxdur. Ahıl adama hirslənib səsini ucaltmaq yaramaz. Buna görə də içində çəkdiklərini büruzə vermir, dişlərini kilidləyib sifətinin əzələlərini gərginləşdirirdi ki, artıq bir söz, artıq bir hərəkət olmasın.

Yedigeyin nigarançılığı düz çıxdı – Caydaq Ədilbəylə keşik rəisinin danışığı tamam ümidsiz bir səmtə yönəldi.

Leytenant Caydaq Ədilbəyə qulaq asıb qurtarandan sonra dedi:

– Heç cür kömək eləyə bilmərəm. Kənar adamların zona ərazisinə daxil olması qəti qadağandır.

– Biz bunu bilməmişik, yoldaş leytenant. Yoxsa bura niyə gəlirdik. Niyə gəlirdik, axı? Daha iş-işdən keçib, yuxarı rəislərdən xahiş eləyin, qoy ölünü basdırmağa icazə versinlər.

– Mən artıq xidmət üzrə müraciət eləmişəm. Tapşırıq almışam ki, heç kimi, heç bir bəhanəyə görə içəri buraxmayım.

– Bu bəhanə niyə olur, yoldaş leytenant? – deyə Caydaq Ədilbəy təəccüblə soruşdu. – Heç bəhanənin yeridir, nə bəhanə? Axı sizin zonanızla bizim nə işimiz? Mərhumu basdırmalı olmasaydıq, bu boyda yolu niyə basıb gəlirdik?

– Mən bir də təkrar edirəm, yoldaş kənar adam, bura heç kim buraxılmır.

– Necə yəni kənar adam! – deyə bayaqdan susub dayanan əyyaş kürəkən birdən partladı – Kimdi kənar adam? Bizik kənar adam? – Onun içkidən öləziyib xəmirləşmiş sifəti qan gətirdi, dodaqları göm-göy göyərdi.

– Doğru deyir, nə vaxtdan biz kənar adam olmuşuq? – deyə Caydaq Ədilbəy də ona səs verdi.

Əyyaş kürəkən icazə dairəsində olan həddi aşmamaq üçün səsini qaldırmadı, rusca pis danışdığını bildiyinə görə sözləri ləngidib düzəldə-düzəldə dedi:

– Bu bizim, bizim qəbiristanlıq bura! Biz, biz Sarı-Özək camaatı ixtiyar var öz adamımızı burda basdıraq. Burda çox il qədim Nayman-Ana basdıranda heç kəs bilməz burda bağlı zona olacaq.

– Mən sizinlə mübahisəyə girmək fikrində deyiləm, – leytenant Tansıkbayov qəti fikrini bildirdi. – Hal-hazırda bir keşik rəisi kimi sizə elan edirəm ki, qorunan zonanın sahəsinə heç bir səbəbə görə, heç bir buraxılış yoxdur və olmayacaq.

Aralığa sükut çökdü. "Təki davam gətirə biləydim, təki dönüb onu söyüb biabır eləməyəydim!" – Boranlı Yedigey özünü sakit eləmək-çün başını qaldırıb göyə baxdı, yenə də bir az aralıda halay vuran çalağanı gördü, yenə də bu təmkinli və güclü quşa qibtə elədi. Və qərara gəldi ki, xatadan uzaq olsunlar, çıxıb getmək lazımdır, zorla soxulmayacaqlar ki! O, bir də çalağana baxıb dedi:

– Yoldaş leytenant, biz qayıdarıq. Amma o yuxarıda oturanınız, generaldır-nədir bilmirəm, bəlkə ondan da böyükdü, bax onun özünə de ki, belə olmaz! Bunu mən köhnə soldat kimi deyirəm, düzgün deyil!



– Yuxarıdan verilən əmrin düzgün olub-olmadığını müzakirə eləməyə haqqım yoxdur. Mənə tapşırıblar sizə çatdırım ki, gələcəkçün nəzərə alasınız – bu qəbiristanlıq ləğv ediləcək.

– Ana-Beyit?

– Bəli. O qəbiristanlıq belə adlanırsa...

– Niyə? Onun kimə maneçiliyi var? – deyə Caydaq Ədilbəy hirsləndi.

– Orda təzə mikrorayon salacaqlar.

– Qəribədir, vallah! – deyə Caydaq Ədilbəy çiyinlərini çəkdi. – Başqa yer tapmadınız, yer qəhətliyidir?

– Planda belə nəzərdə tutulub.

– Bura bax, sənin atan kimdir? – deyə Boranlı Yedigey leytenant Tansıkbayovun gözünün içinə baxa-baxa soruşdu:

O yaman təəccübləndi:

– Bunu neylirsiz? Sizə nə dəxli var?

– O dəxli var ki, sən orda deməli olduğun sözləri bizə danışma, get, qəbiristanlığı məhv eləmək istəyənlərə de. Bəlkə sənin dədən-baban ölməyib, ya sən özün heç vaxt ölməyəcəksən?

– Bunun heç bir dəxli yoxdur.

– Yaxşı, onda gəl belə danışaq. Onda qoy, yoldaş leytenant, sizin lap o başınızın böyüyü mənə qulaq assın, mən tələb eləyirəm ki, icazə versinlər öz şikəyatimi sizin lap o böyük rəisinizə deyim. De ki, qoca cəbhəçi, Sarı-Özək sakini Yedigey Cangəldin ona bir-iki söz demək istəyir.

– Man belə şey eləyə bilmərəm. Neçə hərəkət etməli olduğumu mənə deyiblər.

– Bəs sən neyləyə bilərsən? – deyə əyyaş kürəkən təzədən söhbətə qarışdı, görünür, canı boğazına yığılmışdı: – Bazardakı milis səndən yaxşıdı!

– Biabırçılığı qurtarın! – Keşik rəisi ağappaq ağarıb qəddini düzəltdi. – Qurtarın! Çəkin bunu şlaqbaumun qabağından, yolu da traktordan təmizləyin!

Yedigeylə Caydaq Ədilbəy əyyaş kürəkəni dartıb traktorlara tərəf aparırdılar, amma o dayanmaq bilmir, geriyə qanrılıb çığırırdı:

– Saqan jol da jetpeydi, sağan jer də jetpeydi! Urdım səndeydin auzın![1]

[1] Sənə yol da bəs eləmir, sənə torpaq da bəs eləmir! Üzünə tüpürüm sənin (*Qazaxca*)

Bayaqdan kənarda gezişib səsini çıxartmayan Sabitcan bu yerdə özünü göstərmək məqsədilə onların qabağına yeridi:

– Nə oldu? Ağzınızdan vurub qaytardılar? Elə belə də olmalıydı! Yaman hazırlaşmışdız! Ana-Beyit! Ayrı cür ola bilməz! İndi döyülmüş it kimi geri qayıdırsız!

– Kimdi döyülmüş it? – deyə əyyaş kürəkən özündən çıxaraq onun üstünə cumdu. – Aramızda it varsa, o sənsən, əclaf! Orda duranla sənin nə fərqin var? Elə quru gopun var – mən dövlət adamıyam! Sən heç adam döyülsən!

– Dilini saxla, əyyaşın biri əyyaş! – Sabitcan qəsdən bərk qışqırdı ki, səsini postda eşitsinlər. – Onların yerində olsaydım belə sözlərin üstündə tutub basardım səni dama ki, səsin-sorağın gəlməsin! Səndən cəmiyyətə nə xeyir, sənin kimiləri qırıb məhv etmək lazımdır!

Sabitcan bu sözləri deyib onlara arxa çöndərdi ki, yəni tüpürüm sənə və sənin yanındakılara və birdən girişib ağa kimi ucadan əmrlər verməyə başladı:

– Nə ağzınızı açıb dayanmısız? Traktorları işə salın! Necə gəlmişik, elə də qayıdaq! Cəhənnəm olub gedək! Döndər görüm! Bəsdir! Bəsdir kic yerində qaldım! Başqalarının ağzına baxanda belə olar.

Qalibəy traktorunu işə saldı, ehtiyatla dönməyə başladı ki, yedəyi yola çıxarsın, əyyaş kürəkən də tez yedəyə atılıb mərhumun yanında əvvəlki yerini tutdu. Cumaəli də gözləyirdi ki, Yedigey gəlib çalova bağladığı dəvəsini açsın. Sabitcan bunu görə-görə gözləmədi, əksinə daha da tələsdirməyə baş-ladı:

– Niyə işə salmırsan? Tez ol! Nəyi gözləyirsən? Döndər geri! Yaxşı dəfn elədik! Axı əvvəldən razı olmurdum! Daha bəsdir! Döndər gedək evə!

Boranlı Yedigey dəvəyə minənəcən – əvvəlcə onu hıxlamalıydı, sonra alıxa oturub qaldırmalıydı, – traktorlar geri dönüb yola düşdülər. Elə öz işləri ilə də qayıdırdılar. Heç kişini gözləmədilər də. Onları qabaq traktorda oturan Sabitcan tələsdirirdi...

Bayaqkı çalağansa elə göydə halayını vururdu. O, yüksəklikdən kürən itə göz qoyurdu, itin boş-boşuna veyllənməsi nədənsə ona toxunurdu, bir də başa düşmürdü ki, traktorlar yola düşəndə niyə it onların dalınca getmədi, dəvəli adamın yanında qalıb dəvəyə minənəcən onu gözlədi, sonra da yanına düşüb şortdadı.



Qabaqda traktora minənlər, dallarınca dəvəli adam, onun dalınca da atdana-atdana qaçan it yenə Sarı-Özək çölləriylə hərəkət edib, yanlarını selin-suyun yuyub-yaladığı çıxıntılardan birinin əldən-ayaqdan uzaq yerində həmin çalağanın yuva qurduğu Malakumdıçap yarğanına tərəf yol aldılar. Başqa vaxt olsaydı, çalağan narahat olub qıy vurardı, özünü kənarda uçan kimi göstərsə də, bu gəlmə adamlardan gözünü çəkməzdi, sürətini artırıb öz halal torpaqlarında ov eləyən tayını səslərdi ki, hər ehtimala qarşı gəlib ona qoşulsun, bəlkə yuvanı qorumaq lazım gəldi. Amma bu dəfə ağquyruq çalağan heç narahat olmadı – çünki balaları çoxdan qanadlanıb pərvaz eləmişdi. Kəhrəba gözlü, donqardimdik çalağan balaları günü-gündən qanadlarını möhkəmləndirir, artıq müstəqil həyat sürürdülər. Sarı-Özəyin bu həndəvər yerlərində öz ovlaqları vardı, hətta indi qoca çalağan hərdən onların yerlərinə baş çəkəndə atalarını o qədər də xoşluqla qarşılamırdılar...

Çalağan öz adəti üzrə ovlağında gördüyü hər şeyə fikir verdiyi kimi, geri qayıdan adamları da izləyirdi. Bir də insanlardan ayrılmayan o kürən it onu rahat qoymurdu. Onu adamlara bağlayan nədir? – Niyə özü ov eləmir, elə quyruğunu bulaya-bulaya öz işləri ilə məşğul olan adamların dövrəsinə dolanır? Axı belə həyat onun nəyinə lazımdı? Çalağanın diqqətini cəlb eləyən bir şey də dəvəyə minmiş kişinin döşündəki parıldayan şeylərdi. Elə buna görə də çalağan o saat gördü ki, traktorların dalınca gələn dəvəli kişi heyvanı məhmizləyib kəskin hərəkətlə kənar getdi, dəvəni suyu çəkilmiş dayaz bir dərə ilə kəsə sürüb, traktorlar dolanıb dərəni ötənəcən onları dalda qoydu. O, qamçısını yellədərək dəvəni qovur, sürətini daha da artırırdı, kişinin döşündə parıldayan şeylər atılıb-düşür, bir-birinə dəyib cingildəyirdi, dəvə uzun ayaqlarını gen ataraq yorturdu, kürən it də geri qalmasın deyə onların dalınca götürüldü...

Ta o adam traktoru ötüb keçərək Malakumdıçap yarğanın gədiyində yolu kəsənəcən bu vəziyyət davam elədi. Ona çatanda traktorlar tormozlayıb dayandılar.

– Nə var? Nə olub? – deyə Sabitcan kabinədən boylandı.

– Heç nə. Motorları söndürün, – deyə Boranlı Yedigey əmr etdi. – Sözüm var.

– Nə söz canım? Ləngitmə, bəsdi gəzib dolandıq!

– İndi sən özün ləngidirsən. Çünki burda dəfn eləyəcəyik.

– Bəsdi ələ saldığın! – Sabitcan lap özündən çıxdı, onsuz da əzilib əsgiyə dönmüş qalstukunu çəkib dartışdırdı. – Özüm basdıracağam razyezddə, ayrı söz ola bilməz! Bəsdir!

– Qulaq as, Sabitcan, ata sənindir, bu barədə mübahisə ola bilməz. Amma sən bu dünyada tək deyilsən. Hər halda sən qulaq as, gör nə deyirəm. Postda nə olduğunu özün gördün, özün eşitdin. Bizim heç birimizdə təqsir yoxdur. Sən gəl bunun ayrı tərəfini fikirləş. Harda görünüb ki, basdırılmağa aparılan ölü geri qaytarılsın? Hələ belə şey görünməyib. Bu biabırçılıqdan heç birimiz qurtara bilmərik. Dünyasında belə şey olmayıb.

– Cəhənnəmə ki, görünməyib! – Sabitcan razılaşmadı.

– Sən indi belə deyirsən. Adam hirslənəndə nə gəldi deyə bilər. Amma sabah xəcalət çəkəcəksən, fikirləş. Bu rüsvayçılığı heç nəylə yuyub-təmizləyə bilməyəcəksən. Dəfn olunmağa aparılan mərhum geri qayıtmamalıdır.

Caydaq Ədilbəy də ekskavatorun kabinəsindən düşdü, onu görüb əyyaş kürəkən də yedəkdən enib gəldi, traktorçu Cumaəli də yaxınlaşdı ki, görsün nə səbəbə dayanıblar. Boranlı Yedigey dəvəsini köndələn qoyub yolu kəsmişdi.

– İgidlər, qulaq asın, – deyə Yedigey onlara üz tutdu. – İnsan adətlərini pozmayın, təbiətə qarşı çıxmayın! Hələ belə şey görünməyib ki, qəbiristanlıqdan ölü geri qayıda. Basdırılmağa aparılan gərək basdırılsın. Başqa yolu yoxdur! Baxın bu Malakumdıçap yarğanına. Bu da bizim Sarı-Özək torpağıdır! Nayman-Ana burada, bu Malakumdıçapda özünün məşhur ağısını deyib, oğlunu oxşayıb. Gəlin mən qoca Yedigeyə qulaq asın, qoyun Qazanqapın məzarı burda olsun. Elə mənim də qəbrim qoy burda olsun. Allahın rizası olsa, özünüz gətirib burda basdırarsız. Mən bunu sizdən xahiş eləyirəm. İndi isə hələ gec deyil, vaxt var – baxın, orda, lap yarğanın qaşında mərhumu dəfn elərik!

Caydaq Ədilbəy Yedigeyin göstərdiyi yerə baxdı:

– Cumaəli, keçər ekskavatorun? – deyə soruşdu.

– Keçər, niyə keçmir, keçər...

– Bir dayan görüm, necə yəni keçər, sən əvvəlcə məndən soruş! – deyə Sabitcan sözə qarışdı.

– Elə biz də soruşuruq da, – deyə Cumaəli cavab verdi. – Eşitmədin kişi nə dedi? Daha sənə nə lazımdı?



– Mən də deyirəm ki, daha bəsdir məni ələ saldız! Bu mərhuma hörmətsizlikdir! Sürün razyezdə!

– Ona qalsa, hörmətsizlik onda olar ki, mərhumu qəbiristanlıqdan evə qaytarasan! – deyə Cumaəli ona cavab qaytardı. – Ona görə də yaxşı fikirləş.

Hamı susurdu.

– Bilirsiz nə var, siz özünüz bilərsiz, – deyə Cumaəli sükutu pozdu, – mən gedirəm qəbri qazmağa. Mənim vəzifəm budur ki, çala qazım, özü də dərin olsun. Hələ ki, vaxt var. Qaranlıq düşəndən sonra kim bu işi görəcək. Siz özünüz bilərsiz.

Və Cumaəli öz "Belarus" ekskavatoruna tərəf getdi. Əlüstü motoru işə salıb yolun qırağına çıxdı, onların yanından ötüb dikdirlə Malakumdıçap yarğanının qaşına qalxdı. Onun dalınca Caydaq Ədilbəy yollandı, ondan sonda da Boranlı Yedigey Qaranəri tərpətdi.

Əyyaş kürəkən keçib traktorun qabağında dayandı, üzünü Qalibəyə tutub yarğanı göstərərək dedi:

– Ora sürməsən, yatacağam traktorun altına. Bu mənim əlimdə heç nə deyil.

– İndi neyləyim, hara sürüm? – deyə Qalibəy Sabitcandan soruşdu.

– Görmürsən hamısı əclafdı, it uşağı it! – Sabitcan açıq-aşkar söyüş söydü. – Nə oturmusan, sür onların dalınca!

Göydəki çalağan indi də yarğanın qaşında eşələnən adamlara fikir verirdi. Maşınlardan biri əsib-titrəyir, çalovu ilə yeri qazıb, sünbülqıran yuvasının ağzına yığan kimi, torpağı qazıb qabağına atırdı. Bu vaxt yedəkli traktor da yavaş-yavaş onlara tərəf gəlirdi. Yedəkdə yenə də tənha bir adam ağ keçəyə bükülüb yedəyin ortasına qoyulmuş hərəkətsiz bir şeyin yanında oturmuşdu. Pırpız tüklü kürən it adamların yanında hərlənir, ancaq daha çox dəvəylə yaxınlıq eləyirdi, gedib onun kölgəsində, ayaqları altında uzanırdı.

Çalağan başa düşdü ki, bu adamlar torpaqda hələ çox eşələnəcəklər. O, yanakı süzüb geniş dairələr vura-vura uzaqlaşdı, qapalı zonaya tərəf uçdu, qəsdi də bu idi ki, yolüstü ov eləsin, həm də baxıb görsün bayaq kosmodromdakı vurnuxmanın axırı necə oldu.

İki gün idi ki, kosmodromun meydançalarında böyük gərginlik vardı, gecə-gündüz iş gedirdi. Bütün kosmodrom, qonşuluqdakı xüsusi xidmət binaları və zonalar gecələr yüzlərlə güclü projektorun işığına qərq olurdu. Yer gündüzdən də işıqlı olurdu. Onlarca ağır, yüngül,

xüsusi maşın, nə qədər alim və mühəndis "həlqə" əməliyyatını həyata keçirməkçün hazırlıq görürdü.

Kosmosda uçan aparatları məhv etmək üçün hazırlanmış antipeyklər kosmodromun xüsusi meydançasında göyə zillənib hazır vəziyyətdə durmuşdu. İntəhası SSM-7 sazişi əsasında müəyyən vaxta qədər onlardan istifadə etmək olmazdı. Amerika tərəfindən də həmçinin. İndi təcili "həlqə" transkosmik əməliyyatı proqramının həyata keçirilməsi ilə əlaqədar olaraq, onları tətbiq etməyə imkan tapılmışdı. Amerikadakı Nevada kosmodromunda da "həlqə" əməliyyatı üzrə sinxron şəkildə belə robot-raketlər buraxılacaqdı.

Sarı-Özək en dairəsində bu əməliyyatın vaxtı axşam saat səkkizə təsadüf eləyirdi. Düz iyirmi sıfır-sıfırda raketlər start götürməliydi. Bir-birinin ardınca dəqiqəyarım intervalla Sarı-Özəkdən doqquz antipeyk raketi qalxmalıydı, bu raketlər başqa planetlərdən gələn uçan aparatların qarşısını kəsmək üçün Qərb-Şərq müstəvisi üzrə Yer kürəsi ətrafında daimi fəaliyyət göstərən həlqə yaradacaqdı. Nevadadan qalxan robot-raketlərsə Şimal-Cənub həlqəsi düzəltməliydilər.

Düz gündüz saat üçdə Sarı-Özək-1 kosmodromunda "Beş dəqiqəlik" adlanan startqabağı təftiş sistemi işə salındı. Hər beş dəqiqədən bir bütün xidmət bölmələrində, bütün kanallarla ekran və tablolarda səslə təkrar olunan yazılar yanırdı: "Starta qalır dörd saat əlli beş dəqiqə! Starta qalır dörd saat əlli dəqiqə!.." Starta üç saat qalmış "Dəqiqə" sistemi işə başlayacaqdı.

Həmin o vaxt 1-2 və 2-1 paritet-kosmonavtlarla mümkün olan hər cür əlaqəni kəsmək məqsədilə "Paritet" orbital stansiyasının kosmosda tutduğu vəziyyətin parametrləri, eləcə də bort rabitə-radio kanallarının kodları dəyişdirildi.

O yandan da tamamilə əbəs yerə, səhrada qışqırıb imdad istəyən adamlar kimi 1-2 və 2-1 paritet-kosmonavtlar kainatdan aramsız siqnallar göndərirdilər. Onlar yalvarırdılar ki, əlaqəni kəsməsinlər. Onlar Ümumidamərkəzin qərarından narazılıq eləmirdilər, təklifləri o idi ki, Meşəlidöş sivilizasiyası ilə mümkün ola biləcək kontaktlar problemi ətrafında təkidlə, dönə-dönə düşünsünlər, şübhəsiz, ilk növbədə Yer əhalisinin mənafeyini nəzərə alsınlar, onlar həmçinin özlərinə bilatəxir bəraət verilməsində də təkid etmirdilər, əksinə, razıydılar ki, onların Meşəlidöş planetində olmağı hər iki tərəfin qalaktikalararası münasibətlərinə xeyir vermiş olsun, onların yeganə etiraz etdikləri şey tərəflərin tətbiq etmək istədikləri "həlqə" əməliyyatı idi – onların



fikrincə, bu qlobal özünütəcrid bəşər cəmiyyətini elə bir tarixi və texnoloji bataqlığa sürükləyəcək ki, bunun aradan qaldırılması üçün min illər lazım gələcək... Əfsus ki, artıq gec idi... Dünyada heç kim onları eşitməyəcəkdi, heç kəsin ağlına gəlməyəcəkdi ki, onların haray səsi kainat boşluğunda itib-batır...

Vaxt gəlib o yerə çatmışdı ki, Sarı-Özək-1 kosmodromunda "həlqə" əməliyyatının yaxınlaşan start dəqiqələrini sayan "Dəqiqə" sistemi işə başlamışdı...

Çalağan isə ovlaq üzərində növbəti uçuşunu başa vurub yenə də Malakumdıçap yarğanının üstünə qayıtmışdı. Ordakı adamlar indi də əllərinə bel alıb işləyirdilər. Ekskavator böyük bir kom torpaq qazıb çıxarmışdı. İndi o, xortumunu lap çalanın dibinə salıb olan-qalan torpağı çıxardırdı. Tezliklə onun əsməsi kəsildi, çəkilib bir kənarda durdu, adamlar isə hələ də çalanın dibində nəsə qazıb düzəldirdilər. Dəvə yerindəydi, amma kürən it görünmürdü. O harda ola bilər? Çalağan yaxınlaşıb yarğan üzərində geniş bir halay vurdu, başını sağa-sola çevirib hər yerə göz gəzdirdi, nəhayət, gördü ki, kürən it özünü verib yedəyin altına lap çarxların arasında sərələnib. İt uzanıb dincəlirdi, kim bilir, bəlkə də mürgü vururdu, çalağan da eyninə deyildi. Səhərdən neçə dəfədir ki, onun başı üstündə uçur, di gəl ki, it deyilən bu məxluq bir dəfə də olsun başını qaldırıb ona tərəf baxmayıb. Allahın sünbülqıranı nədir, o da əvvəlcə dal ayaqları üstə dikəlib yuxarı boylanır ki, görsün göydə qorxulu bir şey yoxdur ki... Amma it adamların yanında yaşamağa öyrənib, nə bir qorxusu var, nə də qayğısı. Görmürsən necə sərələnib! Çalağan uçuşunu saxlayıb qanad çala-çala bir anlığa bir yerdə dayandı, güconib quyruğunun altından itə tərəf güllə kimi yaşıl-ağ bir şey buraxdı. Al, bu da sənin payın!

Yuxarıdan Yedigeyin qoluna nə isə şappıltı ilə bir şey düşdü. Quş zılı idi. Bu hardan düşdü? Yedigey qolundakı zılı çırpıb saldı, başını yuxarı qaldırdı. "Yenə də ağquyruqdur, elə bayaqkıdır. Gör neçənci dəfədir başımızın üstündə uçur. Xeyirliyə ola? Əcəb kefdədir. Üzür havada, yellənir özüyçün". Caydaq Ədilbəyin qəbrin dibindən gələn səsi onu xəyaldan ayırdı:

– Necədi, Yedigə, gəl bir bax! Bəsdi, ya yenə qazaq?

Yedigey qaşlarını çatıb qəbrin qırağından aşağı boylandı.

– Çəkil o küncə, – deyə o, Caydaq Ədilbəyi kənara çəkdi, – Qalibəy, sən də hələlik çıx. Çox sağ ol. Hə, mən bilən dərinliyi bəs elər. Ancaq, Ədilbəy, qazanağı bir az da genəltsən pis olmaz, qoy gen olsun.

Yedigey bu göstərişləri verəndən sonra, su ilə dolu kanistri götürüb ekskavatorun arxasına keçdi, qayda üzrə duadan qabaq abdəst aldı. Yalnız bundan sonra rahatlanıb özünə gəldi – Qazanqapı Ana-Beyit qəbiristanlığında basdıra bilməsələr də, hər halda biabırçılıqdan can qurtara bilmişdilər: dəfn olunmamış ölünü bir də geri qaytarmayacaqdılar. Bir az inad göstərməsəydi, elə də olacaqdı. İndi gərək çalışaydılar ki, qaranlıq düşənəcən Boranlıya qayıda bilsinlər. Şübhəsiz ki, onların gecikməyi sarıdan evdə nigarandırlar. Axı söz vermişdilər axşam altıya qayıtsınlar, ehsan altıya təyin olunmuşdu. Amma indi artıq saat beşin yarısı idi. Hələ gərək ölünü basdıraydılar, sonra da Sarı-Özəyə nə qədər yolları vardı. Necə yeyin getmiş olsalar da iki saat çəkəcəkdi. Bu yandan baxanda, dəfn mərasimini tələm-tələsiyə də salmaq yaramaz, çarə nədir, ehsanı bir az gec verərlər. Daha ayrı yolu yoxdur...

Yedigey dəstəmaz alandan sonra özünü dəfn mərasiminə başlamağa hazır bildi. Kanistrin ağzını bağlayıb yaş saqqalına əl çəkə-çəkə sifətinə ciddi və sanballı bir ifadə verib ekskavatorun dalından çıxdı, bir qədər təntənəli səslə müraciət etdi:

– Allahın bəndəsi mərhümül-məğfürül-məlumun oğlu, Sabitcan, gəl mənim solumda dayan, siz dörd nəfər də mərhumu gətirin qəbrin yanında üzü qibləyə qoyun. – Bu işlər görülüb qurtarandan sonra dedi: – İndi gəlin hamımız üzümüzü tutaq müqəddəs Kəbəyə. Əllərinizi qarşınızda açın, Allahı düşünün ki, belə bir məqamda dilinizə gətirdiyiniz sözləri və ürəyinizdən keçirdiyiniz fikirləri o eşitsin.

Nə qədər qəribə olsa da, Yedigey arxa tərəfdə dayananlar arasında gülünc səs və ya donqultu eşitmədi. Çox da razı qaldı, axı deyə bilərdilər ki, ay qoca, qoy görək, sən haranın mollası oldun, qoy ölümüzü basdıraq qayıdaq evimizə. Bu bir yana, bundan başqa Yedigey cürət eləyib duanı oturan yerdə yox, ayaq üstə oxumaq qərarına gəldi, çünki bilən adamlardan eşitmişdi ki, dinimizin yarandığı ərəb ölkələrində duanı qəbiristanlıqda şax dayanıb oxuyurlar. Beləydi, ya belə deyildi, Yedigey istəyirdi ki, başı göylərə daha yaxın olsun.

Mərasimə başlamamış dünyanın sağına-soluna baş endirib, yerə-göyə üz tutanda, insanın bu dünyaya təsadüfən gəlib, gündüzün gecəylə əvəz olunmasının dəyişilməzliyi kimi yox olub getməsinin pozulmaz qanununu yaradana baş əyəndə Yedigey yenə də o ağquyruq çalağanı gördü. O, bir az irəlidə göyün yeddi qatında süzür, hərdən



qanadlarını ehmalca tərpədərək ağır-ağır halay vururdu. Ancaq çalağan onun ovqatını pozub fikrini yayındırmırdı.

Ağ keçəyə bükülmüş Qazanqap xərəyin içində, qəbir çalasının qırağında, onun qarşısında uzatmışdılar. Binadan, ta məhşər gününədək hamıya və hər kəs üçün, hamıya və hər vaxt üçün nəzərdə tutulmuş, kim olursa-olsun, hansı dövrdə yaşayırsa yaşasın – hamı üçün labüd və eyni mənada olan və hələ dünyaya bundan sonra gəlməli olanlar üçün də eyni dərəcədə labüd və əzəldən təyin edilmiş müqəddəratı bildirən yasinin sözlərini dodağında zikr edərkən, Yedigey eyni zamanda peyğəmbərlərin dərk edib vəsiyyət etdikləri bu həyat düsturunu ürəkdən gələn və şəxsi təcrübəsindən əxz etdiyi fikirlərlə tamamlamağa çalışırdı. Kişi dünyada havayı yaşamamışdı, axı.

"İlahi, əcdadlarımızın yoluyla gedib müqəddəs kitablardan öyrəndiyim dualarımı eşidirsənsə, mənim öz sözlərimi də eşit. Elə bilirəm, bunlar bir-birinə mane olmazlar.

Budur biz kimsəsiz və uzaq bir yerdə Malakumdıçap yarğanında qazdığımız qəbrin qabağında dayanmışıq, Qazanqapı özünün vəsiyyət elədiyi qəbiristanlıqda dəfn eləyə bilmədiyimiz üçün məcbur olub bura gəlmişik. Göydəki çalağan bizim Qazanqapla necə vidalaşdığımızı yuxarıdan seyr edir. Ey böyük Allah, varsansa, keç günahımızdan, öz bəndeyi-həqirin olan Qazanqapın dəfnini rəhmətlə qəbul et, layiqdirsə, onun ruhuna əbədi rahatlıq ver. Bizdən nə asılıydısa hamısını yerinə yetirməyə çalışdıq. Qalanı sənin öz işindir!

İndi də madam ki, belə bir məqamda sənə üz tutmuşam, nə qədər sağam, nə qədər ki, ağlım üstümdədir, mənim sözlərimi dinlə. Aydın məsələdir ki insanlar sənə ancaq xahişçün müraciət eləyirlər – rəhm elə, kömək elə, hifz elə! Hər dəqiqəbaşı – haqda da, nahaqda da səndən çox şey umurlar. Hətta qatilin də ürəyindən keçir ki, onun tərəfində olasan. Sənsə susursan. Neyləmək olar, biz adamlar beləyik, illah ki, dara düşəndə bizə elə gəlir ki, sən göydə elə bununçun varsan. Əlbəttə, ağırdır səninçün, yalvarışlarımızın sonu yoxdur. Sənsə təksən. Amma mən səndən heç nə istəmirəm. Mənim bircə məramım varsa, o da bu məqamda öz fikirlərimi söyləməkdir.

Son dərəcə məyusam ki, Nayman-Ananın dəfn edildiyi müqəddəs qəbiristanlığımıza daha bizimçün yol yoxdur. Buna görə də arzum budur ki, mənim də qəbrim Nayman-Ananın gəzdiyi bu yerlərdə – Malakumdıçapda olsun. Elə olsun ki, mən də indi dəfn edəcəyimiz

Qazanqapın qəbri ilə yanaşı olum. Bir də ölənlərin ruhunun başqa canlılara keçməsi doğrudursa, onda mən qarışqa niyə olum, istərdim ki, ağquyruq çalağana çevrilim. Mən də o göydə uçan çalağan kimi Sarı-Özəyin üstündə süzüb, o ucalıqdan doğma yerlərimi seyr edim, seyr etdikcə də doymayım. Vəssalam.

O ki qaldı vəsiyyətim, vəsiyyətimi elərəm mənimlə bura gələn cavanlara. Deyərəm məni gətirib burda basdırsınlar. Amma bilmirəm yasinimi kim oxuyacaq. Nə Allaha inanırlar, nə də dua-yasin bilirlər. Axı Allahın olub-olmadığını heç kim bilmir və bilməyəcək də. Kimi deyir – var, kimi deyir, yox. Mən sənin varlığına inanmaq istəyirəm və deyirəm ki, sən mənim məqsəd və məramımdasan. Mən dualarla sənə üz tutduğum vaxt, əslində sənin vasitənlə özümə müraciət edirəm, buna görə də bu məqamda başıma gələn fikirlər elə bil ki, sənin öz fikirlərindir, ey bizi yaradan! Məsələnin məğzi də bundadır! Bu cavanlarsa belə şeyləri fikirləşmirlər, dualara da xor baxırlar. Bəs ölüm ayağında onlar özlərinə, ya başqalarına nə deyə biləcəklər? Bu cavanlara yazığım gəlir, onlar öz insanlıq sirlərinə necə yetə biləcəklər ki, onların heç birinin heç olmasa xəyalən Allah olmaq dərəcəsinə yüksəlməsi üçün heç bir imkanları yoxdur? Əstəğfürullah, keç günahımdan, küfr söylədiyimçün. Onlardan heç biri allahlıq dərəcəsinə yüksələ bilməyəcək, belə olan tərzdə sən özün də daha mövcud olmayacaqsan. Əgər insan sənin timsalında ürəyində özünü hamının dərdinə qalan Allah hesab eləməsə, onda, ilahi, sən özün də olmayacaqsan... Amma mən istəməzdim ki, sən tamam yox olub gedəsən.

Mənim dərdim-çorum da budur. Səhvim varsa, keç günahımdan. Mən sadədil bir adamam, ağlıma nə gəlir onu da deyirəm. İndi müqəddəs yazıların son sözlərini deyib dəfnə başlarıq. İlahi, bizim bu işimizə fərəc ver...".

– Amin, – deyə Yedigey duasını tamamladı, bir an susub acı bir həsrətlə çalağana baxdı, sonra yavaş-yavaş cavanlara tərəf döndü. Allahla ünsiyyət tamam olmuşdu. İndi onun qarşısında bu qədər ləngimiş dəfn mərasimini tamamlamaq üçün gələn həmin beş adam dayanmışdı.

– Məsələ belədi, – deyə o, fikirli halda onlara müraciət etdi, – dua vaxtı nə lazımdısa sizin əvəzinizə də dedim. İndi, gəlin, işə başlayaq.

Yedigey yaxası ordenli-medallı pencəyini çıxarıb özü qəbrin içinə düşdü. Caydaq Ədilbəy də ona kömək eləyirdi. Sabitcan mərhumun



oğlu kimi, başını aşağı salmağıyla kədərini bildirərək, çəkilib kənarda durmuşdu, qalan üç nəfər – Qalibəy, Cumaəli və əyyaş kürəkən keçəyə bükülmüş meyiti xərəkdən götürüb aşağıda dayanan Yedigeylə Caydaq Ədilbəyin qolları üstünə endirdilər.

"Hə, ayrılıq saatı gəlib çatdı! – deyə Yedigey Qazanqapı torpağın dərinliyindəki əbədi yatağına uzadaraq fikirləşdi. Bağışla ki, yerini rahlamağımız uzun çəkdi. Səhərdən dartınq ora-bura. Neyləmək, iş belə gətirdi. Səni Ana-Beyitdə basdırmadığımızın günahını bizdə görmə. Amma elə bilmə ki, mən bu işi belə qoyacağam. Haracan lazım olsa gedəcəyəm. Nə qədər sağam, susmayacağam. Özüm bilirəm onlara nələr deyəcəyəm. Sən öz yerində rahat yat. Belə çıxır ki, bu gen, bu intəhasız dünyada üç arşınlıq yer sənin payına burda ayrılıbmış. Sən burda tək qalmayacaqsan. Tezliklə mən də gələcəyəm yanına, Qazanqap. Heç şübhə eləmə. Bir bəla-zad baş verməsə, öz əcəlimlə ölsəm, mən də bura gələcəyəm, yenə də bir yerdə olacağıq. Qarışacağıq səninlə Sarı-Özək torpağına. İntəhası özümüzün xəbəri olmayacaq. Bunu ancaq diri olanda bilmək olar. Elə bununçün də səninlə danışsam da bu sözləri özümə deyirəm. Axı sən nə idin, indi o deyilsən. Beləcə biz varlıqdan yoxluğa gedəcəyik. Amma qatarlar yenə də Sarı-Özək torpaqlarında əvvəlki kimi hərəkət eləyəcək, bizim əvəzimizə də başqaları gələcək...".

İş bura çatanda qoca Yedigey dözə bilməyib ağladı – Boranlı razyezdində uzun illər ərzində keçirdikləri ömür-gün – bütün olub-keçənlər vaxt etibarı ilə nəhəng bir məsafə, bütün bəlalar, çətinliklər və sevincli günlər bu bir neçə kəlmə vida sözlərinə, bu bir neçə dəfn dəqiqələrinə yerləşdi. İnsanın nə qədər də çox və nə qədər də az qisməti varmış.

– Eşidirsən, Ədilbəy? – deyə dar çalada Ədilbəylə çiyin-çiyinə dayanmış Yedigey səsləndi. – Məni də burda basdırarsan, qoy yanbayan olaq. Məni də bax beləcə yerbəyer elərsən ki, rahat olsun. Söz verirsənmi?

Bəsdir, Yedigə, sonra danışarıq. Sən gəl çıx yuxarı, qalanını özüm tamamlaram. Sakit ol, Yedigə, çıx yuxarı. Özünü üzmə.

Boranlı Yedigey gilli torpağı yaş sifətinə sürtərək çaladan çıxdı, ona əl uzadıb kömək də elədilər, o da ağlaya-ağlaya, dodaqaltı nəsə təsirli sözlər deyə-deyə yuxarı qalxdı. Qalibəy gedib kanistri gətirdi ki, kişi əl-üzünü yusun.

Onların hərəsi qəbrə bir ovuc torpaq atıb, küləyin səmtindən qəbri torpaqla doldurmağa başladılar. Əvvəlcə bel-kürəklə kürüyüb doldurdular, sonra da Cumaəli maşına minib torpağı ekskavatorla yığıb tökdü. Axırda qəbrin üstünü yenə də bellə düzəldib sahmanladılar...

Ağquyruq çalağan isə onların başı üstə süzür, yerdən qalxan toz dumanına və Malakumdıçap yarğanında nə isə qəribə bir iş görən bu adamlara göz qoyurdu. Çalanın yerində təzə torpaq təpəciyi əmələ gələn vaxt bu adamlar arasında yaranan canlanma onun diqqətini xüsusilə cəlb etdi. O vaxt yedəyin altında yatan kürən it də gərnəşə-gərnəşə qalxmışdı, indi də adamların arasında vurnuxurdu. Axı deyən gərək ki, sənin nə azarın var? Bircə qotazlı tərliklə bəzədilmiş qoca dəvə əhvalını pozmadan güclü çənəsini kir-kirə kimi işlədib kövşək vururdu.

Deyəsən, adamlar getməyə hazırlaşırdılar. Amma yox, onlardan biri, dəvənin yiyəsi əllərini açıb üzünün qabağına gətirdi, o birilər də onun kimi elədi...

Daha vaxt lap daralmışdı. Yedigey yanındakılara uzun və diqqətli bir nəzər salıb dedi:

– İşimizi qurtardıq. Qazanqap yaxşı adamdımı?

– Yaxşı adamdı, – deyə hamı bir ağızdan cavab verdi.

– Bir adama borcu-zadı qalmayıb ki? Oğlu burdadır, qoy atasının borcunu öz boynuna götürsün.

Heç kəsdən səs çıxmadı. Onda Qalibəy hamının əvəzinə cavab verdi:

– Yox, heç kimə borclu qalmayıb.

– Elesə, sən nə deyirsən, Qazanqapın oğlu Sabitcan? – deyə Yedigey ona müraciət etdi.

– Hamınız çox sağ olun, – deyə o, qısa cavab verdi.

Sabitcanın bu sözlərindən sonra Cumaəli dedi:

– Onda düşəyin yola.

– Bu saat, bircə dəqiqə, bir kəlmə sözüm var, – deyə Yedigey onu saxladı. – Sizin aranızda hamıdan yaşlısı mənəm. Sizin hamınızdan bir xahişim var. İşdir, başıma bir iş gəlsə məni də burda, Qazanqapla yanyana basdırarsınız. Eşitdinizmi? Hesab eləyin ki, bu mənim vəsiyyətimdir.

– Kim bilir ki, başına nə gələcək, Yedigə, əvvəldən nə danışmaq, – Qalibəy şübhə ilə cavab verdi.



– Dəxli yoxdur, – Yedigey təkid etdi. – Mənimki deməkdir, sizinki də qulaq asmaq. İş o yerə çatanda yadınıza salın ki, belə bir söhbət oldu.

– Daha hansı böyük vəsiyyətlərin var? De gəlsin, Yedigə, qoy birdəfəlik olsun, – deyə Caydaq Ədilbəy zarafata saldı.

Yedigey incidi:

– Sən zarafata salma, mən ciddi danışıram.

– Yadımızda saxlarıq, Yedigə, – deyə Caydaq Ədilbəy onu sakitləşdirdi. – Elə bir şey olsa, sən istədiyin kimi də elərik, arxayın ol.

– Bu oldu kişi söhbəti, – deyə Yedigey dodaqaltı razılıq elədi.

Traktorlar yarğandan enmək üçün dönməyə başladılar. Traktorlar aşağı enənəcən Yedigey Qaranəri yedəkləyərək Sabitcanla yanaşı getdi. O, özünü narahat eləyən bir məsələ haqqında Sabitcanla təklikdə danışmaq istəyirdi.

– Bura bax, Sabitcan, indi daha əlimiz boşaldı, səninlə bir məsələ barədə söhbət eləmək istəyirəm. Bəs indi biz o qəbiristanlıq işini neyləyək? Ana-Beyiti deyirəm.

– Necə yəni neyləyək? Burda heç baş sındırmaq lazım deyil, – deyə Sabitcan cavab verdi. – Plan plandır. Ləğv eləyəcəklər onu, plan üzrə... Vəssalam.

– Mən onu demirəm. Ona qalsa elə hər şeyə göz yummaq olar. Bax, sən burda doğulub böyümüsən. Atan səni oxudub. İndi də kişini dəfn elədik. Tək-tənha bu çölün düzündə, bircə təskinliyimiz odur ki, öz doğma torpağımızda basdırmışıq. Sən savadlı adamsan, vilayət şəhərində işləyirsən, şükür Allaha, kimlə istəsən danışıb söhbət eləyə bilərsən. Cürbəcür kitablar oxumusan...

– Nə olsun ki? – deyə Sabitcan onun sözünü kəsdi.

– Onu deyirəm ki, bəlkə mənə danışmaqda kömək eləyəsən, nə qədər gec deyil, elə günü sabah gedərik burdakı böyüklərin yanına, o şəhərcikdə yəqin ki, bir nəfər lap böyükləri var. Ola bilməz ki, Ana-Beyiti yerlə-yeksan eləsinlər. Axı bu tarixdir.

– Bunların hamısı köhnə nağıllardır, Yedigə, başa düş. Burda dünya miqyasında, kosmik miqyasda məsələlər həll olunur, biz də bu yandan gələcəyik ki, qəbiristanlıq belə gəldi, qəbiristanlıq elə getdi. Axı bu kimin nəyinə lazımdır? Onların nəzərində bunların hamısı boş şeylərdir! Bir də ki, bizi ora buraxan kimdir!

– Əlbəttə, getməsən buraxmazlar. Amma tələb eləsən buraxarlar. Bəd ayaqda lap rəisin özü gələr maşınla qabağımıza. Dağ deyil ki, yerindən dəbərə bilməsin.

Sabitcan ona tərəf əsəbi bir nəzər saldı.

– Əl çək, ay qoca, boş söhbətdir. Məndən də gözünü çək. Belə şeylərin mənə qətiyyən dəxli yoxdur.

– Bunu elə əvvəldən deyəydin. Söhbət də qurtarıb gedəydi. Yoxsa başlamısan ki, nə bilim nağıldı, filandı-fəsmakandı!..

– Bəs nə bilirdin? Elə bilirdin ki, o saat yüyürəcəyəm! Niyə, nəyin xətrinə? Mənim ailəm, uşaqlarım, işim-gücüm var. Niyə gərək mən küləyə qarşı siyəm? Onu istəyirsən ki, burdan bir zəng çalsınlar – orda da dalıma bir təpik vurub atsınlar bayıra? Bağışlayasan gərək, çox sağ ol!

– Sən çox sağolunu özünçün saxla, – deyə Yedigey hirslə əlavə etdi: – Dalıma bir təpik! Belə çıxır ki, elə dalını yoğunladırsan sən!

– Bəs nə bilirdin? Düz buyurursan! Bu sənə boş şey kimi gəlir – sən kimsən? Heç kim. Amma bizlər dalımızı yoğunladırıq ki, ağzımız şirin olsun.

– Bəli, bəli, əvvəllər baş qiymətdə idi, görünür indi dal meydanıdır.

– İndi necə bilirsən elə də fikirləş, amma bizi axmaq hesab eləmə.

– Aydındır. Söhbət qurtardı! – deyə Yedigey danışmağa nöqtə qoydu. – Ehsanı verək, Allahın köməkliyilə, bir də səninlə görüşmərik, inşallah.

– Bəlkə də, – deyə Sabitcan üz-gözünü əydi.

Onlar beləcə ayrıldılar. Yedigey dəvəyə minənəcən onlar traktorları işə salıb gözlədilər, ancaq Yedigey onlara dedi ki, ləngiməsinlər, yola düşüb mümkün qədər tez getsinlər, adamlar ehsanı gözləyirlər, dəvə üstündə onunçün hər yerdə yol var, guya özü istədiyi yolla gedəcək.

Traktorçular sürüb gedəndən sonra Yedigey hələ bir müddət yerində qalıb neyləyəcəyini fikirləşdi.

İndi o, Sarı-Özəyin ortasında tək-tənha idi, əlbəttə sadiq iti Culbars nəzərə alınmazdısa, əslində o da əvvəlcə yola düşən traktorların dalınca qaçdı, amma sonra yiyəsinin onlarla getməyəcəyini başa düşüb geri qayıtmışdı. Ancaq Yedigey ona fikir vermirdi. İt qaçıb evə də getmiş olsaydı bunu görməyəcəkdi. Çünki dünya ona dar gəlirdi. Sabitcanla danışığından sonra boşluq, əzab və təşviş atəşilə qarsalanmış



ürəyinə toxtaqlıq verə bilmirdi. Bu ovunmaz ağrının üzücü boşluğu mənasızlığı onun daxilində soyuq və zülmətdən ibarət ikibaşlı uçurum kimi idi. Boranlı Yedigey peşman idi; peşman idi ki, bu söhbəti niyə saldı, niyə sözlərini havayı yelə verdi. Məgər Sabitcan söz deməli, kömək ummalı adamdı? Güman eləmişdi ki, savadlı, oxumuş adamdır, özü kimilərilə daha asan dil tapa bilər. Faydası nədi, neçə-neçə kurslarda, institutlarda oxuyub? Bəlkə də ona elə bu cür olmağı öyrədiblər? Kim bilir, bəlkə də hardasa iblis kimi uzaqgörən bir adam var, Sabitcanın üstündə o qədər zəhmət çəkib ki, Sabitcan başqa cür yox, elə Sabitcan kimi olsun. Məgər Sabitcan deyildimi o radio ilə idarə olunan adamlar haqqındakı cəfəngiyatı bəzəyib qoşan? Demirdimi ki, o vaxtlar gələcək! Bəlkə də o gözəgörünməz, tam ixtiyar sahibi olan kəs artıq onu radio ilə idarə eləyir?

Qoca Yedigey belə şeylər barədə nə qədər çox fikirləşirdisə, bu fikirlər onda bir o qədər ağrı və ümidsizlik doğururdu.

– Manqurtsan, manqurt! Xalis manqurtsan! – O, qəzəblə pıçıldadı – kişi ona həm qəzəblənir, həm də acıyırdı.

O, baş vermiş hadisə ilə heç də barışmaq fikrində deyildi, Yedigey başa düşürdü ki, mənliyini itirib özü öz gözündə əyilməmək üçün nəsə eləməli, nəsə bir iş görməlidir. O bilirdi ki, geri çəkilsə özü öz gözündə məğlub olacaq. Ürəyinə dammışdı ki, axşamın bu şər vaxtına yaraşmayan bir iş görəcək, amma hələlik dəqiq deyə bilməzdi ki, neyləmək istəyir, nədən başlamalıdır, neyləməlidir ki, Ana-Beyit haqqındakı fikirləri doğrudan da əmri dəyişdirmək qüvvəsində olan adamlara çatıb təsir göstərə, onların fikrini dəyişə bilsin... Bəs buna necə nail olsun? Hara getsin, neyləsin?

Qaranərin belində oturan Yedigey belə ağır fikirlər içində ətrafına göz gəzdirdi. Hara baxırdın səssiz-səmirsiz çöllük idi. Axşam kölgələri yavaş-yavaş sürünüb Malakumdıçapın yarıqlarına dolurdu. Traktorlar çoxdan gözdən itib səslərini kəsmişdi. Cavanlar çıxıb getmişdilər. Sarı-Özək dolaylarını bilən və yadda saxlayanlardan sonuncusu qoca Qazanqap indi yarğanın qaşında, bu ucsuz-bucaqsız düzdə təzə qazılmış tənhà qəbirdə yatırdı. Yedigey gözlərinin qabağına gətirdi ki, qəbir necə çöküb get-gedə yapıxacaq, Sarı-Özəyin yovşanlığına qarışacaq, güclə seçiləcək, bəlkə də heç seçilməyəcək. Belə də olmalıdır, heç kim torpaqdan çox yaşamayacaq, heç kim də torpaqdan kənarda qalmayacaq...

Axşamtərəfi öz dözülməz ağırlığı altında üfüqə tərəf əyilən günəş elə bil yumşalıb daha da ağırlaşmışdı. Qürub edən günəşin rəngi dəqiqəbədəqiqə dəyişirdi. Qürubun bətnində gözə görünmədən zülmət yaranmağa başlayırdı, qızılı boyanmış səma get-gedə qaranlıqla dolur, tutqun göy rəng alırdı.

Boranlı Yedigey vəziyyəti götür-qoy eləyib belə qərara gəldi ki, təzədən zonanın girişindəki şlaqbaumun yanına qayıtsın. Daha bundan başqa bir yol tapa bilmədi. İndi artıq dəfn mərasimini yola vermişdilər, daha o, heç kimlə və heç nəylə bağlı deyildi, təbiətin ona verdiyi qüvvə və öz təcrübəsi daxilində özünə güvənə bilərdi, özünə ixtiyar verə bilərdi ki, öz məsuliyyət və qorxusu hesabına istədiyini eləsin. Hər şeydən əvvəl, o istəyirdi ki, çalışıb keşik xidmətini məcbur etsin, onu nəzarət altında da olsa böyük rəisin yanına aparsınlar, ya da lazım gələrsə, o rəisin özünü məcbur eləyib, Boranlı Yedigeyə qulaq asmaq üçün şlaqbaumun yanına gətizdirsin. Onda ürəyindəkilərin hamısını deyərdi üzünə... Bunların hamısını özlüyündə düşünüb-daşınmışdı, buna görə də Yedigey qərara gəldi ki, məsələni ləngidib sonraya qoymasın – gəlişinin də səbəbini Qazanqapın dəfni ilə əlaqədar başlarına gələn kədərli hadisə ilə izah edəcəkdi. O qərara gəlmişdi ki şlaqbaumun yanında qətiyyət göstərsin, buraxılış və ya görüş tələb etsin, elə bundan başlayıb keşikçiləri başa düşməyə məcbur eləməlidir ki, ona aralıqda gəzən Tansıkbayov kimilər yox, ən yüksək rütbəli şəxs qulaq asmayınca əl çəkən deyil... Bu qərardan sonra ürəyi yerinə gəldi.

– Təvəkkül Allaha! İtin ağası varsa, qurdun da Allahı var! – deyə özünə ürək-dirək verdi, Qaranəri möhkəm məhmizləyib şlaqbauma tərəf yönəldi.

O vaxtacan gün də batdı, hava sürətlə qaralmağa başladı. O, zonaya yaxınlaşanda tamam qaranlıqlaşmışdı. Şlaqbauma təxminən yarım kilometr yol qalanda qabaqda kiçik fənərlər göründü. Yedigey burda, keşikçiyə yaxınlaşmamış dəvədən düşdü. Heyvanı hıxlamamış eləcə sürüşüb düşdü. İndi daha dəvə yeri deyildi. Bu əngəl nəyə lazımdı? Bir də ki, nə biləsən necəsinə rast gələcəksən, gördün dedi ki, "Dəvəni də götür rədd ol burdan. Sən kimsən belə! Qəbul-zad yoxdur" – heç kabinetə də qoymaz. Ən ümdəsi də o idi ki, Yedigey məsələnin nə qədər uzanacağını bilmirdi, işin nəticəsini nə qədər gözləməli olacaq, buna görə də təkbaşına eycahan getsə yaxşıydı. Qaranəri də cidarlayıb buraxar çölə, qoy otlasın...



– Sən hələlik burda qal, mən gedim görüm nə olur, – dodaqaltı donquldanıb özünü Qaranərlə danışan kimi göztərsə də, əslində özünə ürək vermək istəyirdi. Axırı dəvəni hıxlamalı oldu, gərək xurcundakı cidarları çıxarıb rahlayaydı

Yedigey qaranlıqda cidarları rahlayanda, elə bir sakitlik vardı ki, o hətta öz nəfəsini, havada uçuşan böcəklərin səsini və vızıltısını belə eşidirdi. Ulduzlar da elə bil hamısı birdən göyə dolub par-par yanırdı. Elə sakitlikdi ki, deyəsən nəsə bir şey olmalıydı...

Hətta Sarı-Özəyin sakitliyinə alışmış Culbars da nədənsə şəklənib astadan zingildəyirdi. Bu sakitlikdə onun nədən xoşu gəlmirdi?

– Sən də bu yandan əl-ayağa dolaşırsan! – deyə yiyəsi narazılıqla deyindi. Sonra da fikirləşdi: bəs iti neyləyim? Çidarları əlində düzəldib sahmana salınca bir az da fikirləşdi ki, iti neyləsin. Şübhə yoxdur, it ondan ayrılmayacaq. Qovsan da getməyəcək. Üzə vurmasalar da fikirləşəcəklər ki, qocaya bax, haqqını tələb eləməyə gəlib, yanında da itdən başqa bir kimsə yoxdur. Yox, itlə getmək olmaz. Onda Yedigey belə qərara gəldi ki, itin ipini uzun eləyib dəvənin alığına bağlasın. Nə qədər ki, o olmayacaq, qoy elə bir yerdə qalsınlar.

O, iti səslədi: "Culbars! Culbars! Bura gəl!" – və ipi itin boynuna bağlamaq üçün əyildi. Elə bu vaxt havaya nəsə oldu, getdikcə güclənən vulkan gurultusuyla boşluqda nəsə hərəkətə gəldi. Və lap yaxınlıqda, hardasa lap qonşuluqda, kosmodrom zonasında parlaq atəşlə yanan qorxunc alov sütunu püskürüb göyə sancıldı. Yedigey qorxudan geri atıldı, dəvə də bağırıb yerindən sıçradı... İt qorxusundan yiyəsinin ayaqları altına təpildi.

Bu, qoruyucu transkosmik "Həlqə" əməliyyatının birinci döyüş robot-raketi idi. Sarı-Özəkdə düz axşam saat səkkiz idi. Birincinin dalınca ikinci, onun dalınca da üçüncü raket göyə qalxdı, sonra biri də, biri də... Yerdəki işlərin dəyişməməsi, hər şeyin öz qaydasında qalması üçün bu raketlər uzaq kosmosa qalxıb Yer kürəsi ətrafında daimi fəaliyyətdə olan sərhəd düzəldəcəkdi.

Göy başlarına uçulur, alov və tüstü içində yarılırdı... İnsan, dəvə və it – bu sadə canlılar dəli kimi qaçır, canlarını qurtarmağa çalışırdılar. Onlar dəhşət içində qaçır, bir-birindən ayrılmağa qorxurdular: nəhəng alov sütunlarının amansızcasına işıqlandırdığı çöllüklə baş götürüb qaçırdılar...

Amma sanki yerlərində qaçırdılar, çünki hər yeni partlayış onları haqlayır, başlarına od, işıq, aləmi sarsıdan gurultu ələyirdi...

İnsan, dəvə və it dallarına baxmadan qaçırdılar, birdən Yedigeyə elə gəldi ki, manqurt oğlu tərəfindən oxla vurulmuş Nayman-Ananın başından saldığı ağ yaylıqdan əmələ gəlmiş ağ bir quş hardansa böyürdən çıxdı... Ağ quş bu həşir-qiyamət içində insanla yanaşı uçaraq deyirdi:

– Kimlərdənsən? Adın nədir? Adını yadına sal! Sənin atan – Donenbaydır, Donenbay, Donenbay, Donenbaydır, Donenbay...

Yenidən birləşən bu zülmət içində bu səs hələ çox eşidildi...

Bir neçə gün sonra Yedigeyin qızları Səulə ilə Şərafət Sarı-Özək ağsaqqalı Qazanqapın rəhmətə getdiyi barədə teleqramı alıb ərləri ilə Qızıl-Ordadan Boranlıya gəldilər. Onu yad edib kədərlərini bildirmək, həm də bir-iki gün qalmaq istəyirdilər, necə deyərlər, həm ziyarət, həm də ticarət.

Onlar dəstəylə vaqondan düşüb Yedigeyin kandarına ayaq basanda ataları evdə deyildi, Ukubala özünü onların üstünə atıb, ağlaya-ağlaya uşaqları qucaqlayıb öpdü.

– Çox şükür sənə, ilahi! Nə yaxşı oldu! Atanız necə sevinəcək! Nə yaxşı gəlibsiz! Hamınız gəlibsiz, nə yaxşı bir yerdə gəlibsiz. İlahi, atanız necə sevinəcək!

– Bəs atam hanı? – deyə Şərafət soruşdu.

– Axşama qayıdar. Səhər tezdən gedib Poçt qutusuna, onların böyüklərinin yanına. Nə bilim, nəsə işi var! Sonra danışaram. Ayaq üstə niyə dayanmısınız? Öz evinizdir ki, balalarım.

*Qatarlar bu yerlərdə yenə də qərbdən şərqə, şərqdən də qərbə gedirdilər...*

*Dəmiryolunun hər iki tərəfində isə Sarıtorpağın göbəyi hesab olunan böyük Sarı-Özək düzləri uzanırdı.*



## DƏNİZ KƏNARIYLA QAÇAN ALABAŞ

*Vladimir SANGİYƏ*

Canına dənizin ötəri rütubəti və soyuğu çökmüş zülmət gecədə, bütün Oxot dənizinin sahili boyunca, quru ilə dənizin üz-üzə gəldiyi hər yerdə təbiətin iki qüvvəsinin əbədi mübarizəsi gedirdi – quru dənizə öc gəlir, dəniz isə qurunun üstünə hücum çəkməkdən usanmırdı.

Dəniz qaranlıqda sıldırım qayalara çırpılıb çiliklənərək uğuldayır, özünü əldən salırdı. Daş kimi bərkimiş torpaq dənizin zərbələrini dəf edərək, ağır-ağır nəfəs alırdı.

Onlar ilk yaranışdan – gündüzün gündüz, gecənin gecə kimi başlandığı vaxtdan bəri beləcə çarpışırlar və bundan sonra da, nə qədər ki, torpaq var, su var – bu çarpışma da gecəli-gündüzlü əbədi olaraq davam edəcək.

Gecəli-gündüzlü...

Daha bir gecə əriyib gedirdi. Ertəsi gün onların ova çıxacaqları gecə. Həmin gecə o yatmadı. Ömründə ilk dəfə yuxusu qaçaq düşdü, ömründə ilk dəfə yuxusuzluğun nə olduğunu bildi. O çox istəyirdi ki, səhər tez açılsın, özünü dənizə versin. O, nerpa dərisi üzərində uzanaraq, altındakı torpağın dəniz zərbələrindən güclə seziləcək dərəcədə arabir titrədiyini, dalğaların körfəzdə guruldadığını, zəifləyib öləzidiyini də hiss edir, eşidirdi... O, gecəni dinşəyirdi, yatmırdı...

Amma bir vaxtlar hər şey başqa cür olmuşdur. İndi bunu heç təsəvvürə gətirmək də mümkün deyil, indi bu, heç kəsin ağlına da gəlmir, heç kəs başa da düşmür ki, o qədim zamanlarda Luvr ördəyi olmasaydı, dünya tamam başqa cür qurula bilərdi – quru suya qarşı, su da quruya qarşı durmazdı. Axı dünyanın əzəl başından təbiətdə torpaq olmayıb, onun heç tozu da olmayıb, hər tərəf göz işlədikcə su imiş, yalnız su. Su cərəyan etdiyi qaranlıq girdablarda, hədsiz burulğanlarda öz-özündən əmələ gəlib və dalğalar o vaxtkı yan-yörəsiz dünyanın hər tərəfinə necə gəldi axıb yayılıb: elədən-eləyə, belədən-beləyə...

İndi başımız üstündən dəstə-dəstə ötüb keçən adi, enliburun çöl ördəklərindən olan Luvr ördəyi isə o vaxt dünya üzərində tək-tənha

uçur, yumurtlamaq üçün bir yer tapmırdı. Dünyada sudan başqa heç nə yox idi. Hətta bir qamış da qəhət olub ki, ondan yuva qursun.

Luvr ördəyi hay-həşirlə uçurdu: o, yumurtasını saxlaya bilməyəcəyindən, onu dibsiz dənizə salacağından qorxurdu. Luvr ördəyi hayana üz tuturdusa, hayana uçurdusa, yenə də özünü dalğalanan sular üzərində qanad çalan görürdü, hər yan nəhayətsiz su – sahilləri, ucu-bucağı olmayan su idi. Luvr ördəyi yorulub əldən düşdü və axırda əmin oldu: bu gen dünyada yuva qurulası bir yer yoxdu.

Və o vaxt Luvr ördəyi suyun üstünə qondu, döşündən lələklər qoparıb, özünə yuva hördü. Həmin üzən yuvadan da torpaq əmələ gəlməyə başladı. Torpaq yavaş-yavaş böyüdü, torpaq yavaş-yavaş cürbəcür canlı varlığa məskən oldu. İnsan isə bu məxluqat içərisində hamını ötüb keçdi – o, qar üzərində xizəklə gəzməyə, suda qayıqla üzməyə başladı. O, vəhşi heyvan ovladı, o, balıq tutdu, beləliklə özünü dolandırdı, nəsil artırdı.

Ucsuz-bucaqsız su səltənətinin ortasında torpağın yaranması ilə dünyada necə bir çətinlik əmələ gələcəyini kaş Luvr ördəyi bilmiş olaydı. Axı torpaq yaranandan bəri dəniz rahatlıq tapmır; o vaxtdan bəri dəniz quruyla çarpışır, quru da dənizlə. İnsan da qalıb arada. Onların – quruyla dənizin, dənizlə qurunun arasında qalmaq isə insan üçün bəzən çox çətin olur. İnsan daha çox torpağa bağlı olduğu üçün dəniz onu sevmir.

Səhər açılırdı. Daha bir gecə çəkilib gedir, daha bir gündüz gəlirdi. İşıqlaşmaqda olan bozumtul dan qaranlığında dənizin sahillə coşqun təması göyümtraq hovxuruq buxarında yalmanan maral dodaqlarına bənzəyirdi. Dəniz nəfəs alırdı. Dənizlə qurunun daimi qızğın təmasında uçan çiskinin buxarı burula-burula yuxarı qalxır, bütün sahil boyunca ləpədöyənin sürəkli uğultusu havalanırdı.

Dalğalar öz inadından əl çəkmirdi: bir-birindən güclü dalğalar sularda yuyulan soyuq və sərt qumların üstüylə, yığın-yığın boz, sürüşkən daşların arasıyla şığıyaraq, var qüvvə ilə, sürətlə yuxarı qalxıb, quru üzərinə hücum çəkir və axır nəfəsdə şappıltı ilə çırpılaraq sahildə ani ömürlü köpüklər, bir də çalxalanmış yosun qoxusu qoyub yox olurdular.

Arabir dalğalarla birlikdə sahilə okeanın yaz təlatümünün hardansa gətirdiyi buz parçaları da atılırdı. Qum üzərinə atılan bədoy buz qırıntıları dərhal, donmuş dənizin mənasız, aciz parçalarına çevrilirdi. Növbəti dalğalar tez çəkilir və onları öz ağuşuna alıb geri aparırdılar.



Qaranlıq çəkilib gedirdi. Səhər səxavətlə nura bələnirdi. Torpağın ümumi cizgiləri yavaş-yavaş aydın görünür, dənizin üzü get-gedə açılırdı.

Gecə küləyin coşdurduğu dalğalar sahilə yaxın yerlərdə hələ də ağ köpüklü cərgələrlə çarpırdı, gözdən itən uzaq-uzaq dərinliklərdə isə ağır, xəfif ləpəli dəniz tutqun-tutqun parıldayır, sakitləşib ram olurdu...

Qara buludlar dəniz üzərindən köçlənərək, sahil təpəliklərinə doğru sürünürdü.

Bu yerdə, Alabaş buxtasının yaxınlığında çəpəki ucalan dağlıq yarımadada ən çox nəzərə çarpan və uzaqdan baxanda doğrudan da dəniz kənarıyla baş alıb qaçan nəhəng ala-bula köpəyi xatırladan bir qaya-təpə var. Böyürləri qarışıq kollu-meşəli, başında sallaq pələ qulağa oxşayan iri qar talasını, quzey çuxurunda isə ondan da iri bəyaz qar zolağını yayın qızmar günlərinəcən qoruyub saxlayan Alabaş qaya dənizdən də, meşədən də həmişə aydınca görünürdü.

Sübh tezdən, günəş iki qovaq boyu qalxanda, buradan, Alabaş buxtasından bir nivx kayakı[1] ayrılıb, dənizə yol aldı. Qayıqda üç ovçu və bir oğlan uşağı vardı. Kişilərdən nisbətən daha cavan və qüvvətli olan ikisi dörd kürəklə avar çəkirdi. Onlardan ən yaşlısı – qəhvəyi sifətli, arıq iri hülqumlu, üz-gözünü, ələlxüsus da boynunu dərin qat-qırış basmış, iri kələ-kötür əlləri çat-çat olmuş qoca, qayığın arxa tərəfində oturub, çubuğunu ağır-ağır sümürərək, sükanı idarə edirdi. Saç-saqqalı çallaşmışdı artıq. Demək olar, ağarmışdı. Qəhvəyi çöhrəsində çal qaşları gendən seçilirdi. Qoca yaşaran, qan sağılmış gözlərini adəti üzrə qıymışdı – axı o, bütün ömrü boyu Günəş şüalarını əks etdirən sulara baxmalı olmuşdu və indi adama elə gəlirdi ki, o, körfəzdə qayığın hərəkətinə kor-koranə istiqamət verir. On bir-on iki yaşlarında qaragözlü oğlan isə o biri başda, kayakın lap burnunda oturaraq, tez-tez altdan-altdan böyüklərə baxır, o yan-bu yana çox çoyumamaq, zəhmli ağsaqqalın açığını tutdurmamaq üçün yerində özünü güclə saxlayırdı.

Oğlan təlaş keçirirdi. Həyəcandan burun pərələri körük kimi qalxıb-yatır, üzünə xəfif çillər çıxırdı. Bu, ona anasından keçmişdi; anası çox sevinəndə, üzündə belə xəfif çillər görünərdi. Oğlanın həyəcan keçirməsinin səbəbi vardı. Bu dəniz səfəri onunçün, onu ovçuluq peşəsinə

[1] **Kayak** – dəridən, qovaqdan qayrılan üstü örtülü kiçik qayıq (*Tərcüməçi*)

alışdırmaq üçün düşünülmüşdü. Elə buna görə də Kirisk cüllüt kimi başını o tərəf bu-tərəfə çevirir, ətrafa sonsuz maraq və səbirsizliklə baxırdı. Kirisk ömründə birinci dəfə idi ki, dədə-baba kayakında açıq dənizə peşəkar ovçularla əsl ova gedirdi. Oğlan yerindən qalxmaq, avar çəkənləri tələsdirmək, dəniz heyvanlarını ovlayacaqları adalara tez çatmaq üçün az qala özü var gücüylə kürəklərdən yapışmaq istəyirdi. Fəqət uşaq istəkləri təmkinli adamlara gülməli görünə bilərdi. O, bundan ehtiyat edərək, var gücüylə hissini büruzə verməməyə çalışırdı. Lakin buna heç də tam müyəssər olmurdu. Öz xoşboxtluyini gizlin saxlamaq onunçun çətin idi; sağlam, qarabuğdayı yanaqları qıpqırmızı olmuşdu. İllah da gözləri – vecdə gəlmiş fərəhnak, saf uşaq gözləri onun qəlbini coşduran sevinc və qürurunu gizli saxlaya bilmirdi. Axı qarşıda dəniz vardı, qarşıda onu kalan ov gözləyirdi!!!

Qoca Orqan onu başa düşürdü. O, gözlərini qıyaraq, qayığın dənizdə istiqamətinə baxa-baxa səbirsizlikdən yerində qurcalanan oğlanın halını da hiss edirdi. Qocanın baxışları hərarət saçırdı, o, “Eh, uşaqlıq, uşaqlıq!” – deyə gülümsəmək istədi, lakin yarısönmüş çubuğunu dərin qullab vurub sümürməklə cənglərindəki xəfif təbəssümü vaxtında gizlətdi. Təbəssümü büruzə vermək olmazdı. Oğlan onlarla dəniz səfərinə qayıqda əyləncə üçün çıxmamışdı. O, öz dəniz ovçusu həyatını başlamalı idi; o həyatı birdəfəlik, havaxtsa bir gün elə dənizdə də başa vurmaq üçün başlamalı idi, – neyləmək olar, çörəyini dənizdən çıxaran adamın taleyi belədir, çünki dünyada dəniz ovçuluğundan da çətin və təhlükəli iş yoxdur. Ona gərək uşaq yaşlarından vərdiş eləyəsən. Elə buna görə də atalar deyiblər: “Ağıl – göydən, səriştə – uşaqlıqdan”. Atalar belə də deyiblər: “Çörək gətirməyən oğul nəslə yükdür”. Deməli, çörəkgətirən olmaq, ailə dolandıran olmaq üçün kişi xeylağı erkən çağlarından özünə bir peşə seçməlidir. Kiriskin də belə bir peşə öyrənmək çağıydı; oğlanı ovçuluğa öyrətmək, dənizə alışdırmaq vaxtı çatmışdı.

Bu barədə hamı bilirdi. Balıq-qadın qəbiləsinin məskən saldığı Alabaş dağının ətəyində hamı bilirdi ki, bugünkü dəniz səfəri onun, gələcək ailə başçısı, evin ruzu gətirəni Kiriskin xətrinədir. Adət belədir: hər bir kişi xeylağı uşaq yaşlarından dənizlə dostlaşmalıdır ki, dəniz onu tanısın, o da dənizə ehtiram bəsləsin. Buna görə də qəbilənin başçısı qoca Orqan özü və iki ən mahir ovçu oğlanın atası Əmrayin və atasının əmisi oğlu Mılğun yaşlıların kiçiklər qarşısında, bu dəfə



onun, bu gündən uğurlu günlərdə də, uğursuz günlərdə də həmişəlik olaraq dənizlə qaynayıb-qarışmalı, olan Kiriskin qarşısında borclarını yerinə yetirərək, dəniz səfərinə çıxmışdılar.

O, – Kirisk, indi uşaqdır, hələ ağzından süd iyi gəlir və məlum deyil ki, ondan bir şey çıxacaq, ya yox, ancaq kim deyə bilər, ola bilsin, onlar halsız qocalara çevrilib, işdən əl çəkəndə ailənin başçısı və dayağı məhz o, – Kirisk olacaq. Bu, elə belə də olmalıdır, bu elə nəsilbənəsil, kökbəkök belə də davam edir. Həyat bunun üzərində qurulub. Ancaq bu barədə heç kim danışmaz. İnsan bu barədə ürəyində fikirləşir, amma bu barədə nadir hallarda danışır. Ona görə də oralarda, Alabaş dağın ətəklərində, Balıq-qadının adamlarından heç kəs bu hadisəyə – Kiriskin ilk dəfə dənizə ova çıxmasına elə bir əhəmiyyət vermədi. Əksinə, onların tayfasında olan adamlar çalışdılar ki, onun böyük ovçularla birlikdə dənizə getdiyini, hətta görməzliyə vursunlar. Sanki bu təşəbbüsü ciddi iş saymırdılar.

Onu təkcə anası yola salırdı, onunla da qarşıdakı dəniz səfəri barədə heç bir söz demədən və buxtaya çatmadan xudahafizləşdilər. Anası dənizə yox, meşəyə tərəf baxaraq, oğluna bilə-bilə ucadan və aydın şəkildə: “Hə, get meşəyə! – dedi. – Amma odun quru olsun, özün də meşədə azma ha!” O, bunu izi azdırmaq üçün oğlunu kinrlərdən – cinlərdən qorumaq üçün deyirdi. Ana onun atası barədə də heç bir söz demədi. Elə bil Əmrayin heç ata deyildi, elə bil Kirisk dənizə atası ilə yox, təsadüfi adamlarla gedirdi. Bu barədə də qəsdəncə danışmadı ki, kinrlər Əmrayinlə Kiriskin ata-oğulluğundan agah olmasınlar. Ata-oğul bir yerdə ova çıxanda kinrlərin onları görməyə gözü olmur. Kinrlər onlardan birini tələf edə bilərlər ki, o birisinin gücünü və iradəsini qırsınlar, o birisi bir də dənizə getməyə, meşəyə ayaq basmağa tövbə eləsin. Bu kinrlər belə xaindirlər, girəvə axtarırlar, fürsət gözləyirlər ki, insanları bir bəlaya salsınlar.

Onun özü – Kirisk cinlərdən qorxmur, daha böyük oğlandır. Amma anası qorxur. Xüsusən o sarıdan ürəyi əsim-əsim əsir. Sən, deyir, hələ balacasan. Səni karıxdırmaq, tələf eləmək çox asandır. Of, bu lənətə gəlmiş cinlər uşaqlara nə qədər əzab verirlər, uşaqları cürbəcür xəstəliyə düçar edir, şikəst qoyurlar ki, onlardan ovçu çıxmasın. Belə adam kimə lazım olacaq?! Buna görə də, xüsusən uşaq yaşlarında, nə qədər ki, böyüməyibsən, cinlərdən qorunmaq çox vacibdir. Adam böyüyəndən sonra, özü öz gücünü biləndən sonra heç bir cin-şəyatin qorxulu

olmur. Onda cinlər onlarla bacarmırlar. Cinlər güclü adamlardan qorxurlar. Ana və oğul beləcə də vidalaşdılar. Ana bir anlığa səssiz-səmirsiz dayanıb durdu, qorxusunu da, yalvarışını da, ümidini də bu səssizlikdə gizlədərək, dəniz tərəfə bircə dəfə də baxmadan, əri barədə bircə kəlmə də söz demədən geri qayıtdı, elə bil ki, o, əriylə oğlunun hara getdiyini doğrudan da bilmirdi, halbuki özü dünəndən onlara yol tədarükü görmüşdü. Üç günlük dəniz səfəri üçün azuqə ehtiyatı hazırlamışdı. İndi isə özünü heç bir şey bilməyən adam yerinə qoymuşdu; o, oğlu sarıdan bu dərəcədə narahat idi. Elə qorxurdu ki, – cinlər onun ürəyindəki təlaşdan duyuq düşməsinlər deyə öz həyəcanını heç cür büruzə vermirdi.

Ana buxtaya çatmadan qayıdıb getdi, oğul isə, belə bir gündə anasının ovqatını təlx etmək istəməyib, onun tapşırdığı kimi kolların arasıyla dövrə vura-vura, izini azdıra-azdıra, gözə görünməyən kinrlərdən gizlənə-gizlənə qaçaraq, xeyli qabaqda gedən kişilərin dalınca yüyürdü.

Kirisk onlara tez çatdı. Çiyinlərində yük, silah, ov ləvazimatı olan kişilər tələsmədən gedirdilər. Qabaqda ağsaqqal Orqan, onun ardınca – öz qədd-qaməti və boy-buxunu ilə seçilən enlikürək, saqqallı Əmrayin, onun da ardınca – ayaqlarını yan basa-basa yeriyən iri çiyinli, kötük kimi möhkəm və yastı Mılğun. Onlar aşılanmış dəridən və göndən tikilmiş, dəniz üçün əlverişli, isti saxlayan, su keçirməyən nimdaş paltar geymişdilər. Kirisk isə onlara nisbətən geyimli-kecimli görünürdü. Anası zəhmətə qatlaşmış, onun dəniz paltarını çoxdan hazırlamışdı. Kiriskin torbasının da, üst geyiminin də kənarına naxış vurulmuşdu. Dəniz səfərində belə geyimin yeri deyildi. Ancaq ana – anadır.

Kirisk onlara çatdıqda Mılğun istehza ilə:

– Paho, biz elə fikirləşdik ki, sən qalası oldun. Elə bildik ki, əlindən tutub evə apardılar! – deyə təəccübləndi.

Kirisk:

– Evə qayıtmaq nə üçün? Mən heç vaxt elə etmərəm! Axı mən... – deyə inciklikdən az qaldı boğulsun.

– Di yaxşı, zarafat-zad başa düşmürsən, – deyə Mılğun onun könlünü aldı. – Belə şeyləri boşla getsin. Dənizdə biri-birimizlə də zarafat etməsək, bəs kimlə zarafat etməliyik?! Yaxşısı budur, al, götür bunu! – deyə o, öz vinçesterini[1] ona verdi. Və oğlan onun yanınca məmnun-məmnun addımladı.

[1] Vinçester – tüfəng növü (*ingiliscə*)



Şeyləri qayığa yığmaq və yola düşmək vaxtı çatmışdı.

Onlar dənizə bu sayaq yola düşürdülər. Amma işləri yaxşı gətirsə, evə əlidolu dönsələr, onların qayıtması ayrı cür olacaq. Onda oğlana layiqincə izzət-ehtiram göstəriləcək. Gənc ovçu ilə görüş büsatı qurulacaq, bayram olacaq, ucsuz-bucaqsız dərinliklərində güclü, cəsur ovçuların ovlayacaqları balıq və vəhşi heyvanlar bəslənən dənizin səxavəti barədə mahnılar oxunacaq. Mahnılarda Balıq-qadın nəslinin artıb yer üzünə yayıldığı insanların ulu nənəsi Balıq-qadın tərif ediləcək. Tir-nağaralar ağcaqayın çubuqlarının zərbələri altında gurlayacaq və rəqqaslar arasında ən ağıllı adam olan sehrbaz onun barəsində – Kirisk barəsində Torpaqla, Suyla danışacaq, and verib yalvaracaq ki, qoy Torpaq və Su həmişə onun xeyirxahı olsunlar. Qoy o, böyük qazanc gətirən olsun, qoy Torpaqda da, Suda da həmişə onun işi avand olsun, həmişə uğur yol yoldaşı olsun, əldə olan nemətı qocalar və körpələr arasında ədalətlə bölmək vəzifəsi qoy həmişə ona nəsib olsun. O, müdriklər müdriki sehrbaz bir də bunu and verib yalvaracaq – qoy Kiriskin çoxlu uşağı olsun və hamısı da sağ qalsın ki, ulu Balıq-qadının kökü artsın, nəsilləri nəsillərə calansın:

Ulu Balıq-qadın, harda üzürsən?
Sənin isti bətnin – həyat mənbəyi.
O isti bətnində törəmişik biz –
Dəniz kənarında göz açmışıq biz.
Dünyada ən yaxşı yer – isti bətnin,
Ulu Balıq-qadın, harda üzürsən?
Nerpa başı kimi bəyaz döşündən,
Bizə süd vermisən sahil boyunda.
Ulu Balıq-qadın, harda üzürsən?
Üzəcək yanına ən güclü kişi:
Bətnin zaman-zaman barlansın deyə,
Nəslin zaman-zaman çoxalsın deyə...

Bayramda rəqslər və səs-küy arasında, bax, belə mahnılar oxunacaq. Həmin o bayramda Kirisk üçün başqa bir mühüm tamaşa da olacaq. Şövqlə rəqs edən sehrbaz onun ovçu taleyini göydəki ulduzlardan birinə tapşıracaq. Axı hər ovçunun öz bəxt ulduzu olur – onu bədnəzərdən qoruyur. Amma Kiriskin taleyi hansı ulduza tapşırılacaq – bunu heç kim heç vaxt bilməyəcək. Bunu bircə sehrbaz özü,

bir də gözə görünməyən o bəxt ulduzu biləcək. Başqa heç kim. Ulduzlarsa göydə çoxdur...

Əlbəttə, anası və bacısı hamıdan çox sevinib şadlanacaq, daha ucadan oxuyacaq, daha şövqlə oynayacaqlar. Atası Əmrayin də özünün ata olduğunu açıq bildirəcək, o da fərəh və qürur hissi keçirəcək. İndi isə o, hələ ata deyil. Dənizdə atalar və oğullar yoxdur, dənizdə hamı bərabərdir və hamı böyüyə tabedir. Böyük necə desə, elə də olmalıdır. Ata oğlunun işinə qarışmaz. Oğul ataya giley-güzar eləməz. Qayda belədir.

Bir də, çox güman ki, uşaq vaxtı birlikdə oynadığı o qız – Muzluk da çox sevinəcək. İndi onlar əvvəllərə nisbətən bir yerdə az oynayırdılar. Bundan sonra isə heç oynamazlar: ovçu hara, oyun hara...

* * *

Qayıq dalğalara yüngülcə baş vura-vura rahatca gedirdi. Alabaş buxtası çoxdan arxada qalmışdı, özü də onlar uzun burunu keçib, dənizə çıxdıqda gördülər ki, burda dalğa körfəzdəkindən zəifdir. Dalğalar aramla şırıldayır, eyni vaxt ərzində eyni hündürlüyə qalxırdı. Belə sabit dalğaların üstüylə yeyin üzüb getmək olar.

Nəhəng qovaq ağacının gövdəsindən oyulub qayrılmış qayıq rahatca gedirdi. O, sükana asanlıqla tabe olaraq, həm qabaqdan, həm də yandan gələn dalğalar qarşısında möhkəm duruş gətirirdi.

Qoca Orqan artıq sönmüş çubuğunu hələ də sümürərək, qayığın sarsılmaz gedişindən ləzzət alır və qəlbində elə hisslər keçirirdi ki, elə bil onun özü buz kimi soyuq dənizdə yarıya qədər suya batıb gedən bir qayıtdı: bəndlərinin rəvan cırıltısına və kürəklərin ahəngdar şappıltısına qoşularaq, dənizin qoynunda elə bil o özü üzürdü, elə bil o özü qarşıya çıxan dalğaları sinəsiylə yarır, suların zərbə və təkanlarından yüngülcə silkələnib irəliləyirdi. Qayığın hərəkəti ilə qovuşub çulğalanmış bu hiss onda qəribə fikirlər oyadırdı. Qayıq onun çox xoşuna gəlirdi, lap çox, axı, onu özü rəndələmişdi, özü oymuşdu, qovaq ağacını el gücünə kəsib böyrü üstə yıxmışdılar. O işin öhdəsindən nəinki bir adam, heç dörd-beş adam da gəlməzdi. Ancaq sonrakı işləri tək özü görmüşdü – üç il sərasər qurudub oymuş və hələ o vaxt yəqin etmişdi ki, bu, onun ömrü boyu düzəltdiyi kayaklar içərisində ən yaxşı kayak olacaq. Ancaq bu barədə fikirləşdikcə qeyri-ixtiyari olaraq kədərlənirdi; bu bəlkə onun həyatında



axırıncı kayakdır? Nə ola, hələ bir az da yaşayaydı. Yenə də dənizə çıxaydı; nə qədər ki, gözü işıqlıdır, tükü tükdən seçir, saf-çürük etməyi bilir, daha bir-iki kayak da yonub düzəldəydi. Və o, belə fikirləşə-fikirləşə xəyalən kayakla söhbət edirdi Kayaka: "Mən səni sevir və sənə inanıram, qardaşım kayak, – deyirdi. – Sən dənizin dilini bilirsən, sən dalğaların xasiyyətini bilirsən, sənin gücün də bundadır. Sən tərifəlayiq kayaksan, mənim yonub düzəltdiyim kayakların ən yaxşısısan. Sən böyük kayaksan – sənə iki laxtak və bir dənə də nerpa sığır. Sən bizə uğurlar gətirirsən. Buna görə də sənə hörmətim var. Yükümüz sənə ağırlıq edəndə, sən ağzınacan suya yata-yata, hətta, içinə su dola-dola sahilə qayıdanda, biz hamımız səni sevirik. O vaxt hamı yüyürüb sahilə səni qarşılamağa çıxır, qardaşım kayak!

Əgər mən ölərəmsə, sən çox yaşa, çox gəz, ovla zəngin olan uzaq yerlərə səfərlərə get. Əgər mən ölərəmsə, dənizə gənc və güclü ovçularla çıx. Əgər mən ölərəmsə, onlara xidmət elə – mənə xidmət etdiyin kimi. Sən ömrü başa vurmağa tələsmə, qardaşım kayak, gözlə ki, bax o, burun tərəfdə oturan, başını bulayan, özünü güclə saxlayan bizim bu uşaq da, – ona elə gəlir ki, suda yox, quruda olsaydı, indi o, böyük ova özü gedər, tək özü işin öhdəsindən gələrdi. – qardaşım kayak, gözlə ki, o da böyüsün, o da uzaq-yaxın səfərlərə səninlə getsin. Bu gün isə o, bizimlə ilk dəfədir dənizə çıxıb. Belə lazımdır. Qoy öyrəşsin. Biz dünyadan köçüb gedəcəyik, onun ömrü isə hələ qabaqdadır. Əgər atasına – Əmrayinə çəkərsə, deməli, fərasətli adam olacaq, daha boşboğazın biri yox. Əmrayin indiki ovçular arasında, bəlkə də, ən mahir ovçudur. Qıvraq, işbacaran oğlandır. Bir vaxtlar mən də eləydim. Ən oğlan çağımdı. O vaxtlar məndim qadınların fikri-zikri. Mənə elə gəlirdi ki, ömrün sonu-zadı yoxdur. Fəqət çox gec başa düşürsən ki, belə deyil. Cavanlar isə bunu bilmək istəmirlər. Bax, Əmrayin və Mılğun bu barədə, yəqin ki, hələ fikirləşib-eləmirlər. Eybi yoxdur. Bir vaxt başa düşərlər. Amma onlar yaxşı avar çəkirlər, cəld və tez-tez. Mılğun Əmrayinə tay gəlir. Bir-birinə tən, etibarlı, dözümlü cavanlardır. Qayıq sanki öz-özünə, oynaya-oynaya gedir. Lakin bu, adama belə gəlir. Dənizdə qolların gücünə gedirsən. Qarşıda isə hələ nə qədər yol var, hələ nə qədər qol gücü sərf olunacaq, nə qədər avar çəkmək lazım gələcək. Bu gün yəqin ki, qaranlıq düşənə kimi, Üçüncü əmcəyə çatana kimi üzməliyik. Sabah da, qayıdanbaş – bütün günü. Səhər tezdən ta axşama kimi. Gah bunu, gah o birini əvəz

edəcəyəm; bu, böyük bir dənizi avarlarla çalxalayıb qarışdırmaq ağır işdir. Ancaq ovla qayıdacağıq, şənlik düzəldəcəyik.

Sən məni eşidirsən, sən məni başa düşürsən, qardaşım kayak? Sən bizi aparıb adalara, Üçəmcək adalarına, bolluca ov yerinə çatdırarsan. Bunun üçün gedirik. Orada, yataqlarda adaların sahillərində nerpaya rast gələcəyik. Bir azdan döl başlanır, nerpa adalarda sürü-sürü yığışacaq.

Sən məni başa düşürsən, qardaşım kayak? Axı sən məni başa düşürsən. Mən səninlə sən hələ dəniz nə olduğunu bilmədiyin vaxtlardan, sən hələ meşədə böyük qovaq ağacının bətnində olduğun vaxtlardan danışmağa başlamışam. Mən səni ağacın bətnindən azad eləmişəm. İndi isə biz bir yerdə üzürük.

Bir vaxt mən olmayanda isə məni yaddan çıxartma, qardaşım kayak, hər dəfə dənizdə üzəndə yada sal məni..."

Orqan sahil kənarında əsas səmt göstəricisi olan Alabaş-təpədən dənizə, düzünə istiqamət götürərək belə düşünürdü. Bu qaya-təpənin bir qəribə xüsusiyyəti olduğunu dəniz səfərinə gedənlərin hamısı danışırdı: açıq havada adam ondan uzaqlaşdıqca, o, sanki böyüyürdü. Elə bil Alabaş geridə qalmaq istəməyib, özü sənin dalına düşüb gəlirdi. Qanrılıb baxan kimi, Alabaş göz qabağında durur. Sahildən uzaqlaşdıqca, bu qaya uzun müddət görünür, sonra isə bir su dikdiri arxasında birdən-birə gözdən itir. Deməli, Alabaş öz damına gedib, deməli, torpaq çox-çox uzaqlarda qalıb...

Və onda Alabaşın harada, hansı səmtdə qaldığını yadda saxlamaq, yaxşı-yaxşı yadda saxlamaq lazımdır. Küləyin istiqamətini, təpə ilə müqayisədə Günəşin vəziyyətini yadda saxlamaq, sakit havada çıxıbsansa, buludlara diqqət yetirmək və ucsuz-bucaqsız dəniz ənginliyində azmamaq üçün daim, lap adalara çatana kimi, Alabaşın yerini yadda saxlayaraq getmək lazımdır.

Onlar, demək olar, bir günlük məsafədə olan adalara yola düşmüşdülər. Bir kimsənin yaşamadığı daşlı-qayalı o kiçik adaçıqlar sahilsiz suların ortasında qara əmcək kimi çıxmış üç parça quru yer idi. Buna görə də adalara Üçəmcək adı verilmişdi – Kiçik Əmcək, Orta Əmcək, Böyük Əmcək. Onlardan bir az o yana həddi-hüdudu olmayan, adını bilmədikləri birümman – okean başlanırdı – dünya yaranan gündən, Luvr ördəyinin yuva qurmaq üçün balaca bir yer sorağında hay-həşirlə uçduğu və onu tapmadığı bir aləmdə lap o vaxtlardan öz-özündən əmələ gələn, hələ heç kimin keçmədiyi əsrarəngiz Böyük Su.



Nerpalar bu yaz günlərində dənizlə okean sərhədində olan, bax, həmin o adalarda yataq salmışdılar. Ovçular da elə oraya gedirdilər, o yataqlara tərəf yol almışdılar...

Oğlan heyrətlənirdi: dəniz heç də onun təsəvvür etdiyi kimi – Alabaşın sıldırım dərələrində oynayarkən onun təsəvvür etdiyi kimi yox, hətta laqunda[1] qayıq gəzintisi zamanı olduğu kimi də yox, sən demə, tamam başqa cürmüş! Onlar körfəzdən çıxdıqda, dəniz gözlə görünən hər yanı üfüqdən-üfüqə əngin sulara qərq edib, birdən-birə qurudan aralananda, dünyanın bölünməz, ucsuz-bucaqsız, yeganə varlığına çevrildikdə, o, bunu daha aydın hiss elədi.

Açıq dəniz Kiriski heyrətə saldı. O, belə bir mənzərə görəcəyini ağlına gətirmirdi. Hər yan yalnız su idi – çalxalanan vahiməli sular, hər yan yalnız dalğa idi – tez qalxan və tez də yatan dalğalar, hər yan yalnız dərinlik idi – qara, qorxulu dərinlik, yalnız yüngül və əlçatmaz bəyaz buludlar dolaşan səma. Bütün varlıq bundan ibarətdir – dənizin özündən başqa heç nə yox idi, heç nə görünmürdü – nə qış bilinirdi, nə yay, nə dərə vardı, nə təpə.

Dünyanı başdan-başa su bürümüşdü.

Qayıq dalğalara baş vura-vura gedirdi. Bolluca, kalan ov intizarında olan oğlan üçün qayıqda getmək maraqlı və fərəhli idi. Ancaq o, ətrafda – suyun altında, suyun üstündə gördüyü, müşahidə elədiyi hər şeyi bu dəfə ani olaraq, etinasız surətdə dərk edirdi, çünki onun qəlbi başqa təəssüratlar həsrətilə döyünürdü. Ayrı vaxtda onu suyun səthi ilə qəribə surətdə sürüşüb, dənizin üzündə açıq bənövşəyi və qayığın kölgəsində qapqara qaralan tünd yaşılı rənglər əmələ gətirən şəfəqlərin bərq vurması cəlb eləyərdi; o, bilmədən qayığın həndəvərinə gəlib çıxmış qəribə, maraqlı balıqları görüb sevinərdi, karvanla gəlib onların üstünə çıxmış və qaçıb dağılışmaq əvəzinə, qorxudan biri-birinə qısılan və sudan tullanaraq, havada sallağı qalıb, arxası üstə məzəli şəkildə təkrarən suya düşən qorbuşalara[2] baxıb gülərdi.

Bütün bunlara o, elə bir əhəmiyyət vermədi, fikirləşdi ki, boş şeylərdir. Onun istəyi yalnız bir şey idi – adalara çatmaq! Tez işə başlamaq!

Lakin bir az sonra oğlan özünü o yerə qoymasa da, onun əhvalı çox qəribə şəkildə, öz-özünə dəyişdi. Onlar torpaqdan uzaqlaşdıqca,

[1] Laqun – dənizdən ayrılmış kiçik göl
[2] Qorbuşa – qızılbalıq fəsiləsindən olan balıq

xüsusən təpələnən suların qaranlığı arxasında Alabaş birdən-birə gözdən itəndən sonra o, dənizdən doğan dumanlı bir qorxu duymağa başladı və özünün bütünlüklə dənizdən asılı olduğunu – böyük təbii qüvvə qarşısında özünün son dərəcə aciz və son dərəcə köməksiz olduğunu hiss etdi.

Onunçün bu, təzə duyğu idi. Və bu yerdə o başa düşdü ki, əvvəllər heç vaxt ağlına gətirmədiyi, yamaclarında qayğısız-qorxusuz oynadığı, başına dırmanaraq, hədəsiz dənizə tamaşa etdiyi Alabaş onunçün nə qədər əzizmiş. O, indi başa düşdü ki, Alabaş nə qədər güclü, nə qədər xeyirxah, nə qədər yenilməz və qüdrətli imiş.

İndi o, quru ilə dəniz arasındakı fərqi başa düşdü, torpağın üstündə olanda torpaq haqqında düşünmürsən. Dənizdə isə, hətta, fikrin ayrı şeyin yanında olsa da, daim dəniz haqqında düşünürsən. Bu kəşf oğlanı duruxdurdu. Dənizin adamı daim onun haqqında düşünməyə vadar etməsində nə isə bir əsrarəngizlik, təkidlilik, amiranəlik gizlənmişdi...

Lakin böyüklər arxayın idilər. Əmrayin və Mılğun yenə də əvvəlki qayda ilə, gərilə-gərilə avar çəkirdilər, müntəzəm təkanlarla qayığa asan və sərbəst hərəkət vermək üçün kürəkləri bacardıqca qaldırıb uzaqdan çalır, başlarını aşağı əyərək birədi yığılır, birədi düzəlirdilər. Dörd kürək eyni vaxtda suya dəyir, eyni vaxtda havaya qalxırdı. Ancaq avarçəkənlər buna arasıkəsilməz gərgin əmək sərf etməli olurdular. Avarçəkənlər arxaları ona tərəf oturmuşdular, ancaq o, avar-çəkənlərin çiyinlərinin necə qalxıb-yatdığını görürdü. Onlar çox nadir hallarda biri-biri ilə kəlmə kəsirdilər. Ata, doğrudur, hərdən dönüb dala baxır, oğluna bığaltı gülümsəyirdi, yəni "Hə, necəsən?.."

Onlar bu minvalla üzürdülər. Böyüklər arxayındılar və özlərinə inanırdılar. Qoca Orqan isə lap sakit idi. Öz yerindəcə arxayınca oturub, çubuğunu sümürə-sümürə qayığı idarə edirdi. Onlar hər biri öz aləminə qapılaraq, beləcə üzürdülər. Düzdür, Kirisk iki dəfə gah Mılğunla, gah da atasıyla qoşa avar çəkmək istədi. Avarçılar həvəslə kürəklərdən birini ona verdilər ki, bir az işləsin. O, kürəyi iki əliylə hərlətsə də, çox davam gətirə bilmədi: qayıq onunçün həddən artıq ağır idi, elə kürək də böyüktəhər idi. Amma buna görə heç kim onu məzəmmət etmədi, heç kim peşman da olmadı, dinib-danışmadan işlədilər.

Ancaq Alabaş birdən-birə gözdən itdikdə, nədənsə, hamı bir vaxtda hərəkətə gəldi. Ata:



– Alabaş getdi evə! – dedi.

– Hə, getdi! – deyə Mılğun təsdiqlədi.

Qoca Orqan da o tərəfə baxıb:

– Yəni doğrudan? Hə, deyəsən gedib, – dedi, – hə, əgər belədirsə, deməli, işimiz gedir. – Sonra da üzünü oğlana tutub bic-bic: – Ehey, Kirisk, – dedi, – sən bəlkə, Alabaşı çağırasan, necə olar, hə, bəlkə qayıdar?

Hamı güldü, Kirisk də güldü. Sonra o, bir anlıq fikrə gedib bərkdən dedi:

– Onda geriyə dönmək lazımdır, o, onda qayıdar!

Orqan gülümsəyərək:

– Nə tez geri qayıtmaq istədin! – dedi. – Yaxşısı budur, gəl işlə məşğul olaq. Keç yanıma. Boş-boşuna tamaşa elədiyin bəsdir. Dənizi başdan-başa görə bilməzsən.

Kirisk qayığın burun tərəfindəki yerini tərk edib, qayığın dibindəki şeylərin – maral dərisinə bükülmüş bir cüt vinçester, qarpun[1], kəndir yumağı, balaca su çəlləyi, azuqə torbası və daha başqa bağlama və paltar üstündən adlayaraq, təknə boyunca yeriyib, avarçəkənlərin yanından keçdikdə, kişi tərini və kəskin tütün qoxusunu duydu. Atası dənizdə olanda, onun köhnə kürkünü anasının götürüb qoxulamağı xoşladığı həmin ata paltarının qoxusunu...

Ata oğluna him elədi, çiyni ilə onun böyrünü yüngülcə dürtmələdi, ancaq kürəkləri əlindən buraxmadı. Amma Kirisk qeyri-iradi ata novazişinə bənd olmadı. Könlündən keçənə bax! Dənizdə hamı bərabərdir. Dənizdə nə atalar var, nə də oğullar! Dənizdə yalnız böyük var. Və onun icazəsi olmadan barmağını da tərpədə bilməzsən...

– Əyləş, rahatlan yanımda. – Orqan uzun, qabarlı əliylə onun çiyninə toxunaraq, yer göstərdi. – Sən, deyəsən, bir az qorxubsan, hə? Əvvəlcə elə bil bir şey yox idi, ancaq sonra...

Kirisk pörtdü: demək qoca Orqan başa düşüb... Bununla belə qəti etiraz etdi.

– Yo-ox, atkıçx[2], əsla qorxmamışam! Nədən qorxacağam!

– Bəs nə, birinci dəfədir dənizdəsən.

– Nə olsun ki, birinci dəfədir?! – Kirisk təslim olmadı. – Mən heç nədən qorxmuram.

[1] Qarpun – iri dəniz heyvanlarını ovlamaq üçün nizə, qarmaq
[2] Atkıçx – baba

– Onda, əhsən. Amma mən birinci dəfə dənizdə üzməyə başlayanda, çoxdankı əhvalatdır, boynuma alıram ki, bərk qorxdum. Bir də baxanda gördüm ki, sahil görünmür və Alabaş da haraya isə çıxıb gedib. Ətrafda yalnız dalğalardır. Evə getmək istədim. Odey, istəyirsən onlardan – Əmrayindən və Mılğundən soruş, gör, ilk dəfə dəniz ovuna çıxanda əhvalları necə olub?

Cavabında onlar söhbəti duyurmuş kimi gülümsədilər, sinələrini kürəklərin üzərinə gərərək, başları ilə təsdiq etdilər.

– Mən isə qorxmuram! – Kirisk sözünün üstündə durdu.

– Əgər belədirsə, onda əhsən! – Qoca onu sakit elədi. – İndi isə mənə de görüm, Alabaş ha tərəfdə qaldı?

Kirisk nagahani sualdan fikrə getdi, sonra əliylə göstərdi:

– Odey, orda!

– Sən əminsən? Elə bil əlin əsir?

Oğlan əlinin əsməcəsini yatırdıb, sağ tərəfi göstərdi:

– Odey, orda!

– Hə, bax indi dəqiq oldu! – deyə Orqan razılaşdı.– Bəs, əgər kayak burnunu bu tərəfə döndərsə, onda Alabaş harda olar?

– Odey, orda!

– Bəs, əgər külək bizi o tərəfə döndərsə?

– Odey, orda!

– Yaxşı, indi isə de görüm, necə təyin edirsən, axı ətrafda gözə heç nə görünmür, hər yan sudur? – deyə Orqan bilmək istədi. – İzah edə bilərsən?

– Mənim başqa gözlərim də var, – deyə Kirisk cavab verdi.

– O nə cür gözlərdir elə?

– Bilmirəm nə cür. O gözlər, yəqin, mənim qarnımdadır və onlar baxmaya-baxmaya görürlər.

– Qarnında? – Hamı güldü.

– O da düzdür. – Orqan rəyini bildirdi. – Belə gözlər var. Ancaq onlar qarında yox, başdadır.

– Mənimsə qarnımdadır. – Kirisk belə bir gözün yalnız başda ola bilməsi ilə artıq razılaşmış olsa da, öz dediyində durdu.

Bir müddət keçəndən sonra qoca, Kiriski yenidən imtahana çəkməyə başladı və onda dənizin səmtlərini yadda saxlamaq qabiliyyəti olduğunu yəqin edib razı qaldı. Burnunun altında mızıldandı.

– Hə-ə, sənin qarnındakı gözlər pis gözlər deyil.



Tərifdən xoşhallanmış Kirisk özü özüyçün məsələ qurub, cavabını axtarmağa başladı. Hələ ki, nisbətən sakit olan dənizdə bu da çox böyük deyildi. Vəfalı və böyük Alabaş hər dəfə müntəzəm surətdə hay verirdi – Alabaş Kiriskin yaddaşını bir o qədər də gücə salmadan onun xəyalında məhz orada, öz həmişəki yerində canlanır, ətəyində yorulmaq bilməyən ləpədöyənin daim gurultu qopardığını, dərələri sıx meşəli, "başı" və "qasığı" qar talalı nəhəng təpə-qayanı o, elə bil əyani surətdə görürdü. Oğlan Alabaşı gözünün qabağına gətirərək, onu əhatə edən başqa kiçik dağlar haqqında fikirləşməyə bilmir və qeyri-ixtiyari olaraq evlərini yadına salırdı. Onun gözünün qabağına sahilboyu uzanan kiçik dağlar arasında balaca bir vadi gəlirdi, meşə kənarındakı o vadidə isə, çayın sahilindəki köçəri düşərgəsindəki kəsmələr, talvarlar, itlər, toyuqlar vardı, qurudulmaq üçün balıqlar asılmışdı. Tüstü qalxırdı, səslər gəlirdi, anası və bacısı Psulk da ordaydı. Kirisk onları və habelə onların indi də elədiklərini, nəylə məşğul olduqlarını da dərhal gözünün qabağına gətirdi. Anası, əlbəttə, gizlində onun barəsində, onun atası barəsində və dənizdə olan ovçuların hamısı barəsində fikir eləyir. Hə, indi o, yəqin ki, onları düşünür. Fikirləşir, amma özü də qorxur ki, cinlər onun fikirlərini başa düşərlər onun qorxduğundan agah olarlar. Onun haqqında fikirləşən başqa bir adam da varsa, bu, şübhəsiz, Muzlukdur. Muzluk, ehtimal ki, indi Psulkun yanına oynamağa gəlib. Axı Muzluk dənizə getmiş Kirisk barədə bilmədən bir söz demiş olarsa, yaxud bir söz soruşmuş olarsa, anası onu söyüb biabır edə bilər. Anası onu hökmən məzəmmətləyib deyəcək: "Sən nə boşboğazlıq eləyirsən, məgər bilmirsən ki, o, meşəyə odun yığmağa gedib." Utandırılmış qız birdən yadına salacaq, susacaq. Kirisk bunu xəyalına gətirəndə hətta, qıza yazığı da gəldi. Kirisk istəyirdi ki, Muzluk onu ansın, amma əsla istəmirdi ki, qızı onun ucbatından danlayıb-dansasınlar.

Qayıq dalğalara ehmalca baş vura-vura öz qaydasınca üzürdü. Ətraf da ki, hara baxırdınsa, başdan-başa ləpələrin narın köpüklərində parıldayan dalğalı dənizdi. Nivxlər günortadan sonraya, ən geci günün axırına birinci adacığa (Üçəmcəkdən biri olan yaxındakı Kiçik Əmcəyə) çatmağı və işləri avand olsa, orada ova başlamağı nəzərdə tutmuşdular. Sonra onlar qaranlıq çökməmiş ikinci adacığa – Orta Əmcəyə kimi üzməli və sahilində qayıq üçün əlverişli yer olduğuna görə elə orada da gecələməli idilər. Səhər tezdən isə yenə də dənizə çıxmalı

idilər. Əgər axşamdan bəxtləri gətirsə, əgər birdəfəyə Üç yekə cəmdək nerpa tuta bilsələr, onda səhər yubanmadan geriyə istiqamət almaq olar. Ancaq necə olur olsun, günün birinci yarısında, gün iki qovaq boyundan artıq qalxmamış qayıtmalı idilər. Məlum şeydir ki, dənizi nə qədər tez tərk etsən, bir o qədər yaxşıdır. Qoca Orqan bütün bunları nəzərə almışdı, hər şey üçün onun öz qənaəti vardı. Onun köməkçiləri – Əmrayin və Mılğun da Üçəmçəyə birinci dəfə getmirdilər. Özləri hər şeyi əla bilirdilər. Əsas məsələ ondadır ki, hava yaxşı ola və bir də ki, heyvanları yataqda vaxtında məngirləyəsən. Bu, əsas məsələdir, bütün qalan şeylər isə hər kəsin öz bacarığından asılıdır.

Qoca Orqan dənizə nəinki ehtiyac üzündən gedirdi, – ehtiyacın ehtiyac yeri var, aydın işdir ki, yeməyini dənizdən çıxarmasan, yaşaya bilməzsən, – bir də ona görə gedirdi ki, dəniz onu çəkirdi. Dənizin ənginlikləri qocanı dərin xəyallara daldırırdı. Onun öz pünhan fikir aləmi vardı. Dənizdə heç nə ona öz aləminə qapılmağa mane olmurdu, çünki quruda gündəlik qayğılar arasında fikirləşməyə vaxt olmayan hər şey barədə dənizdə yaxşı-yaxşı düşünməyə imkan vardı – burada heç nə Orqanı böyük düşüncələrdən yayındırmırdı. Burada o, özünü Dənizə və Səmaya yaxın bilirdi.

O başa düşürdü ki, nəhayətsiz ənginlik müqabilində qayıqda olan insan heç nədir. Lakin insan düşünür, özü də bununla Dəniz və Səma böyüklüyü kəsb edir, bununla da əbədi fəlakətlər müqabilində özünü təsdiq edir; bununla da o, dünyaların dərinliyi və ucalığı fövqündə dayanır. Elə buna görə də insan nə qədər ki sağdır, o, ruhən dəniz kimi qüdrətli, səma kimi nəhayətsizdir, zira onun düşüncəsinin hüdudu yoxdur. O, öləndən sonra isə davamını kimsə bir başqası düşünəcək, ondan sonra daha bir başqası sonra da bir başqası, və bu minvalla nəhayətsiz olaraq düşünəcəklər. Bunu dərk etməsi qocaya barışmazlığın barışığından doğan acı bir nəşə verdi.

O başa düşürdü ki, ölüm labüddür, onun ömrünün sona yetməsinə o qədər də çox qalmayıb, başa düşürdü ki, ölümlə hər şey bitəcək, bununla bərabər, nəyəsə inanırdı ki, qəlbindəki ən əziz, pünhan şey – Balıq-qadın haqqındakı ülvi yuxuları ölümdən sonra da qalacaq, onunla birlikdə olacaqdır. O, öz yuxularını başqasına verə bilməzdi – yuxular verilmir və buna görə də belə hesab edirdi ki, onlar izsiz yoxa çıxmamalıdırlar... Ulu Balıq-qadın ölməzdir, deməli, onun haqqında olan yuxular da ölməz olmalıdır.



O, dənizdə bu barədə çox və tez-tez düşünərdi. Xeyli susardı, müsafirləri ilə heç bir söhbətə qoşulmayaraq, öz aləminə qapılardı. O, dənizə baxa-baxa kimsəyə müraciətlə yalnız bir şeyi xahiş edərdi: onun Ulu Balıq-qadın haqqında yuxuları onunla qalsın. Məgər yuxuların, həmişə, əsrlər boyu adamın yuxusuna girə bilməsi üçün, insanla birlikdə başqa aləmə getməsi mümkün deyil? Cavab tapmadıqda o, məhz belə olacağına, yuxuların onunla birlikdə qalacağına özünü inandırmağa çalışaraq, üzücü xəyallara dalardı...

... Ha vaxtlarsa, çox qədim zamanlarda Alabaş təpəsinə yaxın olan sahil boyunda üç qardaş yaşayırdı. Böyük qardaş əldən-ayaqdan iti idi, hər şeyə vaxt tapırdı, səriştəliydi, hər işdə müvəffəq olurdu: o, maralçı qızına evləndi, maral naxırlarının sahibi oldu, tundraya köçüb getdi, o gedən oldu. Kiçik qardaş ləpirçi və mahir atıcı idi. O da evləndi, bir meşəçi qızı aldı, çıxıb tayqaya getdi, tayqa meşələrində ovçuluq elədi. Ortancıl qardaş isə anadangəlmə çolaq idi. Yazığın bəxti gətirməmişdi, səhər erkən durar, gec yatardı, amma nə xeyri – maral dalınca gedəsi deyildi, meşədə heyvan pusub tutası deyildi. Mahalda heç kim qızını ona ərə vermədi, qardaşlar onu atıb getdilər və o mavi dənizin sahilindəcə tək-tənha qaldı. Balıq tutmaqla özünü birtəhər dolandırırdı. Balığı da ki, məlum məsələdir, nə qədər tutmaq olar...

Bir gün o, – uğursuz çolaq qardaş, tilov ipini dənizə ataraq, öz qayığında oturmuşdu, birdən əlində tilov qarğısının bərk titrədiyini hiss elədi. Sevindi: hə, yaman balıq olacaq. O, iri balığı çıxarmağa, get-gedə qayığa doğru çəkməyə başladı.

Baxanda nə görsə yaxşıdır?! Qadın sifətində bir böyük balıq. Quyruğunu suya çırpıb qıvrılır, xilas olub getmək istəyir. Qənirsiz bir gözəl: şumal bədəni – aylı gecədə gümüşü rəngə çalan çay daşları kimi ağ sinəsindəki qara giləli məmələr elə bil küknar qozasıydı, gözləri isə yaşıl alov saçırdı. O, Balıq-qadını sudan çıxardı, qollarının altından yapışdı, Balıq-qadın onu qucaqladı və onlar qayığa uzandılar. Bu səadətdən çolaq qardaş bihuş oldu. Başına nə iş gəldiyini bilmirdi, amma ona elə gəldi ki, qayıq göyə qalxdı. Dəniz çalxalanıb göyə qovuşdu, göy də cilvələnib dənizə qovuşdu. Sonra isə hər şey birdən sakitləşdi. Sanki fırtına yatmışdı. Bu an Balıq-qadın qayıqdan tullanaraq, üzüb uzaqlaşdı. Çolaq qardaş yerindən sıçradı, onu çağırmağa başladı, yalvardı ki, geri qayıtsın, lakin o hay vermədi, dənizin dərinliklərində gözdən itdi.

Dəniz sahilində atılıb tənha qalmış ortancıl çolaq qardaşın başına, bax, belə bir macəra gəldi. Balıq-qadın üzüb getdi və bir də heç vaxt gözə görünmədi. Çolaq qardaş isə o gündən qəribsədi, bərk xiffət eləməyə başladı. O gündən başlayaraq gecəli-gündüzlü sahil boyunca ağlar gəzdi, hey Balıq-qadını səslədi, ona and-aman eləyib yalvardı ki, heç olmazsa uzaqdan görünsün.

Dəniz qabaranda gəzdi, oxudu:
Ulu Balıq-qadın, harda üzürsən?
Dəniz çəkiləndə gəzdi, oxudu:
Ulu Balıq-qadın, harda üzürsən?
Aylı gecələrdə gəzdi, oxudu:
Dəniz – qəm yoldaşımdır,
Bu sular – göz yaşımdır.
Zülmət gecələrdə gəzdi, oxudu:
Torpaq – tənha başımdır!
Ulu Balıq-qadın, harda üzürsən?

Dəniz qabaranda gəzdi, oxudu, dəniz çəkiləndə gəzdi, oxudu.

Çolaq qardaş Balıq-qadının yolunu gözləməkdə ikən qış ötür, dalınca bahar gəlib keçir və yay günlərinin birində qarabəxt çolaq qardaş ləpədöyəndə dizəcən suya girib, o yan-bu yana ağır-ağır gedir, hey dənizə baxır ki, bəlkə birdən Balıq-qadın görünər və onu hey səsləyir ki, bəlkə birdən Balıq-qadın hay verər, ancaq o, birdən dənizin dayaz yerində elə bil ağlayan uşaq səsi eşidir. Uşaq sanki ağlayıb özünü əldən salırdı. O, səs gələn yerə yüyürdü və... gözlərinə inanmadı, gördü ki, suyun lap dayaz yerində bir körpə lümlüt oturub, dalğalar gah başından aşır, gah da geri çəkilir, o isə ağlayır və qışqıra-qışqıra hey deyir: "Kimdir mənim atam? Hardadır mənim atam?" Çolaq qardaş lap mat qaldı, binəva bilmədi neyləsin. Körpə isə onu görən kimi dil açıb dedi: "Sənsən mənim atam! Məni öz yanına apar, mən sənin oğlunam!"

Bax, belə bir əhvalat oldu. Çolaq qardaş oğlunu götürüb öz yanına apardı. Oğlan tez böyüdü. Dənizdə gəzməyə başladı. İgid və mətin ruzu gətirən oldu, ad qazandı. Anadan bəxtəvər doğulmuşdu: tor atırdı – o qədər balıq düşürdü ki, yığıb-yığışdırmaq olmurdu, ox atırdı – dəniz yırtıcılarının bu üzündən dəyib, o üzündən çıxırdı. Şöhrəti meşələr keçdi, dağlar aşdı, uzaqlara yayıldı. İş elə gətirdi ki, indi meşəçi



tayfasından olan bir qızı da ona hər cür hörmət-ehtiramla ərə verdilər. Uşaqlar doğulub-törədi və buradan da Balıq-qadının nəsli artmağa başladı.

O vaxtdan da bayramlarda belə mahnı oxunur:

Ulu Balıq-qadın, harda üzürsən?
Sənin isti bətnin – həyat mənbəyi,
O isti bətnindən törəmişik biz –
Dəniz kənarında göz açmışıq biz.
Dünyada ən yaxşı yer – isti bətnin.
Ulu Balıq-qadın, harda üzürsən?
Nerpa başı kimi bəyaz döşündən
Bizə süd vermisən sahil boyunda.
Ulu Balıq-qadın, harda üzürsən?
Üzəcək yanına ən güclü kişi:
Bətnin zaman-zaman barlansın deyə,
*Nəslin zaman-zaman çoxalsın deyə...*

* * *

Bu yuxu okeanın dərinliklərindən amansızcasına qabarıb gələn, sahil boyunda olan torpaqları, otları, qum təpələrini bir anlığa sualtı toranlıq tilsiminə salan dalğalar kimi yavaş-yavaş, tədriclə çözələnirdi.

Bu yuxu Orqanda hər dəfə çaşdırıcı, uzun müddət keçib getməyən duyğu yaradırdı. O, bu yuxuya o qədər inanırdı ki, adi həyatda belə halları heç kimə danışmalı olmadığı kimi, Balıq-qadınla olan görüşlərini heç kimə, dünyada bir insan oğluna danışmırdı.

Bəli, o, qocaya həm sevinc, həm kədər, həm xariqülade ruhi iztirablar verib, onu tez-tez yoxlayan yuxu – sirdaş idi. Bu yuxugörmənin qəribə xüsusiyyəti onda idi ki, o, hər dəfə öz mahiyyətinin tükənməzliyi və yuxunun ağlagəlməz dəyişmələrindən və şıltaqlıqlarından ibarət olan eyhamlarının çoxmənalılığı ilə Orqanı heyrətə salırdı. Orqan bu barədə düşünərək, sirlər sirrini – öz anlaşılmazlığı və əsrarəngiz əlamətlərilə adama daim əzab verən yuxuların canlı həyatla heç vaxt ələkeçməz, gözəgörünməz, arasıkəsilməz əlaqəsini başa düşməyə çalışaraq, özünü belə bir məqamda tuturdu ki, o, ruhunun bütün iztirablarına baxmayaraq, daim həmin yuxuların qayıtmasını istəyir, daim onunla, Ulu Balıq-qadınla görüşün dözülməz həsrətini çəkir...

Orqan onunla dənizdə görüşərdi. Onun həsrətilə sahilə çıxar, gəlişini gözləyər, ayaq izlərinin tez itdiyi, lakin qürub etmiş Günəşin sönmüş şəfəqlərinin qara, hərəkətsiz kölgələrinin qaldığı kimsəsiz sahil qumları üzərində intizarla gəzirdi. Qara qar kimi yapnxıb qalmış kölgələrin üstüylə o, güclü, ürəkyaxan bir kədər dünyasına qapılaraq, iztirabla addımlayırdı. Sevgi qəmi, arzu və ümid qəmi onun başından aşıb-daşırdı, dəniz isə sakit və biganə qalardı. Tənhalığın o gərgin, kimsəsiz dünyasında nə bir külək, nə bir səs, nə bir xışıltı olardı. O isə hey dənizə baxıb, möcüzə gözləyər, onun gəlişinə tamsınardı. Səssiz dalğaların onun addımladığı yol boyunca sahilə səssiz ağ köpük axını qovub gətirməsi ona çox ağır gələrdi. Dilsiz qağayılar onun başı üzərində ələnə-ələnə gələn quşbaşı qar kimi səssiz-səssiz uçardılar. Karlaşmış, lallaşmış bu boşluqda o, gözləyə-gözləyə qaldıqca əhvalının daha da pis olduğunu, qəlbində sakitləşmək bilməyən Balıq-qadın həsrətinin daha da coşqunluğunu hiss edərək, özünə bir yer tapa bilməzdi, hətta, yuxuda da başa düşərdi ki, onun halı pis olacaq, əgər Balıq-qadını görməsə, əgər Balıq-qadın gəlib çıxmasa, o, bu tənhalıqda həlak olacaq və bu vaxt o, çağırmağa Balıq-qadını çağırmağa başlardı. Ancaq öz səsini eşitməzdi, çünki bu qəribə yuxuda heç bir səs olmadığı kimi, onun səsi də yox idi. Dəniz isə susardı. Onu yalnız özünün son dərəcə bərk qeyri-müntəzəm ağır nəfəsi və gicgahlarında şiddətlə vuran nəbzinin sürəkli döyüntüsü təqib edərdi. Bunlar onu əsəbiləşdirərdi. O bilməzdi nə etsin, özü öz əlindən hara getsin. Suda boğulan adam xilas olmaq üçün son ümidgahı necə gözləyirsə, o da Balıq-qadını o cür gözləyərdi. Bilirdi ki, ona yalnız o – Balıq-qadın səadət verə bilər. O bunu bilir və var gücüylə gözləyirdi.

Və Balıq-qabın, nəhayət, sürətlə üzüb, suyun üzərinə çıxanda, dalğalar arasında seçilməz üzünü arabir göstərib, baxa-baxa ona doğru üzəndə dünyanın sükutu uçqun kimi dağılardı. O, səslərin qayıtmasını: yenidən oyanıb sahilə çarpan dalğaların nərəsini, küləyin vıyıltısını, başı üzərində uçan qağayıların səs-küyünü qıy çəkə-çəkə, hoppana-hoppana qarşılardı. O, haray-həşirlə dənizə cumar, kit kimi iti üzən bir canlıya çevrilərək, onun yanına gedərdi.

O Balıq-qadın isə onu gözlər, coşqun-coşqun dövrələr vurar, bir göz qırpımında suyun üzündə durar, həmin anlarda bütün bədənini şux, canlı ehtirasla titrədərək, qəfildən dənizə düşmüş gözəl gərdənli ən adi qadın kimi görünərdi.



O üzüb Balıq-qadının yanına gələr və onlar okeana gedərdilər.

İti, get-gedə sürətlənən yürüşlərində biri-birinə yüngülcə toxunaraq, yan-yana, çiyin-çiyinə üzərdilər. Onun həsrətini çəkdiyi, yolunda tənhalıq və qəm-qüssə əzablarına qatlaşdığı da elə bu anlar üçün idi.

İndi onlar bir yerdə idilər. Onlar ağlasığmaz qüvvətlə və sürətlə üfüqün çalxalanan hüdudlarında qəribə bir parıltı yeyən gecə ümmanının sayrışan uzaq ənginliklərinə doğru gedirdilər: onlar aramsız surətdə qabaqlarına çıxan dalğaların köpüklənən yollarının bədənləri ilə yararaq oraya, əlyetməz üfüqə doğru qoşurdular; sevincli uçuşdan vəcdə gələrək, gah dalğaların üstünə qalxır, gah da sürüşüb düşür, qurtarmaq bilməyən aşırımlar aşıb gedirdilər – silsilədən-silsiləyə, aşırımdan-aşırıma, gah yuxarı qalxır, gah aşağı düşürdülər. Onlarla yanaşı isə suyun üzərinə güzgü ləkəsi kimi düşüb səyriyən, dalğaların üstüylə şütüyən bədirlənmiş Ay onları müşayiət edə-edə inadla gedirdi. Bir Ay bir də onlar – o və Balıq-qadın bu ucsuz-bucaqsız umman ənginliklərində yalnız onlar hökmran idilər – bir onlar, bir də ümman! Bu onların səadətinin zirvəsi idi; bu, azadlıqla nəşələnmək dəmləri idi; bu, onların vüsal təntənəsi idi...

Onlar ehtirasdan coşaraq həyatın əzəliylə axırının bütün cəfasını və səfasını bir anda duymaq üçün nəhayət qovuşmalı olacaqları, alınlarına yazılmış yerə işıqgözü mümkün qədər tez çatmaq arzusuyla qanadlanaraq, dayanmadan, əzəmətlə gedirdilər...

Onlar beləcə üzürdülər – ox kimi, durmadan, məqsədlərinə tez çatmaq ümidiylə.

Onlar nə qədər iti üzürdülərsə, ondakı ehtiras da bir o qədər şiddətlə coşurdu. O yorulmaq bilmədən üzür, özünün bütün həyat cövhərini son zərrəsinədək, ən axır qətrəsinədək kürütökmə yerinə aparan qızılbalıq kimi var gücüylə irəliyə can atırdı. O, məhəbbətdən məst olaraq üzürdü. Sehrkar Balıq-qadın isə onu get-gedə okeanın lap dərinliklərinə çəkib aparır, bədəninin zərif hərarəti, çevikliyi və çeldliyi ilə Orqanı əfsunlayır, ləpədöyənin, püskürmə dumanı və əlvan qövsi-qüzeh içində dalğaların üstüylə uçmağa davam edirdi. Onun burulğanlaşan su şırnaqlarının göylüyü və bəyazlığı ilə yuyulan gözəlliyinin kamilliyindən nitq tutulurdu.

Onlar heç nə barədə danışmırdılar, yalnız su axınları və sıçrantıları içərisində aydın görünməyən üzlərinə alışmağa çalışaraq aramsız surətdə elə biri-birinə baxır, tale tərəfindən onlar üçün təyin edilmiş

yerin və saatın səbirtükədən, get-gedə artan intizarı qoynunda durmadan baş alıb okeanla gedirdilər...

Lakin onların o yerə, o məqama nə əlləri çatırdı, nə ünləri yetirdi...

Əksər hallarda onun yuxuları heç nəsiz qurtarardı – hamısı qəfildən qırılar, tüstü kimi çəkilib yox olardı. Belə hallarda o çaşıb qalardı. Sözün əsl mənasında pərt olar və sonra da kədərlənərdi, nə isə bir tamarzılıq, təmin olunmazlıq hissi keçirərdi. Kefi ayazıyanda, bir xeyli vaxt keçəndən sonra, hamısını əvvəldən yadına salar, bütün bunların bir mənası olsun deyə ciddi surətdə fikrə gedərdi, çünki o, ürəyində inanırdı ki, onun yuxusuna girən şey yuxudan artıqdı. Axı adi yuxu sən onu xatırlasan da, bir az keçəndən sonra həmişəlik unudulub gedir. Yuxuya çox şey girə bilər və bu cür bekara işdən adamın başı da ağrıyar. Balıq-qadın isə Orqan heç vaxt unutmurdu, onun haqqında həqiqətən həyatda olmuş və olan bir şey kimi düşünür, fikirləşirdi. Buna görə də qoca, Balıq-qadınla yuxudakı vüsalını və gözlənilməz ayrılığını deyəsən gerçək vaqiə kimi qəbul edərək, hər dəfə ürəkdən mütəəssir olurdu.

Amma bəzən yuxu ağır sonluqla qurtaranda, o, ruhən daha çox əzab çəkirdi. Belə hallarda o, yuxunun müəmmalı axırını yoza bilməyərək, dərin qəm-kədər dəryasına qərq olurdu.

O, yuxuda görürdü ki, onlar üzərək gəlib həsrətində olduqları xəlvət yerə çatıblar, artıq budur, uzaqlarda bir sahil görünür. O, məhəbbət sahili idi – onlar o sahilə doğru istiqamət götürür, özlərini biri-birinin ixtiyarına verə biləcəkləri həmin sahilə tez çatmaq arzusu ilə coşaraq, var gücləri ilə üzürdülər. Budur artıq sahilin lap yaxınlığındadırlar, birdən suyun dizdən aşağı olduğu və üzməyin mümkün olmadığı yerdə qumu görünən dayazlığa bənd oldular. Orqan birdən ayılır, ətrafına baxınırdı. Balıq-qadın dayazlığın məkrli əsarətindən qurtulmaq üçün faydasız cəhd göstərərək, suda dəli kimi çırpınırdı. Orqan soyuq tərə bataraq, ona kömək etməyə cumurdu. Ancaq o, suyun dibinin bataqlıq kimi lırtlığında bata-bata, dizin-dizin sürünərək; yorğun, yumşalmış, keyimiş ayaqlarını çəkib aparınca bütöv bir ömür keçirdi. Balıq-qadın lap yaxında idi, əlini yetirməyə lap az qalırdı, lakin ona çatmaq, qovuşmaq əzab idi; o, dənizin lil basmış dibində yıxılaraq təngnəfəs olur, boğulur, əl-ayağa yapışan yosunluqda dolaşıb özünü itirirdi. Ancaq onun dayazlıqda ilişib qalmış gözəl Balıqqadının necə çapaladığını, necə çırpındığını görmək daha ağır əzab idi.



Və nəhayət, o, özünü yetirib Balıq-qadını qucaqlayaraq, baş gicəllənməsindən səndələyə-səndələyə sahilə gedəndə, onun az qala partlayacaq qəlbinin necə şiddətlə döyündüyünü aydın eşitdi: Balıq-qadın elə bil qovulub tutulmuş bir yaralı quş idi. Və buna görə, onu bərk-bərk sinəsinə sıxıb gedərkən, qucağında aciz bir körpə aparırmış kimi, bütün varlığı ilə ona şəfqət və mərhəmət hissi keçirdiyindən təsirləndi, boğazı qəhərlə doldu. O, Balıq-qadından xəcalət çəkərək, özünü ağlamaqdan saxladı. O, Balıq-qadını qolları üstünə alaraq, göydə süzə-süzə, göydə dayana-dayana, hər addımbaşı onun barəsində düşünə-düşünə gedirdi. Balıq-qadın isə ona yalvarır, göz yaşı tökərək and-aman eləyirdi ki, onu geriyə aparsın, azadlığa buraxsın. Balıq-qadın boğulurdu, Balıq-qadın ölürdü. Balıq-qadın onu böyük dənizdən xaricdə sevə bilmirdi. Balıq-qadın ağlayır, ona elə yalvarıcı və nüfuzedici nəzərlə baxırdı ki, o tab gətirmirdi. Geri dönür, dayaz yerlə dənizə gedib, suyun dərin yerinə girir və burada onu ehmallıca qucağından suya buraxırdı.

Balıq-qadın üzüb, dənizin dərinliklərinə gedir o isə keyləşmiş kimi tək-tənha qalırdı. Orqan Balıq-qadının ardınca baxaraq inilti qoparırdı.

Ulu Balıq-qadın harda üzürsən?
Dəniz – qəm yoldaşımdır.
Bu sular – göz yaşımdır.
Torpaq – tənha başımdır.
Ulu Balıq-qadın, harda üzürsən?

Bunu xəyalına gətirmək onunçün ağır və dözülməz idi, elə bil o, doğrudan da Balıq-qadını qolları üstə tutubmuş və onu azadlığa da özcüyəzi buraxıbmış. Nədən belə oldu? İnsanın bütün arzularının yuxuda gerçəkləşməsi məgər mümkün deyil? Bu kimdən asılıdır? Bunun arxasında kim durur, nə durur, bunun mənası, məğzi nədir və nəyə lazımdır? Çaşıb qalmış Orqan bu fikirlərdən vaz keçər, çalışardı ki, Balıq-qadını unutsun, onun haqqında düşünməsin.

Ancaq ovda olanda onun haqqında və onunla bağlı olan bütün şeylər barədə necə düşünməyə başladığını özü də bilməzdi. Dənizdə o, qeyri-adi röyanın bütün tarixçəsini bir növ təzədən yaşayar, aydın surətdə fikirləşərək təəccüblənər, öz-özündən soruşardı: "Mən niyə bu barədə düşünürəm, mövcud olmayan Balıq-qadının xiffətini çəkmək məgər mənim bu qoca vaxtıma yaraşan işdir?" Özünü

məzəmmətləyər və etiraf edərdi: "O olmasaydı, özüm də özümə artıq bir yük olardım, daha qocalmışam, nə gücüm o gücdür, nə də gözlərim o gözlər, belim bükülüb, dişlərim tökülüb. Nə şan-şöhrətim vardısa, hamısı məhv olur, əldən gedir, ölüm də uzaq deyil, bircə sinə təslim olmur, sinəmdəki arzular elə əvvəlki kimi, cavanlıqda olduğu kimi qalır, ürək qocalmayır – fəlakətdir. Elə buna görə də belə şeylər düşünürəm, belə yuxular görürəm, – o səbəbdən də insan elə ki, yuxuya getdi, fikrə qapıldı, – özü üçün ölməz və azad olur. O, xəyalın qanadlarında göyə yüksəlir, dənizlərin dərinliklərinə enir. İnsan elə onunla da uludur ki, əcəli çatıncaya qədər həyatda olan hər şey barədə düşünür. Ancaq ölüm bununla hesablaşmır, nə işinə qalıb ki, insan ömür sürüb, xəyalında nə kimi cəlala çatıb, nə yuxular görüb, necə adam olub, ağlı nəyə və nə dərəcədə qadir olub – bütün bunların heç biri onun vecinə deyil. Niyə belədir? Dünya nə üçün belə qurulub? Qoy Balıq-qadın yuxu olsun – ancaq kaş bu yuxu orada, o özgə aləmdəcə elə həmişəlik qalmış olaydı..."

Orqan Balıq-qadına inandığı kimi, dənizin ona qulaq asdığına da inanırdı. Burada o, həm rahat nəfəs alırdı, həm də asudə düşünə bilirdi. Burada ürəyini boşaldırdı. Dərin xəyal aləminə qapılaraq, Orqan bəzən, hətta, özündən soruşası da olurdu: "Biz onunla buradan üzüb keçməmişik məgər? "

Belə anlarda çubuğunu təzədən doldurardı. Tənbəki tüstüsüylə nəşələnərdi. "Bu ot harda bitir görəsən, bir növ zəhərdir, amma ürəyi yüngülləşdirir... Tacirlər deyirlər, Mancuriyada bitir, onlar bunu ordan gətirirlər. Uzaq yerdir bu Mancuriya, yaman uzaqdır, bizim adamlardan heç kim heç vaxt oralarda olmayıb... Tənbəki orada görəsən meşədə ot bitən kimi bitir? Möcüzədir, dünyada nələr olmur..."

* * *

Gün günortanı keçmişdi artıq. Bu müddətdə gün bir neçə dəfə birdən-birə hardansa üfüqün o tayından gələn buludlar arxasında gizlənmişdi. O, bulud arxasında gizləndikcə dəniz də o saat tutulur, üzü qaralır, ətraf tutqunlaşır, gözəlliyini itirirdi. Sonra o yenidən üzünü göstərir, buludlar arxasından yaz Günəşi kimi səxavətlə aydın nur saçır və bu vaxt dəniz çimişən, göz qamaşdıran saysız-hesabsız şux şəfəqlərlə oynayır, ürək yenə də vəcdə gəlirdi.



Kirisk dənizə alışsa da, hətta, bir az darıxsa da, dəniz ənginliyinin böyüklüyündən ucsuz-bucaqsızlığından doğan heyrət hissi onu hələ də tərk etməyirdi. Nə qədər üzürlər, dənizin ucu-bucağı görünmür. Quruda o, torpaq nə qədər geniş olursa olsun dənizdə olduğu qədər təəccüblənməzdi.

Böyüklər isə, zərrə qədər də olsun, bir şeyə təəccüblənmirdilər. Onlar hər şeyə öyrəncəli idilər. Əmrayin və Mılğun kürəkləri suyun səthinə bərk çalmadan, rahat-rahat avar çəkməkdə davam edirdilər. Onlar yorulmaq bilmədən işləyirdilər hətta Orqana da rəva görmürdülər ki, onları nəfəs dərmək, dincini almaq üçün azacıq əvəz etsin: deyirdilər ki, yaxşısı budur, qayıdanbaş yüklü vaxtlarında kömək eləyər, indi isə qoy öz işində olsun. Uzunboğaz və iri hülqumlu qoca Orqan belini büküb, qayığın dal tərəfində, ov marıtlayan dəniz qartalı kimi oturmuşdu. Danışmaqdan daha çox susurdu, nə isə öz aləmində idi.

Qayıq isə dalğalara ehmalca baş-vura-vura öz qaydasınca üzürdü. Dalğa da mülayimdi, iddiasızdı. Alçaqdan əsən, sabit külək vardı.

Onlar bu minvalla üzürdülər...

– Atkıçx! Atkıçx! Odey, ada! Kiçik Əmcək! – deyə Kirisk Orqanın qolundan tutub dartaraq, birdən sevinclə qışqırdı.

Orqan əliylə gözlərini günlüklədi:

– Hanı ada? – deyə inanmadı. Avarçəkənlər də oğlanın göstərdiyi səmtə təəccüblə baxdılar.

Qoca burnunun altında:

– Ada olmamalıdır, – dedi, çünki oğlan onlar üçün gözlənilməz olan tamam başqa bir səmti göstərmişdi.

Oğlan yalan demirdi. Orada, çox-çox uzaqda, doğrudan da dənizdə hərəkətsiz qalmış palçıqvarı bozumtul rəngli əyri-üyrü zolaq görünürdü, elə bil suyun ortasında yerin çıxıntısıydı. Orqan bir xeyli vaxt diqqətlə baxdı. Nəhayət inamla:

– Yox, o ada deyil, – dedi. – Kiçik Əmcəyə qədər biz birbaşa üzdüyümüz günbatan səmtində hələ çox getməliyik. Bu isə xeyli kənardadır. Bir də o, ada deyil, – o, sözünə davam elədi. – Mənə belə gəlir ki, o ada deyil.

Mılğun:

– Bu sularda heç vaxt belə ada olmayıb, biz heç havaxt belə ada görməmişik. Kiçik Əmcək sol yanda olacaq. Bunun nə olduğunu isə bilmirəm.

– Bu, duman yaxud bulud olmaz ki? – deyə Əmrayin yerindən dindi. – Yoxsa, dalğadır belə qabarır, onda bəs nə üçün bir yana tərpənmir?

– Doğrudan, görəsən nədir o? Duman, yoxsa bulud, kim bilsin. Uzaqdır burdan... Ancaq o, ada deyil, – Orqan fikrini bildirdi. – Amma o, əgər belə dumandırsa, onda işlər yaxşı deyil.

Əmrayin sinəsini kürəklərin üstünə yavaşca basaraq:

– Eybi yoxdur, təki külək dəyişməsin,– deyə fikrini bildirdi.– O, yerində durub, tərpənmir. Bizimsə o tərəflərdə bir işimiz yoxdur, qoy nədirsə dursun özüyçün...

Gördüyünün nə isə qeyri-müəyyən bir şey olmasından Kirisk əvvəl-əvvəl məyuslaşdı, ancaq sonra bunu tez yaddan çıxartdı.

Amma ovçular səhv etməmişdilər. Çox keçmədi ki, sol əldə Kiçik Əmcək adacığının səthi sudan göründü. Burada artıq heç bir şəkk-şübhə yox idi. Bu balaca, başdan-başa daşlıq, təpəlik və doğrudan da, əmcəyi xatırladan quru çıxıntı idi.

Adanı görcək, hamının, xüsusən də Kiriskin üz-gözündə canlanma əmələ gəldi,– deməli, dəniz nəhayətsiz deyildir. Və bu yerdə dəniz səfərinin ən maraqlı söhbəti başlandı.

– Hə, – deyə Orqan oğlanın başını tumarladı. – Alabaş özü evdə qalsa da, bizi adaya kimi ötürdü. Qaçıb bizim dalımızca gəlsəydi, suda batardı, elə deyil?

– Bəs necə! – Deyə Kirisk oyunun mənasını başa düşərək təsdiq elədi.

– Alabaş bizə onun üçün də lazımdır ki, qalıb evi qorusun, biz isə onu yadda saxlayıb, azmadan ov yerinə çataq. Sən necə bilirsən Alabaş bizə yenə lazım olacaq, ya yox?

– Yox, lazım deyil. – Kirisk yenə də qətiyyətlə cavab verdi. – Üzüb gedəcəyimiz yeri indi biz özümüz görürük.

– Sən bir ağlına vuraydın barı! – Orqan tənə etdi – Özün axı, diribaş oğlansan, bir az fikirləşsənə.

Kirisk dərk edə bilmədi ki, bu Alabaş dənizin ortasında, uzaq adada daha nəyə lazım olacaqmış.

– Bizim Alabaş burada nəyə lazımdır ki?

– Bəs evə necə qayıdacaqsan? Hara, hansı səmtə üzəcəksən? Hə, fikirləş bir! Tapdın? Hansı yandan üzüb gəldiyimizi, adanın hansı yandan Alabaşa baxdığını yadda saxla, onda bilərsən qayıdanbaş ha tərəfə səmt götürmək lazımdır.



Kirisk lal-dinməz razılaşdı, ancaq hər halda onun mənliyinə toxunulmuşdu, özü də ehtimal ki, elə buna görə bir qədər hirsli halda soruşdu:

– Bəs birdən qaranlıq oldu, hə? Bəs əgər birdən dənizin ortasında gecə vaxtı olduq və özü də heç yan görünmədi. Hə? Onda necə olar? Hə? Onda necə bilmək olar Alabaş hardadır, hansı tərəfdədir, hə?

– Nə olar, onda da bilmək mümkündür, – Orqan onun bu sualına sakitcə cavab verdi. – Bunun üçün göydə ulduzlar var. Ulduzlar darda qoymazlar, aldatmazlar, həmişə düz göstərərlər. Təki özün biləsən hansı ulduz hansı tərəfdədir. Səbir elə, öyrənəcəksən. Sən Luvr ördəyi bürcünü tanıyırsan?

Kirisk atasına baxaraq tərəddüdlə:

– Deyəsən, tanıyıram, – dedi. Əmrayin oğlunun çətinə düşdüyünü anladı:

– Az-maz tanıyır, bir vaxt ona göstərmişdim. Ancaq bu azdır. Öyrənmək lazımdır.

Onlar bu minvalla üzərək, yavaş-yavaş adaya yaxınlaşırdılar. Sahildə ayrı-ayrı daşlar və qayalar görünəndə, nerpa yatağını müəyyən etmək üçün, sahil boyundakı yerlərə diqqətlə baxa-baxa adanın ətrafına dolanırdılar. Kirisk çox səylə baxırdı, o, sürünü hamıdan əvvəl görmək istəyirdi. Ancaq onu xəbərdar elədilər – əgər heyvanları görsə, lazımsız yerə səs-küy qoparmasın. Orqan dedi ki, nerpalar suyun qırağında, sahil boyunda daşların arasında yatırlar – onlar quruya gündə qızınmağa çıxırlar. Onların harda yerləşdiklərinə göz yetirmək, sonra isə hürkütməmək üçün, sahilə gizli çıxıb, onlara yavaş-yavaş yaxınlaşmaq lazımdır. Ancaq Kirisk onsuz da heç nə görə bilmədi. Sahillər bomboş və həzin idi. Başdan-başa vaxtı gəldikcə dağılmış, biçimsiz, adam ayağı dəyməmiş çılpaq qayalar idi... Adanı üzük qaşı kimi dövrəyə almış ağ köpüklü dalğalar buzlaşmış daş qalaqlarını aşmağa cəhd edərək, hey kükrəyib haray salırdı. Yox. Kirisk adacıqda heç nə görmədi. Yalnız üst-üstə qalaqlanan daşlar idi, ayrı heç bir canlı-zad yox idi.

Ancaq Mılğun birinci olaraq gördü. Və Kirisk nerpaların məhz harada gizləndiklərini görməyə səy edib, başını hərlədənə kimi, qayıq yataqdan görünməsin deyə, həmin yerdən uzaqlaşdı.

Qoca Orqan isə başa düşdü ki, Kirisk heç nə görməyib.

– Hə, gördün sən? – Orqan ondan soruşdu.

Oğlan yalan deməyə cürət eləmədi.

– Xeyr, görmədim, – deyə etiraf etdi.

– Bir də yan alaq. – Orqan əmr etdi.– Daşların arasında onu seçməyi öyrən. Yoxsa, ovçu ola bilməzsən.

Avarçəkənlər əmrə qulaq asdılar, xatalı olsa da, qayığı əvvəlki yerə yönəltdilər. Bircə nerpanın həyəcan siqnalı kifayətdi ki, bütün sürü dərhal dənizə tökülsün. Ancaq, xoşbəxtlikdən, heyvanlar ovçuları görmədilər. Onlar demək olar ki, suyun lap qırağında kələ-kötür, nizamsız səpələnmiş daşların arasında daş cərgələrin arxasında yatmışdılar.

Mılğun Kiriskə dedi:

– Odey, sınıq köpək dişi kimi şiş uclu daşı, bir də onun yaxınlığındakı qırmızımtıl, buz bağlamış təpəciyi görürsənmi, onların arasından bax.

Kirisk diqqətlə baxdı. Mılğun və Əmrayin bu vaxt, suyu asta-asta kürəkləməklə, qayığı yerində sabit saxlamağa çalışırdılar. Kirisk bu zaman dəniz heyvanlarının bellərini – böyük quyruqlu gövdələrini gördü. Bozumtul, xallı, parıldayan gövdələr qımıldanmırdılar. Naşı gözlər üçün onlar uzaqdan daşlar arasından seçilməzdilər.

Bu andan oğlanı həyəcan bürüdü. Başlanır: budur ey əsl dəniz heyvanları! Budur ey kalan ov!

Ovçular sahilə çıxanda, o cuşa gəlmişdi, qəlbi hünər və heyranlıq duyğuları ilə aşıb-daşırdı. Hünərlə – ona görə ki, bu anda o, özünü güclü və qadir hiss eləyirdi. Heyranlıqla – ona görə ki, o, ovçuların necə məharət və sahmanla hərəkət etdiklərini görürdü; görürdü ki, onlar qayığı sahilə necə yaxınlaşdırdılar, Əmrayin və qoca Orqan qayığı ləpədöyəndə kürəklərlə necə saxladılar. Mılğun isə girəvə tapıb çınqıllığın kənarına necə sıçradı, sonra ona atılan ipi çiynindən aşıraraq, qayığı sahilə necə çəkdi və atası vinçesteri göydə tutub, sahilə necə tullandı. Atasının dalınca qoca Orqanın köməkliyi ilə onun özü də tullandı, hərçənd ki, bu zaman ayağını sahilyanı dalğada islatdı və atasından yüngül bir töhmət aldı.

Qayıqda – onu sahildə, ləpələr qoynunda saxlamaq üçün təkcə Orqan qaldı, onlar üçü isə – Əmrayin, Mılğın və Kirisk tez yatağa doğru yeridilər. Qıraqla, qeyri-iradi əyilə-əyilə, daldalana-daldalana gedirdilər. Kirisk geri qalmırdı, ancaq hiss edirdi ki, ürəyi yaman bərk döyünür və iftixar hissindən, həyəcandan hərdənbir başı hərlənir.

Kaş Balıq-qadının adamları onu indi, böyük ovçularla dəniz heyvanı üstünə tez-tez getdiyi yerdə görmüş olaydılar. Kaş indi onu anası



görmüş olaydı, onunla, gələcək böyük ovçuyla, evin ruzu gətirəni ilə anası necə də fəxr edərdi! İndi onu kaş birlikdə tez-tez oynadığı, bundan sonra isə daha adı ovçu olduğu üçün, heç vaxt oynamayacağı Muzluk görmüş olaydı, kaş Muzluk indi onun doğma Alabaşdan uzaqlarda, bələd olmadığı coşan sular kənarı ilə gedərək, yalçın qayalar və daşlar arasından nerpa yatağına necə keçdiyini görmüş olaydı. Tüfənglərin Mılğunda və Əmrayində olmasının da eybi yoxdur: atmaq vaxtı gələndə atası ona silah verəcəyini vəd etmişdi.

Onlar yavaş-yavaş yeriyib, yataq yerinə yaxınlaşdılar, sonra sürünə-sürünə getdilər. Kirisk də süründü. Kobud daşların və diş-diş buzların üstüylə sürünmək çətin idi, narahat idi, ancaq Kirisk başa düşürdü ki, bu vacibdir.

Onlar ağır nəfəs ala-ala qan-tərə bata-bata, gah qısılıb gizlənə-gizlənə, gah da diqqət kəsilib, ətrafa dörd gözlə baxa-baxa gedirdilər. Tüfəngi sazlayıb atmaq məqamı yaxınlaşdıqda isə yerlərindəcə quruyub qaldılar, cınqırlarını çıxarmadılar.

Bu anı, bu yaz gününü, nəhayətsiz dənizin ortasındakı bu soyuq daşlı ağacığı və ondakı hansı güclü qüvvə tərəfindənsə yerindən çıxarılıb, o tərəf-bu tərəfə səpələnmiş bu bozumtul yalçın daşları, üzərində üzüqoylu uzandığı bu bərk, həyat əlaməti olmayan, hələ buzu əriməmiş, donub biri-birinə yapışmış lüt-üryan torpağı, özüylə yanaşı isə atəş açmağa hazırlaşmış atasını və Mılğunu, qabaqda isə dənizin lap qırağında külək və fırtınaların dağıtdığı mamır bağlamış kələ-kötür daşlıqlar arasındakı yataqda görünən, hələ heç nədən şəklənməmiş və öz yerlərindəcə arxayın uzanmış kiçik nerpa sürüsünü, onların üzərində isə – yatağın, adanın, dənizin üzərində vaxt ona görsəndiyi kimi, gərgin halda ilk atəşi gözləyən bir qədər çənli, donub qalmış samanı Kirisk yaddaşına ömürlük həkk elədi.

O, çiynini atasının verdiyi vinçesterin qundağına söykəyərək: "Nola dəyəydi!" – deyə düşündü.

Qürrələndiyi, özünü daha şöhrətli, cürətli bir ovçu kimi gördüyü, həsrəti çəkilən o ani anlarda o, birdən dərk etdi ki, bir az Günəş istisi görmək ümidi ilə daş çuxurlara dürtülmüş bu yöndəmsiz, tosqun heyvanların şux kürəkləri, şux böyürləri olduqca müdafiəsiz və zəifdir. Kirisk tutuldu. Ancaq bu, yalnız birdəqiqəlik tutulma oldu. Kirisk yadına saldı ki, o, ovçudur, camaat ondan şikar gözləyir, yadına saldı ki, nerpanın əti və yağı olmasa, həyatı qıtlıq, aclıq basar, hardansa

ağlına bir fikir də gəldi: birinci olaraq atmaq və özünü göstərmək lazımdır. O, ruhən bərkiyərək, atasının məsləhət gördüyü kimi, qətiyyətlə nişan almışdı: sol pərin altını, bir az yuxarı və bir qədər də sağa tərəf iri, xallı laxtakın düz ürəyini. Ancaq laxtak, hərçənd ki, ovçuları görməmişdi və onların iyini duya bilməmişdi, külək dənizdən əsirdi, – nə isə bir pis şey hiss edibmiş kimi, birdən dikəldi; daha yaxşı nişan almaq üçün bir az da yana çəkilmək lazımdı, – qabaqda kölgəydinəydisə, mane olurdu, – çox ehtiyatla çəkilmək lazımdı, lakin elə bu dəm bir daş Kiriskin dirsəyi altından qəflətən qopub, yolda qabağına çıxan daşlara dəyə-dəyə enişlə üzüaşağı diyirləndi. Xallı laxtak hürüşə bənzər qısa bir səs çıxardı, sürü səksəndi və uğultu ilə tez-tez sürünüb suya doğru yumbalandı. Ancaq bu dəm atəş açıldı, sürünün qırağındakı yekə bir nerpa yerə sərildi – Mülğun vəziyyəti düzəltdi. Kirisk özünü itirdi...

– At!– deyə Əmrayin ona əmr elədi.

Qundaq Kiriskin çiynini güclü zərbəylə təpdi. Atəşin səsi qulağına düşdü, bir anlığa qulaqları batdı. Heç nə eşitmədi. Vura bilməməsi və onun günahı üzündən ovun əldən çıxması üçün Kirisk yamanca xəcalət çəkdi. Atası isə ona patron verərək dedi:

– Doldur, at, tez ol!

O şey ki, ona çox da çətin gəlmirdi – doldurmaq və atmaq (tüfəng atmağı öyrənəndə bu işin öhdəsindən dəfələrlə gəlmişdi) – indi baş tutmurdu. Vinçesterin çaxmağı o dəm sözə baxmadı. Bu arada Mılğun dizini yerə qoyub, suya tullanan nerpaların arxasınca daha iki atəş açdı. Birini yaraladı, nerpa gicəllənib, sahilin lap kənarında fırlanmağa başladı. Ovçular o səmtə yüyürdülər. Sürü artıq qaçıb dənizdə gözdən itmişdi, sahildə qalmış yaralı heyvan isə bütün gücünü toplayaraq sürüşüb, suya can atırdı. Adamlar çatana kimi, nerpa özünü suya yetirə bildi və arxasınca qan ləkələri sala-sala pəncə-pərləri ilə işləyərək üzüb, özünü dənizin şəffaf dərinliyinə saldı. Onun bərələ qalmış gözləri və boynunun ardından quyruğunun ucuna kimi uzanan belinin açıq yasəməni zolağı apaydın görünürdü. Mılğun çiynindəki vinçesteri aşağı saldı, indi yaralı nerpanın axırına çıxmaq haqda fikirləşməyin daha mənası yox idi.

– Boşla getsin, onsuz da boğulacaq, – deyə Əmrayin söyləndi.

Kirisk isə təngnəfəs, məyus, özündən narazı halda dayanmışdı. Axı o daha çox şey gözləyirdi. Bu da mənim ovçuluğum!



Birdən dilxorçuluqdan ağlamamaq üçün oğlan bütün qüvvəsini toplayıb susdu. Ona çox ağır gəlirdi.

Sonra onlar vurulmuş nerpanın içalatını təmizləməyə başlayanda, Mılğun təskinlik verib:

– Eybi yoxdur, sənin bəxtin hələ qabaqdadır, – dedi. – İndi Orta Əmcəyə gedəcəyik, orada heyvan çox olur.

– Mən, adicə olaraq bir az tələsdim, – deməyə başlayan Kiriskin sözlərini atası yarımçıq qoydu:

– Özünü təmizə çıxartma, heç kim birinci atəşdən ovçu olmur. Canın sağ olsun, tüfəng atmağı bilirsən, ov heç yana qaçmır.

Kirisk susdu, ancaq böyüklər onu danlamadıqları üçün qəlbində onlara razılıq elədi. Və ovda daha tələsməyəcəyinə, başqa heç nə haqda fikirləşməyəcəyinə, sərbəst, atasının öyrətdiyi kimi, gözü və nəfəsi "nişangah üstünə keçəndə" atacağına söz verdi. Bax, gülləni onda atasan gərək!

Nerpa iri, ağır, canı üstündəymiş kimi lap isti idi. Mılğun cəmdəyi qarın hissəsindən soyub təmizləyərək, əllərini məmnunluqla ovuşdurdu: "Piyini görürsən, dörd barmaq qalınlığındadır. Yaxşıdır!" Kirisk pərtliyini artıq unudaraq, ona həvəslə kömək edirdi. Əmrayin isə bu ara qayığı yaxına çəkmək üçün qoca Orqanın yanına getdi.

Bir az keçmiş o, tələsik halda, təşvişlə qayıtdı.

– Vaxt keçir, tez olun! – dedi və səmaya baxaraq, heç kimə müraciət etmədən: – Hava xoşuma gəlmir... – deyə əlavə etdi.

Ovçular cəmdəyin içalatından yalnız qara ciyərlə ürəyi saxlayaraq, qalanını tez-tələsik çıxardıb atdılar. Nerpanı biri-birinə bağlı şüvüllərin üstündə sürüyüb qayığa apardılar. Kirisk silahları – hər iki vinçesteri götürüb onların dalınca gedirdi.

Orqan onları sahildə, qayığın yanında gözləyirdi. Qoca fərəhlənmişdi. O, ov bıçağını süfrə üçün hazırlayaraq burnunun altında:

– Qoy Kurnq[1] bilsin ki, biz nə qədər razıyıq! Başlanğıc üçün bu da pis deyil! – dedi.

Ovdan sonra qarşıda ən əsas bir məsələ – nerpa ciyərini yerindəcə çiy-çiy yemək məsələsi dururdu. Orqan zolaq-zolaq kəsilmiş cəmdək üzərinə çömbəldi, ciyəri dilim-dilim kəsdi. Ovçular tər qara ciyər tikələrini, üstünə azacıq duz səpib, dil-dodaqlarını ləzzətlə marçıldada-marçıldada içəri ötürürdülər. Qara ciyər çox dadlı-tər, isti, yağlı idi.

[1] Kurnq – ali səcdəgah

Ağızda əriyib, adamın dilini yağ şirəsinə bələyirdi. Kiriskin arzusu yerinə yetmişdi – ovda əsl kişi kimi çiy ciyər yeyirdi.

Orqan oğlana:

– Əməlli ye! – deyirdi. – Gecə soyuq olacaq, üşüyərsən. Ciyər adamı bilirsən necə qızdırır?! Bütün dərdlərin də birinci dərmanıdır.

Hə, bu, əntiqə şeydir. Çox yaxşı, doyunca yedilər və dərhal da su istədilər. Lakin su qayıqdakı çəlləkdə idi.

Ovçular tamam doyduqda, Əmrayin:

– İndi cəmdəyi parçalamağa dəyməz, – dedi və yenə də narahat-narahat səmaya baxdı.

– Ona vaxt taparıq, – Orqan onunla razılaşdı. – Orta Əmcəkdə yerləşəndən sonra gecəyə çay qızdırarıq, – deyə əlavə etdi. – Hələlik isə keçinərik. Yığışağın.

Yola düşməzdən qabaq ovçular yeri yemləməyi yaddan çıxarmadılar. Xırda-xırda doğranmış nerpa ürəyini oxşama deyə-deyə adanın sahibi üçün səpələdilər ki, onlara gələn dəfə qismət gətirsin. Bundan sonra onlar yenidən dənizə çıxdılar.

Kiçik Əmcək arxada qalırdı. Tutqun sular qoynunda qalan tənha yetim adacıq adamın qəlbində mərhəmət və narahatlıq hissi doğururdu. Ovçular Orta Əmcəyə doğru istiqamət almışdılar. Gün artıq qüruba tərəf əyilmişdi. Avarçəkənlər kürəklərə var qüvvələri ilə güc eləyir, tələsirdilər ki, bir dalda yer tapıb, qayığı bağlayacaqları və gecələyəcəkləri Orta Əmcəyə işıqgözü çatsınlar. Bir az sonra Kiçik Əmcək gözdən itdi, elə bil dənizin dibinə endi, ancaq Orta Əmçək hələ görünmürdü. Yenə də hər yanı başdan-başa su bürümüşdü.

Onlar nerpanı ələ edənə kimi dəniz nəzərə çarpacaq dərəcədə dəyişmişdi. Dalğa daha sıx, daha kip, daha əzmkar olmuşdu. Su axını hələ əvvəlki istiqamətində getməkdə davam edirdi, külək isə artıq səmtini dəyişmişdi. İndi qayıq daha bərk, daha sərt silkələnirdi. Ancaq ovçuları səma daha çox narahat edirdi. O, nədən xəbər verirdi? İlin bu vaxtında nə isə anlaşılmaz və gözlənilməz bir əlamət! Kim bilir hardansa gələn çöküntüdür belə, yuxarı qatlardakı küləyin qara cəngəlliklərdə cövlan edən uzaq meşə yanğınlarından qovub gətirdiyi ilğım kimi, göyün üzünə ağımsov axar pərdədən örtük tutub, hərçənd ki, bu zəif duman yalnız və yalnız göyün üzünü örtmüşdü və heç kimə heç nə ilə mane olmurdu, bununla belə ovçular üz-gözlərini turşutmuşdular.

Orqan narazı bir halda ətrafa baxaraq donquldandı:



– Bu, hardan buğlanıb çıxır?

İndi onlar kürəklərin hər dəfə suya çalınması ilə qarşıda görünə biləcək torpağın – Üçəmcəkdən ən münasibi və mötəbəri olan Orta Əmcəyin intizarı ilə, əsəbləri gərgin halda üzürdülər.

Həmin o arada səma hələ aydınlaşdı da, hətta Günəş belə dənizin kənarında təzədən göründü və özü də elə uzaq, elə ağlagəlməz idi ki, elə bil dünyanın o başından boylanmışdı. Günəşə üz-gözünü yayındırmadan rahatca baxmaq olardı. Aydın çevrəli, alovlu al Günəş o uzaq qırmızımtıl, tüstülü tərəfdə tutqun-tutqun közərərək artıq sönürdü. Göyün üzü bir qədər açıldı, aləm yenidən işığa və sükuta qərq oldu. Elə bu kifayət imiş – gərginlik dərhal yatdı. Hələ dənizdə olan adamlar indidən adadakı sığınacağın və istirahətin intizarını çəkirdilər.

Orqan əlini yanında oturmuş Kiriskin kürəyinə vurmaqla ona ürəkdirək verdi.

– Sən bir az da döz. Orta Əmcək qarşımızdan başını qaldırıb görünəcək.

Oğlan çoxdan su içmək istəyirdi, lakin atasının qoyduğu qadağaya uşaq sadəlövhlüyü ilə sözsüz riayət edərək, özünü saxlayırdı. Atası ona hələ yola çıxmazdan qabaq demişdi ki, dəniz səfərində içməli su həmişə güclə çatır, boş-boşuna, evdə olduğu kimi içmək olmaz. Hətta adalarda da, onların üçündə də, bir damcı içməli su yoxdur. Qayığa artıq yük götürmək də son dərəcə yolverilməzdir. Suyu yalnız səfər yoldaşlarıyla birlikdə içmək olar.

Birdən aydınlaşmış uzaq üfüqlərdə, Günəşin görsəndiyi o xoş məqamda oğlan qoca Orqanın mehribanlığını hiss elədi. O, mərd-mərdanə gülümsəyərək, atasına baxa-baxa dedi:

– Atkıçx! Yaman su içmək istəyirəm!

– Be-lə de-e! – Orqan arifanə qımışdı. – O cür qaraciyərdən sonra təbiidir! Aydın işdir! Elə biz hamımız su içmək istəyirik, hə?

Əmrayin və Mılğun ona cavab olaraq başlarını təqdirlə tərpətdilər. Və bu, Kiriski sevindirdi – demək, tək o yox, hamısı su içmək istəyir.

– Hə, nə olar, madam ki belədir, kefimizi bir az su ilə açaq, sonra isə papiros da çəkərik!

Bunu deyib qoca Orqan sükan kürəyini pazladı, su çəlləyini qayığın dibindən qaldırdı, onu münasib vəziyyətdə qoyub suyu novçadan içərisi qalaylanmış mis parça süzməyə başladı. Su soyuq idi, duru idi – onu Alabaşın dənizlə üzbəüz yamacındakı bulaqdan götürmüşdülər.

Oranın suyu ən sevimli sudur, həmişə təmiz, dadlı olur, yayda suya çəkilmiş ot və nəm torpaq qoxusu verir.

Parçı şırnağın altına Kirisk tutdu. Yaman yanırdı, doyunca içmək istəyirdi. Su parçın yarısından olduqda, qoca Orqan şırnağın ağzını tıxacla saxladı.

– Hə, iç!– deyə Kiriskə təklif elədi. – Sonra da onlara verərsən. Çalxalandırıb yerə tökmə, – deyə xəbərdarlıq elədi.

Kirisk əvvəl-əvvəl acgözlüklə, axıra yaxın isə yavaş-yavaş içdi və bu vaxt hiss etdi ki, su artıq şişmiş ağac iyi verir.

Orqan soruşdu:

– Doydun?

– Bəli.

– Gözündən görürəm ki, o qədər də yox. Di yaxşı. Bir az da verim, – qoca, Kirisk üçün parçın dibinə su süzə-süzə dedi:

– Qara ciyər güclü şeydir, quruda olsaydıq, nə vardı ki, istəyirsən lap bir vedrə iç.

Özü də bu dəfə doyunca içdi və bu cür hallarda böyüklərin dedikləri "Oxqay, ürəyimə buz kimi yayıldı!" sözlərinin haqq olduğunu başa düşdü.

Sonra parçın dörddə üçü qədərincə avarçəkənlərə su verildi. Parçda suyu onlara bir-bir Kiriskin özü verdi. Özü doyunca su içmiş Kiriskin atasının və Mılğunun da istədikləri qədər su içmələrinə heç sözü yox idi. Ancaq başçı Orqan avarçəkənlərə nə üçün parçın dörddə üçü qədərincə su tökdüyünü ona izah etməyi lazım bildi.

– Sən bədəncə hələ balacasan, onlar isə gör nə boydadırlar! Onların işi də ağırdır. Avar çəkəndə yaman su içmək istəyirsən.

O iki nəfər, doğrudan da, öz parçlarını dərhal boşaltdılar, onlara hələ yenə də su verildi. Bu dəfə başçı Orqan avarçəkənlərin özlərini məzəmmət etməyi lazım bildi.

– Siz, qardaşlar, həddinizi aşmayın. Çay qırağında deyilsiniz!

Əmrayin və Mılğun onun cavabında yalnız gülümsündülər. Yəni ki, başa düşürük, ancaq heç nə edə bilmədik, içmək istəyirdik.

Ancaq Orqan da özünün su payını içib, başını təbəssümlə buladı:

– Hə-ə, çay qırağında bir az əyləşmək pis olmazdı. Çiy qaraciyər yaman güclü şeydir...

Sonra o, çubuğunu doldurdu, bir daha belə nəşə görməyəcəyinə şübhə etməyərək, onu ləzzətlə tüstülətdi...

Fəlakəti birinci olaraq Kirisk gördü!..



* * *

Bundan bir az əvvəl hamının öz yanğısını söndürüb, özlərini məmnun, xoşbəxt hiss etdikləri son dərəcə gözəl bir rahatlıq dəqiqəsi vardı.

İlk nerpa ovlanmışdı, bir az sonra adada istirahət edəcəkdilər, səhər tezdən isə dəniz heyvanı uğrunda yenidən böyük ov başlanacaqdı. Və ondan sonra yubanmadan dərhal evə qayıdacaqdılar. Hər şey öz qaydasında idi.

Qayıq adəti üzrə dalğalara baş vura-vura öz qaydasınca üzürdü. Qoca Orqan arxada oturub, çubuğunu sümürə-sümürə qayığı idarə edir və ehtimal ki, öz Balıq-qadını barədə düşünürdü. Əmrayin və Mılğün öz işlərindəydilər, kefle avar çəkirdilər, kürəkləri, sanki güc işlətmədən, asanlıqla, dəqiqliklə, məharətlə çalırdılar. Kirisk, qeyri-ixtiyari olaraq, ovçulara baxıb ləzzət alırdı. O, həmin dəqiqə onların hər biri haqqında düşünərək, qəribə uşaq fəhmi ilə onların hər birini ayrı-ayrılıqda diqqətlə gözdən keçirirdi. O, onları qeyri-şüuri olaraq sevirdi, fəxr edirdi ki, həmin saatda onlarla birlikdə dəniz səfərindədir.

Kirisk bu adamları başqa cür təsəvvür edə bilmirdi. Qoca Orqan, yəqin ki, həmişə, hər zaman bax, beləcənə: hülqumlu, uzunboyun, torpağın üzünə çıxmış köklər kimi düyün-düyün uzun qollu, adəti üzrə yaşaran, nəmşər, hər şeyi başa düşən müdrik gözlü qoca Orqan olub, Yəni başqa cür də ola bilərdi?! Ağsaqqalsız, hamının ehtiram bəslədiyi bu insansız da məgər həyat olardı? Qəribədir, məgər belə ola bilərdi?

Anası deyir ki, Kirisk atasına çox oxşayır, deyir ki, o böyüyəndə eynən Əmrayinin özü olacaq. Və gözləri də, deyir, eynən o cürdür – palıd qozası kimi qonur, dişləri də möhkəm və eynən o cürdür – iki qabaq dişi bir qədər irəli çıxır. Deyir, saqqalı da lap atasınınkı kimi qara, cod və sıx olacaq. Atasına əbəs yerə Saqqal Əmrayin demirlər ki! Kirisk hələ balaca olanda, çaylaqda tamam çılpaq çimendə anası öz bacısını dümsükləyərək: – Bir bax, bir bax, elə bil özüdür ki, orda durub, – deyərdi. Və nəyəsə sataşaraq eyhamla pıçıldaşar, qəşş edənəcən gülərdilər. Və anası deyərdi ki, Kirisk böyüyəndə ona da özü kimi belə bir arvad qismət olarsa, o qadın yarıyacaq, onunçün yaxşı olacaq, o, bunu bilir, Kirisk fikirləşərdi: "Qəribədir, kiminçün və yeni necə yaxşı olacaq? Və nə üçün əgər o, atasına oxşasa, onun arvadı üçün yaxşı olmalıdır?"

Budur, o – atası qabaqda oturub kürəkləyir. Qara saqqallı, ağ dişli. Enlikürək, özünə arxayın, daim təmkinli atası. Hələ gözləri – doğrudan da dəymiş palıd qozası kimi təmiz, parıltılı gözləri. Kiriskin yadına gəlmirdi ki, atası onun üstünə bərkdən qışqırmış olsun, yaxud başqaları kimi, ona yazığı gəlmiş olsun, yaxud havadarlıq eləsin.

Onun arxasında, ikinci qoşakürəyin yanında atasının özündən iki yaş kiçik olan əmisi oğlu Mılğun oturub. Nə olsun ki, əmioğludur – onun, demək olar ki, heç saqqalı yoxdur. Amma morjun bığları kimi biz-biz duran bığları var. Elə onun özü də morja oxşayır. O, bir şey könlüncə olmasa danışmağı, mübahisə etməyi də sevir. Heç kimin qabağında borclu qalası deyil – bir dəfə bir gəlmə tacirlə dalaşıb. Bütün qohum-qəbilə yığışıb üzr istəməli və tacirin könlünü almalı olub. Mılğun isə əsla ipə-sapa yatmayıb. Boydan balaca və kötük kimi girdə olmasına baxmayaraq, zəncir gəmirib: "Mən ona həqiqəti sübut edərəm" deyib. İçib, keflənib. O, bu işin həvəskarıdır. Bir neçə adam, Əmrayin də o cümlədən, onun qolunu burmaq istəyiblər, çox çətin bacarıblar. Ayı kimi güc göstərib. Kirisk üçün o, aki[1] Mılğundur. Atası ilə Mılğun dostdurlar, ova həmişə qoşa gedirlər, ona görə də onlar heç vaxt biri-birini darda qoymazlar, biri-birinə badalaq gəlməzlər. Və hər ikisi biri-birinə tən, etibarlı ovçudur. Mılğunun hələ indi-indi qaçmağa başlamış balaca bir oğlu və ondan böyük iki də qızı var. Kirisk onların yamını heç kimə vermir, qoy bir adam onlara əl vursun, sonra halını görsün. Kiriskin anası isə Mılğunun qızları üstündə yarpaq kimi əsir, onlardan ötrü canını verməyə hazırdır, onlar tez-tez Psulkun yanına oynamağa gəlirlər.

Ancaq bütün qızlar içində hamıdan göyçəyi Muzlukdur! Heyf, deyirlər, böyüyəndə onu kənara – qonşuya ərə verəcəklər. Birdən götürüb qaçasan və daha geri verməyəsən.

Sahildə Kirisk belə şeylər barədə nadir hallarda düşünərdi, indi, ev-eşikdən uzaq bu sular qoynunda isə əvvəllər onunçün naməlum olan bu riqqətli duyğu daimi məna kəsb etmişdi.

Birdən o, Alabaş dağının o üzündə, çayın vadisində, meşə qırağında sahil nivxlərinin – Balıq-qadının törəmələrinin qədim düşərgəsi olan yerə getmək istədi. Həmin saatda o, evləri üçün darıxdı, anasını elə istədi ki, ürəyi sızıldadı. Lakin onlar doğma sahildən əbədi dənizin kənarıyla daim özüyçün qaçan doğma Alabaşdan çox uzaq idilər.

[1] A k i – böyük, yaşlı qohumun adına qoşulan ayama.



Kirisk, hətta bunu yəqin etmək istəyirmiş kimi, qeyri-ixtiyari qanrıldı da və ətrafa göz gəzdirdikdə, tamam gözlənilməz bir şey gördü.

Qatı boz duman üfüqün, demək olar ki, yarısını tutaraq, dənizin üzəriylə biri-birinə qovuşan iki lay divar kimi onların üstünə gəlirdi. Duman, suyun qara səthi üzrə qüvvətli burumlarla qalxıb, bütün ətraf boşluğu basaraq, aşkarca hərəkət edirdi. Duman onları tutmaq, qayıqla, gözə görünən və görünməyən bütün aləmlə birlikdə udmaq məqsədi olan bir canlı vücud kimi, əjdaha kimi yaxınlaşırdı.

Duman məhz o tərəfdən – Kiriskin bir az əvvəl dənizin ortasında donub qalmış nə isə qeyri-müəyyən bir boz kütlə gördüyü və uzaqdan onu ada bildiyi yerdən gəlirdi. İndi küləyin qovduğu bütün bu kütlə göz qabağında qabarıb artaraq, haysız-haraysız, dayanmadan, sürətlə gəlirdi.

Kirisk həyəcanla:

– Baxın! Baxın! – dedi.

Hamı karıxdı. Bir anlığa idarəsiz qalmış qayıq dalğalar üzərində oynamağa başladı. Və elə bu andaca dumanın sıx örtüyü altından sanki canını xilas edib çıxmış böyük bir dalğanın nərəsi eşidildi. Coşmuş dənizin dalğası arası kəsilmədən köpürüb şaxə qalxaraq və eyni vaxtda da dağılaraq, getdikcə artan bir gurultu ilə gəlirdi.

Orqan var gücüylə:

– Döndər! Burnunu qənşərə döndər! – deyə qışqırdı.

Avarçəkənlər qayığın yönünü dalğa qabağına güc-bəla ilə yenicə döndərmişdilər ki, fırtınanın ilk zərbəsi Orqanın kayakını az qaldı çevirsin. Dalğa sürətlə ötüb keçərək, arxasınca dənizin hiddətini coşdurdu və bu ara duman onları haqladı. Dumanın sürünüb yaxınlaşan ətəyinə lap az qalmış burum-burum qalxan bu gerçək zülmətin necə mənfur təntənəylə, necə məşum inadkarlıq və sitallıqla hərəkət etdiyi aydın görünməyə başladı.

Orqan:

– Küləyi yadda saxlayın! Küləyi yadda saxlayın!– deməyə macal tapdı.

Hər şey birdən ümidsiz bir qaranlığa qərq oldu. Duman uçqun kimi çökərək, onları ölçüyəgəlməz bir zülmət girdabına saldı. Onlar birdən, bir göz qırpımında, bir aləmdən başqa aləmə düşdülər. Hər şey yox oldu. O dəqiqədən nə səma göründü, nə dəniz, nə də qayıqlar. Onlar, hətta biri-birinin üzünü də seçə bilmədilər. Və həmin dəqiqədən sonra onlar artıq rahatlıq bilmədilər – dəniz tüğyan eləyir, qayığı yarılan

dalğaların arasında açılan boşluqlara salaraq gah yuxarı, gah da aşağı atıb-tuturdu. Sıçraşıb səpələnən şırnaqdan pal-paltar islanmış, ağırlaşmışdı. Ancaq ən böyük fəlakət bunda idi ki, adamlar başdan-başa dumana bürünmüş ətrafda heç nə seçmir, düz-əməlli heç nə görmür, dənizdə nə baş verdiyini və nəyə iqdam etmək lazım olduğunu müəyyənləşdirə bilmirdilər. Yeganə əlac – təvəkkül idi, kor-koranə mübarizə aparmaq, qayığı birtəhər üzgü vəziyyətində saxlamaq, onu çevirməyə qoymamaq idi. İndi daha qayığı hansı bir məqsədə doğru isə yönəltmək barədə söhbət də ola bilməzdi. Məlum deyildi dalğalar onu öz azğın şıltaqlığı ilə haraya aparır, məlum deyildi bu vəziyyət nə qədər davam edə bilər.

Kirisk ovçuların dənizdə pis havaya düşdükləri hallar olduğunu, bəzən həmişəlik yoxa çıxdıqlarını və hamının yasa batdığını, belə hallarda Alabaşın ətəklərində qadınların və uşaqların çarəsiz "bəlkə" ümidilə günlərlə tonqal çatdıqlarını əvvəllər də eşitmişdi. Lakin onda da dənizdə həlak olmağın nə qədər dəhşətli və heybətli olduğunu o, təxmini də olsa, təsəvvürünə gətirə bilməmişdi. Xüsusən də, güman etməmişdi ki, gəlişini çox sevdiyi, donuq sükut tilsiminə düşmüş bütün aləmin ağ, yumşaq ilğımla örtüldüyü, yer üzü cisimlərinin sanki qanadlanaraq, göydə quruyub qaldığı, ürəyin fövqəladə bir xəyal intizarında müəmmalı vahimə və əzginliklə çulğalandığı bu qış çağının gətirdiyi o səssiz-səmirsiz dumanlar, o sakit qərib dumanlar hər yerdə adamın başının üstünü alan qorxunc düşmənə çevrilə bilər. Hiddətə gəlmiş dəniz üzərində biri-birini təqib edən tutqun dumay sütunları burum-burum burularaq, süzülüb yaprıxaraq, axıb yayılaraq və təzədən yığılıb burularaq, əfi ilanı xatırladırdı...

Kirisk oturacaqdan yapışıb, vahimə içində tir-tir əsərək, qoca Orqanın ayaqlarına qısılmışdı.

Orqan onun qulağına:

– Sən məndən yapış! Bərk-bərk tut! – deyə bağırdı və bundan sonra o, oğlan üçün daha bir söz deyə, yaxud bir şey edə bilmədi.

O birilərdən də heç kim onun nəsibini yüngülləşdirəcək bir şey edə bilmədi, çünki qeyzli təbii fəlakət qarşısında onların hamısı eyni idi. Əgər Kirisk, hətta, qışqırıb ağlasaydı və atasını çağırmağa başlasaydı da, Əmrayin yerindən tərpənməzdi, çünki qayıq məhz onunla Mılğunun dalğaların yarılmasını, partlamasını qabaqcadan sezərək, fərasətlə kürək çalmaları sayəsində öz müvazinətini saxlayırdı.



Dalğalar isə qayığı çəkərək, birbaş məşum dumanın zülmət qaranlıqlarına aparırdı. Orqan, sarsılmazlığın saxlamaq uçun hələ də qayığı sükanla idarə etməyə çalışırdı, lakin fırtına get-gedə güclənirdi.

Ehtimal ki, artıq gecə yarı olardı. Dumanda vaxtın gedişini müəyyən etmək çətin idi. Gecənin düşdüyünü onlar yalnız qatılaşan zülmətdən duya bilmişdilər. Və həmin zülmətdə xeyli vaxtdı bu aramsız, üzücü, qeyri-bərabər, demək olar ki, axırına ümid olmayan mübarizə gedirdi. Buna baxmayaraq, nivxlər yenə də duruş gətirirdilər, onlar yenə də möhkəm ümid bəsləyirdilər ki, bəlkə fırtına birdən başlandığı kimi, birdən də yatar; inanırdılar ki, duman aradan qalxar və onda onlar sonra nə edəcəklərini fikirləşə bilərlər. Və bu ümid bir dəfə az qala gerçəklədi də. Bir anlığa fırtına elə bil azaldı, çalxalanma, yırğalanma olmadı, dalğaların şappıltısı və sıçrantısı sakitləşdi. Lakin sıx, aspidvari qara zülmət onları bayaqkı kimi hələ də çulğayıb durırdu. Orqan birinci olaraq dənizin küyünə güc gəlib, səsini qaldırdı:

– Mənəm! Kirisk mənimlədir! Siz məni eşidirsiniz?

Əmrayin xırıltılı bir səslə:

– Eşidirik! Biz öz yerimizdəyik! – dedi.

Orqan bağırtı ilə soruşdu:

– Küləyi kim yadda saxlayıb?

Mılğun hirsli-hirsli:

– Nə xeyri var? – deyə bağırdı.

Qoca susdu. Doğrudan da, küləyin istiqaməti indi onlara gərək deyildi. Haraya getdiklərini, harada, səmt götürməyə kömək edə biləcək adalardan uzaqmı, yaxınmı olduqlarını bilmək çətin idi. Bəlkə də dalğalar onları elə uzağa aparacaq ki, onlar öz Əmcəyini heç vaxt tapmayacaqlar. O, – zülmət qaranlığın və çalxanmanın sıxıb yorduğu qoca susurdu. Böyük Orqan ağır düşüncələrə dalaraq susurdu. Bircə bunda bəxtləri kəsmişdi ki, taleyin hökmü ilə adalardan yan keçərək, sahil boyunda olan sal qayalara çırpılıb, darmadağın olmaqdan qurtarmışdılar. Ancaq adalarsız və ulduzlarsız bu gecəyarısı və duman içində harda olduğunu müəyyən etmək üçün indi heç bir vasitə yox idi. Orqan bir söz deməyə iqtidarsızdı. Buna baxmayaraq, bir müddətdən sonra o, qışqıra-qışqıra dedi:

– Biz qayığı burnundan döndərəndə Tlangi-la[1] küləyi əsirdi!

[1] Tlangi-la – güclü və soyuq cənub-şərq dəniz küləyi

Ona heç kim bir cavab vermədi. Avarçəkənlərin cavab verməyə halı yox idi. Orqan yenə də susdu. Onun ayaqlarına dirənib, birtəhər özünə yer edən Kiriskin bütün bədəni titrəyirdi. Bu vaxt Orqan avarçəkənləri xəbərdar elədi:

– Biz Kirisklə qayığın suyunu ataq, siz isə özünüzü saxlayın!

O, Kiriskə doğru əyildi, qaranlıqda onu əliylə yoxladı, oğlanın sağ-salamat olduğunu biləndən sonra ona dedi:

– Kirisk, sən qorxma. Gəl suyu qayıqdan çıxardaq.Yoxsa bizim halımız pis olar. Bizim abgərdənimiz bir dənədir, budur, mən onu tapdım, sən isə, budur ey, parçı götür, yenə bu yaxşıdır... Sən tutursan? Parçı götür deyirəm.

– Hə, atkıçx, tuturam. Hələ çox belə olacaq? Mən qorxuram.

Başçı Orqan:

– Mən də qorxuram, – dedi. – Amma biz kişiyik və başımız belə şeylər çəkməlidir.

– Bəs biz batmarıq, atkıçx?

– Batmarıq. Əgər batarıqsa, demək, belə olmalıdır. İndi isə, gəl, bir əlinlə məndən yapış, o biri əlinlə qayıqdan suyu parçla əndər dənizə.

Yaxşı ki, Orqan vaxtında yadına saldı və onlar xırda fasilədən istifadə edərək, yığılmış suyu atıb, qayığı boşalda bildilər.

Və məhz onda, əllərini gəzdirə-gəzdirə suyu çıxarıb boşaldarkən Orqan Kiriskin diqqətini gündüz su içdikləri balaca çəlləyə cəlb etdi. Orqan onun əlindən tutaraq:

– Kirisk, – dedi, – budur bizim su çəlləyimiz. Yerini bildin? Yadında saxla: hər nə olursa olsun, çəlləyi hifz edib saxla. Ondan tut, yapış, ancaq ondan ayrı düşmə. Hərgah bir şey olmuş olsa, onsuz qalmaqdansa, bizim həlak olmağımız yaxşıdır. Sən məni başa düşdün? Heç kimə ümid olma. Eşidirsən?

Yaxşı ki, bu barədə dedi, yaxşı ki, oğlanı vaxtında xəbərdar elədi. Bu çox tezliklə onun karına gəldi.

Bir qədər zəiflədikdən sonra fırtına yenidən tüğyana gəlməyə başladı. Bu dəfə, gecənin düşməsindən, qaranlıqda və dumanda heç şey görməyən adamların köməksizliyindən istifadə edirmiş kimi, daha da şiddətlə, qeyzlə coşdu. Bu dəfə dalğalar qısa fasilənin doğrudan-doğruya əvəzini çıxmaq üçün yeni qəzəblə hücuma keçdilər. Onların zərbəsilə amansızcasına o tərəf-bu tərəfə tullanan kayak görünməz dalğalar arasında qalaraq, dövrə vurmağa, fırlanmağa başladı. Dalğaların şıpırtına



sıçrantısı püskürərək qayığı şaqqalayırdı. Qayıq, su yığaraq, çökməyə başladı. Orqan dizi üstə sürünərək, abgərdənlə nə qədər çapalasa da, get-gedə artan suyu boşaldıb qurtarmaq ağlasığmaz bir şey idi. Avarçəkənlər belə halda hirsli-hirsli, var gücləri ilə çığırdılar.

– At hər şeyi! Batırıq! Tulla, nə varsa!

Kirisk qorxudan bərkdən ağlamağa başladı, ancaq heç kim onun səsini eşitmirdi, o, heç kimin yadına düşmürdü. Oğlan çəlləyi altına alaraq, qayığın dal tərəfində küncə sıxılmışdı. O ağlamaqdan sarsıyaraq, çəllək üzərinə qıc olmuş kimi əyilib böyrü üstə yıxılmışdı. O yadda saxlamışdı ki, nə hadisə üz verir-versin, nə olur-olsun, onun görməli olduğu başlıca iş budur. O başa düşürdü ki, onlar batırlar, ancaq o, bu anın özündə də başçı Orqanın dediyini edir – su çəlləyini qoruyub saxlayırdı.

Yarıbatmış qayığı tez xilas etmək lazım idi. Mılğın qayığın çevrilməməsi üçün var gücü ilə hərəkət etməyə çalışaraq hələ də dəlicəsinə işləməkdə davam edir, Orqan və Əmrayin isə qayıqda nə vardısa, hamısını çıxardıb dənizə atırdılar. Başqa çarə yox idi. Hər iki vinçester, qarpun, kəndir dolaqları və bütün başqa şeylər, hətta Orqanın dəmir çaydanı da dənizə getdi. Onlar üçün ən çətin şey nerpa cəmdəyi oldu. İslanmış, ağırlaşmış, selikləşmiş cəmdək ələ gəlmirdi. Onu qayığın dibindən qaldırmaq və qayığın böyründən aşırmaq lazım idi. Kimsəsiz adalara ardınca getdikləri bir ruzunu – ovu kənara tullamaq zərurəti qarşısında qalmışdılar. Onlar dar-darısqallıqda xırıltı ilə nərildəyə-nərildəyə, söyüş və lənətlər yağdıra-yağdıra cəmdəyi böyük çətinliklə qaldırdılar və nəhayət, itələyib dənizə saldılar. Bu çaxnaşmada və dənizlə şiddətli çarpışmada belə nerpa yükündən azad olduqdan sonra qayığın nə qədər rahat yırğalandığı hiss olundu. Və qorxulu vəziyyətdən də, yəqin ki, elə bu qurtardı...

* * *

Orqan birinci ayıldı. Ağ, cansız boşluqda harda olduğu və ətrafdakı bu bulanıq, zülmət sükunətin nə demək olduğu birdən-birə onun ağlına batmadı. Duman idi.

O vaxt okean üzərinin bütün ənginliyini səssiz-səmirsiz yeganə və sarsılmaz Böyük duman çulğamışdı. Böyük duman öz böyük durğunluğuna qapılmışdı...

Gözləri bir qədər alışdıqdan sonra qoca Orqan qaranlıqda qayığın, sonra adamların cizgilərini seçdi. Əmrayinlə Mılğun öz yerlərində kürəklərin yanında uzanıb qalmışdılar. Gecə qasırğasından son dərəcə yorulmuş, əldən düşmüş bu adamlar bir güllə ilə yerə sərilmiş kimi qəribə vəziyyətdə uzanmışdılar və yalnız boğuq-boğuq, qırıq-qırıq gələn xırıltı bildirirdi ki, onlarda həyat əlaməti var. Kirisk çəlləyə söykənərək Orqanın ayaqları yanında qıc olub qalmışdı. O, nəmişlik və soyuqdan donmuşdu. Orqanın ona yazığı gəldi, ancaq heç bir kömək edə bilmədi.

Keçirdiyi gecədən gicəllənmiş Orqan, ağ başını köksünə salaraq, qayığın dal tərəfində oturmuşdu. Qocanın bütün bədəni ağrıyır, sızıldayırdı. Onun uzun, düyünlü qolları şallaq kimi sallanmışdı. Orqan öz həyatında çox bəla və müsibətə tuş olmuşdu, ancaq beləsinə yox. O, indi harda olduqlarını, onları fırtınanın hara gətirib çıxardığını, torpaqdan nə qədər uzaqlaşdıqlarını, dənizdəmi, yoxsa okeanın özündəmi olduqlarını təsəvvürünə gətirə bilmirdi. O, həmin saatda, hətta günün hansı vaxtı olduğunu da təsəvvür edə bilmirdi. Başdan-başa donub qalan bu zülmət dumanında gündüzü gecədən seçmək mümkün deyildi. Fəqət, fırtınanın səhərə yaxın yatdığı nəzərə alınarsa, çox ehtimal ki, gündüz idi. Bəlkə də günün ikinci yarısı idi.

Bir möcüzə sayəsində sağ qaldıqlarına sevinsə də, Orqanın başını köksünə salması hər halda səbəbsiz deyildi. Onun gəlmə tacirlərdən yüz samur xəzinə aldığı tüfənglərəcən yanlarındakı hər şeydən məhrum olmuş bu ovçular indi qayıqda iki cüt kürək və içində içməli su olan ağzı açılmış balaca çəlləklə qalmışdılar. Qabaqda onları nə gözləyirdi? Əlbəttə, avarçəkənlər özlərinə gələn kimi, bundan sonra nə edəcəklərini və necə edəcəklərini birlikdə düşünüb-daşınacaqlar. Ancaq hansı səmtə hərəkət etməli olduqlarını kim deyəcək? Vacibi budur. Yox, əgər gecəni gözləyəsi olsalar və əgər səma buludsuz olarsa, istiqaməti ulduzlarla müəyyən etməyə səy göstərmək olar. Ancaq onlar hələ nə qədər üzməli olacaqlar?! Nə qədər qüvvə və vaxt gərək olacaq?! Deyə biləcəklərmi, tab gətirə biləcəklərmi.

Bəs duman? Bu nə dumandır?! O, dəniz üzərində elə kəsif və hərəkətsiz halda uzanıb qalıb ki, elə bil köçünü həmişəlik buraya salıb. Görəsən, hər yan belədir, yəni doğrudanmı bütün aləm bu cür dumana bürünüb?

Qoca papiros çəkmək və su içmək istədi. Ancaq tənbəki barədə narahat olmaq lazım gəlmədi – olub-qalan tənbəki tamam, islanmışdı.



Çubuq da hara isə yoxa çıxmışdı. Bəs su? Bəs yemək? Orqan bu barədə düşünməkdən çəkindi, hələ dözmək olardı. Hələ fikirləşməmək olardı...

Dənizdə xəfif ləpə, tam sükut, sakit hava vardı. Yalnız qayıq yerindəcə yavaşca-yavaşca yırğalanırdı. Onu heç nə heç yana çəkib aparmır və o da heç tərpənmirdi. Özbaşına buraxılmış kürəklər suyun üzündə səssiz-səmirsiz uzanıb qalmışdılar... Əmrayin və Mılğunu başa düşmək olardı–onlar yorğunluğun elə bir həddinə çatmışdılar ki, kürəkləri qayığa qaldıra bilməmişdilər: mitilləri düşmüşdü.

Tam sakit havada hər şey dumana, durğunluğa qərq olub qalmışdı. Dəniz durur, duman durur, qayıq dururdu, tələsiləsi bir yer yox idi... Üzüb gediləsi bir yer ]ox idi...

Qoca bikef-bikef qısılıb qalmış, hiss edilmədən yuxuya getmişdi və yalnız Kirisk:

– Atkıçx, atkıçx! Biz su istəyirik, – deyə onu silkələyib oyadanda ayıldı.

Orqan silkindi və başa düşdü ki, üç həmtayfa ondan hərəkət gözləyir, zira o, başçıdır və başa düşdü ki, ən dəhşətli bir məqam –suyun bölüşdürülməsi məqamı başlanır...

Duman necə vardısa, eləcə də hərəkətsiz durmuşdu.

Dəniz tam sükuta qərq olmuşdu.

* * *

Günün bütün qalan vaxtını onlar dumanda ağır-ağır üzdülər. Məqsədsiz və qarasına – haraya üzdüklərini bilmədən.

Adamlar özlərinə gələndən və öz vəziyyətlərini başa düşəndən sonra bir yerdə durmaq artıq mümkün deyildi.

Və onlar üzürdülər. Ola bilsin, torpağa yaxınlaşır, bəlkə də, əksinə, ondan uzaqlaşırdılar.

Ancaq bunda hər halda hərəkət illüziyası vardı.

Bütün ümid ona idi ki, duman çəkiləcək və onda nəyin nə yerdə olduğu aydınlaşacaqdı.

Duman seyrəlsə, hər halda gecə ulduzları görmək mümkün olacaq. Ən əvvəl ulduzlardan yapışmaq lazım idi.

Bir ümid də vardı ki, bəlkə bir adaya rast gələydilər. Ondan sonra olduqları yerin səmtini müəyyən etmək asan idi.

Onlar hələlik bu minvalla, qarasına üzürdülər – daim duman içində, hansı səmtə getdiklərini bilmədən.

Ancaq bu şəraitin özündə də Orqan qayıqda bəzi səliqə-sahman yaratdı. Qayığın dibində qalmış suyu tamam atıb təmizlədilər ki, ayaqlarının altı fırçıldamasın. Kirisk üçün daha isti olsun və paltarı daha tez qurusun deyə onu qayığın dal tərəfində öz yanında otuzdurdu. Hamıya tənbətən su verdi. Birinci dəfədə hamıya parçın tam olmayan dörddə biri qədər. Fırtınalı gecədən sonra heç olmasa bir dəfə doyunca su içmək lazımdı. Ancaq Orqan xəbərdarlıq elədi ki, indən belə yalnız o, lazım bildə və yalnız o, nə qədər verərsə, o qədər su içəcəklər. Və bunu deyərkən o, sözü daha əsaslı olsun deyə çəlləyi inamla çalxaladı – yarısınacan boş idi.

Gözlənilməz bir sevinc də baş vermişdi: su paylananda çəlləyin arxasında, qayığın lap dal küncündə, oturacağın altında içində qurudulmuş yukola olan nerpa dərisindən torba tapılmışdı. İçində yemək olan böyük torbanı başqa şeylərlə birlikdə qayıqdan tullamışdılar. Mılğunun arvadının yola qoyduğu bu balaca torba isə təsadüfən qalmışdı. Çünki oturacağın altında necə olur-olsun, qorunub saxlanması Kiriskə tapşırılmış çəlləyin arxasında olmuşdu. Doğrudur, torba ağzınacan dəniz suyu ilə dolmuşdu və onsuz da duzlu yukola o qədər düz çəkmişdi ki, onu ağıza almaq mümkün deyildi. Ancaq bununla belə o, təam idi, azuqə idi. Və əgər kifayət qədər içməli su olsaydı, bu cür yukola da tamam yarayardı.

Ancaq yanğıdan ehtiyat edərək, hələlik heç kim yukola yemirdi...

Hamı bir şey – dumanın haçan çəkiləcəyini gözləyirdi.

* * *

Hamı bir şeyi, dumanın haçan çəkiləcəyini gözləyirdi...

Lakin o çəkilmədi və çəkilmək də istəmirdi. Duman tərpənmirdi. Adama elə gəlirdi ki, bütün aləmi – Yeri də, Göyü də, Dənizi də nə isə müdhiş, pis rütubət qoxusu saçan, yabançı əcaib bir vücud udmuşdur...

Duman bətnində yenidən gecə gəldi. Bunu ətrafı bürümüş qaranlıqdan görmək olardı, yuxarıda isə nə bir ulduz, nə də səma görünürdü.

Elə-belə, hara isə bir yerə getmək xatirinə, qarasına üzməyin də daha mənası yox idi.



Gözləyirdilər, göydə ulduzların görünəcəyinə ümid edirdilər. Saatbasaat gözləyirdilər. Bu mənfur, iyrənc dumanı qovub apara biləcək küləyin qalxmasını gözləyirdilər, yatmırdılar. Tanrıya üz tutub yalvarırdılar ki, göyün üzünü açsın; küləklərin sahibini yalvarışla çağırırdılar ki, o – dənizdən o tərəfdəki o yallı, qıllı vəhşi oyansın, hərəkətə gəlsin. Heyhat, hamısı bihudə idi. Onların yalvarışlarını eşidən yox idi, duman da dağılmırdı.

Kirisk də ulduzların çıxmasını gözləyirdi. Əvvəllər göydə adi bir oyuncaq təsiri ilə parlayan bu ulduzlar indi ona hər şeydən çox lazım idi. Keçən axşamdan bəri başlarına gələn müsibət onları sarsıtmış, vahiməyə salmışdı. Uşaq qəlbini biryolluq üzmək, sarsıtmaq, alt-üst etmək çətin bir şey deyildi. Ancaq, artıq onların dəniz səfərinin axırının çatdığı göründüyü ümumi ölüm təhlükəsi anlarında o üç kişinin qayıqda onunla bir yerdə olub, duruş gətirməsi, qeyzli təbii fəlakətə üstün gəlməsi ona ümid verirdi ki, bu dəfə də xilas olmaq üçün nicat yolu tapılacaqdır. O, çox inanırdı ki, göydə ulduz görünən kimi, onların əzab-iztirabı çəkilib gedəcəkdir.

Kaş bu tez olaydı, geriyə torpağın, Alabaşın yanına tez qayıdaydılar, tez, tez, ona görə ki, könlü bərk su istəyirdi, yemək istəyirdi, dözülməz dərəcədə yemək, içmək istəyirdi, getdikcə çox yemək, içmək istəyirdi, evlərini, anasını, qohum-əqrəbalarını, doğma yurdlarını, ocaqlarını, çay və çəmənlərini istəyirdi.

Müztəriblər bütün gecəni intizarda qaldılar, lakin heç nə dəyişmədi – duman yerindən tərpənmədi, ulduzlar göyə səpələnmədi, dəniz zülmətdə qalmaqda davam edirdi.

Özü də bütün gecəni onun könlü bərk su istədi, hava nəmişkən və üşürgəndi, ancaq hər şeydən əvvəl ürəyi suya təşnə idi. Kirisk güman edə bilərdi ki, təkcə o, belə yaman su istəyir, yox, elə o birilər də susuzluqdan əzab çəkirdilər. Amma o, hamıdan çox yanırdı.

Lakin, bununla belə, Kirisk bir azca su istədikdə, başçı Orqan vermədi. Qətiyyətlə:

– Yox, – dedi,– indi olmaz. Döz.

Onların aclıqdan günün axırınacan dözməyib, üçünün – onun, atasının və Mılğunun – bir yerdə gəmirməyə başladıqları yukoladan sonra onun necə su istədiyini kaş o qoca Orqan bilmiş olaydı. Hərçənd ki, yukolanı suyla ötürmüşdülər, bu çox azdı, aradan bir qədər keçəndən sonra isə könlü daha bərk su istədi. Qoca Orqan isə yukolaya

əlini də vurmamışdı, aclığa qatlaşmışdı, su da içməmişdi, qənaət edib saxlamışdı, özünə bir qurtum da rəva görməmişdi. O gün iki dəfə su içdilər – səhər və axşam, Orqandan başqa. Axşam lap az, parçın dibindəcə. Çəlləyin suyu isə get-gedə azalırdı.

Su içmək, çoxlu-çoxlu su içmək istədikdə təbəddülat intizarı ikiqat əzaba çevrilirdi.

Bütün gecə belə davam etdi... Soyuq duman da bütün gecəni hərəkətsiz halda yatıb qaldı. Dəniz də tərpənmədi...

* * *

Səhəri də heç bir dəyişiklik olmadı. Təkcə boz-qonur dumanın topaları azacıq açılıb işıqlaşdı, bir qədər genişləndi. İndi biri-birinin üz-gözünü görmək olurdu. Və bir də qayığın ətrafında bir neçə arşınlıqda ağır, civə kimi sabit, küləksiz ləpə tutqun-tutqun ağarırdı. Kirisk heç vaxt bu cür durğun su görməmişdi.

Heç bir külək, heç bir dəyişiklik yox idi.

Amma həmin o səhər oğlan böyüklərin üzlərinin bərk dəyişildiyinə çox heyrətləndi. Onlar yaman arıqlamış, sifətləri çəkilmişdi, üzlərini cod tük basmışdı, gözləri çuxura düşmüşdü, onları elə bil ölüm xəstəliyi tutmuşdu. Hətta çox güvəndiyi atası da bərk dəyişmişdi. Bircə saqqalı necə vardısa, eləcə də qalmışdı. Dodaqları dişləm-dişləm olmuş, qapqara qaralmışdı. Susur, heç bir şey demir, kədərli-kədərli Kiriskə baxırdı. Qoca Orqan daha çox zəifləmişdi. Qoca bükülmüş, lap ağarmışdı. Hülqumlu boğazı bir az da uzanmışdı, gözləri isə əvvəllərdə olduğundan çox Yaşarırdı. Onun Orqanlığı yalnız baxışında qalmışdı. Ağsaqqalın müdrik, ciddi baxışında yenə əvvəlkitək yalnız ona məlum və agah olan bir məna vardı.

Günü ən ağır bir məsələdən – suyu öz aralarında adama bir-iki qurtum bölməkdən başladılar. Orqan özü tökürdü. Çəlləyi qoltuğu altına sıxaraq, suyu nazik şırnaqla parçın dibinə süzür və bu anlarda əlləri bərk əsirdi. O, suyu birinci olaraq Kiriskə verdi. Kiriskin dözümü kəsilmişdi. O, dişlərilə parçı şaqqıldadaraq, suyu hortdatdı. Yalnız bir anlığa hiss elədi ki, içi soyudu, yanğısı düşdü, həyəcandan beyni uğuldadı. Ancaq o, parçı qaytaranda daxilindəki yanğı yenidən əvvəlki halına gəldi, əvvəlkindən də artıq oldu, elə bil orada içində canavar yuvasına od atılmışdı... Sonra Mılğun içdi. Sonra Əmrayin. Onların



suyu necə içmələrinə baxmaq dəhşət idi. Parçı əlləri titrəyə-titrəyə tutur və Orqanın üzünə baxmadan qaytarırdılar. Elə bil ki, suyun belə az olmasına günahkar o idi. Ancaq növbəsi çatanda Orqan özüyçün bir damcı da tökmədi. Tıxacı lal-dinməz yerinə tıxadı. Bu, Kiriskə çox təəccüblü gəldi. Çəllək onun əlində olsaydı, o parçı ağzınacan doldurar, sonra bir də, bir də doldurar və yıxılana kimi o ki var içərdi. Sonrası necə olur-olsun. Barı bir dəfə doyunca içmiş olasan. Qoca Orqan isə hətta, haqqı çatdığı şeydən də imtina eləyirdi. Parçın dibindəki bir qurtum suyu qıyıb içmirdi.

Nəhayət, Əmrayin güclə xırıldayaraq:

– Niyə belə edirsən, atkıçx? Özünçün də hamıya verdiyin kimi tök! – dedi. – Dünən də içməmisən. Ölmək ölməkdir, hamımız bir yerdə ölərik!

– Mən keçinərəm! – deyə Orqan təmkinlə cavab verdi.

– Yox, bu düzgün deyil! – Əmrayin səsini qaldırdı. – Onda mən də içməyəcəyəm!– deyə hirsli-hirsli əlavə etdi.

– Burda içiləsi bir şey qalmayıb. Boş söhbətdir. – Orqan qımışdı, yəni ki, siz nə ağılsız adamsınız! Başını ağır-ağır buladı, təzədən çəlləyin tıxacını çıxartdı və parçın dibinə su süzdü: – Mənim əvəzimə qoy Kirisk içsin, – dedi.

Oğlan özünü itirdi, hamı susdu. Orqan isə parçı ona uzadaraq:

– Al, Kirisk, iç, – dedi. – Heç nə fikirləşmə.

Kirisk susurdu.

– İç, – dedi Mılğun.

– İç, – dedi Əmrayin.

– İç, – dedi qoca Orqan.

Kirisk tərəddüd edirdi. Susuzluqdan yanırdı, bu bir neçə qurtum suyu bir dəfəyə hortdatmaq istədi, ancaq cəsarət eləmədi. İçini gəmirib dağıdan istəyə tablaşaraq:

– Yox, atkıçx, yox, özün iç, – dedi və hiss elədi ki, başı yaman hərlənir.

Bu sözlərdən Orqanın əli əsdi, o, ağır-ağır köks ötürdü. Onun baxışları oğlanı razılıq hissilə oxşadı, kövrəldi.

– Mən çox ömür sürmüşəm, həyatımda bilirsən nə qədər su içmişəm?! Sən isə hələ çox yaşamalısan ki... – O, sözünü deyib qurtarmadı. – Sən məni başa düşdün, Kirisk? İç, belə lazımdır, sən içməlisən. Məndən ötrü nigaran olma. Al!

Yenə də oğlan suyu hortdadaraq, yalnız bir anlığa hiss elədi ki, içinə sərinlik yayıldı, daxilindəki atəş söndü və bu yüngülləşmənin ardınca elə ordaca yenidən su istədi. Bu dəfə o hiss elədi ki, ağzında iylənmiş su tamı qalıb. Ancaq bunun mənası yox idi. Təki, hər necə olsa da, su olaydı, təki içməli su olaydı. İçməli su isə getdikcə azalırdı.

Orqan bu ara həmtayfalarına müraciətlə:

– *Hə, necə olsun, nə edəcəyik? – dedi.– Üzəcəyik?*

Araya uzun sürən bir sükut çökdü. Hamı ətrafa boylandı. Lakin qayığın iki arşınlığından o yana işıq keçirməyən qatı dumandan başqa heç nə görünmürdü.

Əmrayin içini çəkərək:

– Hara üzəsən? – deyə sükutu pozdu.

– Necə yəni hara? – Mılğun nədənsə birdən hirsləndi.– Üzəcəyik, yerimizdəcə ölməkdənsə, üzmək yaxşıdır.

– Üzüb-üzməməyimizin fərqi nədir? Belə dumanda qarasına hayana gəldi üzməklə bir yerdə durmağın nə fərqi var? – deyə Əmrayin ona anlatdı.

– Cəhənnəm olsun duman! – Mılğun səsini daha da qaldırıb meydan oxudu. – Cəhənnəm olsun sənin dumanın! Aydındır! Üzəcəyik, yoxsa bu lənətə gəlmiş kayakı bu saat çevirəcəyəm və hamımız gedib balıqlara yem olacağıq! Sən məni başa düşdün, Saqqal Əmrayin? Üzəcəyik! Başa düşdün?..

Kirisk pərt oldu. O, aki – Mılğunun xəcalətini çəkirdi.

Mılğun düz eləmirdi, axı o, necə olsa, atasından kiçikdir. Deməli, ya onun beynində nə isə yerindən dəbərmişdi, nə isə pozulmuşdu, yaxud da bir qayığa sığınmış bu dörd nivxin indi dördü birinə dəyməzdi, biri – hecə. Hamı susmuşdu. Hamı məyus və qəmgin idi. Mılğunun özü də borkdən köks ötürüb susdu. Əmrayin başını aşağı saldı. Qoca Orqan isə harasa yana baxırdı və onun üzü onları hər tərəfdən örtük təkin bürümüş həmin duman kimi anlaşılmazdı. nəhayət, Əmrayin dindi:

– Sakit ol, Mılğun, – dedi. – Mən elə-belə, sözgəlişi dedim, əlbəttə, bir yerdə durmaqdansa, üzmək yaxşıdır. Sən haqlısan. Gəlin üzək.

Onlar tərpəndilər. Küreklərin bənd yerləri yenidən cırıldamağa başladı, kürəklər suya sallanıldı, sakit, izsiz sular səssiz-səmirsiz yarılıb aralanır və elə oradaca qayığın ardınca yenidən biri-birinə qovuşurdu. Amma təəssürat eləydi ki, elə bil onlar üzmür, öz yerlərində



dururdular. Onlar nə qədər gedirdilərsə, ətraf başdan-başa dumandı ki, duman, elə bil tilsimə düşmüşdülər. Mılğunu yenə də, yəqin, elə bu vəziyyət özündən çıxartdı. O hirslənərək:

– Cəhənnəm olsun sənin dumanın, eşidirsən, Saqqal Əmrayin!– dedi. – Mən istəyirəm biz tez-tez üzək! Tez ol, Saqqal, kürəklə, yatma, eşidirsən? Cəhənnəm olsun sənin dumanın! Və Mılğun bunu deyib, sinəsini kürəklərə daha bərk dirədi:

– Di, kürəklə! Kürəklə! – deyə tələb elədi.

Əmrayin onu hirsləndirmədi, ancaq, Mılğun tərəfindən pərt olub, o da ağılsız oyuna qoşuldu. Qayıq get-gedə sürətini artırırdı. Haraya və nə üçün getdiyini bilməyən qayıq duman içində sıçraya-sıçraya, ağına bozuna baxmadan sürətlə gedirdi. Mılğun və Əmrayin isə biri-birindən geri qalmayaraq, dumanı ötüb keçə biləcəklərmiş kimi, onun hədsiz hüdudlarını yarıb xilas olacaqlarmış kimi, quduzlaşmış bir yırtıcı vəhşi sərtliyi ilə avar çəkməkdə davam edirdilər.

Kürəklərin ağzı çəpəki qalxan sıçrantıları göyə sovuraraq sayrışır, qayığın yanlarında su şarıldayır, acıqdan dişləri ağaran, kürəkləri suya çalaraq bükülən, gah da kürəklərlə suya dirənərək, zorla düzələn avarçəkənlərin qan-tərə batmış üzləri qalxır, enirdi...

Gah nəfəs al, gah nəfəs ver, nəfəs al, nəfəs ver... Nəfəs al, nəfəs ver...

Qabaqda – duman, arxada – duman, ətrafda – duman.

Mılğun acığını tökürmüş kimi, hayxıraraq bağırırdı:

– Hana, hana![1]

Əvvəlcə Kirisk dirçəldi, yalan hərəkətə uydu, ancaq sonra bunun nə qədər səmərəsiz və dəhşətli olduğunu başa düşdü. Oğlan həyəcanla başçı Orqanın üzünə baxır, gözləyirdi ki, o bu mənasız sürətin qarşısını alacaq. Ancaq o, elə bil özündə deyildi, dalğın nəzərləri haradasa kənarda dolaşırdı, üzündə donuq bir ifadə vardı. Qocanın üzü islanmışdı – bilmək olmurdu ağlayır, yoxsa adəti üzrə gözləri yaşarıb, O, nə baş verdiyini bilmirmiş kimi, qayığın dal tərəfində qımıldanmadan oturmuşdu.

Duman içindən ağına-bozuna baxmadan qovulan qayıq isə qarasına gedirdi...

– Hana, Hana! – Dumanda yalnız bu ümidsiz, yanıqlı nidalar eşidilirdi: – Hana, Hana!

[1] Hana – haydı, tez olun

Bu vəziyyət bir xeyli davam etdi. Ancaq avarçəkənlər get-gedə heydən düşdülər, sürət yavaşımağa başladı və bir az sonra onlar tövşüyə-tövşüyə kürəkləri əldən buraxdılar. Mılğun başını qaldırmırdı.

Araya acı avazıma sükutu çökdü. Onlar dumanı ötüb keçməmişdilər, onun hüdudlarından kənara çıxmamışdılar. Hər şey əvvəlki kimi qalmışdı; küləksiz ləpə, tam məchulluq, başdan-başa keçilməz duman. Yalnız qayıq hələ də üzməkdə və öz-özünə fırlanmaqda davam edirdi...

Bunu niyə belə elədilər? Nəyə lazımdı? Bəs onlar yerlərində dursaydılar, nə qazanardılar? Onda da heç nə. Onların hər biri, ola bilsin, bu barədə düşünürdü və elə bu vaxt Orqan:

– İndi mənə qulaq asın! – dedi. O, sözlərini ağır-ağır söylədi, yəqin ki, bununla gücünü qoruyub saxlayırdı; axı o, artıq ikinci gündü ac-susuz idi. – Ola bilsin, duman hələ çox qalacaq. Belə illər olur. Belə hallar olur. Özünüz bilirsiniz. Duman dəniz üzərində yeddi-səkkiz, bəzən də on gün dayanır, vaxtı çıxanacan elin başı üstünü kəsdirmiş azar kimi, xəstəlik kimi. Onun vaxtının nə qədər olduğunu isə heç kim bilmir. Əgər bu duman elələrindəndirsə, deməli, müqəddəratımız ağırdır. Lap azca yukola qalıb, bir də ki, su olmayandan sonra o nəyə lazımdı? Suyumuz isə budur! – O, çəlləyi çalxaladı. Çəlləyin dibində cəmi bir ovuc, ovuc yarımlıq su xışıldadı.

Hamı susurdu. Qoca da. Onun nə demək istədiyi hamıya aydın idi: – suyu yalnız gündə bir dəfə, parçın dibində, lap bircə qurtum içmək lazımdır, dumanın keçməsini gözləməyə gücümüz çatarsa, gərəyimiz olar. Göyün üzü açılsa, ulduz, yaxud günəş görünsə, onda məlum olar neynəyirik. Birdən bəxtimiz gətirdi, onda lap torpağa çıxana kimi çatdırarıq.

Hə, belə oldu. Başqa bir çıxış yolu da ola bilməzdi. Ancaq sözdə qatlaşmaq, dözmək demək asandır və bir də insan o şeyi ki, əqlən edir, cismən heç də həmişə edə bilmir. Onlar, o müztəriblər bu saat su içmək istəyirdilər, özü də elə indicə, həm də parçın dibində yox, çoxlu-çoxlu, lap çox içmək istəyirdilər.

Orqan vəziyyətin ağırlığını başa düşürdü və onun öz vəziyyəti daha ağır idi. Qoca hamının gözü qabağındaca quruyub əldən gedirdi. Onun qırışlarla zol-zol, şırım-şırım olmuş qarabuğdayı sifəti saatbasaat qaralır və içindən qopan bir ağrının təsiri ilə daha sərt büzüşürdü. Nəmşər gözlərində xəfif bir gərginlik, əsəbilik vardı – özünü bu cür iztirablara



qatlaşmağa məcbur etmək qoca üçün çətin idi. Lakin hələ öz mətanətini saxlayaraq, ölməkdə olan ağacın öz kökü üstündə inamla dayandığı kimi dururdu. Ancaq bu sayaq çox davam edə bilməzdi. Onların xilası üçün lap az əhəmiyyəti olan hər bir sözü belə demək lazımdı.

– Mən o barədə fikirləşirdim ki,– deyə o, sözünə davam elədi, – daim göz-qulaq olmaq lazımdır, birdən aqukuk[1] bayquşu uçub keçə bilər. Aqukuk – bu vaxtlar dəniz üzərindən uçan yeganə quşdur. Əgər biz hər hansı bir ada ilə torpaq arasındayıqsa, onda aqukukun uçuşu bizə yol göstərə bilər. Hansı quş olursa-olsun, açıq dənizdə yalnız düz yolla uçur, heç bir yana dönmədən yalnız düz yolla. Aqukuk da həmçinin.

Mılğun yenə də başını qaldırmadan qaşqabaqlı:

– Bəs əgər ada ilə torpaq arasında deyiliksə? – soruşdu.

– Onda biz onu görməyəcəyik, – deyə Orqan yenə səbirlə cavab verdi.

Kirisk aqukukun, axı nə üçün, hansı ehtiyac üzündən dəniz üzərindən uçacağını dəqiqləşdirib bilmək istədi, ancaq Mılğun onu qabaqladı.

– Bəs əgər aqukuk bizim üstümüzdən uçmağı unutmuş olarsa, hə, atkıçx, – Mılğun pərt halda istehza elədi, birdən – yandan, odey, o tərəfdən uçmaq həvəsinə düşdü? Onda necə olar,hə?

– Onda biz onu görməyəcəyik. – Orqan yenə də aramla cavab verdi.

– Demək, görməyəcəyik? – Mılğun təəccüblənərək hirsləndi. – Deməli, elə də olsa, belə də, biz aqukuku görməyəcəyik? Hə? Onda sual olunur, biz niyə burda qaxılıb durmuşuq? – Mılğun donquldanaraq bir az da hirsləndi, sonra bərkdən güldü, sonra susdu. Hamısı mat qalmışdı. Hamısı nə edəcəyini bilməyərək susurdu.

Mılğun bu ara nəsə qərara almışdı. Kürəyi bənd olunduğu yerdən əlinin içiylə altdan vurub çıxartdı, sonra nə üçünsə qayığın burnuna çıxdı və oradan kürəklə müvazinət saxlayaraq, bütün qaməti ilə ayaq üstə durdu. Ona heç kim heç nə demədi. O da heç kimə fikir vermədi.

– E-hey, qancıq! – deyə o qəzəblə çığırdı. – E-hey, küləklər Şamanı![2] – O, üzünü duman qaranlığına tutub, kürəklə hədələyərək var gücü ilə çığırdı. – Əgər sən it leşi yox, küləklər sahibisənsə, bəs

[1] A q u k u k – qütb bayquşu

[2] Ş a m a n – bəzi Sibir xalqlarında falçı, cadugər, sehrkar, Cindar.

hanı sənin küləklərin? – Ay qancıq, sən ya öz kahanda gəbəribsən, ya səni bütün dünyanın köpəkləri dövrəyə alıblar və bilmirsən özünü hansının altına verəsən, ya da, ay qancıq, bir-bir hamısıyla cütləşirsən və külək qaldırmağa vaxtın yoxdur, yoxsa bizim burada, mənfur dumanda xondəyə düşübmüş kimi oturub qaldığımız yadından çıxıb? Yoxsa sən yanımızda oğlan uşağı olduğunu bilmirsən, bu necə olan işdir, hə? O, su içmək istəyir, o, su istəyir! Su! Başa düşürsən? Axı sənnənəm, yanımızda oğlan uşağı var, o, birinci dəfədir dənizdədir! Sən isə bizimlə gör necə rəftar elədin?! Məgər bu düzdür? Əgər sən qoxumuş suiti leşi deyil, küləklər sahibisənsə, cavab ver! Göndər öz küləyini! Eşidirsən? Dumanı yığışdır, qoy öz quyruğunun altına! Eşidirsən məni? Fırtına göndər, qancıq, ən güclü fırtına. Tlangi-la göndər, qancıq, tulla bizi dənizə, qoy dalğalar alsın bizi ağuşuna, qotur qancıq! Eşidirsən? Eşidirsən məni? Vecimə də almıram səni, tüpürürəm və işəyirəm sənin qıllı sifətinə. Əgər sən küləklər sahibisənsə, fırtına göndər bizə, qərq et bizi dənizdə, etməsən, onda sən dünyada ən alçaq qancıqsan, mən isə köpəyəm, daha bir köpək, ancaq mən sənə baş qoşmuram, al ha, budur ha, al ha payını, al ha, al ha, al, dişlə, al, dişlə, ye!

Mılğun harda mövcud olduğu və tabeliyindəki küləkləri harda gizlətdiyi məlum olmayan Küləklər Şamanını, bax belə, ən pis sözlərlə yamanladı. Mılğun küləklər sahibini məsxərəyə qoyaraq, təhqir edərək və eyni zamanda ondan yalvar-yaxarla külək istəyərək, bir xeyli vaxt, xırıldayana, əldən düşənə kimi qışqırdı.

Sonra o, küreyi var gücüylə dənizə tulladı və öz avarı yerində oturaraq, üzünü əlləri arasına alıb, birdən bərkdən və hönkürtü ilə ağlamağa başladı. Hamı əlacsız-əlacsız susurdu, o isə balaca uşaqlarının adlarını oxşayaraq ağlamaqdan boğulurdu; heç vaxt ağlar kişi görməmiş Kirisk qorxudan titrəməyə başladı. Orqana müraciətlə ağlaya-ağlaya soruşdu:

– Atkıçx! Atkıçx! O, niyə belə eləyir, o niyə ağlayır?

Qoca oğlanın əlini sıxaraq:

– Qorxma, – deyə onu sakit elədi. – Bu, keçib gedəcək! Bir azdan kiriyəcək! Sən bu barədə fikir eləmə. Bu, sənə aid deyil, keçib gedəcək.

Doğrudan da, Mılğun yavaş-yavaş kiriməyə başladı, ancaq hələ də əllərini üzündən çəkmir, hıçqıra-hıçqıra, titrəyə-titrəyə çiyinlərini atırdı. Əmrayin qayığı yavaş-yavaş suda üzən küreyin yanına gətirirdi.



O, qayığı küreyə lap yaxınlaşdırdı, küreyi qaldıraraq, öz yerinə quraşdırıb bənd elədi, şəfqətlə:

– Sakit ol, Mılğun, – dedi. – Sən haqlısan, dumanda əziyyət çəkməkdənsə, fırtınaya düşmək yaxşıdır. Di, bir az da gözləyək, bəlkə dənizin üzü açıldı. Çarəmiz nədir...

Mılğun heç nə demirdi. O, başını hey aşağı salır və qabağına baxmaqdan qorxan dəli kimi bükülüb oturúrdu.

Duman isə, aləmi böyük donuq zülmətdə saxlayaraq, okean üzərində hələ də soyuq-soyuq, sakit-sakit sallanıb durmuşdu. Heç bir külək yox idi. Heç bir dəyişiklik yox idi. Mılğun Küləklər Şamanını nə qədər təngə gətirsə də, nə qədər söyüb biabır eləsə də, o, bütün bunların qabağında lal-kar qalmışdı. O əsla hirslənməmişdi, qımıldanmamışdı, onları fırtınaya salmamışdı...

Bir yerdə durmasınlar deyə, Əmrayin asta-asta kürək çalır, qayıq suyun üstüylə güclə seziləcək dərəcədə şütüyürdü. Orqan susurdu, öz aləminə qapılmışdı. O, ola bilsin yenə də və ola bilsin həyatında axırıncı dəfə öz Balıq-qadını haqqında fikirləşirdi.

Onu kədərli, qocafəndi düşüncələrdən Kirisk ayırdı. O, yavaşcadan soruşdu:

– Atkıçx, atkıçx, aqukuk nə üçün adalara uçur?

– Hə, yadımdan çıxıb sənə deyim. Bu cür dumanda dəniz üzərindən yalnız aqukuk uça bilər, – dedi. – Aqukuk adalara ov etməyə uçur, hərdənbir də körpə nerpa balalarını tutur. Aqukukun gözləri elədir ki, dumanda da, qaranlıq gecələrdə də gündüz kimi görür. Ona görə ki, bayquşdur. Ən böyük, ən güclü bayquş.

Dodaqları qurumuş Kirisk pıçıltı ilə:

– Kaş mənim də elə gözüm olaydı, – dedi. – İndi mən ha tərəfə üzəcəyimizi bilərdim, onda biz tez gedib quruya çıxardıq və çoxluçoxlu su içərdik... Kaş mənim də elə gözüm olaydı...

– Eh, – Orqan ah çəkdi. – Hər kəsin öz qisməti.

Onlar susdular və aradan bir xeyli keçdikdən sonra Orqan, həmin söhbətə qayıdırmış kimi, oğlanın üzünə baxaraq dedi:

– Çox darıxırsan? Səbir elə! Əgər duruş gətirsən, böyük ovçu olacaqsan. Döz, əzizim, su barədə fikir eləmə, başqa şey barədə fikirləş.

Kirisk sözə baxıb çalışdı ki, su barədə fikir eləməsin. Ancaq bacarmırdı. Nə qədər unutmağa çalışırdısa, ürəyi bir o qədər çox su istəyirdi. Və bu səbəbdən o da Mılğun kimi bağırmaq istədi.

Həmin gün, bax, beləcənə ötdü. Müttəsil gəzdilər, müttəsil ümid bəslədilər ki, birdən uzaqlardan dalğa səsi gələr, sərin külək əsər, bu dumanı dünyanın o başına qovar və onlar üçün xilas yolu açar. Lakin dənizdə sakitlikdi, elə bir ağır, mənfur sakitlik ki, adamın beyni-başı ağrıyırdı. Elə hey də su istəyirdilər. Bu dəhşət idi: onlar ucsuz-bucaqsız ümmanın qoynunda yanğıdan həlak olurdular.

Axşama yaxın Mılğunun halı xarablaşdı. O, bilmərrə danışmırdı, gözləri heç nə ifadə etmirdi. Boğazını yaşlasın deyə, onunçün bir azca su süzmək lazım gəldi. Lakin Orqan, bu vaxt gözünü parçdan çəkə bilməyən Kiriskə baxaraq dözmədi, ona da, sonra isə Əmrayinə də parçın dibində su verdi. Özü isə yenə də ağzına bir damcı su almadı. Bu dəfə o, dibində azca su qalmış çəlləyi oturacağın altına qoyaraq, xəyalı nə isə özgə, yüksək aləmdənmiş kimi, bir xeyli vaxt hərəkətsiz halda, dalğın-dalğın oturub qaldı, elə bil ki, heç bir yanğı keçirmir heç bir cismani əzab çəkmirdi. O, qayığın dal tərəfində, dinib-danışmadan, qımıldanmadan, qaya zirvəsindəki tənha şahin kimi oturmuşdu. O, artıq bilirdi ki, qarşıda onu nə gözləyir və buna görə də cürətlənərək, həyatında görəcəyi axırıncı işqabağı olub-qalan bütün gücünü hifz edib saxlayırdı. Belə bir anda könlü yaman tənbəki çubuğu istədi. Qoca onun haqqında – və Balıq-qadını haqqında fikir eləyərək, axırıncı dəfə çəkmək, bir az tüstülətmək istədi... Ulu Balıq-qadın, harda üzürsən?..

O, özünə bələd idi, son hədd astanasında öz gücünün və ləyaqətinin nəyə qadir olacağını bilirdi. Onu öz niyyətindən hələlik saxlayan yeganə varlıq–bütün bu günlər ərzində ona bərk bağlanan və ovunmaq, qızınmaq üçün müttəsil onun böyrünə qısılan Kirisk idi. Oğlana yazığı gəldi. Lakin onun xətrinə belə hərəkət etmək lazım idi.

Başçı Orqanın o uzun, kədərli, son günü belə qurtarırdı. Artıq qaş qaralırdı. Daha bir gecə yaxınlaşırdı. Lakin bu gecə də hava dəyişmədən, elə əvvəlki kimi qalırdı. Duman dənizdə bir yerdəcə sallanıb qalmışdı. Yenə də səssiz-səmirsiz axşam qaranlığı düşürdü, onun dalınca da son dərəcə uzun, dözülməz müdhiş gecə gələcəkdi. Ancaq hərgah gecəyarısı birdən külək qopmuş olsaydı, qoy fırtına olsun, qoy nə olur olsun, təki olsun, onda göyün üzü açılar və ulduzlar da görünərdi. Lakin gecə heç nə bildirmirdi, suda heç bir ləpə görünmürdü. Havada heç bir tərpəniş yox idi – hər şey nəhayətsiz bir sükuta, nəhayətsiz bir zülmətə qərq olub qalmışdı. Qaranlıqda yolunu azan qayıq



susuzluqdan və aclıqdan haldan düşmüş, can üstündə olan adamlarla birlikdə duman içində tam xəbərsizlik və məhkumluq məngənəsində ağır-ağır löngərlənirdi...

Kirisk havaxt yuxuya getdiyini dəqiq xatırlaya bilmirdi. Ancaq dözülməz yanğıdan əzab çəkib, əldən düşərək, gec yuxuya getmişdi. Ona elə gəlmişdi ki, onu diri-diri qovuran bu işgəncələrin heç vaxt sonu olmayacaq. Yalnız su lazım idi! Yalnız su, başqa heç bir şey! Aclıq hissi daxilə çəkilib getmiş küt ağrı kimi zəifləmişdi, amma yanğı get-gedə daha artıq qüvvə ilə şiddətlənirdi. Və onu heç nəylə yatırmaq olmurdu.

Kiriskin yadına düşdü ki, uşaq vaxtı bir dəfə bərk xəstələnib, qan-tər içində yatanda da onun halı pis olmuş və o, yaman su istəmişdi. Anası onun yastığı yanından ayağını kənara çəkmir, hey əsgi isladıb, onun od tutub yanan alnına qoyur, oğrun-oğrun ağlayır və nəsə pıçıldayırdı. Yarıqaranlıqda, piy çırağının həzin, titrək işığında, o, başı üzərinə əyilmiş anasının iztirablı üzünü gördü, atası evdə yox idi – dənizdə idi. Kirisk isə istəyirdi ki, ona su versinlər və bir də atası tez qayıdıb gəlsin. Lakin nə o, nə də bu istəyi yerinə yetirdi. Atası uzaqda idi, anası isə ona su vermirdi. Deyirdi ki, ona, qətiyyən, su içmək olmaz. Anası onun qızdırmadan qarsılmış, biri-birinə bitişmiş dodaqlarını əsgi ilə azca isladırdı, ancaq bu, onun iztirablarını yalnız bir anlığa yüngülləşdirirdi. O, yenə də su istəyir və yanğısı getdikcə şiddətlənirdi.

Anası onu dilə tutur, yalvarırdı ki, su içməsin, deyirdi ki, çox dözmək lazımdır, onda xəstəlik keçib gedər.

– Döz, əzizim! – deyirdi. – Səhərə kimi yaxşı olacaqsan. Sən ürəyində tez-tez "Göy siçan, su ver" deynən. Onda, görərsən, halın yaxşı olacaq. Göy siçandan istə, əzizim, qoy getsin, sənə su gətirsin. Ancaq sən yaxşı-yaxşı istə...

Həmin gecə o, yanğı ilə əlbəyaxa olaraq, bu and-amanı pıçıltı ilə deyərək gözlədi ki, göy siçan, doğrudan da, gedib ona su gətirəcək. O, göy siçana dönə-dönə yalvarıb dedi: "Göy siçan, su ver! Göy siçan, su ver!" Sonra o, qızdırma içində sayıqlayıb çapaladı. Hey də yalvardı. "Göy siçan, su ver!" dözə-dözə qaldı, ağladı, yalvardı. Nəhayət, göy siçan şütüyüb gəldi. O, günorta çağı meşədə irmaq üstə əsən meh kimi sərin və ələkeçməz idi. Onu görmək çətin idi, o tamam key, hava kimi yüngül idi, kəpənək kimi uçurdu. Siçan pırıltı ilə uçuşur, yumşaq

tükünü onun üzünə, boynuna, bədəninə toxundurur və bununla da onun halına yüngüllük gətirirdi. Deyəsən, siçan ona su verdi və o, suyu bir xeyli vaxt və acgözlüklə içdi, su isə çoxalır, ətrafda şarıltı qoparıb, onun başından aşırdı...

Bərk zəifləmiş olsa da, səhər o, eyni-başı avazımış, sağalmış halda oyandı. Ancaq halının çox pis olduğu həmin gecə ona doyunca su verməyə, onu sağaltmağa gələn göy siçan uzun müddət oğlanın yadından çıxmadı...

İndi qayıqda susuzluqdan odlanarkən, həmin əhvalat onun yadına düşdü. Göy siçan kaş gəlmiş olaydı! Və o, həmin anda, qəlbində göy, suçu-siçana ümid oyatmış anası barədə dərıni bir sıxıntı və kədərlə fikirləşirdi. O, nəfəsi sıxıldığı, bərk su istədiyi anlarda başı üzərinə əyilmiş anasını qüssəylə xatırladı. Onun üzü nə qədər məhzun, nə qədər şəfqətli idi, necə həyəcanla, necə yalvarışla, necə vahimə ilə baxırdı ona, onunçün anası nələr etməyə hazır deyildi! İndi o, görəsən necədir, neyləyir orda? Yəqin dəniz qırağında oturub ağlayır, özünü üzür, gözləməkdən gözlərinin kökü saralıb... Dəniz isə heç nə demir, heç kim də ona bu fəlakətdə kömək etməyə qadir deyil. Yəqin təkcə qadınlar və uşaqlar Alabaşın uçurumlarında hələ tonqal yandırır və bununla da ona ümid yaradırlar: bəlkə xoşbəxtlik üz verdi, bəlkə dənizdə itənlər gəlib çıxdılar.

Onlar isə həmin vaxt xilas olmaları haqda son ümidlərini gecə dumanının qaranlığında tədriclə itirərək, ölgün, qapqaranlıq yerdə qayıqda ağır-ağır hərlənirdilər. Yox, qüvvələr həddən artıq qeyri-bərabər idi: Kainatda Günəşdən də qabaq mövcud olan qatı zülmət və köhnə qayıqda dörd nəfər naçar... Su yox, çörək yox, ümmanın ortasında, gecə qara, cücə qara, yol göstərən ulduz da yox...

Kirisk heç bir vaxt bu cür zülmət səltənəti görməmişdi və öz qısa ömründə heç vaxt güman etməmişdi ki, söndürülməz yanğının iztirabları bu qədər dözülməz ola bilər. Özünü ələ almaq üçün Kirisk vaxtilə su və şəfa verib, onu susuzluğun pəncəsindən xilas etmiş göy siçan haqqında düşünməyə başladı...

"Göy siçan, su ver!" O, anasının öyrətdiyi bu qəribə ovsunlandı ara vermədən öz-özünə pıçıldadı: "Göy siçan, su ver! Göy siçan, su ver!" Möcüzə baş vermirdisə də, o, cidd-cəhdlə and verib, göy siçanı çağırmaqda davam edirdi. İndi göy siçan onun ümidi və yanğıya qarşı ovsunu olmuşdu...



Göy siçan, su ver!

Oğlan özünü ovsunlayaraq, bu yolla fikrini dağıtmağa çalışır, gah mürgüləyir, gah da yuxu arasında Orqanla Əmrayinin söhbətinə arabir qeyri-iradi qulaq asıb oyanırdı. Onlar nə barədə isə xısınlaşır və uzun-uzadı söhbət edirdilər. Bu uzun sükutlu fasilələri olan, sözləri axıra qədər deyilməyən və bəzən başa düşülməyən qəribə, anlaşılmaz söhbət idi. Kirisk böyrünə qısıldığı Orqanın sözlərini daha aydın başa düşürdü – qoca güclə nəfəs alaraq, ancaq boğazındakı xırıltı və xışıltıya motanətlə sinə gərərək, ağır-ağır danışırdı – atasını isə pis eşidirdi: o, bir az uzaqda, öz avarçəkmə yerindəydi.

Əmrayin, kiminsə onları eşidə biləcəyindən ehtiyat edirmiş kimi, xısın-xısın:

– Özün məndən yaxşı bilirsən, ancaq fikirləş, atkıçx, – deyirdi. – Sən ki müdrik adamsan.

Orqan, görünür, yenə də öz dediyində duraraq:

– Fikirləşmişəm, çox fikirləşmişəm, belə yaxşı olar, – deyə cavab verirdi.

Onlar bir anlığa susdular, sonra Əmrayin dedi:

– Biz hamımız bu qayıqdayıq, demək, hamımızın taleyi bir olmalıdır.

Qoca:

– Tale, tale, – deyə acı-acı donquldadı, xırıldaya-xırıldaya: – Taleyin əlindən heç yana qaça bilməzsən, məlum şeydir, – dedi, – lakin tale o demək deyil ki, istədin-istəmədin boyun əyməlisən. Madam bizim axırımız yetir, bizlərdən birimiz özü də taleyi tələsdirə bilər ki, o birilərin ömrü bir qədər uzanmış olsun. Özün bir fikirləş, birdən yollar açıla, gücünüz çatınca sürəsiniz, torpaq da artıq göz qabağında olmuş ola, amma özünüzü torpağa çatdırmaq üçün bir neçə qurtum su çatmaya, məgər yaxşı olar, məgər adama ağır gəlməz?

Əmrayin anlaşılmaz cavab verdi və onlar susdular.

Kirisk yatmağa çalışır, hey özünün göy siçanını çağırırdı, ona elə gəlirdi ki, göy siçan o yatanda gələcək... Fəqət yuxusu qaçmışdı.

Göy siçan, su ver!

Orqan:

– Hə, Mılğun necədir? – deyə soruşdu.

Əmrayin cavab verdi:

– Elə o vəziyyətdə uzanıqlı qalıb.

– Uzanıqlı qalıb, deyirsən? – Və sözünə bir qədər ara verdikdən sonra: – Özünə gələndə, çatdır ona, – deyə xatırlatdı.

– Yaxşı, atkıçx, – Əmrayinin səsi titrədi, o güclə boğazını arıtladı, – hamısını çatdıraram, necə demisənsə.

– Ona de ki, ona mənim hörmətim vardı. O, mahir ovçudur. Yaxşı da insandır. Həmişə mənim ona hörmətim olub.

Onlar yenə susdular.

Göy siçan, su ver!

Sonra Əmrayin nə isə dedi. Kirisk onun sözlərini yaxşı eşidə bilmədi, amma Orqanın Əmrayinə cavabını eşitdi:

– Yox, gözləyə bilmərəm. Məgər görmürsən? Taqətim çatmır. Yaxşı it gözdən iraq yerdə ölür. Mən özüm belə edirəm. Mən böyük adam olmuşam! Mən bunu bilirəm. Həmişə Balıq-qadın yuxuma girib. Sən bunu başa düşməzsən... Mən oranı istəyirəm...

Sonra daha nə haqda isə danışdılar.

Kirisk:

– Göy siçan, su ver! – deyə suçu-siçanı çağıra-çağıra yuxulayırdı.

Onun axırıncı eşitdiyi sözlər atasının Orqana yaxın gəlib dediyi bu sözlər oldu:

– Yadındadı, atkıçx, bir dəfə maral belində tacirlər gəlmişdilər, balta və cürbəcür şeylər dəyişirdilər. Bax, o yekə Kürən vardı ha, o deyirdi ki, hansı uzaq bir məmləkətdəsə dənizdən piyada keçən bir nəhəng adam olub. Belə adamlar olub də...

– Deməli, o çox böyük adamdır, bütün böyüklərin ən böyüyü, – deyə Orqan ona cavab verdi. – Bizdə isə ən böyük varlıq – Balıq-qadındır.

Kirisk yuxulayırdı, amma bəzi sözləri hələ dumanlı şəkildə eşidirdi:

– Dayan. Fikirləş bir az...

– Vaxtdır. Mən öz dövranımı sürmüşəm... Tutma məni... Gücüm yoxdur, tab gətirmərəm...

– Yaman qaranlıqdır... – Nə fərqi var...

– Sənə deyiləsi sözüm hələ qurtarmayıb...

– Söz qurtarmır. Bizdən sonra da qurtarmayacaq.

– Yaman qaranlıqdır...

– Tutma məni. Tab gətirmərəm, gücüm tükənir. Mən isə istəyirəm üzüm...



– Yaman qaranlıqdır...

– Siz hələ dözün, qalın, orda hələ bir az su var...

Kiminsə iri, cod əli kor-koranə gəzişərək, oğlanın başında ehmalca dayandı. Oğlan gözüyumulu halda başa düşdü: o, Orqanın əli idi. İsti, ağır əl bir xeyli vaxt Kiriskin başında dayanıb durdu, elə bil ki, əl onu – Kiriskin başını himayə etmək və yadda saxlamaq istəyirdi...

* * *

Kirisk yuxuda gördü ki, o, dənizdə piyada gedir. Torpağa sarı gedir ki, su içsin, yıxılmadan, batmadan yeriyirdi. Ətraf başdan-başa heyrətamiz, qəribə bir aləm idi. Hayana baxırdısa, təmiz, parlaq dəniz göz işlədikcə uzanırdı. Dünyada dənizdən, dəniz suyundan başqa heç nə yox idi. Yalnız dəniz və yalnız dəniz suyu. Və o, həmin suyun üstüylə bərk torpaq üzərində yeridiyi kimi gedirdi. Günəşin şüaları altında hər yandan, hər tərəfdən müntəzəm surətdə dalğalar gillənib-yellənib gəlirdi. Bu dalğalar hardan gəlir, hara gedirlər, bilmək olmurdu.

O, dənizin içiylə tək-tənha yeriyib gedirdi. Əvvəlcə ona elə gəldi ki, o, Orqandan, Əmrayindən və Mılğundan qabaqda gedir ki, tez su tapsın və tez də onları çağırsın. Ancaq sonra başa düşdü ki, burada tamam tək qalıb. O qışqırır, onları çağırır, amma heç kim hay vermirdi. Bir dənə inni-cinni yox idi... O bilmirdi ki, onlar haraya qeyb olublar. O, bundan dəhşətə gəldi. Səsi eşidiləcək qədər qışqıra bilmədi. Heç bir yanda torpaq da görünmürdü. O, var gücünü sərf edərək, dənizin içiylə tövşüyə-tövşüyə qaçdı, lakin hayana gedirdisə, elə öz yerində qalırdı, get-gedə daha bərk yanğı ilə su istəyirdi. Və bu məqamda o, başı üstündən uçan quşu gördü. O, Luvr ördəyi idi. Ördək yuva üçün yer axtara-axtara dənizin üzərində çığırtıyla uçurdu. Ancaq heç harda bir tikə quru yer tapmırdı. Hər tərəfdə nəhayətsiz sular şırıl-şırıl ləpələnirdi. Luvr ördəyi yanğılı-yanğılı zarıyıb vurnuxurdu.

– Luvr ördəyi! – deyə Kirisk ona ağız açdı.– Hanı torpaq, hankı yandadır, mən su istəyirəm!

– Hələ heç yanda torpaq yoxdur, heç yerdə! – deyə Luvr ördəyi cavab verdi.– Hər tərəf başdan-başa sudur.

– Bəs o birilər hanı?– Oğlan yoxa çıxmış adamları soruşdu.

– Onlar yoxdur, onları axtarma, onlar heç yerdə yoxdur, – deyə Luvr ördəyi cavab verdi.

Kiriski sözlə deyiləsi mümkün olmayan müdhiş bir tənhalıq və sıxıntı hissi çulğaladı. O, buradan ağzı hara düşdü qaçmaq istədi, ancaq qaçılası bir yer yox idi, dörd bir yanını yalnız su, dalğalar bürüyürdü. Luvr ördəyi bir qara nöqtəyə çevrilərək, uzaqlarda gözdən itirdi.

– Luvr ördəyi, məni özünlə apar, məni qoyub getmə! Mən su istəyirəm! – deyə yalvardı.

Lakin o, hay vermədi və bir azdan hələ gözə dəyməyən torpağı axtara-axtara dəniz üzərində gözdən itdi. Gün isə göz qamaşdırırdı.

O, çıxılmaz sıxıntı və vahimənin ağırlığı altında hələ də hıçqıra-hıçqıra, göz yaşları içində oyandı. Ağlamaqdan qızarmış gözlərini yavaş-yavaş açdı, başa düşdü ki, yuxu görürmüş. Qayıq su üzündə rahatca yırğalanırdı.

Başının üstünü, dörd bir yanını get-gedə bozaran duman qaranlığı almışdı. Demək, gecə keçmiş, səhər açılırdı. O qımıldandı.

– Atkıçx, mən su içmək istəyirəm, mən yuxu görürdüm, – deyə mızıldadı, əlini qoca Orqana uzatdı. Əli heç kimə dəymədi. Qayığın dal tərəfində Orqanın yeri boş idi.

– Atkıçx! – Kirisk çağırdı. Heç kim hay vermədi. Oğlan başını qaldırıb, hövlnak-hövlnak: – Atkıçx, atkıçx, hardasan?– dedi.

– Çığırma! – Əmrayin tez onun yanına gəldi. O, oğlunu qucaqlayıb, bərk-bərk sinəsinə sıxdı. – Çığırma, atkıçx yoxdur! Çağırma onu! O, Balıq-qadının yanına getdi.

Lakin Kirisk sözə baxmadı:

– Hanı mənim atkıçxım? Hanı? Hanı mənim atkıçxım?

– Di, qulaq as! Ağlama! Sakit ol, Kirisk, o daha yoxdur, – deyə atası onu dilə tutmağa çalışdı.– Ancaq sən ağlama. O dedi ki, mən sənə su verim. Bizim hələ bir az suyumuz var. Bax, ağlamasan, mən sənə su verərəm. Təki sən ağlamayasan. Bir azdan duman çəkilib gedəcək, onda özün görəcəksən ki...

Kirisk kirimədi, dartınıb, var qüvvəsi ilə atasının əlindən çıxdı. Kəskin hərəkətdən qayıq yellənməyə başladı. Əmrayin bilmirdi neyləsin.

– Bax, indi üzüb gedəcəyik! Bax, indi üzəcəyik! Ehey, Mılğun, qalx, qalx, deyirəm! Getdik.

Mılğun kürəkləri işə saldı. Qayıq suyun üzüylə sakit-sakit şütüyürdü. Yenə də onlar aləmi əvvəlkitək başdan-başa çulğamış donuq dumanda haraya getdiklərini, niyə getdiklərini bilmədən– qarasına üzməyə başladılar.



Yeni günü onlar bu sayaq qarşıladılar. İndi qayıqda üçü qalmışdı.

Göy siçan, su ver!
Göy siçan, su ver!

Sonra, Kirisk bir qədər sakitləşəndə, Əmrayin keçib kürəklərin yanında oturdu və onlar dörd avarla yenə də haraya və niyə getdikləri məlum olmadan, bir az tez-tez üzdülər. Qoca Orqanın yoxa çıxmağından sarsılmış Kirisk isə qayığın dal tərəfində yetim kimi oturaraq, hələ də acı-acı hıçqırırdı. Atası və Mılğun da sarsılmışdılar, nə özlərinə, nə də ona, Kiriskə heç nəylə və heç cür getmək edə bilmirdilər. Bircə onu bacardılar ki, avar çəkməyə girişdilər. Üzürdülər ki, adı üzmək olsun. Ağ duman içində üzləri qapqara görünürdü. Hamısının başı üzərində amansız, ümumi bir fəlakət – yanğı və aclıq fəlakəti asılmışdı.

Onlar susurdular, heç nə barədə danışmırdılar. Danışmağa qorxurdular. Ancaq aradan bir xeyli keçəndən sonra Mılğun kürəyi buraxdı. Əmrayinə pərt-pərt:

– Suyu böl! – dedi.

Əmrayin çəlləkdən parçın dibinə adama bir neçə qurtum su süzdü. Su köhnəlmişdi, iyi gəlirdi, kif təmi verirdi. Elə bunun özü də az qalmışdı. Bundan sonra üç-dörd içimlik ancaq bölmək olardı. Heç kim doyunca içmədi, içdikləri sudan heç kimin halı yaxşı olmadı.

Yenə də məşəqqətli, keyidici intizar anları başladı: görəsən hava dəyişəcək ya yox? Artıq heç kim heç bir ümidverici fikir demirdi. Onlar zəifləmiş, haldan düşmüş, qeyri-ixtiyari laqeyd olmuşdular. Mənfur duman içində qayıqla boş-boşuna dövrə vuraraq, öz aqibətlərini fağır-fağır gözləyirdilər. Yalnız bu qismətlə razılaşmaq qalmışdı. Duman onların iradəsini get-gedə daha artıq sarsıdır, get-gedə lap susdururdu. Yalnız bircə dəfə Mılğun bərk söyüş söyərək, burnunun altında, səsi titrəyə-titrəyə, nifrətlə dedi:

– Təki duman zəhrimar çəkiləydi, mən ölməyə hazıram! Özüm atılaram qayıqdan. Təki gözüm dünyanın o başını görmüş olaydı!

Əmrayin dinmədi, heç qanrılmadı da. Nə deyəcəkdi? İndi o, qarəqda başçı əvəzi idi. Ancaq heç bir başqa təklif verə bilmirdi. Üzüb gediləsi bir yer yox idi!

Vaxt gedirdi. İndi qayıq gah yerində sayır, gah da yenidən hərəkətə gələrək, özbaşına axınla üzürdü

Onların həyatının qorxusu saatbasaat artırdı. Sakitləşməyən yanğının üstünə amansız, məhvedici aclıq gəlirdi. Onların taqəti kəsilirdi.

Kirisk qayığın dal tərəfində gözləri yarıyumulu halda uzanmışdı. Başı ağırlaşmışdı. Hərlənirdi, çətin nəfə alırdı. Boş mədəsi ara vermədən sıxılır, sancırdı. Yamanca su istəyirdi.

Göy siçan, su ver!

İndi oğlan göy *suçu-siçanı* and *verərək çağırır, fikrini* dağıtmağa çalışırdı, indi o, Alabaşın ətəklərində qalmış və indi onunçün əlçatmaz olan, nağıl olan həyat haqqında xatirələrdə nicat axtarırdı.

Onun dodaqları: "Göy siçan, su ver!" – deyə pıçıldayır və başı hərləndiyi üçün, gözünün qabağına yaşıl çəmənli təpəcikdə tir kimi diyirlənərək necə oynadıqları gəlirdi. Ah, nə gülməli, gözəl oyun idi! Kirisk o oyunda hamıdan cəld və dözümlü idi. Dik təpəciyə yüyürüb çıxırsan və onun başından, yamacla üzüaşağı buraxılmış hamar tir kimi, böyrü üstə çevrilə-çevrilə diyirlənirsən. Qollarını bədəninə bərk-bərk sıxmaq lazım gəlir. Yerindən tərpənmək üçün əvvəlcə üzün-üzünə təkan verməli olursan. Bir, iki, üç dəfə çevrildikdən sonra daha özünü saxlaya bilmirsən. Gülməkdən uğunub gedirsən. Göy gah bu yandan, gah o yandan əyilib üstünə gəlir, buludlar fırlanır, gözünə görünüb yox olur, ağaclar fırlanır, yıxılır, hər şey kəlləmayallaq aşır, göydəki Günəş də gülməkdən uğunub gedir. Uşaqların çığırtısı, ciyiltisi ətrafı başına götürür! Tez-tez, daha sürətlə çevrilə-çevrilə üzüaşağı diyirlənir, diyirlənirsən və bu vaxt sənin dalınca diyirlənən uşaqların gah gərilmiş üzləri, gah əyilmiş qılçaları arabir gözünə o qədər qəribə görünür ki! Nəhayət, dayanırsan. Uf! Qulağın küy tutub küyüldəyir! Və bu yerdə ən məsul bir məqam gəlir. Bir, iki, üç! – sayana kimi gərək cəld qalxıb durasan və baş gicəllənməsindən yıxılmayasan. Birinci dəfədə adətən hamı yıxılır. Adama ləzzət verir! Hamı gülür, özün də gülürsən! Ayaq üstə durmaq istəyirsən, ancaq yer ayağının altından qaçır. Amma Kirisk yıxılmırdı, özünü ayaq üstə saxlayırdı. Çalışırdı ki, yıxılmasın. Axı Muzluk daim yanında olurdu. Onun yanında gücsüz bir oğlan kimi yıxılmaq istəmirdi.

Ancaq ən yaxşısı və ən gülməlisi onun təpəcikdən Muzlukla birlikdə ötüşə-ötüşə diyirlənməsi idi. Qızlar da diyirlənə bilirdilər. Fəqət onlar qorxaqdırlar və bəzən olur ki, saçları bir şeyə ilişir. Amma, bu,



kov deyil. Belə şən oyunda bədənində qançır əmələ gəlmədən keçinmək olmurdu.

Onlar birlikdə diyirlənəndə isə Kirisk bilərəkdən dirsəklərini xəlvətcə gərir, ləngiyirdi ki, Muzluku ötüb keçməsin. Kirisk və Muzluk onları əhatə edən uşaqların səs-küyü, qəhqəhələri altında aşağıya kimi eyni vaxtda diyirlənib gəlir, "üç" deyənə kimi eyni vaxtda ayağa qalxır və heç kəs başa düşmürdü ki, Muzluku tutub saxlamaq, ona ayaq üstə durmağa kömək etmək necə xoşdur. Onlar biri-birinə kömək edirmiş kimi, *qeyri-ixtiyari qucaqlaşırdılar.* Muzluk *elə fərəhlə* gülürdü, dodaqları elə təsirli, elə məftunedici olurdu ki... Və özü də Muzluk həmişə elə edirdi ki, Kirisk onu tutub saxlasın. Həmişə özünü elə göstərirdi ki, guya yıxılır. Kirisk isə onu tutaraq, qucaqlayaraq, ayaq üstə durmağa kömək etməlidir. Və onların bu vaxt necə sirli səadət və zərif, ürkək məhəbbət dəqiqələri keçirdiklərini heç kəs başa düşməzdi. Qızın çılğın ürəyi nazik don altından şiddətlə döyünərdi, onların bədənləri ara vermədən biri-birinə dəyər və Kirisk əlinə bapbalaca, hələ indi-indi yumrulanan bərk məmələr toxunduğunu, həm də bu anlarda Muzlukun necə səksəndiyini, tez ona qısıldığını, onun baş gicəllənməsindən məst olmuş gözlərinin nə qədər füsunkar, nə qədər fərəhnak olduğunu sezərdi. Və bütün dünya – yerdə, göydə nə vardısa – hamısı onların bitməz-tükənməz gülüş və səadət dəryasında çimərək, onlarla birlikdə üzər, fırlanardı. Heç kim başa düşməzdi ki, bu nə səadətdir!

Və yalnız bircə dəfə Kiriskin tay-tuşları içərisində ondan bir az böyük olan nifrətamiz və zəhlətökən bir oğlan başa düşdü – guya baş gicəllənməsindən ayaq üstə dura bilməyib Muzlukun üstünə gic kimi yıxılmağa başladı. Muzluk kənara çəkilir, ondan uzaqlaşır, o isə özünü elə göstərirdi ki, guya baş gicəllənməsindən ayaq üstə dura bilmir. Muzluka çatıb, özünü onun üstünə yıxırdı. Kirisk onunla savaşdı. O, Kiriskdən böyük idi və Kiriski bir neçə dəfə vurub yıxdı. Bununla belə axırı heç-heçə çıxdı – Kirisk təslim olmadı və Muzluku savaşa qoşulub, ona kömək etməyə qoymadı. Ancaq bu, bircə dəfə olmuşdu...

Doyunca oynadıqdan sonra qan-tər içində ırmaqdan su içməyə qaçdıqları başqa sevincli anlar da olmuşdu.

Göy siçan, su ver!
Göy siçan, su ver!

İrmaq yaxından axırdı. Meşədən üzübəri, onların oynadıqları yerə çıxırdı. İrmağın suyu özündə meşə toranlığını və meşə sərinliyini saxlayaraq, daşlara dəyə-dəyə şarıltı ilə axardı. Sıx otlar irmağı onun axar yerinə kimi aralığa alardı. Sahilin lap qırağında boy atmış otlar gərilmiş gövdələri ilə ürəkaçan axının gücünə müqavimət göstərərək, suda yuyunardılar. İrmaq gah günün şəfəqləri altında birdən parıldayar, gah dik, yalçın sahillərin altına cumaraq, gah da otluqda və söyüd pöhrəliyində gözdən itərək, qayğısız-qayğısız axıb gedərdi.

Onlar irmağın qırağına birədi qaçar və otları o tərəf-bu tərəfə aralayaraq, suyun üstünə birədi əyilərdilər. Belə yerdə əl yumağa və suyu ovuc-ovuc içməyə vaxt nə gəzir, başlarını suya sallayaraq üzlərini qur-qur edən, şəfqətlə qıdıqlayan suya batırıb, suyu maralsayağı içərdilər. Ah, nə kef idi!

Göy siçan, su ver!
Göy siçan, su ver!
Ah, göy siçan, su ver!

Onlar başlarını suya endirib sahildə uzanardılar. Onların çiyinləri biri-birinə söykənər, sürətlə axan irmağın şırnağına salınmış əlləri elə birləşərdi ki, sanki onların ümumi qoşa əli vardı. Onlar suyu dodaqlarıyla sorar, nəfəs dərə-dərə, ağızlarını ləzzətlə doldurub qurtuldadaqurtulda, şitlik edə-edə içərdilər. Onlar buradan getmək istəməzdilər, endirilmiş başlarının iti axan, tutula bilməyən əkslərini gördükləri büllur irmaqdan ayırıb qaldırmaq istəməzdilər, əyri-üyrü şəkillərinə suda baxıb gülər, biri-birinə baxıb gülərdilər.

Göy siçan, su ver!
Göy siçan, su ver!
Göy siçan, su ver!
Ah, göy siçan, su ver!

Muzluk isə üzünü irmaqdan ayırmadan, badamı gözlərini bic-bic qıyaraq, ona baxardı. Kirisk də ona bu sayaq baxar və bic-bic gülərdi. Muzluk onu, özündən kənar etmək istəyirmiş kimi, çiyni ilə itələyər, o isə təslim olmazdı. Bu vaxt, o, ağzını suyla doldurub, Kiriskin üzünə fışqırdardı. Həmin hərəkəti Kirisk də edərdi: ağzına daha çox su alar və şırnağı var gücüylə Muzlukun üzünə üfürərdi. Sonra da bərk qaçdı-



tutdu başlardı. Onlar heydən düşənəcən biri-birini suda qovar, biri-birinin üstünə su sıçradar, başdan-ayağa islanaraq, irmaqla üzüaşağı-üzüyuxarı qaçardılar...

Göy siçan, su ver!

Bunun bir daha heç vaxt təkrar olmayacağını dərk etmək Kirisk üçün ağır idi. Get-gedə nəfəsi daralır, mədəsi daha kəskin sancılar verirdi. O, həmin göy siçanı ara vermədən çağıraraq için-için ağlayır, ağrıdan sakit-sakit qovrulurdu:

Göy siçan, su ver!

O, xəyala qapılıb, huşa getməyə çalışaraq, beləcə uzanmışdı. Ətrafda heç nə dəyişməmişdi. Dumanın ağ örtüyü hələ də onların başı üzərində sallanıb dururdu. Onlar qayıqda hərəsi öz yerində aciz-aciz sərilib qalmışdılar. Və əvvəlki kimi məlum deyildi qabaqda onları nə gözləyir. Elə bu ara qayıq birdən bərk silkələndi və o, atasının həyəcanlı səsini eşitdi:

– Mılğun! Mılğun! Neyləyirsən? Dayan!

Kirisk başını qaldırdı və mat qaldı. Qayığın böyründən üzüaşağı əyilmiş Mılğun parçla dəniz suyu doldurub içirdi.

Əmrayin onun yanına cumdu, parçı əlindən qoparıb almağa çalışaraq:

– Boşla! – dedi.

Ancaq Mılğun təhdidedici bir vəziyyətdə hazır dayandı:

– Yaxın gəlmə, Saqqal! Öldürrəm!

Ağıza alınası olmayan bu acı-duzlu suyu o üst-başına calayaraq içirdi, su onun sinəsinə, qollarına tökülürdü. O, titrək əlləriylə parçı başına çəkərək, özünü məcbur edərək, boğula-boğula içirdi. Onun üzü heyvani şəkil aldı, dişləri ağardı.

Sonra o, parçı qayığın dibinə tulladı və xırıldaya-xırıldaya, tövşüyə-tövşüyə arxası üstə yıxıldı. O, beləcə uzanıb qaldı, ona heç nəylə kömək etmək mümkün deyildi. Kirisk qorxudan daha bərk yanğı və qarnında kəskin sancılar keçirərək, yumaq kimi büküldü. Gücdən düşmüş Əmrayin isə yenidən avarlardan yapışdı və qayığı duman içində yavaş-yavaş qarasına, hayana gəldi sürməyə başladı. O, başqa heç bir şey edə bilmirdi.

Mılğun gah kiriyir, gah da yenidən əsəbi halda səksənir, xırıldayır, ürək yanğısından həlak olurdu. Ancaq bir neçə vaxtdan sonra o, başını qaldırdı:

– Yanır, içim yanır! – deyib, köynəyinin yaxasını cırmağa başladı.

– Di, de görüm neyləyim? Sənə necə kömək edim? Orda hələ var, – deyə Əmrayin çəlləyi göstərdi. – Bir az töküm?

– Yox, – Mılğun imtina elədi. – İndi daha yox. İstəyirdim özümü birtəhər gecəyə çatdırım, sonra isə – bizim rəhmətlik atkıçxın yoluyla gedim, ancaq çatdıra bilmədim. Neynək, qoy belə olsun. Yoxsa başqa bir şey edə bilərdim. Bütün suyu içə bilərdim. İndi isə mənim axırım çatıb və mən gedəcəyəm. İndi mənim axırım çatıb... Mən özüm gedəcəyəm, hələ qüvvəm var...

Xəlvət dənizin ortasında, ucu-bucağı olmayan duman içində özünü tədricən ölümə məhkum edən adama qulaq asmaq dəhşətli və dözülməz idi. Əmrayin öz dostu və qardaşı Mılğunu birtəhər sakit eləmək, ona nə isə demək istədi, ancaq o, qulaq asmaq istəmədi, o tələsirdi. O öz məşəqqətlərini biryolluq qurtarmağı qət etmişdi.

– Sən mənə heç nə demə, Əmrayin, artıq gecdir! – Mılğun dəli kimi donquldandı. – Mən özüm... Mən özüm gedəcəyəm. Siz isə ata-bala özünüz həll eləyin. Belə yaxşı olar. Belə olduğuna görə siz məni bağışlayın. Siz, ata-oğul, siz qalın, hələ bir az su var... Mən isə bu saat aşacağam. – Və Mılğun bu sözləri deyərək, qayığın böyründən yapışdı, azca əyilərək qalxdı. Mılğun səndirləyərək, bütün gücünü toplayıb Əmrayinə acıqlı-acıqlı baxdı: – Sən mənə mane olma, Saqqal! – dedi. – Belə lazımdır. Sən mənə mane olma. Əlvida! Bəlkə özünüzü çatdıra bildiniz. Mən bu saat... sən isə dərhal aralan, kənara sür, get... Dərhal, gözləmə də... Əgər yaxın gəlmiş olsan, çevirrəm. İndi isə kürəklə. Eşidirsən, çevirrəm...

Mılğunun təhdid və yalvarışlarına tabe olmaqdan başqa Əmrayinin ayrı çarəsi qalmadı. Qayıq ölgün dumanı və sakit suları yararaq, baş alıb getdi. Kirisk yanıqlı-yanğılı:

– Aki-Mılğun! Aki-Mılğun! Eləmə! – deyə ağladı. Məhz bu an Mılğun qayığın üstündən qətiyyətlə aşdı. Qayıq bərk yana əyildi və yenidən düzəldi. Mılğun buz kimi soyuq suda çapalaya-çapalaya çığırdı:

– Kənara! Kənara üzün!

Duman dərhal onu gözdən itirdi. Ara sakitləşdi. Sonra, cibin vızıltısı eşidilə bilən sükunətdə, bir daha səs gəldi – batan adamın son qışqırığı. Bu məqamda Əmrayin özünü saxlaya bilmədi.



– Mılğun! Mılğun!– deyə hay verdi və zar-zar ağlayaraq, qayığı geri döndərdi.

Onlar tez geri qayıtdılar. Mılğun isə artıq yox idi. Suyun səthi boş və sakitdi, elə bil heç nə olmamışdı. Və adam batan yeri müəyyən etmək daha çətin idi.

Günün bütün qalan hissəsini onlar heç yana getməyib, buradaca hərləndilər. Düşkünləşmiş, qəm dəryasına qərq olmuş ata-bala biri-birinə qoşulub ağlayırdı. Kirisk atasının ağladığını ömründə birinci dəfəydi görürdü. Bu çağa qədər heç vaxt atası belə vəziyyətə düşməmişdi.

Əmrayin saqqalına axmış göz yaşını silərək burnunun altında:

– Hə, indi biz tək qaldıq, – dedi və özünü heç cür toxtada bilmədi. İçini çəkə-çəkə: – Mılğun, mənim vəfalı Mılğunum, – deyə pıçıldadı...

Gün artıq sona yetirdi. Adama belə gəlirdi. Əgər harda isə Günəş vardısa da, əgər o, səmada dənizlər üzərində, dumanlar üzərində gəzirdisə də, yəqin ki, yavaş-yavaş qürub edirdi. Burada, axşam toranını tədricən canına hopduraraq qaralan dumanın sıx örtüyü altında isə, indi içində yalnız iki adam – ata və oğul qalmış, itkin düşmüş tənha qayıq dənizdə dövrə vururdu.

Bundan əvvəl, necə deyərlər, axşam düşməmiş, Əmrayin, nəhayət, qət etdi ki, su içmək vaxtı çatıb. O, Kiriskin bu anı necə məşəqqətlə gözlədiyini görür və başa düşürdü ki, nəfsini öldürüb, bütün günü cınqırını da çıxarmadan yanğı və aclığa dözmək oğlu üçün nəyin bahasına mümkün olub. Mılğunun həlak olması su fikrini, necə olsa, bir xeyli vaxta unutdurmuşdu. Ancaq yanğı yavaş-yavaş öz işini görmüş və əzab-əziyyətə qeyri-ixtiyari verilmiş möhlətin əvəzini amansızcasına çıxaraq, indi ikiqat artıq qüvvə ilə şiddət edirdi.

Bir damcını da hədər yerə tökməmək üçün o, qaxsımış sudan müstəsna bir ehtiyatla əvvəlcə Kiriski süzdü. Oğlan parçı dəli kimi qamarladı və öz su payını dərhal içəri ötürdü. Sonra Əmrayin, suyun əslində çəllək dibində lap bir az qaldığını görüb, özü üçün tökdü. Atasının əlində çəlləyin əyilməsinə görə, bunu – suyun lap az qaldığını – Kirisk də başa düşdü. Elə belə də olacağını əvvəldən təxmin etmiş olsa da, bundan sarsılmış Əmrayin meyit kimi ağardı. İndi Əmrayin öz suyunu içməyə daha tələsmirdi. Birdən ağlına gəlmiş, başlanması ilə susuzluğunun söndürülməsinin artıq heç bir mənası olmayacaq bir fikirdən sarsılmış Əmrayin parçı əlində dalğın-dalğın saxlamışdı.

– Al, tut, – deyə o, bunu eləmək lazım deyildisə də, parçı oğluna verdi. Bu – içində su olan parçı əldə saxlayıb içməyə cürət etməmək – oğlan üçün əzaba bərabər bir şey idi. Əmrayin tıxacı kip-kip tıxadı və demək olar ki, dibinəcən boşalmış çəlləyi öz yerinə pozdu.

– İç,– deyə oğluna təklif elədi.

– Bəs sən?– Kirisk təəccübləndi.

Ata təmkinlə:

– Mən sonra. Sən heç nə fikirləşmə, iç,– dedi.

Kirisk qaxsımış bu su payını da fövrən başına çəkdi.

Yanğısı onun istəyincə yatmadı, ancaq necə olsa da, balaca bir yüngüllük duydu.

Atası:

– Hə, necədir? – soruşdu.

Oğlan razılıqla:

– Bir qədər yaxşı oldum,– deyə pıçıldadı.

– Sən qorxub-eləmə. Və yadında saxla ki, adam, hətta, ağzına bir damcı su almadan iki-üç gün yaşaya bilər. Və hər nə olur-olsun, heç nədən qorxma...

– Sən buna görə içmədin?– Kirisk onun sözünü kəsdi.

Bu sualla qəfildən tutulmuş Əmrayin özünü itirdi. Bir qədər fikirləşdikdən sonra müxtəsəri:

– Hə, – dedi.

– Bəs yeməksiz necə? Biz çoxdandır bir şey yemirik.

– Təki su olsun. Ancaq sən bu barədə fikir eləmə. Yaxşısı budur, gəl bir qədər üzək. Səninlə bir az söhbət eləmək istəyirəm.

Əmrayin avarları cırıldatdı və onlar olduqları yerdə söhbət edə bilmirlərmiş kimi, dənizdə duman içində ağır-ağır getdilər. Ata özünü ələ almalı idi. Ona elə gəlirdi ki, beləliklə fikrini cəmləşdirmək asan olar, haqqında fikirləşməyin özündən belə adamın canına üşütmə düşən söhbətə hazırlaşmaq asan olar. Nəinki özü kürəkləyirdi, oğlunu da avarlar arxasında otuzdurdu. Hara isə üzməyə lüzum olmadığı kimi, buna da heç bir lüzum yox idi. Oğlan onunçün həddən artıq böyük olan dəniz avarlarını çətinliklə hərlədirdi. Birinin öhdəsindən yenə birtəhər gələ bilərdi, ancaq qoşa avar üçün o, hələ yetişməmişdi. həm də hiss olunurdu ki, onun özü saatbasaat zəiflədiyi kimi, oğlan da xeyli zəifləyir hadisələri tezləşdirməyə atanı vadar edən də elə bu idi. Vaxt gedir, vaxt keçirdi.



Kirisk ağır avarları necə gəldi hərlədərək susur, heç yana baxmırdı. Əmrayinə isə əzab verən bu deyildi. O, oğluna, bu belibükük, indicə hiss etdiyi kimi hələ uşaq təkin cansız, çəlimsiz tifilə arxadan baxaraq dodaqlarını çeynəyirdi, ürəyindən qara qanlar axırdı. Lakin söhbət açmağa ürək eləmirdi.

Hərçənd ki, daha başqa bir çıxış yolu yox idi...

Duman altında biri-birini görmək yavaş-yavaş çətinləşirdi. Amma Əmrayin hələ də ağır düşüncələr qoynunda üzür, vaxta isə doğrudan da az qalırdı. Nə qədər özünü saxlasa da, təbiətən nə qədər güclü olsa da, yanğın və aclıq şiddətlə öz işini görür, hücum çəkib üstün gəlir, onun gücünü, qüvvəsini əlindən alırdı. Oğlunu həmin saatda fikirləşdiyi şeyə hazırlamaq lazımdı. Nə qədər ki, özünü saxlamağa və əzm göstərməyə qadir idi– bunu eləmək lazım idi.

O başa düşürdü ki, Orqandan və Mılğundan sonra o da qayığı tərk etməli olacaqdır. Başa düşürdü ki, oğlunun həyatını həmişəlik mühafizə etmək üçün olmasa da, barı çəlləyin dibində qalmış o bir azca su qədərincə uzatmaq üçün bu, yeganə imkandır. O deyə bilməzdi ki, duman bu gecə, yaxud ertəsi günü dağılacaq və əsla deyə bilməzdi ki, hətta hava gec-tez yaxşılaşsa da, qabaqda oğlunu nə gözləyir, dənizdə tək qalmış oğlu xilas ola bilər ya yox? Bu suallara bir cavab yox idi. Özü-özünü inandırmağa çalışdığı, gümana gəlməyən, bəlkə də heç mümkün olmayan yeganə ümid ona idi ki, əgər dənizin üzü açılmış olarsa, bəlkə, ağ adamların böyük qayığı təsadüfən rast gələ bilər. Eşitdiyinə görə bilirdi ki, bu sularda bəzən ar adamlar peyda olurlar – uzaq okeanlarda üzürlər. – Özlərinin hansı işlərindən ötrü isə hansı uzaq ölkələrdənsə gəlir, hansı uzaq ölkələrə isə gedirlər. Özü heç vaxt onlara rast gəlməmişdi, ancaq dünyada hər şeyi bilən tacirlər bu barədə danışmışdılar, onlardan bəziləri isə guya özləri ac adamların dar kimi o nəhəng qayıqlarında üzmüşdülər də yalnız belə bir möcüzə – əgər hava açılsa, əgər yollar tuş olsa, əgər ağ adamlar okeanda bu balaca oyulmuş kayakı görmüş olsalar–yalnız bu, bir ümid işartısı ola bilərdi, cılız, ağlasığmaz, demək olar ki, qeyri-mümkün, ancaq hər necə olsa da, bir ümid işartısı ola bilərdi.

Əmrayin oğlunu tərk etməzdən qabaq ona məhz bu barədə danışmaq istəyirdi. Bir də Kiriski inandırmaq, ona ciddi-ciddi tapşırmaq lazımdı ki, son nəfəsinə kimi nə qədər huşu başındadır, qayıqda qalsın. Əgər o, su qurtarandan sonra ölməli olsa da, qayıqda ölməlidir, daha

özlərini dənizə atmalı olmuş qoca Orqan, Mılğun və onların yoluyla gedəcək atası kimi hərəkət etməməli, özünü dənizə atmamalıdır. Ayrı heç bir çıxış yolu yox idi. Taleyin amansızlığına boyun əzmək, qatlaşmaq lazımdı... Lakin fikirləşəndə ki, on bir yaşlı oğlan ucsuz-bucaqsız dənizin ortasında, qatı, məşum duman içində, yanğı və aclıq əlində qayıqda can verə-verə bütün aləmlə mübarizədə təkbətək qalacaq, Əmrayini dəhşət bürüyürdü. Buna dözmək mümkün deyildi, bu güc çatmaz idi. Və bu yerdə fikrindən keçdi ki, o, oğlunu tək qoya bilməyəcək, onunla bir yerdə ölmək daha yaxşıdır...

Bir azdan hava lap qaraldı. Dumanlı gecənin zülmət qaranlığı dənizdə yenə də hökm sürməyə başladı. Əgər duman arasında gündüz bir yana üzmək mənasızdısa, gecə üzmək daha çox mənasızdı. Qayıq yerindəcə yavaşca-yavaşca yırğalanırdı. Havanın dəyişəcəyindən yenə də heç bir əsər-əlamət yox idi. Dəniz nəfəs almadan, ölü kimi tərpənmədən dururdu.

Ata və oğul gecəni qayığın dibində özlərinə yer edərək, biri-birinə bərk-bərk qısılıb qaldılar. Nə o yatdı, nə o biri. Susuzluq və aclıq əlində əzab çəkən ata da, oğul da fikirləşirdi ki, görəsən qabaqda onları nə gözləyir...

Atasının yanında uzanarkən Kirisk bütün cisimlə hiss elədi ki, atası bu günlər ərzində çox arıqlayıb, əməlli-başlı üzülüb, bədəni yamanca kiçilib, o ki var zəifləyibdir. Bircə saqqalı necə vardısa, eləcə də qalıb – cod və möhkəm. Atasına qısılaraq, ona mərhəmətdən doğan göz yaşlarını xəfif-xəfif udaraq, oğlan həmin gecə, əvvəllər ona məlum olmayan ilkin oğul məhəbbəti hisslərini dərk elədi. O, bu hissləri sözlə ifadə edə bilməzdi – bu hisslər onun canında, qanında, qəlbinin döyüntülərində idi. Əvvəllər o, həmişə fəxr edərdi ki, atasına oxşayır, onu təqlid edər və atası kimi olmağı arzulayaydı, indi isə o, başa düşürdü ki, atası – elə onun özüdür, elə onun başlanğıcıdır, o isə atasının davamıdır. Buna görə də atasına öz canına yazığı gəldiyi kimi acıyır, yazığı gəlirdi. O, siçana ürəkdən and-aman elədi ki, onlara – həm ona, həm atasına su içirsin:

Göy siçan, bizə su ver!
Göy siçan, bizə su ver!

Ancaq ata artıq özü üçün bu barədə fikirləşmirdi. Hərçənd ki, yanğısı sönməyən, getdikcə şiddətlənən, artıq cismən dözülməz olan



susuzluğun əzablarını get-gedə daha ağır keçirirdi. Dil-dodağı qupquru quruyurdu, içi od tutub yanır, güclü, kəsməyən sancılar verirdi. Beyni uğuldayırdı. İndi o, Mılğunun son iztirablarını başa düşürdü. Lakin onun dərdi su dərdi deyildi. Su barədə düşünmək, doyunca su içməyi arzulamaq indi onunçün artıq mənasızdı. Və əgər oğlunun dərdi olmasaydı, əgər bu qaranlıq, sonuncu gecədə onun böyrünə qısılmış oğlundan ayrılmağa özünü məcbur edə bilsəydi, o, bu çəkilməz əzablara çoxdan son qoymuş olardı. Heç bir xilas ümidi olmasa da, buna baxmayaraq, yenə də ən axırıncı imkana kimi qoruduğu oğlunun xətrinə, onun ömrünü az-çox uzatmaq naminə – atanın qeyri-ixtiyari mübarizə və ümidi indi bundan ibarətdir, o, özünün son iradə və əzmini bunda görürdü – bütün bunların xətrinə o, qayığı mümkün qədər tez tərk etməli idi. Lakin məhz ona, oğluna görə onu taleyin əlində başlı-başına qoyub getməyə cürət etməyərək, bir qərara gələ bilmirdi. Ancaq ləngitmək, uzatmaq da getdikcə təhlükəli olurdu – cəsarət üçün olan-olmaz lazımi gücü tərk eləyib gedirdi... Atanın yaşamaq vaxtı bitirdi

Bunu oğluna necə, hansı sözlərlə başa salaydı? Ona necə deyəydi ki, onu məhz onun xətrinə tərk edəcək?

Atanın yaşamaq vaxtı bitirdi...

Kirisk, onun ürəyindən keçənləri duyurmuş kimi, birdən pıçıltı ilə:

– Ata! – dedi və atasına daha bərk qısılaraq, öz göy siçanına and-aman elədi:

Göy siçan, bizə su ver!
Göy siçan, bizə su ver!

Əmrayin dişlərini biri-birinə sıxaraq, dərdli-dərdli inildədi və heç bir söz demədi. O, oğluyla fikrən vidalaşırdı. Özü də bu vidalaşma nə qədər uzanırdısa, axırıncı addımı atmaq da bir o qədər ağır və əzablı olurdu. Bu gecə başa düşdü ki, ötüb keçən həyatı, sən demə, onun indiki gecəsinin sələfi imiş. O bununçün doğulubmuş və bununçün ölürdü ki, öz ömrünü var gücüylə oğlunun ömründə uzatsın. O, oğlundan sükutla ayrılaraq, həmin anda bu barədə düşünürdü. Əmrayin özüyçün bir kəşf eləmişdə – o, həmişə öz ömrünü axır nəfəsə kimi oğlunun ömrünə calamaq istəyən, ömrünü oğlunun ömründə uzatmaq istəyən adam olub. Və əgər o əvvəllər bu barədə fikirləşməyibsə, yalnız ona görə fikirləşməyib ki, bununçün bir səbəb olmayıb.

Bu an o yadına saldı ki, əvvəllər də şüurunda bu fikrin şimşək kimi çaxıb keçdiyi hallar olub. O, rəhmətlik Mılğunla və digər həmtayfaları ilə bir dəfə meşədə böyük bir ağacı kəsdikləri zaman başlarına gəlmiş əhvalatı indi yada salıb dərk elədi. Ağac yıxılmağa başlamışdı, o isə həmin anda təsadüfən nəhəng ağacın öz ətrafındakı bütün ağacları qıra-qıra yıxıldığı səmtdə durmuşdu. Hamı səs-səsə verərək qışqırmışdı:

– Kənara çəkil!

Əmrayin gözlənilməz hadisədən yerindəcə quruyub qalmışdı və artıq gec idi: ağac qırılan çətri ilə gurultu, çatırtı salaraq, yuxarıda yaşıl meşə tavanında bir parça qoparmaqla göyün özünü aşırıb, ağır-ağır və amansızcasına onun üstünə gəlirdi. Və həmin anda o, yalnız bir şey barədə fikirləşmişdi ki, Kirisk – və vaxt o, hələ balaca və yeganə uşaq idi, Psulk hələ doğulmamışdı, – o vaxt, o bir neçə saniyədə labüd ölüm astanasında başqa heç bir şey barədə fikirləşməyə macal tapmamışdı, yalnız bu barədə fikirləşmişdi ki, oğlu – ondan sonra o olacaq varlıqdır. Ağac onu yarpaqların və tozun dalğasıyla vuraraq, lap yaxında yıxmışdı. Hamı rahat nəfəs alıb, sevincək-sevincək qışqırmışdı. Əmrayin sağ qalmışdı, sağ-salamatdı Əmrayin!

İndi o, həmin hadisəni xatırlayaraq dərk etdi ki, onu indi olduğu həddə məhz oğlunun meydana gəlməsi yetirib və dərk etdi ki, ömründə atalıq hisslərindən başqa heç bir üstün və güclü hiss keçirməmişdir. Bundan ötrü o, uşaqlarına və ilk növbədə oğluna, Kiriskə minnətdar idi. Əmrayin Kiriskə bu barədə danışmaq istəyirdi, lakin onu həyəcanlandırmaqdan vaz keçdi. Onsuz da oğlanın halı pis idi...

Atanın yaşamaq vaxtı bitirdi...

Göy siçan, bizə su ver!
Göy siçan, bizə su ver!

Atanın yaşamaq vaxtı bitirdi...

Onunçün ayrılmağın çətin olduğu daha iki-üç əziz xatirə qalmışdı. Və o, vaxt tələsdirsə də, oraya, o xatirələr barədə fikirləşmədən getmək istəmirdi. İndi o, qayığı tərk etmək vədəsi olduğunu unutmayaraq, xatirələrlə vidalaşırdı.

O, arvadını ilk günlərdən sevirdi. Orası qəribə idi ki, o, dənizdə olarkən, sən demə, arvadının evdə fikirləşdiyi eyni şey barədə düşünərmiş. İlk günlərdən beləydi. O, arvadının evdə nə barədə fikirləşdiyini bildiyi kimi, arvadı da onun dənizdə olarkən nə barədə düşündüyünü



bilirdi... Uzaq məsafədən biri-birindən bu cür xəbərtutma onların sirri və heç kimə bəlli olmayan yaxınlıq səadəti idi.

Kiriskin hələ anadan olmadığı, lakin doğru da, yalan da çıxa biləcək ilk əlamətlərin göründüyü vaxt o, evə gələn kimi arvadına:

– Bizim oğlumuz olacaq! – dedi.

– Sakit, kinlər eşidərlər! – deyə arvadı bərk ürkdü, gözləri sevinclə doldu: – Hardan bilirsən? – soruşdu.

– Sən bu gün bu barədə fikirləşirdin. Sən bunu çox istəyirsən.

– Bəs sən?

– Sən ki, mənim nə fikirləşdiyimi bilirsən, sən nə barədə fikirləşmisənsə, mən də o barədə fikirləşmişəm.

– Mən isə ona görə fikirləşmişəm ki, sən bu barədə fikirləşibsən və çox istəyibsən bunu...

Belə də oldu. Onların ürəklərinə gələn şey başlarına gəldi. Kirisk hələ yox idi, ancaq o, tezliklə olmalı idi. Və həmin müddət tədricən yaxınlaşırdı. O günlərdə arvadı onun rəngi getmiş, yamaqlı, köhnə dəri şalvarında gəzirdi. Ona izah edib deyirdi ki, bu, onunçündür ki, o, ova gedəndə kişilik ruhu gərək onun yanında olsun, yoxsa dünyaya gəlməli olan uşaq bətndə pis inkişaf edər. Həmin günlərdə arvadı onun köhnə dəri şalvarında hamıdan göyçək və istəkli idi, hamıdan göyçək və istəkli.

O fərəhli, gözəl və həyəcanlı günlərdə onlar o barədə düşünürdülər ki, onları kim ata və ana etməli olacaq.

O... Kirisk oldu...

İndi onunla və onunla bağlı hər şeylə əbədi ayrılmalı olacaqdı. Bir şey də yadına düşdü. Kiriskin artıq böyüdüyü vaxtlarda, ona hirslənmiş anası bir dəfə demişdi ki, Kirisk olmayanda onun günü onsuz qat-qat yaxşı idi.

Bu, oğlanın yaman könlünə dəymişdi. Atası dənizdən qayıtdıqda:

– Mən olmayanda bəs mən harda olmuşam? – deyə əl çəkməmişdi.

Yaman gülməliydi... Onlar, ər-arvad, sakit-sakit, yalnız gözləriylə gülürdülər. Anaya ələlxüsus o ləzzət verirdi ki, ata heç cür cavab tapa bilmir və bilmirdi neyləsin, oğlanı necə başa salsın ki, o, həyatda olmayanda, harda imiş.

İndi atası ona deyərdi ki, o, dünyada olmayanda, onun içində idi, onun qanında idi, onun belində idi, oradan anasının bətninə axıb

keçmiş və onu təkrar edərək yaranmışdır və indi özü yox olub gedəndən sonra o, oğlunun cismində qalacaq ki, onun uşaqlarının uşaqlarında təkrar olunsun...

Hə, ona beləcə də deyərdi və ölümqabağı məhz belə dediyinə görə bəxtəvər olardı, lakin indi hər şeyin axırı çatırdı. Onun nəslinin axırı çatırdı. Kiriskin həyatı ən çoxu daha bir-iki gün davam edə bilərdi, çox yox, ata bunu yaxşı başa düşürdü. Və onunçün barışmaz fəlakət və bədbəxtlik də elə bunda idi, daha oğlunun xətrinə qayığı tərk etməli *olacağında yox...*

Və bir də Əmrayin axır-axırda oğluna hiss etdirmək istəyirdi ki, o, ömrünün qalan vaxtında qoca Orqan və aki Mılğun haqqında minnətdarlıqla düşünsün. Bu adamlar artıq yoxdular, onları kimin xatırladığının, ya xatırlamadığının onlar üçün fərqi yoxdu, ancaq belə fikirləşmək onun özüyçün lazımdı. Hətta ölümqabağı anda bu barədə özüycün fikirləşməsi lazımdı. Bu cür adamlar haqqında özünçün fikirləşə-fikirləşə ölmək lazımdır.

Ancaq sonra belə qərara gəldi ki, bu barədə fikirləşməyi, ola bilsin, oğlu özü başa düşər...

* * *

Kirisk oyananda təəccübləndi ki, bu gecə yeri əvvəlki gecələrdəkindən isti olub. Onun üstü atasının gödəkçəsiylə örtülmüşdü. Oğlan gözünü açdı, başını qaldırdı – atası qayıqda yox idi. O, birdən sıçrayaraq, qayığı eşələyib-axtardı, dumanlı dənizin səssiz-səmirsiz ənginliyini qəm dəryasına qərq edən tükürpərdici fəryad qopardı. Onun tənha, tam ümidsizlik və qəm dolu fəryadı uzun zaman kəsmədi. O, dəhşətlə, haldan düşənə kimi ağladı, sonra qayığın dibinə yıxılıb, xırıldamağa, başını döyməyə başladı. Bu, belindən gəldiyi ata-sına, ata və babalara onun mükafatı, onun məhəbbəti, onlardan ötrü yaşı və oxşaması idi...

Oğlan qayığın dibində başını qaldırmadan, gözünü açmadan uzanmışdı. Onun baxacağı, gedəcəyi bir yer yox idi. Bütün ətraf yenə də ağımtıl dumanla döşənmişdi, ancaq bu dəfə dəniz mütərəddid surətdə tərpənərək, qayığı yerində bir balaca yırğalayır və fırladırdı.

Kirisk xiffət eləyib ağlayır, özünü bunda qınayırdı ki, yuxuya gedib: o, əgər yuxulamasaydı, atasını heç vaxt və nə olur-olsun



buraxmazdı, onu əlləriylə, dişləriylə tutub buraxmazdı, kaş onlar bir yerdə həlak olaydılar, kaş aclıq və susuzluqdan tez öləydilər, ancaq tam və dəhşətli tənhalıqda qalmayaydı. Ağlayıb özünü söyür, məzəmmətləyirdi ki, gecə qayığın birdən güclü təkandan bərk dartılıb yırğalandığını hiss eləyəndə oyanmayıb, cəld durmayıb, qışqırmayıb. Məgər qoyardımı atası özünü dənizə atsın? Məgər o, bu qara girdaba onunla birlikdə atılmazdımı?

Sonra o, ağlayıb süst düşərək, yavaş-yavaş huşa getdi. Və bir *müddətdən sonra yanğı, dərd önündə geri çəkildiyinin əvəzini çıxır*mış kimi, yeni qüvvə ilə güc gəlməyə başladı. O, susuzluqdan necə inləyib əzab çəkdiyini, hətta, yuxuda da hiss eləyirdi. Yanğı onu boğurdu. Bu vaxt o, çəlləyin yanına, demək olar ki, kor-korana süründü və müəyyən etdi ki, çıxartmaq asan olsun deyə, tıxac bir az boşaldılıb, parç da lap yaxında idi. O, özünə su tökdü və heç nə haqda fikirləşmədən içdi, bununla da biri-birinə yapışmış dodaqlarını araladı, qıclaşan boğazının yolunu açdı. İstədi ki, bir də töksün, bir də içsin, lakin fikrini dəyişdi, özünü saxlaya bildi. Daha iki içimlik su qalmışdı...

Sonra o, məyus-məyus oturmuşdu, fikirləşirdi ki, atası nə üçün heç nə demədən gedib. Axı ona atasıyla birlikdə batmaq əl-qolunu tənhalığın və vahimənin bağladığı, qayığın üstündən aşmağa qorxduğu indiki anda batmaqdan asan olardı. O qət elədi ki, gücünü toplayan kimi bunu edəcək...

Artıq günorta olmuşdu, bəlkə də gün günorta yerindən bir qədər əyilmişdi. Dumanın aydınlaşmasına görə Kiriskə belə görünürdü. Deməli, gün hardasa, göyün zirvəsində idi. Ancaq günəş şüaları ümman üzərində nə vaxtdan bəri donub qalmış böyük dumanın qalın laylarından hələ keçməyirdi. Duman seyrəkləşir, quru odun tüstüsü kimi göyə çalırdı, bununla belə iyirmi-otuz addımlıqdan o yana ətrafda ləpələnən tutqun sulardan başqa heç nə görünmürdü.

Gedilәsi bir yer yox idi, o, indi avarlarla heç bacarmazdı da. O, səliqə ilə qayığın kənarına qoyulmuş atasının və Mılğunun avarlarına qüssə ilə baxdı. İndi qayıq duman içində naməlum istiqamətdə gedərək, axınla özbaşına üzürdü. Və getdikcə də oğlan hər tərəfdən tənhalıq məngənəsinə alınır, hər tərəfdə adamın ürəyini çəkən dərin bir vahimə hökm sürürdü.

Bir az sonra, axşama yaxın o, yenə də bərk su istədi. Aclıqdan və zəiflikdən başı üstündə durmurdu. O, nə tərpənmək, nə də ətrafa

baxmaq istəyirdi. Baxılası bir yer, bir şey də yox idi, hətta əlini çəlləyə yetirmək də çətin olmuşdu. O, dizin-dizin süründü, ancaq yorğunluqdan yarıyolda dayandı.

Kirisk başa düşürdü ki, bir azdan heç qımıldana da bilməyəcək. O, əlini üzünə apardı və dəhşətə gəldi: onun əli qurumuş burunduq dərisi kimi yuxalmış, balacalaşmışdı.

Bu dəfə o, lazım olduğundan çox içdi. İndi su çəlləyin lap dibində, bircə içimlik qalmışdı və gələn dəfə qurtaracaqdı. Bir damcı da su qalmayacaqdı. Ancaq indi onunçun hamısı birdir. Onsuz da içmək, doymaq bilmədən içmək istəyirdi. Aclığın şiddəti kütləşmişdi, mədəsində azalmayan ağır, sızıltılı bir ağrı vardı.

O, bir neçə dəfə özündən getdi, sonra yenidən özünə gəldi. Canlanmış axınlara qoşulan qayıq isə duman içində özbaşına üzüb gedirdi.

Elə bir an oldu ki, o, gerçəkdən özünü dənizə atmaq istədi. Ancaq gücü çatmadı. Dizi üstə qalxaraq, kənarından sallana-sallana qaldı, qollarını qayığın böyründən salladı, ancaq bədənini qayıqdan çıxardıb atmağa gücü çatmadı, beləcə asılıb qaldı. Sonra o, elə zəiflədi ki, çəlləkdə qalmış suyun yerdibini axıracan içməyə heç səy də göstərmədi.

O, qayığın dibində uzanaraq, öz suçu-siçanını köməyə çağırırdı:

Göy siçan, mənə su ver!

Lakin göy siçan gəlib çıxmırdı və o, daha çox su içmək istəyirdi. Çayda çılpaq çimdiyi yay günləri yenə də onun yadına düşdü. Axı o vaxt onun çox yox, cəmi yeddi yaşı vardı. O il yay isti keçirdi. Meşənin kənarında gün yaman yandırırdı. Onlar orda giləmeyvə yığardılar. Sonra da çimərdilər. Anası və xalası da çimərdilər. Onlar ondan o qədər də həya etməzdilər. İkisi də soyunub əsmər budlarını arabir parıldadaraq, əllərini döşlərinin üstünə sıxaraq, qorxa-qorxa irmağa girərdilər. Və suya şappıltı ilə dəyərək əcaib-əcaib qışqırışar, ciyildəyərdilər. O, irmaq boyunca qaçıb sahildən suya tullananda isə onlar onu əldən düşənə qədər oynadardılar, illah da ki, anası. O, bacısına: "Bir bax, bir bax, – deyərdi, – gör necə oxşayır ona, elə bil özüdür!" Onlar xısın-xısın pıçıldaşaraq, daha nə barədə isə danışar, qızğın-qızğın gülərdilər... İrmağın suyu isə tükənməz bir axınla axardı, onu həm doyunca içmək olurdu, həm də onda istədiyin qədər çimə bilirdin...





Xəyalına gəlirdi ki, o, yenə də həmin irmağın yanındadır. Və elə bil yenə qızmar yay günündə lüm-lüt çimir. Budur o, sahillə qaçır, irmağa tullanır, lakin suyun sərinliyini hiss eləmir. İrmaq ona gah ələkeçməz, qeyri-maddi su kimi, gah da duman kimi görünür. O, dumanda çimir. O, belə suda üşürgələnmir. Amma anası gülmür, əksinə, ağlayır. O, kimə isə: "Bir bax, bir bax, gör ona necə oxşayır!"– deyir və acı-acı ağlayıb-sıtqayır... Onun göz yaşları şordur, göz yaşları yanaqlarından sel kimi tökülür...

* * *

Gecə Kirisk qayığın yırğalanmasından və dalğaların səsinə oyandı. Oğlan hövlnak qışqırdı – o, başı üzərində ulduzlar görmüşdü! Bütün bu günlər ərzində birinci dəfə, Onlar çox hündürdə, qaranlıq səmanın dərinliklərində, dəniz üzərindən keçən qara buludların aralarından parıldayırdılar. Hətta Ay da bulud arxasında tez-tez gizlənərək, bir neçə dəfə görsəndi.

Oğlan heyrətdən sarsılıb qalmışdı: ulduzlar, ay, külək, dalğalar – bütün bunlar həyatdı, hərəkətdi! Duman hələ kom-kom yığılmış halda müqavimət göstərib dururdusa da və qayıq belə yerlərə düşəndə hər şey yenidən tutqun qaranlığa qərq olurdusa da, bu, uzun sürməyirdi. Küləyin və dalğaların təqib etdiyi Böyük duman tərpənmiş, hərəkətə gəlmişdi, donuq vəziyyətdən çıxmışdı, köçünü çəkib gedirdi.

Oğlan göz yaşları içində ulduzlara baxırdı. Onun avarlardan yapışmağa taqəti yox idi, o bilmirdi ulduzların köməyi ilə yolu necə tapsın, bilmirdi haraya üzsün, bilmirdi ki, hardadır, qarşıda onu nə gözləyir və buna baxmayaraq sevinirdi ki, biri-birinin ardınca tələsən dalğaların səsini eşidir, sevinirdi ki, külək qalxıb, sevinirdi ki, qayıq dalğaların üstüylə üzür.

O, sevincdən, kədərdən ağlayırdı, onunçün ki, dünya aydınlaşmışdı, onunçün ki, dəniz hərəkətə gəlmişdi və onunçün ki... əgər onun içməyə suyu və yeməyə bir şeyi olsaydı, bu həyatı yenə sevə bilərdi. Ancaq o başa düşürdü ki, daha yerindən qalxa bilməyəcək, başa düşürdü ki, onun ömrünə az qalıb, başa düşürdü ki, tezliklə yanğıdan öləcək.

Qayıq isə dalğaların üstüylə getdikcə daha sürətlə üzürdü. Axınla üzürdü – sükansız və avarsız. Dəniz üzərində üfüq artıq tutqun-tutqun sezilirdi, fəzanın qaranlığı çəkilir, səma getdikcə aydınlaşır, duman topaları qarşıya getdikcə az-az çıxırdı. Qaranlıq artıq bayaqkına bənzəmirdi, o cür ölgün və sarsıdıcı deyildi. İndi dumanda səssiz-səmirsiz qaçışan əfsanəvi vücudlar görünürdü. Onlar dumanı yarıb o tərəf-bu tərəfə işləyərək, küləkdə öz-özünə gəlir və yox olurdular.

Elə ki, Ay bulud arxasından çıxırdı, dənizin üzü aydınca ləpələnir, zərif-zərif bərq vurur, sonra yenə tutulur, yenidən parıldayırdı. Oğlan sükutla parlayan ulduzlara baxır və düşünürdü: "Görəsən onlardan hansılar bəxt ulduzlarıdır? Hansı ulduz Orqan atkıçxın, hansı aki-Mılğunun, hansı atasının – Əmrayinindir? Bütün bu günlər siz görünmürdünüz. Siz də, ulduzlar, bizi dumanda görə bilmirdiniz. İndi mən təkəm və mən bilmirəm ki, haraya üzürəm. Amma mən indi qorxmuram, çünki mən sizin hamınızı göydə görürəm. Ancaq mən bilmirəm ki, hansı ulduz kimindir. Lakin bu işdə siz günahkar deyilsiniz. Siz axı bizi dənizdə görməyibsiniz. Böyük duman bizi gizlətmişdi. Və indi mən təkəm. Onlar isə üzüb gediblər, üçü də üzüb gedib. Onlar sizi çox sevirdilər, ulduzlar. Onlar sizi çox gözlədilər, torpağın yolunu tapmaq üçün sizi çox görmək istəyirdilər. Orqan atkıçx deyirdi ki, ulduzlar heç havaxt adamı darda qoymur, aldatmırlar. O, məni öyrətmək istəyirdi... Lakin siz günahkar deyilsiniz ki, belə olub. Bir azdan mən də öləcəyəm. Mənim suyum yoxdur, mən artıq tamam taqətsizəm və mən bilmirəm haraya üzürəm... Mənim bir azca suyum qalıb, lap bir az, indi mən onu içəcəyəm, daha dözə bilmirəm, dözmək olmur. Mən bu gün yukola torbasından bir tikəsini çeynəmişəm, o, nerpa dərisindəndir. Ancaq mən daha bacarmıram, ürəyim bulanır, ödüm ağzıma gəlir... İndi mən axırıncı suyu içəcəyəm. Və əgər biz biri-birimizi bir də görə bilməriksə, ulduzlar, mən sizə demək istəyirəm ki, Orqan atkıçx, aki-Mılğun və mənim atam Əmrayin sizi çox sevirdilər. Əgər mən səhərə qədər qalsam, sonra vidalaşaram..."

Bir az sonra qayıq yenidən dumana düşdü və hər şey yox oldu, yenidən heç yanı görmək mümkün olmadı. Ancaq küləyin və dalğaların qovduğu qayıq bayaqkı minvalla üzürdü. İndi Kirisk üçün fərqi yox idi. O, suyun tamamilə qaxsımış, iylənmiş, kiflənmiş qalığını içib, orada, boş çəlləyin yanında, qayığın dal tərəfində, qoca Orqanın adəti üzrə oturduğu yerdə uzanıb qalmışdı. O, ölməyə hazırlaşırdı, indi



duman da onunçün qorxulu deyildi. O, yalnız buna təəssüflənirdi ki, ulduzlar görünməz olublar və bəlkə onlarla vidalaşmağa macal olmadı... Onun halı getdikcə xarablaşırdı...

O, eləcənə, yarısayıqlama, yarıyuxulama vəziyyətindəcə uzanıb qalmışdı və məlum deyildi nə qədər vaxt keçib. Ola bilsin ki, artıq gecə yarıdan keçmişdi, bəlkə də səhərə yaxın idi. Demək çətindi. Dəniz üzərinə yüngül bir toranlıq yayılırdı, küləyin yaydığı tüstü kimi...

Tale var, tale var. Oğlan eşidə də bilərdi, eşitməyə də bilərdi. Ancaq o eşitdi. O, başı üzərində birdən qanad qıjıltısı və ala-toranda qayıq üzərində alçaqdan nəyinsə uçduğunu eşitdi. O səksəndi və bir göz qırpımındaca onun quş olduğunu, geniş-geniş qanad çalan böyük, güclü quş olduğunu görə bildi.

– Aqukuk!– deyə o çığırdı. – Aqukuk! – Özü də qütb bayquşunun uçuş istiqamətini izləyə və küləyi yadda saxlaya bildi. Külək soldan idi, soldan boynunun ardına, sol qulağından bir azca arxaya vururdu!

O, quşun arxasınca:

– Aqukuk! – deyə çığırdı. O, indi vaxtilə Orqanın tutduğu sükandan yapışmışdı və qayığı aqukukun uçduğu tərəfə yönəldirdi.

Kirisk sükan kürəyindən yapışaraq, bütün varlığıyla gərilmişdi, o, hələ daxilində qalmış bütün gücünü işə salmışdı və heç nə haqda fikirləşmirdi, yalnız küləyi yadda saxlayırdı, yalnız uçuşun istiqamətini yadda saxlayırdı.

Məlum deyildi qütb bayquşu haradan haraya uçur. Adadan materikə, yoxsa materikdən bir adaya. Ancaq Kirisk qoca Orqanın nə təhər dediyini unutmamışdı – bu quş dəniz üzərindən yalnız düz uçur. Bu, gecələr və dumanda uçan ən güclü quşdur. O, indi onun ardınca gedirdi.

Qayıq isə dalğadan-dalğaya keçərək üzüb gedirdi. Külək sabit idi. Toran seyrəlir, dağılırdı, göyün qıraqları artıq işıqlanırdı. İrəlidə isə, düz onun qənşərində, tünd sürməyi üfüqdə şölələnən tənha bir ulduz parlaq işıq saçırdı. Kirisk gördü ki, ulduz elə qayığın burnu yönələn tərəfdə durub. Ağlı kəsdi ki, ulduzu səmt götürməlidir, ona baxmalı və ona doğru getməlidir, çünki aqukuk oraya, o tərəfə uçurdu. O, bu ulduzu tanımırdı, ancaq indi gözünü ondan çəkmir və boynunun ardıyla küləyi: onun istiqamətini, onun gücünü, onun cərəyanını yadda saxlayırdı.

"Sən əs, külək, sən kəsmə, külək, getmə, külək. Mən səni tanımıram, sənin adını bilmirəm, bunu mənə Orqan atkıçx deyə bilərdi.

Ancaq, mənə qardaş ol. Getmə, başqa səmtə yayınma, külək. Sən ki, uzun müddət beləcənə, sənə lazım olduğu kimi qala bilərsən. Kömək et mənə, külək, getmə. Mən sənin adını öyrənəcək və səni adınla çağıracağam. İstəyirsənmi səni Orqan küləyi adlandırım? Mənim Orqan atkıçxımın adıyla. Və sənə həmişə belə deyəcəyəm: Orqan küləyi. Sən də məni tanımayacaqsan..."

O, arxasından əsən səmt küləyini bu sayaq ovsunlayır, özünü onun ixtiyarına verməklə, onu bir yerdə beləcənə qalmağa inandırırdı. Gözlərini isə səmt götürüb üzdüyü yolgöstərən ulduzdan çəkmirdi. Ulduza: "Mən səni sevirəm, ulduzum mənim, – deyirdi. – Sən qabaqda çox hündürdə və uzaqda durubsan. Sən ən böyük və gözəl ulduzsan. Yalvarıram sənə, getmə, yerindəcə dur, sönmə. Mən sənin yanına üzürəm. Aqukuk sən tərəfə uçurdu. Mən bilmirəm, o, haraya uçdu – adaya, yoxsa torpağa. Əgər, hətta, adaya uçubsa, qoy mən elə adada ölüm. Getmə, sönmə, ulduz. Mən bilmirəm sənin adın nədir, mənə acığın tutmasın. Sənin adını öyrənə bilməmişəm. Sənin adını mənə atam Əmrayin deyə bilərdi. Əgər istəyirsənsə, mən səni atamın adıyla adlandıraram, sənə Əmrayin ulduzu deyərəm. Və sən hər dəfə göydə görünəndə, mən səninlə salamlaşar və adını pıçıldayaram. Sən isə mənə kömək et, Əmrayin ulduzu, vaxtından tez getmə, qəfildən bulud arxasında gizlənmə..."

O, öz yolgöstərən ulduzunu bu sayaq ovsunlayırdı. O, bir də dalğaları ovsunlayırdı. "Dalğalar, indi siz mənim kayakımı sürüb aparırsınız, indi siz yaxşısınız. Mən sizi aki-Mılğun dalğaları adlandıracağam. Siz aqukukun uçduğu tərəfə gedirsiniz. Siz, axı, uzun müddət sizə lazım olan o tərəfə axa bilərsiniz. Çəkilib getməyin, aki-Mılğun dalğaları, yolunuzdan çıxmayın. Mən avar çəkib üzərdim, ancaq mən tamam əldən düşmüşəm. Siz ki, görürsünüz, mən sizin səbəbinizə üzürəm. Əgər sağ qalaramsa, daim biləcəyəm ki, siz Orqan küləyinə, Əmrayin ulduzuna tuş gedirsiniz. Və mən hamıya deyəcəyəm: dənizdə akimılğunlar xeyir əlamətidir! Kömək edin mənə, aki-Mılğunlar! Getməyin, məni tək qoymayın..."

* * *

Bütün ulduzlar içində hamıdan çox Əmrayin ulduzu parladı. Dan yeri ağarana kimi bütün üfüqdə yalnız o, tək qalmışdı. Dan söküləndə



güclü, şəffaf parıltıyla alovlanıb yandı, sonra sübhün bozaran havasında yavaş-yavaş sönməyə başladı və hələ bir müddət səmada zərif, ağ ləkə kimi göründü.

Səhər belə açıldı. Sonra dəniz üzərində gün çıxdı. Kirisk sevindi də, qorxdu da. Günün çıxmasına sevindi, dənizin ucsuz-bucaqsızlığından qorxdu. Günün şüaları altında ləpəli maviliklə bərq vuran dəniz, demək olar ki, qara və sonsuz bir boşluq idi. Oğlan yaddaşının köməyi ilə üzməyə, küləkdən yayınmamağa çalışaraq, sükan küreyindən həyəcanla yapışdı. Bu, usandırıcı bir hal idi...

Onun yadında təkcə başının necə hərləndiyi və gözündə aləmin biri-birinə qarışıb necə axdığı qalmışdı...

Qayıq indi özbaşına gedirdi...

* * *

Oğlan özünə gələndə gün göyün o biri qırağına keçmişdi. O dikələrək və titrəyən qollarına dayaqlanaraq, çətinliklə qayığın sükan yerinə qalxdı və gözüyumulu dayanıb, baş gicəllənməsinin keçməsini gözlədi. Sonra gözlərini açdı. Qayıq dalğaların üstüylə şütüyürdü. Dəniz də canlı, çağlayan suların saysız-hesabsız şəfəqlərində əvvəlki kimi zərif-zərif ləpələnərək, göz işlədikcə uzanıb gedirdi. Kirisk qonşərinə baxdı, gözlərini sildi və yerindəcə donub qaldı. Alabaş, dənizin tünd-yaşıl dikdiri arxasından çıxıb, düz onun üstünə gəlirdi. Alabaş onun qabağına qaçırdı, Ulu Alabaş!

Sahil indi dənizin kənarında boz-mavi dağ zolağı kimi görünürdü. Ağqulaqlı, ağpaçalı Alabaş isə bütün qayalardan ucada dayanmışdı və onun ətəyi yanındakı əbədi ləpədöyənin kükrəyən kənarı da görünürdü. Havada sahil qağayılarının səsləri də eşidilirdi. Onu birinci olaraq qağayılar görmüşdülər. Qaya üzərində isə sıldırımda sönməkdə olan soraq tonqalının mavi tüstüsü dolaşırdı...

Dəniz kənarıyla qaçan Alabaş,
Dönürəm yanına tənha, əliboş –
Atkıçx Orqansız,
Atam Əmrayinsiz.
Aki-Mılğunsuz.
Məndən sor: haradı qaldıqları yer?
Əvvəl su ver içim, doyunca su ver...

Kirisk başa düşdü ki, bu sözlər – ömrünün son günlərinəcən birlikdə yaşayacağı öz xüsusi mahnısının ilk sözləridir...

* * *

...Dəniz qaranlıqda sıldırım qayalara çırpılıb çiliklənərək uğuldayır, özünü əldən salırdı. Daş kimi bərk torpaq dənizin zərbələrini dəf edərək, ağır-ağır nəfəs alırdı.

Onlar ilk yaranışdan – gündüzün gündüz, gecənin gecə kimi başlandığı vaxtdan bəri beləcə çarpışırlar və bundan sonra da, nə qədər ki, torpaq var, su var – bu çarpışma da gecəli-gündüzlü əbədi olaraq davam edəcəkdir.

Gecəli, gündüzlü...

* * *

*...Daha bir gecə əriyib gedirdi...*

Dəniz üzərində Orqan küləyi uğuldayır, dənizdə aki-Mılğun dalğaları şahə qalxır, dan yerinin söküldüyü üfüqün kənarında parlaq Əmrayin ulduzu şəfəq saçırdı.

*... Daha bir gün gəlirdi...*

*Baytik kəndi*
*Dekabr 1976 – yanvar 1977-ci il*



# AĞ GƏMİ

1

Onun iki nağılı vardı. Biri özünündü, bundan heç kəsin xəbəri yox idi. O birisini isə babası danışmışdı. Sonralar ikisi də yox olub getdi. Elə söhbət də bu haqdadır.

Həmin il onun yeddi yaşı tamam olmuşdu, səkkizin içində idi.

Əvvəlcə çanta alındı. Qulpun altından keçən parıltılı metal kilidli qara dermantin çanta. Xırda-xırda şeylər üçün üst cibi də vardı. Qərəz, adidən adi, amma göydəndüşmə məktəb çantası. Əslində, hər şey də elə bundan başladı.

Babası onu səyyar avtodükandan almışdı. Avtodükan, malları dağlardakı maldarlara sata-sata, hərdən onlara – San-Taş dərəsindəki meşə gözətçiləri məntəqəsinə də gəlirdi.

Buradan, bu qarovul xəttindən yuxarılara doğru yarğanlar, yamaclar boyu göz işlədikcə meşə qoruğu dikəlirdi. Məntəqədə cəmi üç ailə vardı. Buna baxmayaraq, avtodükan vaxtaşırı meşəçilərə də baş çəkirdi. Üç həyətin yeganə oğlan uşağı avtodükanın gəlişini hamıdan qabaq görərdi.

– Gəlir! – deyə o, qapı-pəncərələrin qabağına qaçar, qışqırardı. – Maşın-mağaza gəlir!

İssık göl sahilindən buraya gələn dolama yol həmişə yarğanlardan, çay qıraqlarından, daşlı-qayalı, çala-çuxur yerlərdən keçirdi. Belə yolla maşın sürmək o qədər də asan deyildi. O yol Qarovul dağına çatanda dar keçiddən yamaca qalxır, oradan da sərt və çılpaq enişlə xeyli uzanaraq aşağı – meşəçilərin həyətinə enirdi. Qarovul dağı lap yaxınlıqdaydı, – yayda odlan, demək olar ki, hər gün durbinlə gölə baxmaq üçün qaçıb oraya gedərdi. Oradan baxanda yolda həmişə hər şey: piyada da, atlı da, söz yox ki, maşın da apaydın görünürdü.

Bu dəfə əhvalat yayın qızmar çağında baş vermişdi. Oğlan öz dəhnəsində çimirdi, maşının dağ döşündə necə tozanaq qaldırdığını gördü. Dəhnə çayın dayazlığında qırağa yaxın qənbərlikdəydi. Onu daşlardan babası hörüb düzəltmişdi. Bu dəhnə olmasaydı, kim bilir, bəlkə də

oğlan çoxdan güdaza getmişdi. Həm də nənəsi demişkən, çay onun sümüklərini yuya-yuya düz aparıb İssık gölə atardı, orada da balıqlar və cürbəcür su həşəratları onlara tamaşa edərdilər. Heç kəs də onu axtarmazdı. Heç kəs onun üçün ah-nalə etməzdi, ona görə ki, əvvəla, suya girməyəydi, ikincisi də o, kimin nəyinə gərəkdi. Hələ ki, belə bir hadisə baş verməmişdi. Əgər baş verseydi, kim bilir, onu xilas eləməkdən ötrü bəlkə nənəsi suya da tullanmazdı. Doğma olsaydı, başqa məsələ, axı nənəsi ona yad deyirdi. Yad elə yaddır, istəyirsən ağzının tikəsini yedirt, istəyirsən onu gözün üstə saxla. Yad... Bəlkə o, yad olmaq istəmir. Onda necə? Axı nə üçün məhz onu yad hesab eləsinlər? Bəlkə o yox, nənə özü yaddır?

Nə isə, bu haqda sonra, babanın dəhnəsi də qalsın sonraya...

Bəli, günlərin bir günü, oğlan dağdan enən avtodükanı və onun arxasınca burum-burum qalxan tozanağı gördü. Ona çanta alınacağını yəqin bilirmiş kimi, çox sevincək oldu. Elə o saat da sıçrayıb sudan çıxdı, şalvarını cılız qılçalarına keçirdi, bədəni yaş, gömgöy göyərmiş halda – çayın suyu soyuq idi – cığırla həyətə sarı götürüldü ki, avtodükanın gəlməsini hamıdan əvvəl xəbər versin.

Oğlan surətlə qaçır, kolların üstündən hoppanır, tullanıb aşa bilmədiyi qayalıqların yanından keçirdi və heç yerdə – nə hündür otların, nə də daşların önündə bir an belə ləngimirdi. Halbuki, daşların heç də adi olmadığını bilirdi. Onlar inciyər, hətta badalaq da vura bilərdilər. O, Xıx-mış dəvə adlandırdığı, yarıyacan torpağa pərçimlənmiş hürgüclü sarı qranit qayanın yanından qaçaraq keçəndə dedi: "Maşın-mağaza gəlib. Sənə sonra baş çəkərəm". Adətən, oğlan öz dəvəsinin hürgücünə əl vurmadan, onun yanından ötüb keçməzdi. Babası lüməquyruq yabısı ilə necə rəftar edirdisə, o da eləcə, ərkyana sahib kimi öz dəvəsinin belinə bir-iki dəfə çırpalca vurar, sonra da elə-belə, ayaqüstü deyərdi: Sən gərək bir az gözləyəsən, mən iş dalınca gedirəm. Onun bir gyəhərg qayası da vardı, yarısı ağ, yarısı qara, alaca daşdı, ortası çökük, at kimi belinə minmək olurdu. Bir daş da vardı – "Canavar" canavara çox oxşayırdı, bombozdu, çallamışdı, gur yallı, qalın əmgəkli idi. Oğlan sürünə-sürünə ona yaxınlaşar, nişana alardı. Lakin ən sevimli daşı "Tank" idi. Suların yuyub yediyi çay sahilinin qaşındakı sarsılmaz qaya. Adama elə gəlirdi ki, "Tank" bu saat sahildən aşağı atılacaq, çay çağlayacaq, ləpədöyənlər bəyaz köpüklərə qərq olacaqdı. Axı tanklar kinoda, bax, beləcə gedirlər; sahildən suya



cumurlar və get ki, gedəsən... Oğlan bir-iki filmə baxmışdı, ona görə də gördüklərini yadında möhkəm saxlamışdı. Babası hərdən öz nəvəsini dağın arxasındakı, onlarla mərz qonşusu olan cins mallar sovxozunun fermasına kinoya baxmağa aparardı. Sahildə çayı yarıb keçməyə müntəzir dayanan "Tank" da buna görə peyda olmuşdu. Digər nəcib, yaxud nanəcib, hətta bic və yaxud səfeh daşlar da vardı.

Bitkilər arasında da əzizləri, cəsurları, qorxaqları, ziyankarları və digərləri var idi. Məsələn, tikanlı süngər onun əsas düşməni idi. Oğlan gündə neçə dəfə onu dibdən qırıb atırdı. Ancaq bu döyüş bitmək bilmirdi, süngər təzədən cücərib artır, boy verib qalxırdı. Çöl sarmaşığı isə, alaq otu olsa da, ən ağıllı və şən bitki idi. Səhəri hamıdan yaxşı onlar qarşılayırdı. O biri otlar nə səhər qanırdılar, nə axşam. Onlar üçün fərqi yox idi. Sarmaşıqlar isə, Günəş ziyaları canlarını qızdıran kimi gözlərini açır, gülümsəyirdilər. Əvvəlcə bir gözü, sonra ikincisi açılır, nəhayət, sarmaşığın bütün burumları biri-birinin ardınca pardaqlanırdı. Ağ, açıq-mavi, yasəmənli, cürbəcür... Əgər onların yanında lap sakit otursan, sənə elə gələr ki, sarmaşıqlar oyanan kimi nə barədə isə astadan pıçıldaşırlar. Hələ qarışqalar da bundan agahdırlar. Səhər-səhər onlar sarmaşıqların gövdəsini qıyıb, çiçəklərin öz aralarında nə haqda danışdıqlarını dinləyirdilər. Bəlkə də onlar yuxularını nəql edirdilər?

Gündüzlər – adətən günorta çağı oğlan sıx pöhrəli şirəlcin kolluğuna gedib girərdi. Şirəlcinlər hündür olur, çiçəkləmir, ancaq ətirlidir, adacıqlar şəklində – kom-kom bitir, başqa otları yaxına buraxmırlar. Şirəlcinlər dostluqda vəfalıdır. Xüsusilə nisgilli olanda, ağlamaq istəyəndə heç kəs görməsin deyə şirəlcinlikdə rahatca gizlənmək olur. Onların çoxusu meşəyanı şamlığın ətrini xatırladır. Şirəlcinlik isti və sakit olur. Ən ümdəsi isə – onlar gölün qabağını kəsmir. Arxası üstə uzanıb səmaya tamaşa etmək gərək. Əvvəlcə, göz yaşları içində heç nəyi sezmə. Sonra buludlar üzüb gələcək və xəyalındakıların hamısını yuxarıda bir-bir ayırd edəcəklər. Buludlar bilirlər: sənin əhvalın o qədər də yaxşı deyil, harayasa çıxıb getmək və ya uçmaq arzusundasan, istəmirsən ki, səni tapalar, istəyirsən köks ötürüb ah-vay eləsinlər, deməzsənmi, uşaq gör necə də yoxa çıxdı, indi haradan tapacağıq onu?.. Özü də bu hadisə baş verməsin deyə, sən yoxa çıxmayasan deyə, sakitcə uzanıb, buludlara məftun-məftun baxasan deyə, buludlar dönüb istəmədiyin hər şeyə çevriləcəklər. Eyni cür buludlardan ən müxtəlif şeylər əmələ gəlir. Buludların nə təsvir etdiyini gərək tanıya biləsən.

Şirəlcinlikdə isə sakitlik idi, onlar göyün qabağını kəsmirdilər. Bəli, belədir ətirli şirəlcinlər...

Oğlan bitkilər haqqında hələ cürbəcür başqa şeylər də bilirdi. Subasar çəməndə bitən gümüşü ağota yazığı gəlirdi. Qəribə idi bu ağotlar! Yelbeyindilər. Onların ipək kimi yumşaq süpürgəcikləri küləksiz keçinə bilmir. Bir himə bənd olub gözləyirlər – yel hansı səmtə əsərsə, onlar da o tərəfə əyilərlər. Özü də, hamısı bir nəfər kimi, bütün çəmən – sanki komanda ilə baş əyir. İşdir, əgər yağış yağsa və ya tufan qopsa, ağotlar başlarını dürtməyə yer tapmırlar. Yellənirlər, yerə yatırlar, torpağa yapıxırlar. Ayaqları olsaydı, bəlkə də baş götürüb ilim-ilim itərdilər... Lakin onlar riyakarlıq edirlər. Tufan sakitləşən kimi səfeh ağotlar yenə də özlərini yelə verirlər – külək hara, onlar da ora...

Dostsuz-tanışsız oğlan o adi şeylər arasında tək-tənha yaşayırdı, təkcə avtodükan bütün olub-keçənləri ona unutdurur, özünə tərəf başılovlu qaçmağa vadar edirdi. Ayrı nə söz ola bilərdi, avtodükan sənin üçün elə-belə daş-maş, ot-mot deyildi. Nələr yoxdu bu avtodükanda, nələr!

Oğlan özünü evə yetirəndə, avtodükan evlərin arxa tərəfindən həyətə yaxınlaşırdı. Məntəqədə evlərin üzü çaya tərəf idi, qapı-baca sahəsi enişaşağı lap sahilə meyllənirdi, çayın o tayında isə, suyun yuyub açdığı uçurumdan başlayaraq sərt yamaclar boyu dağlara meşə dırmaşırdı və məntəqəyə yeganə giriş yolu evlərin arxasındandı. Oğlan özünü vaxtında yetirməsəydi, heç kəs bilə bilməzdi ki, avtodükan artıq buradadır.

Bu vaxt kişilərdən heç kəs yox idi, hamısı səhər tezdən dağılışmışdı. Arvadlar ev işləri ilə məşğul idilər. Oğlan özünü açıq qapılara yetirib bərkdən qışqırdı:

– Gəldi! Maşın-mağaza gəldi!

Arvadlar çaxnaşdılar. Gizləyib saxladıqları pulu axtarmağa cumdular. Biri-birini ötərək bayıra atıldılar. İşə bax ha, hətta nənə də onu tərifləyəsi oldu:

– Görün, bizim oğlan gözdən necə də itidir!

Oğlan, avtodükanı özü gətiribmiş kimi, məmnun idi. Bir də ona görə xoşbəxt idi ki, onlara bu xəbəri özü çatdırmışdı, ona görə xoşbəxt idi ki, həyətə onlarla birgə qaçmışdı, ona görə xoşbəxt idi ki, onlarla birgə avtodükanın açıq qapısına sarı yanaşırdı. Lakin basabasda arvadlar onu tezcə unutdular. Başları qarışıqdı. Mal çoxdu – gözləri



dörd olmuşdu. Vur-tut üç arvad vardı: nənəsi, doğma xalası Bekey – məntəqənin ən böyük adamı qoruqçu Orozqulun arvadı və qucağında qızcığaz, köməkçi fəhlə Seyidəhmədin cavanəzən arvadı Gülcamal. Cəmi üç arvad. Elə çaxnaşma salmışdılar, malları elə qapışdırır, ələk-vələk edirdilər ki, avtodükanın satıcısı onların növbəyə durmasını və bir ağızdan qırıldamamasını tələb etdi.

Lakin onun sözləri arvadlara o qədər kar eləmədi. Onlar əvvəlcə əllərinə keçəni götürürdülər, sonra seçməyə başladılar, sonra isə seçdiklərini də qaytarırdılar. Seçir, ayırır, geyib baxır, höcətləşir, şəkk eləyir, bir şey barədə dönə-dönə sorğu-sual aparırdılar. Biri xoşlarına gəlmirdi, başqası baha idi, üçüncünün rəngi ürəklərinə yatmırdı... Oğlan kənarda dayanmışdı. O darıxdı. Qeyri-adi bir şey həsrəti də, dağda avtodükanı görərkən onu bürüyən sevinc də yoxa çıxdı. Avtodükan birdən onun gözlərində cürbəcür köhnə-möhnə şeylərlə dolu adi maşına çevrildi.

Satıcı dilxor oldu! Bu arvadlar, deyəsən, bir şey almaq niyyətində olan adamlara oxşamırdılar. Dağı-daşı basabasa bu uzaq yolu nə üçün gəlmişdi?

Elə də oldu. Arvadlar kənara çəkilməyə başladılar, od-alovları söndü, hətta elə bil yorulub əldən düşdülər. Biri-birinin qabağındamı, yoxsa satıcının yanındamı, nədənsə, özlərinə bəraət qazandırmağa başladılar. Birinci, nənə şikayətləndi ki, pul yoxdur. Əgər nəqd pulun yoxsa – mal da ala bilməzsən. Bekey xala ərindən xəbərsiz bahalı şey almağa cəsarət eləmədi. Bekey xala dünyanın ən bədbəxt qadını idi, uşağı olmurdu, buna görə də Orozqul kefli olanda onu döyürdü, baba da xiffət eləyirdi, axı Bekey xala babanın qızıydı. Bekey xala bir neçə xırda-xuruş aldı və iki şüşə araq götürdü. Çox nahaq yerə, özünə pis olacaqdı. Nənə özünü saxlaya bilmədi, satıcı eşitməsin deyə astadan pıçıldadı:

– Durduğun yerdə özün öz başına niyə bəla açırsan?

– Özüm bilərəm, – Bekey xala ağzından vurdu.

– Səfehin biri səfeh, – nənə bu dəfə bir qədər də yavaşdan, ancaq hiddətlə donquldandı. Satıcı olmasaydı, Bekey xalanın dərsini necə verərdi. Uf, onlar elə söyüşürdülər ki!..

Cavanəzən Gülcamal araya girdi. O, satıcıya izah elədi ki, onun Seyidəhmədi tezliklə şəhərə köçməyə hazırlaşır, şəhərdə pul lazım olacaq, ona görə də bədxərclik eləmək istəmir.

Onlar avtodükanın qabağında beləcə çaxnaşma saldılar, satıcı demişkən, "qəpik-quruşluq" mal aldılar və dağılışıb getdilər evlərinə. Məgər bu alverdi? Satıcı arvadların ardınca tüpürdü, ələk-vələk edilmiş malları yığışdırmağa başladı ki, sükan arxasına keçib yola düşsün. Elə bu vaxt oğlan gözünə dəydi.

– Pələqulaq, nə var? – deyə soruşdu. Oğlanın sallaq qulaqları, nazik boynu, iri, yumru başı vardı. – Bir şeymi almaq istəyirsən? Onda tez ol, bağlayıram. Pulun var?

Satıcı sözgəlişi soruşdu, oğlan isə ədəblə cavab verdi:

– Yox, əmican, pulum yoxdur, – sonra da başını buladı.

– Mən də elə bilirəm varındır, – satıcı özünü bilməməzliyə vurub söhbəti uzatdı. – Axı buradakılar hamısı varlıdır, ancaq özünüzü kasıb göstərirsiniz. Cibindəki pul deyil?

– Yox, əmican, – oğlan əvvəlki kimi səmimi və ciddi cavab verdi və cırıq cibini çevirdi. (*İkinci cibinin ağzı büsbütün tikilmişdi.*)

– Deməli, pulların yırtıqdan tökülüb. Get, gəzdiyin yerlərdə axtar. Taparsan.

Onlar susdular.

– Kimin uşağısan? – Satıcı yenə sorğuya tutdu. – Qoca Mömünün deyilsən ki?

Oğlan başını tərpətdi.

– Onun nəvəsisənmi?

– Bəli. – Oğlan yenə başını tərpətdi.

– Anan haradadır?

Oğlan heç nə demədi. O bu barədə danışmaq istəmirdi.

– Anan özü haqda bir xəbər bildirmir. Özün bilmirsən?

– Bilmirəm.

– Atan necə? Ondan da xəbərin yoxdur?

Oğlan susdu.

– Dostum, bu nədir, sən niyə heç nə bilmirsən? – Satıcı zarafatla onu məzəmmət elədi. – Nə isə, belədir, belə olsun. – O bir ovuc konfet götürüb oğlana uzatdı. – Al, özün də sağ ol.

Oğlan utandı.

– Al, al. Ləngitmə məni. Getməliyəm.

Oğlan konfetləri cibinə qoydu, özü də maşının ardınca qaçmaq, avtodükanı yoladək ötürmək fikrində idi. O, yöndəmsiz, olduqca tənbəl, qıllı Baltek köpəyi səslədi. Orozqul hey qəsdlənir, onu gülləylə



vurub öldürmək istəyirdi – belə iti qapıda niyə saxlayasan – deyirdi. Baba da yalvar-yaxar edirdi ki, hələlik ona dəyməsin: bir çoban iti gətirər, sonra Balteki aparıb azdırar. Baltekin dünya-aləm vecinə deyildi: tox olanda yatardı, ac olanda isə, yaxın oldu, yad oldu, məhəl qoymadan yalmanardı, təki yeməyə ona bir şey ataydılar. Baltek belə köpək idi. Hərdən də darıxanda maşınların ardınca qaçardı. Düzdür, çox getməzdi. Bir qədər götürülərdi, az sonra qəflətən dönüb, evə sarı yortardı. Vecsiz it idi. Lakin itlə qaçmaq tək qaçmaqdan yüz dəfə yaxşıydı. Hər necə olsa da, yenə itdir...

Oğlan satıcıdan xəlvət, ehmalca Baltekə bir konfet atdı. "Bax ha, – köpəyi xəbərdar elədi, – çox qaçmalı olacağıq". Baltek zingildədi, quyruğunu buladı – yenə istəyirdi. Ancaq oğlan bir daha konfet atmağa cəsarət eləmirdi. Kişinin xətrinə dəyərdi, bir ovuc konfeti it üçün verməmişdi ki...

Və elə bu zaman baba gəlib çıxdı. Qoca arxanaya getmişdi. Oradan isə evlərin dal tərəfi görünmürdü. Özü də iş elə gətirdi ki, avtodükan getməmiş, baba vaxtında özünü yetirdi. Yoxsa nəvəsinin çantası olmayacaqdı. Oğlanın bəxti gətirmişdi.

Ahıl, ağsaqqalların Qıvraq Mömün adlandırdığı Mömün kişini mahalda hamı tanıyırdı, o da hamıya bələd idi. Belə bir ləqəbi Mömün az-çox tanıdığı adamların hamısına göstərdiyi istiqanlılığı üçün, hamının karına gəldiyinə, imdadına yetişdiyinə görə qazanmışdı. Lakin bu da vardı ki, onun yaxşılıqlarının, pulsuz paylanılan qızıl kimi, heç kəsin yanında qədir-qiyməti yoxdur. Heç kəs Mömünə, onun yaşıdlarına bəslənilən kimi hörmət-izzətlə yanaşmırdı. Onu saya salan olmurdu. Buqu tayfasından adlı-sanlı bir qocanın böyük yas məclisi düşəndə, – Mömün də buqu nəslindən idi, bununla çox fəxr edirdi və öz tayfasından bir nəfərin də yasını buraxmazdı – ona heyvan kəsməyi, hörmətli qonaqları qarşılamağı, atdan düşənə kömək göstərməyi, çay paylamağı, bəzən hətta odun yarmağı, su daşımağı tapşırardılar. Məgər qonaqlı-qaralı böyük yas yerlərində iş qəhət idi? Mömünə tapşırılan hər işi o vaxtlı-vaxtında asanlıqla görərdi və ən başlıcası isə, başqaları kimi, heç bir işdən boyun qaçırmazdı. Bir qoşun qonağı qarşılayıb, onlara yemək paylamalı olan aul cavanları, Mömünün işin öhdəsindən necə gəldiyini görəndə deyərdilər:

– Qıvraq Mömün olmasaydı, görəsən biz neylərdik!

Nəvəsi də yanında, uzaq yerdən gəlmiş bu ahıl kişi, bəzən də cavan bir çayçının əlinin altında işləməli olurdu. Mömünün yerinə

başqası olsaydı, təhqirdən bağrı çatlayardı. Mömünün isə heç vecinə də deyildi!

Heç kəs də təəccüblənmirdi ki, qonaqların qulluğunda qoca Qıvraq Mömün durur, bax, elə buna görə də o bütün ömrü boyu Qıvraq Mömün olaraq qalıb. Qıvraq Mömün olduğu üçün təqsirkar özüydü. Əgər yad bir adam heyrət edib deyəndə ki, bu aulun cavanları qırılıbmı, sən yaşda kişi arvadların buyruğuna baxırsan, Mömün belə cavab verərdi: "Mərhum mənim qardaşımdı. (O, buquların hamısını özünə qardaş bilərdi. Buna qalsa, buqular başqa qonaqlara da eyni dərəcədə "qardaş" sayıla bilərdi.) Onun yasında mən də işləməsəm, bəs kim işləyəcək? Axı biz buqular ulu nənənin – Buynuzlu ana maralın öz nəslindənik. O füsunkar ana maral isə sağlığında da, əbədiyyət dünyasında da bizə dostluğu tövsiyə edib..."

Qıvraq Mömün, bax, belə Mömün idi!

Qocalar da, cavanlar da ona sən deyə müraciət edərdilər, ona sataşmaq da olardı – qoca incimәzdi; onun sözünü rədd etmək də olardı – qoca söz qaytarmazdı. Haqlı sözdür: özünə hörmət etdirməyi bacarmayanın camaat günahından keçmir. O isə bunu bacarmırdı.

Həyatda onun əlindən çox şey gəlirdi. Dülgərlik edərdi, sərraclıq edər, taya vurardı; cavanlıqda kolxozda elə tayalar qurardı ki, qışda onu sökməyə heyfsilənərdilər; yağış tayanın üstündən aşağı elə axardı ki, elə bil qaz belindən su süzülərdi. Qar isə qoşaçatılı dama yağan kimi yatardı onun ilanyalı tayalarının üstünə. Müharibə dövründə əmək batalyonunda xidmət edəndə Maqnitaqorsk zavodunun divarlarını hörmüşdü, staxanovçu kimi ad çıxarmışdı. Qayıtdı, məntəqədə ev tikdi, meşəçiliklə məşğul oldu. Köməkçi fəhlə olmasına baxmayaraq, əslində meşənin qarovulunu da o çəkirdi. Onun kürəkəni Orozqul tez-tez qonaqlıqlara gedirdi. Elə ki, böyüklərin güzarı buralara düşdü, bu zaman Orozqul özü meşəni də göstərər, ov da təşkil edər, bu işlərdə ixtiyar sahibi olardı. Mal-qaranın dalınca Mömün gedərdi, arıya da o baxardı. Ömrü boyu işlədi Mömün, ancaq özünə hörmət etdirməyi öyrənə bilmədi.

Üstəlik, Mömünün zahiri görkəmi də ağsaqqal yöndəmi deyildi. Nə təmkini, nə vüqarı, nə də sərtliyi vardı. Sadədil adam idi və onun bu qədribilinməz insan məcazını ilk baxışdan sezmək olurdu. Həmişə belələrinə öyüd veriblər: "Yaxşı olma, yaman ol! Bax, sənə bu da azdır! Bu da azdır! Yaman ol, yaman!" O isə bədbəxtliyindən düzəlmirdi, yaxşı



olaraq qalırdı. Gülümsər, qırış-qırış sifəti vardı, gözləri isə daim sual edirdi: "Sənə nə lazımdır? Nə lazımsa, sənin üçün eləyim. Qulluğunda hazıram, bircə de görüm, ürəyin nə istəyir?"

Burnu yumşaqdı, ördək dimdiyinə oxşayırdı, elə bil heç qığırdağı yoxdu. Boyu da uca deyildi, yeniyetmə kimi çevikdi qoca. Saqqal sarıdan da bəxti gətirməmişdi. Çənəsində iki-üç sarımtıl tük vardı.

Bəzən belə olur – bir də görürsən yolla boy-buxunlu bir qoca gedir, saqqalı dərz kimi, quzu dərisindən qatlama yaxalıqlı iri kürk geyinib, başında bahalı papaq, altında şahbaz at, yəhəri də gümüş bəzəkli – müdrikdən, peyğəmbərdən nəyi əskikdir, beləsinə baş əymək də qəbahət deyil, belələrinin hər yerdə hörmət-izzəti var! Mömün isə vur-tut Qıvraq Mömün kimi tanınmışdı. Onun yeganə üstünlüyü bundan ibarət idi ki, kiminsə gözündən düşəcəyindən ehtiyat etmirdi, vəssalam. (Bu cür oturmadın, yersiz danışdın, düz cavab vermədin, elə gülmədin, bu belə olmadı, o belə deyil, elə yox...) Bu mənada Mömün özü də bilmədən, son dərəcə xoşbəxt adam idi. Çoxları heç də o qədər xəstəlikdən deyil, nə qədər özlərini olduğundan daha artıq göstərmək azarının əbədi ehtirasından ölürlər. (Kim istəməz ki, ağıllı, ləyaqətli, gözəl, həmçinin zabitəli, adil, səbatlı adam kimi tanınsın?)

Mömün isə belə deyildi. O, qəribə adam idi və onunla olduğu kimi də rəftar edirdilər.

Mömünün bircə şey bərk xətrinə dəyə bilərdi: kiminsə yas mərasimini keçirməkdən ötrü qohum-əqrəba məşvərətinə onu unudub çağırmasınlar... Belə halda o inciyərdi və ciddi iztirab çəkərdi; özü də buna görə yox ki, onu yada salmayıblar, yox, onsuz da məşvərət zamanı o heç nə həll eləmirdi, yalnız orada iştirak edirdi, ondan inciyərdi ki, qədim adəti yerinə yetirmək borcu pozulurdu.

Mömünün öz dərdi-səri vardı, bunlardan əzab çəkərdi, gecələr bunları xatırlayıb ağlayardı. Yad adamlar bu barədə demək olar ki, heç nə bilmirdilər. Özününkülərə isə bu agah idi. Mömün nəvəsini avtodükanın yanında görəndə, dərhal anladı ki, oğlan nədənsə pərtdir. Satıcı gəlmə adam olduğundan, qoca əvvəlcə ona müraciət etdi. Cəld yəhərdən endi, dərhal iki əlini də satıcıya sarı uzatdı.

– Əssəlam-əleyküm, tacirimüəzzəm! – O, yarızarafat, yarıciddi dedi. – Karvanının qədəmləri uğurludurmu, alverin yaxşı gedirmi? – Mömün sevinc içində satıcının əlini silkələyirdi. – Gör nə vaxtdır görüşmürük? Xoş gəlibsən!

Mömünün danışığına, çirkin görkəminə, həmin köhnə girz çəkmələrinə, qarısının tikdiyi kətan şalvarına, əzik-büzüşük pencəyinə, yağışdan və Günəşdən rəngi solmuş gecə şlyapasına kinayəylə gülümsünən satıcı cavab verdi:

– Karvan karvanlığındadır. Amma bəla burasındadır ki, tacir sizlərə gəlir, siz də baş götürüb meşələrə, dərələrə qaçırsınız. Arvadlarınıza da elə göz ağartması vermisiniz ki, qəpik üçün can çəkirlər. Nə qədər mal gətirirsən gətir bura, əlini cibinə salan olmayacaq.

– Bağışla, əzizim, – Mömün pərt halda üzr istədi. – Bilsəydik gəlirsən, heç yana getməzdik. Pul da ki, yoxdur, yoxun üzü qara olsun. Bax, payızda kartofu satarıq...

– Danışırsan da! – Satıcı onun sözünü kəsdi. – Yaxşı tanıyıram sizi – üfunət qoxuyan bayları. Çəkilmisiniz dağlara, torpaq bol, ot bol. Hər tərəf meşə – üç gün gəzib dolanmaq olmaz. Mal-qara saxlayırsan? Arı saxlayırsan? Qəpik xərcləməyə xəsislik edirsiniz. Bax, bu ipək örtüyü al, tikiş maşını da bir dənə qalıb...

– Vallah, o qədər pulum yoxdur, – Mömün özünə bəraət qazandırmağa çalışdı.

– Elə bilirsən, inanacağam. Simiclik eləyirsən, qoca, pul yığırsan. Goruna aparacaqsan?

– Vallah, yox. Buynuzlu ana marala and olsun, yoxumdur.

– Onda məxmər al, təzə şalvar tikdirərsən.

– Alardım, and olsun Buynuzlu ana marala...

– Ec, səninlə çənə vurmağın nə mənası! – Satıcı əlini yellədi. – Nahaq yerə gəldim. Bəs Orozqul hardadır?

– Səhərdən elə Aksaya gedəndir. Çobanlarla işi vardı.

– Deməк qonaq gedib, – satıcı bilərəkdən təsdiqlədi. Araya cansıxıcı sükut çökdü:

– Xətrinə dəyməsin, əzizim, – Mömün yenidən dilləndi. – Payızda, Allah qoysa, kartofu satarıq...

– Payıza hələ çox qalıb.

– İndi ki, belədir, bizi qınama. Gəl, bir stəkan çay iç.

– Onun üçün gəlməmişəm, – satıcı imtina elədi.

O, furqonun qapısını bağlayırdı, elə bu dəm, itin qulağından yapışıb, maşının arxasınca qaçmağa hazır vəziyyətdə qocanın yaxınlığında dayanmış nəvəyə baxaraq Mömünə dedi:

– Yaxşı, heç olmasa, çanta al. Oğlanın yəqin ki, məktəbə getmək vaxtı çatmış olar? Neçə yaşı var?



Mömün bu fikri dərhal bəyəndi: bu inadkar avtodükançıdan heç olmasa bir şey alsın, nəvəsinə də həqiqətən çanta lazım idi, bu payız məktəbə getməliydi.

– Axı doğrudan da belədir, – Mömün vurnuxdu, – heç ağlıma da gəlmirdi. Bəs necə, yeddi tamam olub, səkkizin içindədir. Bir bura gəl, – o, nəvəsini çağırdı.

Baba ciblərini eşələdi, gizlədiyi beşliyi çıxartdı. Görünür çoxdan cibindəymiş, qat kəsmişdi.

– Poləqulaq, al. – Satıcı bic-bic oğlana göz vurdu və çantanı ona verdi. – Daha oxumalısan. Əgər savad qazanmasan, babanla həmişəlik dağlarda qalarsan.

– Qazanar! Fəhmli baladır, – Mömün pulun qalığını saya-saya dilləndi.

Sonra təzə çantasını əlində inamsız tutan nəvəsinə baxdı, onu bağrına basdı, astadan dedi:

– Çox əcəb. Payızda məktəbə gedərsən. – Baba qayım, ağır əlini ehmalca oğlanın başına qoydu.

Elə bu zaman oğlanı birdən-birə qəhər boğdu və babasının arıqlığını, onun paltarından gələn tanış qoxunu duydu. Ondan quru ot və iş adamının tər iyi gəlirdi. Bəlkə də həyatda ona ən sədaqətli, etibarlı, doğma olan, onun üçün canını belə əsirgəməyən yeganə bir adam vardı, o da belə sadəlövh, qəribə qoca kişi idi ki, ağıllılar onu Qıvraq Mömün ləqəbi ilə çağırırdılar... Nə olsun ki? Hər necə olsa da, yaxşı ki, hər halda öz babası vardı.

Oğlan, ağlına da gətirməzdi ki, onun sevinci bu qədər böyük ola bilər. İndiyədək o, məktəb haqqında düşünmürdü. İndiyədək o, məktəb uşaqlarını yalnız babası ilə dağlar arxasındakı İssık göl kəndlərinə, hörmətli buqu qocalarının yasına gedəndə görmüşdü. Özü də bu andan etibarən oğlan çantanı əlindən yerə qoymurdu. O dərhal sevinclə, qürrəylə qaçaraq bütün məntəqə sakinlərinə baş çəkdi, əvvəlcə nənəsinə göstərdi – bax, deməzsənmi, babam alıb! Sonra Bekey xalaya göstərdi, o da çantaya görə sevinib, oğlanın özünü təriflədi.

Bekey xalanın nadir hallarda əhvalı xoş olardı. Əksər vaxtları qaşqabaqlı, hirsli olardı, öz bacısı oğluna məhəl qoymazdı, gözünə oğlanmı görünürdü... Öz dərdi özünə bəs eləyirdi. Nənəsi deyirdi: züryəti olmuş olsaydı, o tamamilə başqa cür arvad olardı. Əri Orozqul da eləcə. Onda Mömün baba da indiki kimi olmazdı, ayrı cür adam olardı. Babanın iki qızı vardı – Bekey xala, bir də oğlanın anası – kiçik

qızı; buna baxmayaraq – hər halda öz övladının olmamağı pis şeydir, çox pis. Övladının övladı olmaması daha pisdir. Nənə belə deyir. Gəl, onu başa düş...

Bekey xaladan sonra oğlan çantasını cavanəzən Gülcamala və onun qızına göstərmək üçün onlara tərəf qaçdı. Oradan ot çalınan yerə, Seyidəhmədin yanına endi. Yenə də sarı daşın – "Dəvə"nin yanından qaçaraq keçdi, yenə də onun hürgücünü sığallamağa vaxtı olmadı, "Yəhər"in, "Canavar"ın, "Tank"ın yanından ötdü, sonra hey sahillər, çaytikanı kolluğunun arası ilə uzanan cığırla getdi, nəhayət, çalınmış ot şırımı ilə düz biçənəyə, Seyidəhmədin yanına qaçıb gəldi.

Bu gün Seyidəhməd burada tək idi. Baba öz vərini, üstəlik Orozqulun da vərini çalıb qurtarmışdı. Onlar çaldıqları otu da aparmışdılar – nənə ilə Bekey xala dırmıqlayıb yığmışdılar. Mömün qotmalamışdı, o da babasına arabaya daşımaqda kömək eləmişdi. Pəyənin yanında iki taya vurmuşdular. Baba onları elə səliqəylə yığmışdı ki, necə yağış olur olsun, içinə keçməzdi. Tayalar daraqla daranıbmış kimi sığallı idi. Hər il belə olurdu. Orozqul ot çalmırdı, hər işi qayınatasının boynuna yükləyirdi, necə olmasa da, özü rəis idi axı. "İstəsəm, – deyərdi, – ikinizi də birdən işdən qovaram". Bu sözləri babaya və Seyidəhmədə deyirdi. Kefli olanda belə səfehləyirdi. Babanı qovmazdı. Onda bəs kim işləyəcəkdi? Babasız qalsın, görüm necə qalacaq! Meşədə, xüsusilə payızda iş çox olur. Baba deyirdi: "Meşə qoyun sürüsü deyil, dağılışıb itməz. Amma, ona daha çox gözəl olmaq lazımdır. Ona görə ki, yanğın düşsə, yaxud dağdan güclü sel gəlsə – ağaclar kənara çəkilməz, yerindən tərpənməz, durduğu yerdə məhv olar. Meşəçi də ona görədir ki, ağac tələf olmasın". Seyidəhmədi də Orozqul qovmaz, çünki dinc adamdır. Heç nəyə qarışmır, höcət eləmir. Ancaq o, islah və sağlam gənc olsa da, tənbəldir, yatağandır. Buna görə də özünü meşəçiliyə verib. Baba deyir: "Sovxozda belə oğlanlar maşın sürür, traktorla yer şumlayır". Seyidəhmədin isə bağçasında kartofu sirkən basıb. Əliuşaqlı Gülcamal bağ-bostanı özü becərməli olub.

Ot çalımının başlanmasını da Seyidəhməd yubatmışdı. Srağagün baba bunun üstündə onu bərk danladı: "Ötən qış, – dedi, – sənə yox, heyvanlara yazığım gəldi. Ona görə də ot bölüb verdim. Əgər bu dəfə də mən qocanın otuna göz dikmisənsə, indidən de, sənin üçün də ot çalım". Deyəsən, söz kar eləmişdi, səhər tezdən Seyidəhməd də əlinə dəryaz almışdı.



Arxadan iti addım səsi eşidən Seyidəhməd dönüb baxdı, köynəyinin qolu ilə üzünü sildi.

– Sən hardan belə? Məni çağırırlar, nədir?

– Yox. Çantam var. Budur. Babam alıb. Məktəbə gedəcəyəm.

– Elə bundan ötrü qaçıb bura gəlmisən? – Seyidəhməd qəhqəhə çəkdi. – Mömün baba belədir, – barmağı ilə gicgahını göstərdi, – sən də ona çəkmisən. Yaxşı, ver, görüm necə çantadır? – O, kilidi şaqqıldatdı, çantanı əli ilə o tərəf-bu tərəfə çevirib baxdı, qaytardı, istehza ilə başını buladı, səsini qaldırdı. – Yaxşı, de görüm, sən hansı məktəbə gedəcəksən? Hardadır sənin o məktəbin?

– Necə yəni hansı məktəbə? Fermadakına.

– Yəni Celesaya gedəcəksən? – Seyidəhməd təəccübləndi. – Axı oraya dağı aşıb keçsən, beş kilometrdən az olmaz.

– Babam dedi ki, məni atla aparıb gətirəcək.

– Hər gün gedib-gələcək? Qoca səfehləyib... Elə onun özünün də məktəbə getmək çağıdır. Səninlə bir partada oturar, dərslər qurtaranda da – haydı geriyə! – Seyidəhməd gülməkdən uğundu. O, Mömün babanı nəvəsi ilə bir məktəb partasında yanaşı oturan təsəvvür edib qəşş elədi.

Oğlan pərt halda susdu.

Seyidəhməd izah elədi: – Yaxşı, küsmə, mən elə-belə, gülmək üçün deyirdim!

O, oğlanın burnuna yüngülvarı çırtma vurdu, başındakı baba furajkasının günlüyündən tutub gözünün üstünə basdı. Mömün meşəçi furajkasını başına qoymurdu, utanırdı. ("Nə olub, rəis-zad deyiləm ki? Mən öz qırğız papağımı heç nəyə dəyişmərəm"). Yayda Mömünün başında kənarları solğun qara sətinlə haşiyələnmiş ağ kolpak deyilən "qədimi" keçə şlyapa olardı, qışda isə o, qoyun dərisindən köhnə dəbli tebetey gəzdirərdi. Meşə fəhləsinə məxsus formalı yaşıl furajkanı isə nəvəsinə vermişdi, o gəzdirirdi başında.

Seyidəhmədin yeni xəbəri belə istehza ilə qarşılaması oğlanın xətrinə dəydi. O, qaşqabaqlı halda furajkanın günlüyünü alnına qaldırdı, özü də Seyidəhməd onun burnuna yenə çırtma vurmaq istəyəndə, başını kənara əydi və qabardı:

– Əlini çək!

– Ay səni, əcəb hirsliymişsən? – Seyidəhməd qımışdı. – İncimə. Çantan nəyə desən dəyər! – Özü də əlini onun çiyninə vurdu. – İndi isə aralaş. Mən hələ ot çalmalıyam, bilirsən nə qədər...

Seyidəhməd ovcuna tüpürüb, yenə dəryazdan yapışdı.

Oğlan isə yenə həmin cığırla və yenə də həmin daşların yanından ötərək evə qaçırdı. Daşlarla oynamağa hələlik vaxtı yox idi. Çanta gərəkli şeydi...

Oğlan özü-özüylə danışmağı xoşlayırdı. Amma bu dəfə o, özünə yox, çantaya müraciət etdi: "Sən onun sözünə inanma, mənim babam heç də elə adam deyil. Biclik-zad bilmir və buna görə də ona gülürlər. Çünki babam əsla biclik bilmir. O, səninlə məni məktəbə aparacaq. Sən hələ bilmirsən məktəb hardadır? Çox da uzaqda deyil. Mən sənə göstərərəm. Biz ona Qarovul dağından durbinlə baxarıq. Hələ sənə ağ gəmimi də göstərərəm. Ancaq, gərək əvvəlcə dama gedək. Durbinimi orada gizləmişəm. Buzova baxmalıyam, amma hər dəfə qaçıb gedirəm ağ gəmiyə tamaşa eləməyə. Buzovumuz lap böyüyüb – dartınanda saxlamaq olmur, adət eləyib, inəyi əmmək istəyir. İnək – onun anasıdır, öz südünü əsirgəmir. Başa düşürsən? Analar heç vaxt heç nəyə qısırqanmırlar. Gülcamal da belə deyir, onun öz qızı var... Tezliklə inəyi sağacaqlar, sonra biz buzovu aparıb otaracağıq. O zaman biz Qarovul dağına dırmaşıb, oradan ağ gəmini görərik. Bilirsən, mən durbinlə də, bax, beləcə danışıram. İndi biz üç olacağıq – mən, sən və durbin..."

O, beləcə evə qayıdırdı. Çanta ilə danışmaq xeyli xoşuna gəlmişdi. Söhbəti davam etdirmək niyyətində idi, istəyirdi özü barədə danışsın, çanta hələ çox şeyləri bilmirdi. Lakin ona mane oldular. Yan tərəfdən at tappıltısı eşidildi. Ağacların arasından bir atlı çıxdı. Gələn Orozqul idi. O da evə qayıdırdı. Özündən savayı heç kəsə etibar eləmədiyi boz atı Alabaşın belində, döşlüyü cingiltili gümüş asmalı, mis üzəngili səfər yəhərinə yayxanmışdı.

Orozqulun şlyapası peysərinə enmişdi, xırda tük basan qırmızı alnı açıq qalmışdı. İsti, bürkülü havada onu mürgü basmışdı. Yol gedə-gedə yatırdı. Rayon rəhbərliyinin qiyafəsinə oxşar, yöndəmsiz tikilmiş məxmər kitelinin bütün düymələri açılmışdı. Göbəyində ağ köynəyi kəmərin altından çıxmışdı. O, tox və kefli idi. Bir az əvvəl qonaqlıqda olmuş, köpüncə kumıs içmiş, ət yemişdi. Yay vaxtları ətraf yaylaqlardakı çobanlar və ilxıçılar tez-tez Orozqulu qonaq edirdilər. Onun köhnə dost-tanışları vardı. Amma, onu bir niyyətlə qonaq çağırırdılar. Orozqul lazımlı adam idi. Xüsusən dağda ola-ola kənddə ev tikənlər üçün; sürünü başlı-başına buraxıb gedə bilməz, tikinti materiallarını haradan tapacaqdı? Hər şeydən də əvvəl taxta-şalbanı?



Lakin Orozqulu razı salanda, onda görərdin qoruq meşədən iki-üç seçmə tir verdi sənə, apar, get arxayınca. Yox, belə eləməsən, dağlarda başın sürüyə qarışar, evin də bir əsrə tikilib qurtarmaz...

Ağırlaşmış, təşəxxüslü Orozqul uzunboğaz xrom çəkmələrinin ucunu üzəngiyə saymazyana dirəyərək, yəhərdə mürgü vura-vura yol gedirdi.

Oğlan çantanı yellədə-yellədə gözlənilmədən qabağına yüyürəndə, az qalmışdı atdan yıxılsın.

– Orozqul əmi, çantam var! Məktəbə gedəcəyəm. Bax çantama!

– Səni görüm!.. – Orozqul qorxmuş halda yüyəni dartıb söydü.

O, yuxusuzluqdan və sərxoşluqdan qan çəkmiş gözlərini oğlana zillədi:

– Sən burda neynirsən, hardan belə?

– Mən evə gedirəm. Çantam var, onu Seyidəhmədə göstərirdim. – Oğlan zəif səslə cavab verdi.

– Yaxşı, oyna. – Orozqul deyindi və yəhərdə inamsız halda yırğalanaraq, yoluna davam etdi.

Başqalarına düjün-düjün züryət bəxş etdiyi halda, Allah bu tale küskününə öz belindən gələn bir oğulsa verməmişdi, ata-anasının atıb getdiyi, arvadının bacısı oğlu bu gədə və onun andıra qalmış çantasımı görünürdü Orozqulun gözünə?..

Orozqul fısıldayıb hıçqırdı. Qubar və qəzəb onu boğurdu. Heyfsilənirdi ki, ömrünü nişanəsiz başa vuracaq və bu dəm onun ürəyində arvadının sonsuzluğuna qəzəbi lap coşdu. O məlun arvadı neçə il idi qısır gəzirdi.

"Gör sənə neylərəm!" – Orozqul xəyalən onu hədələdi, ətli yumruqlarını düyüb, hönkürüb ağlamasın deyə qəhərini içində boğub inildədi. Bilirdi işini, qayıdan kimi onu döyəcəkdi. Orozqul içəndə həmişə belə olurdu; bu öküz boyda kişi dərddən və qəzəbdən ağlını itirirdi.

Oğlan cığırla onun ardınca gedirdi. O, qəflətən Orozqul gözdən itəndə, heyrətə gəldi. Orozqul isə çaya sarı dönüb, atdan düşdü, yüyəni atıb hündür otların arası ilə irəlilədi. O, löngər vura-vura, əyilərək gedirdi. Əlləri ilə üzünü örtüb, başını çiyinləri arasına çəkərək gedirdi. Çayın qırağına çatanda Orozqul çömbəldi. Ovcunu çay suyu ilə doldurub üzünə çırpdı.

"Görünür, istidən başağrısı tutub" – Orozqulun hərəkətlərinə göz qoyan oğlan belə qənaətə gəldi. O bilmirdi ki, Orozqul ağlayır və

hıçqırıqlarını kəsə bilmir. Ona görə ağlayırdı ki, qabağına yüyürən öz doğma oğlu deyildi, ona görə ağlayırdı ki, çantalı oğlana bir neçə kəlmə adam kimi söz demək üçün özünü ələ ala bilməmişdi.

2

Qarovul dağının kəlləsindən ətrafın geniş mənzərəsi açılırdı. Oğlan qarnı üstə uzanıb, durbini gözünə uyğunlaşdırırdı. Bu, çox yaxşı göstərən səhra durbini idi. Nə vaxtsa babasına uzun müddət meşə məntəqəsində işlədiyinə görə mükafat vermişdilər. Qoca durbin gəzdirməyi sevmirdi: "Öz gözlərim bundan pis görmür". Nəvəsinin isə xoşuna gəlirdi.

Bu dəfə o, dağın başına durbin və çanta ilə gəlmişdi.

Əvvəlcə, şeylər oynaşdı, kiçik dairəvi şüşə gözdə bir-birinə qarışdı, sonra birdən aydınlaşdı və hər şey öz yerində dayandı. Bu, olduqca maraqlı idi. Oğlan nəfəsini çəkib sakit dayandı ki, tapdığı fokusu itirməsin. Sonra o, durbini başqa səmtə döndərdi və yenidən hər şey biri-birinə qarışdı. Oğlan yenə də okulyarı fırlatmağa başladı.

Buradan hər şey görünürdü. Yalnız səmadan aşağıda olan ən uca qarlı zirvələr də. Dağların arxasındaydı onlar, bütün dağlardan və bütün yer üzündən ucada qərar tutmuşdular. Qarşı zirvələrdən aşağıdakı dağların yamacları meşəlikdi. Ətəkləri qalın cəngəllik, yuxarıları qaraşamlıq. Güngey dağları da Günəşlə üzbəüz dayanmışdı; Güngeyin yamaclarında otdan savayı heç nə bitmirdi. Göl tərəfdəki nisbətən alçaq dağlar isə büsbütün çınqıllı, çılpaq yamaclardan ibarət idi. Yamaclar vadiyədək enirdi, vadi isə göldə birləşirdi. Elə həmin tərəfdə tarlalar, bağlar, kəndlər uzanıb gedirdi... Yaşıl əkin sahələri arasında ala-tala sarı yerlər gözə dəyirdi – biçin yaxınlaşırdı. Yollarda balaca avtomobillər siçan kimi şütüyürdülər, onların arxasınca uzun toz quyruqları burulurdu. Yerin ən ucqar bucağında, gözün sezə biləcəyi son həddə, qumlu sahil yolağından o tərəfdə sinəsi qabarmış gölün tünd-mavi əyriliyi göyərirdi. O, İssık göl idi. Orada su ilə səma birləşirdi. Oradan o yana heç nə yox idi. Göl sakit uyumuşdu, bərq vururdu, kimsəsiz idi. Yalnız sahildə ləpədöyənin oynatdığı ağ köpük güclə sezilirdi.

Oğlan bu tərəfə çox baxdı, çantaya dedi: "Ağ gəmi görünmədi. Gəl, məktəbimizə bir də baxaq".



Buradan dağın arxasındakı qonşu dərə bütövlükdə yaxşı görünürdü. Durbinlə baxanda, hətta evin qabağında, pəncərənin altında oturan qarının əlindəki iplik də aydın nəzərə çarpırdı.

Celasay dərəsində meşə yoxdu, qırılandan sonra yalnız orda-burda tənha qocaman şam ağacları qalmışdı. Bir vaxtlar buralar meşəlik imiş. İndi damı şiferli mal-qara tövlələri cərgələnmişdi, iri peyin topaları və küləş tayaları gözə dəyirdi. Burada südçülük fermaları üçün cins düyələr bəslənirdi. Elə orada, mal-qara tövlələrindən azca aralıda gödəkcik bir küçə vardı – maldarların qəsəbəsi. Küçə əydəmli təpədən aşağı meyllənirdi. Küçənin lap kənarındaca kiçik bir bina vardı, görkəmindən bilinirdi ki, yaşayış evi deyil. Dördillik məktəb bu elə özü idi. Yuxarı sinif uşaqları oxumağa sovxozdakı internat-məktəbə gedirdilər. Burada isə balacalar oxuyurdular.

Oğlan qəsəbədə olmuşdu, boğazı ağrıyanda babası ilə feldşerin yanına getmişdi. İndi o, durbinlə boz kirəmitli, tənha əyri borulu, üzərində əl ilə "Məktəb" yazılmış faner lövhəli kiçik binaya zəndlə baxırdı. O oxuya bilmirdi, ancaq ağlına gəlirdi ki, məhz bu söz yazıla bilər. Durbində ən kiçik şeylər belə ən xırda təfərrüatı ilə aydın görünürdü. Divarın suvağı üzərində cızılmış qarışıq sözlər, kağız yapışdırılmış pəncərə şüşəsi, eyvanın şişib qabarmış, kələ-kötür taxtaları... O, əlində çanta bura necə gələcəyini, indi cəftəsindən iri qıfıl asılan bu qapıdan içəri necə addımlayacağını təsəvvürünə gətirdi. Bəs orada, qapının arxasında nələr olacaqdı?

Məktəbə baxıb qurtarandan sonra, oğlan yenə durbini gölə sarı yönəltdi. Orada isə hər şey əvvəlki kimi idi. Ağ gəmi hələ gözə dəymirdi. Oğlan dönüb, arxası gelə oturdu, durbini kənara qoyaraq aşağı, dağın dibinə baxmağa başladı. Aşağıda, dağın lap dibiylə uzun dərə boyu gümüşü kəndarlı çay kükrəyərək axırdı. Çayla yanaşı sahildə yol uzanırdı və çayla birlikdə yol da dərə döngəsinin arxasında gözdən itirdi. O biri sahil yarğanlı və meşəli idi. San-Taş meşə qoruğu məhz buradan başlayır, dağların qarlı başınadək yüksəlirdi. Şam ağacları bütün ağaclardan yuxarıda bitmişdilər. Tünd, biz-biz yarpaqlı o şamlar silsilə dağların qılıclarında, qarın, qayaların arasında dimdik dayanmışdılar.

Məntəqənin həyətindəki evə, mərəyə və onun yanındakı tikililərə baxanda, oğlanın gülməyi tuturdu. Yuxarıdan onlar balaca, yastı-yapalaq görünürdü. Məntəqədən o tayda, sahil boyunda öz tanış daşlarını

gördü. Onların hamısını – "Dəvə"ni, "Canavar"ı, "Yəhər"i, "Tank"ı – birinci dəfə buradan, Qarovul dağının başından durbinlə seyr etmişdi, elə adlarını da o zaman qoymuşdu.

Oğlan bic-bic gülümsədi, ayağa qalxıb həyətə sarı bir daş atdı. Daş bir qədər aralıda dağın belinə düşdü. Oğlan yenə də öz yerində oturub, durbinlə mənteqəyə baxmağa başladı. Əvvəlcə iri linza tərəfdən balaca gözünə baxdı – evlər lap uzaqlara çəkilib getdi, oyuncaq qutularına çevrildilər. İri qayalar dönüb xırdalaşdı. Babasının çayın dayazlığındakı dəhnəsi lap gülünc göründü. Sərçənin topuğundan olardı. Oğlan gülümsündü, başını buladı və cəld durbini çevirdi, okulyarı fırladı. Onun sevimli daşları nəhəngləşərək elə bil alınlarını durbinin şüşəsinə dirəmişdilər. "Dəvə", "Canavar", "Yəhər", "Tank" elə heybətli idilər ki... Kələ-kötür, çat-çat gövdələrindən əmrov rəngli ləkələr, ən ümdəsi bu idi ki, oğlanın bənzətdiyi şeylərə çox oxşayırdılar. "Hələ "Canavar"a bir bax! Hələ "Tank"a bax, tank buna deyərəm!.."

Babanın dəhnəsi qayalardan o tərəfdə, çayın dayazlığında idi. Sahilin bu yeri durbinlə yaxşı görünürdü. Su qənbərliyə – enli dayaz yerə ani olaraq gəlir, aşırımlarda köpüklənib daşır, yenidən çayın qıjovuna axıb tökülürdü. Çayın dayazlığında su dizdən idi. Lakin elə iti axırdı ki, onun kimi belə cansız-cəlimsiz oğlanı asanlıqla çayaşağı aparardı. Axın onu aparmasın deyə, oğlan sahildəki söyüddən yapışardı, özü də kol söyüd lap çayın qırağında bitmişdi – budaqlarının bir qismi quruda idi, o biriləri isə çaya sallanmışdılar. Bu da çimməkdi? At kimi elə bil cilovlamışdılar. Üstəlik də nə qədər qanqaralığı və söyüşlər! Nənə babaya deyərdi: "Çay aparsa, özündən küssün, gözümün ucuyla da baxmaram. Çox lazım idi mənə! Atası, anası atıb getdi. Dərdim-sərim özümə bəsdir, daha taqətim tükənib".

Nə söz ola bilər? Qarı olsa da, sözün düzünü deyirdi. Amma, orası da var ki, yazıq oğlan da heyf olardı. Axı çay lap yaxından, qapının ağzından axırdı. Qarı nə qədər qorxuzsa da, oğlan özünü suya vurası olurdu. Bax, elə o vaxt Mömün qərara gəldi ki, çayın dayazlığında daşlardan dəhnə düzəltsin, oğlan burada qorxusuz-hürküsüz çimsin.

Qoca Mömün nə qədər daş daşıdı, özü də irilərini seçirdi ki, su diyirlədib aparmasın. Onları qarnının üstündə daşıyırdı, suyun içinə girib daşları yan-yana elə düzürdü ki, su aradan axıb içəri dolsun və eləcə də rahat süzülüb gedə bilsin. Arıq, seyrək saqqallı bu gülməli qoca, tumanı islanıb bədəninə yapışmış halda, bütün günü bu dəhnə ilə



əlləşirdi. Axşamlar üzüqoylu düşüb qalır, öskürür, ağrıdan belini düzəldə bilmirdi. Bax, elə o zaman nənənin ağzı açıldı, necə açıldı: "Kiçiyi səfehdir, nə deyəsən, balacadır, bəs bu qoca axmağa nə düşüb? Özünü niyə əldən salırdın? Yeməyini verirsən, içməyini verirsən, ayrı nə lazımdır? Əlindən gələni eləyirsən. Of, bunun axırı yaxşı olmayacaq!.."

İnsafən, çayın dayazlığında dəhnə çox gözəl çıxmışdı. İndi oğlan qorxusuz-hürküsüz çimirdi. Budaqdan yapışaraq sahildən enir, suya tullanırdı. Özü də hökmən gözüaçıq halda. Ona görə gözlərini yummurdu ki, balıqlar da suda gözüaçıq üzürlər. Onun belə qəribə bir arzusu vardı: istəyirdi balıq olsun. Və üzüb getsin.

İndi durbinlə dəhnəyə baxanda, oğlan təsəvvürünə gətirdi ki, köynəyini, şalvarını necə soyunub atır, çalın-çılpaq, büzüşə-büzüşə suya necə girir. Dağ çaylarının suyu həmişə soyuq olur, əvvəlcə canına üşütmə salır, sonra alışırsan. O, söyüd budağından yapışaraq üzüaşağı axına necə milləndiyini gözləri önünə gətirdi. Yarılmış su başı üzərində necə də şappıldayıb birləşir, qarnında, kürəyində, ayaqlarında necə vicvicə qoparırdı. Suyun altında bayırdakı səslər eşidilmir, qulaqlarına yalnız şırıltı gəlir. Və o, gözlərini bərəldib suyun altında nəzərə çarpa biləcək şeylərin hamısına zəndlə baxırdı. Gözləri gəyişirdi, gözləri ağrıyırdı, lakin o, qürurla öz-özünə gülümsəyir, hətta suda dilini çıxarıb acıq da verirdi. Nənəsinə acıq verirdi. Qoy bilsin ki, o batıb eləmir və heç nədən də qorxan deyil. Sonra o, budağı əlindən buraxır, su onu aparır, nəhayət, ayaqlarını dəhnənin daşlarına dirəyirdi. Bu zaman nəfəsi tıncıxırdı. O, bir təkan verib suyun üzünə qalxır, sahilə çıxır və kol söyüdə sarı qaçırdı. Dönə-dönə belə edirdi. Babanın dəhnəsində gündə yüz dəfə belə çimməyə hazırdı. Dönüb lap balıq olanadək çimmək istəyirdi. O mütləq, necə olursa-olsun, balıq olmaq istəyirdi...

Çayın sahilini seyr edə-edə, oğlan durbini öz həyətlərinə sarı döndərdi. Toyuqlar, hinduşka və balaları, kötüyə sancılmış balta, tüstülənən samovar və həyətdəki başqa-başqa şeylər elə iri görünürdü, elə yaxında idi ki, oğlan istər-istəməz əlini onlara tərəf uzatdı. Elə bu dəm durbinin fil boyda böyütdüyü boz buzovun ipdən asılmış alt paltarını rahat-rahat çeynədiyini görüb dəhşətə gəldi. Buzov ləzzətdən gözlərini qıymışdı, dodaqlarından selik axırdı – nənənin paltarını ağızdolusu çeynəmək onun xoşuna gəlirdi...

– Axmağın biri! – Oğlan durbinlə birlikdə dikəldi və əlini havada yellətdi: – Çəkil, tez! Eşidirsən, rədd ol! Baltek! Baltek! (Köpək evin yanında rahatca yatmışdı) Tut, qap onu! – Dilxor halda itə əmr elədi.

Lakin Baltek, heç qulağını da tərpətmədi. Elə yatmışdı ki, dünyadan xəbəri yoxdu.

Elə bu vaxt nənə evdən çıxdı. Qarı bunu görüb əllərini dizinə çırpdı. Süpürgəni qapıb buzovun üstünə cumdu. Buzov götürüldü, nənə də onun dalınca. Oğlan durbinin səmtini dəyişmədən yerə çökdü ki, dağın başından görünməsin. Qarı buzovu qovub, söyə-söyə evə sarı döndü, hirsindən və tez-tez getdiyindən təngnəfəs olmuşdu. Oğlan onu elə yaxşı görürdü ki, sanki lap yanında dayanmışdı, bəlkə hələ ondan da yaxında. O, qarını obyektivdə iri planda götürmüşdü. Kinoda adamın sifətini ayrıca iri planla göstərdikləri kimi. Hələ qarının qəzəbdən qıyılmış sarımtıl gözlərini də görürdü. Qırışmış, qat-qat olmuş üzünün büsbütün pörtdüyünü görürdü; kinoda qəflətən səs kəsiləndə olduğu kimi, nənənin dodaqlarının durbində tez-tez, səssiz tərpəndiyini və kobud, tək-tək dişlərini görürdü. Qarının qışqıra-qışqıra nələr dediyini uzaqdan ayırd etmək çətindi, amma onun sözlərini oğlan elə aydın və səlis eşidirdi ki, elə bil lap qulağının dibində danışırdı. Qarı onu ay söyürdü ha! Oğlan əzbərdən bilirdi: "Yaxşı, baxarıq... Hələ qayıt gəl. Dərsini verərəm onda! Heç babaya da baxmaram. Neçə kərə demişəm o gözə tutulan andırı tulla getsin. Yenə qaçıb gedib dağa. Görüm o şeytan gəmisinin altı üstünə çevrilsin, onu görüm suda batsın!.."

Oğlan dağ başında dərindən ah çəkdi. Tərsliyə bir bax, çanta alınan gün, məktəbə getməyin həsrətini çəkdiyi gün gərək elə buzov paltar çeynəyəydi!..

Qarı sakit olmaq bilmirdi. Söyməyini davam etdirərək çeynənmiş paltarına baxırdı. Gülcamal da qızı ilə onun yanına gəldi. Ona şikayətlənə-şikayətlənə qarı daha da qızışdı. Yumruqlarını qaldırıb, dağa tərəf silkələdi. Sümükləri çıxmış qaramtıl yumruğu okulyarın önündə onu uzaqdan hədələyirdi: "Özünə əyləncə tapıb. Görüm o şeytan gəmisi yerə girsin! Onu görüm yanıb kül olsun, onu görüm suda batsın elə!.."

Həyətdə samovar artıq qaynayırdı. Qapağın altından buxarın necə çıxdığı aydın görünürdü. Bekey xala samovarı aparmaq üçün bayıra çıxdı. Hengamə təzədən başladı. Nənə çeynənmiş paltarını az qala onun burnuna dürtəcəkdi: "Al, bacın oğlunun işdəklərinə bir bax!"



Bekey xala təskinlik verməyə, onu dilə tutmağa başladı. Oğlan onun dediklərini anlayırdı. Təxminən əvvəlkilər kimi: "Ənekə, bir toxta. Uşaqdır, ağlı kəsmir, ondan nə umursan? Tək-tənhadır, tay-tuşu yoxdur. Niyə hay-küy salırsan, niyə uşağı qorxudursan?"

Nənə də, şübhəsiz, ona belə cavab verirdi: "Sən mənə öyüd vermə, hünərin var, doğ, onda görərsən, uşaqdan nə umarlar. Orada, dağda o niyə veyllənir? Buzovu hörükləməyə vaxtı yoxdur. Bəs orada nəyə tamaşa edir? Özünün fərsiz valideynlərinə? Onu dünyaya gətirib, sonra da hərəsi baş götürüb bir yana qaçanlaramı? Sənin nə vecinə, sonsuzsan..."

Hətta uzaq məsafədən belə oğlan durbinlə gördü ki, Bekey xalanın batıq yanaqları necə bozardı, hirsindən bədəni necə titrəyib əsdi – yəqin bilirdi xalası əvəzini necə çıxacaq – o, ögey anasının üzünə çımxırdı: "Bəs özün, a kaftar, nə qədər oğul-qız böyütmüsən? Sən kimsən axı?"

Qalmaqal təzədən necə başladı!.. Nənə yanıb-yaxıldı, özündən çıxdı. Gülcamal istədi arvadları barışdırsın, dilə tutdu onları, nənəni qucaqlayıb evə aparmağa çalışdı, o isə təzədən qızışdı, dəli kimi həyətdə o tərəf-bu tərəfə qaçdı. Bekey xala qaynar samovarı götürüb, suyu çalxalana-çalxalana, lap qaça-qaça evə apardı. Nənə isə əldən düşüb, kötüyün üstünə çökdü. Hönkür-hönkür ağlayaraq, öz taleyindən acı-acı şikayətləndi. İndi oğlan yaddan çıxmışdı, Allah-taalaya, bütün işıqlı dünyaya əl aparırdı. "Mən kiməm? Məndən soruşursan ki, mən kiməm? – Nənə qızlığının ardınca söylənirdi. – Əgər Allahın qəzəbinə keçməsəydim, əgər beş körpəmi əlimdən almasaydı, madar oğlum on səkkiz yaşında müharibədə güllə qurbanı olmasaydı, əgər istəkli qocam Tayqara qoyun sürüsüylə birlikdə borana düşüb donmasaydı, mənim burada, meşə adamları arasında nə əməlim azmışdı. Mən sənin, sonsuzun tayıyam? Məgər mən bu ahıl yaşımda sənin səfeh atan Mömünlə yaşayardımmı? Günahım nəydi ki, məni bu bəlaya salmısan, məlun Allah!"

Oğlan durbini gözündən çəkdi, qəmli-qəmli başını aşağı saldı.

"İndi biz evə necə qayıdacağıq? – Astadan o, çantaya dedi. – Bütün günahlar məndə və səfeh buzovdadır. Bir də səndədir, ay durbin. Sən daim məni ağ gəmiyə baxmağa çağırırsan. Sənin də təqsirin var".

Oğlan ətrafına boylandı. Hər tərəf dağlar, qayalıq, daşlıq, meşəlik idi. Hündürdən – buzlaqdan ırmaqlar bərq vuraraq, səssiz-səmirsiz

üzüaşağı axırdı, yalnız burada, aşağıda suyun səsi açılır, sanki əbədi olaraq, susmadan çayda hey zümzümə eləmək üçün dilə gəlirdi. Dağlar isə çox nəhəng idi və göz işlədikcə uzanıb gedirdi. Oğlan bala bu dəm özünü çox kiçik, çox tənha və unudulmuş hiss edirdi. Burada bir o idi, bir də dağlar, hər yanda dağlar, uca dağlar.

Günəş göl tərəfdə qürub edirdi. Havanın istisi azalmışdı. Şərq yamaclara ilk, qısa kölgələr düşmüşdü. Günəş indi get-gedə aşağı enəcək, kölgələr isə sürünüb aşağı, dağın dibinə düşəcəkdi. Bax, günün bu çağında adətən İssık göldə ağ gəmi peyda olurdu.

Oğlan durbini göz yetişən ən uzaq yerə yönəltdi və nəfəsini dərib dayandı. Odur ey! Ani olaraq hər şey yaddan çıxdı; orada, irəlidə İssık gölün gömgöy ləpələri arasında gəmi peyda olmuşdu. Üzür! Bax, odur ey! Qatarlanmış borulu, uzun, nəhəng, gözəl gəmi. O, sim boyu üzürmüş kimi dümdüz, birbaşa irəli gedirdi. Oğlan tələsik köynəyinin ətəyi ilə şüşəni silib, bir daha okulyarı düzəltdi. Gəmi daha aydın göründü. İndi onun mavilikdə necə yırğalandığını, arxasınca necə şəffaf köpüklü iz buraxdığını sezmək olurdu. Oğlan gözünü çəkmədən, heyrətlə ağ gəmiyə baxırdı. Əgər iqtidarı olsaydı, ağ gəmidən xahiş edərdi ki, lap yaxına üzüb gəlsin, elə gəlsin ki, içindəki adamları da görmək mümkün olsun. Lakin gəmi bundan xəbərsiz idi. O, yavaş-yavaş, əzəmətlə öz yoluna davam edirdi, haradan gəldiyi, hara getdiyi bəlli deyildi.

Gəmi çox üzdü, oğlan isə ona baxa-baxa xeyli fikirləşdi ki, dönüb balıq olacaq, çayla üzüb ağ gəminin yanına gedəcək...

Günlərin birində, ilk dəfə Qarovul dağından İssık gölün göy sinəsində ağ gəmini görərkən, onun ürəyi bu gözəllikdən cuşa gəlmişdi, dərhal onda belə qənaət yaranmışdı ki, onun İssık göl matrosu olan atası məhz bu ağ gəmidə üzür. Və oğlan buna inanmışdı, özü də ona görə ki, ürəyi bunu çox istəyirdi.

O, nə atasını, nə də anasını xatırlayırdı. Onları bir dəfə də görməmişdi. Onlardan heç biri bir dəfə də olsun ona baş çəkməmişdi. Ancaq oğlan yəqin bilirdi: atası İssık göldə matros işləyir, anası isə atasından ayrılandan sonra oğlunu babanın yanında qoyub, şəhərə gedib. Elə o gedən olub. Dağların o üzünə, göldən o tərəfə, o biri dağların da arxasındakı uzaq şəhərə gedib.

Mömün baba bir dəfə həmin şəhərə kartof satmağa getmişdi. Bir həftə xəbər-ətər olmadı, qayıdandan sonra çay içə-içə Bekey xalaya və nənəyə nəql etmişdi ki, öz qızını, yəni oğlanın anasını görüb. O, iri



bir fabrikdə toxucu işləyir. Təzə ailə qurub – iki qızı var, uşaq bağçasına verir, həftədə yalnız bir dəfə görə bilir. Böyük bir binada olur, ancaq kiçik mənzilləri var, elə balacadır ki, tərpənmək olmur. Həyətdə isə, bazarda olduğu kimi, heç kəs heç kəsi tanımır. Hamı belə yaşayır – evlərinə girən kimi qapını kilidləyirlər. Həmişə, həbsxana kimi, bağlıda otururlar. Əri də, deyəsən, şoferdir, küçədə avtobusla adam daşıyır. Səhər saat dörddən gedir, gecə keçəndə gəlir. Onun da işi ağırdır. Babanın dediyinə görə qızı hey ağlayıb, üzr istəyib. Təzə mənzil növbəsinə dayanıblar. Nə vaxt alacaqlar, bilinmir. Alanda, əri icazə versə, oğlunu aparacaq yanına. Qocadan xahiş eləyib ki, hələlik gözləsin. Mömün baba ona deyib ki, xiffət eləməsin. Başlıcası odur ki, əriylə dil tapıb dolansın, qalan şeylər yola gedər. Oğlundan da nigaran olmasın. "Nə qədər canım sağdır – oğlanı heç kəsə verməyəcəyəm, ölərəm – Allaha tapşıraram, fərasəti varsa, bir yana çıxar..." Qocanı dinləyən Bekey xala və nənə hərdən köks ötürür, hətta doluxsunub ağlamsınırdılar da.

Bəli, elə o vaxt, çay süfrəsi arxasındaca onlar oğlanın atasından da söz saldılar. Baba eşidib ki, guya onun keçmiş kürəkəni, oğlanın atası, hansısa bir gəmidə matros işləyir və onun da yeni ailəsi, iki, ya üç uşağı var. Evləri liman körpüsünün yanındadır. Deyilənə görə içkini atıb. Təzə arvadı isə hər dəfə uşaqları da götürüb onun pişvazına körpüyə çıxır. Belə çıxır ki, – oğlan fikirləşdi, – onlar ağ gəmini, onun gəmisini qarşılayırlar".

Gəmi isə üzür, yavaş-yavaş uzaqlaşırdı. Bəyaz, uzun gəmi, borularını tüstülədə-tüstülədə gölün hamar, mavi səthi ilə şütüyürdü, özü də balıq-oğlana dönmüş oğlanın ona sarı üzdüyündən xəbərsizdi.

O, elə balığa dönmək istəyirdi ki – bədəni də, quyruğu da, üzgəcləri də, pulcuqları da balığınkı kimi olsun, təkcə başı, nazik boynu, iri pələ qulaqları, cırmaq-cırmaq olmuş burnu isə özününkü olsun. Gözləri də özününkü qalsın. Əlbəttə, onlar indiki kimi olmaqdan başqa, həmçinin balıq gözü kimi də baxa bilsinlər. Oğlanın kirpikləri buzov kirpikləri kimi uzundu, həm də nədənsə daim öz-özünə səyriyirdi. Gülcamal deyirdi ki, qızının kirpikləri onunkulara oxşasaydı, onda lap gözəl olardı! Gözəl niyə olsun? Qız, ya oğlan? Çox vacib imiş! Şəxsən ona gözəl gözlər lazım deyil, ona elə gözlər lazımdır ki, suyun altını da görə bilsin.

O, balığa babanın dəhnəsində dönməliydi. Göz qırpımında dönüb olar balıq. Sonra dərhal dəhnədən çaya, birbaşa qıjovlu axına sıçrayar,

üzüaşağı üzüb gedərdi. Üzə-üzə hərdənbir atlanıb ətrafa baxar; axı həmişə suyun altı ilə üzmək cansıxıcı olar. O, qırmızı gilli dərin yarğanı, daşaltı qayaları, burunları, dağları, meşələri arxada buraxıb, iti axan çayla üzüb gedirdi. O, sevimli daşlarından ayrılırdı: "Əlvida, "Xıxmış dəvə", əlvida, "Canavar", əlvida, "Yəhər", əlvida, "Tank", məntəqənin yanından keçəndə o, sıçrayıb sudan çıxacaq, üzgəci ilə babasına əl eləyəcək. "Əlvida, baba, tezliklə qayıdaram". Baba bu möcüzədən çaşıb qalar, nə edəcəyini bilməzdi. Nənə də, Bekey xala da, Gülcamalla qızı da – hamısının ağzı açıla qalardı. Harda görünüb ki, baş insan başı olsun, bədən balıq! O isə üzgəcini havada yellədir: "Əlvida, mən üzüb gedirəm. İssık gölə, ağ gəminin yanına. Matros atam oradadır". Baltek yəqin sahil boyu götürüləcək. Axı it heç vaxt belə şey görməyib. Əgər Baltek birdən özünü suya atmaq istəsə, o qışqıracaq: "Olmaz, Baltek, olmaz! Batarsan!" Özü isə üzəcək. Asma körpünün urazları altından keçəcək, sonra dar sahillərin arasından adlayaraq, qıjıldayan dərənin içi ilə düz İssık gölə üzüb gedəcək.

İssık göl isə əməlli-başlı dənizdir. İssık gölün sinəsi ilə üzəcək, bu dalğa mənim, o dalğa sənin, nəhayət, gəlib ağ gəmiyə qovuşacaq. Salam, ağ gəmi, mənəm ey! O, gəmiyə belə deyəcək. Həmişə durbinlə sənə baxan mən idim. Gəmidəki adamlar heyrətlənər, möcüzəyə baxmaq üçün axışıb gələrdilər. O zaman o öz matros atasına deyəcək: "Salam, ata, mən sənin oğlunam. Mən üzüb sənin yanına gəlmişəm". – "Sən hardan mənim oğlum oldun? Sən yarıbalıq-yarıinsansan!" – "Sən məni yanına, gəmiyə qaldır, mən dönüb sənin oğlun olaram" – "Qəribədir! Yaxşı, gəl görək". Atası tor atıb, onu sudan çıxaracaq, göyərtəyə qaldıracaq. Orada o dönüb olacaq özü. Sonra isə, sonra...

Sonra ağ gəmi üzüb yoluna davam edəcək. Oğlan atasına bildiklərinin hamısı barədə, başına gələnləri danışacaq. Qoynunda yaşadığı dağlar haqqında, həmin o daşlar barədə, çay və meşə qoruğu barədə, balıq kimi gözüaçıq üzməyi öyrəndiyi baba dəhnəsi haqqında...

Əlbəttə, Mömün babanın yanında günlərinin necə keçdiyi barədə də danışacaq. Qoy atası güman eləməsin ki, əgər ləqəbini Qıvraq Mömün qoyublarsa, deməli o, pis adam olar. Babanın tayı-bərabəri yoxdur, babaların ən yaxşısıdır. O heç biclik bilmir, buna görə də hamı ona gülür. Orozqul əmi isə, hələ bir qoca kişinin üstünə çımxırır da! Hətta adamların yanında da babanın üstünə qışqırdığı olub. Baba isə öz haqqını tələb eləmək əvəzinə bunları Orozqula keçir, hətta onun



əvəzinə meşədə işləyir, onun təsərrüfat işlərini görür. Hə, orada nə iş var axı? Orozqul əmi sərxoş gələndə, hə, o vicdansızın üzünə tüpürmək əvəzinə, baba onun qabağına yüyürür, atdan düşürdür, evə aparıb çarpayıya uzandırır, üşüməsin, başı ağrımasın deyə üstünü kürklə örtür, atın isə yəhərini alır, qaşovlayır və yem verir. Bunun hamısını ona görə eləyir ki, Bekey xala sonsuzdur. Niyə belə eləyir, ata? Belə yaxşı olmaz – doğmaq istəyirsən, doğ, istəmirsən, lazım deyil. Orozqul əmi Bekey xalanı döyəndə babanın yazığı gəlir. Babanın özünü döysə, ondan yaxşı olardı. Bekey xala qışqıranda, o elə əzab çəkir, elə əzab çəkir ki. Əlindən nə gəlir? Qızına kömək etmək istəyəndə, nənə qoymur: "Sən qarışma, – deyir, – özləri ayırd edərlər. Qoca kişisən, sənin nə işin var? Sənin arvadın ha deyil, qaxıl, otur yerində". – "Axı qız mənimkidir!" Nənə isə: "Uzaqda yaşasan, qonşu olmasaydın, eviniz yan-yana olmasaydı, nə edərdin? Hər dəfə onları aralaşdırmaq üçün ordan bura at qovacaqdın? Bundan sonra sənin qızını kim evində saxlayardı!"

Nənə deyirəm ha, – o sən görən nənə deyil. Ata, yəqin heç sən onu tanımırsan da. Başqa nənədir. Mən balaca olanda doğma nənəm öldü. Sonra bu nənə gəldi. Bizdə havadan baş çıxarmaq olmur axı – gah aydın, gah da dumanlı olur, gah yağış yağır, gah da dolu. Nənə də belədir, dəymə-düşərdi, baş açmaq olmur. Gah mehribandır, gah qəzəbli, gah da heç nə ondandır, nə bundan. Hirslənəndə bizi cana gətirir. Babamdan mən susuruq. Qarı deyir ki, yadı nə qədər yedirt, içirt, ondan xeyir görməzsən. Ata, mən axı yad deyiləm. Mən həmişə babamdan bir yerdə olmuşam. O özü yaddır, sonradan bizim yanımıza gəlib. Üstəlik, hələ məni yad adlandırır.

Qışda qar boğazımadək çıxır. Bilirsən necə qar bağlayır! Meşəyə ancaq boz at Alabaşın belində getmək olar, o, qar qalaqlarını döşüylə yarır. Güclü də küləklər əsir, ayaq üstə durmaq olmur. Göldə dalğa qalxanda, sənin gəmin lengər vuranda – onda bil ki, gölü bizim San-Taş küləyimiz yırğalayır. Babam danışır ki, çox zamanlar bundan əvvəl, düşmənlər bu torpağı tutmaq istəyib. Onda bizim San-Taşdan elə külək əsib ki, düşmənlər yəhərdə tab gətirə bilməyiblər. Atdan enibler, piyada da getmək mümkün olmayıb. Külək üzlərini qançır eləyib. Dönüblər, dal-dalı gedibler, külək arxadan çırpıb, yan-yörələrinə baxa bilməyiblər, dayana bilməyiblər, külək hamısını İssık gölə töküb, bir nəfər də qalmayıb. Bax, belə olub. Biz, bax, belə bir küləkli yerdə yaşayırıq!

O, biz tərəfdən əsməyə başlayır. Bütün qışı çayın o tayındakı meşədə külək vıyıldayır, uğuldayır, inildəyir. Çox dəhşətli olur.

Qışda meşədə iş o qədər də çox olmur. Qışda bizim tərəflərdə adam yaşamır, yayda köçlər daşınanda hara, onda hara, yayda böyük otlaqda sürülərin, ilxıların gecələməsini çox xoşlayıram. Doğrudur, obaşdan yola düşüb dağlara sarı üz tuturlar. Lakin onlar gələndə çox yaxşı olur... Onların uşaqları və arvadları yük maşınlarında gəlirlər. Yük maşınlarında dəyələr və başqa şeylər də daşıyırlar. Bir az yırıyığış edəndən sonra babamla gedirik görüşməyə, hamısı ilə əl tuturuq. Mən də əl verirəm. Babam deyir ki, yaşca kiçik həmişə birinci olaraq əl uzatmalıdır. Kim əl vermirsə, o, adamlara hörmət eləmir. Sonra babam deyir ki, yeddi adamdan biri peyğəmbər ola bilər. O çox nəcib, ağıllı adam olur. Kim ona əl verib görüşürsə, bütün ömrü boyu xoşbəxt yaşayır, mən də deyirəm: – Elə isə niyə o peyğəmbər peyğəmbərliyini bildirmir ki, hamımız əl verib onunla görüşək. – Babam gülür: – İş də burasındadır, – deyir, – peyğəmbər özü də bilmir ki, o peyğəmbərdir – o, adi bir adamdır. Yalnız quldur bilir ki, o, quldurdur. Bunlardan baş açmıram, utansam da həmişə adamlarla salamlaşıram.

Babamla çəmənə gələndə utanmıram.

Babam deyir: "Ata-baba yaylağına xoş gəlibsiniz! Mal-qaranı, adamları yerbəyer eləmisinizmi, uşaqları rahatlamısınızmı? – Mən ancaq əl verib görüşürəm. Babamı hamı tanıyır, o da hamı ilə tanışdır. Onun üçün xoş keçir. Onun öz söz-söhbəti var: gəlmələri sorğu-suala tutur, bizim güzəranımızdan danışır. Mən isə bilmirəm uşaqlara nədən danışım. Sonra başlayırıq gizlənqaç, dava-dava oynamağa – oyun qurtarandan sonra da dağılışmaq istəmirsən. Kaş həmişə yay olaydı, kaş həmişə uşaqlarla çəməndə oynayaydıq!

Biz oynayırıq, tonqallar yandırılır. Ata, sən elə bilirsən ki, çəmən tonqaldan işıqlanır? Qətiyyən yox! Yalnız alovun yan-yöresi işıqlanır, kənarda isə qabaqkından da qatı qaranlıq olur. Biz isə dava-dava oynayırıq, qaranlıqda gizlənirik, həmlə edirik; elə bil lap kinodasan. Komandirsənsə, hamı sənə qulaq asır. Komandir olmaq yəqin çox yaxşıdır.

Sonra dağların arxasından Ay doğur. Aydınlıqda oynamağın ayrı ləzzəti var, ancaq baba məni aparır. Biz çəməndən, kolluqdan keçib evə gedirik. Qoyunlar sakitcə yatıb. Atlar ətrafda otlayır. Biz gedə-gedə qulağımıza səs dəyir – kimsə mahnı oxuyur. Cavan çobandır, kim bilir, bəlkə də yaşlı çobandır. Babam məni saxlayır: "Qulaq as. Belə



mahnını həmişə eşitmək olmur". Biz dayanıb qulaq asırıq. Babam köksünü ötürür. Başını mahnının ahəngində tərpədir.

Babam deyir ki, keçmiş zamanlarda bir xan o biri xana əsir düşübmüş. Həmin bu xan əsir xana belə deyib: "Mənim yanımda qul olmaq istəyirsənsə qal, ya da ən böyük arzunu yerinə yetirib, səni öldürəcəyəm". O birisi fikirləşib deyir: "Qul olmaq istəmirəm. Yaxşısı budur, məni öldür, ancaq öldürməmişdən mənim vətənimdən kim olsa, bir çoban çağırtdır bura". – "Nəyinə lazımdır? – "Ölümqabağı onun mahnısını dinləmək istəyirəm". Babam deyir: doğma mahnı üçün adamlar həyatlarından keçirlər. Kaş görəydim onlar necə adamlardır. Çox güman iri şəhərlərdə yaşayırlar?

"Mahnı dinləmək yaxşıdır, eləmi? – Babam pıçıldayır. – İlahi, necə mahnılar oxuyardılar!.."

Bilmirəm heç niyə babama belə yazığım gəlir, onu elə çox istəyirəm ki, istədiyimdən ağlamağım gəlir.

Səhər tezdən çəməndə heç kəs gözə dəymir. Qoyunları və atları sürüb dağlara sarı aparıblar, bütün yayı orada qalacaqlar. Onlar gedəndən sonra başqa kolxozlardan köçlər gəlir. Gündüzlər dayanmırlar, ötüb keçirlər. Gecələr isə çəməndə köç düşür. Babamla mən gedirik onlarla görüşməyə. Babam adamlarla görüşməyi çox sevir, mən də ondan öyrənmişəm. Bəlkə bir vaxt çəməndə əsl peyğəmbərlə də görüşəcəyəm...

Qışda Orozqul əmi ilə Bekey xala şəhərə, həkimə gedirlər. Deyirlər həkim kömək edə bilər, elə dərman verər ki, uşaq doğular. Ancaq nənə həmişə deyir ki, yaxşısı budur, pirə getsin. Pir dağların o üzündədir, pambıq əkilən yerdə. Hə, orada düzənlikdə, lap çölün düzündə, adamın ağlına gəlməyən bir yerdə bir Süleyman dağı var, müqəddəs dağdır. Əgər onun ətəyində qara qoyun kəssən və Allaha dua etsən, dağa tərəf gedə-gedə sidqlə hər addımda yalvarıb-yaxarıb, ondan imdad istəsən, rəhmi gələr və uşaq verər. Bekey xala çox istəyir ki, oraya, Süleyman dağına getsin. Orozqul əminin isə o qədər ürəyindən deyil. Uzaqdır. "Çoxlu pul lazımdır, – deyir, – gərək təyyarə ilə gedəsən, dağın o üzündədir. Təyyarəyədək hələ nə qədər yol getməlisən, bu da pul istəyir..."

Onlar şəhərə gedəndə, məntəqədə lap yalqız qalırıq. Bir biz oluruq, bir də qonşularımız – Seyidəhməd əmi, arvadı Gülcamal və onların balaca qızı. Vur-tut bu qədər adam.

Axşamlar, işi qurtarandan sonra, babam mənə nağıl danışır. Bilirəm, bayırda qaranlıqdır, göz-gözü görmür, şaxta iliyə işləyir. Acı külək əsir. Lap nəhəng dağlar belə həmin gecələrdə eymənir, biri-birinə sığınıb bizim evə, pəncərəmizdən düşən işıqlara pənah gətirirlər. Bundan həm vahimələnirəm, həm də fərəhlənirəm. Mən azman olsaydım, əynimə azman kürkü geyib evdən çıxardım. Üzümü o dağlara tutub, ucadan deyərdim: "Dağlar, qorxmayın! Mən buradayam. Mən nə küləkdən, nə zülmətdən, nə tufandan qorxuram, siz də qorxmayın. Öz yerinizdə dayanın, bir yerə yığışmayın". Sonra mən qar tığlarını yarıb gedərdim, çaylardan adlayardım, gəlib çıxardım meşəyə. Axı gecələr meşələrdə ağaclar da qorxurlar. Onlar təkdirlər, hayanları yoxdur. Çılpaq ağaclar soyuqdan titrəyirlər, daldalanmağa yerləri yoxdur. Mən meşədə gəzərdim, hər ağacın gövdəsinə əl vurub ürəkləndirərdim ki, qorxmasın. Yəqin, baharda göyərməyən ağaclar məhz o ağaclardır ki, onlar qorxudan donublar. Sonra biz bu qurumuş ağacları qırıb odun eləyirik.

Babam mənə nağıl danışanda, mən bütün bunlar haqqında düşünürəm. O, uzun-uzadı nağıl deyəndir. Cürbəcür nağıllardır – gülməlisi də var, xüsusən Cırtdan Çıpalaq nağılı çox gülməlidir. Yalquzaq canavar bədbəxtlikdən oğlanı udur. Yox, əvvəlcə dəvə yeyir onu, Çıpalaq yarpaqların altında yuxuya gedibmiş, dəvə də orada veyllənirmiş, yarpaq-yarpaq qatışıq onu da ötürür içəri. Buna görə də deyirlər: dəvə yediyini bilməz. Çıpalaq qışqırır, köməyə çağırır. Qocalar sevimli Çıpalağı xilas etmək üçün dəvəni kəsməli olurlar. Yalquzaq canavarın başına ondan da qəribə macəra gəlib. O da səfehliyinin ucbatından Çıpalaqı udub. Sonra da acı-acı göz yaşı axıdıb. Yalquzaq Çıpalağa rast gəlir: "Əl-ayağıma dolaşan bu böcək nədir? Bircə anda mən səni hop eləyib udaram". Çıpalaq isə deyir: "Canavar, mənimlə işin olmasın, yoxsa səni itə döndərərəm". – "Ha, ha, – canavar qəhqəhə çəkib gülür, – bu harda görünüb ki, canavar dönüb it ola! Ədəbsizliyinə görə mən səni yeyəcəm". Və onu udur. Udur və udduğunu da yaddan çıxarır. Bu gündən də o, canavar məcazından məhrum olur. Elə ki, canavar qoyunlara yaxın gəlir, Çıpalaq onun qarnında çığırır: "Ey, çobanlar, yatmayın! Mənəm, boz qurdam, qoyunlarınızı daşıyıb aparacağam!" Canavar bilmir neyləsin. Yan-yörəsini gəmirir, özünü yerə çırpır, eşələnir. Çıpalaq isə susmur: "Ey, çobanlar, gəlin, məni əzişdirin, dərimi



soyun". Çobanlar dəyənəklə canavarın üstünə cumurlar, canavar da qaç ki, qaçasan. Çobanlar heyrət içində onu qovurlar. Yalquzağın başı xarab olub, nədir; özü qaçır, özü də bağırır: "Tutun məni!" O zaman yalquzaq götürülüb aradan çıxır. Lakin bununla vəziyyəti yaxşılaşmır. Hara baş vurursa, Çıpalaq onun işini korlayır. Hər yerdən onu qovalayırlar, hər yerdə onu ələ salırlar. Aclıqdan canavar əldən düşür, bir dəri qalır, bir sümük. Dişləri dişlərinə dəyib şaqqıldayır, zingildəyir: "Bu nə cəzadır çəkirəm? Özüm-özümə düşmən kəsilmişəm. Qoca yaşımda başım xarab olub, ağlımı itirmişəm". Çıpalaq isə onun qulağına pıçıldayır: "Taşmatgilə qaç, onun qoyunları kökdür. Baymatgilə qaç, onun itləri kardır. Ərmətgilə qaç, onun çobanları yatıb". Canavar isə yerə oturub ağlayır, sızlayır: "Heç yana getməyəcəm, yaxşısı budur, gedim birisinin qapısında it olum..."

Doğrudan da, ata, gülməli nağıldır? Babamın başqa nağılları da var, qüssəlisi, dəhşətlisi, kədərlisi. Mənim ən çox sevdiyim Buynuzlu ana maral haqqındakı nağıldır. Babam deyir ki, İssık göldə yaşayan hər bir kəs bu nağılı bilməlidir. Bilməmək günahdır. Ata, bəlkə sən onu bilirsən? Babam deyir ki, hər şey gerçəkdir. Bu, vaxtilə olmuş işdir. Deyir ki, hamımız Buynuzlu ana maralın övladlarıyıq. Mən də, sən də, başqaları da...

Bax, qışda biz belə yaşayırıq. Qış uzun sürür. Əgər babamın nağılları olmasaydı, qışda mən çox darıxardım.

Baharda isə biz tərəflər yaxşı olur. Havalar yaxşıca qızanda çobanlar yenə dağa gəlirlər. Bu zaman biz dağlarda yalnız qalmırıq. Amma çayın o tayında, bizdən o tərəfdə kimsə olmur. Orada yalnız meşə var, bir də meşədəkilər. Biz ona görə məntəqədə yaşayırıq ki, heç kəsin ayağı ora dəyməsin, heç kəs bir budağa da əl vurmasın. Bizlərə hətta alim adamlar da gəlmişdilər. İki arvad idi, ikisi də şalvar geymişdi, bir qoca kişi və bir də cavan oğlan. Oğlan onların tələbəsi idi. Düz bir ay qaldılar. Ot, yarpaq, budaq toplayırdılar. Onlar dedilər ki, bizim San-Taşda olan meşələrdən yer üzündə çox az qalıb. Demək olar, heç yoxdur. Ona görə də meşədəki hər bir ağacı qoruyub saxlamaq lazımdır.

Mən də elə bilirdim ki, babam hər ağacın üstündə elə-belə əsir. Orozqul əmi şam ağaclarını tirlik üçün bağışlayanda qocanın acığı gəlir.

3

Ağ gəmi üzüb uzaqlaşırdı. Durbinlə onun borularını ayırd eləmək olmurdu. Tezliklə o gözdən itəcəkdi. Vaxt çatmışdı, oğlan atasının gəmisində üzməyinin axırını uydurmalıydı. Hər şey yaxşı gəlmişdi, bircə axırını düşünüb tapa bilmirdi. O dönüb balıq olmağı, çayla üzüb gölə getməyi, ağ gəmiylə rastlaşmağı, atası ilə görüşməyi asanlıqla təsəvvürünə gətirirdi. Atasına danışdıqları da özü-özlüyündə yaxşı idi. Ancaq sonrası düz gəlmirdi. Elə ona görə ki, məsələn, sahilə yaxınlaşırlar. Gəmi körpüyə yan alır. Matroslar sahilə düşməyə hazırlaşırlar. Dağılışıb öz evlərinə gedəcəklər. Atası da evə getməlidir. Arvadı ilə iki uşağı onu körpüdə gözləyir. Bəs neyləsin? Atası ilə getsin? Atası onu özü ilə aparacaqmı? Əgər aparsa, arvadı ondan soruşar: "Bu kimdir, hardan gəlib, nə işi var?" Yox, yaxşısı budur getməsin...

Ağ gəmi isə hey uzaqlaşır, güclə gözə görünən bir nöqtəyə çevrilirdi. Günəş də suyun üstünə çökürdü. Durbində gölün gözqamaşdıran al-bənövşəyi səthi bərq vururdu.

Gəmi getdi, gözdən itdi. Qərəz, ağ gəmi haqqında nağıl da bitdi. Evə getmək lazımdır.

Oğlan çantanı yerdən qaldırdı, durbini qoltuğunda sıxdı. Dağdan cəld endi, yamacda sappa-suppa vurdu. Evə yaxınlaşdıqca, ürəyi həyəcanla döyünürdü. Buzovun çeynədiyi paltar üçün cavab verməliydi. İndi cəzadan başqa heç nə barədə fikirləşmirdi. Oğlan tamamilə ruhdan düşməmək üçün çantaya dedi: "Sən qorxma. Bizi danlayacaqlar. Axı mən qəsdən eləməmişəm. Buzovun qaçdığını bilmirdim. Tutalım peysərimə bir kötək ilişdirəcəklər. Dözərəm. Səni döşəməyə tullasalar, qorxma. Axı sən sınmayacaqsan ki, çantasan. Bax, əgər durbin nənənin əlinə keçsə, onda vay halına. Biz əvvəlcə durbini mərəkdə gizlədərik, sonra evə gedərik..."

O belə də elədi. Kandarı keçib içəri girmək qorxulu idi.

Lakin evdə müəmmalı bir sükut vardı. Həyətdə elə sakitlik idi, kimsə gözə dəymirdi, sanki insanlar buranı tərk edib getmişdilər. Demə, Bekey xalanı yenə əri döyübmüş... Yenə də Mömün baba səfehləmiş kürəkənini sakitləşdirməli olmuşdu, yenə də qoca yalvarıb-yaxarır, Orozqulun biləyindən sallanır və bütün rüsvayçılığı – qızının döyüldüyünü, əzişdirildiyini görür, ah-fəğanını, Orozqulun, doğma ata yanında qızını necə alçaq söyüşlərlə söydüyünü eşidirdi. Onu necə



sonsuz qancıq, qısır eşşək və başqa iyrənc sözlərlə təhqir edirdi. Və onu da eşidirdi ki, qızı necə vəhşi bağırtı ilə, dəli kimi qışqıraraq öz taleyinə nifrin yağdırırdı. "Mənim nə təqsirim var, Allah məni övladdan məhrum edib!.. Yer üzündə qoyun kimi balalayan nə qədər arvad var, mən isə göylərin lənətinə gəlmişəm. Niyə? Neynirəm bu cür həyatı? Yaxşısı budur, öldür məni, qansız! Gəl, vur, vur!.."

Qoca Mömün dərdli-dərdli küncdə oturmuşdu, nəfəsi güclə gəlib-gedirdi, göz qapaqlarını qapamışdı, dizinin üstünə qoyduğu əlləri isə titrəyirdi. Onun rəngi büsbütün qaçmışdı.

Mömün nəvəsinə baxdı, heç nə demədi, yenidən yorğun-yorğun gözünü örtdü. Nənə evdə yoxdu. O, Bekey xalanı əri ilə barışdırmaq üçün getmişdi, evlərini səliqəyə salırdı, sınmış qab-qacağı yığışdırırdı. Bax, nənə belə adamdır. Orozqul arvadını döyəndə, nənə özü də qarışmır və babanı da qarışmağa qoymur. Dalaşıb qurtardıqdan sonra özü gedib dilə tutur, sakitləşdirirdi. Bunun üçün də sağ olsun.

Oğlanın hamıdan çox qocaya yazığı gəlirdi. Hər dəfə belə olanda az qala qoca ölüb, ölümdən qayıdırdı. O, kar adamlar kimi küncdə oturur, heç kəsin gözünə görünmək istəmirdi. Fikrindəkiləri ürək qızdırıb, bir insan oğluna deməzdi. Belə anlarda Mömün fikirləşərdi ki, daha qocalıb, madar bir oğlu vardı, o da müharibədə həlak oldu. İndi heç kəs onun barəsində heç nə bilmir, heç kəs onu xatırlamır. Oğlu dursaydı, bəlkə də taleyi belə gətirməzdi. Mömün ömürlük birgə həyat sürdüyü mərhum arvadının xiffətini eləyirdi. Lakin ən böyük bədbəxtlik o idi ki, qızları xoşbəxt deyildilər. Kiçik qızı nəvəsini onun üstünə atıb şəhərə getmişdi və orada tək bir otaqda böyük külfət içində başı bəlalar çəkirdi. O biri qızı da burada Orozqulun əzab-işgəncəsinə düçar olub. Qoca onun yanında olsa da, qızının xətrinə hər şeyə dözsə də, analıq ona nəsib olmayıb ki, olmayıb... Gör neçə ildir ki, Orozqulla yaşayır. Onunla yaşamaqdan zinhara gəlib, ancaq əlacı nədir?.. Sonra nə olacaq – günün birində yıxılıb öləcək, başı gora titrəyir – o zaman bədbəxt qızı neyləyəcək?

Oğlan tez-tələsik bir fincan qatıq içdi, bir parça kökə yedi və səssiz-səmirsiz pəncərənin qabağında dayandı. Lampanı yandırmadı, babasını narahat eləmək istəmədi ki, qoy oturub fikirləşsin.

Oğlan da özü barədə fikirləşirdi. O anlaya bilmirdi ki, Bekey xala ərinin nəyə görə könlünü araqla alır. Əri onu yumruqlayır, bu da sonra gedib ona üstəlik yarım litr tapıb gətirir...

Eh, Bekey xala, Bekey xala! Əri neçə kərə onu ölümcül edib, o da elə hey onun təqsirindən keçir. Mömün baba da həmişə onu əfv edir. Nəyə görə? Belə adamları bağışlamaq lazım deyil. O, yaramaz, nadürüst adamdır. O burda heç kəsə lazım deyil. Onsuz da keçinərik.

Qaynar uşaq təxəyyülü oğlanın aləmində ədalətli cəzanın canlı şəklini çəkmişdi. Onlar hamılıqla bu şişman, bədheybət, çirkin Orozqulun üstünə cumur, çəkib onu çayın kənarına aparırlar. Sonra isə əl-ayağından tutub, yırğalayaraq çayın lap gur yerinə tullayırlar. O isə Bekey xalaya və Mömün babaya yalvararaq bağışlanmasını xahiş edirdi. Axı o, balıq ola bilməz...

Oğlan özünü yüngül hiss eləməyə başladı. Hətta təsəvvürünə gətirəndə ki, Orozqul çayda necə çapalayır, məxmər şlyapası onunla yanbayan necə axıb gedir, ona gülməli göründü.

Lakin, çox təəssüf ki, yaşlılar oğlanın ədalətli bildiyi kimi hərəkət etmirdilər. Onlar hər şeyi əksinə edirdilər. Orozqul evə yenə sərxoş gəlir. Onu elə qarşılayırdılar ki, guya arada heç nə olmayıb. Baba atının başını tutur, arvadı qaçaraq çay qoyur. Guya ki, hamısı elə onun yolunu gözləyirmişlər. O isə başlayır özünü naza qoymağa. Əvvəlcə kədərlənir, ağlayır. Axı niyə də belə olaydı. Hər bir kəsin, lap əl verməyə də layiq olmayan adama oxşamazın ürəyi istədiyi qədər uşağı var. Beş, hətta on. Orozqulun onlardan nəyi əskikdir? Onun nəyi çatmır? Bəlkə vəzifəsi yoxdur? Allaha şükür ki, meşə qoruğunun baş atlı gözətçisidir! Yoxsa o, avara-sərgərdanın birisidir? Bax, qaraçıların uşağı çoxdur, qaraçı balalarının əlindən tərpənmək olmur. Bəlkə onun adı-sanı yoxdur, hörmət-izzət sahibi deyil? Hamısı var. Hər şey qazanıb. Altında yəhərli atı, əlində qamçısı, hörmətlə pişvazına çıxırlar. Bəs nəyə görə onun tay-tuşları öz oğlanlarına toy eləsinlər, o isə belə? Oğulsuz, övladsız kimdir axı o?

Bekey xala da ağlayır, bir yerdə qərar tuta bilmir; ərinin könlünü birtəhər almaq istəyir. Gizlətdiyi yarım litri gətirir. Dərddən özü də içir. İç ki, içəsən, sonra Orozqul vəhşiləşir və bütün qəzəbini arvadının üstünə tökür. O da ərinin təqsirindən keçir. Baba da bağışlayır. Heç kəs Orozqulun qabağında durmur. Ayılır, səhər görür ki, gözlərinin altı tuluqlu arvadı onun üçün çay dəmləyib. Baba da onun atına yulaf verib, yəhərləyib. Orozqul çayını içir, atını minir – yenə də o, San-Taş meşələrinin rəisi, sahibidir. Heç kəsin isə ağlına gəlmir ki, Orozqul kimisini çaya atmaq vaxtı çoxdan çatıb...



## 4

Qaranlıq düşmüşdü. Gecə qapını almışdı.

Oğlana ilk məktəbli çantası alındığı gün belə başa çatdı.

O yatmağa hazırlaşanda, çanta üçün düşünüb yer tapa bilmədi. Nəhayət, onu böyrünə, balışın yanına qoydu. Oğlanın hələ xəbəri yoxdu, sonra biləcəkdi ki, sinfin yarısının belə çantası var imiş. Bundan da heç vəchlə pərt olmayacaqdı, onun çantası çox qeyri-adi, tamamilə başqa cür çanta olaraq qalacaqdı. O, bunu da bilmirdi ki, ufacıq həyatında onu yeni hadisələr gözləyir və bir gün gələcək o, işıqlı dünyada tək-tənha, yalnız birce çanta ilə qalacaq. Buna da bais Buynuzlu ana maral haqqında sevimli nağılı olacaqdır.

Elə bu gecə həmin nağılı bir daha dinləməyi o çox istərdi. Qoca Mömün bu əhvalatı özü də xoşlayırdı və onu elə nəql eləyirdi ki, elə bil hamısını şəxsən görmüşdü: köksünü ötürə-ötürə, ağlaya-ağlaya, öz aləmindəkilər barədə düşünə-düşünə, susaraq danışırdı.

Lakin babasını narahat etməyə oğlanın cəsarəti çatmadı. O, başa düşürdü ki, babasının dərdi indi nağıl dərdi deyildi. "Biz başqa bir vaxt ondan xahiş edərik, – oğlan çantaya dedi. – İndi mən Buynuzlu ana maral haqqında, babam danışan kimi, hər şeyi sözbəsöz sənə nəql edərəm. Və elə astadan söyləyəcəyəm ki, heç kəs eşitməsin, amma sən dinlə. Mən hər şeyi kinodakı kimi danışmağı və görməyi xoşlayıram. Babam deyir ki, bunların hamısı gerçəkdir. Belə olub..."

Bu əhvalat çox qədim zamanlarda baş verib. Uzaq-uzaq keçmişlərdə yer üzündə meşələr otlardan və bizim diyarda su qurudan çox olanda dərin, sərin sulu bir çayın sahilində qırğız tayfası yaşayırmış. O çayın adı Enesay imiş. O buralardan çox-çox uzaqda, Sibirə axıb gedir. Atla oraya üç il, üç aylıq yol imiş. İndi isə bu çayın adı Yeniseydir, o zaman isə Enesay deyərmişlər ona. Buna görə belə də nəğmə oxuyarmışlar:

Səndən enli bir çay varmı, Enesay?
Səndən əziz məkan varmı, Enesay?
Səndən dərin bir dərd varmı, Enesay?
Səndən azad, söylə, varmı, Enesay?

Səndən enli bir çay yoxdur, Enesay,
Səndən əziz məkan yoxdur, Enesay,
Səndə ağır başqa dərd yox, Enesay,
Səndə azad azadlıq yox, Enesay...

Bax, belə çay imiş Enesay.

O zaman Enesayda cürbəcür xalqlar olub. Güzəranları çox, ağır keçirmiş, çünki daim ədavət aparırmışlar. Qırğız tayfasını çox düşmənlər dövrəyə alıbmış. Gah biri, gah o biri hücum edirmiş, gah da qırğızlar başqalarına basqın edir, mal-qarasını qovub aparır, olacaqlarını yandırır, adamlarını qırırmışlar. Qabaqlarına gələni öldürür, heç kəsə aman vermirlərmiş. Zəmanə belə olub. İnsanın insana heyfi gəlmir. İnsan insanı qırır. Bir vaxt gəlir ki, əkin əkməyə, mal saxlamağa, ov ovlamağa adam qalmır. Soyğunçuluqla dolanmaq daha asan olur – gəldi, öldürdü, qarət elədi. Ölümə ölümlə, qana qanla cavab vermək gərək idi. Qan su yerinə axıdılırdı. Adamlar başlarını itirmişdilər. Düşmənləri barışdıran kimsə yoxdu. Ən ağıllı, ən fərasətli o kəs idi ki, düşməni qəflətən yaxalasın, yad tayfanı son nəfərinədək qırsın, sürüləri, var-dövləti yığıb aparsın.

Tayqada qəribə bir quş peyda olmuşdu. Gecələr sübhədək budaqdan-budağa qonub iniltili insan sədası ilə oxuyur, ağlayır, deyirdi: "Fəlakət olacaq! Böyük fəlakət olacaq!" Elə də oldu, o dəhşətli gün gəlib çatdı.

Həmin gün Enesay sahilindəki qırğız tayfası öz qocaman başçısını dəfn edirdi. İgid batır Külçə neçə illər el atası olmuşdu, çoxlu-çoxlu yürüşlər etmiş, vuruşlarda qılınc oynatmışdı. Döyüşlərdən salamat çıxmışdı, lakin əcəl onu gəlib haqlamışdı. Tayfa iki gün hüzr keçirdi, üçüncü gün batırı torpağa tapşırmalı oldu. Qədim adətə görə başçının cəsədini son mənzilə Enesayın sıldırımlı, sərt uçurumlu sahili ilə aparmalı idilər ki, mərhumun ruhu ana çay Enesayla vidalaşsın. Axı "ene" – ana, "say" isə axın, çay deməkdir. Belə edirdilər ki, onun qəlbi son dəfə Enesay haqqında nəğməni oxusun.

Səndən enli bir çay varmı, Enesay?
Səndən əziz məkan varmı, Enesay?
Səndən dərin bir dərd varmı, Enesay?
Səndən azad, söylə, varmı, Enesay?

Səndən enli bir çay yoxdur, Enesay,
Səndən əziz məkan yoxdur, Enesay.
Səndən ağır başqa dərd yox, Enesay,
Səndən azad azadlıq yox, Enesay...

Dəfn təpəsində açıq qəbrin önündə, batırı başları üstünə qaldırıb, dünyanın dörd tərəfini ona göstərməli imişlər: "Bax, bu sənin çayın.



Bax, bu sənin səman. Bax, bu sənin torpağın. Bax, bu da biz – səninlə eyni kökdən törəyənlər. Biz hamımız səni yola salmağa gəlmişik. Rahat yat". Qədimdən qalmış adətə görə igidin qəbri üstünə sal daş qoyarmışlar.

Dəfn günü tayfanın bütün yurdları sahil boyu cərgə-cərgə düzülərmişlər ki, hər bir ailə öz həyət-bacasında dayanıb batırla vidalaşa bilsin. Onun cənazəsini basdırmağa aparanda, ağ hüzn bayrağını torpağa sarı əyib, ağı deyib ağlayır, sonra da camaata qoşulub o biri alaçığa sarı gedirlər, orada da oxşayıb ağlayırlar və ağ hüzn bayrağını sallayırlar, beləliklə yol başa çatanadək, lap dəfn təpəsinədək vidalaşma davam edirdi.

Həmin gün sübhdən Günəş öz gündüz səfərinə başlayanda bütün hazırlıq işləri başa çatmış olurdu. Belə ki, ağac ucuna taxılmış at quyruğundan ibarət hakimiyyət rəmzi – boncuqları və batırın döyüş əsləhəsi olan qalxan və nizə bayıra çıxarılırdı. Atının belinə matəm örtüyü salınırdı. Karnayçılar öz karnaylarını, dobulbasçılar da öz dobulbaslarını sazlayıb gözləyirdilər və elə çalacaqdılar ki, tayqa lərzəyə gəlsin, quşlar dəstə ilə havaya qalxsınlar və mərəkə, hay-küy qoparsınlar, vəhşi heyvanlar bağıra-bağıra cəngəlliyə qaçsınlar; otlar yerə yatsın; dağlar uğuldayıb əks-səda versin, dağlar qorxudan diksinsin. Ağıçı qadınlar saçlarını açıb tökmüşdülər ki, igid Kölçönü oxşayıb ağlasınlar. Cigidlər bir dizi üstə çökmüşdülər ki, onun cənazəsini güclü çiyinlərinə qaldırsınlar. Hamı hazırdı, batırın cənazəsinin götürülməsinə müntəzir idi. Meşəyanı açıqlıqda ehsan üçün doqquz baş qurbanlıq madyan, doqquz baş qurbanlıq cəngə, hər doqquz cinsdən doqquz qurbanlıq qoyun bağlanmışdı.

Elə o zaman gözlənilməz bir hadisə baş verdi. Enesaylılar bir-biri ilə necə ədavət aparsalar da, el atasının dəfn günü qonşu qonşuyla dava eləməzdi. Amma həmin gün, düşmən qoşunu, sən demə, başı yasa qarışmış qırğızları obaşdan xəlvətcə mühasirəyə alıblarmış və qəflətən istehkamlardan qalxıb, hər tərəfdən həmləyə keçdilər, heç kəs yəhərə atıla bilmədi, heç kəs silaha əl ata bilmədi. Və misilsiz bir döyüş başladı. Qabaqlarına kim gəldi qırdılar. Düşmənlər belə qəsd hazırlamışdı ki, bir zərbə ilə cəsur qırğız tayfasının axırına çıxsınlar. Hamını başdan-başa qırırdılar ki, bu vəhşiliyi xatırlayan, intiqam alan olmasın, zaman keçmişin izini qum sovduğu kimi basıb itirsin. Vardılar – guya, olmayıblar...

İnsan dünyaya gətirmək, böyüdüb ərsəyə çatdırmaq uzun çəkir, öldürmək isə bir anın işidir. Qılıncdan keçirilən çoxları qanına qəltan olmuş, qılınc, nizədən qorunmaq üçün özlərini çaya atan bir çoxları da Enesayın dalğalarında qərq olmuşdu. Sahil boyu, sıldırımların və uçurumların kənarında neçə verst üzünü qırğız alaçıqları od tutub yanırdı. Heç kəs qaçıb qurtara bilmədi, heç kəs sağ qalmadı. Hər şey yerlə yeksan edilmiş, yandırılmışdı. Yaralanıb yıxılanları yarğanların qaşından Enesaya atırdılar. Düşmən şadlanırdı. "İndi bu torpaqlar bizimdir! İndi bu meşələr bizimdir! İndi bu sürülər bizimdir!"

Düşmənlər zəngin qənimətlə gedirdilər və meşədən dönən iki uşağı – qızla oğlanı görə bilmədilər. Bu şuluq, nadinc uşaqlar, hələ səhər tezdən valideynlərindən xəlvət səbət üçün civir yığmaqdan ötrü yaxınlıqdakı meşəyə qaçmışdılar. Onların başı elə qarışıb ki, cəngəlliyə necə girdiklərini hiss eləməyiblər. Döyüş, hay-küy, bağırtı-çığırtı eşidiblər, qaçıb geri qayıdanda isə nə ata-analarını, nə də qardaş-bacılarını sağ görüblər. Uşaqlar valideynsiz, tayfasız qalıblar. Onlar ağlaya-ağlaya dədə-baba yurdunda qaçıb, dolaşıb, fəqət heç yerdə canlı kimsəyə rast gəlməyiblər. Bir saat içində yetim qalıblar. Bu boyda dünyada tək-tənha. Uzaqlarda isə toz dumanı göyə qalxırdı, düşmənlər qanlı basqınla əldə etdikləri ilxıları və sürüləri öz malikanələrinə qovub aparmışlar.

Uşaqlar ayaq altdan qalxan bu tozu görüb, onun ardınca düşüblər. Qəddar düşmənin ardınca uşaqlar ağlaya-ağlaya, çığıra-çığıra qaçırmışlar. Yalnız uşaqlar belə edə bilərlər. Qatillərdən qaçıb gizlənmək əvəzinə, onlar düşmənə çatmağa cəhd edirmişlər. Təki yalqız qalmasınlar, təki bu tar-mar olmuş məlun yerdən qaçıb uzaqlaşsınlar. Oğlanla qız əl-ələ verərək soyğunçuların dalınca qaçır, yalvarır-yaxarırdılar ki, onları da gözləsinlər, onları da özləri ilə aparsınlar. Bu çığır-bağırda, bu kişnərtidə və tappatapda, bu qaçaqaçda onların zəif səsini kim eşidəcəkdi?

Oğlanla qız ümidsiz halda çox qaçdılar. Lakin çata bilmədilər ki, çata bilmədilər. Sonra yorulub əldən-ayaqdan düşdülər, oturdular. Ətrafa baxmaqdan xoflandılar, qorxularından tərpənmədilər. Dəhşətli idi. Mehribanlıqla biri-birinə sığındılar, necə yuxuya getdiklərindən də xəbərləri olmadı.

Yaxşı deyiblər: yetimin bəxti yüyürək olar. Gecəni sağ-salamat başa vurdular. Vəhşi heyvanlar onlara toxunmadı. Meşə əjdahaları



onları sürütləyib aparmadı. Oyananda səhər açılmışdı. Gün çıxmışdı. Quşlar oxuyurdu. Uşaqlar durub, yenə də çapqınçıların dalınca düşdülər. Yol boyu giləmeyvə, ot kökü topladılar. Az getdilər, çox getdilər, üçüncü gün bir dağa çatıb dayandılar. Baxıb gördülər ki, aşağı tərəfdə geniş, yaşıl bir çəmənlikdə kef məclisidir. O qədər alaçıq qurulub ki, sayı-hesabı yox, o qədər tonqal qalanıb ki, sayı-hesabı yox, ətrafında o qədər adam toplaşıb ki, sayı-hesabı yox. Qızlar yelləncəkdə yellənir, mahnı oxuyurlar. Pəhləvanlar camaatı əyləndirmək üçün bərkutlar kimi dövrə vurur, biri-birini yerə çırpır. Onlar öz zəfərlərini bayram edən həmin düşmənlərdi.

Oğlanla qız dağın başında dayanmışdılar, yaxın gəlməyə cəsarət etmirdilər. Ancaq qovurma, çörək, çöl soğanı iyi gələn tonqal onları özünə cəlb edirdi.

Uşaqlar özlərini saxlaya bilmədilər, dağdan enməyə başladılar. Gəlmələri görüb, şənlik sahibləri təəccüb etdilər, onları hamılıqla dövrəyə aldılar.

– Kimsiniz? Hardan gəlirsiniz?

– Biz acıq, – oğlanla qız cavab verdi, – bizə yemək verin.

Onlar danışıqlarından bildilər ki, bunlar kimdilər. Çığırdılar, bağırdılar. Mübahisə etməyə başladılar: düşmən ailəsindən sağ qalmış bu uşaqları elə bu saat öldürməli, yoxsa xanın hüzuruna aparmalı? Onlar höcətləşməkdə olsun, rəhmdil bir qadın uşaqların hərəsinə bir parça at əti bozartması ötürdü. Onları dartıb xanın hüzuruna aparmaq istəyirdilər, uşaqlar isə yeməkdən əl çəkə bilmirdilər. Onları, qabağında əli gümüş baltalı keşikçilər dayanan hündür qırmızı alaçığa apardılar. Düşərgədə həyəcanlı söz-həkət gəzirdi ki, qırğız tayfasından olan bu uşaqlar haradan gəlib buraya çıxa bilərlər? Bu nə olan işdi? Hamısı oyunlarını buraxıb, kefdən əl çəkərək, dəstə-dəstə xan alaçığına sarı qaçdı. Xan isə o dəm məşhur döyüşçüləri ilə qar kimi ağappaq gecənin üstündə təmtəraqla əyləşmişdi. Bal qatılmış kumıs içir, onu mədh edən mahnılara qulaq asırdı. Xan biləndə ki, onun yanına nə üçün gəliblər, hirs vurdu başına: "Siz nə cəsarətlə məni narahat etmisiniz? Məgər qırğız tayfasını biz qırıb kökünü kəsmədikmi? Məgər mən sizi Enesay ellərinin əbədi sahibi etməmişəmmi? Qorxaqların biri qorxaqlar, qaçıb yanıma nəyə gəlmisiniz? Görün, qarşınızdakılar kimlərdir? Ey, Çopur Topal Qarı! – Xan ucadan hayqırdı. Özü də qarı camaatın içindən aralanıb, gələn kimi ona dedi:

– Haydı, onları apar tayqaya, elə et ki, bunların məhvi ilə qırğız tayfası yer üzündən silinsin; kökü kəsilsin, adı əbədi olaraq unudulmuş olsun. Haydı, get, Çopur Topal Qarı, necə buyurdum elə də edərsən..."

Çopur Topal Qarı dinməz-söyləməz təzim etdi, oğlanla qızın əlindən tutub, aradan çıxdı. Onlar meşə ilə az getdilər, çox getdilər, gəlib Enesay sahilinə, dərin uçurum üzərinə çıxdılar. Burada Çopur Topal Qarı uşaqları uçurumun qırağında yan-yana dayandırdı. Onları itələyib, aşağı salmazdan əvvəl dedi:

– Ey böyük Enesay çayı! Əgər dağı sənin dərinliyinə atsan, o, daş kimi batar. Yüzillik şam ağacını atsan, qamqalaq kimi apararsan. Öz ağuşuna bu iki qum dənəsini – iki insan övladını qəbul et. Yer üzündə onlara yer yoxdur. Mənmi bunu sənə deyim, Enesay! Əgər ulduzlar dönüb adam olsaydılar, göy onlara darlıq edərdi. Əgər balıqlar dönüb adam olsaydılar, çaylar və dənizlər onlara bəs eləməzdi. Mənmi bunu sənə deyim, Enesay! Al onları, apar onları. Qoy onlar körpə ikən, pak ürəklə, hələ pis əməllər, pis niyyətlərlə ləkələnməmiş, uşaq vicdanı ilə insan əzablarından xəbər tutmamış, özləri də başqalarına zillət verməmiş bizim mənfur dünyamızı tərk etsinlər. Al bunları, al bunları, ey ulu Enesay!..

Oğlanla qız ağlayır, hıçqırırdı. Uçurumdan üzüaşağı baxanda adam dəhşətə gəlirdi, qarının sözləri onların qulağınamı girirdi. Dərinliklərdə dalğalar qəzəblə çarpılıb uğuldayırdı.

– Qucaqlaşın, uşaqlar, son dəfə vidalaşın. – Çopur Topal Qarı dedi. Özü isə onların ikisini birdən uçuruma itələmək üçün qollarını çirmədi. Və sözünə davam etdi: – Hə, balacalar, məni bağışlayın. Deməli, tale belə imiş. Mən indi bu işi öz iradəmlə görməsəm də – sizin rahatlığınız üçün...

Qarı elə bunu demişdi ki, lap yaxınlıqdan belə səs eşidildi: .

– Dayan, ey böyük, müdrik qadın, günahsız uşaqları məhv eləmə.

Çopur Topal Qarı çevrilib baxdı – heyrətə gəldi, qənşərində bir ana maral dayanmışdı. Özü də necə iri gözləri vardı... Kədər və qüssə ilə baxırdı. Maral süd kimi ağappaq idi, körpə köşək kimi qarnının altı saçaq-saçaq yunla örtülmüşdü. Buynuzları özgə cür füsunkar idi – qollu-budaqlı, elə bil payız ağaclarının budaqları idi. Yelini isə tərtəmiz və hamar idi, uşaqlı qadının döşlərinə oxşayırdı.

– Sən kimsən? Niyə insan dilində danışırsan? – Çopur Topal Qarı xəbər aldı.



Maral belə cavab verdi:

– Mən ana maralam. Ona görə belə danışıram ki, başqa cür sən məni anlamazsan, məni dinləməzsən.

– Nə istəyirsən, ana maral?

– Uşaqları burax, böyük müdrik qadın. Xahiş eləyirəm, onları mənə ver.

– Onlar sənin nəyinə lazımdır?

– İnsanlar mənim əkizlərimi, iki maral balamı öldürüblər. Mən özümə övlad axtarıram.

– Sən onları əmizdirmək istəyirsən?

– Bəli, böyük müdrik qadın.

– Sən yaxşı düşünüb-daşınmısanmı, ana maral? – Çopur Topal Qarı güldü. – Axı onlar insan övladlarıdır. Onlar böyüyüb, sənin maral balalarını öldürəcəklər.

– Onlar böyüyəndə mənim maral balalarımı öldürməyəcəklər. – Ana maral ona cavab verdi. – Mən onların anası olacağam, onlar isə mənim balam. Məgər onlar öz bacı və qardaşlarını öldürərlərmi?

– Eh, ana maral, danışma, sən insanları tanımırsan! – Çopur Topal Qarı başını buladı: – Nəinki meşə heyvanlarını, onlar biri-birini öldürməkdən də çəkinmirlər. Bu yetimləri sənə verərdim, verərdim ona görə ki, sözlərimin doğru olduğunu biləsən, axı sənin bu uşaqlarını da insanlar öldürəcəklər. Bu qədər qəm-qüssə nəyinə gərəkdir?

– Mən uşaqları elə bir uzaq diyara aparacağam ki, onları heç kəs tapa bilməsin. Balalara rəhm elə, böyük, müdrik qadın, burax onları. Mən onlara vəfalı ana olacağam. Yelinim dolub. Uşaq üçün göz yaşı axıdır südüm. Uşaq həsrəti çəkir südüm.

– Neynək, qoy sən deyən olsun, – Çopur Topal Qarı dilləndi. – Götür, tez buradan apar. Yetimləri öz uzaq diyarına apar. Amma onlar uzaq yolda məhv olsalar, rastlaşdığınız quldurlar onları öldürsə, əgər sənin insan övladların sənə nankorluq etsələr, onda günahı özündə gör.

Ana maral Çopur Topal Qarıya minnətdarlıq elədi. Oğlanla qıza isə dedi:

– İndi mən sizin ananızam, siz də mənim övladlarım. Mən sizi uzaq bir diyara aparacağam, orada meşə ilə örtülmüş qarlı dağlar qoynunda isti bir dəniz var – İssık göl.

Oğlanla qız sevindilər, cəld Buynuzlu ana maralın yanına qaçdılar. Ancaq sonradan onlar yoruldular, əldən düşdülər, yol isə uzaq idi –

dünyanın bu başından o başına. Əgər Buynuzlu ana maral onlara əmcəklərindən süd əmizdirməsəydi, gecələr öz bədəni ilə qızdırmasaydı, uşaqlar uzaq yolu gedə bilməzdilər. Onlar xeyli yol getdilər. Artıq köhnə vətən Enesay arxada qalmışdı, yeni məkana – İssık gölə isə hələ xeyli vardı. Az getdilər, üz getdilər, bir yay, qış, bahar və payız, yenə bir yay, qış, bahar və payız, yenə bir yay, qış, bahar, yay və payız, insan ayağı dəyməmiş meşələrdən, bürkülü səhralardan, dalğalı qumluqdan, uca dağlardan, daşqın çaylardan keçib getdilər. Dallarınca canavar sürüləri düşdü, ancaq Buynuzlu ana maral onları belinə mindirib, yırtıcı heyvanlardan uzaqlaşdırdı. Oxlu ovçular onları təqib edəndə qışqırırdılar: "Maral insan övladlarını qaçırıb! Tutun! Vurun!" Ardınca oxlar atdılar: onlardan, bu çağırılmamış xilaskarlardan Buynuzlu ana maral öz övladlarını qaçırıb apardı. O, oxdan da iti süzəsüzə, astadan deyirdi: "Uşaqlarım, bərk tutun, bizi qovurlar!"

Nəhayət, Buynuzlu ana maral uşaqları İssık gölə gətirib çıxartdı. Onlar dağın başında dayanıb heyrətlə ətrafa baxırdılar. Hər tərəf qarlı dağ silsiləsi, yaşıl meşələrlə örtülmüş, dağların arasında isə göz işlədikcə dəniz uzanıb gedirdi. Mavi suda ağ dalğalar gezişir, külək onları belədən-belə qovur, uzaqlara aparırdı. İssık gölün ucu-bucağı görünmürdü. Bir tərəfində Gün çıxırdı, o biri tərəfində hələ gecə idi. İssık gölün dövrəsindəki dağlar o qədər çox idi ki, onları saymaqla qurtarmazdı, o dağların o üzündə hələ nə qədər qarlı dağlar var idi – saysız-hesabsız.

– Bu sizin yeni vətəninizdir, – Buynuzlu ana maral dedi. – Burada yaşayacaqsınız, burada əkin əkəcək, balıq tutacaq, mal-qara saxlayacaqsınız. Min illər əmin-amanlıqla burada yaşayın. Qoy nəsliniz törəyib artsın. Gələcək nəsillər özünüzlə gətirdiyiniz dilinizi unutmasınlar, qoy onlar öz dilində şirin-şirin danışıb, şirin-şirin oxusunlar. İnsan kimi yaşayın. Mən isə həmişə sizinlə, sizin övladlarınız, nəvələrinizlə bir yerdə olacağam...

Qırğız tayfasından olan axırıncı oğlan və qız özlərinə İssık göldə belə yeni, bəxtiyar və əbədi Vətən tapdılar.

Vaxt tez gəlib keçdi. Oğlan bazburudlu cavan oldu, qız kamal yaşına doldu. Bu zaman onlar evləndilər, ər-arvad oldular. Buynuzlu ana maral isə İssık gölü tərk eləmədi, buradakı meşələrdə yaşadı.

Bir dəfə gün doğan çağı İssık göl təlatümə gəldi, uğuldadı. Qadın doğmaq istəyirdi, əziyyət çəkirdi. Kişi isə qorxuya düşdü. Qayanın başına qaçıb, ucadan çağırmağa başladı:



– Buynuzlu ana maral, haradasan? Eşidirsən, İssık göl necə hay-haray qoparıb. Sənin qızın doğur. Tez gəl, Buynuzlu ana maral, gəl, bizə kömək elə...

Elə bu zaman uzaqdan ahəngdən-ahəngə düşən, karvan zınqırovlarından qopan səsi xatırladan bir səda eşidildi. Səs get-gedə yaxınlaşdı. Buynuzlu ana maral qaçıb özünü yetirdi. O, buynuzuna taxaraq, bir uşaq beşiyi gətirmişdi. Beşik ağcaqayın ağacındandı, qulpundan asılmış gümüş zınqırov cingildəyirdi. Elə o zamandan bəri İssık göl beşiklərində həmin zınqırov səslənməkdədir. Ana beşiyi yırğalayır, gümüş zınqırov isə səs eləyir, sanki Buynuzlu ana maral uzaqlardan qaçıb gəlir, tələsir, buynuzunda ağcaqayın beşiyi gətirir...

Buynuzlu ana maral çağırışa gəlib özünü yetirən kimi, qadın azad oldu.

– Bu beşik sənin ilk övladın üçündür, – Buynuzlu ana maral dedi. – Sizin çoxlu uşağınız olacaq. Yeddi oğul, yeddi qız.

Ana ilə ata sevincək oldular. İlk övladlarına Buynuzlu Buqu – ana maralın şərəfinə Buqubay adı verdilər. Buqubay böyüdü, qıpçaq tayfasından gözəl bir qız aldı və bununla da Buqu nəsli – Buynuzlu ana maral nəsli törəyib artmağa başladı. Buqular İssık göl ətrafında böyük və güclü bir nəsil oldular. Buqular Buynuzlu ana maralı müqəddəs hesab edirdilər. Buqu alaçıqlarının qapısı üstündə parça üzərində tikmə nişan, maral buynuzu şəkli olardı, – gendən bilinsin ki, bu alaçıq Buqu nəslinə məxsusdur. Buqular düşmən basqınını dəf edəndə, cıdır yarışında "Buqu!" deyə qışqırardılar. Hər dəfə də buqular qalib gələrdi. O zaman İssık göl meşələrində gözəlliklərinə göydə ulduzların həsəd apardıqları ağ marallar yaşayardı. Onlar Buynuzlu ana maralın övladları idi. Heç kəs onlara dəyməzdi, heç kəs onları incitməzdi. *Maralı görəndə buqular atdan enər, ona yol verərdilər. Sevimli qızın* gözəlliyini ağ maralın gözəlliyi ilə müqayisə edərdilər...

Varlı-dövlətli, adlı-sanlı bir buqu ölənəcən hər şey belə idi – onun min-min qoyunu, min-min atı var idi, ətrafda yaşayan kişilərin hamısı ona çobanlıq edərdi. Onun oğlanları böyük bir yas məclisi qurmuşdular. Onlar dünyanın hər tərəfindən ən adlı-sanlı adamları yasa dəvət etmişdilər. Qonaqlar üçün İssık gölün sahilində yüz alaçıq qurmuşdular. Neçə baş heyvan kəsildiyinin, nə qədər kumıs içildiyinin, nə qədər qaşqar taamı işləndiyinin sayı-hesabı yox idi. Varlının oğlanları özlərini çəkib deyirdilər: "Qoy adamlar bilsinlər ki, ata öləndən sonra yerində necə varlı, comərd övladları qalıb, onlar atalarını necə urvatlı

tuturlar, xatirəsini əzizləyirlər... (E-e, oğlum, vay o gündən ki, insanlar ağlı ilə yox, var-dövlət ilə tanınalar!)"

Xanəndələr də – başlarında mərhumun oğlanlarının bağışladığı samur papağı, əyinlərində ipək xalat, hədiyyə olunmuş arqaman atların belində qapı-qapı gəzir, mərhumu da, onun varislərini də tərif edirdilər. Biri oxuyurdu:

– Gün çıxanla Gün batan arasında belə bəxtəvər həyata, belə dəbdəbəli ehsana tayını tapmaq olar?

İkinci oxuyurdu:

– Dünya yaranandan bunun tayı-bərabəri olmayıb!

Üçüncü oxuyurdu:

– Ayrı yerdə yox, yalnız bizdə valideynlərə ehtiram göstərilir, valideyn şöhrəti və şərəfi uca tutulur, onların müqəddəs xatirəsi yad edilir.

– Ey, naqqal xanəndələr, nə hay-küy salmısınız! Məgər yer üzündə bu comərdliyə, səxavətə layiq söz tapmaqmı olar, məgər mərhumun şərəfinə layiq söz qoşmaqmı olar? – deyə dördüncü oxuyurdu.

Beləliklə, gecə-gündüz onlar deyişdilər. (E-e, oğlum elə ki, xanəndələr mədhiyyə deməklə bəhsə girişdilər, onlar müğənnilikdən dönüb mahnıya düşmən kəsilirlər.)

Bu məşhur yas mərasimi neçə gün bayram təntənəsi kimi qeyd edildi. Dövlətlinin lovğa oğulları çox istəyirdilər ki, başqalarını kölgədə buraxsınlar, yer üzündə hamını keçsinlər, şöhrətləri bütün dünyaya yayılsın. Onlar belə fikrə düşdülər ki, atalarının məqbərəsi üstündə maral buynuzu düzəltdirsinlər. Qoy hamı bilsin ki, bu türbə Buynuzlu ana maral nəslindən olan şanlı-şöhrətli əcdadlarına məxsusdur. (E-e, oğlum, hələ qədim zamanlarda deyərmişlər ki: "Var-dövlət xudpəsəndlik yaradır, xudpəsəndlik isə səfehlik").

Varlının oğulları atalarının xatirəsinə misilsiz hörmət göstərmək istəyirdilər. Heç nə də onlara mane olmurdu. Dedilər də, elədilər də! Ovçu göndərdilər, ovçular maralı öldürüb, buynuzunu qoparıb gətirdilər. Buynuz da nə buynuz, gərilmiş qartal qanadları boyda. Maral buynuzu oğullara xoş gəldi, buynuzun hər tayında on səkkiz budaq vardı, bu da o demək idi ki, maral on səkkiz yaşardı. Çox əcəb! Onlar ustalara həvalə etdilər ki, buynuzu məqbərənin üstünə bərkitsinlər.

Qocalar qəzəbləndilər:

– Nə haqla maralı öldürübsünüz? Kim cəsarət edib Buynuzlu ana maralın törəməsinə əl qaldırıb?

Dövlətlinin varisləri onların cavabını verdilər:



– Maral bizim torpağımızda öldürülüb. Bizim torpağımızda milçəkdən tutmuş dəvəyədək – yeriyən, sürünən, uçan nə varsa, hamısı bizimdir. Öz malımızla necə rəftar etməyi biz özümüz bilərik. Rədd olun!

Nökərlər qocaları şallaqladı, atın belinə tərsinə, üzü geri mindirdilər və onları rüsvayçılıqla qovdular.

Hər şey də bundan başladı... Buynuzlu ana maralın xələflərinə böyük bədbəxtlik üz verdi. Demək olar ki, hər biri meşəyə ağ maral ovuna çıxmağa başladı. Hər bir buqulu öz əcdadının qəbri üstündə maral buynuzu qoymağı özünə borc bildi. İndi bu iş ölülərin xatirəsini yad etmək üçün nəcib, xeyirxah bir dəb kimi qəbul olunmuşdu. Buynuz tapa bilməyənləri dəyanətsiz adam hesab edirdilər. Maral buynuzunu alıb-satmağa başladılar, ondan ehtiyat yığmağa başladılar. Buynuzlu ana maral nəslindən adamlar peyda oldu ki, maral buynuzu alıb-satmağı özünə sənət seçdi. ("E-e, oğlum, pul olan yerdə yaxşı sözə, gözəlliyə yer yoxdur.")

İssık göl meşələrində maralların qırğını başladı. Onlara aman verilmirdi. Marallar əlçatmaz qayalıqlara qaçırdılar, orada da onları tapırdılar. Ov itlərini sürü ilə meşəyə salırdılar ki, maralları qovub bərəyə çıxarsınlar, birini də keçirmədən vursunlar. Maralları sürü-sürü, dəstə-dəstə qırırdılar. Mərc gəlirdilər ki, görək kimin gətirdiyi buynuzun budaqları çox olar.

Beləliklə də marallar tükəndi. Dağlar maralsız qaldı. Maral böyürtüsü nə gecəyarısı eşidildi, nə sübh çağı. Meşələrdə, talalarda otlayan, buynuzlarını belinə sıxıb qaçan, yarğanlardan sıçrayıb quş kimi uçan marallar gözə dəymədi. Elə insanlar dünyaya gəldi ki, bütün ömrü boyu bir maral da görə bilmədi. Marallar haqqında nağıllarda eşitdilər, bir də məqbərələrdə buynuzlarını gördülər.

Gəlin görək Buynuzlu ana maral necə oldu?

O, insanlardan incidi, bərk incidi onlardan. Deyirlər elə ki, marallar güllənin, ov itlərinin ucbatından yaşamağa yer tapmadılar, barmaqla sayıla biləcək qədər azaldılar, Buynuzlu ana maral ən uca dağ başına qalxıb İssık göllə vidalaşdı və son övladlarını toplayıb, böyük aşırımı keçdi, onları başqa bir diyara, başqa dağlara apardı.

Bəli, yer üzündə belə-belə işlər olur. Elə burda nağıl da qurtarır. İstəyirsən inan, istəyirsən inanma.

Özü də Buynuzlu ana maral gedəndə deyib ki, bir daha bu yerlərə dönməyəcək...

## 5

Yenə də dağlara payız gəlmişdi. Yenə də səsli-sədalı yaydan sonra ətraf payız sükutuna qərq olmuşdu. Mal-qaranın qaldırdığı toz dumanı çökmüş, tonqallar sönmüşdü. Sürülər qışlağa getdi. İnsanlar da getdilər. Dağlar boş qaldı.

Daha qartallar tək-tək uçur, handan bir qıy vururdu. Çayda suyun səsi boğulmuşdu: yay ərzində çaylar dayazlaşıb, öz yatağına uyuşmuşdu. Otlar boy atmır, kök üstündə soluxub qalmışdı. Yarpaqlar budaqlarda dayanmaqdan təngə gəlmişdi, bir-bir qopurdu.

Lap uca zirvələrə gecələr indi təzə gümüşü qar düşürdü. Tutqun dağ silsilələri səhərlər qara-qonur tülkülərin yalmanı kimi bozarırdı.

Dərələrdə sərin, soyuq külək əsirdi. Ancaq hələlik günlər günəşli, quraq keçirdi.

Məntəqənin qabağından axan çayın o tayındakı meşələr payız libasını lap tez geymişdi. Çaydan başlayaraq yuxarılara, ta qaraşam meşəliyinədək sərt yamac boyu kolluqları payız alovu bürümüşdü, sanki od tutub yanırdı. Dağ döşündə ağcaqovaq və qayınağacıları daha parlaq rəngə – al-qırmızı rəngə boyanmışdı. Onlar böyük meşənin qarlı qurtaracağınadək, tutqun zirvələrdəki rəngli şam və küknarlar səltənətinə qədər dırmaşıb qalxmışdılar.

Meşə yenə tərtəmiz, məbəd kimi vahiməli idi. Yalnız ağacların şabalıdı iri gövdəsi görünür, yalnız quru qatran qoxusu gəlir, ağacların dibini bürümüş boz tikanlar gözə dəyirdi. Qocaman şam ağaclarının başlarında xəfif külək dolaşırdı.

Lakin bu gün səhər tezdən narahat dolaşalar dağların başı üstündə susmaq bilmədən hay-həşir qoparmışdılar. İri dolaşa dəstəsi bərkdən qıruldaşa-qıruldaşa şam ağaclarının başı üzərində hey dolanırdı. Dolaşalar balta səsini eşidən kimi çaxnaşmaya düşdülər, indi onlar, kəsdikləri şam ağacını üzüaşağı aparan iki nəfərin ardınca qoşaraq, elə çığırbağır salmışdılar ki, sanki günün günorta çağı kimsə onlara basqın etmişdi.

Tiri atın qoşqu qayışlarına bağlayıb, sürütləmə aparırdılar. Orozqul atın yüyənindən tutub qabaqda gedirdi. O, qaşqabaqlı halda, plaşı kollara ilişə-ilişə, kotana qoşulmuş öküz kimi tövşüyə-tövşüyə addımlayırdı. Onun arxasınca tirin quyruğunda Mömün baba gəlirdi. Belə hündür yerdə onun üçün də çətindi, qoca güclə nəfəs alırdı. Onun



əlində qayın budağından düzəldilmiş paya vardı, bununla tiri gediş səmtinə itələyirdi. Tir gah kötüyə, gah daşa ilişirdi. Enişlərdə az qala yamacla sürüşüb, aşağı diyirlənəcəkdi. Belə halda fəlakət üz verərdi, elə oradaca adamı vurub öldürərdi.

Paya ilə tiri itələyən üçün xüsusilə qorxuluydu, amma şeytan işidir – olmadı elə, oldu belə: Orozqul neçə dəfə atın yüyənini buraxıb, qorxudan kənara tullanmışdı, hər dəfə görəndə ki, qoca canını dişinə tutub tiri yumalanmağa qoymur və gözləyir ki, Orozqul gəlib atın başından tutsun, bərk pərt olurdu. Nahaq yerə demirlər: öz eybini gizlətmək istəyən başqasına şəbədə qoşar.

– Sənə nə olub, məni o dünyalıq eləmək istəyirsən? – Orozqul qayınatasına çımxırdı.

Yan-yörədə heç kəs yoxdu və Orozqulun dediyini kim eşidəcək, kim onu məzəmmət edəcəkdi ki, harda görünüb qoca ilə belə rəftar edələr? Qayınatası ehtiyatla anlatdı ki, o özü tirin altına düşə bilərdi – niyə onun üstünə qışqırır, məgər qəsdən eləyir?

Bu, Orozqulu daha çox qəzəbləndirirdi.

– Sən bir buna bax! – hiddətlənirdi. – Səni əzər, nolar, ömrünü başa vurmusan. Sənə nə var? Mən məhv olsam, sənin sonsuz qızına kim yiyə duracaq? Kimin nəyinə gərəkdir sənin şeytan qamçısı kimi bənrəsiz qızın?..

Mömün bunun cavabında dedi:

– Müşkül adamsan sən, oğlum. Səndə insanlara bir qırnıq hörmətzad yoxdur.

Orozqul hətta ayaq saxlayıb qocanı süzdü də:

– Sənin kimi qocalar çoxdan ocağın qırağına yıxılıb, dallarını qora verir. Hər nədir, sən maaş alırsan. Bu maaş hardandır? Mən verirəm. Bundan artıq sənə nə hörmət etməliydim?

– Yaxşı, bəsdir, sözgəlişi dedim. – Mömün onu sakitləşdirdi.

Beləliklə yollarına davam etdilər. Bir yoxuşu da qalxandan sonra gədikdə ayaq saxlayıb dinclərini aldılar. At büsbütün tər içində idi, köpük basmışdı.

Dolaşalar isə, sakit olmaq bilmirdilər, hey dövrə vururdular. Onlar göyün üzünü tutmuşdular, elə qarıldaşırdılar ki, sanki bütün günü çığırbağır salmağı qarşılarına məqsəd qoymuşdular.

– Qışın gəldiyini hiss eləyiblər. – Mömün dodaqaltı deyindi, söhbəti dəyişmək istədi ki, Orozqulun hirsi soyusun. – Xasiyyətləri

belədir, köçüb getmək zamanı bir yerə cəm olurlar. Onlara mane olanda, xoşları gəlmir, – deyə əlavə etdi, əslində belə çıxdı ki, səfeh quşların əvəzinə üzrxahlıq eləyir.

– Kimdir onlara mane olan? – Orozqul sərt çevrilib ona baxdı. Qəflətən üzü qızardı: – Sərsəmləmisən nədir, qoca, – hədələyici ahənglə astadan dedi.

"Sən bir buna bax, – o, xəyalından keçirdi – nəyə işarə vurur! Bu nədir, onun dolaşalarına görə, şam ağacına əl vurmayaq gərək, bir budaq da sındırmaq olmazmış? Bu nə deməkdir! Hələ ki, bunların sahibi mənəm". O, qarıldayan quşlara sarı baxdı: "Of, bir pulemyot olaydı!" – dönüb biədəb söyüş söydü.

Mömün susdu. O, kürəkəninin söyüşlərinə alışa bilmirdi. "Yenə başladı – qoca öz-özünə qəhərləndi. – İçir, olur vəhşi. Kefli olanda da bir söz demək mümkün deyil. Görəsən, adamlar niyə belə olurlar? – Mömün hiddətləndi. – Sən ona yaxşılıq eləyirsən, o sənə pislik. Utanıbqızarmır, həya eləmir. Guya ki, elə belə də olmalıdır. Həmişə özünü haqlı sayır. Bircə özü üçün yaxşı keçsin. Yan-yörəsindəkilər onun qulluğunda durmalıdır. Qulluğunda durmazsan, məcbur eləyər. Yaxşı ki, hələ belə dağlarda, meşədə yaşayır, əlinin altında vur-tut bir-iki adam var, vəssalam. Bir az böyük vəzifəsi olmuş olsa, bəs necə? Allah göstərməsin... Beləlari də tükənmək bilmir. Daim də bellərininki gətirir. Belələrinin əlindən qaçıb qurtara bilməzsən. Hər yerdə şəbbədən xeyir qabağına çıxır, səni izləyir. Öz firavanlığı üçün canını alar. Haqq da onun tərəfində olacaq. Beləlari də tükənmək bilmir..."

– Dayandığımız bəsdir, – Orozqul onun düşüncələrini yarımçıq qoydu və əmr elədi. – Gedək.

Onlar yollarına davam etdilər.

Bu gün səhər tezdən Orozqulun ovqatı təlx idi. Səhər alətləri götürüb o biri sahilə, meşəyə keçməli idilər. Ancaq Mömün tələsik nəvəsini məktəbə aparmalı oldu. Qoca büsbütün ağlını itirib! Hər gün tezdən atı yəhərləyir, uşağı məktəbə aparır, sonra yenə də çaparaq gedib onu məktəbdən gətirir. Başı qarışıb bu bic-haramazdaya. Sən buna bir bax: məktəbə gecikmək olmaz! Belə çıxır ki, burda nə olurolsun, vecinə deyil, canları çıxar, gözləyərlər. "Mən deyir, – tezcə gedib qayıdaram, uşaq məktəbə gecikərsə, müəllimdən ayıbdır". Adam tapdı xəcalət çəkməyə! Axmağın biri axmaq! O, müəllim kimdir, nə karədir? Beş ildir bir paltonun içindədir. Həmişə də görürsən



ki, qoltuğunda ya dəftər, ya çanta. Yol qırağında dayanıb maşınlara əl qaldırır – heç-puç üçün rayona qaçır. Müdam nə isə çatışmır – gah məktəb üçün daş kömür, gah şüşə, gah mal, gah da əsgi-üsgü. Abırlı müəllim də belə məktəbə işləməyə gələr? Necə də ad fikirləşib tapıblar – cırtdan məktəb. Bu doğrudan da elə cırtdandır. Kimə lazımmış? Əsil müəllim şəhərdə olur. Məktəblər başdan-başa şüşədəndir. Müəllimlər qalstuk taxırlar. Şəhərdir axı... Küçələrdən böyük-böyük adamlar keçir. Maşın da nə maşın! Maşın gəlib keçənəcən yerindən tərpənmək istəmirsən, quruyub qalırsan, mil dayanırsan, qara, parıldayan, yüngül maşınlar. Onlar, şəhər adamları isə, guya heç bu maşınları görmürlər, vaxtları yoxdur – tələsirlər, haraya isə qaçırlar... Bax, orada, şəhərdə əməlli-başlı yaşayırlar. Ora getmək, əlini bir işə ilişdirmək gərəkdir! Orada vəzifəli adamlara hörmət eləməyi bacarırlar. Hörmət eləmək lazımdırsa, gərək eləyəsən! Vəzifəsi böyük olanın hörməti də böyük olur. Mədəni adamlardır. Birinə qonaq getdin, bir bəxşeyiş aldın, daha əvəzində ona tir daşımırsan, ayrı bir iş görəsi olmursan. Buranınmı tayıdır – əlli, ən çoxu yüz verəcək, ağac aparacaq, hələ üstəlik şikayət də yazacaq: rüşvətxor Orozqul belədir, helədir... Nadanlıq!

Hımm, bircə şəhərə əkilsəydim... Eh, cəhənnəm olsun bu dağlar da, meşələr də, bu tirlər də, min kərə lənətə gəlsin bu qısır arvad da, bu səfeh qoca da, görməmiş kimi dalına salıb gəzdirdiyi o küçük də. Eh, yulaf yemiş tox at kimi dingildəyərdim. Məcbur edərdim – hörmətimi saxlasınlar. "Orozqul Balacanoviç, kabinetinizə gəlmək olar?" Orada bir şəhərli arvad da alardım. Niyə də almayım? Tutalım ki, gözəl bir aktrisa alardım, əlində mikrofon oxuyur da, oynayır da; deyirlər onlar üçün əsas budur ki, adamın vəzifəsi olsun. Bir beləsinin qoluna girərdim, özümün də boynumda qalstuk. Birbaşa kinoya. O da dikdaban çəkmələrini taqqıldadır, ətir iyi verir. Yoldan keçənlər burunlarını çəkirlər. Bir də gördün ki, uşaqların da olub. Oğlumu hüquqçuluğa qoyardım, qızım da royalda çalardı. Şəhərli uşaqlar gendən bilinirlər – ağıllı olurlar. Evdə ancaq rusca danışırlar – başlarını kənd sözləri ilə doldurmurlar ki. O da öz uşaqlarını belə tərbiyə edirdi; "papıçka, mamıçka, xaçu, to, xaçu eto..." Məgər öz belindən gələnlərdən bir şey əsirgəyərsən? Eh, çoxlarının atasını yandırardım, göstərərdim onlara mən kiməm! Başqalarından nəyim əskikdir? O, yuxarıdakılar ondan yaxşıdılar – nədir? Onun kimi adamlardır! Sadəcə

olaraq onlarınkı gətirib. Onunku isə yox. Xoşbəxtlik ondan yan keçib. Özü də təqsirkardır. Meşəçilik kursundan sonra şəhərə getmək lazımdı, texnikuma və ya instituta girmək gərək idi. Tələsdi – vəzifə çəkib apardı. Balaca da olsa, vəzifə idi. İndi bu bağlarda ayaq döy, görüm nə qədər döyürsən, tir daşı eşşək kimi. Bir tərəfdən də bu dolaşalar. Niyə bağırırlar, niyə qıy vururlar? Of, bir pulemyot olaydı..."

Orozqulun pərtliyi əbəs deyildi. Yay ötüb keçmişdi. Payız gəlirdi, yayla birlikdə çobanların, ilxıçıların verdiyi qonaqlıqlar da qurtarırdı; bayatıdakı kimi:

Dağlar marala qaldı,
Otu sarala qaldı...

Payız düşdü. Orozqulun dövranı qurtardı – hörmət, qonaqlıq, borc, vəd dövranı. Hə, üstəlik özündən demək dövranı da: "Sənə nə lazımdır? İki tavan tiri, şam olsun, hə, yalnız bu? Bu nə sözdür! Gəl, apar..."

Zəvzədin, bəxşiş aldın, araq içdin – indi də nəfəsin təngiyə-təngiyə, qan-tər içində, dünyada nə varsa, hamısını lənətləyə-lənətləyə tiri dağboyu sürütlə. Öz cəzasını çəkirdi. Bütün həyatı boyu öz cəzasını çəkmişdi. Birdən ağlına cəsarətli bir fikir gəldi: "Hər şeyə tüpürüb, hara gəldi baş götürüb gedəcəm". Ancaq elə həmin an anladı ki, heç yana getməyəcək, heç yerdə heç nəyə gərək deyil, heç yerdə də istədiyi güzəranı tapa bilməyəcək.

Hünərin var, burdan get və ya verdiyin sözün dalından qaç! Onu öz dost-tanışları ələ verərlər. Camaat indi xarab olub. İnişil öz buqulu qohumundan bir quzu alıb, əvəzində tir verməyi vəd eləmişdi, payızda şam ağacı üçün yuxarı qalxmağa həvəsi olmadı. Bunu demək asandır, qalx, görüm, ora necə qalxacaqsan, hələ üstəlik gərək bir mişarlayasan, sürüyüb gətirəsən də. Şam ağacı da neçə yüzillik ola, əlləş görüm, onunla necə əlləşəcəksən? Qızıl da versələr bu işdən yapışmaq istəməyəcəksən. Həmin günlər qoca Mömün də xəstələnib, yatağa düşmüşdü. Tək bunun öhdəsindən gəlməkmi olardı. Axı kimin təktənha dağdan tir endirməyə gücü çatar?! Şam ağacını kəsə bilər, bəlkə də kəsdi, ancaq üzüaşağı sürüyüb aparmaqmı olar... Qabaqcadan bilsəydi nə olacaq, özü Seyidəhmədi də götürüb, şam ağacı üçün dağa qalxardı. Lakin Orozqul dağlara dırmaşmağa ərindi, qohumu üçün qabağına çıxan ağacı kəsməyi qərara aldı. O da yaxın durmadı: "Əsil şam tiri verməlisən, vəssalam! Quzunu almağı bilirsən, amma sözünə əməl etməyi yox?" Orozqul qeyzləndi, onu həyətdən qovdu: rədd ol. O oğlan da zirək tərpəndi, San-Taş evi gözətçisi Orozqul Balacanovdan bir şikayət cızma-qara elədi; ağlına nə gəldi yazdı: olanı da, olmayanı da, buna gərək "sosialist meşəsinin ziyankarı" kimi Orozqulu gülləyəydilər. Sonralar Orozqulu rayondan, meşə nazirliyindən gələn cürbəcür yoxlama komissiyaları çox çək-çevirə saldı. Güclə yaxa qurtara bildi... Bu da sənin qohumun! Hələ deyirlər də: "Biz hamımız Buynuzlu ana maralın övladlarıyıq! Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!" Boş şeydir, maral nədir, yad nədir, qəpikdən ötrü biri-birinin boğazını gəmirməyə hazırdırlar, həbsxanaya saldırarlar! Qabaqlar beləydi, adamlar marala inanırdılar. O zamankı adamlar necə də avam, cahil imişlər, dəhşət! İndi isə hamı mədənidir, hamı savadlıdır! Körpə uşaqlar üçün olan bu nağıl indi kimə lazımdır!

Bu əhvalatdan sonra Orozqul tövbə elədi. Bundan belə heç bir tanışa, heç bir həmtayfaya, lap Buynuzlu ana maralın dopdoğma övladı olsun, heç kəsə bir çırpı da verməyəcəkdi.

Lakin yay yenə gəldi. Yaşıl çəmənliklərdə alaçıqlar peyda oldu, sürülər mələşdi, irmaqlar, çaylar üstündən seyrək dumanlar sallandı. Günəş şəfəq saçır, məstedici kumıs ətri, çiçək rayihələri ətrafa yayılırdı. Alaçığın dalında dost-tanışla çəmənlikdə oturub təmiz hava almaq, kumıs içmək, cavan heyvan ətindən xörək yemək ləzzət verirdi. Sonra da üstündən bir stəkan araq vur, başın dumanlansın. Onda qoluna elə qüvvət gələr ki, ağacı kökündən çıxararsan. Yaxud odur ey, o dağın boynunu əyərsən... Orozqul belə günlərdə tövbəsini unudurdu. Onu böyük meşənin böyük sahibi deyə çağıranda çox xoşallanırdı. Yenə də vəd verirdi, yenə də bəxşeyiş alırdı... Və belə vaxtlarda meşədəki qədim şamlardan hər hansı birinin ağlına da gəlmirdi ki, onunku çatıb – yaşaması payız girənə kimidir.

Payız isə biçilmiş kövşənli çöllərdən xəlvətcə dağlara dırmaşır və ətrafı dolanırdı. Haraya ayağı dəymişdisə, orada otun, yarpaqların rəngi saralmışdı.

Giləmeyvələr yetişirdi. Quzular böyüyürdü. Onları ayırırdılar – dişisi bir yana, erkəyi ayrı yana. Arvadlar motal tədarükü görürdülər. Kişilər kimin birinci olaraq vadiyə enməsi barədə düşünüb-daşınırdılar. Getməmişdən, hələ yaydan Orozqulla sövdələşənlər onu xəbərdar edirdilər ki, hansı gün, hansı saat vəd verdiyi tirlərin dalınca maşınla məntəqəyə gələcəklər.

Bəli, bu gün axşam yedəkli maşınla iki şam tirini aparmaq üçün gələcəkdilər. Tirlərdən biri artıq aşağıda idi, çaydan adladılmışdı, maşın gələcək yerə çatdırılmışdı. İkincisini isə indi üzüaşağı sürüyüb gətirirdilər. Əgər Orozqul bu tir üçün alıb yediklərini və içdiklərini qaytara bilsəydi, elə bu saat canını bu əzab-əziyyətdən qurtarardı.

Əfsus dağlardakı taleyindən üz döndərmək üçün heç bir çarə yoxdu: yedəkli maşın bu gün axşamçağı gələcəkdi, çünki gecə tirləri aparmalıydı.

Sağ-salamat qurtarsaydı, yenə dərd yarı idi. Yol sovxozun içindən keçirdi, düz idarənin yanından, başqa yol yox idi, sovxozda isə milisdən, dövlət müfəttişliyindən kimsə olmamış olmazdı, rayondan azmı adamın yolu buraya düşürdü?! Tirlər gözlərinə dəyən kimi soruşacaqdılar: "Bu ağacları haradan, kimin üçün aparırsınız?"

Bu fikir ağlına gələndə Orozqulun kürəyinin arası qovuşdu. Və hamıya, hər şeyə qarşı qəzəbi coşdu. Başı üstündə hay-küy salan dolaşalara da, bədbəxt qoca Mömünə də, üç gün bundan əvvəl satmaq üçün şəhərə kartof aparmaq niyyətinə düşən tənbəl Seyidəhmədə də. Axı o bilirdi ki, tirləri dağdan endirmək lazım olacaq! Görünür, aradan çıxıb. Yəqin bazarda işlərini qurtarandan sonra geri qayıdacaq. Burda olsaydı, Orozqul əmr edərdi ki, qoca ilə tirləri bağlayıb aşağı endirsinlər, özü əziyyət çəkməzdi.

Heyhat, Seyidəhməd uzaqda idi, dolaşaları da vurmağa bir şey yoxdu. Heç olmazsa, arvadını əzişdirərdi, ancaq evə gedib çıxmağa hələ çox var idi. İndi bircə qoca Mömün qalırdı. Tövşüyərək, dağ təngnəfəsliyindən boğula-boğula, hər addımda donquldana-donquldana Orozqul nə ata, nə də onun arxasınca gələn qocaya rəhm edir, kolluğun içi ilə üzüaşağı enirdi.

Qoy at gəbərsin, qoy bu qoca da gəbərsin, qoy o özü də ürəyi partlayıb ölsün! Bir halda ki, onun günü xoş keçmir, qoy heç kəsinki xoş keçməsin. Qoy bu dünya yerlə yeksan olsun, niyə axı bu dünyada hər şey tərs-məssəbdir. Orozqulun ürəyincə deyil, onun ləyaqətinə və tutduğu vəzifəyə uyğun deyil!

Özünü ələ ala bilməyən Orozqul atı kolluqla lap meylli enişə apardı. Qoy Qıvraq Mömün tirlə birlikdə atılıb-düşsün. Hünəridi, ağacı saxlaya bilməsin! "Qoca səfehi əzişdirərəm, yerindəcə qalar" – Orozqul belə qət elədi. Başqa bir vaxt o belə bir sıldırımdan enən tirlərin altına girməyə cəsarət etməzdi. İndi isə elə bil iblis yoldan



çıxartdı. Mömün onu dayandırmağa macal tapmadı, ancaq qışqıra bildi: "Hara gedirsən? Hara? Dayan!" Elə bu vaxt zəncirə dolaşaraq, kolları əzə-əzə üzüaşağı getdi. Tir yaş idi, ağırdı Mömün payanı dayaq vermək istədi ki, tiri üzüaşağı diyirlənməyə qoymasın. Ancaq zərbə çox güclü olduğundan paya qocanın əlindən sıçrayıb çıxdı.

Hər şey bir göz qırpımında oldu. At yıxıldı və tir onu da böyrü üstə aşağıya sürütlədi. Yıxılanda Orozqulu da vurub aşırdı. Orozqul təlaş içində, kollara əl ata-ata üzüaşağı diyirlənirdi. Elə bu zaman bir cür buynuzlu heyvanları hürküdüb özlərini qalınlığa verdilər. Onlar quş kimi yerdən qoparaq, güclü sıçrayışlarla sıx ağcaqayınlıqda gözdən itdilər.

– Maral! Maral! – deyə Mömün baba təlaşdan və sevincdən özünü itirərək qışqırdı. Və sonra da öz gözlərinə inanmırmış kimi susdu.

Birdən-birə dağlara sükut çökdü. Dolaşalar tamam uçub getmişdilər. Tir, cavan, möhkəm ağcaqayınları əzərək enişdə bənd almışdı. Qoşqu qayışları dolaşıq düşsə də, at özü ayağa qalxmışdı.

Orozqul üst-başı cırıq-cırıq olmuş halda kənara sürünürdü. Mömün kürəkəninin imdadına yetişmək üçün cumdu.

– Ey müqəddəs ana, Buynuzlu maral! O bizi xilas etdi. Gördünmü? Bunlar Buynuzlu ana maralın törəmələridir. Anamız qayıdıb! Gördünmü?

Sağ-salamat qurtarmasına hələ də inana bilməyən Orozqul korpeşman, bikef ayağa qalxdı, üst-başını çırpdı.

– Səfehləmə, qoca, bəsdir! Atın qayışını aç. Mömün dərhal atın dolaşığını açmaq üçün getdi.

– Ey füsunkar ana. Buynuzlu gözəl maral! – O sevincək öz-özünə donquldanırdı. – Marallar meşələrə qayıdıb. Buynuzlu ana bizi unutmayıb! Bizim günahımızı bağışlayıb...

– Yenə donquldanırsan? – Orozqul onun üstünə çımxırdı. Qorxu onun canından çıxmışdı, əvvəlki qəzəb qəlbini gəmirdi. – Yenə nağıl danışırsan? Sənin ağlın çaşıb, elə bilirsən başqaları da sənin səfeh uydurmalarına inanacaqlar!

– Öz gözlərimlə gördüm. Bunlar marallardı. – Mömün baba təkid etdi. – Məgər sən görmədin, oğlum? Axı sən də gördün.

– Tutalım ki, gördüm. Deyəsən, üç qaraltı keçdi...

– Düzdür, üç idi. Mənə də elə gəldi.

– Yaxşı, nə olsun? Tutalım ki, marallardı. Az qala boynum sınmışdı. Sevinməyin yeridir? Əgər maral idilərsə, deməli, aşırımdan

gəliblər. Orada, Qazaxıstanda, dağların o üzündə meşəlikdə deyirlər maral saxlayırlar. Orda da qoruq var. Ola bilər, qoruq marallarıdır. Gəliblər, qoy gəlsinlər. Bizə nə var? Biz Qazaxıstana baxmırıq.

– Bəlkə bizdə yaşadılar, hə? – Mömün baba arzusunu bildirdi. – Kaş qalaydılar...

– Yaxşı, bəsdir! – Orozqul onun sözünü yarımçıq kəsdi. – Gedək.

Onlar tirlə hələ çox enəcəkdilər. Sonra isə atı qoşub sürütləyə-sürütləyə çaydan keçirməliydilər. Bu iş də çox çətindi. Sonra da, əgər tiri çaydan sağ-salamat keçirsəydilər, onu hələ təpəliyəcən aparmalıydılar, orada maşına yüklənəcəkdi.

Eh, hələ nə qədər zəhmət çəkilməliydi!..

*Orozqul özünü bədbəxt hesab edirdi.* Hər şey gözünə ədalətsiz görünürdü. Dağlar heç nəyi duymurlar, heç nə istəmirlər, heç nədən şikayətlənmirlər, elə belə dayanıb durublar, payız girsin, qış düşsün, bunun meşələrə heç bir istisi-soyuğu, dəxli yoxdur. Dolaşalar da hara istəyirlər, ora da uçub gedirlər və nə qədər istəyirlər, o qədər də qarıldaşırlar. Marallarsa, əgər onlar maral idilərsə, aşırımın o tərəfindən gəliblər və meşədə istədikləri yerlərdə, istədikləri kimi gəzib dolanırlar. Şəhərlərdə adamlar asfalt yollarda dərdsiz-qəmsiz gəzir, taksiyə minir, restoranlara gedir, özləri üçün əylənirlər. Onu isə taleyi atıb bu dağlara, o, bədbəxtdir... Hətta, bu Qıvraq Mömün, onun bu yaramaz qayınatası da xoşbəxtdir, ona görə ki, o nağıla inanır. Əbləh adamdır! Səfehlər həmişə həyatlarından razı olurlar.

Orozqul öz həyatına nifrət edirdi. Bu cür dolanış onun ürəyincə deyil. Belə həyat Qıvraq Mömün kimilər üçündür. Nə qədər ömrü var, o qədər də istirahət bilmədən başını aşağı salıb işləyəcək. Ömrü boyu da heç kəs tabeliyində olmayıb, özü isə hamıya tabe olub, hətta kürəkəninə də, öz qarısına da söz qaytara bilmir. Belə bir bədbəxt kəs nağılla da özünü bəxtəvər sayır. Meşədə maralları görəndə, elə bil yüz il dünyanı ələk-vələk eləyib axtardığı doğma qardaşları ilə rastlaşmışdı, az qalırdı ağlasın.

Eh, yüz fikir bir borcu ödəmir!..

Onlar, nəhayət, son hüduda çatdılar, buradan çayadək uzun, kəskin eniş başlayırdı. Dinclərini almaq üçün dayandılar. Çayın o tayında, məntəqənin həyətində, Orozqulun evinin böyründə nəsə tüstülənirdi. Samovar tüstüsünə oxşayırdı. Deməli, arvadı yolunu gözləyirdi. Lakin bundan Orozqul xoşhal olmadı. Hava çatmırdı, ağzını ayırıb dərindən



nəfəs almaq istədi. Sinəsi ağrıyırdı, ürəyinin döyüntüləri elə bil başında əks-səda verirdi, beyni zoqquldayırdı. Alnından axan tər gözlərini göynədirdi. Qarşıda uzun və sərt eniş. Evdə isə qısır arvadı... Hələ bir samovar da qoyub, onun könlünü almaq isteyir... Birdən ürəyindən keçdi ki, bu saat yüyürüb o nataraz samovara bir təpik ilişdirsin, cəhənnəm olsun onun samovarı da... Sonra da düşsün arvadının canına, ağzının, burnunun qanını qatsın biri-birinə, ölüncə döysün. O, bədbəxt arvadının fəryadını xəyalına gətirəndə də, ondan ləzzət alırdı. "Bax, belə – o fikirləşirdi. – Ona hələ bu da azdır! Mən pis gündəyəmsə, niyə onun əhvalı xoş olsun?"

Onun fikrini Mömün yarımçıq qoydu.

– Oğlum, mənim də yadımdan çıxıb, – birdən o nəyi isə xatırlayıb, tələsik Orozqulun yanına gəldi. – Axı mən məktəbə getməliydim, oğlanı gərək gətirəydim. Dərslər axı qurtarıb.

– Noolsun? – Orozqul bilə-bilə astadan dilləndi.

– Hirslənmə, oğlum. Tiri burada qoyarıq. Enərik aşağı. Sən evdə nahar edərsən. Mən də bu vaxt atla çaparaq gedərəm məktəbə. Oğlanı götürüb gətirərəm. Qayıdıb, tiri çaydan keçirərik.

– Qoca, bu fikir hardan ağlına gəldi? – Orozqul acı-acı dedi.

– Axı balaca ağlayacaq.

– Noolsun? – Orozqul qızışdı. Nəhayət, qocanın əməlli-başlı dərsini verməkdən ötrü bəhanə düşdü. Bütün günü Orozqul bəhanə axtarırdı ki, bir şeyə irad tutsun, indi isə qoca özü fürsət vermişdi. –O ağlayacaq deyə biz də işimizi yarımçıq qoyaq? Səhər qulağımı dəng elədin ki, məktəbə aparmalısan. Yaxşı, apardın. İndi də başlayıbsan ki, məktəbdən gətirmək lazımdır? Mən nəyəm onunçün? Yoxsa biz burda oyun oynayırıq?..

– Elə danışma, oğlum. – Mömün xahiş elədi. – Özü də belə bir gündə! Mən heç, balaca gözləyəcək, belə bir gündə ağlayacaq...

– Nə belə bir gündə, belə bir gündə salmısan? Nə əziz gündür o belə?

– Marallar qayıdıb. Niyə axı belə bir gündə...

Orozqul çaşdı, hətta heyrətdən nitqi tutuldu. O, tikanlı kolluqda eşələnəndə, qorxudan canına vəlvələ düşdüyü zaman sürətlə çaparaq kölgə kimi gözünün qabağından gəlib keçən o maralları artıq unutmuşdu. Sıldırımdan qopan tir hər an onu xurd-xəşil eləyə bilərdi. Nə maral yada düşürdü, nə də qocanın hədyan danışıqları.

– Sən məni nə hesab edirsən? – O, nəfəsini qocanın üzünə hovxuraraq astadan və qəzəblə dedi: – Heyf ki, saqqalın yoxdur, başqalarını axmaq yerinə qoyduğuna görə tutub səni sürüyərdim. Sənin marallarından mənə nə! Fikrim-zikrim elə onlardır. Sən mənə nağıl demə. Tirin yanında dayan. Nə qədər ki, çayı keçməmişik, səfehləmə. Nə bilim, kim məktəbə gedəcək, kim ağlayır, mənə nə, bəsdir, getdik...

Mömün həmişəki kimi yenə tabe oldu. O anlayırdı ki, nə qədər tir istənilən yerə çatdırılmayıb, Orozqulun əlindən yaxa qurtara bilməyəcək və odur ki, dinməz-söyləməz işləməlidir. Bundan sonra ürəyini söz deşsə də, bir kəlmə dinib-danışmadı. Nəvəsi məktəbin yanında onu gözləyirdi. Uşaqların hamısı evlərinə dağılışmışdılar, yalnız onun yetim nəvəsi gözlərini yola dikib babasının intizarında idi.

Qoca gözünün qabağına gətirirdi ki, uşaqların hamısı necə səs-küylə məktəbdən çıxıb evlərinə dağılışır. Acmışdılar, hələ bayırda, onlar üçün hazırlanan yeməyin iyi burunlarına dəyir, sevincək, vəcdə gəlmiş halda evlərinin pəncərələri önündən qaçıb gəlirdilər. Analarının gözü yoldadır. Başları qarışıq olsa da, hər birini təbəssümlə qarşılayırlar. Ananın əhvalı yaxşıdır və ya pisdir, fərqi yoxdur, öz uşağı üçün o həmişə qayğı göstərməyə imkan tapacaq. Əgər ana lap acıqlansa da: "Bəs, əlin? Əlini kim yuyacaq?" – Yenə gözlərindən təbəssüm əskik olmayacaq.

Mömünün nəvəsi oxumağa başlayandan əlləri həmişə mürəkkəbli olardı. Bu, hətta babanın xoşuna da gəlirdi: deməli, uşaq işlə məşğuldur. Bax, indi budur, onun nəvəsi əlləri mürəkkəbli, bu yay aldığı sevimli çantasıyla yolda dayanıbdır. Yəqin ki, o, gözləməkdən yorulub, ətrafa boylanır, qulağı səsdədir, gözləyir ki, nə vaxt babası atın belində təpənin başında görünəcək. Axı o həmişə vaxtında gəlir. Oğlan məktəbdən çıxanda babası həyətdə onu çoxdan gözləyərdi. Hamı evlərinə dağılışardı, nəvəsi də babasının yanına yüyürərdi. Oğlan çantasına deyərdi: "Odur ey, öz, babamdır, qaçaq!" Və qaçaraq özünü babasına yetirər, sıxıla-sıxıla qucağına atılardı, onu qucaqlayar, üzünü qarnına sürtərdi, köhnə libasının qoxusunu, quru yay otu rayihəsini iyləyərdi. Həmin günlər babası o taydan ot daşıyardı, qışda qalın qar düşəndə oraya gedib çıxmaq olmurdu, odur ki, bu işi payızda gərək görəsən... Sonralar acıtəhər ot iyi Mömünün barmaqlarından xeyli müddət getməzdi.



Baba, oğlanı tərkində otuzdurar, atı gah yorğa, gah yavaş-yavaş sürərək, bir az oradan-buradan söhbət edə-edə bir qədər lal-dinməz və hiss olunmadan gəlib çıxardılar. İki dağ arasındakı gəzdəkdən keçərək evlərinə – San-Taş dərəsinə enərdilər.

Oğlanın məktəbə həddindən artıq həvəs göstərməsindən nənənin acığı gələrdi. Gözünü açan kimi oğlan tez geyinər, dəftər-kitabını çantasına yığardı. Nənəni bir də bu əsəbiləşdirərdi ki, o, gecə yatanda çantasını yanına qoyardı. "Nə yapışmısan bu andıra qalmış çantaya? Özünə arvad eləsəydin, heç olmasa, gəlinə başlıq verməkdən canımız qurtarardı..." Oğlan nənənin dediklərini qulaqardına vurardı və nədən söhbət getdiyini də bir o qədər başa düşməzdi. Nə olur-olsun, təki məktəbə gecikməsin. O həyətə qaçır, babasını tələsdirirdi. Və bir də yalnız məktəb görünəndə sakit olurdu.

Bir dəfə onlar, necə olmuşdusa, gecikmişdilər. Keçən həftə, işıqlananda Mömün atı minib o taya keçdi. Tezdən bir yük ot gətirmək istədi. İşlər pis getmirdi, ancaq yolda tay əyildi, ot tökülməyə başladı. Sicimi açıb, təzədən atı yükləməli oldu. Tələsik yüklənən ot sahilə çathaçatda təzədən açılıb tökülməyə başladı.

Nəvəsi isə o tayda gözləyirdi. O, kələ-kötür bir daşın üstünə çıxıb, çantasını yellədir, qışqırır, çağırırdı. Qoca tələsdi – sicim düyün düşmüşdü, açılmaq bilmirdi. Oğlan isə qışqırırdı, qoca hiss etdi ki, o, ağlayır. Bu zaman o hər şeyi – otu da, sicimi də atıb, ata mindi, tez dayaz yerdən keçib özünü nəvəsinə çatdırdı.

Çayı adlayanacan bir qədər də vaxt keçdi: su çoxdu, sürətlə axırdı... Payızda o qədər qorxulu deyildi, yayda isə atın ayağı sürüşdü – qanın getdi. Mömün çaydan adlayıb, nəhayət, nəvəsinə yetişəndə, o, artıq hönkürüb ağlayırdı. Babasına sarı baxmırdı, ağlayır və deyinirdi: "Məktəbə gecikdim, gecikdim..." Qoca, atın üstündən əyilib oğlanı qaldırdı, yəhərə qoyub atı çapdı. Məktəb yaxınlıqda olsaydı, balaca özü qaçıb gedərdi. O, bütün yolu kirimədi, ağladı, qoca da onu heç cür ovundura bilmədi. Elə hıçqıra-hıçqıra da məktəbə gətirib çıxartdı. Dərslər başlanmışdı. Lap sinfə apardı.

Mömün üzr istədi, üzrxahlıq elədi müəllimdən, söz verdi ki, bir də belə şey olmayacaq. Ancaq qocanı hər şeydən çox nəvəsinin gecikdiyinə görə narahat olub ağlaması sarsıtmışdı. "Allah eləsin ki, həmişə məktəbə belə bağlı olasan" – Baba ürəyindən keçirtdi. Axı

görəsən, uşaq niyə belə ağlayırdı? Deməli, ürəyində nisgili var, heç kəsə demədiyi öz nisgili var...

İndi, budur, Mömün tirin yanında o tərəfə-bu tərəfə qaça-qaça, bir yerdə ilişməsin, dağdan tez ensinlər deyə paya ilə onu tərpədir, itələyir, həm də hey fikirləşirdi: "Görəsən, nəvəm neyləyir orada?"

Orozqul isə tələsmirdi. O, atı yedəkləyib çəkirdi. Axı burada çox da tələsmək olmazdı, eniş uzundu, sərtdi, maili getməliydilər. Məgər onun xahişini yerinə yetirmək olmazdımı? Tiri hələlik qoyardın burda, *sonra gəlib aparardın. Eh, gücü çatsaydı, o tiri çiyninə alar, çayı adla*yar, aparıb maşın yüklənən yerə tullayardı! Alın, götürün tirinizi, di əl çəkin! Mömün isə nəvəsinin dalınca qaçardı.

Güc hardaydı? Hələ daşların üstü ilə, qənbərliklə gedib sahilə çıxmaq lazımdır, orada, dayazlıqdan atı dəhmərləyərək, tiri o taya keçirtmək gərəkdir. At isə əldən düşüb dağda nə qədər enib, qalxmışdı. Axırı düz gətirsə, hələ bu da yaxşıdır, birdən tir çayın ortasında daşa ilişdi və ya atın ayağı sürüşüb yıxıldı, onda nə olsun?

Onlar suyu keçəndə, Mömün baba yalvardı: "Buynuzlu ana maral, sən kömək elə, qoyma tir ilişə, qoyma at yıxıla!" Mömün baba ayaqqabılarını biri-birinə bəndləyib çiynindən aşırmışdı, şalvarını dizəcən çırmamışdı, əlində paya, üzən tirdən aralanmırdı. Tiri axınla çəpinə aparırdılar. Çayda su nə qədər təmiz, şəffaf idisə, bir o qədər də soyuqdu. Payız suyu idi.

Qoca dözürdü. "Eybi yox, ayağıma heç nə olmaz, təki tezliklə tiri keçirək. Tərslikdən tir ilişdi, suyun ən gur axan yerində daşa dirəndi. Belə hallarda, gərək ata bir az imkan verəsən. Dincələ, sonra onu yaxşıca haylayasan ki, bərk təkan verib tiri daşdan aralasın. Lakin Orozqul belində oturub, lap heydən düşmüş, gücsüzləşmiş atı insafsızcasına qamçılayırdı. At dal ayaqları üstə çökdü, büdrədi, tir isə yerindən tərpənmədi. Qocanın ayaqları keyiyir, gözlərinə qaranlıq çökür, başı gicəllənirdi. Uçurum, uçurumun üstündəki meşələr, göydəki buludlar əyilib suya düşür, çayın sürətli axınına qarışır və yenidən öz yerlərinə qayıdırdılar. Mömün özünü pis hiss etdi. Lənətə gəlmiş tir! Quru olsaydı, suyu çəkilmiş olsaydı, bu başqa məsələ – quru ağac özü suda üzür, səninki o olsun ki, qoyma axıb gedə. Bunu isə indicə kəsiblər, elə o saat da çaydan keçirirlər. Kim belə eləyir, axı! Ona görə də belə olur. Tələsən təndirə düşər demişlər. Orozqul şam ağaclarını qurumağa qoymurdu: müfəttiş gəlib çıxar, akt bağlayar – qiymətli ağacların



meşə qoruğunda kəsilməsi barədə. Buna görə də mişarlayan kimi tiri gərək gözdən-nəzərdən rədd eləyəsən.

Orozqul atı çəkməsinin dabanı ilə, qamçı ilə döyürdü, başına vururdu, söyürdü, qocanın üstünə çığırırdı, guya bütün bunlar üçün o təqsirkardı, tir isə yerindən tərpənmirdi, getdikcə daşların arasına yatırdı. Qocanın səbri tükəndi. Ömründə birinci dəfə olaraq o, qəzəblə səsini ucaltdı:

– Atdan düş! – O, cəsarətlə Orozqula yaxınlaşdı, onu yəhərdən özünə sarı dartdı. – Görmürsən at çəkə bilmir? Tez ol, düş aşağı.

Heyrətə gəlmiş Orozqul dinməz-söyləməz onun dediyinə əməl elədi. Ayağı çəkməli birbaşa yəhərdən suya tullandı. Elə bu andan da sanki gicəldi, qulağı batdı, özünü itirdi.

– Haydı! Qaldır! İkimiz də birdən!

Mömünün komandası ilə onlar ağırlıqlarını payanın üstünə saldılar, tiri yerindən tərpətdilər, daşdan araladılar.

At necə ağıllı heyvandır! O bax, elə bu anda güc verdi, büdrəyə-büdrəyə daşların üstü ilə qayışı dartdı. Lakin tir bir qədər yerindən tərpənmişdi ki, aşağı sürüşdü və yenidən daşa ilişdi. At bir də təkan verdi, ancaq dayana bilməyib suya yıxıldı, çapaladı, qoşqu qayışlarına ilişib qaldı.

– Atı! Atı qaldır! – Mömün Orozqulu dümsüklədi.

Onlar köməkləşib, ayağa qalxmaqda ata kömək elədilər. At soyuqdan titrəyirdi, suda güclə dayanmışdı.

– Qoşqunu aç!

– Niyə?

– Sənə deyirlər, aç! Təzədən qoşacağıq... Qayışları ac, çıxart.

Yenə də Orozqul dinməz-söyləməz razı oldu. At qoşqudan açılandan sonra Mömün cilovundan yapışdı.

– İndi gedək, – dedi. – Sonra qayıdarıq. Qoy at dincini alsın. – Sən bir dayan! – Orozqul cilovu qocanın əlindən qapdı. Elə bil o, yuxudan ayıldı. Yenə də dönüb həmişəki adam oldu. – Sən kimə kələk gəlirsən? Sən heç yana getməyəcəksən. Tiri, bax, elə indi çıxardacağıq. Axşam gələcəklər aparmağa. Atı qoş, eşidirsən, artıq-əskik danışma!

Mömün sakitcə döndü və keyimiş ayaqlarını sürüyə-sürüyə dayazlıqdan adlayıb sahilə çıxdı.

– Qoca, hara gedirsən? Səninləyəm, hara gedirsən?

– Hara! Hara! Məktəbə. Nəvəm günortadan orda gözləyir.

– Qayıt, deyirəm sənə! Qayıt!

Qoca qulaq asmadı. Orozqul atı suda qoyub, lap sahilə çathaçatda, qənbərlikdə Mömünü haqladı, onun çiyinlərindən yapışıb özünə sarı dartdı.

Və onlar üzbəüz dayandılar.

Orozqul əl atıb Mömünün çiynindən aşırılmış köhnə uzunboğaz girz çəkmələrdən yapışdı və onları qolaylayıb, iki dəfə qayınatasının başına, üzünə vurdu.

– Gedək də! Nə durmusan? – Orozqul çəkmələri kənara atıb xırıltıyla dilləndi.

Qoca çəkmələrin yanına gəldi, onları yaş qumun üstündən götürdü və qəddini düzəldəndə dodaqları qana bələndi.

– Yaramaz! – deyərək qanı tüpürdü və çəkmələri yenə də çiyninə aşırdı.

Bunu heç vaxt heç kəsə söz qaytarmayan Qıvraq Mömün deyirdi, burnu soyuqdan göyərmiş, köhnə çəkmələrini çiynindən aşırmış, dodaqlarında qan köpüklənən yazıq qoca deyirdi.

– Gedək!

Orozqul onu öz arxasınca sürütlədi. Lakin Mömün dartınıb onun əlindən çıxdı, heç arxasına da baxmadan, sakitcə baş alıb getdi.

– Yaxşı, qoca əbləh, görərsən! Dərsini verərəm! – Orozqul yumruğunu havada oynadaraq, onun arxasınca qışqırdı.

Qoca qanrılıb baxmadı. "Xıxmış dəvə"nin yanından keçən cığıra çıxdı, oturub çəkmələrini geyindi və tez evə getdi. Heç yerdələngimədən, birbaşa tövləyə girdi. Oradan Alabaş adlı boz atı çıxartdı, bu Orozqulun minik atlarından idi, ancaq heç kəs buna yaxın gəlməzdi, heç kəsin bunu minməyə cəsarəti çatmazdı, arabaya da qoşmazdılar ki, cıdır görkəmini itirər. Elə bil yanğın düşmüşdü. Mömün atı qayışqantarğasız, çılpaq minmişdi. O, pəncərənin qabağından, hələ də tüstülənən samovarın yanından keçəndə, bayıra atılan arvadlar – Mömünün qarısı, qızı Bekey və cavanəzən Gülcamal – dərhal başa düşdülər ki, qocaya nəsə olub. Heç vaxt o, Alabaşı minməmişdi, heç vaxt da həyətdə belə at belinə yatıb onu çapmamışdı. Onlar hələ bilmirdilər ki, Qıvraq Mömün qiyam eləyib. Və onu da bilmirdilər ki, qoca vaxtında bu qiyam ona nəyə başa gələcəkdi...

Dayaz çay keçidi tərəfdən Orozqul qoşqudan açılmış atın yüyənindən tutub gəlirdi. At, qabaq ayaqlarından axsayırdı. Arvadlar lal-dinməz dayanıb, onun həyətə yaxınlaşmasını, gözləyirdilər. Onlar



hələ Orozqulun ürəyindəkiləri anlaya bilmirdilər, dərk etmirdilər, o, həmin gün onlara nə kimi bəla, müsibət gətirir...

Yaş, lıqqıltı qoparan çəkmədə, yaş şalvarda o zabitəli, ağır addımlarla arvadlara yaxınlaşaraq, dilxor halda onlara gözucu baxdı. Onun arvadı Bekey narahat oldu:

– Nə olub sənə, Orozqul? Bir hadisəmi baş verib? Bu nədir, başdan-ayağa islanmısan. Tirmi axıbdır?

– Yox, – Orozqul əlinin işarəsi ilə onu rədd etdi. – Tut! – O, yüyəni Gülcamala uzatdı. – Atı tövləyə apar. – Özü qapıya sarı gedə-gedə arvadına dedi: – Gedək evə.

Nənə də onlarla getmək istəyirdi, ancaq Orozqul astanadan onu içəri buraxmadı.

– Sən get, qarı. Sənin burda nə azarın? Çıx get öz evinə, bir də buralara gəlmə.

– Sən nə danışırsan? – Qarı incidi. – Bu nə deməkdir? Bizim qoca bəs necə oldu? Nə olub?

Orozqul cavab verdi:

– Onun özündən soruşarsan.

Evdə Bekey yaş paltarını ərinin əynindən soyundurdu, ona kürk verdi, samovarı içəri gətirdi və piyaləyə çay tökməyə başladı.

– İstəmirəm, – Orozqul əli ilə itələdi. – Mənə içki ver. Arvadı ağzı açılmamış yarımlitrliyi gətirib stəkana süzdü.

– Ağzınacan doldur, – Orozqul əmr elədi.

Bir stəkan arağı birnəfəsə içdi, kürkə bürünüb, keçənin üstünə uzanaraq dedi:

– Sən mənim arvadım deyilsən. Mən də sənin ərin. Çıx, get. Bir də ayağın bu evə dəyməsin. Nə qədər gec deyil, çıx, get.

Bekey köksünü ötürdü, taxtın üstündə oturdu, həmişəki kimi gözlərinin yaşını axıdaraq, astadan dedi:

– Başladın?

– Nəyi başladım? – Orozqul bağırdı. – İtil burdan!

Bekey tez evdən çıxdı, həmişəki kimi əllərini qaldırdı, səsi bütün həyətə yayıldı:

– Axı mən qarabaxt bu dünyaya niyə gəlmişəm!..

Elə bu zaman qoca Mömün Alabaşı çaparaq nəvəsinin yanına gedirdi. Alabaş qaçağan atdı. Buna baxmayaraq, Mömün iki saatdan artıq gecikmişdi. O, nəvəsi ilə yolda qarşılaşdı.

*Müəllim – qadın özü oğlanı evə aparırdı.* Bu, əllərini külək qarsıb kobudlaşdıran, düz beşinci il idi bir paltoda gəzən həmin müəllim idi. Yorğun qadın bikef, acıqlı görünürdü. Ağlamaqdan gözləri şişmiş oğlan isə çantası əlində, yazıq və mağmın bir halda onunla yanaşı gedirdi. Müəllim qoca Mömünün yaxşıca dərsini verdi. O, atdan düşərək başını aşağı salıb müəllimin qabağında dayanmışdı.

– Əgər uşağıq vaxtlı-vaxtında aparmayacaqsınızsa, – müəllim deyirdi, – onda onu məktəbə gətirməyin. Mənə ümid olmayın, özümünkülər dörddülər.

Mömün yenə də üzrxahlıq elədi, yenə də vəd verdi ki, bir də belə hallar təkrar olmayacaq.

Müəllim Celesaya qayıtdı, baba ilə nəvə də evə sarı üz tutdular.

Oğlan dinməz-söyləməz atın belində, babasının qucağında oturmuşdu. Qoca da bilmirdi ona nə desin.

– Çox acmısan?

– Yox, müəllim mənə çörək verdi.

– Bəs niyə danışmırsan?

Oğlan bu dəfə də heç nə demədi.

Mömün təqsirkar halda gülümsədi:

– Mənim balam yaman tez inciyir. – O, oğlanın papağını çıxartdı, təpəsindən öpdü və təzədən papağını başına qoydu.

Oğlan məhəl qoymadı.

Onlar, bax, beləcə getdilər, – hər ikisi məyus və lal-dinməz. Mömün Alabaşın başını buraxmırdı, yüyəni bərk çəkirdi, yəhərsiz atın oğlanı atıb-tutmasını istəmirdi. Həm də indi tələsməyin də bir mənası yoxdu.

At da öz işini bilirdi, rahatca yorğalayırdı. At fınxırır, dırnaqlarını yerə döyürdü. Belə atla tək gedəsən, özün də pəsdən oxuya-oxuya. İnsan tək olanda azmı qəribə şeylər oxuyur? Çatmadığı diləyinə dair, ötən illər haqqında, ilk məhəbbət macəraları barədə... Əlçatmaz, ünyetməz günlər barədə köks ötürməyi də insan xoşlayır. Niyə belə olur, insan özü də bilmir. Lakin o hərdən bunlar haqqında, özü barədə düşünməyi, xəyala dalmağı da xoşlayır.

Yaxşı yerişli yaxşı at yaxşı yol yoldaşıdır...

Qoca Mömün nəvəsinin qırxılmış peysərinə, nazik boynuna, pələ qulaqlarına baxıb fikirləşirdi ki, uğursuz həyatından, bütün əməl və zəhmətindən, qayğı və qüssələrindən ona qalan yalnız bu uşaqdır, bu



aciz məxluq. Kaş babası onu bir yana çıxarda biləydi. Tək qalsa çətin olacaqdı. Qarğıdalı qıçası boyda deyil, ancaq hikkəlidir. Bir az fağır, qılıqlı olsaydı... Axı Orozqul kimilərinin onu görməyə gözü olmayacaq, canavar maralı didib-parçalayan kimi uşağı parçalayacaqlar.

Və bu zaman Mömün maralları xatırladı. Sürətlə qaçaraq kölgə kimi göz önündən keçib gedən maralları... və sinəsindən heyrət, sevinc nidası qopdu.

– Oğlum, bilirsənmi nə var? Bizim yerə marallar gəlmişdi, – dedi Mömün baba.

Oğlan çiyni üstdən cəld geri baxdı:

– Doğrudan?

– Doğrudan. Özüm gördüm. Üç baş maral idi.

– Hardan gəliblər onlar?

– Məncə, aşırımın o tayından. Orada da meşə qoruğu var. Bu payız yay kimi keçir, aşırımdan gəliş-gediş var. Bax, buna görə də onlar bizə qonaq gəliblər.

– Onlar bizdə qalacaqlar?

– Xoşlarına gəlsə qalarlar. Dəyib-toxunan olmasa, burda yaşayarlar. Yem bizdə boldur. Burda lap min maral saxlamaq olar... Keçmiş zamanlarda, Buynuzlu ana maralın vaxtında burada onlar saysız-hesabsızdı.

Hiss eləyəndə ki, oğlan bu xəbərləri eşidəndə qırışığı açılır, qoca dübarə keçmiş zamanlardan, Buynuzlu ana maraldan danışmağa başladı. Özü də öz söhbətinə aludə olub, fikrə getdi: birdən adam durduğu yerdə xoşbəxt ola, başqasına da xoşbəxtlik bəxş eləyə bilə! Bütün ömrü boyu belə yaşayasan. Hə, bax, belə, indi bu saat olduğu kimi. Lakin həyat belə deyil, xoşbəxtliklə yanaşı qəlbinə, həyatına, əzəli, israrlı bir bədbəxtlik də soxulur və daim pusquda dayanır. Hətta indinin özündə, onlar – baba-nəvə özlərini xoşbəxt hiss etdikləri anda, qocanın qəlbində sevinclə yanaşı təşviş də vardı: görəsən Orozqul neyləyir? O nəyə, hansı cəzaya hazırlıq görür? Onun sözünə baxmayan qocaya nə kimi cəza fikirləşib tapıb? Axı Orozqul onu belə buraxmazdı. Onda heç Orozqul olmazdı.

Mömün qızını və özünü gözləyən bədbəxtlik haqqında fikirləşməməkdən ötrü nəvəsinə marallar barədə, onların nəcibliyi, gözəlliyi və bu heyvanların çevikliyi barədə danışırdı, deyirdi ki, bu çəldliklə onlar qəflətən üzləşdikləri fəlakəti fədakarlıqla dəf edə bilərlər.

Oğlanın kefi yaxşı idi. O, heç ağlına da gətirmirdi ki, evdə onu nə gözləyir. Onun gözləri hədəqəsindən çıxmışdı, qulaqları cingildəyirdi. Necə ola bilər, doğrudanmı marallar qayıdıb? Deməli, bunlar gerçəkmiş! Baba danışır ki, Buynuzlu ana maral insanların onlara etdiyi *pisliyi bağışlayıb və uşaqlarına İssık-göl dağlarına qayıtmağa icazə* verib. Baba danışır ki, indi üç maral gəlib – görsünlər buralar necədir və əgər onlara xoş gəlsə, onda bütün marallar təzədən öz vətənlərinə qayıdacaqlar.

– Baba, – oğlan babasının sözünü kəsdi. – Bəlkə Buynuzlu ana maral özü də gəlib? Bəlkə o baxmaq istəyir görsün bizlərdə necədir, sonra da öz uşaqlarını çağıracaq, hə?

– Ola bilər, – Mömün könülsüz dilləndi. Qocanın dili topuq çaldı. O özünü itirdi: birdən oğlan nağıla uyar? Lakin Mömün baba öz nəvəsinin inamını qırmaq istəmədi, həm də gec idi. – Kim bilir? – O, çiynini çəkdi. – Bəlkə də elədir, ola bilər. Ola bilər ki, Buynuzlu ana maral özü də gəlib. Kim bilir...

Oğlan dedi:

– Bax, biz öyrənərik. Gəl, baba, maralları gördüyün yerə gedək. Mən də onlara baxmaq istəyirəm.

– Axı onlar bir yerdə dayanıb durmurlar.

– Biz onların izinə düşərik. Get ki, gedəsən. Onları görən kimi qayıdarıq geri, Maral da görər ki, insanların onlarla işi yoxdur.

– Sən hələ uşaqsan, – baba gülümsədi, – gedək evə, orda baxarıq.

Onlar evlərin arxasından keçən cığırla məntəqəyə gəlib çıxmaqda idilər. Ya evə arxadan baxdın, ya da insana, fərqi yoxdur. Üç evin heç birində, içəridə nələr olduğundan nişanə yoxdu. Həyətdə də heç kəs gözə dəymirdi, sakitlikdi. Mömünün ürəyi sıxılırdı, nə isə hiss etmişdi. Nə ola bilərdi? Orozqul onun bədbəxt Bekeyini döymüşdümü? İçib, sərxoş olub? Başqa nə ola bilərdi? Niyə belə sakitlikdir, niyə günün bu çağında həyətdə heç kim yoxdur? "Əgər hər şey qaydasındadırsa, onda o zəhrimara qalmış tiri çaydan çıxarmaq lazımdır. – Mömün fikirləşdi. – Orozqul adamdır məgər, yaxşısı budur, ondan uzaq qaçsın. Yaxşısı budur, nə istəyir eləyəsən, qoy cəhənnəm olsun getsin. Eşşəyə eşşəkliyini sübut eləyə bilməyəcəksən ki?"

Tövləyə yaxınlaşanda Mömün dedi:

– Düş. Axır ki gəlib çatdıq. – O, həyəcanını üzə vurmamaq üçün bu sözləri nəvəsinə elə dedi ki, guya uzaq bir yerdən gəliblər.



Elə ki oğlan çantası əlində evə qaçmaq istədi, Mömün onu saxladı:

– Dayan, bir yerdə gedərik.

O, Alabaşı tövləyə saldı. Oğlanın əlindən tutdu, evə getdilər.

– Bura bax, – baba nəvəyə dedi: – Əgər məni söysələr, sən qorxma və hər deyilən sözə qulaq vermə. Bunların sənə dəxli yoxdur. Səninki məktəbə getməkdir.

Ancaq heç bir şey olmadı. Onlar evə girəndə, nənə kinayə ilə xeyli Mömünə baxdı, dodaqlarını büzüb, yenidən əlindəkini tikməyə başladı. Baba da ona heç nə demədi. Bikef və narahat halda otağın ortasında dayandı, sonra plitənin üstündən əriştə şorbası ilə dolu iri kasanı, qaşıq və çörək götürdü, gec də olsa baba-nəvə nahar eləməyə başladılar.

Lal-dinməz yeyirdilər, nənə heç onlar oturan tərəfə baxmırdı. Onun solğun, qəhvəyi sifətində qəzəb donmuşdu. Oğlan anladı ki, nə isə çox pis bir hadisə baş verib. Qocalar isə susurdular.

Oğlan elə hirslənmiş, elə həyəcanlanmışdı ki, boğazından tikə ötmürdü. Bundan pis nə ola bilər ki, süfrə üstündə adamlar qaradinməz otursunlar, ürəklərindən pis, şübhəli fikirlər keçsin. "Bəlkə təqsir bizdədir?" – Oğlan xəyalən çantaya dedi. Çanta pəncərənin ağzında idi. Oğlanın ürəyi döşəmə ilə diyirlənib, pəncərəyə dırmaşdı, çantaya yaxınlaşıb onunla pıçıldaşdı.

"Sənin heç nədən xəbərin yoxdur? Bilmirsən baba niyə bikefdir? Onun təqsiri nədir? Niyə o bu gün gecikdi, niyə Alabaşı minmişdi, özü də yəhərləməmişdi? Axı heç vaxt belə bir şey olmayıb. Bəlkə o, meşədə maralları gördüyünə görə belə gecikib? Birdən bu düz olmaz? Onda necə olsun? Niyə o bunu nəql elədi? Axı o bizə yalan demiş olsa, Buynuzlu ana maral ondan bərk inciyər..."

Xörək yeyilib qurtarandan sonra Mömün baba astadan oğlana dedi:

– Sən həyətə get, iş var. Mənə kömək edərsən. Mən də indi gəlirəm.

Oğlan bir söz deməyib otaqdan çıxdı. Qapını örtəndə nənənin səsi otağı bürüdü:

– Sən hara gedirsən?

Mömün cavab verdi:

– Gedirəm tiri çıxarmağa. Bayaq ilişib qalıb çayda.

– Hə, indi ayılmısan! – Nənə qışqırdı. – Nə yaxşı yadına düşdü! Sən get bir qızına bax. Gülcamal onu evlərinə apardı. İndi kimin

neyinə gərəkdir sənin o səfeh, sonsuz qızın. Get, qoy başına gələnləri sənə desin. Qotur it kimi əri onu evindən qovdu.

– Nə olsun qovub, qovsun da. – Mömün kədərlə cavab verdi.

– Sən bir buna bax! Sən özün nəsən axı? Qızların yolunu azdıqlarını bilirsən, hə, nəvənə isə neçəlniklik öyrədirsən? Ay gördün ha! Gör kimdən ötrü özünü oda-alova atmısan. Hələ bir Alabaşı da minib çapırsan. Sən bir buna bax! Ayağını yorğanına görə uzat, yerini bil, kimlə çəkişirsən... Cücə kimi boğazını üzər. Nə vaxtdan belə sözqaytaran olmusan? Nə vaxtdan belə igid olmusan? Qızını bizə gətirmək heç xəyalına da gəlməsin. Kandardan içəri buraxmaram...

Oğlan dilxor halda həyətdə var-gəl edirdi. Evdə yenə nənənin çığırtısı eşidildi, sonra qapı çırpıldı və Mömün evdən bayıra çıxdı. Qoca, Seyidəhmədgilə sarı gedirdi, astanada Gülcamal onun qabağına çıxdı.

– Yaxşısı budur, – Mömünə dedi, – indi getməyəsən, sonra gedərsən.

Mömün çaşqın halda ayaq saxladı. Gülcamal pıçıldadı:

– Ağlayır, əri döyüb. Deyir ki, bundan sonra onlar bir yerdə yaşaya bilməzlər. Sənə də qarğış eləyir. Deyir bütün təqsirlər atamdadır.

Mömün susmuşdu. Nə deyəydi? İndi doğma qızı da onun üzünə baxmaq istəmir.

– Orozqul isə orada içir. Vəhşinin vəhşisidir, – deyə Gülcamal pıçıltıyla danışırdı.

Onlar fikrə getdilər. Gülcamalın qocaya yazığı gəldi, köksünü ötürdü:

– Heç olmazsa, bizim Seyidəhməd tez gəlib çıxaydı. Bu gün qayıtmalıydı. Köməkləşib tiri aparardınız, canınız qurtarardı.

– Məgər iş tirdədir? – Mömün başını buladı. O fikrə getdi və nəvəsini yanında görüb ona dedi: – Sən get, oyna.

Oğlan aralandı. Mərəyə getdi və orada gizlətdiyi durbini götürdü. Onun tozunu sildi. "İşlərimiz pisdir, – o, qüssəli halda durbinə dedi. – Deyəsən, təqsir çanta ilə məndədir. Kaş başqa yerdə məktəb olaydı. Çanta ilə gedib orada oxuyardıq. Heç kəsin də bundan xəbəri olmazdı. Ancaq baba yazıqdır, axtaracaq. Hə, durbin, bəs sən kimlə ağ gəmiyə tamaşa edəcəksən? Elə bilirsən, mən balıq ola bilmərəm? Bax, görərsən. Üzüb gedəcəm ağ gəminin yanına..."

Oğlan ot tayasının arxasına çəkilib, durbinlə ətrafa baxmağa başladı. Həvəssiz və az baxdı. Özgə vaxt baxmaqla doymazdı: payız



meşəsinə bürünmüş payız dağları, yuxarıda bəyaz qar, aşağı isə sanki od tutub yanır. Oğlan durbini yerinə qoyub, mərəkdən çıxanda gördü ki, babası atı xamutlu, cilovlu həyətdən çəkib aparır. Oğlan babasının yanına qaçmaq istədi, lakin Orozqulun bağırtısını eşidib dayandı. Orozqul alt tuman-köynəyində bayıra çıxmışdı, çiyninə kürk salmışdı. Sifəti qıpqırmızıydı, şişmiş inək yelininə oxşayırdı.

– Ədə, hey! – Mömünun üstünə qəzəblə qışqırdı. – Atı haraya aparırsan? Haydı, tez yerinə qaytar. Sənsiz də çıxara bilərik. Əlini də vurmayasan ha. İndi sən burda heç kimsən. Mən səni məntəqədən qovuram. Çıx, get, hara istəyirsən.

Baba acı-acı gülümsündü və atı təzədən tövləyə apardı. Mömün qəflətən büsbütün qocaldı və büzüşdü. Ayaqlarını sürüyə-sürüyə ətrafına baxmadan çıxıb getdi.

Babası təhqir edildiyinə görə oğlanı qəhər boğdu və ağladığını heç kəs görməsin deyə, çay kənarına sarı qaçdı. Cığırı bir qədər irəlidə duman örtmüşdü, gözdən itir və yenidən ayaq altında görünürdü. Oğlan ağlaya-ağlaya qaçırdı. Bax, bu da onun sahildəki sevimli daşları: "Tank", "Canavar", "Yəhər", "Xıxmış dəvə". Oğlan onlara heç nə demədi, axı onlar nə başa düşürlər ki... Elə-belə dayanıb durublar yerlərində. Oğlan "Xıxmış dəvə"nin donqarını qucaqladı və sarımtıl qranitin üstünə uzanaraq acı-acı hönkürdü, sakitləşmək bilmədən ağladı. O çox ağladı, yavaş-yavaş kiriyib susdu.

Nəhayət, başını qaldırdı, gözlərini sildi və irəliyə baxdı, yerindəcə quruyub qaldı.

Onun lap qənşərində, o biri sahildə suyun üstə üç maral dayanmışdı. Əsil marallardı. Dipdiri. Su içirdilər və deyəsən, içib doymuşdular. İri, əzəmətli buynuzu olan maral yenə də başını suya salladı və buynuzunun kiçik qanadlarına güzgüdə baxırmış kimi boynunu tarım çəkdi. O, qonur rəngdə idi, iri döşü vardı, özü də nəhəngdi. O, başını sudan çəkəndə, tüklü, ağ dodaqlarından damcılar süzüldü. Təkə maral qulaqlarını şəkləyib, diqqətlə oğlana baxdı.

Oğlana hamısından bəyaz, şişman qarınlı, xırda budaqlı buynuzu çətir kimi başının üstünü tutmuş dişi maral baxırdı. Onun buynuzu o birilərinkindən bir qədər kiçik olsa da, çox gözəldi. O, eynən Buynuzlu ana marala oxşayırdı. İri, şəffaf gözləri vardı. Özü də ildə bir daylaq verən yarlı-yaraşıqlı madyana oxşayırdı. Buynuzlu ana maral oğlana diqqətlə, sakit-sakit baxırdı, sanki bu girdəbaş, peləqulaq

oğlanı harada gördüyünü yadına salmaq istəyirdi. Onun nəmli gözləri arabir işıldayaraq, gendən şölələnirdi. Burnundan seyrək buğ qalxırdı. Yanındaca dalını ona çevirən buynuzsuz cavan balası söyüdün yumşaq budaqlarını yeyirdi. Onun heç nə vecinə deyildi. O, kök, qıvraq və şən idi. Birdən budaqları gəmirməkdən vaz keçdi, dingildədi, çiyni ilə ana maralı itələdi və onun yan-yörəsində tullanaraq nazlanmağa başladı, Buynuzsuz başını Buynuzlu ana maralın böyürlərinə sürtdü, Buynuzlu ana maral isə hey oğlana baxır, baxırdı.

Oğlan nəfəsini içinə çəkib daşın arxasından çıxdı, yuxuda imiş kimi əllərini irəli uzadaraq sahilə, lap suyun qırağına gəldi. Marallar qətiyyən qorxmadılar. Onlar o biri sahildən gözlərini sakitcə oğlana zilləmişdilər.

Onların arasından, daşların üstündən aşaraq köpüklənən, coşqun, şəffaf, yaşılımtıl çay axırdı. Aradakı bu çay olmasaydı, guya marallara yanaşıb onlara əl vurmaq olardı. Marallar düz yerdə, tərtəmiz qənbərlikdə dayanmışdılar. Onların arxa tərəfində, qənbərliyin qurtaracağında, tuqay payız meşəsi qırmızı divar kimi alışıb-yanırdı. Yuxarıda isə gilli yarğan görünürdü, yarğanın üst tərəfində qızılı-qırmızı qayın və ağcaqovaq, bir qədər yuxarıda isə böyük meşə və qayalı silsilə dağlarda bəyaz qar görünürdü.

Oğlan gözünü yumub açdı. Önündə həmişəki mənzərə canlanırdı, al yarpaqlı tuqay meşəliyinin yaxınlığında tərtəmiz qənbərlikdə həmin əfsanəvi marallar dayanmışdılar.

Bax, budur, onlar geriyə döndülər, qənbərliyi keçib nizamla meşəyə girdilər – qabaqda təkə maral; onun arxasınca buynuzsuz bala, arxada isə Buynuzlu ana maral gedirdi. O dönüb bir daha baxdı. Marallar tuqay meşəliyinə girib, kolların arası ilə getdilər. Onların başı üstündə qırmızı budaqlar silkələnir, qırmızı yarpaqlar hamar, yastı bellərinə səpələnirdi.

Sonra onlar cığırla yuxarı qalxdılar, yarğana tərəf getdilər. Burada dayandılar. Oğlana yenə elə gəldi ki, marallar ona baxdılar. İri maral boynunu uzadıb buynuzunu belinə yatızdırdı, borudan çıxan səsə bənzər bir nərilti ilə böyürdü: "Ba-o! Ba-o!" Onun səsi yarğanın üstü, çayın üzəri ilə yayılıb uzun-uzadı əks-səda verdi: "A-o! A-o!"

Bu zaman oğlan nəyi isə xatırladı. O bayaqkı cığırla cəld evə sarı qaçmağa başladı. O, var gücüylə qaçırdı. Həyətdən yel kimi keçdi, qapını şappıltı ilə açaraq, kandarda dayanıb tövşüyə-tövşüyə qışqırdı:



– Baba! Marallar gəlib! Marallar! Onlar burdadırlar! Qəmli və laldinməz oturmuş Mömün baba küncdən ona sarı baxdı, dinmədi, deyəsən, nə dediyini anlamırdı.

– Səs-küy salma! – Nənə onu məzəmmət elədi. – Gəliblər, qoy gəlsinlər, indi dərdimi-sərimi – elə bircə onlardı.

Oğlan sakitcə otaqdan çıxdı. həyətdə heç kəs yoxdu. Payız günəşi toranlığa bürünmüş Qarovul dağının, qonşu yalçın dağ silsiləsinin arxasına enməkdə idi. Günəşin ılıq şəfəqləri çılpaq dağları qırmızı rəngə boyamışdı. Buradan da həmin soyuq şəfəqlər payız libaslı dağların zirvələrində əks olunurdu. Meşələri axşam qaranlığı bürümüşdü.

Bədəninə üşütmə çökdü. Qar olan tərəfdən soyuq külək əsdi. Oğlan titrəyirdi. Onu üşütmə tutmuşdu...

## 6

Yatağa girəndə də onu üşütmə tutmuşdu. Xeyli yuxulaya bilmədi. Bayırda çoxdan qaranlıq çökmüşdü. Başı ağrıyırdı. Lakin oğlan susurdu. Onun naxoşlamağından heç kəsin xəbəri yox idi. Onu unutmuşdular. Axı belə bir məqamda onu necə də unutmayaydılar!

Baba heç özündə deyildi. Bilmirdi nə etsin. Gah bayıra çıxır, gah evə girir, qüssəli-qüssəli oturur, dərindən köksünü ötürürdü, yaxud da təzədən ayağa durur, haraya isə gedirdi. Nənə də qəzəblə qocanın qarasına deyinirdi. Və o da var-gəl edirdi, həyətə çıxır, evə qayıdırdı. Həyətdən qeyri-müəyyən, kəsik-kəsik səslər gəlirdi, kimsə tələsik yeriyirdi, kimsə söyüş söyürdü, deyəsən, yenə də Orozqul söyürdü, kim isə hıçqıraraq ağlayırdı...

Oğlan sakitcə uzanmışdı və getdikcə bu səslər də, tappatup da, evdə və həyətdə baş verənlərin hamısı onu lap zinhara gətirdi.

O, gözlərini yumub, öz tənhalıq aləminə dalaraq gözdən-nəzərdən iraqda bu gün olanları xatırlayırdı, bir daha görmək istədiklərini xəyalına gətirirdi. Budur, o, böyük bir çayın qırağında dayanıb. Çaya baxa bilmir, gözləri axır, başı gicəllənir. O taydan isə marallar ona baxır. Axşamçağı gördüyü üç maralın üçü də indi orada dayanıb. Hər şey təkrar olunur. Başını qaldıranda maralın yaş dodaqlarından o dəfəki kimi su damcılayır. Buynuzlu ana maral isə yenə də mülayim, riqqətli gözlərini oğlana dikib. Onun gözləri iri, qara və nəmlidir. Buynuzlu ana maralın insan kimi köksünü ötürə bilməsi oğlanı çox heyrətləndirdi. O, babası kimi qəmli və

dərdlidir. Sonra onlar tuqay kolluğundan keçib gedirlər. Qırmızı budaqlar onların başı üstündə silkələnir və qırmızı yarpaqlar hamar, yastı bellərinə səpələnir. Onlar yarğanadək qalxırlar. Orada dayanırlar. Təkə maral boynunu uzadıb, buynuzunu belinə yatırdır, borudan çıxan səsə bənzər bir nərilti ilə böyürür: "Bao! Bao!" Oğlan yekə maralın səsinin çayın üstü ilə yayılıb, bir xeyli əks-səda verdiyini xatırlayanda öz-özünə güldü. Bundan sonra marallar meşədə gözdən itdilər. Ancaq oğlan onlardan ayrılmaq istəmirdi. Görmək istədiklərini xəyalına gətirməyə başladı.

Yenə də onların arasından iti axan böyük çay keçirdi. Başı axının sürətindən gicəllənirdi. O tullanıb uça-uça çayı o tərəfə keçdi. Qənbərlikdə dayanmış maralların yanında ehmalca, yavaş-yavaş yerə endi. Buynuzlu ana maral onu yanına çağırdı:

– Kimlərdənsən?

Oğlan susdu. O, kimlərdən olduğunu deməyə utanırdı. Axır ki, dilləndi:

– Babam da, mən də səni çox sevirik, Buynuzlu ana maral. Biz səni çoxdan gözləyirdik.

Buynuzlu ana maral dedi:

– Mən də səni tanıyıram. Babanı da tanıyıram. O, yaxşı adamdır.

Oğlan sevincək oldu və bilmədi ona necə minnətdarlıq eləsin. Birdən dedi:

– İstəyirsən mən balığa dönüm, çayla İssık-gölə ağ gəminin yanına üzüb gedim.

Üzə bilərdi. Ancaq Buynuzlu ana maral bunun cavabında heç nə demədi. Bu zaman oğlan soyundu və yayda etdiyi kimi, sahildəki kol söyüdün budağından tutub büzüşə-büzüşə suya girdi. Amma su buz kimi deyildi, isti idi, qaynardı, boğanaqdı. O, suyun altı ilə gözüaçıq üzdü, saysız-hesabsız qızılı qum zərrələri, xırdaca sualtı daşlar yan-yörəsində uğultu qoparıb fırlandı. O boğulurdu, isti su axını çəkib onu aparırdı. Bərkdən qışqırdı:

– Kömək elə, Buynuzlu ana maral, mənə kömək elə. Mən də sənin oğlunam, Buynuzlu ana maral!

Buynuzlu ana maral çay qırağıyla onun ardınca qaçmağa başladı. Bərk qaçırdı, külək onun buynuzlarında vıyıltı qoparmışdı. Və dərhal o özünə gəldi.

O, qan-tər içində idi. Belə hallarda babasının onun üstünü daha bərk örtdüyünü xatırlayıb, oğlan yaxşıca büründü. Evdə heç kəs yoxdu.



Lampanın piltəsi yanıb qaralmışdı və buna görə də solğun işıq saçırdı. Oğlan durub su içmək istədi, lakin yenə həyətdən nə isə kəskin səslər eşidildi, kimsə kiminsə üstünə qışqırırdı, kimsə ağlayırdı, kimsə təskinlik verirdi. Süpürləşmə, ayaq tappıltıları eşidilirdi... Sonra lap pəncərənin ağzında, ikisi ah-uf edərək süpürləşdi: birisi elə bil o birisini dartıb aparırdı. Qapı şaqqıltı ilə açıldı və nənə qeyzlə, tövşüyə-tövşüyə Mömün babanı evə itələdi. Oğlan heç vaxt babasını belə bərk qorxan görməmişdi. Elə bil heç huşu başında deyildi. Qocanın gözləri çaşqın halda döyünürdü. Nənə onun sinəsindən itələyib oturtdu.

– Otur, otur, qoca əbləh, çağırılmamış yerə başını soxma. Birinci dəfədir, guya belə hengamə çıxarırlar? İstəyirsən ara səngisin, otur yerində, qarışma onların işinə. Dediklərimə qulaq as. Eşidirsən? Yoxsa o bizi məhv edəcək, başa düşürsənmi? Yox edəcək bizi. Bu qoca vaxtımızda hara gedəsiyik ki? Hara? – Bu sözləri deyib, nənə qapını çırpdı və tələsik yenidən hara isə götürüldü.

Evə yenə sakitlik çökdü. Yalnız baba xırıldayır, qırıq-qırıq nəfəs alırdı. O, daş pilləkənin üstündə oturub, başını titrəyən əlləri arasına almışdı. Birdən qoca dizi üstə çökdü, əllərini qaldırıb kimə isə müraciətlə yalvarmağa başladı:

– Apar məni, al apar mən bədbəxti! Ancaq ona bir züryət ver! Onun üzünə baxa bilmirəm. Bizə yazığın gəlsin, heç olmazsa tək birini ver...

Qoca ağlaya-ağlaya, səndələyə-səndələyə ayağa qalxdı, divardan tutaraq, qapını əli ilə axtarıb tapdı. O, evdən çıxdı, qapını örtdü və oradaca, qapının arxasında ağzını əlləri ilə qapayıb hönkürdü.

Oğlanın halı pisləşdi. Yenə də canına üşütmə çökdü. Gah qızdırma, gah üşütmə onu titrədirdi. Qalxıb babanın yanına getmək istədi. Lakin əlləri, ayaqları sözünə baxmadı, başını bərk ağrı çulğadı. Qoca qapının arxasında ağlayırdı, sərxoş Orozqul isə yenə həyətdə coşmuşdu, Bekey xala ah-fəğan eləyir, Gülcamalla nənə onlara yalvarır, dilə tuturdular.

Oğlan onlardan ayrılıb, xəyal aləminə cumdu.

O, yenə də qıjıltıyla axan çayın kənarında durmuşdu, həmin marallar isə o tayda, qənbərlikdə dayanmışdılar. Oğlan bu dəfə onlara yalvardı: "Buynuzlu ana maral, Bekey xalaya buynuzunda beşik gətir! Səndən çox xahiş edirəm, ona beşik gətir. Qoy onların uşağı olsun!" – bu sözləri deyib, suyun içi ilə Buynuzlu ana marala sarı qaçmağa

başladı. Su onu batırmırdı, ancaq o biri sahilə də yaxınlaşmırdı, sanki ayaqlarını yerində döyürdü. Özü də hey Buynuzlu ana marala yalvarır, and verirdi: "Onlara buynuzunda beşik gətir! Elə et ki, babam ağlamasın, elə et ki, Orozqul əmi Bekey xalanı döyməsin. Elə et ki, onların uşağı olsun! Mən hamısını sevəcəyəm. Orozqulu da sevəcəyəm, ancaq sən onların özlərinə övlad ver. Onlara buynuzunda beşik gətir!.."

Oğlana elə gəldi ki, uzaqlarda zəng səsi eşidildi. O getdikcə daha aydın səslənirdi. Qaçaraq dağlardan gələn ana maral idi – buynuzunda beşik gətirirdi, ağcaqayından qayrılmış zınqırovlu beşik. Beşik zınqırovunun səsi aləmi bürümüşdü. Buynuzlu ana maral çox tələsirdi. Zınqırov səsi getdikcə daha yaxında eşidilirdi...

Bu nə olan şeydi? Zınqırov səsinə uzaqdan gələn motor səsi qarışırdı. Haradasa yük maşını gedirdi. Maşının uğultusu getdikcə güclənir, daha aydın eşidilirdi, zınqırov səsi isə itirdi, tez-tez kəsilirdi və çox çəkmədi ki, tamamilə motor səsində eşidilməz oldu.

Oğlan maşının taraqqataraqla həyətə girdiyini hiss etdi. İt hürüb cumdu. Bir an içində maşının işığı pəncərəyə düşdü və söndü. Motor da susdu. Kabinənin qapıları açıldı. Səslərindən aydın olurdu ki, gələnlər üç nəfərdi, danışa-danışa oğlan yatan otağın pəncərəsi önündən keçib getdilər.

– Seyidəhməd gəldi. – Birdən Gülcamal fərəhlə dilləndi və onun ərini qarşılamağa tələsməsi aydın hiss olundu. – Gözləməkdən gözümüzün kökü saraldı!

– Salam, – deyə naməlum adamlar cavabında dillәndilər.

Seyidəhməd soruşdu:

– Buralarda nə var, nə yox?

– Belə də, salamatlıqdır. Niyə gec gəldin?

Seyidəhməd sözə başladı:

– Hələ yaxşı oldu. İşim avand gətirdi. Getdim çıxdım sovxoza, gözlə ki, maşın düşəcək. Heç olmasa Celesaya qədər. Elə orada bunlayola rastlaşdım, ağac aparmağa gəlirdilər. Dərə qaranlıq, yol da, özün bilirsən də.

– Orozqul hardadır? Evdədir? – Gələnlərdən biri xəbər aldı.

– Evdə olar, – Gülcamal qeyri-müəyyən cavab verdi. – Bir az naxoşlayıb. Siz narahat olmayın. Bizdə gecələyərsiniz, yer var. Gəlin bəri.

Onlar getdilər. Bir neçə addım atandan sonra dayandılar.



– Salam, ağsaqqal, salam, baybicə.

Gələnlər Mömün babayla, nənəylə görüşdülər. Belə çıxdı ki, onlar gəlmələrdən utandılar. Həyətdə onları qaydaya görə, yad adam kimi qarşıladılar. Bəlkə Orozqul da xəcalət çəkəcəkdi? Heç olmasa özünü və başqalarını rüsvay etməyəcəkdi.

Oğlan bir az sakitləşdi. Ümumiyyətlə, deyəsən, əhvalı yaxşılaşmışdı. Başının ağrısı azaldı. Hətta ağlına gəldi ki, bəlkə gedib baxıb görsün maşın dördtəkərlidir, yoxsa altıtəkərli? Təzədir, ya köhnə? Yedək necədir? Bir dəfə yayda məntəqəyə hətta hərbçilərin yük maşını gəlmişdi, – yekə, hündür təkərləri vardı, kabinəsi fındıqburundu, elə bil yarısını kəsmişdilər. Cavan əsgər – şofer hətta, icazə verdi girib kabinədə otursun! Əntiqə idi! Qızılı paqonlu gəlmə hərbçi isə Orozqulla meşəyə getdi. Nə məqsədlə gəlmişdi? İndiyədək buraya beləlləri gəlməmişdi.

Onda oğlan əsgərdən soruşdu:

– Nədir, siz casus axtarırsınız burda?

O gülümsədi:

– Hə, casus axtarırıq.

Oğlan bikef dilləndi:

– Bizim bu yerlərə hələ bir casusun ayağı da dəyməyib.

Əsgər güldü:

– Nəyinə lazımdır o?

– Mən qovub tutardım onu.

– Afərin, yaman diribaşsan ha! Hələ balacasan, böyü bir az.

Qızılı paqonlu hərbçi Orozqulla meşəni gəzib qayıdanacan oğlan şoferlə söhbət elədi.

Oğlan dedi:

– Mən maşınların da, şoferlərin də hamısını sevirəm.

Əsgər maraqlandı:

– Nə üçün axı?

– Maşınlar yaxşı şeydir, güclüdürlər, tez gedirlər. Həm də onlardan yaxşı benzin iyi gəlir. Şoferlərin isə hamısı cavandır, özü də Buynuzlu ana maralın övladlarıdır.

– Nə? Nə dedin? – Əsgər başa düşmədi. – Bu, Buynuzlu ana kimdir?

– Məgər sən bilmirsən?

– Yox. Heç vaxt belə bir əfsanə eşitməmişəm.

– Sən kimsən?

– Mən Karaqandadanam, qazaxam. Şaxtaçılıq məktəbində oxumuşam.

– Yox, kimin oğlusan?

– Atamın, anamın...

– Onlar kimin övladlarıdır?

– Onlar da atalarının, analarının.

– Bəs onlar?

– Bura bax, nə qədər sorğu-sual olar?

– Mən isə Buynuzlu ana maralın övladlarının oğluyam.

– Bunu kim sənə deyib?

– Babam.

– Nəyisə sən çaş-baş salmısan. – Əsgər oğlan şübhəylə başını buladı.

Bu girdəbaş, pələqulaq, Buynuzlu ana maralın oğlu onu maraqlandırdı. Lakin əsgər əcdadlarını, yeddi arxa dönənlərini tanımadığından bir qədər pərt oldu. O, yalnız öz atasını, babasını, dədəsini tanıyırdı. Bəs qalanları?

Oğlan soruşdu:

– Məgər sənə yeddi arxa dönəninin adlarını yadda saxlamağı öyrətməyiblər?

– Öyrətməyiblər. Bu nəyə lazımdır ki? Bax mən bilmirəm, heç nə də olmur. Normal yaşayıram.

– Babam deyir ki, əgər adamlar atalarını unutmuş olsalar, korlana bilərlər.

– Kim korlanar? Adamlar?

– Bəli.

– Niyə?

– Babam deyir: onda heç kəs öz pis əməli üçün xəcalət çəkməz, ona görə ki, övladları, onların uşaqları bu pis əməllərdən xəbərdar olmayacaqlar. Hələ, xeyirxah işlər görən də olmayacaq, çünki onsuz da övladları bu barədə heç nə bilməyəcəklər.

– Babana söz ola bilməz! – Əsgər ürəkdən heyrət etdi. – Qəribə babadır. Ancaq o sənin başını hər cür gərəksiz şeylərlə doldurur. Sənin də ki, başın başdır ha... Qulaqların da bizim hissədəki lokatorlara oxşayır. Sən ona qulaq asma. Kommunizmə gedirik, kosmosa uçuruq, gör bir sənə nə öyrədir? Onu bizim siyasi məşğələyə gətirmək pis



olmazdı, biz onu bir göz qırpımında maarifləndirərdik. Bax, böyüyəndə, məktəbi bitirəndə babanın yanından çıxıb gedərsən. Avam, mədəniyyətsiz adamdır baban.

– Yox, mən babamın yanından heç yana getməyəcəyəm, – oğlan etiraz elədi. – O, yaxşı babadır.

– Hələlik sənə belə gəlir. Sonra başa düşərsən.

İndi bayırdakı səsləri eşidəndə oğlan həmin hərbi maşını yadına saldı. Xatırladı ki, o zaman buradakı şoferlərin, heç olmazsa, onun tanıdıqlarının Buynuzlu ana maralın övladları olduqlarını əsgərə yaxşıca başa sala bilməmişdi.

Oğlan ona düzünü demişdi. Onun sözlərində heç bir uydurma yox idi. Ötən il elə bu vaxt, payızın bu çağında, deyəsən, bir qədər bundan sonra sovxoz maşınları dağlara ot aparmağa gəlmişdi. Onlar məntəqənin yanından keçməmişdilər, bir qədər aralıdan dönüb Arça dərəsinə sarı getmiş, yuxarı qalxmışdılar – payızda sovxoza aparmaq üçün yayda orada ot çalınmışdı. Qarovul dağında indiyədək eşidilməmiş motor uğultusu qulağına dəyəndə, oğlan yolayrıcına qaçmışdı. Nə qədər maşın vardı! Biri-birinin arxasınca düyülmüşdülər! Böyük bir maşın karvanı. O saymışdı, on beş maşın idi.

Hava sınmışdı, hər gün qar gözlənilirdi – əgər qar düşsəydi, onda: "Gələn iləcən əlini üz otdan". Bu yerlərdə, əgər otu vaxtında daşıya bilməsən, sonra heç onun haqqında fikirləşməyə dəyməz. Gedib oraya çıxa bilməzsən. Görünür, sovxozda cürbəcür işlərə başları qarışıb, vaxt gəlib haqlayanda, qət eləyiblər ki, bir dəfəyə, maşınların hamısını tədarük edilmiş otun dalınca göndərsinlər. Amma, deyəsən, belə deyildi...

Sözgəlişi, oğlan bu haqda heç nə bilmirdi, əslinə baxsan, axı onun nə işinə? O əl-ayağa düşərək, sevincək halda hər maşının qabağına qaçır, bir qədər onunla ötüşür, sonra o birisini qarşılayırdı. Təzə, gözəl kabinəli, enli aynalı yük maşınları idi. Kabinələrdə isə cavan cigidlər oturmuşdular. Hamısı da elə bil seçmə idi – bığsız. Bəzi kabinələrdə iki cavan vardı. Şoferlərin yanlarınca gedənlər otu maşına yığıb, üstündən sicimlə sarıyacaqdılar. Oğlana görə onların hamısı gözəl, qoçaq, şən idi. Kinodakı kimi.

Əslində, oğlan yanılmamışdı. Doğrudan da belə idi. Oğlanların maşınları saz idi və onlar Qarovul dağının yamacına qalxmayıb, çınqıllı, bərk yolla sürətlə keçib getdilər. Onların kefi kök idi – hava pis deyildi, üstəlik də, belə bir pələqulaq, girdəbaş, dəcəl uşaq hər

maşının pişvazına çıxır, sevincdən atılıb-düşürdü. Özünü gülməkdən necə saxlayasan, necə ona əl eləməyəsən, zarafatla onu hədələməyəsən, sən belə elədikcə, o daha da şənlənəcək, oyun çıxaracaq...

Axırıncı minik maşını, hətta dayandı da. Cavan bir oğlan kabinədən boylandı. Əynində əsgər paltarı, paqonsuz buşlat vardı, başındakı hərbi papaq yox, kepkaydı. Sürücüydü:

– Salam! Sən burada nə eləyirsən, hə? – Mülayimcəsinə oğlana göz vurdu.

Oğlan sıxılaraq cavab verdi:

– Elə belə.

– Sən Mömün babanın nəvəsisən?

– Bəli.

– Mən elə belə də bilirdim. Axı mən də buquluyam. Burdan keçən oğlanların hamısı buquludur. Ot dalınca gedirik. İndiki buqulular biri-birini tanımırlar. Yaman dağılışıblar... Babaya salam söylə. Deyərsən ki, Çotbayın oğlu Qulubəyi gördüm. De ki, Qulubəy ordudan qayıdıb, indi sovxozda şofer işləyir. Yaxşı, var ol! – Özü də vidalaşarkən oğlana bir hərbi nişan verdi, çox əntiqə idi. Ordenə oxşayırdı.

Maşın, bəbir kimi nərildəyib, o birilərin dalınca götürüldü. Birdən bu gülərüz, buşlat geymiş igid buqulu qardaşı ilə getmək oğlanın ürəyindən elə keçdi ki... Heyhat, yol bomboş idi və o, evə qayıtmalı oldu. Qürurla qayıtdı, görüşü haqqında da babaya danışdı. Nişanı isə döşünə taxdı.

Həmin gün axşamçağı başı səmada gizlənən dağ silsiləsindən San-Taş küləyi əsdi. Qasırğa qopdu. Meşənin üzəri ilə yarpaqlar burulğanlaşıb göyə qalxdı, vıyıltı ilə dağların döşünə səpələndi və birdən hava elə korlandı ki, göz açmaq mümkün olmadı. Dərhal da çalpov qar yağdı. Yer üzünü ağ zülmət bürüdü, meşələr lərzəyə, çay təlatümə gəldi və çovğunlu qar tökdü, nə tökdü.

Birtəhər mal-qaranı qovub gətirdilər, birtəhər həyət-bacanı yığışdırdılar, birtəhər evə mümkün qədər çox odun yığa bildilər. Sonra isə burunlarını da evdən bayıra çıxarmadılar. Hara çıxaydılar belə dəhşətli erkən boranda.

– Bu nə olan hekətdir? – Sobanı qalaya-qalaya Mömün baba narahat halda deyinirdi.

Onun qulağı küləyin vıyıltısında idi, hərdənbir də pəncərənin önünə gəlirdi.



Pəncərənin qabağında çox tez qalın qar qalaqlanmışdı.

– Sən də otur yerində! – Nənə deyinirdi. – Birinci dəfədir, nədir? "Bu, nə olan hekətdir?" – Babanı cırnatdı. – O hekətdir ki, qış düşüb.

– Hamısı birdən, bir günün içində?

– Niyə də olmasın? Səndən soruşacaqdı? Qış lazım idi, o da gəlib çıxıb.

Sobanın borusu guruldadı. Oğlan, əvvəl-əvvəl üçqundu, axı o, babasına həyətdə kömək edəndə donmuşdu; lakin tezliklə odun alışdı, canı qızdı, evə isti qatran, şam ağacı tüstüsünün qoxusu yayıldı və oğlan sakitləşdi, özünə gəldi.

Sonra şam elədilər. Sonra da yıxılıb yatdılar. Həyətdə isə çovğun davam edir, şiddətli külək uğuldayırdı.

Pəncərənin arxasındakı səsləri dinşəyə-dinşəyə oğlan belə düşünürdü. "Meşə yəqin lap vahiməlidir". O, qəflətən qəribə qarışıq səslər, çığırtılar eşitdi, özünü itirdi. Kimi isə çağırırdılar, o da cavab verirdi. Əvvəlcə oğlan elə bildi ki, onu qara basır. Belə bir vaxtda məntəqəyə kim gəlib çıxa bilər? Mömün baba da, nənə də diqqət verdilər.

Nənə dedi:

– Gələn var.

– Elədir, – qoca inamsız halda dilləndi.

Sonra isə yaman narahat oldu; gecənin bu vaxtı hardan belə? Tələsik geyinməyə başladı. Nənə də tələsdi. Durdu, lampanın işığını artırdı. Oğlan da, nədənsə qorxmuş halda, tez geyindi. Elə bu vaxt adamlar evə yaxınlaşdılar. Xeyli səs, xeyli ayaq tappıltısı eşidilirdi. Gələnlər qarı xırıldada-xırıldada, çəkmələrini eyvanda çırpır, qapını döyürdülər.

– Ağsaqqal, aç! Donmuşuq!

– Kimsiniz?

– Öz adamlarınızdır.

Mömün qapını açdı. Sazaq, külək, çovğun burumları ilə birlikdə evə üst-başları qara bələnmiş, gündüz Arça dərəsinə ot aparmaq üçün gedən şoferlər doluşdular. Oğlan dərhal onları tanıdı. Ona hərbi nişan bağışlayan buşlatlı Qulubəyi də. Lakin birinin qoluna girmişdilər. O ayağını çəkə-çəkə zarıyırdı. Və evdə dərhal əl-ayağa düşdülər.

– Əstəğfürüllah! Sənə nə olub? – Mömün baba ilə nənə bir ağızdan oxşadılar.

– Sonra danışarıq! Bizimkilərdən hələ yeddi nəfər də gələcək. Yolu azmayaydılar barı. Hə, yaxşı, yanını qoy bura. Ayağı burxulub, –

*Qulubəy zarıyan oğlana sobanın yanında yer eləyə-eləyə, tez-tez* danışırdı.

– Sizinkilər bəs hardadır? – Mömün baba tələsik xəbər aldı. Mən gedib onları gətirərəm. Sən qaç, – oğlana dedi. – Seyidəhmədə de ki, tez elektrik fənərini də götürüb gəlsin.

Oğlan evdən çıxan kimi nəfəsi kəsildi. Ömrünün axırınadək o bu müdhiş anı xatırlayırdı. Nə isə qıllı, soyuq, fışıltılı bir yırtıcı boğazından yapışıb onu didişdirməyə başladı. Lakin o sarsılmadı. Əjdahanın pəncəsindən xilas olub, əlləriylə başını qoruya-qoruya Seyidəhmədgilə sarı qaçdı. Bu ara cəmisi iyirmi-otuz metr olardı. Ona elə gəldi ki, öz igidlərinin köməyinə yetişmək istəyən batır kimi o da tufanı yara-yara çox uzağa qaçır, qaçır ki, onların imdadına çatsın... Onun qəlbi rəşadət və əzmkarlıq hissi ilə dolmuşdu. O özünü qüdrətli, məğlubedilməz sanırdı; özü də Seyidəhmədgilə qaçana qədər elə qəhrəmanlıq hünəri göstərmişdi ki, adamın ürəyi gedirdi. O, uçurumlar üstündən dağdan-dağa tullanır, o, böyük bir düşmən alayını qılıncdan keçirir, odda yananları, suda boğulanları xilas edirdi; o, üzərində al bayraq yellənən reaktiv qırıcı da onun qorxusundan yarğanlara, qayalıqlara qaçan uzun qıllı yırtıcını qovurdu. Onun reaktiv qırıcısı əjdaha dalınca güllə kimi gedirdi. Oğlan pulemyotla onu atəşə tutub qışqırırdı: "Faşisti vur!" Və bu məqamlarda, hər yerdə Buynuzlu ana maral onun yanında olurdu. O, qürur hissi keçirirdi. Elə ki oğlan Seyidəhmədgilin qapısı ağzına qaçıb gəldi, Buynuzlu ana maral ona dedi: "İndi mənim övladlarımı – cavan şoferləri xilas elə!" – "Mən onları xilas edərəm, Buynuzlu ana maral, sənə and içirəm!" – Oğlan bərkdən belə deyib qapını taqqıldatmağa başladı.

– Tez ol, Seyidəhməd əmi, gedək bizimkiləri xilas eləyək! – O, bu sözləri elə vahiməli dedi ki, Seyidəhmədlə Gülcamal yerlərindən sıçradılar.

– Kimi xilas etmək? Nə olub?

– Babam deyir ki, elektrik fənərini götürüb tez gəlsin, sovxozun şoferləri tufanda yolu azıblar.

– Səfeh! – Seyidəhməd onu yamanladı. – Belə de də. – O, tez yığışmağa başladı.

Lakin bu, oğlanın qətiyyən xətrinə dəymədi. Seyidəhməd haradan biləydi ki, oğlan onlara gəlib çıxanacan nə kimi hünər göstərib, nə kimi andlar içib. Mömün baba ilə Seyidəhmədin yeddi şoferi məntəqə



yaxınlığında qarşılayıb, evə gətirdiklərindən xəbər tutanda da oğlan özünü itirmədi. Axı başqa cür də ola bilərdi! Təhlükə sovuşandan sonra adama asan gəlir... Qərəz, o biri adamlar da tapıldı. Seyidəhməd onları öz evinə apardı. Hətta, Orozqul da gecələmək üçün boş adamı evinə buraxdı. – Onu da oyatmalı olmuşdular. Qalanları hamılıqla Mömün babanın evində yerbəyer oldular.

Dağlarda isə tufan səngimək bilmirdi. Oğlan eyvana qaçır, bir dəqiqədən sonra sağla solu, yuxarı ilə aşağını dəyişik salırdı. Tufanlı gecə kükrəyirdi, coşurdu. Püskürən qar dizə çıxırdı.

Yalnız indi sovxoz şoferlərinin hamısı tapılandan, qızınandan, təhlükə və soyuq sovuşandan sonra, çovğunun onları yolda qəflətən haqladığını bilmiş olsa da, Mömün baba ehtiyatla onlardan başlarına gələnlər barədə söz saldı. Cavanlar danışır, qoca ilə qarı köks ötürürdü.

– Oy-oy-oy! – Baş vermiş hadisədən heyrətlənir, əllərini sinələrində çarpazlayıb Allaha şükür edirdilər.

– Vallah, ay uşaqlar, çox yaxşı qurtarıbsınız, – nənə onlara çay tökə-tökə məzəmmət eləyirdi. – Dağa da məgər bu libasla gəlmək olar? Uşaq ki uşaq!.. Özünüzü göstərirsiniz, şəhərlilərə oxşamaq istəyirsiniz? Əgər səhərəcən azmış olsaydınız, Allah göstərməsin, hamınız buz bağlayardınız.

– Kimin ağlına gələrdi ki, belə ola bilər? – Qulubəy ona cavab verdi. – İsti paltarı neynirdik? Lazım gələrsə, maşının içərisi qızdırılır. Otur özünçün, elə bil evdəsən. Sükanı bur. Təyyarədən – o nə qədər hündürdə uçur-uçsun – dağlar xırda təpə kimi görünür, bayırda qırx dərəcə soyuq olur, içəridə isə adamlar köynəkdə otururlar...

Oğlan şoferlərin arasında, qoyun dərisi üstündə uzanmışdı. Qulubəyin böyrünə qısılıb, yaşlıların söhbətinə qulaq kəsilmişdi. Heç kəsin ağlına gəlməzdi ki, qəflətən belə bir tufan qopmasından, onların məntəqədə özlərinə sığınacaq axtarmağa vadar olmasından oğlan sevinəcəkdi. O, üzə vurmasa da, çox istəyirdi ki, boran xeyli müddət – heç olmazsa, üç gün yatmasın. Qoy onlar burada qalsınlar. Onlarla bir yerdə necə də xoş idi! Maraqlıdı. Baba, sən demə, hamısını tanıyırmış, özlərini olmasa da, ata və analarını.

– Belə-belə işlər, – indi baba hətta, bir qədər qürurla nəvəsinə dedi, – öz buqulu qardaşlarını da gördün. Bundan sonra bilərsən əqrəbaların kimlərdir. Görürsən nə oğlanlardır. Bəh-bəh, indiki cigidlər

necə də boy-buxunludurlar! Allah saxlasın! Yadımdadır, qırx ikinci ildə bizi Maqnitoqorska tikintidə işləməyə aparmışdılar...

Və baba oğlana yaxşı bəlli olan əhvalatı nəql eləməyə başladı; onları – ölkənin hər yerindən gətirilmiş əmək batalyonunun əsgərlərini uzun bir cərgəyə, boy sırası ilə düzmüşdülər, qırğızlar demək olar ki, lap axırda dayanmışdılar, boyları qısa idi. Adlar yoxlandı, sonra papiros çəkmək üçün dağılışdılar. Yekəpər, kürən, potanın birisi onlara yaxınlaşdı. Ucadan dedi:

– Bunlar hardandır? Mancuriyalılardır?

Aralarında qocaman bir müəllim var idi. O cavab verdi:

– Biz qırğızıq. Həm də biz bu ətrafda mancuriyalılara qarşı vuruşanda Maqnitoqorskın hələ səsi-sorağı da yox idi. O zaman biz sən boydaydıq. Toxta, davanı qurtararıq, boy atarıq onda...

Baba bu köhnə əhvalatı yenə xatırlamışdı. Özündən razı halda güldü, gecə qonaqlarına bir daha nəzər saldı.

– O müəllim düz deyirmiş. Şəhərdə olanda, ya yol gedəndə baxıram: adamlar gözəlləşib, qədd-qamətli olub. Köhnələr kimi deyillər...

Arif oğlanlar gülümsəyirdilər, deməzsənmi, zarafatcıl qocadır.

– Boy-buxunlu olmağa, boy-buxunluyuq, – onlardan biri dilləndi, – amma orası da var ki, maşını batırdıq. Gör necəyik, gücümüzsə çatmadı...

– Ona güc çatardı! Maşın otla yüklənib, özü də belə tufanda. – Mömün baba onlara haqq qazandırdı. – Olan işdi. Allah qoysa, sabah hər şey qaydasına düşər. Bircə külək yataydı.

Oğlanlar yuxarı Arça biçənəyinə necə gəldiklərindən danışdılar. Orada dağ otundan üç iri taya var. Birdəfəlik üç tayanın üçündən də maşına yük vurdular. Maşının kuzovundakı ot tayası evdən böyük idi, sonra örkənlə aşağı düşməli oldular. Beləliklə, maşınları bir-bir yüklədilər. Kabino görünmürdü, yalnız qabaq aynası, kapotu və təkərləri gözə dəyirdi. Gəlmişkən, birdəfəlik hamısını yükləmək istəyirdilər ki, bir də qayıtmasınlar. Bilirdilər ki, ot bu dəfədən qalsa, bir də qalacaq gələn ilə. Bəhsəbəhs işləyirdilər, kimin maşını hazır oldu, kənara çəkir, başqasına ot yükləməkdə kömək edirdi. Demək olar ki, otun hamısını yığmışdılar, iki dəfəlikdən artıq qalmamışdı. Papiros çəkdilər, məsləhətləşdilər ki, kim kimin ardınca gedəcək və hamısı biyolikdə sıra ilə yola düşdü. Ehtiyatla gedirdilər, dağdan demək olar ki, əlləri



ilə yolu yoxlaya-yoxlaya endilər. Ot ağır yük deyil, ancaq namünasib, hətta təhlükəlidir – xüsusən ensiz yerlərdə və sərt döngələrdə.

Gedirdilər, ağıllarına da gəlmirdi qarşıda onları nə gözləyir.

Arça yaylasını endilər, dərə ilə getdilər, dərədən çıxhaçıxda, toranqağı onları qasırğa haqladı, qar başladı.

– Elə başladı ki, dərhal küräklərimiz qovuşdu. – Qulubəy danışırdı. – Yaman tez qaranlıqlaşdı, güclü külək sükanı əldən alırdı. Qorxurdun ki, bax, elə bu saat maşın aşacaq. Bu yollarla günün günorta çağı getmək təhlükəlidir, o ki, qaldı...

Oğlan işıldayan gözlərini Qulubəydən çəkmədən, nəfəsini içəri çəkərək, tərpənmədən qulaq asırdı. Haqqında söhbət gedən həmin külək, həmin qar pəncərənin o tayında meydan oxuyurdu. Şofeyələrin və yükvuranların əksəriyyəti döşəmənin üstündə yan-yana, palpaltarlı, ayaqqabılı çoxdan yatmışdı. Onların çəkdiyini indi dübarə bu nazikboğaz, girdəbaş, pələqulaq oğlan çəkirdi.

Bir neçə dəqiqədən sonra yol görünməz oldu. Maşınlar, kor adamlar kimi "əl-ələ" tutmuşdular və aramsız siqnal verirdilər ki, yoldan sapmasınlar. Quşbaşı qar yağırdı, faraları örtmüşdü, "süpürgəçilər" şüşədəki sırsıranı təmizləyə bilmirdi. Kabinədən başlarını çıxarıb, irəli baxa-baxa sürməli olurdular: məgər belə yol getmək olardı? Qar isə tökür, hey tökürdü... Təkərlər sürüşüb yerində fırlanırdı. Dik bir yoxuşa çatanda maşın karvanı dayanmalı oldu. Motorlar dəlicəsinə nərildəyirdi, ancaq faydası yoxdu. Kabinədən çıxdılar, səsləyib biri-birini tapdılar və bir maşından o birisinə keçə-keçə karvanın baş tərəfinə toplaşdılar. Necə eləməli? Tonqal qalamaq mümkün deyildi. Kabinədə oturmaq – sovxozadək gücələ çata biləcək qalan yanacağı da yandırmaq demək idi. Kabinəni qızdırmamaq isə donmaq deməkdi. Cavanlar çaşıb qaldılar. Güc allahı texnika gücsüz olub qalmışdı. Nə etməli? Kimsə təklif etdi ki, maşınlardan birini boşaldıb, hamılıqla otun içinə doluşsunlar. Ancaq buna şəkk yox idi ki, örkəni açdınmı, otdan bir çəngə də qalmazdı: göz qırpımında tufan süpürüb aparacaqdı. Get-gedə maşınları qar basırdı. Sovruq təkərlərin altını tutmuşdu. Uşaqlar tamam çaşıb qalmışdılar, külək dondurmuşdu onları.

– Birdən, ağsaqqal yadıma düşdü. – Qulubəy Mömün babaya danışırdı. – Yolda, biz Arçaya gedəndə, bax, bu buqulu – kiçik qardaşımızla görüşmüşdük, – o, barmağı ilə oğlanı göstərdi və nəvazişlə

onun başını sığalladı, – yolda o yana-bu yana qaçırdı. Maşını saxladım. Əməlli-başlı görüşdüm, söhbət elədik. Düzdür? Sən niyə yatmırsan?

Oğlan gülümsəyib, başı ilə təsdiqlədi. Kaş onun ürəyinin sevincdən və qürurdan necə hərarətlə, necə bərkdən döyündüyünü duyan olaydı. Onun barəsində şəxsən Qulubəyin özü danışırdı. Bu oğlanların arasında ən güclüsü, ən cəsuru, ən gözəli. Olanda da belə olasan ey!

Baba da sobaya odun qoya-qoya onu təriflədi:

– Belədir mənim balam. Söhbətə qulaq asmağı xoşlayır. Görürsən, qulağını necə şiniyib!

– Bu an özüm də bilmirəm o haradan yadıma düşdü! – Qulubəy söhbətinə davam elədi. – Və az qala çığıraraq uşaqlara deyirəm, külək səsimi batırır. – "Gəlin, – deyirəm, – özümüzü yetirək məntəqəyə. Yoxsa burda məhv olarıq". – "Necə? – Mənimlə üzbəüz dayanan uşaqlar çığırırlar, – necə gedib ora çıxacağıq? Piyada gedə bilmərik. Maşınları da burada qoymaq olmaz". Mən də onlara: "Gəlin, – deyirəm, – maşınları itələyə-itələyə çıxardaq dikdirə, oradan yol enişdir. Ən çətini San-Taş enişinə qədərdir, deyirəm, – oradan bizim meşəçilərin yanına piyada gedib çata bilərik, uzaq deyil". Uşaqların ağlına batdı. "Haydı, – dedilər, – komanda ver". İş ki belə oldu... Qabaqda duran maşından başladıq: "Osmanəli, kabinəyə gir!" Qalanlar isə elliklə çiynimizi maşına dirəyib itələdik. Getdi də! Əvvəlcə iş avand idi. Sonra yorulduq. Geri dönmək də olmazdı. Möcüzə idi, sanki maşını yox, bütöv bir dağı irəli itələyirdik. Yük də nə yük – təkərlər üstündə bütöv bir taya! Bir onu bilirdim ki, səsim gəldikcə bağırırdım: "Haydı! Haydı! Haydı!" Ancaq öz dediyimi özüm eşitmirdim. Külək, qar, göz-gözü görmürdü. Maşın uğuldayır, canlı məxluq kimi ağlayırdı. Var gücü ilə dırmaşırdı. Biz də onun dalınca. Az qala ürəyimiz partlayacaq, parça-parça olacaqdı. Başımız da keyləşirdi...

– Ay-ay-ay... – Mömün baba onun üstünə düşdü. – Sizinki gətirib. Buynuzlu ana maral sizə – öz uşaqlarına havadar olub. Xilas edib sizi. O olmasaydı, kim bilir... – Eşidirsən? Bayırda nə oyun çıxardır, yeri-göyü sovurur, süpürgə çəkir hər yana.

Oğlanın gözləri yumulurdu. O özünü yatmağa qoymurdu, kirpikləri isə yenə qapanırdı. Yarıyuxulu, qocanın və Qulubəyin söhbətini qırıq-qırıq eşidirik, oğlan gözləri önünə gətirdiyi mənzərə ilə gerçəkliyi biri-birinə qatışdırmışdı. Sanki o da orada, dağda tufana düşmüş bu cavan oğlanların arasındadır. Onun nəzərində ağappaq, qarlı dağlara dırmaşan dik yol canlanırdı. Qasırğa yanaqları yandırırdı. Gözlər



göynəyirdi. Onlar nəhəng, ev boyda dolu avtomaşınları yuxarı itələyirdilər. Onlar yolla çox yavaş-yavaş qalxırdılar. Yük maşını isə daha getmir – üzünə dayanıb, dalı-dalı sürüşür. Necə də vahiməlidir. Necə də qaranlıqdır. Külək də bıçaq kimi kəsir. Oğlan dəhşətdən büzüşdü, qorxdu ki, maşın dayana bilməyib yerindən qopar, onları basar. Lakin bu zaman haradansa Buynuzlu ana maral peyda oldu. O, buynuzunu maşına dirəyib, onlara kömək etməyə, irəli itələməyə başladı. Oğlan qışqırdı: "Haydı! Haydı! Haydı!"

Maşın getməyə başladı, getdi də. Dağa qalxdılar və buradan maşın özü üzüaşağı endi. Onlar bir maşını, ikincisini, sonra üçüncüsünü və sonra maşınların çoxunu çəkib çıxartdılar. Hər dəfə də Buynuzlu ana maral onlara kömək elədi. Onu heç kəs görmədi, heç kəs bilmədi ki, yanlarındadır. Oğlan isə görürdü, görürdü ki, onların səbri tükənəndə, dəhşətə gələndə, gücləri çatmayanda Buynuzlu ana maral qaçıb özünü yetirdi və buynuzu ilə maşını itələyib onlara kömək elədi. "Haydı! Haydı! Haydı!" – Oğlan onların səsinə səs verirdi. Özü də həmişə Qulubəyin böyründə olardı. Sonra da Qulubəy ona dedi: "Sükanın arxasına keç". Oğlan kabinədə oturdu. Maşın silkələnir, uğuldayırdı. Sükan da əlində öz-özünə fırlanırdı, sərbəstcə, hələ uşaq olanda avtomobil oyunu oynayarkən, çəlləyin dairəvi qurşağından diyircək düzəldib, onu asanlıqla "sürdüyü" kimi. Oğlan pərt oldu ki, niyə sükan onun əlində oyuncağa dönüb. Və birdən maşın yana, böyrü üstə əyildi. Şaqqıltı ilə yerə dəyib parçalandı. Oğlan bərkdən ağladı. Çox xəcalət çəkdi. Qulubəyin gözlərinə baxmağa utandı.

– Sənə nə oldu? Sənə nə oldu, de? – Qulubəy onu yuxudan oyatdı.

Oğlan gözlərini açdı. Bütün bunların yuxu olduğunu anlayıb sevindi. Qulubəy isə onu qolları üstündə qaldırıb bağrına basdı.

– Yuxu görürdün? Qorxdun! Vay səni, adını da igid qoymusan! – O, küləkdən qaysaqlanmış dodaqları ilə bərk-bərk oğlanı öpdü. – Yaxşı, gəl, mən sənin yerini düzəldim, yatmaq lazımdır.

O, oğlana döşəmədə, keçənin üstündə, yatmış şoferlərin arasında yer elədi, özü də onun yanında uzandı, böyrünə çəkib buşlatın yarısı ilə üstünü örtdü. Səhər tezdən oğlanı babası oyatdı.

– Oyan, – qoca astadan dedi. – İsti geyin. Mənə kömək edərsən. Qalx.

Pəncərə arxasından səhər toranlığının azacıq işıqlandığı hiss olunurdu. Evdə isə hamı yan-yana yatmışdı.

Mömün baba dedi:

– Al, keçə çəkmələri gey.

Babadan təzətər quru ot iyi gəlirdi. Deməli, atlara yem vermişdi. Oğlan çəkmələri ayağına çəkdi və babası ilə bayıra çıxdılar. Kifayət qədər qar yağmışdı. Ancaq külək kəsmişdi. Lakin hərdənbir zəif meh əsirdi.

– Soyuqdur! – Oğlan çimçindi.

– Heç nə olmaz. Deyəsən ayazıyır, – qoca söyləndi. – Açılmalıdır! Siftədən yaman bərk başladı. Eybi yox, təki axırı yaxşı olsun...

Onlar pəyəyə girdilər, burada Mömünün beş qoyunu vardı. Qoca əli ilə axtarıb dirəkdən asılmış fanusu tapdı, yandırdı. Qoyunlar küncdə döyükdülər, biri-birinə sığındılar.

– Tut, işıq elə mənə, – qoca fanusu oğlana verdi. – Qara toğlunu kəsərik. Ev qonaqla doludur. Onlar duranacan barı ət hazır olsun.

Oğlan fanusu baba tərəfə tutub, işıq saldı. Qapı-pəncərə deşiklərində külək hələ də vıyıldayırdı, bayırda hava soyuq və tutqun idi. Qoca, qapının ağzına əvvəlcə bir qucaq təmiz ot atdı. Qara toğlunu buraya gətirdi, yıxıb ayaqlarını bağlamazdan qabaq fikrə getdi, çömbəlib oturdu, oğlana dedi:

– Fanusu yerə qoy. Sən də otur.

O, əllərini qaldırıb irəli uzatdı, pıçıldamağa başladı:

– Ey bizi yaradan ulu, Buynuzlu ana maral. Bu qara toğlunu sənə qurban kəsirəm. Çətin anda uşaqlarımızı xilas elədiyinə görə, əcdadlarımıza verdiyin o ağ südə görə, nəcib ürəyin, ana nəzərin üçün. Aşırımlarda, gur axan çaylarda, sürüşkən cığırlarda bizi tərk etmə. Yurdumuzda bizi əbədi olaraq atıb getmə, sənin övladlarınıq. Amin!

O, ibadət əlaməti olaraq ovuclarını alnından çənəsinədək üzünə çəkdi. Oğlan da belə etdi. Bu zaman baba toğlunu yerə yıxdı, ayaqlarını bağladı. Öz köhnə dədə-baba bıçağını qınından çıxartdı.

Oğlan isə fanusla işıq salırdı.

Nəhayət, hava sakitləşdi. Qaçışan buludların arasından bir-iki dəfə qorxaq-qorxaq Günəş boylandı. Hər yerdə ötən tufanlı gecənin izi qalmışdı: əyri-üyrü qar topaları, pırtlaşıq düşmüş kollar, qarın ağırlığından əyilmiş cavan pöhrələr, yerə döşənmiş qocaman ağaclar. Çayın o tayındakı meşə səssiz-səmirsizdi, sükuta qərq olmuşdu, məyus görünürdü. Çayın suyu da sanki aşağı düşmüşdü, sahillərə qar yığılmışdı, uçurumlu dik görünürdü. Su astadan zümzümə edirdi.

Günəş dəyişkən qalmışdı – gah görünür, gah gizlənirdi.



Lakin oğlanın qəlbini heç nə sıxmırdı, heç nə onu həyəcanlandırmırdı. Ötən gecənin təşvişləri yaddan çıxmışdı, tufan unudulmuşdu, qar da ona mane olmurdu, belə bir az da maraqlı idi. Ora-bura yüyürürdü, ayağının altından qar topaları havaya sıçrayırdı. Ona görə sevinirdi ki, ev adamla dolu idi, ona görə sevinirdi ki, cavanlar doyunca yatmışdı, indi bərkdən danışıb gülürdülər, ona görə sevinirdi ki, onlar üçün bişirilmiş əti iştahla yemişdilər.

Bu vaxt artıq hava açıldı, gün də əməlli-başlı göründü. Ətraf işıqlandı, üfüqlər genişləndi. Buludlar yavaş-yavaş dağılışdı. Hətta hava qızdı da. Vaxtsız yağmış qar, xüsusən yolda və cığırlarda tez də yapıxmışdı.

Şoferlər və yükçülər getməyə yığışanda, oğlan bir qədər həyəcanlandı. Hamısı həyətə çıxdı, məntəqənin sakinləri ilə vidalaşdılar, onlara daldalanacaq və yemək verdikləri üçün təşəkkürlərini bildirdilər. Mömün baba ilə Seyidəhməd də qonaqları ötürmək üçün atlandılar. Motorların suyunu qızdırmaq üçün baba bir şələ odun, Seyidəhməd isə sinklənmiş iri dəmir bakı götürmüşdü.

Həyətdən hamı birlikdə tərpəndi.

– Baba, mən də gedirəm, məni də apar, – oğlan qaçıb Mömünün yanına gəldi.

– Görmürsən, mən odun aparıram, Seyidəhmədsə bak. Səni kim götürəcək? Axı sənin orada nə işin var? Qarda yeriyə bilməzsən, yorularsan.

Oğlan incidi. Doluxsundu. Bu zaman Qulubəy onu yanına çəkdi.

– Gedək bizimlə, – deyib əlindən tutdu. – Geriyə babanla qayıdarsan.

Onlar yol ayrıcına – Arça biçənəyindən enən yola sarı getdilər. Qar qalındı. Bu sağlam cavanlarla ayaqlaşmaq o qədər də asan deyildi. Oğlan yorulmağa başladı.

– Gəlsənə, mənim belimə minəsən, – Qulubəy təklif edərək cəld oğlanın qolundan yapışdı, onu asanca qaldırıb dalına mindirdi.

Onunla yanaşı gedən şofer dedi:

– Yaman götürdün ha!

– Mən ömrüm boyu qardaş və bacılarımı belimdə gəzdirmişəm. – Qulubəy öyündü. – Axı böyükləri mənəm, biz isə altı idik, anam da, atam da tarlada işdə olardı. Sonra da bacılarımın uşaqlarını gəzdirirdim. Ordudan gəldim, subaydım, hələ işə də girməmişdim. Böyük bacım dedi: "Gəl bizə, bizdə qal, uşaqları çox yaxşı saxlayırsan". –

"Yox, elə şey yoxdur, – dedim, – saxladığım bəsdir! İndi özümünküləri gəzdirəcəyəm..."

Onlar ordan-burdan danışa-danışa xeyli yol getdilər. Qulubəyin belində sənət öyrənmək oğlana ləzzət verirdi.

"Əgər mənim belə bir qardaşım olsaydı! – O arzuladı. – Mən heç kəsdən qorxmazdım. Onda Orozqul babamın üstünə çığırsın görüm, necə çığırır. Ya hünəridi birinə əl qaldırsın. Qulubəy ona tərs-tərs baxan kimi yerindəcə oturardı".

Dünən gecə burada qalan ot yüklü maşınlar yol ayrıcından iki kilometr yuxarıda dayanmışdı. Üstlərinə qar yağdığından onlar çöldəki qış taylarına bənzəyirdilər. Adama elə gəlirdi ki, heç kəs heç vaxt onları yerindən tərpədə bilməz.

Onlar ocaq qaladılar. Su qızdırdılar. Motorun pərini əyriqulp açarla eşik tərəfdən fırladılar, motor cana gəldi, asqırdı, işə düşdü. Bundan sonra hər şey sürətlə getdi. Qalan maşınları yedəyə qoşub xoda saldılar. Hər bir qızdırılan, işə düşən maşın dəstədə özündən sonrakını çəkib aparırdı.

Elə ki bütün yük maşınları sazlandı, dünən sürüşüb yolkənarı arxa düşən maşını ikitərəfli yedəklə dartıb çıxartdılar. Kim vardı, hamısı onu yola çıxarmağa kömək elədi. Oğlan da belini əyib bir tərəfdən əl yetirdi. O, daim ehtiyat edirdi ki, kimsə bir söz deyər: "Sən niyə ayağa dolaşırsan? Haydı, qaç burdan!" Lakin deyən olmadı. Heç kəs onu qovmadı. Bəlkə də ona görə ki, kömək eləməyə Qulubəy icazə vermişdi. O burada hamıdan güclüydü, hamı onun hörmətini saxlayırdı.

Şoferlər bir də xudahafizləşdilər. Maşınlar tərpəndi. Əvvəlcə yavaş-yavaş, sonra sürətlə getdilər. Qarlı dağların arası ilə onlar karvan kimi uzanıb gedirdilər. Buynuzlu ana maralın övladlarının uşaqları getdi. Özləri də bilmirdilər ki, uşaq təsəvvüründə onların önündə gözəgörünməz Buynuzlu ana maral qaçırdı. O, iti sıçrayışlarla, ox kimi süzə-süzə avtomobil karvanının qabağı ilə uçurdu. O, çətin yolda onları xatadan, fəlakətli qəzalardan qoruyurdu. Uçqunlardan, qar tarından, çovğundan, dumandan və sair bəlalardan qoruyurdu – əsrlərlə köçəri həyat sürən qırğızlar. bunlardan saysız-hesabsız bəlalar görmüşdü. Məgər Mömün baba işıqlananda qara toğlunu qurban kəsərkən Buynuzlu ana maraldan bunları xahiş etmirdimi?

Getdilər. Oğlan da onlarla gedirdi. Xəyalən. O, Qulubəyin yanında kabinədə oturmuşdu. Ona deyirdi: "Qulubəy əmi, bizdən qabaqda



Buynuzlu ana maral qaçır". – "Yox, əşi?" – "Doğrudan da. Düz sözümdür. Bax, odur ey!"

– Hə, nə fikrə getmisən? Niyə durmusan? – Mömün baba onu xəyaldan ayırdı. – Gəl, min, evə getmək vaxtıdır. – O, atın belindən əyilib, oğlanı yəhərə qaldırdı. – Üşüyürsən? – Qoca belə deyib, kürkünün ətəyi ilə nəvəsini yaxşıca bürüdü.

O vaxtlar hələ oğlan məktəbə getmirdi.

İndi isə ağır yuxudan arabir ayılır, narahat halda düşünürdü: "Sabah məktəbə necə gedəcəyəm? Axı xəstəyəm, özümü çox pis hiss edirəm". Sonra özünü unutdu. Ona elə gəldi ki, müəllimin lövhəyə yazdığı sözləri: – "At. Ata. Taka"* dəftərinə köçürür. Bu birinci sinif yazıları ilə bütün dəftəri doldurdu, səhifə-səhifə "At. Ata. Taka. At. Ata. Taka." O yoruldu, gözləri alacalandı, isti idi, üstünü açdı. Üstü açıq yatanda üşüdü, onu yenə qara basırdı. Gah soyuq çayda balıq kimi üzürdü, gah ağ gəmiyə tərəf üzüb gedirdi və heç cür də ona çata bilmirdi. Gah da qar çovğununa düşürdü. Yoxuşlu dağ yolunda dumanlı, soyuq havada ot yüklənmiş avtomaşınların təkərləri yerində fırlanırdı. Maşınlar insan kimi zar-zar ağlayırdı və hamısının da təkərləri yerindəcə fırlanırdı. Təkərlər sürətlə fırlanaraq, al-qırmızı olurdu. Təkərlər yanırdı, alov qalxırdı onlardan. Buynuzlu ana maral buynuzunu maşının banına dirəyərək, otla dolu maşını itələyib dağa qaldırırdı. Oğlan var qüvvəsi ilə ona kömək edirdi. Qan-tər onu basmışdı. Və birdən-birə ot tayası dönüb uşaq beşiyi oldu. Buynuzlu ana maral oğlana dedi: "Haydı, qaçaq, beşiyi Bekey xala ilə Orozqul əmiyə aparaq". Və onlar qaçmağa başladılar. Oğlan geri qaldı. Lakin qabaqda, qaranlıqda beşik zınqırovu hey səslənirdi. Oğlan bu sədanın ardınca qaçırdı.

Eyvanda ayaq səsi və qapının cırıltısı eşidiləndə oğlan oyandı. Mömün baba ilə nənə deyəsən bir qədər xatircəm qayıtmışdılar. Özgə adamların məntəqəyə gəlməsi, görünür, Orozqulla Bekey xalanı bir az susmağa vadar etmişdi. Bəlkə də Orozqul sərxoşluqdan yorulub və nəhayət, yuxulayıb. Bayırda nə qışqırıq, nə də söyüş eşidilirdi.

Gecə yarısı Ay dağların başı üstündəydi. Onun tutqun haləsi ən uca, buzlu dağ zirvəsindən də yuxarıda dayanmışdı. Əbədi buza bürünmüş dağlar mavi rəngə qərq olmuşdu, adda-budda bərq vururdu.

[1] Taka – nal (*qırğızca*)

Ətrafda isə dağlar, qayalar, qara və hərəkətsiz meşələr tam sükut içərisindəydi, ən aşağıda çay daşları çırpına-çırpına şarıldayırdı.

Pəncərədən içəri çəpəki, solğun Ay işığı düşürdü. Bu işıq oğlana mane olurdu. O eşələnir, gözlərini ovxalayırdı. İstəyirdi nənəsindən xahiş eləsin ki, pəncərənin pərdəsini çəksin. Lakin fikrindən vaz keçdi: nənə babanın əlindən hirslənmişdi.

– Səfeh, – o, yatağa uzananda astadan belə dedi. – Adamlarla dil tapa bilmirsənsə, heç olmazsa, dilini dinməz saxla. Başqalarına qulaq ver. Sənin canın onun əlindədir. Lap qəpik-quruş olsa da, donluğun ondan gəlir. Özü də hər ay. Aylıqsız-donluqsuz sən kimə gərəksən? Saqqalın ağarıb, ağlınsa yox...

Qoca cavab vermirdi. Nənə susdu. Sonra birdən gözlənilmədən səsini ucaltdı.

– Adamın maaşını kəssələr, onda o, daha adam deyil, heç nədir.

Qoca yenə də cavab vermədi.

Oğlanın isə yuxusu dağılmışdı. Başı ağrıyırdı, fikirləri qarma-qarışıq düşmüşdü. Məktəb haqqında düşünürdü – həyəcanlanırdı. O, indiyədək bir gün də dərs buraxmamışdı və indi ağlına belə gətirə bilmirdi ki, əgər sabah Celesaydakı məktəbinə getməsə, necə olacaq. Oğlan o barədə də düşünürdü ki, əgər Orozqul babanı işdən qovsa, nənə qocanın gününü göy əsgiyə düyəcək. Onda neyləyəcəklər?

İnsanların həyatı niyə belədir? Biri qəddardır, o biri xeyirxah? Niyə axı xoşbəxtlər və bədbəxtlər var? Niyə elə adam var ki, hamı ondan qorxur, eləsi də var ki, heç kəs ondan qorxmur? Niyə birinin uşağı var, başqasının yox? Niyə biri başqasının maaşını kəsə bilir? Görünür, ən yaxşı adamlar ən çox maaş alanlardır. Bax, baba ən az maaş alır və hamı da onun xətrinə dəyir. Eh, necə eləyəsən ki, babaya da çox maaş versinlər! Bəlkə, onda Orozqul da babanın hörmətini saxlayar.

Bu fikirlərdən getdikcə oğlanın başı daha bərk ağrıyırdı. O, yenə də axşamçağı çay keçidində gördüyü marallar haqqında düşünməyə başladı. Görəsən, gecə neylədilər? Soyuq, daşlı-qayalı dağlarda, zülmət, qaranlıq meşədə onlar axı təkdirlər. Həm də yaman qorxuludur. Birdən canavarlar cumdu üstlərinə, onda nə edərlər? Bekey xalaya buynuzunda sehrli beşiyi kim gətirər?

O, narahat yatdı, özü də yuxulaya-yuxulaya Buynuzlu ana marala yalvarmışdı ki, Orozqul əmiyə və Bekey xalaya ağcaqayın beşiyi gətirsin. "Qoy onların uşaqları olsun, qoy onların uşaqları olsun!" – Buynuzlu ana marala and verdi. Və uzaqdan beşik zınqırovunun səsini eşitdi. Buynuzlu ana maral buynuzuna sehrli beşik keçirib sürətlə, qaça-qaça gəlirdi...



## 7

Oğlan səhər tezdən kiminsə əlinin təmasından oyandı. Babanın əli soyuqdu, bayırdan gəlmişdi. Oğlan, qeyri-ixtiyari büzüşdü.

– Yat, yat, – baba əlini hovxurub qızışdırdı, onun alnına toxundurdu, sonra ovcunu sinəsinə, qarnına qoydu. – Görürsən bir, naxoşladın, – baba təəssüfləndi. – Qızdırman var. Mən də deyirəm bəs niyə yatıb? Məktəbə getmək vaxtıdır.

– Bu saat dururam, – oğlan başını qaldırdı və hər şey onun gözləri önündə fırlandı, qulağı səsləndi.

– Durmaq olmaz. – Baba oğlanın başını yastığa qoydu – Xəstə-xəstə səni məktəbə aparmaq olar? Hələ dilini göstər görüm.

Oğlan inadkarlıq elədi:

– Müəllim danlayacaq. Məktəbdə dərs buraxandan onun acığı gəlir...

– Danlamaz. Mən özüm deyərəm. Hələ bir dilini göstər görüm.

Baba oğlanın dilinə və boğazına zəndlə baxdı. Nəbzini çox axtardı. Babanın ağır işlərdən codlaşmış qaba barmaqları kim bilir hansı möcüzənin qüvvəsi ilə oğlanın isti, tərli biləyində ürəyinin döyüntülərini sezirdi. Nədənsə xatircəm olan qoca ona ürək-dirək verdi:

– Allah kərimdir. Bir az üşümüsən. Soyuq tutub. Bu gün uzan, yatmamışdan qabaq mən sənin ayağını və sinəni quyruq yağı ilə ovuşduraram. Tərləyərsən, Allah qoysa, səhər xam qulan kimi dingildəyib ayağa durarsan.

Dünənki həngaməni xatırlayıb, bundan sonra da onun başına nələr gələ biləcəyini düşünəndə Mömün kədərləndi, yanını nəvəsinin yatağına qoydu, köks ötürüb fikrə getdi, astadan ah çəkdi. "Allah qənim olsun ona".

– Sən axı haçan xəstələnibsən? Niyə deməmisən? – O, üzünü uşağa çevirdi. – Axşam xəstələndin, nədir?

– Elədir, axşamçağı. Çayın qırağında maralları görəndə. Qaçıb sənin yanına gəldim. Sonra mənə soyuq oldu.

Qoca nədənsə günahkar bir səslə dedi:

– Yaxşı, bəsdir... Sən yat, mən gedirəm.

Ayağa qalxdı, lakin oğlan onu getməyə qoymadı.

– Baba, ordakı Buynuzlu ana maralın özüydü eləmi? Süd kimi ağappaq, gözləri, bax, belə, insan kimi baxırdı...

– Nə səfeh uşaqsan, – qoca Mömün xəlvəti gülümsədi. – Qoy sən deyən olsun. Bəlkə də onun özüymüş. – O, kal səslə dedi, – füsunkar ana maral, kim bilir?.. Bax, mən belə fikirləşirəm ki...

Qoca sözünü bitirmədi. Nənə qapının ağzında göründü. O, tələsik həyətdən gəlirdi, nə isə təzə bir xəbər vardı onda. Nənə həyəcanla dedi:

– Qoca, bura gəl. – Mömün baba elə o an büzüşdü, yazıq, fağır görkəm aldı. – Odur ey, orada tiri çaydan maşınla çıxarmaq istəyirlər. Sən də get, nə buyursalar elə... – Qəflətən nəyi isə xatırladı. – Vay, dədə, süd hələ qaynadılmayıb! – Plitəni yandırmağa girişdi, qab-qacağı şaqqıldatdı.

Qoca dilxor oldu. İstəyirdi nəyəsə etiraz eləsin, nə isə desin. Ancaq nənə onu ağzını açmağa qoymadı.

– Hə, nə dayanıb baxırsan? – Nənə özündən çıxdı. – Nə tərslik edir-sən? Bizə inadkarlıq yaraşmaz, sən mənim başıma bəla oldun. Onların qabağında sən nəsən ki? Orozqulun yanına, görürsən, necə adamlar gəlir? Necə maşınları var. On tir yükləsən, dağlardan çəkib aparar. Orozqul isə bizə heç gözünün ucu ilə də baxmır. Nə qədər dilə tutdum, nə qədər onun yanında alçaldım, sənin qızını kandardan içəri buraxmadı. Sənin o sonsuz qızın oturub Seyidəhmədgildə. Ağlamaqdan gözü-nün yaşı qurtarıb. O da səni yamanlayır – ağılsız atasını...

– Yaxşı, bəsdir, – qoca dözmədi, qapıya tərəf yönələrək dedi: – İsti süd ver, uşaq xəstələnib.

– Verərəm, verərəm isti süd, get, sən allah, sən get. – O, qocanı yola salıb deyinirdi. – Ona nə olub, bilmirəm? Heç vaxt kimsənin üzünə qayıtmayan, dilsiz-ağızsızın biri durduğu yerdə özündən çıxıb. Üstəlik Orozqulun atını minib, hələ bir çapıb da. Bunların hamısı sənin ucbatındandır. – O, acıqlı baxışla oğlan tərəfə nəzər saldı. – Kimdən ötrü gör özünü oda-suya atır...

Sonra o, oğlana isti südlə ərinmiş sarı yağ gətirdi. Süd dodağını yandırdı. Nənə isə təkid edirdi, vadar edirdi:

– İç, isti-isti iç, qorxma. Soyuqdəyməni yalnız qaynar şeylə can-dan çıxarmaq olar.



Oğlanın ağzı yandı, gözləri yaşardı. Nənənin də birdən rəhmi gəldi:

– Yaxşı, bir az soyut, soyut... Belə bir vaxtda, bircə bu çatmırdı ki, sən də xəstələnəsən! – O, köksünü ötürdü.

Oğlan çoxdan bayıra çıxmaq istəyirdi, güclə dözürdü. O, ayağa qalxdı, bütün bədənində qəribə bir şirin zəiflik hiss elədi. Ancaq nənə onu qabaqladı:

– Dayan, mən bu saat ləyən gətirərəm.

Oğlan, azacıq üzünü döndərib, ləyənə pəşo elədi və təəccübləndi ki, sidiyi niyə belə sarı və istidir.

O, özünü xeyli yüngül hiss elədi. Başı azca ağrıyırdı. Oğlan sakitcə yataqda uzanmışdı, nənənin ona qulluq göstərməsindən məmnundu və fikirləşirdi ki, səhərəcən sağalıb, hökmən məktəbə getməlidir. O, həmçinin, məktəbdə onların meşəsində peyda olan üç maral haqqında, ağ ana maralın məhz Buynuzlu ana maral olması, balasının artıq böyü-məsi və totuqlaşması, onlarla gəzən şaxəli buynuzlu yekə boz maral haqqında, onun güclülüyü və Buynuzlu ana maral balalarını canavar-dan qoruya bilməsi barədə necə danışacağı haqqında fikirləşirdi. Və fikirləşirdi ki, bir də o barədə danışacaq ki, əgər marallar heç yana getməyib onlarda qalarsa, Buynuzlu ana maral tezliklə Orozqul əmi və Bekey xala üçün sehrli beşik gətirəcəkdir.

Marallar isə səhər tezdən suya gəldilər. Qısa ömürlü payız Günəşi dağ silsiləsinin üstünə qalxahaqalxda, onlar yuxarıdakı meşədən çıx-dılar. Günəş yuxarı qalxdıqca aşağıda, dağlar arasında hava daha da işıqlanırdı, hərarət artırdı. Gecə buzxanasının donu açıldıqca meşə cana gəlirdi, işığın, rənglərin çalarlarıyla dolğunlaşırdı.

Marallar ağacların arasından keçərək güney talalarda qızına-qızına, budaqlardakı şehli yarpaqları qırpa-qırpa tələsmədən gedir-dilər. Həmişəki qaydada, qabaqda təkə maral, ortada bala və arxada şişmanqarın ana – Buynuzlu ana maral gedirdi. Marallar dünən Oroz-qulla Mömün babanın andıra qalmış şam tirini çaya endirdikləri cığırla düşürdülər. Dağ qaratorpağının çəngə-çəngə qopmuş çimli şırımında sürütdəmənin izi hələlik təptəzə görünürdü. Cığır çay keçidinə, da-yazlıqda tirin ilişib qaldığı yerə enirdi.

Marallar ona görə bu yerə üz tutmuşdular ki, suvadaq kimi bura rahat idi. Orozqul, Seyidəhməd və ağac aparmağa gəlmiş iki nəfər də bura ona görə gəlmişdilər ki, tirə buraz bağlayıb, çaydan çıxarmaq

üçün maşına yer seçsinlər. Mömün baba başını aşağı salıb, onların dalınca könülsüz gedirdi. O, dünənki savaşdan sonra nə olacağını, özünü necə aparmaq, nə eləmək lazım gəldiyini bilmirdi. Orozqul onu işə buraxacaqdımı? Dünən atla tiri çıxartmaq istəyəndə etdiyi kimi, onu yenə qovmayacaq ki? Birdən desə: "Sən burda neyləyirsən? Axı sənə dedilər ki, işdən çıxarılmısan!" Onda necə olsun? Adamların yanında söyüb evə qaytarsa necə? Getdikcə qocanın şübhələri artırdı, özü də işgəncəyə gedirmiş kimi yeriyirdi. Nənə də onun dalınca. O, guya elə-belə, maraq üçün gedirdi. Əslində isə qocanı müşayiət edirdi. O, Qıvraq Mömünü Orozqulla barışdırmaq üçün qabağına qatıb aparırdı, aparırdı ki, Orozqulun etimadını qazansın, özünü doğrultsun.

Orozqul özünü darta-darta, əsl sahib kimi yeriyirdi. Tövşüyə-tövşüyə, fısıldayaraq, ciddi tərzdə ətrafa baxa-baxa gedirdi. İçkidən başı ağrısa da, intiqam aldığından məmnun idi. Bir də baxanda gördü ki, Mömün baba, sahibi döymüş sadiq it kimi, onun ardınca səkir. "Eybi yoxdur, bu hələ harasıdır, sən mənim dalımca çox düşərsən. Mən indi sənin üzünə də baxmayacağam. Sən mənim üçün nəsən ki! Sən hələ mənim ayağıma çox düşərsən!" – Keçən gecə öz arvadını ayaqları altına yıxıb tapdalayanda, təpikləyə-təpikləyə onu kandardan qovanda necə şivən qopardığını indi xatırlayaraq, Orozqul kam alırdı. "Yaxşı! Qoy bu tir aparmağa gələnləri yola salım, onları ata-bala elə boğuşdurum ki, biri-birini didişdirsinlər. İndi o qancıq öz atasının gözünü də çıxardar. Canavar balası kimi vəhşiləşib". – Qonaqla atüstü söhbət arasında Orozqul arabir belə də düşünürdü.

Gəlmə qonağın adı Kökötöy idi. O qara, yekəpər kişi gölqırağı sovxozun hesabdarı idi. Orozqulla çoxdan dostluq eləyirdi. On iki il bundan qabaq Kökötöy özünə ev tikdirmişdi. Taxta-şalbanlığı Orozqul vermişdi, qiymətli tirləri ona su bahasına satmışdı. Sonra kişi böyük oğlunu evləndirdi, cavanlar üçün də ev dikəltdi. Bu dəfə də onu ağacla Orozqul təchiz etdi. İndi Kökötöy kiçik oğlunu ayırmaq istəyirdi, tikinti üçün yenə də ağac lazım idi. İndi də köhnə dost Orozqul kara gəldi. Müsibətdir, yaşamaq necə də çətinləşib! Bir işi görürsən, fikirləşirsən ki, daha rahat yaşayaram. Amma həyat bir şey düşünüb tapır. İndi Orozqul kimi adamlarsız işin aşmaz...

Kökötöy Orozqula deyirdi:

– Allah qoysa, tezliklə təzə evə köçəndə səni qonaq çağıracam. Gələrsən, ürəyimiz istəyən qədər kef edərik.



O isə özündən razı halda fısıldayır, papirosunu tüstülədirdi:

– Sağ ol. Necə deyərlər, çağırılan yerə ar eləmə, çağırılmayan yeri dar eləmə. Çağırarsan, əlbəttə, gələrəm. Birinci dəfə deyil ki... Bilirsən, ağlıma bir fikir gəlib: axşamacan gözləyəsən bəlkə, qaranlıqlaşanda çıxarsan? Mətləb bundadır ki, sovxozdan keçəndə görən olmasın. Yoxsa, qeydə alarlar...

– Bunu düz deyirsən, – Kökötöy tərəddüd elədi. – Axı axşamacan gözləmək çox çəkər. Yavaş-yavaş gedərik. Yolda gözətçi postu yoxdur ki, bizi yoxlaya?.. Əgər təsadüfən milisə və ya başqa birisinə rast gəlməsən...

– Ba-ba-bax, mən də onu deyirəm! – Orozqul, ürək qıcqırmasından, baş ağrısından üz-gözünü turşudub dedi. – Yüz il iş dalınca gedirsən, bir köpək də rastına çıxmır. Di gəl, yüz ildə bir dəfə ağac aparanda – ilişirsən. Həmişə belə olur...

Onlar susdular, hər biri öz fikri ilə məşğuldu. Orozqul dünən tiri çaya atıb getmələrinə indi yaman təəssüflənirdi. Belə olsaydı, ağac çıxarılsaydı, gecə ikən onu maşına qoyardılar, işıqlananda yola salardı – gözdən uzaq, xatadan kənar... Eh, bu gərək elə dünən baş verəydi?! Bütün təqsir qoca əbləh Mömündədir, qiyam eləmək, hökmranlıqdan, tabeçilikdən çıxmaq fikrinə düşdü. Eybi yox! Dünya dağılsa da, bu heyfi səndə qoymaram...

Adamlar o taydan sahilə gələndə marallar su içirdilər. Bu adamlar qəribə məxluqdurlar, bir yerdə qərar tuta bilmirlər, hay-küyləri aləmi götürüb. Öz işlərinə, söhbətlərinə başları elə qarışıqdı ki, çayın o biri tayında, onlarla üzbəüz dayanan heyvanları görmürdülər.

Marallar sübhün al-qırmızı tuqay kolluğunda qənbərli büllur dayazlıqda topuğacan sahil suyuna girib dayanmışdılar. Onlar kiçik qurtumlarla, ara verə-verə, tələsmədən su içirdilər. Su çox soyuq idi. Günəş yuxarıdan qızdırdıqca, get-gedə daha isti, daha ləzzətli olurdu. Marallar içib doyduqdan sonra özlərini günə verib xumarlanırdılar. Yolda gələndə budaqlardan bellərinə tökülmüş bolluca şeh damlaları qurumaqda idi. Maralların belindən xəfif buğ qalxırdı. Həmin gün səhər sakit və şəfqətli idi.

Adamlar isə maralları görmürdülər. Biri maşının yanına qayıtdı, qalanları sahildə qaldı. Marallar qulaqlarını arabir tərpədərək, uzaqdan gələn qırıq səsləri həssaslıqla eşidirdilər və yedəkli avtomaşın o biri sahildə görünəndə, tükləri ürpəşdi, yerlərində donub qaldılar. Maşın

nərildəyir, guruldayırdı. Marallar tərpənişdilər, getməli oldular. Lakin maşın birdən dayandı, gurultusu, uğultusu kəsdi. Heyvanlar yavaşıdılar, sonra yenidən ehtiyatla tərpəndilər – o taydakı adamlar yaman bərkdən danışırdılar və həddən çox tələsərək ora-bura qaçırdılar.

Marallar alçaq tuqaylıqdakı cığırla ehmalca getdilər, onların belləri və buynuzları hərdənbir kolların arasından görünürdü. Adamlar isə onları hələ də görmürdülər. Lakin marallar selləmədən qalan quru qumlu, açıq taladan keçəndə adamlar onları apaydın gördülər. Yasəməni qumluqda, Günəşin parlaq işığında. Hərə öz yerindəcə dondu, ağızları açıla qalmışdı.

– Baxın, baxın, bu nədir belə? – Birinci olaraq Seyidəhməd səsləndi. – Marallar! Hardan gəlib onlar?

– Nə çığırırsan, nə hay-küy salırsan? Maraldır da. Biz onları dünəndən görmüşük. – Orozqul saymazyana mırıldandı. – Hardan olacaqlar? Gəlmə olarlar hər halda.

– Pəh, pəh, pəh! – Yekəpər Kökötöy heyrətə gəldi və coşub onu boğan köynəyinin düyməsini açdı. – Necə də tumarlıdırlar, – o, heyran olmuşdu, – yeyib doyublar...

– Hələ anaya bir bax! Gör necə yeriyir, – gözlərini bərəldərək şofer onun sözünə qüvvət verdi. – Vallah, ikiyaşar ürgə boydadır. İlk dəfədir görürəm.

– O da buğasıdır! Buynuzuna bir bax! Onu necə gəzdirir! Özləri də heç nədən qorxmurlar. Orozqul, bunlar haradan belə gəliblər? – deyə sorğunu dərinləşdirən Kökötöyün donuz gözləri tamahla işıldadı.

– Görünür qoruqdandırlar, – Orozqul sahibkar amiranəliyi və ədayla cavab verdi. – Aşırımın o tayından gəliblər. Qorxmurlar? Hürküdən olmayıb, ona görə də qorxmurlar.

– Of, kaş bir tüfəng olaydı! – Seyidəhməd birdən gopladı. – İki sentner əti olar, hə?

İndiyədək kənarda qısılıb durmuş Mömün özünü saxlaya bilmədi:

– Sən nə danışırsan, Seyidəhməd? Onları ovlamaq qadağandır, – dedi astadan.

Orozqul qocaya tərs-tərs bir nəzər saldı. Nifrətlə ürəyindən keçirdi: "Sən mənim yanımda hələ bir səsini də çıxarırsan!" İstədi qocanı rüsvay eləsin, ancaq özünü saxladı, hər halda yad adamlar vardı.

– Boş-boş ağıl vermə bizə. – O, Mömünün üzünə baxmadan əsəbi halda dedi. – Bəsləndikləri yerdə qadağandır. Bizdə maral saxlanılmır.



Biz də onlar üçün cavabdeh deyilik. Qandın? – O, özünü itirmiş qocaya qəzəblə baxdı.

– Başa düşdüm. – Mömün itaətlə cavab verdi, başını aşağı salaraq kənara çəkildi.

Bu dəm nənə bir daha oğrun-oğrun onun qolundan dartdı, tənəylə pıçıldadı:

– Dilini dinməz saxlasana!

Hamısı xəcalətlə gözlərini döydü. Yenə də dik cığırlarla gedən heyvanların arxasınca baxmalı oldular. Marallar biri-birinin dalınca uçuruma sarı qalxırdılar. Qabaqda iri buynuzlarını şəstlə qaldıraraq boz buğa irəliləyir, ardınca gombul bala, bu təntənəli yürüşün axırında isə Buynuzlu ana maral gedirdi. Təmiz gil çöküntüsünün fonunda marallar apaydın, qənirsiz görünürdülər. Onların hər tərpənişi, hər addımı sezilirdi.

– Eh, gözəlliyə bir bax! – Fağır, dombagöz cavan şofer heyrətini gizlədə bilmədi. – Təəssüf ki, fotoaparatı götürməmişəm, yanımda olsaydı...

– Yaxşı, yaxşı, gözəllik, filan, – Orozqul narazı halda onun sözünü kəsdi. – Durmağın mənası yoxdur. Gözəlliklə qarın doymur. Gəl, maşını dal-dalı ver sahilə sarı, lap suyun içinə sal, bir az qıraqda dayansın. Sən isə, Seyidəhməd, ayağını soyun. – O, hakimiyyət sahibi olduğundan həzz alaraq sərəncam verdi. – Sən isə, – şoferi göstərib, – Haydı, burazı tirə bağla. Bir az əl tərpədin. Qabaqda iş çoxdur.

Seyidəhməd uzunboğaz çəkmələrini dartışdırırdı. Onlar ayağına dar idi.

– Niyə baxırsan, ona kömək elə, – nənə xəlvətcə qocanı dümsüklədi. – Soyun, özün gir suya. – Qəzəblə ona pıçıldadı.

Mömün baba cəld, Seyidəhmədin ayaqlarından çəkmələrini dartıb çıxartdı, özü də tez soyunmağa başladı. Bu zaman Orozqulla Kökötöy maşına komanda verirdilər:

– Bura ver, ver bura!

– Bir az sola, sola. Bax belə.

– Bir az da.

Marallar aşağıda qeyri-adi səs eşidib, yerişlərini yeyinlətdilər. Səksəkəylə boylanaraq, yarğanın qaşına çıxdılar və ağcaqayınlıqda gözdən itdilər.

– Ah, getdilər! – Kökötöy nəyi isə xatırlayıbmış kimi dilləndi. O, bunu elə heyfsilənə-heyfsilənə dedi ki, guya şikarı əlindən çıxmışdı.

– Zərər yoxdur, onlar heç yana gedə bilməzlər! – Orozqul onun fikrini anlayıb, məmnun halda öyündü. – Bu gün axşamacan səni buraxan yoxdur, qonağımsan. Allah özü yetirib. Ürəyin istəyənə səni qonaq edərəm. – Özü də şaqqanaq çəkib əlini dostunun çiyninə vurdu. Orozqul şənlənə də bilirdi.

– İndi ki, belədir, sən deyən olsun, sən ev sahibisən, mən qonaq, – yekəpər Kökötöy razılaşdı, güldü, sarı, qaban dişləri göründü.

Maşın sahildə hazır dayanmışdı, dal təkərləri yarıyacan suyun içindəydi. Dərinə getməyə şofer cəsarət eləməmişdi. İndi burazı çəkib tirin yanına aparmaq lazım idi. Əgər buraz çatsaydı, tiri sualtı daşların "əsirliyindən" qurtarmaq o qədər də çətin bir iş deyildi.

Polad buraz uzun və ağır idi. Onu suyun içiylə tirəcən çəkib aparmaq lazım idi. Şofer ayağını könülsüz soyunurdu, suya qorxa-qorxa baxırdı. O hələ qəti qərara gəlməmişdi: suya çəkməli girsin, yoxsa ayaqyalın. "Yaxşısı budur, ayaqyalın girim, – o fikirləşirdi. – Onsuz da su çəkmənin boğazından yuxarı olacaq. Necə də dərindir, qurşağa qədərdir. Sonra da bütün günü yaş ayaqqabıda gəz, görüm necə gəzəcəksən". O, həmçinin bunu da təsəvvürünə gətirdi ki, çayda bu vaxt su necə soyuq ola bilər. Mömün baba elə bundan istifadə edib dedi:

– Sən soyunma, oğlum, – onun yanına qaçdı. – Seyidəhmədlə mən gedərəm.

– Zəhmət çəkməyin, ağsaqqal, – çaşmış şofer etiraz etdi.

– Sən qonaqsan, biz yerli adamlarıq, sən sükanın arxasında otur. – Mömün baba onu yola gətirdi.

Polad burazın yumağının ortasına paya taxıb, suyun içiylə dartanda Seyidəhməd fəryad qopararaq söydü:

– Vay, vay, su deyil bu, buzdur, buzxanadır! Orozqulla Kökötöy gülür, onu ürəkləndirirdilər:

– Döz, döz! Səni qızışdırmağa bir şey taparıq! Mömün baba isə səsini çıxarmadı. Hətta suyun buz kimi olduğunu da hiss etmədi. O, gözə dəyməməkdən ötrü başını çiyninə qısıb, sürüşkən sualtı daşların üstü ilə gedirdi, Allaha yalvarırdı ki, bircə Orozqul onu geri qaytarmasın, adamların yanında söyməsin, mağmın, bədbəxt qocanı əfv eləsin...

Orozqul da heç nə demədi. O, elə bil Mömünün səylərini görmürdü, onu adam yerinə qoymurdu. Ürəyində isə şadlanırdı ki, onun üzünə qayıtmış qocanın arxasını yerə vurdu. "Bax, belə, – Orozqul öz-özünə xəbis-xəbis güldü: – İməklə, ayağıma belə düşərsən. Eh, heyf ki, mənim böyük bir vəzifəm yoxdur, bundan da böyüklərini qoyun kimi buynuzundan tutub fırladardım! Bundan da böyüklərini toz içində iməkləməyə məcbur edərdim. Mənə heç olmazsa bir kolxoz, sovxoz verəydilər. Qayda-qanun yaradardım. Camaatı özbaşına buraxıblar. İndi də özləri gileylənirlər: guya sədrə hörmət etmirlər, direktora hörmət etmirlər. Çoban çobanlığı ilə nəçəlniklərlə söz güləşdirir. Hakimiyyətə layiq olmayan sarsaqlar! Məgər onlarla belə rəftar eləmək olar? Vaxt var idi, başlar üzürdülər – cıqqırını çıxaran olmurdu. Bu, başqa məsələ! İndi nədir! Yaramazın ən yaramazı da ürək edib mənə söz qaytardı. Bax, belə sürün ayağım altda, iməklə", – bu fikirlə Orozqul hərdən Mömünə tərəf baxıb əməlli-başlı həzz alırdı.

O isə buzlu suyun içində büzüşmüş halda Seyidəhmədlə birlikdə burazı çəkir və təskinlik tapırdı ki, deyəsən, Orozqul onu bağışlayıb. "Sən gəl bu qocanı bağışla, bir işdir oldu, – o, xəyalən Orozqula müraciət edirdi. – Dünən səbrim çatmadı. Çaparaq nəvəmin dalınca məktəbə getdim. Uşaq kimsəsizdir axı, adamın yazığı gəlir. Bu gün isə o, məktəbə getməyib. Azarlayıb nədənsə. Unut, bağışla. Sən də mənə axı, özgə deyilsən. Elə bilirsən sənin və qızımın xoşbəxt olmağını istəmirəm? Əgər Allah övlad versə, mən sənin arvadının – mənim qızımın körpəsinin qığıltısını eşitsəm, qoy Allah elə yerimdəcə canımı alsın. Vallah, bəxtəvərlikdən ağlayaram. Bircə sən mənim qızımın xətrinə dəymə, bağışla məni. İşə gəldikdə isə, nə qədər ayağım yer tutur işləyəcəyəm. Hər işi özüm görəcəyəm. Sən deməkdə ol..."

Sahildə bir kənarda dayanan qarı işarələrlə, him-cimlə qocaya deyirdi: "Çalış, qoca! Görürsən, günahından keçdi. Necə deyirəm, elə də et, hər şey təhərinə düşər".

* * *

Oğlan yatmışdı. O, hardasa atılan tüfəng səsinə bircə dəfə oyandı. Sonra yenə yuxuladı. Xəstəlik və yuxusuzluq dünən onu elə haldan salmışdı ki, bu gün dərin, rahat yuxuya getmişdi. Özü də yuxuda hiss edirdi ki, qızdırmasız, titrətməsiz, elə belə uzanıb yatmağın ayrı ləzzəti varmış. Nənə ilə Bekey xala olmasaydı, o hələ çox yatardı. Onlar astadan danışmağa çalışırdılar, ancaq qab-qacaq şaqqıltısı oğlanı oyatdı.

– Al, bu böyük kasanı tut. Nimçəni də götür, – ön otaqda nənə həyəcanla pıçıldayırdı. – Mən də vedrəylə əleyi götürüm. Vay, belim

qırıldı! Əldən düşdüm. Nə qədər iş gördük. Amma, Allaha şükür olsun, elə sevinirəm ki...

– Eh, heç demə, mən də sevinirəm. Dünən Allahdan ölüm istəyirdim. Gülcamal olmasaydı özümə bir xəta yetirəcəkdim...

– Sən də danışmağa söz tapdın. – Nənə onu qandırmaq istədi. – İstiot götürdün? Gedək. Sizi barışdırmaq üçün Allah özü nemət göndərib. Gedək, gedək.

Evdən çıxanda kandarda Bekey xala nənədən oğlanı soruşdu:

– O indiyəcən yatır?

– Qoy hələ yatsın. – Nənə cavab verdi. – Hazır olanda, ona isti şorba gətirərik.

Oğlan bir daha yuxuya getmədi. Həyətdə ayaq tappıltısı, səs-küy eşidilirdi. Bekey xala gülürdü, Gülcamalla nənə də ona qoşulub gülüşürdülər. Qulağa yabançı səslər də dəyirdi. "Yəqin, gecə gələnlərdir, – oğlan bu qənaətə gəldi. – Deməli, hələ getməyiblər?" Təkcə Mömün babanın səsi gəlmirdi, o gözə dəymirdi. Hardadır? Başı nəyə qarışıb?

Bayırdan gələn səsləri dinləyərək, oğlan babanın intizarını çəkirdi. Dünən gördüyü marallar haqqında onunla danışmağı çox arzulayırdı. Axı tezliklə qış düşəcək. Onlar üçün gərək meşədə çoxlu ot qoyasan. Qoy yesinlər. Onları elə dadandırmaq lazımdır ki, adamdan qətiyyən qorxmasınlar, birbaşa çayı keçib buraya, həyətə gəlsinlər. Burada da ən çox xoşladıqları şeylərdən vermək lazımdır onlara. Qəribədir, görəsən onlar ən çox nəyi xoşlayırlar? Maral balasını dadamal öyrətmək lazımdır ki, hara getsən dalınca düşsün. Bu əntiqə olardı. Bəlkə, birlikdə lap məktəbə də gedərdik?..

Oğlan babanı gözləyirdi, o isə gəlib çıxmaq bilmirdi. Birdən Seyidəhməd gəldi. Nədənsə çox razı idi. Şən idi. Seyidəhməd səndələyir, öz-özünə gülürdü. O, yaxına gələndə, oğlanın burnuna spirt iyi dəydi. Oğlan bu iyrənc, kəskin qoxunu sevmirdi, bu qoxu Orozqulun heyvərəliyini, babanın və Bekey xalanın iztirablarını yada salırdı. Orozquldan fərqli olaraq, Seyidəhməd çox içəndə mülayimləşir, şənlənir və ziyansız səfehin biri olurdu. Hərçənd o ayıq olanda da bir ağıl sahibi deyildi. Belə vaxtlarda Mömün baba ilə onun arasında təxminən bu cür söhbət olurdu:

– Nə səfeh-səfeh gülürsən, Seyidəhməd? O zəhrimardan gillədib sən də havalanmısan?



– Ağsaqqal, mən səni çox istəyirəm! Doğma atam qədər.

– E-eh, sənin yaşında belə! Odur, başqaları maşın sürür, səninsə dilin topuq çalır. Sən yaşda olsaydım, heç olmazsa, indi traktor sürərdim.

– Ağsaqqal, orduda komandir dedi ki, mənim bu sahədə qabiliyyətim yoxdur. Ancaq mən piyadayam, piyadaçı əsgərəm, piyadasız isə iş keçməz...

– Piyada! Əsgər! Tənbəlin birisən. Arvadın isə... Allahın gözü yoxdur. Gülcamalı yüz sənin kimisinə dəyişmərəm.

– Elə ona görə də biz burdayıq, ağsaqqal... Mən də təkəm, onun da heç kəsi yoxdur.

– Eh, səninlə nə danışasan. Öküz kimisən, ağlın isə... – Mömün baba ümidsiz halda əlini yellətdi.

– Mu-u-u. – Seyidəhməd böyürərək onun arxasınca güldü. Sonra həyətin ortasında dayanıb, nə vaxtsa, haradasa eşitdiyi qəribə mahnısını oxudu:

Kürən dağdan enmişəm,
Altımda kürən ayğır.
Kürən tacir, qapını aç,
İçək biz kürən çaxır.

Qonur dağdan enmişəm,
Qonur öküz belində.
Qonur tacir, qapını aç –
Qonur badə əlində!..

Bu çərənləmək bitib-tükənməzdi, belə ki o, dağlardan dəvə, xoruz, siçan, tısbağa belində, qərəz – hərəkət eləyə bilən hər şeylə gələ bilərdi. Sərxoş Seyidəhməd oğlana ayıq olduğundan daha çox xoş gəlirdi.

Elə buna görə də Seyidəhməd kefli gələndə oğlan mehribancasına onun üzünə gülümsündü.

– Ha-ha! – Seyidəhməd təəccüblə dilləndi. – Mənə deyirdilər bəs sən naxoşsan. Hə. Amma sən xəstə-zad deyilsən. Niyə həyətdə oynamırsan? Belə olmaz... – O, oğlanın yatağına yıxıldı; spirt qoxusu, üstbaşından, əllərindən gələn çiy təzə ət iyinin biri-birinə qarışdığı boğanaq havayla oğlanı qamarlayır, öpürdü. Onun cod tükləri oğlanın yanaqlarını dalayırdı:

– Yaxşı, bəsdir, Seyidəhməd əmi, – oğlan xahiş elədi. – Babam hanı bəs, görməmisənmi onu?

– Sənin baban ordadır, nədi onun adı, – Seyidəhməd əllərini qeyri-müəyyən bir tərzdə havada oynatdı. – Biz onunla tiri sudan çıxarırdıq. Qızışmaq üçün bir az içdik. İndi o, nədir onun adı, ət bişirir. Sən dur. Geyin, gedək. Belə iş olar! Bu düz deyil. Biz hamımız ordayıq, sənsə burda tək.

– Babam durmağa icazə vermir.

– Yaxşı, qoy görək, əşi, icazə vermir. Gedək, baxarıq. Belə fürsət hər gün ələ düşmür. Bu gün kefdir. Qab da yağa batıb, qaşıq da, ağız-burun da. Qalx!

O, kefli-kefli oğlanı geyindirməyə başladı.

– Özüm geyinərəm, – başının çox pis gicəlləndiyini duyub, oğlan etiraz etmək istədi.

Ancaq sərxoş Seyidəhməd onu eşitmirdi. O elə bilirdi savab iş görür, özü də elə bir gündə oğlanı evdə tək qoyub gediblər, elə bir gündə ki, qab da yağ içində, qaşıq da yağ içindədir, ağız da yağ içində...

Qılçaları dolaşa-dolaşa oğlan Seyidəhmədin dalınca evdən çıxdı. Dağlarda hava küləkli, yarıbuludlu idi. Buludlar sürətlə bir tərəfdən başqa tərəfə köç edirdilər. Oğlan eyvana keçənə qədər, hava iki dəfə kəskin dəyişdi – gözqamaşdıran günəşli gün xoşagəlməz alaqaranlıqla əvəz olundu. Oğlan bunun sayəsində baş ağrısının şiddətləndiyini hiss elədi. Güclü külək ocağın tüstüsünü onun üzünə çırpdı. Gözü acışdı. Oğlan fikirləşdi ki: "Yoqin bu gün paltar yuyurlar". Çünki adətən çoxlu paltaryuma günlərində yekə, qulplu qara qazanda üç ev üçün şərikli su qızdırılanda həyətdə bu cür ocaq qalanardı. Təkbaşına heç kəs o qazanı yerdən qaldıra bilməzdi. Bekey xala ilə Gülcamal ikisi birlikdə qaldırdı onu.

Çoxlu paltar yuyulanda oğlanın xoşuna gəlirdi. Əvvəla, ona görə ki, açıq ocaqda odla oynamaq olurdu, evdəki kimi deyildi. İkincisi, yuyulmuş paltarı sərmək çox maraqlı idi. Ağ, göy, qırmızı paltarlar kəndirdən asılanda həyət bəzənirdi. Oğlan gizlincə kəndirdən asılan paltarlara yanaşır, yanaqlarını nəm parçaya sürtərək bundan həzz alırdı.

Bu dəfə həyətdə paltar-filan yox idi. Qazanın altını isə bərk qalamışdılar, ağzınacan iri ət parçaları ilə dolu qazan qaynayır, qalın buğ qalxırdı. Ət bişib hazır olmuşdu: ətin tamlı iyi, ocağın qoxusu adamın



burnunu qıcıqlandırır, ağzını sulandırırdı. Təzə qırmızı paltarını, təzə meşin çəkməsini geymiş, güllü şalını çiyninə atmış Bekey xala ocağın üstünə əyilib, qazandan qalxan köpüyü yığır, Mömün baba onun böyründə dizləri üstə çöküb, kösövləri ocağa itələyirdi.

– Bax, odur ey, babanı görürsən, – Seyidəhməd oğlana dedi. – Gedək.

Özü də:

Kürən dağdan enmişəm,
Altımda kürən ayğır...

– deyə mahnısını oxumağa təzəcə başlamışdı ki, bu dəmdə, başıqırxıq, əlində balta, köynəyinin qolları çirməkli Orozqul mərəkdən çıxdı.

– Sən harda batmısan? – O, qəzəblə Seyidəhmədin üstünə çığırdı. – Qonaq odun yarır, – o, odun yaran şoferə işarə eləyib dedi, – sənsə mahnı oxuyursan.

– Yaxşı, biz əvəz-əvəz olarıq. – Seyidəhməd şoferə tərəf yönələrək Orozqulu sakitləşdirdi. – Qardaş, özüm yararam.

Oğlan isə, ocağın yanında dizi üstə çökmüş babasına yaxşılaşdı. Arxadan ona yanaşdı.

– Baba, – dedi.

Baba eşitmədi.

– Baba, – oğlan təkrar edib babasının çiyninə toxundu. Qoca dönüb baxanda, oğlan təəccübləndi. Baba da kefli idi. Oğlan indiyəcən babasının azacıq da olsa içdiyini xatırlaya bilmədi. Əgər içsəydi, İssık göl qocalarının yasında içərdi, orada hamıya, hətta qadınlara da araq verirdilər. Baba elə-belə içsin – olan iş deyildi bu.

Qoca oğlana çox uzaq, qəribə, yabançı bir nəzər saldı. Onun sifəti alışıb-yanırdı, pörtmüşdü, nəvəsini tanıyandan sonra daha da allandı. Üzü qıpqırmızı qızardı və dərhal da ağardı. Baba tələsik ayağa qalxdı.

– Sənə nə olub? – O, kal səslə dillənib, nəvəsini qucaqladı. – Sənə nə olub, hə? Sənə nə olub? – Elə bil danışığını itirmişdi, bu sözlərdən savayı heç nə deyə bilmirdi.

Onun həyəcanı oğlana da keçdi, təşvişlə xəbər aldı: – Sən naxoşlamısan, baba?

– Yox, yox elə-belə, – Mömün baba söyləndi. – Sən get, bir az gəz. Mən isə burda odun-zad, nədi onun adı...

O, demək olar ki, nəvəsini başından elədi, özü də sanki bütün dünyadan üz döndərib, yenidən yönünü ocağa çevirdi. O, dizləri üstə çökmüşdü, ətrafla işi yoxdu, heç yana baxmırdı, fikri yalnız özündə və ocaqda idi. Nəvəsinin həyətə, odun yaran Seyidəhmədin yanına necə pərt getdiyini görmədi.

Oğlan babasına nə bəla üz verdiyini və həyətdə nələr olduğunu birdən-birə anlaya bilmədi. Yalnız mərəyə yaxınlaşanda, diqqətini tüklü tərəfi torpağa sərilmiş dərinin üstündəki bir yığın təzə, qırmızı ət cəlb etdi. Dərinin kənarlarından hələ də rəngi qaçmış qan sızırdı. Bir qədər aralıda, bağırsaq-qarın boşaldılan yerdə it mırıldayır, içalatı dartışdırırdı. Ət qalağının yanında qaya kimi, qarasifət, yekəpər bir yad adam bardaş qurub oturmuşdu. Bu, Kökötöy idi. Orozqulla birlikdə əti bıçaqla doğrayırdılar. Onlar tələsmədən, təmkinlə ələngə sümükləri, əti biri-birindən ayırır, yerə sərilmiş dərinin üstünə topa-topa yığırdılar.

Qara, yekəpər kişi əti iyləyərək batıq səslə belə deyirdi:

– Özgə ləzzəti var bunun! İyinə heç söz olmaz!

– Götür, götür, öz payının üstünə at, – Orozqul səxavətlə ona təklif edirdi. – Allah öz sürüsündən sənin gəlişin üçün göndərib. Belə qismət hər gün olmur!

Orozqulun bu əsnada nəfəsi tıncıxır, tez-tez ayağa qalxır, köpmüş qarnını sığallayırdı. Toxluq eləmişdi; həm də aydınca bilinirdi ki, bərk içib. Boğulurdu, fısıldayaraq hərdən başını qaldırırdı ki, nəfəs dərib dincini alsın. İnək yelini kimi ətli sifəti təkəbbürdən və toxluqdan işıldayırdı.

Oğlan mərəyin divarı dibində buynuzlu maral başı görəndə çaşdı, canına üşütmə düşdü. Kəsilmiş baş tozun içində idi, sızan qan laxtalanıb qaralmışdı. O, yol kənarına atılmış ağac kötüyünə bənzəyirdi. Başının yanına aşıqlıqdan kəsilmiş dırnaqlı dörd ayaq da atılmışdı.

Oğlan bu qorxunc mənzərəyə dəhşətlə baxırdı. Gözlərinə inanmırdı. Onun qabağındakı Buynuzlu ana maralın başı idi. O burdan qaçmaq istəyirdi, lakin ayaqları sözünə baxmırdı. O dayanıb, eybəcər hala salınmış bəyaz ana maralın ölü başına tamaşa edirdi. Bu, dünən hələ Buynuzlu ana maral idi, dünən o tayda dayanıb nəvazişlə, diqqətlə ona baxırdı; bu, xəyalən danışdığı, buynuzunda zınqırovlu sehrli beşik gətirməsinə and verdiyi maral idi. Bütün bunlar qəflətən bir yığın ət, soyulmuş dəri, kəsilmiş ayaqlar və tullanılmış baş olmuşdu.



O getməliydi, lakin yerində daş kimi donub qalmışdı və ağlına sığışdıra bilmirdi ki, bunlar necə olub, nə səbəbə görə olub. Əti doğrayan yekəpər qara kişi cəmdəkdən iti bıçaqla böyrəyi kəsib oğlana uzatdı:

– Ala, oğlan, közdə qızart, dadlı olur, – dedi.

Oğlan tərpənmədi.

– Al! – Orozqul əmr elədi.

Oğlan əlini necə uzatdığını hiss etmədi, indi o, Buynuzlu ana maralın, hələ istisi çəkilməyən zərif böyrəyini soyuq ovcunda sıxaraq, hərəkətsiz dayanmışdı. Orozqul isə bu zaman buynuzundan yapışıb, ağ maralın başını qaldırırdı.

– Gör necə də ağırdır! – Havada endirib-qaldırdı, sanbalını yoxladı. – Təkcə buynuzları nə qədər gələr.

O, başı yastısına kötüyün üstə qoyub baltanı götürdü, buynuzu kəllədən ayırmağa girişdi.

– Haydı, buynuzlar! – O, baltanın ağzını xırçıltı ilə buynuzun dibinə çaxaraq deyirdi. – Bu sənin babanın – Oğlana göz vurdu. – Öləndə qəbrinin üstünə qoyarıq. İndi bir ağzıgöyçək desin ki, biz ona hörmət eləmirik. Bundan artıq nə olasıydı! Belə bir buynuza görə lap elə bu gün də ölməyinə dəyər! – Baltanı tuşlayıb bərkdən güldü.

Buynuz isə ayrılmaq bilmirdi. Demə, onu kəsib qoparmaq o qədər də asan deyilmiş. Sərxoş Orozqul necə gəldi vururdu, bu da onu quduzlaşdırırdı. Baş sürüşüb kötüyün üstündən düşdü. Belə olduqda, Orozqul onu yerdə doğramağa başladı. Baş yerindən sıçrayıb kənara düşür, o isə əlində balta onun arxasınca gedirdi.

Oğlan diksinirdi, hər dəfə özündən asılı olmayaraq dal-dalı çəkilirdi, lakin buradan getməyə özünü məcbur edə bilmirdi. Vahiməli vaqiədəki kimi, elə bil müdhiş, anlaşılmaz bir qüvvə ayaqlarını yerə mıxlamışdı, o dayanıb heyrətlə baxırdı, baxırdı ki, Buynuzlu ana maralın şüşələşmiş, açıq gözü baltadan qoruna bilməyəcəkdi. Qorxudan qırpılmayacaq, qıyılmayacaqdı. Baş çoxdan toza, palçığa bulaşmışsa da, göz hələ təmiz qalmışdı və deyəsən ölüm onu haqlayanda olduğu kimi lal, donmuş heyrətlə dünyaya yenə tamaşa edirdi. Oğlan qorxurdu ki, birdən sərxoş Orozqul get-gedə lap özündən çıxır, qəzəblənirdi, baltanı necə gəldi endirirdi. Bilmirdi ağzı ilə vurur, yoxsa küpü ilə.

– Belə getsə, buynuzu sındırarsan. Mənə ver, – Seyidəhməd onun yanına gəldi.

Orozqul baltanı yellədə-yellədə xırıltılı səslə dedi:

– Çəkil! Özüm! Sən parçalaya bilməzsən.

– Özün bil. – Seyidəhməd evinə yollanaraq tüpürdü.

Həmin yekəpər, qara kişi də onun dalınca getdi. O, öz ət payını torbada sürüyüb aparırdı.

Orozqul isə bu vaxt sərxoş inadı ilə mərəyin yanında Buynuzlu ana maralın başını şaqqalayırdı. Elə zənn etmək olardı ki, o çoxdan hərlədiyi bir düşməndən intiqam alırdı.

– Ay səni, əclaf! – Ağzı köpüklənə-köpüklənə çəkməsi ilə elə təpikləyirdi ki, guya ölü baş onun dediklərini eşidə bilərdi. – Yox, yox, aldadırsan! – O, balta ilə dübarə başa hücum edirdi. – Sənin axırına çıxmasam, adımı dəyişərəm. Al gəldi! Al gəldi! – O, balta ilə başı xınc-xınc edirdi.

Kəllə çatlayıb dağılır, sümük qırıqları ətrafa sıçrayırdı. Balta qəflətən çəpəkisinə gözün üstə enəndə, oğlan qışqırdı. Pırtlamış gözün yerindən qara, qatı maye axdı. Öldü, göz yox oldu, yeri boş qaldı...

– Mən bundan da iri başları parçalayaram! Bundan da iri buynuzları qırıb tökərəm! – Orozqul bu günahsız başın üstünə vəhşi kiniylə, qəzəb və nifrətlə mırıldanırdı.

Nəhayət, o, kəlləni əmgəyindən və alnından parçalayıb yardı. Bu zaman o, baltanı atıb, hər iki əliylə buynuzdan yapışdı, ayağı ilə başı yerə basıb, buynuzu vəhşicəsinə burmağa başladı. Dartıb çıxardanda buynuz qopan kök kimi xartıldadı. Həmin bu buynuzda oğlanın andı ilə Buynuzlu ana maral Orozqul, Bekey xalaya sehrli beşik gətirəcəkdi...

Oğlanın halı pozuldu. O geri döndü, böyrəyi əlindən yerə saldı, yavaş-yavaş aralandı. O, camaatın gözü qabağında yıxılacağından, yaxud oradaca qusacağından çox qorxurdu. O, rəngi qaçmış alnını soyuq tər basmış halda ocağın yanından keçirdi. Ocaq çataçatda alışıb-yanırdı, onun üstündəki qazandan isti buğ çıxırdı, hamıya arxa çevirmiş bədbəxt Mömün baba əvvəlki kimi yönü ocağa tərəf oturmuşdu. Oğlan babasını narahat edəsi olmadı. O özünü tez yatağa çatdırmaq, uzanmaq, başını bürüyüb yatmaq istəyirdi. Heç nə görməmək, heç nə eşitməmək, unutmaq...

Rastına Bekey xala çıxdı. Arsız-arsız geyinib-kecinmişdi, lakin üz-gözündə Orozqul kötəklərinin göy, tünd-qırmızı nişanələri, qançır



bilinirdi; nəfəsi çiynindən çıxırdı, ancaq yersiz şənlənirdi, kalan ətlə əlaqədar bu gün bərk əl-ayağa düşmüşdü.

Oğlanı saxladı: – Sənə nə olub?

– Başım ağrıyır.

– Ay mənim canım-ciyərim, biçarəm, – deyib, birdən atəşin mərhəmətlə oğlanı öpüşlərə qərq etməyə başladı.

O da kefli idi. Ondan da iyrənc araq iyi gəlirdi.

– Uşağın başı ağrıyır, – mütəəssircəsinə deyindi. – Can, bala! yəqin yemək istəyirsən, hə?

– Yox, yemək istəmirəm, yatmaq istəyirəm.

– Onda gedək, gedək, yerini rahatlayım. Sən tək-tənha yatmayacaqsan ki. Axı hamı bizə toplaşır. Qonaqlar da, bizimkilər də. Ət də hazırdı. – Və oğlanı çəkib özüylə apardı.

Onlar yenə də ocağın yanından keçəndə Orozqul mərəyin dalından çıxdı, sifəti inək yelini kimi qızarıb şişmişdi. O, sındırdığı maral buynuzunu təşəxxüslə Mömün babanın yanına tulladı. Qoca yerində dikəldi.

Orozqul ona məhəl qoymadan su dolu vedrəni yerdən götürdü, başına qaldırıb üstünü islada-islada hortlatmağa başladı. Ağzını sudan çəkib:

– İndi ölə bilərsən, – dedi və yenidən vedrəyə yapışdırdı dodaqlarını.

Oğlan babasının kəkələdiyini eşitdi:

– Sağ ol, oğul, sağ ol. İndi ölmək də mənim üçün qorxulu deyil. Bəs necə, mənə hörmət-izzət göstərilir...

Oğlan bədənində zəiflik hiss elədi:

– Mən evə gedirəm, – dedi.

Bekey xala onu saymadı.

– Yox bir, tək-tənha qalacaqsan orda. – Az qala zorla dartıb onu öz evinə apardı. Küncdəki çarpayıda oğlana yer saldı.

Orozqulun evində hər şey yemək üçün hazır idi. Ət qaynadılmışdı, qovurulmuşdu, hər ehtiyat görülmüşdü. Bütün bunları can-dildən nənə ilə Gülcamal etmişdi. Bekey xala evlə həyətdəki ocaq arasında get-gəldə idi. "Kalan ət" xörəyini gözləyərək, Orozqulla yekəpər, qara Kökötöy güllü döşəkcənin üstündə uzanıb, yastığa dirsəklənərək yüngülcə çayla məzələnirdilər. Onlar bu ara nədənsə özlərini dartıb knyaz yerinə qoydular. Seyidəhməd onların piyalələrinə az-az çay süzürdü.

Oğlan isə əl-ayağı bağlı kimi narahat halda küncdə sakitcə uzanmışdı. O qalxıb getmək istəyirdi, ancaq qorxurdu, çarpayıdan düşən kimi qusa bilər. Elə buna görə də boğazına qalxan qəhər topasını əsəəsə içində saxlayırdı. Tərpənməkdən ehtiyat edirdi.

Az sonra arvadlar Seyidəhmədi həyətə çağırdılar. Və sonra o, qapıdan girdi, əlində tutduğu iri, emallı ləyəndə qalaqlanmış ət buğlanırdı. Hıqqana-hıqqana onu gətirib Orozqulla Kökötöyün qabağına qoydu. Bunun ardınca arvadlar ləziz yemək gətirdilər.

Hərə qalxıb təzədən özünə münasib yerdə oturdu, çəngəl-bıçağı, boşqabı hazırladı. Seyidəhməd isə bu vaxt stəkanlara araq süzürdü.

– Araq komandiri mən olacağam, – o, qaqqıldayıb, küncdəki şüşələrə işarə vurdu.

Hamıdan axırda Mömün baba gəldi. Həmişəkinə nisbətən qocanın bu gün həddindən artıq qəribə yazıq görkəmi vardı. O, küncdə birinin böyrünə qısılıb oturmaq istəyirdi ki, yekəpər, qara Kökötöy alicənablıq göstərib, onu öz yanına dəvət elədi.

– Bura keçin, ağsaqqal.

– Sağ ol. Biz burda, biz öz evimizdəyik, – Mömün baba boyun qaçırmaq istədi.

– Axı siz hamıdan yaşlısınız, – Kökötöy təkidlə onu Seyidəhmədlə özünün arasında otuzdurdu. – İçək, ağsaqqal, sizin bu uğurlu ovunuz münasibətiylə, birinci söz sizindir.

Mömün baba iztirabla boğazını arıtlayıb dedi:

– Mehribanlıq, sağlıq olsun bu evdə, harda mehribanlıq, sağlıq varsa, orada xoşbəxtlik də var, balalarım.

– Düzdür, düzdür! – Hamısı onun sözünü təsdiqləyib, stəkanı boğazına boşaltdı.

– Sən niyə elə? Yox, bu olmadı! Kürəkəninizə, qızınıza xoşbəxtlik arzulayırsınız, özünüz isə içmirsiniz, – Kökötöy çaşqın Mömün babanı məzəmmət elədi.

– Bir halda ki, xoşbəxtlik barədədir, onda mən niyə kənarda qalım, – deyə Mömün baba birdən tələsdi.

Hamını heyrətə gətirərək araqla dolu stəkanı başına çəkib boşaltdı, səsi çıxmadı, ixtiyar başını buladı.

– Bu başqa məsələ!

– Bizim qoca başqalarının tayı deyil!



– Afərin sizin qocaya!

Hamı güldü, hamı məmnun idi, hamı babanı tərifləyirdi.

Ev isti və boğanaq idi. Oğlan ağır iztirab içində uzanmışdı, ürəyi hey bulanırdı. O, gözünü yumub uzanmışdı, özü də keflənmiş adamların Buynuzlu ana maralın ətini yeyə-yeyə ağızlarını necə marçıldatdıqlarını, gəmirdiklərini, fısıldadıqlarını, biri-birilərinə dadlı tikələr təklif etdiklərini, yağlı stəkanları toqquşdurduqlarını, gəmirilmiş sümükləri qaba necə atdıqlarını aydınca eşidirdi.

– Lap cavan dayça ətidir ki var! – Kökötöy dodaqlarını yalayaraq tərifləyirdi.

Orozqul deyirdi:

– Bəs necə bilmişdiniz, biz axmağıq, nəyik, dağlarda yaşayaq, özümüz də belə ət yeməyək?

– Doğrudan da, bəs niyə yaşayırıq burada?! – Seyidəhməd yarınaraq onun sözünə qüvvət verdi.

Hamı Buynuzlu ana maralın ətini tərifləyirdi: nənə də, Bekey xala da, Gülcamal da, hətta Mömün baba da. Oğlana da pay çəkirdilər, boşqabda ət və başqa yeməklər gətirirdilər, ağzına tıxmaq istəyirdilər. Lakin o, yeməkdən boyun qaçırırdı və sərxoşlar naxoş olduğunu görüb, onu rahat buraxmışdılar.

Oğlan dişlərini kilidləyib uzanmışdı. Ona elə gəlirdi ki, qusmağın qabağını belə daha yaxşı kəsmək olar. Hər şeydən çox onu yandırıb-yaxan öz acizliyini dərk etməsi idi. Buynuzlu ana maralı öldürənlərə nə üçün heç nə edə bilmirdi. O, pak uşaq qəzəbinə qapılaraq ümidsiz halda intiqam yolları düşünüb tapırdı ki, onlara necə cəza verərdi, işlətdikləri dəhşətli cinayəti məcburən necə başa salardı. Lakin Qulubəyi xəyalən köməyə çağırmaqdan başqa ağlına yaxşı bir şey gətirə bilmədi. Bəli, tufanlı gecədə cavan şoferlərlə birlikdə ot aparmağa gələn həmin əsgər buşlatlı oğlanı – Qulubəyi çağırmalıydı. Bu oğlan onun tanıdıqları adamlar arasında yeganə şəxs idi ki, Orozqulun öhdəsindən gələ bilərdi, həqiqəti olduğu kimi onun gözünün içinə deyərdi.

...Oğlanın çağırışı ilə Qulubəy yük maşınını sürətlə sürüb gəldi, avtomatı çiynində kabinədən çıxdı.

– Haradadır onlar?

– Oradadırlar!

İkisi də Orozqulgilə sarı qaçdı, qapını yerindən qopartdılar.

Qulubəy kandarda dayanıb, avtomatı onlara tuşlayaraq qəzəblə əmr etdi:

– Yerinizdən tərpənməyin! Əllər yuxarı!

Hamı mat qaldı. Qorxudan oturduqları yerdəcə qurudular. Tikələri boğazlarından keçmədi. Yağlı əllərində iri sümük parçaları, ağız-burunları yağa batmış, tox, kefli adamlar yerlərindən heç qımıldana da bilmədilər.

– Haydı, əclaf, ayağa qalx! – Qulubəy avtomatı Orozqulun gicgahına dirədi, o isə əsə-əsə, dili topuq çala-çala Qulubəyin ayaqlarına yıxıldı.

– Rəhm elə, mə... əni öl... öldürmə! Qulubəy isə amansız idi.

– Çıx, əclaf! Sənin işin bitdi! – O, Orozqulun yumşaq yerinə bir təpik ilişdirdi, evdən çıxmağa məcbur etdi.

Otaqda qorxusundan səsini içinə çəkənlərin hamısı həyətə çıxdı.

– Üzünü divara çevir! – Qulubəy Orozqula əmr etdi. – Buynuzlu ana maralı öldürdüyünə, onun beşik gətirən buynuzunu kəsib qopardığına görə sən ölməlisən.

Orozqul toz içinə yıxıldı. Süründü, şivən saldı:

– Öldürməyin, axı mənim övladım da yoxdur. Dünyada tək-tənhayam. Nə oğlum var, nə qızım...

Onun təkəbbürü, iddiası necə olmuşdu! Vecsiz, miskin, qorxaq! Beləsini heç öldürməyinə dəyməz.

– Yaxşı, öldürməyək, – oğlan Qulubəyə dedi. – Onda qoy o rədd olub getsin və bir daha ayağı buralara dəyməsin. – Burada heç kəsə lazım deyil. Qoy rədd olsun.

Piylənmiş, şişman, torbalanıb sallanan qalifeli Orozqul geri baxmaqdan qorxaraq, götürülüb aradan çıxdı. Lakin Qulubəy onu saxladı:

– Dayan! Sənə son sözümüzü deyək. Sənin heç vaxt övladın olmayacaq. Sən xain və yaramaz adamsan. Burada səni heç kəs sevmir. Səni meşə sevmir, bir ağac, hətta bircə ot da sevmir səni. Sən faşistsən. Rədd ol, özü də biryolluq, haydı, tez!

Orozqul dalına baxmadan qaçdı.

– Şnel! Şnel! – Qulubəy onun ardınca gülürdü və qorxutmaq üçün avtomatdan havaya atəş açdı.

Oğlan sevinir, yerə-göyə sığmırdı. Orozqul gözdən itəndən sonra, qapının ağzında müqəssir kimi dayanan o birilərinə Qulubəy belə dedi:



– Siz bu cür adamla necə yola getmisiniz? Ayıb deyilmi?

Oğlan özündə bir yüngüllük hiss elədi. Haqq divanı qurulmuşdu. Həm də o, öz istək-arzusuna elə inandı ki, harda olduğunu, Orozqulun evinə camaatın nə münasibətlə yığışıb sərxoşluq etdiyini belə tamam unutdu.

...Şaqqanaq onu bu möcüzəli aləmindən ayırdı. Oğlan gözünü açıb dinmədi. Mömün baba otaqda yox idi. Yəqin hara isə çıxmışdı. Arvadlar qab-qacağı yığışdırırdılar. Çay verməyə hazırlaşırdılar. Seyidəhməd ucadan nə isə danışırdı. Oturanlar onun sözlərinə gülüşürdülər.

– Bəs sonra nə oldu?

– Danış!

– Yox, əyə, danış ey, başla, təzədən danış, – Orozqul gülməkdən uğunaraq, ondan xahiş edirdi. – O barədə ona nə dedin? Yaman qorxuzmusan. Vay, dədə!..

– Hə, deməli belə. – Seyidəhməd danışdığını həvəslə təkrar edəsi oldu. – Elə ki marallara yaxınlaşdıq, onlar meşə talasında cərgəylə dayanmışdılar, üçü də. Elə ki, biz atları ağaca bağladıq, birdən mənim bu qocam qolumdan yapışdı: "Marallara, – dedi, – güllə ata bilmərik. Biz buquyuq. Buynuzlu ana maralın övladlarıyıq!" Özü də uşaq kimi mənə baxır. Gözləri ilə yalvarır. Məni də gic gülmək tutub, dayana bilmirəm. Amma özümü saxlayıb gülmədim. Əksinə, bir az da ciddiləşdim. "Bura bax, – deyirəm, damlanmaq istəyirsən?" O dedi: – "Yox". "Sən bilirsənmi bunlar bay nağıllarıdır, cahil baylıq zamanəsində uydurulub; uydurublar ki, kasıb camaatı qorxuzalar!" Bunu dediyimi gördüm, kişinin ağzı açıla qaldı: "Ədə, nə danışırsan?" – dedi. "Elə bunu deyirəm, – sən bu söz-söhbəti qoy bir yana, qocalığına baxmaram, səndən hara lazımdır yazaram".

– Ha! Ha! Ha! – Oturanların hamısı bir ağızdan güldü. Hamıdan da çox Orozqul gülürdü. Özü də gülməkdən ayrı cür həzz alırdı.

– Hə, sonra biz oğrun-oğrun yaxınlaşırıq. Başqa heyvan olsaydı, çoxdan duyuq düşüb götürülərdi. Heç izinə-tozuna çatmazdıq, bu səfeh marallar isə qaçmırlar, elə bil heç bizdən qorxmurdular. Hə, lap yaxşı, deyirəm, – kefli Seyidəhməd lovğalanaraq nəql eləyirdi. – Əlimdə tüfəng mən qabaqda. Qoca da mənim dalımca. Birdən ürəyimə şübhə doldu. Ömrümdə heç sərçə də vurmamışdım. İndi isə belə bir iş. Güllə dəyməsə özlərini vuracaqlar meşəyə, di get, axtar.

Hünərin var, çat onlara. Geçəcəklər aşırımı. Kim belə şikarı əlindən buraxar? Bizim qoca isə ovçudur, vaxtı ilə ayı da ovlayarmış. Ona deyirəm: "Al tüfəngi, qoca, sən at". O isə heç cür yaxın durmur! "Özün at", – deyir. Mən də deyirəm ona: "Axı mən kefliyəm". – Özüm də guya ki, ayaq üstə dura bilmirəm, sendələyirəm. – Axı o, tiri çaydan çıxarandan sonra bizim bir şüşə araq boşaltdığımızı görmüşdü. Bəli, beləcə hiyləyə əl atdım.

– Ha, ha, ha!..

– "Mən vura bilməyəcəyəm, – deyirəm, – marallar baş götürüb gedəcək, ikinci dəfə qayıtmayacaqlar. Evə isə biz əliboş qayıda bilmərik. Özün bilirsən, bax ha. Bizi bura niyə göndəriblər?" Susur. Tüfəngi isə almır. "Yaxşı", – deyirəm, – özün bilərsən". Tüfəngi atıb aralanıram, guya gedirəm. O da ardımca gəlir. Deyirəm: "Mənim vecimə deyil. Orozqul məni qovsa, gedib sovxozda işləyərəm. Bəs sən bu qoca vaxtında hara gedəcəksən?" Susur. Özüm də dilxoşluq üçün rəsdən deyirəm:

Kürən, kürən dağlardan,
Kürən ayğır belində,
Kürən tacir, qapını aç!..

– Ha, ha, ha!..

– İnandı ki, mən həqiqətən sərxoşam. Tüfəngin ardınca getdi. Mən də qayıtdım, biz deyişdiyimiz zaman marallarımız bir qədər aralanmışdılar. "Hə, – deyirəm, – bax, gedəcəklər, çata bilməyəcəksən. Nə qədər ki, ürkməyiblər, vur". Qoca tüfəngi götürdü. Pusa-pusa yaxınlaşmağa başladıq. O isə hey səfeh-səfeh pıçıldayır: "Buynuzlu ana maral, günahımdan keç, bağışla məni..." Mən də ürəyimdəkiləri ona deyirəm: "Bax ha, vura bilməsən, qoşul marallara, çıx get buralardan, qayıtmasan daha yaxşı olar".

– Ha, ha, ha!..

Bu sərxoş, hırıltılı mühitdə, get-gedə istiləşən boğuq havada oğlan təngnəfəs olurdu. Şişib-çoxalan, beyninə sığışmayan şiddətli ağrı başını partladırdı. Sanki kim isə onun başını təpikləyirdi, kim isə onun başını baltalayırdı. Ona elə gəlirdi ki, kim isə baltanı onun gözlərinə tuşlayıb. O da başını yırğalayır ki, yan keçsin. Qızdırma əhədini



kəsdiyi bir halda, o qəflətən özünü soyuq-soyuq bir çayın içində hiss elədi. O, balığa döndü. Quyruğu, bədəni, üzgəcləri – hamısı balığınkı kimiydi; ancaq başı özününküydü, üstəlik ağrıyırdı da. O, səssiz-səmirsiz, tutqun sualtı sərinliyə baş vurub üzürdü, özü də düşünürdü ki, daha bundan sonra həmişəlik balıq olaraq qalacaq, bir də dağlara qayıtmayacaq. "Qayıtmaram, – o, öz-özünə deyirdi. – Balıq olmaq daha yaxşıdır, balıq olmaq daha yaxşıdır".

Bu ara oğlanın çarpayıdan düşüb, evdən necə çıxdığını heç kəs sezmədi. O, tinə çatar-çatmaz, qusmağa başladı. Oğlan divardan yapışaraq, inildədi, ağladı və göz yaşları içində hönkürməkdən boğula-boğula öz-özünə danışdı:

– Yox, balıq olsam yaxşıdır. Mən üzüb buradan gedəcəyəm. Mən balıq olsam yaxşıdır.

Pəncərənin o tərəfində, Orozqulun evində isə qaqqıldaşır, sərxoş səslə ucadan qışqırırdılar. Bu yabançı gülüşlər oğlanın qulağını dəng eləyir, ona dözülməz əzab və işgəncə verirdi. Ona elə gəlirdi ki, bu əcaib hırıltılara görə özünü pis hiss eləyir. O özünü toxtadıb həyət boyu getdi. Həyət boş idi. Sönmüş ocağın yanında huşsuz, sərxoş Mömün babasına rast gəldi. Qoca, Buynuzlu ana maralın qoparılmış buynuzunun yanındaca tozluğa uzanmışdı. Maralın kəllə sümüyünün bir parçasını it gəmirməkdə idi. Özgə heç kəs yoxdu.

Oğlan babasının üzərinə əyildi, çiynindən tutub silkələdi:

– Baba, gedək evə, – dedi. – Gedək.

Qoca cavab vermirdi, o heç nə eşitmirdi, başını qaldıra bilmirdi. Bir də axı, cavab verib nə deyəydi?

– Dursana, baba, dur, dur, gedək evə, – oğlan xahiş edirdi.

Kim bilir, o, uşaq ağlı ilə dərk edirdimi, yaxud da heç oralıq deyildi ki, qoca Mömün burda uzanıb, özünün Buynuzlu ana maralı haqqındakı hekayətinin cəzasını çəkir və ömrü boyu ona aşıladığı müqəddəsliyə – əcdadlarının xatirəsinə, öz vicdanına, tövsiyələrinə öz iradəsi ilə yox, talesiz bədbəxt qızının, bir də nəvəsinin xətrinə qəsd etmişdi...

İndi dərddən, rüsvayçılıqdan zəlil olmuş qoca, meyit kimi üzüqoylu uzanmışdı, oğlana hay vermirdi.

– Baba, barı başını qaldır, – o xahiş edirdi. Oğlanın rəngi qaçmışdı, hərəkətləri zəif idi, əlləri, dodaqları titrəyirdi. – Baba, mənəm ey.

Eşidirsən? – Deyirdi. – Halım çox pisdir, – o ağladı. – Başım ağrıyır, yaman ağrıyır.

Qoca inildədi, tərpəndi, amma özünə gələ bilmədi.

– Baba, Qulubəy gələcəkmi, hə? – Birdən oğlan göz yaşları içində soruşdu. – De görüm, Qulubəy gələcəkmi? – O, qocanı dartışdırırdı.

Oğlan babanı böyrü üstə çevrilməyə vadar etdi və sərxoş qocanın palçığa, toza bələnmiş sifətini, pırtlaşıq miskin saqqalını görcək diksindi, bir az əvvəl ağ maralın Orozqul baltasıyla parçalanan buynuzlu başı gözü önündə canlandı. Oğlan qorxudan kənara sıçradı və babasından aralanaraq dedi:

– Mən balıq olacam. Eşidirsən, baba, mən üzüb gedəcəm. Qulubəy gələndə ona de ki, mən balığa döndüm.

Qoca cavab vermədi.

Oğlan aralandı. Çayın sahilinə endi. Birbaşa suya girdi...

Hələ heç kəs bilmirdi ki, oğlan balıq oldu, çay boyu üzüb getdi.

Həyətdə isə sərxoş mahnısı havalanırdı:

Qozbel dağlardan endim,
Qozbel dəvə belində.
Qozbel tacir, qapını aç,
Acı badə əlində!..

Sən üzüb getdin. Qulubəyi gözləmədin. Heyf, çox heyf, çox heyf ki, gözləmədin Qulubəyi. Niyə qaçıb yola çıxmadın? Əgər sən yolla xeyli qaçsaydın, hökmən onunla rastlaşardın. Sən onun maşınını uzaqdan tanıyardın. Sən əlini qaldıran kimi o dərhal saxlayacaqdı.

Qulubəy soruşardı: – Hara gedirsən?

Sən cavab verərdin: – Sənin yanına!

O səni kabinəyə qaldırardı. Birlikdə gedərdiniz. Sən, bir də Qulubəy. Qabaqda isə heç kəsin gözünə görünməyən Buynuzlu ana maral səkərdi. Amma sən onu görərdin.

Fəqət, sən üzüb getdin. Bilirdinmi ki, heç vaxt balıq olmayacaqsan. İssık gölə qədər də üzüb getməyəcəksən, ağ gəmini də görməyəcəksən və ona deməyəcəksən: "Salam, ağ gəmi, mənəm ey!"

İndi mən yalnız bunu deyə bilərəm: uşaq qəlbinin barışa bilmədiklərini sən rədd etdin. Təsəllim də elə budur. Sən şimşək kimi



yaşadın – bircə dəfə çaxdın və söndün. Şimşəyi çaxdıran göydür. Göy isə əbədidir. Bu da mənim təsəllimdir.

Bir də təsəllim budur ki, insanda uşaq vicdanı – toxumun rüşeymi kimidir, rüşeymsiz dən cücərməz.

Bizi dünyada nələr gözləyir gözləsin, necə ki, insan oğlu doğulur və ölür, haqq əbədi olaraq yaşayacaqdır...

Səninlə vidalaşıram, ayrılıq dəmi sənin öz sözlərini təkrar edirəm, ay oğlan: "Salam, ağ gəmi, mənəm ey!"

## MÜNDƏRİCAT

Ön söz ........................................4

Gün var əsrə bərabər (*tərcümə edəni İshaq İbrahimov*) .......18

Dəniz kənarıyla qaçan Alabaş (*tərcümə edəni Xeyrulla Əliyev*) .309

Ağ gəmi (*tərcümə edəni Camil Əlibəyov*) .................391

ÇİNGİZ AYTMATOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

I CİLD

"ÖNDƏR NƏŞRİYYAT"

BAKI-2004

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəşad Həmidov* |
| Korrektor: | *Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 12.07.2004. Çapa imzalanmışdır 15.11.2004.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 31,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 206.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.